AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 5

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d., prof. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli, fil.ü.f.d. Elxan Yusifov

Buraxılışa məsul: filologiya üzrə elmlər doktoru Paşa Kərimov
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, № 5.

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2013

www.filologiyameseleleri.com

Проф. СЕВИНДЖ МАГЕРРАМОВА

ТЕРМИНЫ БРАЧНОГО РОДСТВА В РУССКИХ И АЗЕРБАЙДЖАНСКИХ ПОСЛОВИЦАХ И ПОГОВОРКАХ

Açar sözləri: atalar sözləri, zərbi-məsəllər, nigah terminləri, qaynana, qaynata, gəlin, kürəkən, baldız, yeznə

Key words: proverbs, sayings, terms of marriage relationship, mother-in-law, father-in-law, daughter-in-law, son-in-law, sister-in-law, brother-in-law

Ключевые слова: пословицы, поговорки, термины брачного родства, свекровь, свекор, невестка, зять, золовка.

Известно, что термины родства находятся в тесной зависимости от общественного уклада жизни того или иного народа. Терминология родства относится к наиболее архаическим пластам лексики. Названия, отражающие родственные отношения, бесспорно, входят в основной словарный фонд каждого языка, в том числе и русского и азербайджанского языков. Д.Н.Шмелев, говоря о терминах родства в славянских языках, отмечает, что «значительная часть общеславянского фонда лексики имеет соответствия и в других индоевропейских языках, что указывает на её существование в ещё более древний период, в эпоху родоплеменного строя. Многие слова, связанные с обозначением родственных отношений (так называемые «термины родства» и «термины свойства»), восходят к периоду индоевропейского языка, что подтверждается наличием общих корней у этих (как и ряда других) слов в языках, которые относятся к индоевропейской группе» [4, 236].

Как показали наши наблюдения, и в русском, и в азербайджанской языке есть значительное количество пословиц и поговорок, в состав которых входят термины родства – как кровного, так и брачного.

Пословицы и поговорки, по праву считающиеся «зеркалом нации», играют особую роль в создании языковой картины мира. Они тесно связаны с фоновыми знаниями носителей языка, с практическим опытом личности, культурно-историческими традициями народа, говорящего на данном языке. Своим содержанием пословицы и поговорки направлены на характеристику человека и его деятельности. Основным признаком языковой картины мира, создаваемой пословицами и поговорками, является ее антропоцентричность. Как верно отмечает Э.Ч.Йонаш, «Картина (модель) мира, как основа жизнедеятельности человека, формируется в процессе социализации и представляет собой систему знаний, образов и представлений о мире; она определяет жизненные принципы людей и их ценностные ориентации, задает нормы поведения… Языковая картина мира понимается как определенный способ восприятия и отражения действительности, единая система взглядов, коллективная

философия, обязательная для всех носителей языка и отраженная при помощи языковых средств» [2, 83].

Концепты о менталитете народа отражаются в его пословицах, поговорках. Базовое стереотипное ядро знаний, или когнитивная база народа, образуется из индивидуальных концепторов как из некоторых их частей, в разной мере присвоенная всеми членами лингвокультурного сообщества. Концептосферы русского и азербайджанского менталитетов, отраженные в пословицах и поговорках, можно считать индивидуальными концептосферами. Профессор И.Гамидов, говоря о глубокой философии пословиц и поговорок, характеризует их следующим образом: «Пословицы и поговорки как малые художественные формы своим значением и могуществом мысли равны художественному произведению, где конкретная картина мира предстает в своей обобщенно-философской интерпретации» [1, 371]. Поэтому исследование пословиц и поговорок в каком бы то ни было аспекте представляет большой лингвокультурологический интерес.

Рассмотрим конкретные примеры русских и азербайджанских пословиц и поговорок, в состав которых входят термины брачного родства: *свекровь, свёкр, тёща, тесть – qaynata, qaynana; золовка – baldız; деверь – yeznə; шурин – qayın; зять – kürəkən; невестка / сноха – gəlin*.

в русском языке:

1. свекровь

Блудливая свекровь и невестке не верит; Долгозубую свекровь надо маменькой звать; Свекровь кошку бьёт, а невестке наветки даёт; Кому свекровь – свекровушка, а кому и свекровища; Свекровь злится, что невестка веселится; От свекровушкиной ласки слезами захлебнешься; У лихой свекрови и сзади глаза; Чужая сторонка без ветра сушит, свекровь – матушка без петли мучит; Журлива, что свекровь; Сноха во двор, а свекровь за стол; Недолго невестка протянет, если свекровь ее хвалит; Добрая свекровь – вторая мать для невесты; Свекровь – всем кровь; Удивительное явление, когда меж невесткой и свекровью разумение; Свекор – гроза, а свекровь выест глаза; Богородица Покров – дай мне смирную свекровь; Свекровь на печи, что собака на цепи; Свекор батюшка – застоюшка, свекровь матушка – заборонушка; Злится на свекровь, а бьёт собаку; Когда умерла свекровь, я сразу стала хозяйкой на женской половине; Люб, что свекровин кулак; Пнуть собаку в бок, разозлившись на свекровь; Помнит свекровь свою молодость и снохе не верит; Сноха свекрови – битая полоса; Хата чужая что свекровь лихая; Чужая изба – словно злая свекровь; Это свекровина гроза; Свекровь дочку бранит – невестке науку даёт; Свекровь снохе говорила: невестушка, полно молото, отдохни – потолки.

Как видно, в русских пословицах и поговорках содержится негативная оценка свекрови, ее отношения к невестке. В пословицах и поговорках с компонентом *свекровь* фигурируют и другие термины родства: свекор, сноха / невестка, дочка.

2. свекор

В лихом свекре правды нет; Первая зазнобушка – свёкор да свекровушка, другая зазнобушка – деверь да золовушка; Батюшкой назвать не хочется, свекром назвать – рассердится; Не женись для тещи, не выдавай для свекра;

Сношенка у свекра – госпоженка; Свекор – гроза, а свекровь выест глаза; Свекор батюшка – застоюшка, свекровь матушка – заборонушка.

Как видно, пословиц с компонентом *свекор* меньше, чем с компонентом *свекровь*.

3. теща:

Зятнин брат теще сват; У тещи для зятя и ступа доит; Зять да сват у тещи первые гости; У тещи карманы тощи; У хорошей тещи зять не будет тощим; У тещи – света все для зятя припето; Смолоду меня теща зятем звала, а взрастя дочь за иного отдала; Думала теща – пятерым не съесть, а зять – то сел да за присест съел; Зять говорит с тещей до вечера, а послушать нечего; Став тещей, нужно знать, что не любит зять; Жена для совета, теща для привета, а нет милей родной матушки; Один дуб – это дуб, сто дубов – это роща, один черт – это черт, сто чертей – это теща; В прощеный день зять у тещи гостит; Был у тещи, да рад утекши; Не жалей тещина добра – колупай масло шилом; Теща пышна, а против зятя не вышла; Как у тещи зять в гостях – за семь верст заезжают, как у свояка свояк в гостях – за семь верст объезжают; Поев пироги – тещу в кукаки; Не жени сына на теще, не отдавай дочери за свекра; Теща зятя ублажает не для зятя – собаки, а для родного дитяти; Теща зятю голову маслит; Теща ласкова, печет блины маслены.

Как видно из примеров, во многих пословицах с компонентом тёща фигурирует и компонент *зять*.

4. тесть

Тесть как ни вертись, а за зятька поплатись; Тесть за затя рубль давал, а после давал и полтора, чтобы свели со двора; Бедному зятю и тесть не рад; У тестя в руках не приданое; Что мне тесть, коли нечего есть; Зять любит взять, тесть любит честь, а шурин глаза щурит; Сынок – свой горбок; зятек – покупной щеголек, теща хлопочет, тесть кропочет; Выпивши пиво – да тестя в рыло.

5. зять

Для тёщи – света для зятя приспето; Зятёк едет – на похмелье зовет; У тещи – света для зятя приспех; Не для зятя – собаки, для милого дитяти; Ныне зять подмаз съел, а завтра и всю сковороду; Ни в сыворотке сметаны, ни в зяте племени; С сыном бранись – на печь ложись, с зятем бранись – за скобу берись; У наших зятей много затей; Бери зятя в дом, неси Бога вон! Зять в дом – иконы вон; Прими зятя в дом, а сам убирайся вон; Нет черта в доме – прими зятя; Не зять бы был, не чертом бы / не собакой слыл; Не зять бы был, кабы на сырной тёщу не навестил; Бедному зятю и тесть не рад; Зять по дочке помилеет, а сын по невестке опостылеет; Зять мил по дочери, а сын постыл по невестке; Зять любит взять; Зять да шурин – черт их судит; Зятнин брат тёще сват; Зять на двор – пирог на стол; Не будь дочери, не бывал бы у зятя; Пожалуйста зятёк, съешь пирожок.

6. невестка / сноха

Все в семье спят, а невестке молоть велят; Где много невесток, там борщ пересоленный; Грома много – небо сухое, невесток много – никто обед не готовит; Кошку бьют, а невестки наветки дают / а невестка гляди да казнись; Невестке в отместку; Пусть бы невестка и дура, только бы огонь пораньше дула; Смалчивай, невестка, – сарафан куплю; Села, невестка, прясть, берегите,

деверья, глаз; Мы не в лиху сноху: что Бог подаст, то и людям; Сношенка у свекра госпоженка; Не в большую сноху; Дочка, тебе говорю, а ты, невестка, слушай; Сноха во двор, а свекровь за стол; Сноха свекрови – битая полоса; Говорят про кошку, а изветки дают сношке.

Слова *невестка* и *сноха* является синонимами, однако в пословицах и поговорках, как видно из вышерассмотренных примеров, в основном употребляется слово *невестка*.

7. шурин – *(брат жены)*

Шурин по зяте не наследник; Зять да шурин – чёрт их судит; Тесть любит честь, зять любит взять, а шурин глаза щурит; Шуринов племенник как зятю родня.

Пословиц и поговорок с компонентом *шурин* очень мало.

8 деверь – *(брат мужа)*

Деверь невестке обычный друг; Деверья впереди, что борзые кобели; Села невестка прясть, берегите, деверья, глаз; Нет нужды невестке, что деверь не ел: хоть ешь, хоть сохни, хоть так издохни; Деверья говорят: нам неткаху ведут, золовки говорят: нам непряху ведут; Свекровь хлопотница, золовка смутьянка, деверь насмешник; Лучше сорок деверей, чем одна золовка; Первая зазнобушка – свёкор да свекровушка, вторая зазнобушка – деверь да золовушка.

9. золовка

Золовка – зловка; Золовка – колотовка; Золовка – мутовка; Золовки – колотовки, побей головки; Золовка – змеиная / гадючья головка; Золовка хитра на уловки; Свёкор – драчлив, свекровь – ворчлива, деверья – журливы, золовки мутливы; Каковы золовки, таковы и невестки; Золовка хуже свекрови; Золовушкины речи репьем стоят; Лучше деверя четыре, чем одна золовушка.

Как видно, в русских пословицах и поговорках с терминами брачного родства в основном содержится негативная характеристика отношений между свекровью и невесткой, тёщей и зятем, золовкой и невесткой. Наибольшее количество пословиц и поговорок с компонентами: *свекровь, тёща, зять, невестка.* С компонентами *свёкор, тесть, шурин, деверь, золовка* пословиц и поговорок значительно меньше.

В азербайджанском языке

1. Qaynana

Qayınana, məgər gəlin olmamısan?!; Qayınanalı gəlinin dilinin altında fənd (qənd) gərək; Qayınanan səni istəyir; Ata evində – ögey ana, ər evində - qayınana.

2. Gəlin

Gəlin anasına həm ağlar, həm də «gedirəm» deyər; Gəlin gəlin olmaz, düşdüyü yer gəlin olar; Gəlin gərdəkdə, uşaq bələkdə tərbiyə olunar; Gəlin ocağa çəkər; Gəlin oynaya bilməyəndə deyər: yerim dardır; Gəlinliyim, qızlığım - darayı tuman dizliyim; Qızım, sənə deyirəm, gəlinim, sən eşit; Ördək qaz olmaz, gəlin (qaynanaya) qız olmaz.

3. Kürəkən

Kürəkən imam kimi gələr, sonra yezidə dönər.

4. Baldız.

Baldız – çuvaldız: hərdən gələr, sancar gedər.

Как видно, в азербайджанском языке пословиц и поговорок с терминами

брачного родства значительно меньше, чем в русском языке. В русском языке в пословицах и поговорках встречаются все термины брачного родства, в азербайджанском же языке только *qaynana, gəlin, kürəkən, baldız*. Кроме того, в русском языке есть также пословицы и поговорки со словами *сват* и *сватья* (в азербайджанском языке - **qudalar**), *свояки* (в азербайджанском языке – bacanaqlar): Свояки до дележа братья; И сват свату друг, да не вдруг; Поколе пьем вместе, так и сваты, а напились – и разошлись; Попрекает свояк свояку: кто первый задумал жениться; Два свояка, а промеж их собака; Сват не сват, был бы добрый человек; Сват, не сват, а в горох не лезь / а денежки не родня!; Сватьев – не оберешься, свояков – не отберешься, а женского кумовства до Москвы не перевешаешь; Свояк свояку подарил мертвую собаку: что же, свояк, собака твоя не лает? – Оттого, свояк, что тебя крепко знает; У свата по свате не болит голова; Родные сваты, пока сватаются; Сват не брат; Любит сваток, как приданого угол; Бедный сват – незваный гость: что застанет, то и съест; Для богатого свата настежь дом; Сват с правдой не ездит.

Таким образом, как видно из вышерассмотренных примеров, основу содержания пословиц и поговорок составляет объективная природа отношения человека к миру. Объективность смысла пословиц и поговорок выражена в становлении некогда субъективного, индивидуального выражения социальным, общепринятым мерилом оценки той или иной картины действительности. Философская сила пословиц и поговорок – в их способности обобщать, концептуализировать конкретные факты, явления повседневной картины действительности, и их изучение представляет большой интерес со многих точек зрения.

Список использованной литературы
на русском языке:

1. Гамидов И.Г. Философия грамматики афоризмов и пословиц. Баку, 2001.
2. Йонаш Э.Ч. Когнитивное пространство русского менталитета как компонент межкультурной коммуникации //Вестник Современный русский язык: функционирование и проблема преподавания. – Будапешт, 2009, №23.
3. Пермяков Г.Л. Основы структурной паремиологии. М., 1988.
4. Шмелев Д.Н. Современный русский язык. Лексика. М., 1977.

на азербайджанском языке:

5. Əlizadə Z. Azərbaycan atalar sözlərinin həyatı. Bakı, 1985.
6. Xalqımızın deyimləri və duyumları (tərtib edəni: M.İ.Həkimov). Bakı, 1986.
7. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008.

Словари

8. Зимин В.И., Спирин А.С. Пословицы и поговорки русского народа. Большой толковый словарь. Изд. 2-ое. Москва, Ростов-на-Дону, 2005.
9. Azərbaycanca-Rusca, Rusca-Azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti (tərtib edənlər: İ.Həmidov, B.Axundov, L.Həmidova). Bakı, 2009.

S.A.Məhərrəmova

Rus və Azərbaycan atalar sözlərində və
zərbi-məsəllərdə nigah terminləri
Xülasə

Məqalədə rus və Azərbaycan atalar sözlərinin və zərbi-məsəllərin tərkibində olan nigah terminləri qruplaşdırılır və şərh olunur (qayınana, qayınata, gəlin, kürəkən, baldız, yeznə, kürəkən, quda). Rus atalar sözlərində və zərbi-məsəllərdə ən çox işlənən terminlər qaynana, kürəkən və gəlindir. Azərbaycan dilində tərkibində nigah terminləri olan atalar sözləri və zərbi-məsəllər rus dilinə nisbətən azlıq təşkil edir.

S.A.Maharramova

The terms of marriage relationship in russian and
Azerbaijanian proverbs and sayings
Summary

The article deals with the terms of marriage relationship in Russian and Azerbaijanian proverbs and sayings. Such terms as mother – in-law, father-in-law, daughter-in-law, son-in-law, sister-in-law, brother-in-law are grouped and analyzed.

The most used terms in Russian proverbs and sayings are mother-in-law, son-in-law and daughter-in-law. It is emphasized that there are more such proverbs and sayings in the Russian language than in the Azerbaijanian language.

Rəyçi: Professor L.Quliyeva

LAURA ZƏRBƏLİYEVA
ADU
laurazarbaliyeva@yahoo.com

MÜASİR İNDONEZİYADA ETNOLİNQVİSTİK ŞƏRAİT

Açar sözlər: İndoneziya etnosları, İndoneziya dilləri, etnolinqvistik şərait
Key words: Indonesian ethnoses, Indonesian languages, ethnolinguistic situation
Ключевые слова: индонезийские этносы, индонезийские языки, этнолингвис-тическая ситуация

1. Giriş

Bu və ya digər ölkədə etnolinqvistik şərait orada etnosların sayı və onların dillərinin ərazi üzrə paylanmasıdır. Etnolinqvistik şəraitin komponentlərini yalnız etnik icmalara mənsub dillər təşkil edir [1, s.9]. Təxminən 1128 etnik qrupun yaşadığı və 546 dilin istifadə edildiyi İndoneziyada etnolinqvistik şərait xüsusi maraq doğurur.

İndoneziyada milli-etnik və linqvistik şəraiti araşdıraraq bu ölkənin etnolinqvistik mənzərəsini müəyyənləşdirmək üçün əvvəlcə onun coğrafi mövqeyi, demoqrafik vəziyyəti haqqında ümumi təsəvvür yaratmaq doğru olardı. Bu məqalədə də məhz belə bir ardıcıllıq gözlənmişdir.

2. İndoneziyanın coğrafi mövqeyi və demoqrafiyası

Asiya və Avstraliya qitələri və Hind və Sakit okeanları arasında yerləşən, ekvator xətti boyunca uzanan, dünyada sahəsinə görə 16-cı, əhalisinin sayına görə dördüncü yeri tutan İndoneziya Cənub-Şərqi Asiyanın ən boyük dövlətlərindən biridir. İndoneziya ərazisi Kalimantan adasının şimal-qərb hissəsi istisna olunmaqla, Malay arxipelaqının, demək olar ki, bütün ərazisini və Yeni Qvineya adasının qərb hissəsini əhatə edir.

İndoneziyanın müxtəlif ərazilərində əhalinin sıxlığı kəskin şəkildə fərqlənir. 2010-cu ilin statistik məlumatlarına görə [13], sayı 237 556 363 nəfərə çatmış əhalinin 58 faizi Yavada, 21 faizi Sumatrada, 7 faizi Sulavesidə, 6 faizi Kalimantanda, 6 faizi Bali və Nusa Tenqqarada, 3 faizi isə Papua və Malukuda yaşayır. İndoneziyada əhalinin sıxlığı orta hesabla 1 kv.km.-ə 124 nəfərdir. Cakarta Xüsusi İndoneziya Əyalətində 1 kv.km.-ə 14 440 nəfər düşdüyü halda, Qərbi Papua Əyalətində bu göstərici 1 kv.km.-ə 8 nəfərdir. Ölkə ərazisinin quru sahəsinin yalnız 6,9 faizini təşkil edən Yavada [9] əhalinin 60 faizinin cəmləşməsi əhalinin ərazi üzrə nə qədər qeyri-mütənasib bölündüyünü göstərir.

Yava əhalisinin getdikcə artması ölkəni, xüsusilə də böyük şəhərləri nəqliyyat, evlə təminat, təhsil, səhiyyə, işlə təminat və cinayətkarlıq kimi problemlərlə üzüzə qoyduğundan hökumət transmiqrasiya və ailə planlaşdırılması proqramlarını tətbiq etməyə çalışır [3, s.86]. Yava əhalisinin digər adalara köçürülməsi əslində hələ holland müstəmləkəsi zamanından həyata keçirilməyə başlanmışdır. XIX əsrin 80-ci illərində isə Kalimantan və Qərbi İrianda (indi Qərbi Papua) əhalinin artırılmasına müəyyən səylər göstərilmişdir [4, s.9].

3. İndoneziyada milli-etnik şərait

33 əyalətdən ibarət olan İndoneziyanın [8, s.43] inzibati-ərazi bölgüsündə etnik ərazilərin sərhədləri nəzərə alınmadığından müxtəlif etnosların nümayəndələri ayrı-ayrı əyalətlərin ərazi strukturunda qalmışlar [4, s.10]. Ümumiyyətlə, İndoneziya milli-etnik tərkib baxımından çox rəngarəngdir və müxtəlif mənbələrdə etnik qrupların sayı barədə fərqli məlumatlarla rastlaşmaq olar.

Keçən əsrin 50-ci illərində etnik icmalar və etnoslararası münasibətlər ilə bağlı məsələlərin müzakirəsi faktik olaraq qadağan edilmişdi. 1971-ci ildə əhalinin siyahıyaalınmasında sorğu vərəqinə etnik mənsubiyyət haqqında sual daxil edilmədiyindən ölkə ərazisində etnik vahidlərin sayını dəqiqləşdirmək mümkün olmamışdı. 80-ci illərdə də rəsmi mənbələr əhalinin etnik tərkibi barədə məlumat vermir, bununla da, "vahid İndoneziya xalqı" ideyasını təbliğ etməyə çalışırdılar [2, s.27].

İndoneziya əhalisinin etnoslararası münasibətlərinin və etnik tərkibinin öyrənilməsi ilə əsasən holland və Amerika alimləri məşğul olurdu. Yuxarıda qeyd edildiyi kimi, vahid İndoneziya birliyinin qurulması prosesinə mane olmamaq üçün 70-ci illərə kimi indoneziyalı alimlər bu problemlərlə məşğul olmurdu. Etnoslar və etnoslararası münasibətlər haqqında yazmış ilk indoneziyalı alim etnoqraf P.Suparlandır. 1979-cu ildə bu sahədə yazdığı ilk məqaləsində o göstərir ki, etnik problemlərlə bağlı *susdurulma siyasəti* ölkədə baş verən sosial problemlər, xüsusilə də, etnoslararası münasibətlərdən qaynaqlanan sosial problemlər haqqında məlumat qıtlığına gətirib çıxarmışdır [4, s.11].

Bu gün İndoneziya hökuməti artıq belə bir qadağa tətbiq etmir. Əksinə, indoneziyalılar hansı etnosa mənsub olduqları barədə fəxrlə danışır və ölkələrinin etnik cəhətdən belə rəngarəngliyindən qürur hissi duyurlar. Statistika Mərkəzinin 2010-cu ilə aid məlumatına görə isə [10], hazırda İndoneziyada 1128 etnik qrup mövcuddur. Onların arasında say baxımından üstünlüyü yavalılar, sundalılar, maduralılar, malaylar, buqislər, makasarlılar, minanqkabaular, balililər və bataklar təşkil edir [4, s.326].

Ölkədəki etnik qruplar hazırda müxtəlif inkişaf pillələrindədir, başqa sözlə, burada zəngin mədəniyyətə malik yavalılar, malaylar, sundalılar və balililərlə yanaşı, hələ köçəri həyat tərzi sürən tayfalar da vardır. Ayrı-ayrı etnik qrupların inkişafı arasında belə fərqlər tarixi və coğrafi amillərlə izah oluna bilər. Digər xalqlar və mədəniyyətlərlə uzunmüddətli və daimi əlaqədə olmuş etnik qruplar sürətlə inkişaf etdiyi və hazırki ictimai mərhələyə çatdığı halda, ibtidai icmalar şəkilində yaşayan etnik quplar hər növ sosial əlaqələrdən imtina edərək təcrid olunmuş ərazilərdə yaşamağı, natural əməklə, ovçuluq və balıqçılıqla məşğul olmağı üstün tuturlar [4, s.10-11].

Ölkədəki etnik qrupların əksəriyyəti dil və mədəniyyət baxımından ortaq cəhətlərə malikdir. Bunu onların eynimənşəli olması ilə izah etmək olar. Əhalinin 96 faizindən çoxu monqoloidlər və avstraloidlər arasında orta mövqe tutmuş Cənub-Şərqi Asiya irq tipinə [4, s.11-12], istifadə etdikləri dil və dialektlər isə Avstroneziya dil ailəsinin Qərbi İndoneziya dilləri qrupuna aiddir. Bundan başqa, burada Avstroneziya dil ailəsinin Şərqi İndoneziya qrupuna aid [1, s.169] Papua dillərində danışan və avstraloidlər qrupuna daxil edilən papua-melaneziya irqinin nümayəndələri, eləcə də çinlilər, ərəblər, hindlilər, yaponlar, avropalılar və digər gəlmə xalqlar yaşayır [4, s.11-12].

Güman edilir ki, müasir indoneziyalıların əcdadları b.e.-nın I əsrində Tailand və Birmadan cənub-şərqə köçərək Sumatra, Kalimantan və Yava adalarında məskunlaşmışlar [3, s.83]. Başqa bir fərziyyəyə görə, onlar buraya b.e. əvvəl 3000-ci ildən başlayaraq Çinin Yunnan əyalətindən Hind-Çin yarımadası və Tailand ərazisindən keçərək gəlmişlər [6, s.6]. Çin tacir və dənizçiləri hələ min il bundan əvvəl İndoneziyaya səfərlər edirmiş. XIX əsrin ortalarında isə çinlilər İndoneziyaya kütləvi şəkildə miqrasiya edərək [2, s.29] Şimali Sulavesi, Qərbi və Şərqi Kalimantan, Sumatra və Yavada məskunaşmışlar [3, s.83]. İndoneziya etnoslarının inkişafına böyük təsir göstərmiş və özləri ilə hinduizm və buddizm kimi dinləri gətirmiş hindlilər Yava və Sumatraya b.e.-nın I əsrində gəlmişlər [12, s.27].

Bu çoxsaylı etnosların İndoneziya ərazisində məskunlaşmasının mənzərəsi belədir [2, s.28]: Yavalılar Yavada (adanın mərkəzi, şərq və qismən qərb hissəsində), sundalılar Qərbi Yavada, maduralılar Şərqi Yava və Madurada, minanqkabaular Sumatranın qərb və mərkəzi hissələrində, bataklar və açehlilər Sumatranın şimal hissəsində, qayo və alaslar Şimali Sumatranın təcrid olunmuş dağlıq ərazilərində, Cənubi Sumatranın yerli əhalisi hesab olunan abunq pubianlar Sumatranın cənubunda daxili ərazilərdə, özlərini yaşadıqları yerin adları ilə adlandıran Sumatra malayları (cambililər, palembanqlılar, riaulular, siaklar) isə Sumatranın şərq və cənub-şərq hissələrində yaşayırlar.

Dayaklar Kalimantanın mərkəzi hissəsində, bancarlar cənub və cənub-şərq hissəsində, malaylar isə sahilyanı ərazilərdə məskunlaşmışlar. Buqislər və makasarlılar Sulavesinin cənub-şərqində, minahasalılar, qorontalolular, tominililər, bolaanqmonqondoular, sanqihelilər şimalında, toracalar (palular, korolar, sadanqlar, posolar və digərləri), loinanqlar şərqində, morilər, lakilər və bunqkular cənub-şərqində yaşayır.

Balililər Balidə və Lombokda, sasaklar Lombokda, sumbavalılar və bimalılar Sumbavada, manqarailar, nqadalar, naqelər, sikkalar, keolar, liolar və larantuklar Floresdə, sumbalılar Sumbada yaşayır.

Maluku arxipelaqının Ternate adasında, Halmaheranın cənub və şimal-qərb hissəsində, Obidə və Baçanda ternatelilər, Ambon, Obi, Buru və Seramın qərbində ambonlular, tobelolar və Halmaherada qalelalar məskunlaşmışlar. Bu böyük etnik qruplardan başqa, qalan kiçik etnik qruplar yaşadıqları adaların adını daşıyırlar.

İrian Cayada (indi Qərbi Papua) əsasən avtoxton əhali – papualar yaşayır.

İndoneziyada etnik qruplar əsasən homogen olmaqla yaşadıqları ərazidə dominant olan özünəməxsus mədəniyyətə malikdir. Böyük şəhərlərdə isə müxtəlif etnoslar qarışdığından bu və ya digər etnik mədəniyyətin üstünlüyü hiss olunmur. Bu, İndoneziya dili və ümumindoneziya mədəni sərvətlərindən istifadə etməklə ümumindoneziya milli mədəniyyətinin formalaşmasına aparır. Lakin bu heç də o demək deyildir ki, şəhərlərdə etnik mədəniyyət tamamilə ümumindoneziya mədəniyyəti ilə əvəz olunmaqdadır. Məsələn, İndoneziya dili daha çox rəsmi ünsiyyətdə istifadə edilirsə, fərdi ünsiyyət zamanı doğma dilə üstünlük verilir [4, s.12-13].

4. İndoneziyada linqvistik şərait

İndoneziya çoxmillətli olduğu kimi, həm də bir çox dillərin istifadə olunduğu ölkədir. Yaxın vaxtlara qədər etnosların dəqiq sayı məlum olmadığı kimi, ölkədə danışılan dillərin sayı məsələsi də mübahisə doğururdu. XIX əsrin 80-ci illərində dillərin sayının 400-dən artıq olduğu göstərilirdisə [4, s.12-13], artıq 2008-ci ildə

Cakartada keçirilmiş IX Dil Konqresində İndoneziyada 442 dil və dialektdən istifadə olunduğu barədə məlumat verilmişdi. 2012-ci ildə Dillərin İnkişafı və Quruculuğu Komitəsinin aparmış olduğu növbəti tədqiqatların nəticələrində isə bu say 546-ya çatdırılmışdır. Komitə rəsmilərinin bildirdiyinə görə, tədqiqat hələ davam etdirildiyindən onların sayının artacağı və 600-ə çatacağı ehtimal olunur [11].

İndoneziyada istifadə olunan dillərin çoxluğuna baxmayaraq, təmsil olunan dil ailələlərinin sayı məhduddur. Yerli əhali Avstroneziya (və ya malay-polinez) və Papua dillərində danışır [2, s.281]. Bu dil və dialektlərin böyük hissəsi Avstroneziya dil ailəsinin İndoneziya qrupuna daxildir. Bu qrupda dil daşıyıcılarının sayına görə ilk sıraları yavalılar, sundalılar, minanqkabaular, bataklar, açehlilər, buqislar, makasarlılar, dayaklar tutur [5, s.4]. Genetik qohumluğuna baxmayaraq, bu dillər arasında fərqlər o qədər böyükdür ki, hətta Sumatradakı karo batakları və toba batakları kimi ərazi baxımından yaxın xalqlar bir-birini çətinliklə başa düşürlər [4, s.13-14].

Başqa dil ailələrinə mənsub olan Papua dillərində və Çin dilində İndoneziya əhalisinin təxminən 5 faizi danışır [4, s.13]. Maluku əhalisinin bir hissəsi Şimali Halmahera qrupuna mənsub Papua dialektlərinə yaxın dialektlərdə, Qərbi İrianın (indi Qərbi Papua) şimal sahilyanı ərazilərin əhalisi əsasən İndoneziya dillərində (buqislər, ambonlular və başqaları), daxili ərazilərin əhalisi isə Papua və Melaneziya dillərində, çinlilər Çin dilinin müxtəlif dialektlərində danışır [5, s.5]. Bundan başqa, burada tamil, ərəb və ingilis dilində danışan əhali də vardır [2, s.281].

Lakin ölkə əhalisinin daha çox istifadə etdiyi dil orta əsrlərdə Sumatra və Malakkanın bir neçə malay dialekti əsasında formalaşmış və 1945-ci ildə İndoneziya Respublikasının dövlət dili elan edilmiş İndoneziya dilidir. Bu dilin Malay arxipelaqında geniş yayılması milli birlik prosesləri ilə əlaqədardır. İndoneziya dili indoneziyalıların birliyini səciyyələndirən ümummilli dildir [5, s. 4-5].

Müasir İndoneziyada istifadə olunan dillər onun daşıyıcıları kimi müxtəlif inkişaf mərhələlərindədir. Etnik birliyin səviyyəsi yüksək olduqca həmin icmaya xidmət edən dil də bir o qədər inkişaf etmiş olur, dialektlərin sayı da az olur və əksinə. Belə etnolinqvistik şərait Yava, Kalimantan və Qərbi İrianda (indi Qərbi Papua) müşahidə olunur. Yavada daha inkişaf etmis etnoslar – yavalılar, sundalılar və maduralılar yaşayır. Buna müvafiq olaraq burada çox az dialektə malik üç əsas dil fəaliyyət göstərir. Bunun əksinə, Kalimantanda dayak tayfaları 200-ə yaxın dialektdə, Qərbi İrian əyalətində isə yerlilər 125-dən artıq müxtəlif dil və dialektlərdə danışır [4, s.14].

İndoneziya dilləri tipoloji cəhətdən də oxşar xüsusiyyətlərə malikdir. Əsas lüğət tərkibinin eyniliyi, fonoloji sistemin yekcinsliliyi, qrammatik quruluşda oxşarlıq, affiksal söz yaradıcılığı, reduplikasiyadan geniş istifadə, cümlədə müəyyənləşmiş söz sırası kimi dil hadisələri bu dillər üçün səciyyəvi xüsusiyyətlərdir [4, s.15].

İndoneziya dilləri mürəkkəb iyerarxik sistemə malikdir. Bu sistemdə hər bir dil müəyyən sferaya xidmət edir. Bu baxımdan dilləri regional (bir neçə xalqın istifadə etdiyi dil), yerli (bir xalqın istifadə etdiyi dil), məişət və ritual dillərinə ayırmaq olar. Dillərin rolu onların inkişaf dərəcəsindən və bu dillərdə danışanların sayından asılıdır [2, s.283].

Ölkədə istifadə olunan dil və dialektlərin sayı çox olsa da, etnik qruplar arasında əsas vasitəçi rolunu məhz İndoneziya dili oynayır. Belə çoxmillətli ölkədə İndoneziya dili İndoneziya birliyinin simvolu hesab olunur, çünki məhz İndoneziya dilindən istifadə etməklə müxtəlif dillərdə danışan ayrı-ayrı etnik qrupların nümayəndələri müstəmləkəçilərə qarşı mübarizədə əlbir olmuş və müstəqillik qazanmağa nail olmuşlar.

Bu dil dövlət dili kimi dövlət orqanları, rəsmi sənədləşmə, təhsil, mətbuat və bədii ədəbiyyatda, böyük şəhərlərdə, xüsusilə yeni nəsil tərəfindən məişətdə istifadə olunur. Lakin hökumət qalan dillərin təbliğinə də təşəbbüs göstərir. Məsələn, yerli dillər müvafiq ərazilərdə orta məktəbərdə tədris olunur, həmin dillərdə televiziya kanalları fəaliyyət göstərir, qəzet, jurnal və bədii ədəbiyyat çap olunur, onların tədqiqinə həsr olunmuş konfranslar keçirilir.

Ölkədə əhalinin əksəriyyəti ikidilli, bəzən də çoxdillidir, yəni dövlət dili kimi İndoneziya dilindən başqa, hər bir indoneziyalı (əsasən məişətdə) həm də yerli dillərdən birində danışır. Lakin çox zaman etnik cəhətdən qarışıq ailələrdə doğulanlar və ya böyük şəhərlərdə yaşayanlar yalnız İndoneziya dilində danışmağı bacarır, bu dildə danışmağa üstünlük verir, valideynlərinin doğma dilini öyrənməyə maraq göstərmirlər. Yeni nəsil, xüsusilə beynəlxalq məktəblərdə təhsil almış gənclər gündəlik həyatda ingilis dilindən istifadəyə üstünlük verirlər.

5. Nəticə

Etnolinqvistik cəhətdən müxtəlifliyi ilə seçilən İndoneziya bu gün təxminən 1128 etnik qrup və 546 dilin vətənidir. Lakin etnoslararası münasibətlərə və milli birliyə mənfi təsir göstərə biləcəyi ehtimalı və etnik qruplarının xeyli hissəsinin keçilməz yerlərdə məskunlaşması tədqiqatçıları bu məsələləri dərindən araşdırmaqdan çəkindirirdi. Elə bu səbəbdən uzun müddət ərzində həm etnik qrupların, həm də dillərin sayı müxtəlif mənbələrdə fərqli rəqəmlərlə göstərilirdi.

İndoneziyada ayrı-ayrı etnik qrupları ortaq etnik mədəniyyətlə yanaşı, genetik və tipoloji baxımdan oxşar dillər birləşdirir. Maraqlıdır ki, etnik qruplar arasında vasitəçi və ya milli dil rolunu etnik qruplar arasında həmişə nümayəndələrinin sayına görə üstünlük təşkil etmiş yavalıların dili deyil, etnik azlıq təşkil edən malayların dili – İndoneziya dili oynamışdır. Ona görə də müstəqillik əldə edildikdən sonra dövlət dili kimi məhz bu dil qəbul edilmişdir. Ölkədə çoxlu sayda dillərdən istifadə olunması əksər əhalinin ən azı ikidilli olmasına gətirib çıxarsa da, dövlət orqanlarında, rəsmi sənədləşmədə, təhsildə və mətbuatda məhz İndoneziya dili tətbiq edilir.

İndoneziyada belə etnolinqvistik şərait bir çox hallarda dil şəraitini də təyin edir.

İstifadə olunmuş ədəbiyyat

1. Андронов, М.С. Вардуль, И.Ф. Зарубежный восток: языковая ситуация и языковая политика. Москва: Наука, 1986

2. Индонезия. Справочник. Москва: Наука, 1983

3. Indonesia. Ensiklopedi Nasional Indonesia. Jilid 7. Jakarta: PT.Delta Pamungkas

4. Кондрашкина, Е.А. *Индонезия: языковая ситуация и языковая политика*. Москва: Наука, 1986

5. Марков, Г.Е. Народы Индонезии. Москва: Московский Университет, 1963

6. Oktorino, Nino, dkk. Ensiklopedia Sejarah dan Budaya. Kepulauan Nusantara Awal. Jilid 6. Cetakan ke-2. Jakarta: PT Lentera Abadi, 2009

7. Suku Bangsa. Ensiklopedi Nasional Indonesia. Jilid 15. Jakarta: PT.Delta Pamungkas

İnternet səhifələri:

8. Badan Pusat Statistik. *http://www.bps.go.id/hasil_publikasi/si_2012/index3.php?pub=Statistik%20Indonesia%202012*. 10 aprel 2013

9. Dinamika Penduduk dan Permasalahan Kependudukan. http://march76. blogspot. com /2012/08 /dinamika-penduduk-dan-permasalahan.html. 15 aprel 2013

10. *Indonesia Miliki 1.128 Suku Bangsa. http://www.jpnn.com/index.php?mib= berita.detail&id=57455*. 11 aprel 2013

11. *Inilah Jumlah Bahasa Daerah di Nusantara. http://download-soal.blogspot.com/2012/09/inilah-jumlah-bahasa-daerah-di-nusantara.html#.UQetYL-6eSo* . 10 aprel 2013

12. *Language Maps and Ethnicity Maps*. *http://ccat.sas.upenn.edu/plc/clpp/images /langmaps/index.html* . 15 aprel 2013

13. *Sensus Penduduk Indonesia 2010. http://id.wikipedia.org/wiki/Sensus_Penduduk_Indonesia_2010*. 11 aprel 2013

14. *Sumber Daya Manusia, Sensus, Kepadatan Dan Pertumbuhan Penduduk. http://perpustakaancyber.blogspot.com/2013/01/sumber-daya-manusia-sensus-kepadatan-pertumbuhan-penduduk.html#.* 10 aprel 2013

L. Zarbaliyeva

The Ethnolingustic Situation in Modern Indonesia

Summary

Indonesia is a country with an immense population and several hundreds of ethnic groups and languages by what its ethnolingustic situation can be defined. This article provides an overview of the geographical location and demography of the country, the ethnic composition of the population and its linguistic situation with the aim to determine the current ethnolinguistic situation in Indonesia.

Л. Зарбалиева

Этнолингвистическая ситуация в современной Индонезии

Резюме

Индонезия является крупной страной как по численности населения, так и наличием большого количества этнических групп и языков, чем и определяется её этнолингвистическая ситуация. В настоящей статье рассматриваются географическое положение страны и её демография, этнический состав и лингвистическая ситуация с целью установить этнолингвистическую ситуацию в Индонезии.

Rəyçi: Professor A.Y.Məmmədov

NURAY ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Naxçıvan bölməsi
E-mail: naliyeva22@mail.ru

NAXÇIVAN DİALEKTİNDƏ RUS MƏNŞƏLİ VARVARİZMLƏR

Məqalədə Azərbaycan dilinin Naxçıvan dialektinin lüğət tərkibi, buraya rus dilindən keçən sözlər tədqiq olunmuş və göstərilmişdir ki, bu sözlər dildə vətəndaşlıq hüququ qazanmayaraq, yalnız şivələrdə mövcuddur və həmin şivənin qayda-qanunlarına uyğunlaşdırılaraq təhrif olunmuş şəkildə işlədilir.

Açar sözlər: *dialekt, şivə, leksika, varvarizmlər*
Ключевые слова: диалектология, говор, лексика, варваризмы
Key words: dialectology, accent, lexicology, barbarisms

Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir. Hər bir dil kimi Azərbaycan dili də zəngin söz ehtiyatına malikdir. Dilimiz türk sistemli dillər ailəsinə mənsub olsa da qədim zamanlardan bəri bir sıra dillərlə əlaqə və münasibətdə olmuş, istər mədəni, istərsə də məişət məsələlərində onlarla qaynayıb-qarışmışdır.

Dilimizin lüğət tərkibini təşkil edən sözlər mənşəyinə görə iki yerə ayrılır: 1) Əsl Azərbaycan, türk sözləri, 2) Alınma sözlər. Dilimizin lüğət tərkibini təşkil edən sözlərin böyük bir qismini öz sözlərimiz təşkil edir. Bu sözlər həm də yeni söz yaradıcılığında mühüm rol oynayır. Lakin dünyada saf dil yoxdur. Hər bir dil özünün inkişafı dövründə başqa dillərlə əlaqədə olaraq ondan müəyyən sözlər alır, eyni zamanda özü də ona təsir göstərərək müəyyən sözlər verir. Bəzi dillərdə alınma sözlər çox, bəzilərində isə daha az olur. Lakin alınma sözlərin çoxluğu dilin müstəqilliyini inkar etmir və onun təsir qüvvəsini azaltmır. Bundan başqa həyatımızda, məişətimizdə gedən təkamül, elm və texnikanın inkişafı da dilə öz təsirini göstərir və nəticədə dilə müəyyən sözlər daxil olur ki, bu da dilimizin lüğət tərkibini zənginləşdirir. Eyni sözləri dialekt və şivələrimizin lüğət tərkibi haqqında da demək olar. Buraya da başqa dillərdən çoxlu miqdarda sözlər keçmişdir ki, bu dillərdən biri və ən əsası rus dilidir.

Rusiyanın Azərbaycanla qonşu ölkə olması və uzun illər xalqlarımızın qarşılıqlı əlaqəsi dialekt və şivələrimizə, o cümlədən Naxçıvan qrupu dialekt və şivələrinə kütləvi şəkildə rus sözlərinin, həmçinin rus dili vasitəsilə Avropa sözlərinin keçməsini şərtləndirmişdir. Lakin bu sözərin demək olar ki, əksəriyyəti dialekt və şivələrin lüğət tərkibi ilə məhdudlaşmış, ədəbi dilimizin lüğət tərkibinə daxil olmamışdır. Yəni burada ədəbi dildə olan alınma sözlərdən əlavə Azərbaycan dilində qarşılığı olan, lakin regionun əhalisi tərəfindən dialektin lüğət təkibinə daxil ediən sözlər vardır ki, bu sözlər həm də sözün alındığı dildəki kimi deyil, yerli insanlar tərəfindən təhrif olunmuş, fonetik cəhətdən dilimizin qaydalarına uyğunlaşdırılmış şəkildə işlədilir.

Naxçıvan qrupu dialekt və şivələri Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə etməklə Azərbaycan dili dialekt və şivələrinin cənub qrupunu özündə birləşdirir. Burada iki dialekt - Naxçıvan və Ordubad, üç

şivə - Culfa, Şərur və Şahbuz şivələri mövcuddur (1, s.5). Naxçıvan qrupu dialekt və şivələrinin bir sıra özünəməxsus leksik xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər onları həm ədəbi dilimizdən, həm də digər dialekt və şivələrimizdən fərqləndirir. Leksikonu olduqca zəngin olan bu qrupda ədəbi dildə işlənməyən bir çox söz və ifadələrlə rastlaşırıq. Göstərilən ayrı – ayrı şivələrdə bu ifadələr elə fonetik variantda işlədilir ki, eyni bir əşya, yaxud məfhum başqa – başqa sözlərlə ifadə olunur.

1945-ci lidə Azərbaycanda Elmlər Akademiyasının təşkili və burada müstəqil Dil İnstitutunun açılması ilə əlaqədar olaraq Azərbaycan dili dialekt və şivələrinin tədqiqi işi də canlanmağa başladı. Belə ki, Dil İnstitutunun, sonralar isə Ədəbiyyat və Dil İnstitutunun Culfa, Ordubad (1950), Şərur (1951), Şahbuz (1953), Naxçıvan (1954) rayonlarına təşkil etdiyi dialektoloji ekspedisiyalar bölgələrdə (5, s.16) tədqiqatlar aparmışlar.

1991-ci ildə Azərbaycan yenidən müstəqillik əldə edəndən sonra xalqımızın milli-mədəni və tükənməz xəzinəsi olan dialekt və şivələrimizin öyrənilməsi üçün geniş üfüqlər açıldı. Naxçıvan qrupu dialekt və şivələrinin yenidən, hərtərəfli, dərindən tədqiqi bütün dövrlərdə, o cümlədən də bu dövrdə Azərbaycan dilçiliyinin qarşısında duran ən aktual problemlərdən biri oldu. Bundan sonra dilçiliyimizin bu sahəsində də elmin bütün sahələrində olduğu kimi müasir dövrün tələblərinə uyğun şəkildə və digər dillərlə müqayisəli öyrənilməsi işində hiss olunacaq dərəcədə canlanma yarandı. Ümumiyyətlə dialekt və şivələrimizin öyrənilməsinin böyük nəzəri və əməli əhəmiyyəti vardır.

Azərbaycan dilinin dialekt və şivələri haqqında məlumata hələ 1839-cu ildə Mirzə Kazım bəyin Qazan şəhərində çap olunan "Грамматика турецко-татарского языка" əsərində rast gəlirik (5, s.15). Sonralar bu sahədə bir çox işlər görülmüş və aparılan tədqiqatların, bölgələrə təşkil olunan dialektoloji ekspedisiyaların nəticəsi olaraq M. Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları", Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun nəşr etdirdiyi "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" və s. kimi olduqca qiymətli əsərlər meydana çıxmışdır ki, bunlar da dialektologiyamızın tədrisində böyük əhəmiyyət kəsb edən dərs vəsaitləri hesab oluna bilər.

Qeyd etmək lazımdır ki, Naxçıvan dialektinin öyrənilməsi işi bu gün də davam etdirilməkdədir və demək olar ki, bölgənin hər bir rayonu ayrı-ayrılıqda tədqiqata cəlb olunmuşdur. Bu tədiqatlar da artıq öz bəhrəsini verməkdədir və Naxçıvan dialekti Azərbaycan dili dialekt və şivələrinin bir qolunu təşkil etməklə türk dilləri və onların dialekt və şivələri ilə müqayisəli şəkildə öyrənilir. Bu araşdırmalar, şübhəsiz, Azərbaycan dilinin tarixi dialektologiyası üçün qiymətli mənbə olacaqdır. Cənubi və Şimali Azərbaycan və Şərqi Anadolu üçbucağının mərkəzində yerləşən Naxçıvan dialekt və şivələri xalqımızın mədəni keçmişini, dilimizin tarixini, dil əlaqələrini öyrənmək baxımından çox önəmli bir qaynaqdır. Dialekt və şivələrimiz bizim xalqımızın, o cümlədən hər bir xalqın milli sərvətidir və onların yaşadılması, qorunması hamıdan eyni dərəcədə həssaslıq tələb edir.

Türkiyənin Şərqi Anadolu şivələri ilə böyük bənzərliklərə, Şimali və Cənubi Azərbaycan şivələri ilə kiçik fərqli nüanslara malik olan Naxçıvan şivələrinin qədim dövrlərdən, əsasən türk qəbilə və tayfalarının dil xüsusiyyətləri əsasında formalaşdığını qeyd edən müəlliflər Naxçıvanın tarixi, mədəniyyəti, iqlim xüsusiyyətlərini şərh edib. Məlumdur ki, Naxçıvan dialekti Azərbaycan dilinin qədim xüsusiyyətlə-

rini qoruyub saxlayan ən zəngin mənbələrdən biridir. Naxçıvan dialekti geniş bir ərazini əhatə edir və rəngarəng şivə xüsusiyyətlərinə malikdir. Bu xüsusiyyətlərdən biri də sivənin lüğət tərkibində rus dilindən keçən sözlərinin işlənməsdir. Rus dilindən dilimizə, o cümlədən dialekt və şivələrimizə sözlər keçməsinin ən məhsuldar dövrü Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı dövr olmuşdur. Belə ki, bu dilin SSRİ-də xalqlararası ünsiyyətin əsas vasitəsi olması bu prosesi şərtləndirən əsas amil idi. Regionumuzun əlverişli coğrafi şəraiti qədimdə buranın ticarət mərkəzi olmasına şərait yaratmışdır ki, bu da dilimizə sözlər keçməsini şərtləndirmişdir.

Dialekt və şivələrimizin lüğət tərkibindəki alınma sözlərin vəziyyəti çox vaxt ədəbi dildəki kimi deyildir. Belə sözlər ədəbi dildəki alınmalara nisbətən dilin daxili inkişaf qanununa əsasən istər şəkil, istərsə də məzmunca dəyişikliyə daha çox məruz qalır (5, s.342). Məsələn: uçret<oçered, balnisə//balnisa<bolniça, doxdur-<doktor, nalox<naloq, bravirka<proverka, nəçənniy<naçalnik, isləbıdnı< svobodnıy, qaravat//qravat <krovat, ləmpə <lampa, potulka<butılka, şotqu<şetka, şapqa<şapka, isbalqom <ispalkom, mesesdra <medsestra, inciner//injiner<injener, vesebet//velsebet <velosiped, lammışqa// lampışqa <lampoçka, tuxofqa< duxovka.

Bu sözlərin demək olar ki, hamısının ədəbi dilimizdə qarşılığı vardır. Ona görə də bunlar danışıq dili vasitəsilə alınan sözlərdir və dialektdə də qalır, yəni ədəbi dilə keçərək vətəndaşlıq hüququ qazana bilmir.

Onu qeyd etmək lazımdır ki, Naxçıvan qrupu dialekt və şivələrində Azərbaycan dilinin digər dialekt və şivələrinə nisbətən belə sözlər az işlənir. Bu da təbii ki, Naxçıvanın coğrafi şəraitindən, Rusiya ilə sərhəddən daha uzaqda yerləşməsindən və bunun nəticəsində də əhalinin risdilli əhali ilə nisbətən az əlaqədə olmasında irəli gəlir.

Sözlər bir dildən başqasına müxtəlif şərait və zamanlarda, müxtəlif səbəblərdən və bir sıra yollarla keçir (4, s.194). Dialekt və şivələrimizdə işlənən bu cür alınmaların bir qismi dilimizə Azərbaycanda sovet hakimiyyəti qurulmamışdan əvvəlki dövrdə daxil olmuşdur. Məsələn: nəçənniy<naçalnik, qoburnat<qubernator. Bu sözlər daha çox təhrif olumuş şəkildə sivələrdə işlənmişdir. Bu da, zənnimizcə, o dövrdə əhalinin savadlılıq dərəcəsinin daha aşağı olması ilə izah oluna bilər. Ümumiyyətlə dilimizə rus dilindən söz daxil olması prosesi XIX əsrin ortalarından başlayaraq getdikcə güclənmişdir.

Dialekt və şivələrimizdə işlənən alınmaların digər bir qismi dialekt leksikasına Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra daxil omuşdur və bu sözlər demək olar ki, o dövrdəki quruculuq işləri, xüsusilə də kənddə fərdi təsərrüfatın aradan qalxması, kolxoz və sovxoz təsərrüfatının yaranması ilə əlaqədardır. Məsələn: qalxoz<kolxoz, nalox<naloq, tıraxdır<traktor.

Bir qisim sözlər də vardır ki, bunlar gündəlik həyat və məişətimizlə bağlı işlənən sözlərdir və bunlar da Naxçıvan qrupu dialekt və şivələrində geniş şəkildə işlənir: uje, vapşe<voobşe, tarelka, potulka<butılka və s.

Qeyd etmək lazımdır ki, dialekt və şivələrimizin lüğət tərkibi uzun dövrlərin məhsuludur və burada tarixi dövrlərin izləri əks olunur. Ona görə də şivənin aid olduğu xalqın tarixən əlaqədə olduğu xalqların dilinin izlərinin burada müşahidə olunması təbiidir və eyni zamanda həmin dil də qonşu dillərə və onun lüğət tərkibinə, o cümlədən diaekt və şivələrinə öz təsirini göstərir.

Ədəbiyyat

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 326 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 2007, 191 s.
3. Çobanzadə B. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 336 s.
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1985, 408 s.
5. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 415 s.

Нурай Алиева

Варваризмы, перешедшие в нахичеванский
диалект из русского языка
Резюме

В статье исследуется словарный состав Нахичеванского диалекта Азербайджанского языка, слова, перешедшие в него из русского языка, и показано, что эти слова не вошли в лексический состав языка, они используются только в говорах в искаженной, соответствующей закономерностям данного говора форме.

Nuray Aliyeva

Barbarisms passed in the nakhchivan dialect from Russian
Summary

The dictionary structure of the Nakhchivan dialect of the Azerbaijan language, the words which have passed into it from Russian are investigated in the paper, and it is shown that these words haven't been included into lexical structure of language, they are used only in dialects in distorted form, corresponding to the regularities of the given dialect.

Rəyçi: Ə.A. Quliyev
AMEA-nın müxbir üzvü

Ф.Г.САЛИМОВА
диссертант кафедры общего и русского языкознания
Бакинского Славянского Университета
f.salimova@gmail.com

К ВОПРОСУ ИЗУЧЕНИЯ СЛОЖНОГО СИНТАКСИЧЕСКОГО ЦЕЛОГО В АЗЕРБАЙДЖАНОВЕДЕНИИ (НА МАТЕРИАЛЕ «КНИГИ МОЕГО ДЕДА КОРГУДА» И «ПЕСНИ О НИБЕЛУНГАХ»)

Aşar sözlər: müqaisəli-tipoloji dilçilik, mürəkkəb sintaktik bütöv, "Kitabi dədə Qorqud", "Nibelunqlardan Nəğmə".

Key words: comparative linguistic, complex syntactic unit, "The Book of Dede Gorgud", "The Song about Nibelungs".

Ключевые слова: сравнительно-сопоставительное языкознание, сложное синтаксическое целое, «Книга моего деда Коргуда», «Песня о Нибелунгах».

«Книга моего деда Коргуда» и «Песнь о Нибелунгах» – это два бессмертных памятника, которые являются классическими образцами художественного представления национальной языковой картины мира двух народов. Они сыграли большую роль в становлении и формировании духовного мира азербайджанцев и германцев. Несомненно, что при сравнительно-сопоставительном изучении этих двух памятников обнаружатся определенные параллели. Однако несмотря на то, что оба героических эпоса имеют давние традиции изучения: историческую, литературоведческую, языковедческую литературу, упомянутого анализа (т.е. сравнительно-сопоставительного) «Книги моего деда Коргуда» и «Песни о Нибелунгах» до недавнего времени проведено не было. Также следует отметить, что с точки зрения сравнительно-исторического языкознания наибольшую актуальность, на наш взгляд, приобретают исследования, ведущиеся в области синтаксиса текста, в частности вопросов сравнительно-сопоставительного изучения сложного синтаксического целого (ССЦ).

Проблема сложного синтаксического целого не нова для современной лингвистики, но сравнительно-сопоставительный анализ ССЦ в «Книге моего деда Коргуда» и «Песне о Нибелунгах» может дать интересные и, на наш взгляд, неожиданные результаты. Однако прежде хотелось бы остановиться на истории изучения данного вопроса в современном азербайджановедении.

История сравнительно-сопоставительного изучения героических эпосов «Книга моего деда Коргуда» и «Песнь о Нибелунгах» в Азербайджане фактически начинается с реализацией совместного исследовательского проекта «Восток и Запад в средневековых героических эпосах «Книга моего деда Коргута» и «Песнь о Нибелунгах». Указанный договор был заключен в 2007 году между Бакинским славянским университетом, представленным членом-корреспондентом НАН Азербайджана, ректором БСУ проф. К.М.Абдуллаевым, Университетом им. Йоханнеса Гутенберга (Майнц, Германия), представленным руководством института Германистики и института Востоковедения, и научным обществом «Освальд фон Волькенштайн» (Франкфурт-на-Майне, Германия), представленным президентом общества проф. Зиглинде Хартманн.

Именно с момента реализации данного проекта начинается систематическое сравнительно-сопоставительное изучение двух героических памятников с разных аспектов: языковедческого, литературоведческого, переводческого и культурологического.

Так, в плане лингвистического исследования интерес представляют работы таких отечественных и немецких ученых, как проф. К.М.Абдуллаева, проф. З.Хартманн, проф. Х.Бусхотена, проф. И.Г.Гамидова, проф. Ф.Зиммлера и др.

Наиболее подробно остановимся на работах проф. К.М.Абдуллаева.

Les études faites sur la notion de stéréotype tâchent de nous montrer leur utilité. Parce qu'ils sont nécessaires pour notre mentalité pendant le sélectionnement et l'organisation des éléments afin de mieux comprendre la divérsité culturelle, pour y trouver les points divergents et convergents avec notre propre culture.

Les stéréotypes constituent l'identité de chacun et cette identité est basée sur nos idées, bref c'est un image que nous faisons de nous-mêmes en s'appuyant sur notre façon de vivre, sur notre environnement. Pourtant cet image n'est pas le résultat seulement de nos propres opinions, en même temps il est celui de longue comparaison entre nous et l'autre pour bien construire un image complet de notre groupes et de l'étranger. Il sera mieux de comprendre que l'image que nous faisons de nous même et l'image que les autres construisent sur nous sont essentiels.

Les stéréotypes naissent de la confrontation de deux groupes et d'elle seule, en dehors des différences culturelles et economiques. On définit deux fonctions de stéréotype :

« Les stéréotypes ont une double fonction identitaire et cignitive. Ils concourent à la production de frontières entre ce qui est « nous » et ce qui est « hors nous ». La définition de soi est fondée sur la construction d'une différence. Attribuer à autrui un modèle de conduite divergeant, voire contraire à celui qu'on partage, permet de se définir en référence à lui : être, c'est être autre. La dévalorisation de lautre presque toujours corrélative de la valorisation de son propre groupe. »[8]

Entre stéréotype et le préjugé il y a une connexion, car les stéréotypes peuvent exprimer les préjugés, les rationaliser et les justifier. Il est possible que les stéréotypes engendrent les préjuges, c'est la processus de création d'une attitude d'exclusion ou d'acceptation de l'autre. Les préjugés sont fondés sur des stéréotypes mait tout stéréotype n'est pas nécessairement un préjugé.

Pour conclure on peut constater que dans l'apprentissage interculturel, connaître les stéréotypes et éliminer les préjugés peuvent être insuffisant pour améliorer la compréhension interculturelle. La relation à l'autre est infiniment complexe, c'est pourquoi nous devons être attentif lors de construction d'une idée sur l'autre.

[7] Klineberg O., « Recherches sur les stéréotypes », in Revue de psychologie des peuples, 1966, 1er trimestre, p.80-81

[8] http://base.d-p-h.info/fr/dossier-30.html

Bibliographie

1. Maddalena De Carle, « L'interculturel », CLE International, 1998.
2. Marandon S., « Les images des peuples », in Revue de psychologie des peuples, 1964, 1er trimestre.
3. Bastide R., « Le prochain et le lointain, op. Cit.
4. Klineberg O., « Recherches sur les stéréotypes », in Revue de psychologie des peuples, 1966, 1er trimestre.

La site consultée :
1. http://base.d-p-h.info/fr/dossier-30.html

KH.Mamedova

Mədəniyyətlərarası tədris çərçivəsində stereotiplər və əvvəlcədən mühakimələr

Xülasə

Başlığı altında olan bu məqalə ana dilin və xarici dilin öyrənilməsinə həsr olunub. Bu məqalədə dil dərslərində mədəniyyətlərarası əlaqələrdən istifadə olunmasının vacibliyindən və bu vasitə ilə dilini öyrəndiyimiz xalqın mədəniyyəti haqqında düzgün mühakimə yürütməyin vacibliyi ön plana çəkilmişdir. Bu baxımdan stereotiplər və öncə mühakimələr anlayaşının mənasını anlamaq zəruri hesab olunur. İlk olaraq burada adını çəkdiyimiz terminlərin etimologiyası barədə məlumat verilmişdir."Stereotip" sözü yunan mənşəli olub "stereos"- bərk və "tipos"- model terminlərinin birləşməsindən əmələ gəlib. Bu termin ilk dəfə jurnalist Valter Lipman tərəfindən 1992-ci ildə sosial elmlərə tətbiq edilmişdir. Onun məqsədi bizim reallığı öz şəxsi mühakimələrimiz və məntiqi qavrayış vasitəsilə qəbul etdiyimizi göstərmək idi. Əvvəlcədən mühakimə isə - yəni "préjugé"- etimoloji mənasına görə -təcrübədən irəli gələn mühakimə- mənasını verir.

Bu anlayışların təhlilinin zəruriliyi çoxmədəniyyətli bir cəmiyyətdə, xüsusilə də dil dərslərində hər hansı bir xalqın mədəniyyətini öyrənərkən yanlış fikirlərə və təhlillərə yol verməməkdən irəli gəlir. Çünki mühakimələr bizim şəxsi təhlillərimiz sayəsində yaranır və səhv nəticələr əldə etməmək üçün diqqətli olmaq lazımdır. Eyni zamanda xarici dilin tədrisində və mənimsənilməsində də bunların rolu böyükdür. Onlar sayəsində tələbə muhakimə yürütməyi öyrənir və bu sayədə də mədəniyyətlər arasında əlaqə yaranır. Məqalənin məqsədi də bu terminləri izah etmək və onların mahiyyətini anlatmaqdır

Х.Мамедова

Предварительные суждения и стереотипы в рамках межкультурного преподавания

Резюме

Эта статья под названием посвящена изучению родного и иностранного языка. В этот статье, исходя из необходимости использования межкультурных связей в занятиях по языку и таким образом важность ведения правильного суждения о культуре народа, язык которого мы изучаем был поставлен на передний план. С этой точки зрения, считается важным понять значение поня-

тий стереотипы и предварительные суждения. Впервые здесь была дана информация об этимологии упомянутых терминов. Слово «Стереотип» греческого происхождения и образован из сочетания терминов «стереос» - крепкий и «типос» модель. Этот термин был впервые применён к оциальным наукам со стороны журналиста Валтера Липмана в 1992 году. Его цель была показать восприятие нашей реальности посредством личного суждения и логического восприятия. Предварительное суждение – из за этимологического значения «prejuge» даёт значение –опыт вытекающий из суждения.

Это вытекает из важности анализа этих понятий в мултикультурном обществе, особенно с целью не допустить возникновения ложных мыслей и анализов во время изучения культуры какой-то народа на уроках языка. Так как суждения возникают благодаря нашим личным суждениям, необходимо быть внимательным с целью непринятия неправильных заключений. В то же время их роль также велика в усвоении и преподавании иностранного языка. На их основе студент учиться вести суждения и на этой же основе возникают межкультурные связи. Цель этой статьи объяснить значение этих терминов и растолковать их значимость.

KH. Mamedova

Pre-judgements and sterotypes in the framework of intercultural teaching

Summary

This article, entitled is devoted to the learning of mother language and foreign language. The importance of use of intercultural links in language lessons and thereby the importance of leading right judgements about the culture of nation, which language we are learning, were put to the forefront. From this point of veiw, to understand the meaning of notions of sterotypes and pre-judgements is considered to be important. Firstly, data about the etimology of terms mentioned was given. “Steretopy was of Greek origin, and was formed from the merger of “stereos” – strong and “tipos” – model. The term was first applied to the social sciences by Walter Lippmann in 1992. His aim was to show that we accept this reality through our personal judgment and logic of perception. Pre-judgement means a judgement emenating from the experience, because of etimological meaning “prejuge”.

The necessity of analysys of these notions stems from avoiding false thoughts and analyzes in multiculturul society, especially while studying the culture of any people. Since the judgements are formed by our personal analysys and it is necessary to be attententive in order not to come to erroneous results. At the same time a student is learning to lead judgements and thanks to this the relations are being created between cultures. The purpose of this article is to explain this terms and to convey their significance.

Rəyçi: b/m.F. T. Əmirbəyova

SƏMİNƏ ABDULLAYEVA
Gəncə Dövlət Universiteti

MORFOLOJİ DERİVASİYADA YAZILI VƏ ŞİFAHİ NORMA FƏRQLƏRİ

Açar sözlər: Nitq norması, Yazı norması, Norma stabilliyi, Norma vahidliyi İnformasiya
Ключевые слова: Речевая норма, Письменная норма, Стабильность нормы Единства нормы, Информация
Key words: Speech norm, Written norm, Stable norm, Unity norm, İnformation.

Morfoloji derivasiya prosesi söz sonuna sözdüzəldici şəkilçi qoşulması yolu ilə baş verir. Söz sonunun sonuna sözdüzəldici şəkilçilərin qoşulması zamanı söz kökü sonundakı və şəkilçi əvvəlindəki elementin xarakterindən asılı olaraq yazılı və şifahi nitqdə fərqlənmə baş verməsi müşahidə edilir. Əlbəttə ki, belə bir vəziyyət bütün sözlərdə müşahidə edilmir. Sonu saitlə bitən sözlərə hər hansı samitlə başlayan şəkilçi qoşulmasından asılı olmayaraq yazılı və şifahi nitq üzrə fərqlənmə baş vermir (*meşəlik, altılıq, hiyləgər, qaraca*). Həmçinin, söz sonunda və ya şəkilçi əvvəlində novlu, cingiltili, eləcə də sonor samitlər iştirak etdikdə (*süzgəc, dilləş, alışqan, gərgin, durğu, vurğu, göyərti, qızartı, kölgə, bölgə, əzgin, düzgün, sürtgün, alqı, satqı, dalğın, dalğa*).

Söz sonunda və ya şəkilçi əvvəlində cingiltili və ya sonorluluğundan asılı olmayaraq kipləşən və ya tələffüzü çətinləşdirən samitlər iştirak etdikdə isə söz kökü və şəkilçinin qovuşduğu mövqedə yazı və şifahi nitq üzrə fərqlənmələrin baş verməsi müşahidə edilir. Bəzi sonu kipləşən samitlə bitən şəkilçilərin tələffüzündə də fərqlərin əmələ gəlməsini görmək olur. Müasir dövrümüz üçün nitq mədəniyyətinin vahid norma üzrə inkişafına nail olmaq baxımından mövcud fərqlənmələrin aradan qaldırılmasının vacib olduğu xüsusi nəzərə alınmalıdır.

Ancaq məktəb dərsliklərində morfoloji derivasiya nümunələri üzrə baş verən fərqlənmələr, bir növ, təqdir edilir. Yəni onların yazı və şifahi nitq fərqlənmələri ümumi bir norma kimi qəbul edilir. Beləliklə, eyni adlı vahid üçün yazıya görə bir norma, şifahi nitqə görə isə başa bir norma olması məqbul hesab olunur. Qeyd etmək lazımdır ki, indiyə qədərki pedaqoji və metodik ədəbiyyatda da yazıda və şifahi nitqdə fərqli şəkildə ifadə olunan vahidlər orfoqrafiya və orfoepiya prinsipləri üzrə normal bir hal kimi nəzərə alınır. Ancaq təqdirəlayiq hal kimi onu qeyd etmək lazımdır ki, sonu kipləşən samitlə bitən bəzi şəkilçilərin yazı və şifahi nitq tələffüzü üzrə baş verən fərqlənmələrində norma vahidləri prinsipinin tələbləri nəzərə alınır. Yəni belə hallarda fərqlənməyə yol verilməməsi məqsədəuyğun hesab edilir. Məsələn, 3-cü sinfin «Azərbaycan dili» dərsliyində *qanad, tüfəng, ağac, ocaq* (ikihecalı quruluşdakı bu sözlər əslində düzəltmə olmuşdur) sözlərinin *qanat, tüfəng, ağaç, ocax* kimi şifahi nitq variantları verilir. Dərslikdə, əlbəttə ki, onların şifahi nitq variantı yox, yazıı dil variantı norma kimi qəbul edilir (3, 57).

4-cü sinfin «Azərbaycan dili» dərsliyində *vicdanla, ağırlaşdı, qadından* sözləri nümunə kimi verilir və onların tələffüz *variantı vicdannan, ağırraşdı, qadın-*

nan kimi təqdim edilir. Yəni, əslində bu cür sözlərin yazı və şifahi nitq fərqləri orfoqrafiya və orfoepiya baxımından düzgün hesab olunur (4, 27).

6-cı sinfin dərsliyində varlı, qanlı, qanadlı sözləri misal gətirilir və onların varrı, qannı, qanatdı kimi tələffüz variantlarının olduğu göstərilir (5, 79).

10-cu sinfin dərsliyində norma haqqında bəhs edilərkən göstərilir ki, «…norma iki şəkildə təzahür edir: düzgün tələffüz norması (orfoepiya) və düzgün yazı norması (orfoqrafiya). Əgər orfoepik və orfoqrafik norma pozulursa deməli, norma pozulmuşdur». Hər hansı dildə, eləcə də Azərbaycan dilində bir sıra sözlərin yazılışı ilə tələffüzü arasında müəyyən fərqlər özünü göstərir: *otaq-otax, məndən-mənnən* (6, 719). Sözün kök və ya şəkilçi tərkibində yazı və tələffüzə görə baş verən fərqlənməni Ağamməd Abdullayev səs və hərf arasında uyğunluğun olmaması (*bağça-baxca, otaq-otax*) kimi izah edir (1, 111). Sözün kök və şəkilçi hissəsində baş verən dəyişmənin də səbəbi (*ötkəm-ötgəm, qıyğac-qıyqac, sayğac-sayqac, kolxozçu-kolxoççu*) eyni qayda ilə izah olunur (1, 119).

Müəllim Məmiş Abdullayevin bir məqaləsində də kök və şəkilçi mövqeyində baş verən tələffüz (nitq) fərqi orfoepiya üzrə norma hesab edilir: *atlar-atdar, otlar-otdar, arvadlar-arvaddar, qızlar-qızddar, qazlar-qazdar, başlar-başdar.* Eyni zamanda, həmin sözlərin nitqdə yazı variantına uyğun işlədilməsi «kitab tələffüzü» adlandırılır və şagirdlərə tövsiyə edilir ki, «kitab tələffüzü» şifahi nitq üçün məqbul norma hesab edilməsin (2, 28-29).

İstər dərsliklərdə və istərsə də metodik ədəbiyyatda sözün kök-şəkilçi mövqeyindəki dəyişmənin ikili norma üzrə məqbul hesab edilməsi məsələyə ənənəvi yanaşmanın təzahürüdür. Belə ki, məsələn, tanınmış metodist olan Əziz Əfəndizadənin «Orfoqrafiya, orfoepiya lüğəti»ndə də nitq üzrə dəyişmə orfoepiya norması hesab olunur: *qarlı-qarrı, təpərli-təpərri, kinli-kinni, şəhərli-şəhərri, dadlı-daddı, buludlu-duluddu, üzürlü-üzürrü, sədrlik-sədrrik* (7, 147).

Variantlıq, əlbəttə ki, var. Nitq sərbəstliyinə yol verildikcə onun potensialının artacağı və çoxalacağı da istisna deyildir. Odur ki, nitq variantlığına və onların mümkün qədər izahı nitq mədəniyyətinin vahid normalılığı baxımından əhəmiyyətlidir.

Azərbaycan dilində morfoloji derivasiya bazasında baş verən fərqlənmələrin səbəbi kök-şəkilçi hüdudunda aşağıdakı samit səslərin qarşılaşması zamanı müşahidə edilir:

1) söz sonunda kipləşən kar samit, şəkilçi əvvəlində novlu sonor samitin işlənməsi:

a) K l yanaşması.

Bu yanaşmada kipləşən kar k samitinin tələffüzü ağırlıq törədir. Ona görə də şifahi nitqdə həmin samitin bəzi hallarda x/ variantında tələffüz edilməsi müşahidə olunur: təklik-təx/lik; köklük-köx/lük, diklik-dix/lik, köklü-köx/lü, tüklü-tüx/lü. Sözün kök-şəkilçi hissəsində tələffüz fərqlərini müəyyən etmək məqsədi ilə Gəncə şəhərindəki 1, 2, 4, 39 saylı məktəblərdə təcrübə aparılmışdır.

Məktəblərdə aparılan təcrübə göstərdi ki, şagirdlər də sözləri nitq asanlığı üzrə tələffüz etməyə meyyillidirlər. Ancaq nəzərə almaq lazımdır ki, x/ səsi Azərbaycan dili üçün ümumi asan bir nitq vahidi deyildir. Bu səsin tələffüzü daha çox Azərbaycan dilinin Qərb arealı üçün səciyyəvidir. Ona görə də norma vahidliyi prinsipini əsas götürdükdə sözün birinci variantını əsas norma kimi qəbul etmək olar.

b) *T l* yanaşması.

Bu yanaşmada ağırlıq *l* samitinin üzərinə düşür. Belə ki, söz sonundakı *t* samiti sabit qalır, *l* samiti *d* samitinə çevrilməklə tələffüz çətinliyindən azad olur: *ətli-ətdi, ətlik-ətdik, otlu-otdu, otluq-otduq, otlaq-otdaq*.

Şifahi nitq özünə asan yol tapmaqla dil strukturunda çoxsaylı əvəzlənmələrin baş verməsinə şərait yaradır. Təcrübə zamanı aydın oldu ki, şagirdlər də nitqdə asan tələffüzə üstünlük verirlər. Ancaq, əlbəttə ki, birinci variantın dil üçün daha ümumi olduğunu nəzərə almaqla yazıda və şifahidə həmin variantı qəbul etmək daha məqsədəuyğun görünür. Həqiqətdə də ətli, otlu, otlaq kimi variantları işlətmək elə də çətin deyildir. Normalarda pərakəndəlik baş verməməsi xatirinə həmin variantın qəbul olunması qəbahətli sayılmaz. Məhz şagirdlərin sözləri də nümunələri cümlələrdə işlətdikdə birinci variantdan istifadə edirdilər. Görünür, birinci variantı işlətmək elə də çətin deyildir. Sadəcə, zaman-zaman dilimizi buna alışdırıb norma vahidliyinin baş tutmasına cəhd göstərmək lazımdır.

c) *Ç l* yanaşması.

Sözün kök və şəkilçi hissəsində işlənən *ç l* yanaşması zamanı *ç* səsi nitqdə ağırlıq yaradan elementə çevrilir. Məsələn, *saç, suç, qıç* sözlərində *ç* samiti sərbəst tələffüz olunur. Ancaq həmin sözlərə *l* samiti ilə başlanan şəkilçi qoşulduqda *ç* samiti dönüb *ş* samitinə, *l* isə *d* samitinə keçir: *saçlı-saşdı, suçlu-suşdu, qıçlı-qışdı.*

Məktəbdə aparılan təcrübədən məlum oldu ki, şagirdlər doğrudan da bu sözləri sərbəst şəkildə olduğu kimi deməkdənsə nitqin təsirinə uyğun qaydada tələffüz etməyin düzgün olduğunu düşünüb onları ikinci variantda deyirlər. Ancaq sözlərin özünü cümlədə işlətdikdə birinci varianta keçirlər. Bununla da şagirdlərə təklif olundu ki, sözlərin nitq variantını dəftərlərinə yazıb cümlədə işlətsinlər. Yoxlamadan göründü ki, onların bir qismi səhv yazır, digər bir qismi isə sözləri yazı variantında işlədirlər. Buradan da belə nəticəyə gəlmək olur ki, nitqə icbari qayda tətbiq etmədikdə fərqlər o qədər çoxalır ki, düzgün variantın hansı olduğunu tapmaq çətinləşir. Bu niyə belədir? Çünki biz nitq sərbəstliyinə lazım olduğundan artıq yol verdiyimiz üçün artıq çoxvariantlılığın vahid qaydaya salınmasında çətinliklərdən uzaqlaşmaqdansa yeni çətinliklərə qarşılaşırıq. Ancaq nitq mədəniyyətinin formalaşmasına yol açmaq istəyiriksə mümkün qədər norma vahidliyinə riayət etməyə çalışmaqla dilimizin informasiya funksiyasını keyfiyyətcə yeniləşdirməliyik.

d) *P l* yanaşması.

P l yanaşmasını *çək, kip, köp, ip, sap, gop* kimi sözlərə *la* ilə başlanan şəkilçi artırılmasında müşahidə etmək olur: *çəplik, kiplik, köplük, iplik, saplaq, sapla, saplı, gopla.*

Şagirdlərlə aparılan təcrübə zamanı onların hamısı, demək olar ki, həmin sözləri yazılış qaydasında tələffüz etdilər. Halbu ki, bəzi hallarda şifahi nitqdə *p* samitinin *f*-ya keçidi də müşahidə olunur: *çəplik-çəflik, kiplik-kiflik, köklük-köflük, iplik-iflik, saplaq-saflaq, safla, saflı, gofla.*

Şifahi nitqdə bu yol verilən hadisədir. Çünki kipləşən kar *p* samiti novlu, sonor *l* samitindən əvvəl gəldikdə onun tələffüzü novlu varianta keçməyə meylli olur. Ancaq yaxşı haldır ki, şagirdlər, birmənalı olaraq nitq variantını yazı variantında olduğu kimi çatdıra bilirdilər.

e) *Q l* yanaşması.

Bu cür yanaşmaya *haqq, qonaq, yarpaq, çıraq, çanaq, daraq* kimi sözlərə *l* ilə başlanan şəkilçilərin qoşulmasında rast gəlmək olur. Haqq sözü ərəb mənşəlidir. Bu sözə *lı* şəkilçisi qoşulduqda iki *qq* səsi *k* (dilarxası işlənən kar) səsinə çevrilir və söz *haklı* kimi deyilir. Bəzən isə bu sözün digər nitq variantı kimi *haxlı* kimi deyilişinə də rast gəlmək olur. Məktəbdə aparılan təcrübədən görünür ki, şagirdlər həmin sözü həm *haglı*, həm də *haxlı* kimi tələffüz edirlər. Nəzərə aldıqda ki, söz sonunda qoşa *qq* samitini olduğu kimi tələffüz etmək çətindir, onda *k* variantına daha artıq üstünlük vermək lazım gəlir. *Haxlı* variantı isə sözün tələffüzünü əslindən daha çox uzaqlaşdırar. Odur ki, bu variantı məqbul saymaq doğru olmaz. Azərbaycan dilinin özündə sonu *q* ilə bitən təkhecalı söz olmadığı üçün həmin mövqedə *q* səsi üçün əlavə tələffüz variantı axtarmağa ehtiyac qalmır. İkihecalı (və çoxhecalı) sözlərin sonunda *q* samitinin tələffüzünə gəlincə, burada yazıdan əlavə digər iki variant da peyda olur. Şərq arealı üçün *ğ* Qərb arealı üçün *x* (8, 35) *qonaxlıx-qonağlığ, yarpaxlı-yarpağlı, çıraxlı-çırağlı, çanaxlı-çanağlı, daraxlı-darağlı.*

Göründüyü kimi, burada yazı variantından əlavə iki nitq variantı üzə çıxır. Şagirdlər regiona görə Qərb arealına məxsus olduğu üçün onların da şifahi nitqində x variantı səsləndi. Əgər təcrübə Şərq arealına məxsus şagirdlər üzərində aparılsa idi onda da *x* variantı *ğ* variantına çevrilərdi. Bu cür variantlıqdan xilas olmaq üçün şagirdlərə təklif edildi ki, həmin sözləri *k* variantı üzərində tələffüz etsinlər: *qonaxlıq, qonaklı, çıraklı, çıraxlı*. Bununla da repsodentlərin özləri də etiraf etdilər ki, *k* variantı nitq üçün daha əlverişlidir. Ancaq bu etiraf hər şeyi həll etmir. Bunlar tədqiqat üçün nəzərə alınan nəticələrdir. Nitq normalarının stabilləşdirilməsi problemi ortaya çıxdıqda bu nəticələr nəzərə alına bilər.

2) söz sonunda kipləşən, novlu, kar şəkilçi əvvəlində işlənən və novlu kar samitlərin işlənməsi:

a) *T ç* yanaşması.

Bu samitlərdəki hər ikisi kipləşən kar səslərdir. Onların yanaşmasını aşağıdakı kimi sözlərdə müşahidə etmək olur*: cütçü, gözətçi, atçılıq*.

Bu sözlərin *t ç* yanaşması nitqdə *ç c* dəyişməsi ilə ifadə olunur: *cüççü, gözəççi, aççılıq*. Əlbəttə ki, bu sözlərin yazı qaydası üzrə tələffüzü çətindir. Çünki təcrübə aparılan zaman da şagirdlərin tələffüzündə *ç c* variantı üstünlük təşkil edirdi. Ancaq deyək ki, niyə Azərbaycan dilindəki ərəb mənşəli *ictimai* sözü bizim nitqimizdə iştimai kimi səsləndiyi halda fars dilində «*ectemai*» şəklində *c t* tələffüzü ilə deyilir. Məsələ budur ki, fars şifahi nitqində yazı normasına uyğunluq ənənəvi xarakterlidir. Doğrudur, ənənə yaratmaq uzun müddətin işidir. Ancaq normaların pərakəndə olmaması ilə əlaqədar buna da çalışmaq lazımdır.

b) *D r* yanaşması.

D samiti cingiltili kipləşən, *ç* isə kar kipləşəndir. Onların da qarşılaşması nitqdə *c ç* əvəzlənməsini verir: *öyüdçü-öyüççü, südçü-süççü, bələdçi-bələççi*.

c) *T s* yanaşması.

T samiti kipləşən kar, *s* samiti novlu kar səsdir. Onların yanaşması *ss* səslərinə keçid yaradır: *otsuz-ossuz, atsız-assız, tutsuz-tussuz.*

d) *D s* yanaşması.

D samiti cingiltili kipləşən, *s* isə novlu kar səsdir. Onların da qarşılaşması *ss* səslərinə çevrilmə ilə nəticələnir: *odsuz-ossuz, adsız-assız, dadsız-dassız*.

Bu tipli nümunələrin sayını artırmaq da mümkündür. Nəticə bundan ibarətdir ki, yazı və nitq arasında mümkün norma yaxınlığına aid variantlar müəyyən edilsin. Bu halda yazı və nitq arasında norma ənənəviliyinə nail olmaq mümkündür. Eyni zamanda norma vəhdətinə nail olmaq icbari yazı qaydalarının hamı tərəfindən mənimsənilməsi kimi vacib bir məsələnin həll edilməsi asanlaşmış olar.

İstifadə olunan ədəbiyyat

1. Abdullayev Ağamməd. Orta məkəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, «Maarif», 1978.
2. Abdullayev Məmiş. Samit səsləri öyrədərkən orfoepik vərdişləri necə inkişaf etdirirəm. – «Azərbaycan dili və ədəbiyyatı tədrisi», Bakı, 2004, № 1.
3. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik. (Müəlliflər: Rafiq İsmayılov, Gülşən Orucova, Dilruba Cəfərova, Zahid Xəlilov). Bakı, «Altun kitab», 2010.
4. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik. (Müəlliflər: Rafiq İsmayılov, Solmaz Abdullayeva, Dilrubə Cəfərova, Xanım Qasımova). Bakı, «Altun kitab», 2011.
5. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. (Müəlliflər: Rafiq İsmayılov, Fazil Ellazov). Bakı, «Altun kitab», 2008.
6. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. (Müəlliflər: Tofiq Hacıyev, Nizami Cəfərov, Nizami Xudiyev). Bakı, «Altun kitab», 2009.
7. Əfəndizadə Əziz. Orfoqrafiya, orfoepiya lüğəti. Bakı, «Azərbaycan Dövlət Nəşriyyatı», 1989.
8. Yusifov Mübariz. Nitq mədəniyyətinin əsasları. Bakı, «Mütərcim», 1998.

С. Абдуллаева

Обучение нормам целостности и морфологической деривации

Резюме

В формировании речевой культуры у учеников морфологическая деривация и её примеры имеют специальное значение. В процессе морфологической деривации конечный суффикс встречается в начало. Во время этой стыковки становится трудным произношение в речи, а если нет то создаётся равноправная норма для письма и устной речи. Осваивая происхождение этих слов ученики развивают и свою творческую способность и с другой стороны готовятся рассудительно, интеллектуально и психологически следовать правилам целостности писание и произношения других слов.

S. Abdulloayeva

The teaching of norms intergrity and morfological derivation

Summary

İn formation of speech culture of students the morhological derivation and it is examples have special meaning. İn process of morpological derivation the last suffix becomes to the begining.

The pronsunciation becomes very difficult vhen it happenc, and if not it makes equal norm right for speech and writing. Learning the provenance of these words the students develop their creative work and also they prepare reasonable, intellectual and psychological folov to rule sof integrity of writing and pronunciation of other words.

Rəyçi: Professor Telman Quliyev

MEHRİBAN MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
E-mail: mehri-67@mail.ru

MÜASIR TÜRK DİLLƏRİNDƏ "KİTABİ– DƏDƏ QORQUD" LEKSİKASI İLƏ SƏSLƏŞƏN VAHİDLƏR

Açar sözlər: Müştərək sözlər, daxili quruluş, sözlərin reablitasiyası, etnik təfəkkür, qədim mənbələr

Ключевые слова: Общие слова, внутренняя структура, реабилитация слов, этническое мышление, древние источники

Key words: Common words, internal structure, words rehabilitation, ethnic thinking, ancient sources

Kitabi – Dədə Qorqud" un dilində işlənən sözlər ümümtürk əsaslı olduğu üçün onların içərisində həm mənbələr üzrə, həm də müasir türk dillərinin leksik tərkibi üzrə müştərək işlənən vahidlər vardır.

Müştərək sözlər bir – birindən, demək olar ki, bir çox hallarda fonomorfoloji quruluşuna görə fərqlənir. Mənaya görə belə sözlərdə müştərəklik müşahidə edilir.

"Kitabi – Dədə Qorqud"un dilindəki sözlərin başqa dillərlə müştərəkliyi türk xalqlarının diferensiallaşmadığı dövrün məhsulu kimi səciyyələndirilə bilər. Dillərarası müştərəklik eyni zamanda, qəbilələrarası, xalqlararası, etnik təfəkkürün, mədəniyyətin, məişətin, sosial – siyasi və ictimai birliyin təcəssümü kimi özünü göstərir. Sözlərin bir – birindən fonomorfoloji fərqləri isə onu göstərir ki, bu xalqlar (və ya qəbilə və tayfalar) nitq arealı cəhətdən müəyyən məsafədə yerləşmişlər. Mümkündür ki, ən qədim dövrə aid yazılı nümunələrdə həmin fərqlər mövcud olmasın. Ancaq belə mənbələri əldə etmək mümkün olmadığından belə bir qənaətə gəlmək mümkündür ki, ən qədim dövrlərdə yazı mədəniyyəti olsaydı belə, qəbilələrarası, tayfalararası məsafələrin mövcudluğu mərhələsində şifahi nitq üzrə bu və ya digər fərqlənmələrin mövcudluğu istisna sayılmamalı idi. Bu cür fərqlər nitq səviyyəsində olduğu üçün onları, hətta, zamanına görə dialekt – şivə fərqləri də adlandırmaq olar. Dildə nitq fərqlərinin meydana çıxmasına təsir göstərən ən əsas amillərdən biri dilin daşıyıcılarının yayılma prosesindən ibarətdir. Bunula da nitq fərqlərinin mövcudluğunu nəzərə almaqla belə bir fikir söyləmək olar ki, dialekt fərqlərinin meydana çıxması məhz bu xalqın şimaldan cənuba, şərqdən qərbə yayılmasının başlanğıc mərhələsinə təsadüf edən bir proses hesab edilməlidir.

"Kitabi – Dədə Qorqud"un dilində həmin mərhələni səciyyələndirən aşağıdakı kimi leksik vahidləri misal göstərmək olar:

Ağırlamaq

Ağırlamaq sözü "Kitabi – Dədə Qorqud"un dilində hörmət göstərmək, uca tutmaq mənasında işlənmişdir: " Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. Dügün etdi. Qalın oğuz bəglərini *ağırladı"* (7, 93). "Ozan, evin tayağı oldur ki, yazıdan – yabandan evə bir qonaq gəlsə, ər adam evdə olmasa ol anı yedirər, içirər*, ağırlar* əzizlər göndərər"(7, 33).Mahmud Kaşğarinin "Divani – lüğət – it türk" əsərində də *ağırlamaq* həmin mənadadır: "Ər ağırlandı" (Adam əzizləndi); " Tanrı məni *ağırladı*"(2, 20) (Tanrı mənə kərəm etdi).

Türk dillərinin qədim mənbələrində də *ağırlamaq* sözünün *hörmət göstərmək, ehtiram etmək, əzizləmək, uca tutmaq* mənaları qeydə alınmışdır: *Ağırladı* elug bu ay toldım, açığ berdi elgin ögdini" (Nəhayət, hökmdar Ay – toldını mükafatlandırdı (ona ehtiram etdi), əli ilə mükafat verdi, dili ilə tərif etdi) (2, 19)

Əbu Həyyanın lüğətində də *ağırlamaq* sözü ehtiram, hörmət mənasında qeydə alınmışdır.(3, 18). " Kitab Gülüstan ət türk" adlı mənbədə də *ağırlamaq* sözü eyni mənadadır: " Kəbə tonun keyər *ağırlar* xəlq" (Xalq ehtiram göstərib Kəbə paltarın geyər. (10, 143).

Ağırlamaq sözü Azərbaycan dilinin klassik mənbələrində işlənərək hörmət, ehtiram, qiymətləndirilmək, uca tutmaq mənası bildirmişdir:

Ağırla Qövsini bir daş ilə ki, sormazlar
Şəh ol gədayi – səri – kuyin anmağa bais
(Qövsi Təbrizi)

Qıymadın sakini – kuyin olana peykanın
Bir içim su ilə *ağırlamadın* mehmanın
(Məhəmməd Füzuli)

Ağırlamaq sözüAzərbaycan dilinin yerli dialekt və şivələrində də öz izini saxlamaqdadır. Rəsul Rüstəmov *ağırlamaq* sözünün yerli dialektlərdə *ağırramaq* şəklində işləndiyini və bu sözün əzizləmək, hörmət etmək, çox qiymətləndirmək, hörmətlə qarşılanmaq mənasında olduğunu göstərir (9, 72).

E. Əzizov bu sözün Xanlar (Göygöl), Cəbrayıl, İsmayıllı şivələrində *ağırra* şəklində hörmət etmək, ehtiram etmək, hörmətlə anmaq, çox qiymətləndirmək, hörmətlə qarşılamaq, qonaq etmək, yada salmaq, əzizləmək mənaları bildirdiyini qeydə almışdır: Xanlar (Göygöl) şivəsində ; "Sizi,qadan alım, yaxşı *ağırrıyammadıx"* (4, 299).

Ağırlamaq sözü Azərbaycan dilində köhnəlsə də, türk dilində hazırda ehtiram etmək, hörmət göstərmək mənasında işlənməkdədir (5, 8)

Ağırlamaq sözünün quruluşuna gəlincə kök burada *ağ* morfemindən ibarətdir. *Ağ* morfemi müasir dilimizdə rəng bildirən sifət kimi işlənir. Bu kökdən düzələn *ağır* sözündə isə rəng əlaməti hiss olunmur. Deməli, *ağırlamaq* sözünün kökündəki *ağ* morfemi, sinkretik formanın bir nümunəsidir. Belə ki, *ağ* morfemində rəng bildirməklə yanaşı, həm də hündürlük, ucalıq, böyüklük anlayışı da ümumiləşmişdir. Bu məna *ağ* kökünün indi ayrı – ayrı mənbələrdə saxlanılan izlərində də müşahidə edilir. *Ağ* kök morfeminə aid olan hündürlük mənasına türk dillərinin qədim yazılı abidələrində rast gəlmək olur; "Ağdı bulıt kökrədi" (Bulud qalxdı, kükrədi) ; "Yaylaq tağına *ağıran* yaylayır turur men" (Mən dağlara qalxıb yayı orada keçirirəm) ; "Ağdı qızıl bayraq" (Qırmızı bayraq qalxdı) (2, 16)

Ağ sözünün hündürlük, ucalıq, yuxarı qalxmaq mənası yerli dialekt və şivələrdə də saxlanılır. Rəsul Rüstəmov sadə fellərdən bəhs edəndə onların arasında *ağ* morfeminin də olduğunu göstərir (9, 25)

Ağ sözünün yuxarı və qalxmaq mənası Füzuli rayonunun danışıq şivələrində də saxlanılır: " Qoyun dağa agdı" (Qoyun dağa qalxdı), "Qoymagınan yük *ağmaz* olsun" (Qoyma yük bir tərəfə qalxsın) (1, 20)

Ağ kökündən, həmçinin, *ağnamaq* sözü də düzəlmişdir ki, onun da mənası badan, yuxarıdan uçub tökülmək kimi başa düşülür: " Öy ağneyif tökülür" (Qazax) (1, 21)

Buradan məlum olur ki, öz daxilində *ağ* (sifət) və feli bildirən qədim sinkretik *ağ* kökü bazasında həmçinin *ağır* (çox, artıq) və onun məcazlaşmış tərəfindən *ağırlamaq* (uca tutmaq) sözü yaranmışdır. İstər qədim və ustərsə də müasir türk dillərində bu sözün mövcudluğu ta qədimdən bu xalqda qarşılıqlı ehtiram mədəniyyətinin yüksək olduğunun göstəricisidir.

Bəbək

Bəbək sözü "Kitabi –Dədə Qorqud" da körpə uşaq mənasında işlənmişdir: "Sən gəlürsən, bir *bəbəgün* görünməz" (7, 94) " Onun kiminin, xanım, *bəbəgləri* bitməsün, ocağına buncılayın övrət gəlməsün"(6, 14)

Müasir Azərbaycan dilində bu söz *bəbə* işlədilir, həm uşaq, həm də kukla mənası bilidirir; " A qızım, ala, saa bir yaxşı *bəbə* almışam" (Gəncə) (1, 66)

Bəbək sözü müasir türk dillərində körpə uşaq mənasında işlədilir. Dilləararsı diferensiallaşmaya müvafiq olaraq sözün bir – birindən o qədər də ciddi fərq yaratmayan variantları mövcuddur. Belə ki, həmin söz türk dilində *bebek*, türkmən dilində *bəbek,* qırgız dilində *böbök*, uygur dilində *bovak,* qazax dilində *böve* şəklində işlədilir. (5, 56 -57)

Azərbaycan dilində *bəbək* sözü bir qədər mənasını dəyişərək gözün qarası, giləsi mənasında məcazlaşmış şəkildə işlədilir. Övlad azərbaycanlı ailəsində daim əziz tutulduğundan onu gözün giləsi ilə müqayisə edərək göz kimi əziz tutmuşlar. Təsadüfi deyildir ki, Azərbaycan dilində əziz övlad mənasını bildirən "gözümün ağı – qarası" ifadəsi də formalaşmışdır.

Qaqmaq.

"Kitabi – Dədə Qorqud"un dilində *qaqmaq* feli birbaşa mənada vurmaq, məcazi mənada tənə etmək kimi işlədilir: " Əgər çobanla varacaq olsam Qalın Oğuz bəgləri bənim başıma qaxınc qaxarlar" (7, 46) . Çoban ərgəcə *qaqdı* iləri vardı (7, 98) . Nə *qaqırsan* mana ağam Qazan" (6, 34).

Qaqmaq sözü qədim türk mənbələrində də vurmaq, tənə etmək mənasında işlənmişdir; " Ani başra *qaqtı"* (O onun başına vurdu); " Yaşmat qılıç başım üstə *qaqqıl* yara" (qılıncı yağının başı üstündə parildat, onu vur, yarala).(2, 422).

Əbu Həyyanın lüğətində *qaqmaq* sözünün vurmaq, döymək mənaları qeydə alınmışdır:(3, 45) . " Kitab Gülüstan bit – türki " də *qaqmaq* sözünün vurmaq, döymək mənasına aid nümunəyə rast gəlmək olur; " Düşmən işikin kakmağıl" (Düşmənin qapısını döymə) (10, 56).

*Qaxmaq s*özü Azərbaycan dilinin klassik yazı nümunələrində də vurmaq, tənə etmək mənalarında içlənir:

Müddəi tən edibən başıma *qaxar* eşqin
Sınığa vacib deyildir bunca atmaq daşlar

(Nəsimi)

Qaxarsan başıma gahi çaranı
Gah deyərsən işə tutar qonağı

(Zakir)

Vaqifin bağrını qana döndərdin
Seyrəqivi üstümüzə əndərdin
Pünhan mənə bir nişanə göndərdin
Aşkarda başıma *qaxmağın* nədir?

(Vaqif)

Qaxmaq sözü Azərbaycan dilinin yerli şivələrində də həm vurmaq, həm də tənə etmək mənalarında işlənir: "Əlümnən alub elə qaxdi yerə ki, parça – parça uldi. (Quba, Bakı): " Sən də bir yaxşuluğ eləmisən, həməşə *qaxasan* başıma (Quba) (1,123).

Qaxmaq sözü başqa türk dillərində *kakmak* fonetik tərkibində işlədilməkdədir. Sözün türk dillərində eyni və oxşar mənalarda işlədilməsi bu xalqların etnik təfəkkürünün, məişət həyatının və psixoloji – emosional düşüncəsinin eyni qaynaqdan qidalanmasının bariz göstəricisidir.

Yağı

Yağı sözü "Kitabi –Dədə Qorqud" un dilində düşmən mənasında işlədilir: "Yağı getdi, düşmən irdi" (7, 91) " Qazan bəy, üzərimizə yağı gəldi. Bu yağıyı üzərimizdən irirsən, səni qoyu verim, - dedi. – həm xəraca müti ollam. Sən dəxi and iç ki, bu bizim elə yağılığa gəlməyəsən, - dedilər. (6, 146).

Yağı sözü qədim türk mənbələrində də düşmən mənasında qeydə alınmışdır:"Tam *yağığ* yağıladım" (Yad düşmənlə vuruşdum) : " Tabğac kağan yağımız erti" (Tabğacların xaqanı yağımız oldu). (2, 224)

Yağı sözü Azərbaycan xalq ədəbiyyatı nümunələrində düşmən mənasında işlədilir:

Dörd tərəfin *yağı* düşmən tutubdu
Belə nə yatıbsan, ayıl, Eyvaz xan

Alıb piyaləni içdim saqidən
Qorxmaram hər yetən qanlı *yağıdan*
"Koroğlu" dastanı

"Koroğlu" dastanında işlənən *"yağı qoruğu*" adı da qoruqdan (sərhəddən) kənardakıların yad və düşmən olduğunu xatırladır. Məhz sərhəd (qoruq) ona görə lazımdır ki, içəri ərazilər düşməndən qoruna bilsin.

Yağı sözü şifahi dildə daha çox düşmənlə bağlı, düşmənin törədəcəyi yamanlıqların qabarıqlaşdırılması məqsədi ilə müəyyən tərkiblərdə daha çox işlədilir: " *Yağı* kimi qış gəlmək", " *Yağı* düşmən kimi baxmaq", "Göz yağı yemiş kimi durmaq" və s.

Yağı sözü qədim məna ənənəsi üzrə müasir türk dillərində də işlədilir. Bu söz müasir türkmən dilində *yaqı,* başqırd dilində *yav,* qazax dilində *yav*, tatar dilində *yav* şəklində işlədilir. (5, 197).

Yağı sözünün kökü *yağ (yav)* morfemindən ibarətdir. Bu kökdən *yağma* sözü də düzəlmişdir ki, hazırda *yağma* sözü ərəb mənşəli *qarət* sözünün təsiri ilə köhnələrək işləklikdən çıxmışdır. " Kitabi – Dədə Qorqud"un dilində də *yağma* sözü *qarət* mənasında işlənmişdir(6, 28).Yağma sözü Füzulinin dilində də qarət mənasındadır;

Gözün kim guşeyi mehrab tutmuş dün qılır *yəğma*
Bu mümkün etmək olmaz fərq kafirdən müsəlmanın.
Qurtarmağa *yəğmayi* – qəmindən dilü canı
Səyin nəzəri nərgisi – fəttanın üçündür.
(Füzuli)

Yağma sözü qədim türk yazılı mənbələrində də eyni məna bildirir: "Eçümiz apamız Bumın Kağan tört bulunığ kısmıs, yaymıs, basmıs " (8, 53).

Qarət sözü *yağma* sözünü üstələdiyi kimi, vaxtı ilə fars mənşəli *düşmən* (doşman) sözü də *yağı* sözünü assimilyasiyaya uğratmışdır. Bunula belə türk dillərinin abidələrində və müasir dillərdə qalan reliktlər bu dillərin daşıyıcısı olan xalqların qədim etnik – psixoloji və mədəni – məişət vəhdətini təcəssüm etdirən nümunələr kimi yaşamaqdadır.

Bu tipli sözlər türk dilləri abidələrində çoxdur. Onların araşdırılması və təhlil edilməsi, müəyyən məqamlarda köhnəlmiş sözlərin reablitasiyası baxımından əhəmiyyətli olardı.

Ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, "Azərbaycan SSR EA" nəşr.,1964.
2. Древнетюркский словарь. Л., " Наука", 1969
3. Əbu həyyan əl - əndəlusi. Kitab əl – idrak lisan əl - ətrak
4.Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. "Bakı Dövlət Universiteti" nəşr., 1999
5. Karşılaştırmalı türk lehceleri sözlügü (Kılavuz kitab), Ankara, " Başbakanlık Basımevi. 1989
6. "Kitabi – Dədə Qorqud", Bakı, Azərbaycan Dövlət nəşr., 1962
7. "Kitabi – Dədə Qorqud" , Bakı, "Yazıçı", 1989
8. Rəcəbov Ə. , Məmmədov Y. Orxon – Yenisey abidələri. Bakı, "Yazıçı", 1993
9. Rüstəmov R. Azərbaycan dilinin dialekt və şivələrində fel. Bakı, Azərbaycan SSR EA nəşr. 1965
10. Seyfi Sarayi. Gülüstan tərcüməsi ("Kitab- Gülüstan bit türki"). Ankara, Türk tarih kurumu Basımevi 1989

Мехрибан Мамедова

Лексика « Китаби – Деде Коркут» в современных тюркских языках

Резюме

В «Книге –Деде Коркут» много общих слов с современными тюркскими языками. Общие слова можно встретить как в древних письменных источниках, так и в словарях современных тюркских языков. Наличие общих слов свидетельство психологического, социального, культурно – бытового единства тюркских народов. Несмотря на дифференциацию тюркских народов, общие слова не потеряли своих первоначальных древних значений. В ходе межъязыковых сближений возможно использование реабилитации таких слов.

Mehriban Mammadova

Lexica of "Kitabe –Dede Qorqud "in the modern Turkic languages

Summary

There are a lot of common words in "Kitabe –Dede Qorqud " and the modern Turkic languages. The common words can be found as in the ancient written sources as in the vocabulary of the modern Turkic languages. Existence of the common words is the witness of psychological, social and cultural unity of Turkic nations. In despite of differentiation of Turkic nations, the common words don't lose their original ancient meanings. It is possible to use rehabilitation of these words in the process of inter- languages unification.

Rəyçi: Professor Yusifov Mübariz

ESMİRA QULİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Tibb Universiteti

MİLLİ DÖVLƏTÇİLİK VƏ DİL PROBLEMLƏRİ

Açar sözlər: milli dövlətçilik, qloballaşma siyasəti, Dövlət proqramı, dövlətçilik ənənələri, dilə sevgi.

Ключевые слова: национальная государственность, глобализация политики, государственная программа, традиции государства, любовь к языку.

Key words: national statehood, globalization policy, state program, statehood traditions, love towards the language.

İnsanlar, xalqlar və ölkələr kimi dillərin də özünəməxsus tarixi, taleyi və obrazı vardır… Genoloji təsnifat baxımından türk dilləri qrupuna daxil olan Azərbaycan dilinin tarixi inkişafı assosiativ əlaqə və münasibətlərlə xarakterizə olunur. Leksik, qrammatik və semantik-funksional cəhətlərə görə bir-birinə çox yaxın olan türk, türkmən və qaqauz dilləri ilə eyni yarımqrupda (oğuz dilləri) olan Azərbaycan dilinin təşəkkülü və inkişafı III-VIII yüzillikləri əhatə edir. Artıq XI əsrdən oğuz tayfa dilinin təsiri ilə formalaşan Azərbaycan dili sonralar mükəmməl ədəbi dil kimi sənət-ədəbiyyat dilinə çevrilə bildi.

Müəyyən zamanlar kəsiyində işğallar nəticəsində ana dilimizin adı qəsdən dəyişdirilmiş, «Türki», «Türk dili», «Azərbaycan türkcəsi», «Tatar dili», «Qafqaz tatarlarının dili» və s. adlandırılmışdır.

1921-ci ildə Nərimanov D.Bünyadzadə ilə birgə Azərbaycan SSRİ-də dövlət dilinin türk dili olması ilə bağlı dekret imzaladılar. Elə həmin ildə Azərbaycan Sovet Sosialist Respublikasının ilk Konstitusiyası qəbul olundu və oraya dövlət dili haqqında maddə əlavə olunmadı. 1924-cü ildə isə Mərkəzi İcraiyyə Komitəsinin Azərbaycanda dövlət dilinin türk dili olması ilə bağlı qərarı qəbul edildi.

1936-ci ildə Azərbaycanın yeni Konstitusiya layihəsi hazırlanarkən orada Azərbaycanın dövlət dili türk dili kimi qeyd edilir, lakin 1937-ci ilin aprel ayında qəbul olunan əsas qanunda dövlət dili haqqında maddə salınmır. Nəhayət, 1956-cı ildə Azərbaycanın 1937-ci ildə qəbul olunmuş Konstitusiyasına «Azərbaycanın dövlət dili Azərbaycan dilidir» məzmunlu bənd artırılır.

Dövləti, dövlətçilik ənənəsini və dili qoruyub saxlamaq mübarizliyi və ənənləri Azərbaycan xalqının tarixində həmişə ağır sınaqlarla üz-üzə qalıb. Hələ 60-cı illərdə ölkədə bütün rəsmi, eyni zamanda qeyri-rəsmi yığıncaqlar rus dilində aparılır, sənədləşmə işləri rus dilində tərtib olunur və kiçik bir təşəbbüslə Azərbaycan dilinə sevgi aşılamaq cəhdi belə «millətçilik» ittihamı ilə nəticələnirdi. Həmin zamanda Heydər Əliyev hakimiyyətə gəldi. Öz müdrik siyasəti ilə «ali»lərin hökm və qərarları sırasına yeri düşdükcə, məqam tapdıqca ölkənin, millətinin və dilinin xeyrinə tarixiləşən, gələcək nəsillər üçün dəyərli faktlara çevrilən maddələr daxil edirdi. «Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və ilbəil zənginləşibdir» fikrini ortaya qoydu. Daha sonra H.Əliyev yazırdı ki, Azərbaycan ədəbi dilinin sağlığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir, ədəbi dilin tə-

rəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Lakin mədəniyyətin və elmin səviyyəsi yüksəldikcə həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, onun söz ehtiyatının zənginləşməsinə daha çox qayğı göstərmək lazımdır. Məhz Heydər Əliyevin prinsipial və qətiyyətli yanaşması nəticəsində 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyasının 73-cü maddəsində Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi hər bir azərbaycanlıda ümummilli liderə qarşı rəğbət doğurur. Ulu öndərin 18 iyun 1996-cı ildə Nazirlər Kabinetinin geniş iclasındakı çıxışı da unudulmayıb. O bildirmişdi ki, bizim rəhbər vəzifəli şəxslərə bir neçə dəfə xəbərdarlıq etmişəm ki, Azərbaycan Respublikasının dövlət dili-ana dilimiz Azərbaycan dilidir. Hər yerdə, bütün sənədlərdə, iclaslarda, dövlət dili işlənməlidir. Təsssüf olsun ki, bəzi rəhbər şəxslərimiz Azərbacyan dilini zəif bilir, onlar dövlət dilini bilmək üçün tədbirlər görməlidirlər…

H.Əliyevin bu dil sevgisi bizə XVI əsrdə Azərbaycan dili uğrunda mübarizə aparmış Şah İsmayıl Xətaini və 1919-cu ildə ADR cümhuriyyəti dövründə hərbi nazir işləmiş Səməd bəy Mehmandarovu (o, bütün millətlərdən olan hərbçilərə vaxt vermişdi ki, Azərbaycan dilini öyrənsinlər. Əgər öyrənməsələr, tutduqları vəzifədən azad olunacaqlar) xatırlatdı.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin alı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti Azərbaycan Respublikası Prezidentinin Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında 2001-ci il 18 iyun tarixli 506 nömrəli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2006-cı il 9 avqust tarixli 522 nömrəli fərmanları, eləcə də «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikasının qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarının icra mexanizmini müəyyən etmişdir.

Bu gün ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilən Azərbaycan dilinə sevgi təkcə sadə vətəndaş və ya alim, yazıçı, siyasətçi münasibəti ilə ölçülmür, deməli, bu dili qorumaq və yaşatmaq üçün ona bir rəhbər sevgisi də lazımdır. Bu baxımdan ümummilli liderin layiqli davamçısı cənab İlham Əliyevin də dilimizin təəssübünü və şərəfini qoruyan tədbirlərini xatırlamalıyıq. Məsələn, o 23 may 2012-ci il tarixdə «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında» sərəncam imzalayıb. Bu sərəncam da millət və dil sevgisi, qayğısı zərurətinin nəticəsi kimi meydana çıxıb. Sərəncamda göstərilir ki, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilmir. Ədəbi dilimiz özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə biruzə verir. Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu

çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal alıb. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi, bir qayda olaraq, yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»nda deyilir ki. bu gün Azərbaycan dilinin mili dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyədə yüksəldilməsini tələb edir.

Burada xalqımızın görkəmli oğlu, təcrübəli dövlət xadimi, hərbi sərkərdə və məşhur şair S.İ.Xətainin bir kəlamını söyləmək yerinə düşər. O, gəncliyimizə nəsihətində yazmışdır.

«Vətənin bir ovuc torpağını bir ovuc altundan, dilimizin bir kəlməsini bir ölçü mücövfərindən üstün bildim. Dilimizin və Vətənimizin əbədiyyən yaşaması üçün əlimdən gələni etdim. Məni lənətlə yad etməyin! Yaxşı nə etdimsə davam etdirin, xətalarımı təkrar etməyin… Atalar sizə üç əmanət qoyublar: Dilimiz, Qeyrətimiz, Vətənimiz!»[1]

Bu gün küçə və meydanlardakı reklamlarda, elanlarda afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının, etik normalarının pozulması təkcə dil-nitq mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin aşağı düşməsinin göstəricisinə çevrilib.

Azərbaycan Respublikası Prezidentinin dünya azərbaycanlılarının birliyi, həmrəyliyi uğrundakı fəaliyyəti və yorulmaz mübarizəsi, sözsüz ki, ictimai-siyasi mahiyyəti ilə yanaşı, dil birliyi və dilimizin inkişafı naminə görülən işlərin əhəmiyyətini də artırır. Çünki hər bir dilin arxasında milli qürur, ləyaqət, mənviyyat, o dildən istifadə edənlərin elmi-intellektual baxışları, ədəbi-estetik zövqləri, duyum və həssaslıq ölçüləri dayanır.

Alman yazıçı-filosofu Hermann Hesse yazırdı ki, yazıcı dilin kasıblığından və mükəmməl olmamasından çox əziyyət çəkir, nəinki başqa şeylərdən. Bəzən onun dildən zəhləsi gedir, onu günahlandırır və lənətləyir, ən çoxu da özünü ki, belə küt alətlə işləmək məcburiyyətindədir…

Biz anadilli ədəbiyyat tariximizi araşdıranda Azərbaycan dilinin tarixə meydan oxuyan ərəb və fars dilləri ilə bərabər fəlsəfi-estetik ideyaları ifadə edə bilmək potensialını açıq-aydın görürük. Hal-hazırda bu dildə danışan 50 milyon azərbaycanlının etnik psixologiyasında, ictimai-siyasi düşüncəsində və mədəni-etik münasibətlərində həmin dilin poetikası, fikri həssaslıqla ifadə edə bilən incə çalarları spesifik əlamətlər kimi diqqəti cəlb edir.

Orta əsrlərdə üç dildə-türk, ərəb və fars dilində yaradılan Azərbaycan elmi, ədəbiyyatı və eləcə də sonrakı dövrlərdə bütünlükdə mədəniyyəti haqqında müstəqil azərbaycanlı təfəkkürü ilə söz demək üçün XX əsrin 30-cu illərində formalaşmağa başlamış Azərbaycanşünaslıq kimi bir elm sahəsinin fəaliyyətini artırmaq zərurəti yarandı. «Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarixşünaslıqdır. Onun (Azərbaycanşünaslığın) işi həmin elmlərin hər

birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan (və Azərbaycan xalqı!) haqqında ümumi elmi təsəvvür yaratmaqdan, Azərbaycanın (və Azərbaycan xalqının!) dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir ki, onların məhz Azərbaycana (Və Azərbaycan xalqına!) mənsubluğu bir kompleks olaraq şübhə doğurmasın… Lakin bir məsələ də var ki, bütün bunlar Azərbaycanın (və Azərbaycan xalqının!) mədəni-mənəvi, siyasi-ideoloji mənafeyinə xidmət etməlidir».[1]

Böyük inkişaf yolu keçmiş qədim ədəbi dillərdən biri olan («Kitabi Dədə Qorqud» faktını yada salsaq 1300 ildən çox yaşı olan) dilimizin adı artıq qəti şəkildə stabilləşib: Azərbaycan dili.

«Taleyimiz elə gətirib ki, məsələn, bizə tatar deyiblər. Amma biz tatar deyilik axı. Neçə illər bizə tatar deyiblər. Elə Həsən bəy Zərdabi də özünə tatar deyibdir, o birisilər də özünə tatar deyiblər… Gəlin, türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, başqırd dili var, türkmən dili var, kumuk dili var. Demək, bu türkdilli xalqların da hər birinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qruppa daxildir. Amma hər birinin öz adı var… Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm?»[1] (Heydər Əliyev).

Elmi-mədəni və siyasi-iqtisadi cəhətdən sürətlə inkişaf etməsi nəticəsində müasir Azərbaycan dilinin lüğət tərkibi də zənginləşir. Onun bütün üslublarında (işgüzar, mətbuat, bədii, elmi, məişət) bu inkişaf və zənginləşmə prosesi nəzərə çarpacaq dərəcədə hiss olunur.

«Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanında (18 iyun 2001-ci il) deyilir ki, dilçilik elmimiz XX əsrdə sürətli inkişaf dövrü yaşamışdır. Həmin dövrdə ədəbi dilimizi tədqiq edən Bəkir Çobanzadə, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalov və başqa dilçi alimlərimizin böyük ordusu yaranmışdır. Dərin qürur və fərəh hissi ilə demək olar ki, Azərbaycan dilçiliyinin gərgin əməyi sayəsində dilçiliyin bütün sahələrində səmərəli işlər görülmüş, dil tarixi, dialektologiya, müasir dil, lüğətçilik sahələrində dəyərli tədqiqatlar aparılmışdır.

«…dilçilik ana dilinin düzgün dərk olunmasına, yaxşı mənimsənilməsinə kömək edən bir elmdir. Bu elm insanda ana dilinə şüurlu münasibət bəsləməyi aşılayır. Məlum olduğu kimi, insan kiçik yaşından ətrafdakılarla ünsiyyətə nitq vasitəsilə alışır. O, dili başqasından eşidərək qeyri-şüuru dərk edir. Belə dərketmə prosesində isə çox zəngin xəzinə olan dilin bütün xüsusiyyətləri, incəlikləri öyrənilə bilmir. Dilin bütün cəhətlərinin öyrənilməsinə imkan yaratmaq dilçiliyin üzərinə düşür» [1].

Bəli, bu gün də bu ənənə davam edir. Çağdaş dilçilik elmimizin nümayəndələri bütün ruhu, tarixi-genetik yaddaş sevgisi ilə rəğbət bəslədiyi dilin tədqiqi və təbliği ilə məşğuldur.

Dilimizi sevək. Çünki sevdiyin dildə danışanda, yazanda bütün fikirlər səmimi, düşündürücü olur və ən əsası dil çoxcəhətli bir ictimai hadisə kimi dövlət, eyni zamanda dövlətçilik siyasətinin ən mühüm ifadə vasitəsidir.

Sonda qeyd edə bilərik ki, indi Azərbaycan dilinin özünəməxsus inkişaf qa-

nunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orda rahat işlədilə bilməsin.

Amma bununla belə, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin ümumtəhsil və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, mili-mədəni inkişaf tarixmizin tələblərinə cavab verən tətbiqi işinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Azərnəşr, 1996
2. Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli Fərman. «Azərbaycan müəllimi» qəzeti 21-27 iyul 2001.
3. «Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu» Xalq qəzeti, 04 yanvar 2003.
4. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında» 23 may 1912-ci il.
5. S.İ.Xətai. Seçilmiş əsərləri. I cild, Bakı, 2004.
6. A.Qurbanov. Ümumi dilçilik, Bakı, «Maarif» 1977.
7. «Azərbaycan» qəzeti, 9 noyabr 1995
8. N.Cəfərov. Azərbaycanşünaslığın əsasları. Bakı, «Pedaqogika», 2005

Е. Гулиева

Национальная государственность и языковые проблемы

Резюме

В статье затронуты национальная государственность и языковые проблемы историко-культурного развития, а также языковая политика в области применения азербайджанского языка в стране.

Отмечается также и то, что настоящая эпоха глобализации, характеризующаяся ускоренным развитием науки и техники, требует улучшения проводимых нами мероприятий, расширения, обогащения и применения родного языка на новом уровне. Предстоит еще огромная работа в области изучения и применения родного языка.

Имеется большая необходимость в усовершенствовании Азербайджанского языка в общеобразовательных и высших школах страны, надо вести работу, соответствующую современным мировым стандартам и требованиям национально – культурного развития.

E. Guliyeva

National statehood and language problems

Summary

In the article the questions of national statehood and language was researched in light of historical and cultural development and up-to-date problems in the field of application of Azerbaijani language were touched.

It is also noted that in this rapidly growing globalization period of our language, it must be improved, enriched and also used on a new level.

We have got a lot of work in improving of our native language. We need the improvement of the Azerbaijani language in such up-to-date standard that it might respond the requirements of national and cultural history of our present day life.

Rəyçi: dosent Akif Miriyev

LƏTAFƏT ƏLİYEVA
BDU filologiya üzrə fəlsəfə doktoru

SÖZ BİRLƏŞMƏSİ KONTEKSTİ VƏ NİTQ SİTUASİYASI

Açar sözlər: kontekst, söz birləşməsi konteksti, nitq situasiyası, kontekstual münasibətlər, çoxmənalılıq.

Ключевые слова: контекст, контекст словосочетаний, речевые ситуации, контекстуальные отношения, многозначность

Key vvords: context, context of word combinations, speech situations, contextual relationships, polysemy.

«Kontekst» latın mənşəli məntiqi- linqvistik termin olub contextus- «birləşmə», «əlaqə» mənasındadır. Kontekst- mətnin, şifahi və yazılı nitqin tamamlanmış, bitmiş, bütöv parçası, hissəsidir, kontekst ümumi nitqin situasiyasıdır. Konkret dil vahidləri kontekst əhatəsində yerləşir. «Kontekstdə sözün kontekstual əlaqəsi formalaşır. Terminlər kontekstual mühmitdə təyin olunur» (1, s. 238-239).

«Kontekst» termininin nitqin və mətnin kəsiyi, parçası olması, söyləm yaratması, nisbi tamlıq xüsusiyyətinə malik olması lüğətlərdə, ayrı-ayrı tədqiqatlarda göstərilmişdir. Kontekstə qeyri-müəyyən sintaktik bütöv, sözün mənasını, yaxud məntiqi funksiyasını müəyyənləşdirən konkret nitq aktı və s. kimi yanaşanlar da var. N.Amosova «kontekst» terminini iki mənada işlədir: 1) «tekst» mətn sözünün ekvivalenti kimi; 2) bir neçə cümlədən, hətta bir neçə abzasdan ibarət qeyri-müəyyən nitq parçası (2, s. 22).

İ.Məmmədov «kontekst» terminini işlədərkən, ən azı iki müstəqil mənalı sözün birləşməsini nəzərdə tutur. Belə xüsusi tipli birləşmələrdə komponentin biri digərinin konkret mənasının təzahürünə şərait yaradır, onun ümumi şəkildə mümkün olan bir çox mənalarından yalnız birini nəzərə çarpdırır» (3, s. 252).

Çoxmənalılıq dildə bir neçə məna çalarlıqlarına malik olan sözün əsas xüsusiyyətlərindəndir. Çoxmənalı sözün nitqdə hansı məna ilə çıxış etməsi onun düşdüyü vəziyyətdən, kontekstdən asılıdır. Sözün çoxmənalılığı ilə kontekst, söz mühiti arasındakı münasibət məsələsi həmişə mübahisə yaratmışdır. Çoxmənalılıqdan bəhs edən dilçilər, bir qayda olaraq, konktekst məsələsinə də toxunmuş və onların qarşılıqlı münasibətinə müxtəlif prizmadan yanaşmışlar. Məsələn, A.A. Potebnya nəinki məna çalarlığının, ümumiyyətlə, sözün mənasının yaranmasında kontekstin xüsusi rolunu göstərərək, kontekstdənkənar sözü «ölü söz» adlandırır və yazır ki, nitqdən çıxarılmış söz öz funksiyasını itirmiş olur (4, s. 15).

R.A.Budaqova görə çoxmənalılıq dildə mütləqdir; kontekst sözün çoxmənalılığını aradan qaldıraraq, hər dəfə onu yalnız bir istiqamətə yönəldir; «...kontekst-söz mühiti, situasiya- çoxmənalılığı hər dəfə aradan qaldırır» (5, s. 12-13).

R.Budaqov başqa bir əsərində də belə bir fikir yürüdür ki, kontekst həmişə sözə müəyyən istiqamət verərək, sözün çoxmənalılığını kənarlaşdırır (6, s. 81).

A.F.Yefremov isə göstərir ki, kontekst sözün çoxmənalılığını aradan qaldırmır, əksinə, kontekst çoxmənalılığı yaradır (7, s. 6-12).

Əlbəttə, dialektik baxımdan «kontekst çoxmənalılığı aradan qaldırır», habelə «kontekst sözün çoxmənalılığını yaradır» fikirləri bir-birini inkar etmir. Amma bir cəhətə toxunmaq gərəkdir ki, kontekstlə söz arasındakı münasibətdən və ya sözün müxtəlif mənada işlənməsi imkanından danışarkən nə kontekstin rolunu, nə də sözün leksik-semantik məhsuldarlığa malik olma əlamətini şişirtmək doğru olardı. Çoxmənalılıq və kontekst məsələsinə 2 baxımdan yanaşmaq lazımdır:

1) zəngin semantik quruluşa malik ümumişlək sifətlər dildə çox zaman mücərrəd olur. Dildə mövcud olan həmin mücərrədlik nitqdə aradan qaldırılır və sözün nəzərdə tutulmuş mənası uyğun kontekstdə gerçəkləşir. Çünki kontekst, sözün mücərrəd keyfiyyətini ləğv edir. Sözün hər hansı xüsusi mənasının gerçəkləşməsi nəticəsində mücərrədlik konkretliklə əvəzlənir. Beləliklə, çoxmənalılıq sözdən kənarlaşdırılır. Məs.: solğun çöhrə, solğun çiçək, solğun pərdə və s. Onun solğun çöhrəsi kənardan adamı özünə cəlb edirdi (S.Vəliyev), «Solğun çiçəklər» əsərini oxuyub qurtardım (danışıq dilindən), Orda-burda solğun paltarlı qocalar və arvadlar gözə çarpırdı (Y.V.Çəmənzəmindi).

2) söz birləşməsi konteksti sifətin bir növ potensial mənalarını üzə çıxarır. Sifətin leksik-semantk əlaməti ilə üzvü şəkildə bağlı olan bu və ya digər mənası kontekstdə ortaya çıxır. Kontekst əsasən konkret məna ifadə edən sifətə müəyyən məna çalarlıqları qazandırmaq şansı verir. Deməli, kontekst çoxmənalılığı aradan qaldırmır, əksinə, o, çoxmənalılığı formalaşdırır. Məs.: *kor kütlə, kor duman, kor qaranlıq, kor tale, kor fələk, kor küçə, kor xətt, kor vicdan, kor sevgi, kor şüur, kor mənəviyyat* və s. Saxlan oyunlar oyuncağı, tapdanmış qul! Hədəfsiz *kor kütlə!* (C.Cabbarlı); Getdikcə ətraf dərələr *kor umanla* doldu (S.Rəhimov): Bu *kor qaranlıqda* bu azğın seli keçmək olmayacaq, gərək dan ağarmasını gözləyək (M.Rzaquluzadə);-Axı bunlar nədir ki, əlində kor fələyin, Kaş çiçəyi olaydın, eyvandakı dibçəyin (B.Vahabzadə); Kor küçələr getdikcə daralır, adamı vahimə basırdı (danışıq dilində); Evin kor divarı da uçub-tökülmüşdü (danışıq dilində); Kor uçuş, kor eniş təyyarənin ekipajını çaşdırmışdı (danışıq dilində) və s.

Nümunələr göstərir ki, «kor» sifəti söz birləşməsi kontekstində və nitq situasiyasında bir sıra mənalar kəsb etmişdir: Görmək qabiliyyətini itirmiş, gözü görməyən; ətrafdakı hadisələri, işləri görməyən, dərk etməyən, başa düşməyən, hiss etməyən; qatı, kəsif, bərk; qoşulduğu sözlərə pislik, məşumluq məfhumu verən; çıxış yolu olmayan, ardı kəsik olan; qaranlıqda, dumanlı havada yalnız cihazların köməyi ilə icra edilən və s. Bax: 8, s. 95).

Söz və söz birləşməsindəki mücərrəd əlamətləri gerçəkləşdirmək üçün əvvəlki və sonrakı cümlələrin, bəzən bütöv bir mətnin, başqa sözlə, situasiyanın xüsusi əhəmiyyətini göstərmək lazımdır. Sözün mənasının bu üsulla (yəni əvvəlki və ya sonrakı cümlələrin köməkliyi ilə- gerçəkləşməsini araşdırıcılar «geniş kontekst» və «nitq situasiyası» adlandırırlar (9, s. 17; 2, s. 29).

Bədii mətnlərdə sözün semantikası bir tərəfdən replikalarla qarşılıqlı əlaqəsi olan nitqin dialoji formasının spesifikasından, digər tərəfdən isə qarşılıqlı ünsiyyət şəraitindən asılı olmayan obrazın psixoloji təbiətindən asılıdır. Bu da dialoq strukturunda və personaj nitqinin birxətli kontekstində sözün semantikası ilə bağlı sualların bölünməsini zəruriləşdirir.

Semantikanın qanunauyğunluqları çərgəsində sözün estetik mahiyyəti onun böyük kontekstlə əlaqəsi ilə tarazlıq təşkil edir.

Yazıçının üslubunu müəyyənləşdirmək üçün əsərdə işlənmiş sözlərin hər hansı bir mənasını dərk etmək lazımdır. Sözlərin mənalarından obraz və personajların dünyagörüşünü, psixoloji durumlarını və s. yaxşı bilmək mümkündür. Sözün müxtəlif sosial məzmunu danışıq fəaliyyətində onun müəyyən tərəflərini ifadə edir. Hər hansı bir sənətkarın əsərlərinin üslubi-semantik sistemi onun əsərinin xarakterindən, dünyanı dərk etməsindən asılıdır. Bu qanunauyğunluqların bir tərəfi də sözün bütöv, böyük kontekstlə sıx əlaqəsindən, sözün inkişafından, sözün kontekstdə aktivləşməsindən, sözün mənaca mürəkkəbləşməsindən, məna analogiyalarının aydınlığından, sözlərin dərk edilməsindən, nəhayət kontekstdə yeganə müəllif ideyasının gerçəkləşməsindən asılıdır.

Söz birləşməsi konteksti mətnaltı mənalarla da bağlıdır. Mətnaltı terminanlayışı bədii ədəbiyyata aiddir. Kontekstdə mətnaltı formaların yaranması dünya ədəbiyyatında bir problemə çevrilib. Mətnaltı sözün təbiəti ilə uyğunlaşır. Bu xüsusiyyətə görə mətnaltı dilçiliyə yaxınlaşır. Mətnaltı özündə iki plan ehtiva edir: Biri sözün əsl mənasını, ikincisi isə daha dərin və fərdi mənanı. Bu heç bir zaman birinci planla üst-üstə düşmür.

Fikrimizi dəqiqləşdirmək üçün dialoq mətnlərinə müraciət edək: Çərkəz hərisliklə sümürdüyü papirosu kənara atıb, tüfəngin qayışını çiyninə düzəltdi. Yalnız bundan sonra Şamxalın üzünə baxdı.

-Tüfəngin hanı?

-Neyləyirsən?

-Lazımdır.

-Nəyə lazımdır?

Şamxal Çərkəzin bu saat «mən yaraqsız adama əl qaldırmaram. Get tüfəngini gətir, sonra danışarıq. Özünü də bilməməzliyə vurma»,-deyəcəyini gözlədi. Amma Çərkəz suala sualla cavab verdi (İ.Şıxlı).

Yuxarıdakı ənənənə mətnaltı paradiqmanı dialoqa yaxınlaşdırır. Həmin dialoqlar yalnız həyatı təsvir etmək üçün deyil, həm də dram iştirakçılarının mətnaltı danışığının gizli emosional fikirlərini açıb ortaya qoyur.

Feilin kontekstual şəraitdə, nitq situasiyasında mənaları genişliyi ilə diqqəti cəlb edir. Feillərə məxsus olan mənaların hər biri danışan və dinləyən tərəfindən yalnız xüsusi kontekstual şəraitdə aydınlaşır və həmin mənalar bir tərəfdən, sözün semantik strukturunun, daxili formasının zənginliyi ilə müəyyən olunursa, başqa bir yöndən, feilin birləşdiyi söz və sözlərdən, kontekstdən asılı vəziyyətə düşür. Feilin konkret mənasının təzahürünə xidmət göstərən ad öz leksik müstəqilliyini itirmədən eyni zamanda həm də semantik aktualizator kimi çıxış edir. Beləliklə, feillərdə də məna zəncirinin mürəkkəb strukturda həlqələnməsinin əsas təzimedici vasitəsi məhz konteksdir. Məsələn, misallara müraciət edək:

«Dağılmaq» feilinə mənsub olan mənaların hər biri bilavasitə əlaqəyə girdiyi, bağlandığı sözün- ismin nominativ mənası ilə müəyyən olunur.

1) Daşqın zamanı bəndlər dağıldı (danışıq dilində), (sökülmək, uçulmaq, alt-üst olmaq, xaraba halına gəlmək mənasında).

2) Ayaqqabı dağılmışdır (danışıq dilində), (çox işlənməkdən, geyilməkdən, sürtülməkdən yaramaz hala gəlmək, cırılmaq, yırtıllmaq mənasında).
3) Qoşunun başçısı ölsə də, möhkəm qoşun dağılmaz (M.Hüseyn) (darmadağın olmaq, məhv olmaq, ortadan çıxmaq mənasında).
4) Bütün ümidlərim dağıldı (danışıq dilində), (puç olmaq, boşa çıxmaq, baş tutmamaq, alt-üst olmaq mənasında).
5) Muncuqlar qırılıb yerə dağıldı. Un kisədən dağıldı (danışıq dilində), (pərakəndə halda, necə gəldi ora-bura tökülmək mənasında).
6) Süd dağıldı (danışıq dilində), (tökülmək, o tərəf-bu tərəfə tökülüb getmək mənasında).
7) Güllü nənənin qar kimi dümağ pırtlaşıq saçları mütəkkənin üstünə dağılmışdı (S.Rəhimov) (pərakəndə halda tökülmək mənasında).
8) A kişi, vallah, mən dağıldım, mən söküldüm, mən bu qədər pulu haradan alım verim (Ü.Hacıbəyov) (iflas olmaq, vardan-yoxdan çıxmaq, kasıblaşmaq mənasında)
9) Şirinlik içilən axşam qonaqlar mübarəkbadlıq edib dağıldı (Mir Cəlal) (müxtəlif tərəflərə getmək, hərə bir yana getmək, çəkilib getmək, dağılışmaq (bir yerə yığılmış çoxlu adamlar, quşlar və s. haqqında) mənasında).
10) Maşınlar, insanlar dağılır düzə; Çoxalır səhrada gediş-gəliş də (S.Vurğun) (səpələnmək mənasında).
11) Bir az əvvəl bulaq başındakı arvad yığıncağı dağılmışdı (S.Vəliyev) (qurtarmaq, sona çatmaq, tamam olmaq, öz işini qurtarmaq (məclis, iclas və s. haqqında) mənasında (Bax: 10, s. 13-14).

Deyilənləri aaşağıdakı kimi ümumiləşdirmək olar:

-Sözün çoxmənalılığı əsas etibarı ilə söz birləşməsi kontekstində və nitq situasiyasında gerçəkləşir;

-Kontekst mücərrəd əlamətli sözün eyni zamanda bir neçə məna ifadə etməsinin qarşısını ala bilir, bu xüsusiyyəti (çoxmənalılığı) aradan qaldıraraq sözü hər dəfə müəyyən istiqamətə yönəldir.

-Dildə konkret məna ifadə edən sözlər, düşdüyü kontekstin əlamətindən asılı olaraq müxtəlif semantik çalarlar əldə edir;

-Sözün dominant mənası ilə ikinci dərəcəli mənaları arasında müəyyən semantik ümumilik olur. Məna çalarlıqları dominant məna ətrafında mərkəzləşir. Həmin məna çalarlıqları dominat mənaya ya yaxın olur, ya da ondan az və ya çox dərəcədə uzaqlaşır, amma əlaqə yoxa çıxmır.

Ədəbiyyat

1. Торсуева И.Г. Контекст\\Лингвистический энциклопедический словарь. М.: СЭ, 1999.
2. Амосова Н.Н.Основы английской фразеологии. Изд. ЛГУ, 1963.
3. Məmmədov İ. Azərbaycan dilinin semantikası. Bakı, Xəzər nəşriyyatı, 2006.
4. Потебня А.А. Из записок по русской грамматике. I с., М.: 1958.
5. Budaqov R.A. Dilçiliyə dair oçerklər. Bakı, Azərnəşr, 1956.
6. Будагов Р.А.Слово и его значение. Л., 1947.
7. Ефремов А.Ф. Многозначность слова.\\»Русский язык в школе», 1957, № 3.
8. Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, «Elm» nəşriyyatı, 1983.

9. Будагов Р.А.Введение в науку языке. Учпедгиз, М.: 1958.
10. Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, Elm, 1980.

Алиева Лятафет

Контекст словосочетания и речевая ситуация

Резюме

В статье указывается на отношение к термину «контекст».

Роль контекста словосочетаний в формировании многозначности анализируется вместе с речевой ситуацией. Показано значение контекста в создании многозначности существительного и глаголя. Эстетическая сущность слова раскрывается в рамках закономерности семантики.

Latafet Aliyeva

Speech situations and context of word combinations

Summary

In the paper the relation to the term of “context” is considered, the role of the context of word combinations in the formation of polysemy is analyzed in connection with speech situations. The importance of the context of word combinations in the formation of polysemy of nouns and verbs. The esthetic essence of words is revealed in the frames of semantic regularities.

Rəyçi: İsmayıl Kazımov
filologiya elmləri doktoru, professor

RƏSMİYYƏ HACIYEVA
BDU filologiya üzrə fəlsəfə doktoru

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ –SA, -SƏ GÖSTƏRİCİLİ BUDAQ CÜMLƏLƏRİN FUNKSİONAL-SEMANTİK VƏ ÜSLUBİ ASPEKTLƏRİ

Açar sözlər: budaq cümlə, baş cümlə, funksional aspekt, üslubi məqam, semantik çalar.

Ключевые слова: придаточное предложение, главное предложение, функциональный аспект, семантические оттенки стилистических нюансов

Key vvords: : dependent sentence, main sentence, functional aspect, semantic shades of stylistic nuances

Mürəkkəb cümlə dildə mühüm sintaktik vahidllərdəndir. Bu tip cümlələrin özünəməxsus struktur modelləri mövcuddur. Mürəkkəb cümlə problemi müxtəlifsistemli dillərdə sintaktik səviyyədə daha çox öyrənilmişdir. Araşdırmalarda əsas obyekt kimi budaq cümlə və onun hipotaksis sintaktik səviyyədə yeri təyin edilmiş, budaq cümlənin ümumdil vasitələri üzə çıxarılmış və sistemləşdirilmiş, onların başlıca xüsusiyyətləri, həmçinin də modelləri qruplaşdırılmış, mahiyyəti, həcm dairəsi və s. müəyyənləşdirilmişdir. Baş və budaq cümlələrin əsas xarakteristikası verilmişdir.

Linqvistikada sintaktik vahidlərin yalnız qrammatik formalarını deyil, eləcə də onların funksional-üslubi-semantik vasitələrini və keyfiyyətlərini də aşkara çıxarıb öyrənmək əsas məqsəd kimi də qarşıda durur. Hər bir qrammatik formada, strukturda insanın istəyi, arzusu, məqsəd və tələbi inikas olunur. Bu kimi faktorlar funksional dilçiliklə, üslubiyyat və semantika ilə bağlıdır. Sintaksisdə üslubi-funksional mümkünlük də müxtəlif və zəngindir. -sa,-sə şəkilçili budaq cümlələrin də dildə funksional-üslubi potensialı çoxdur, mətn daxilində aktuallaşmanı həddən artıq formalaşdıra bilir. Ümumiyyətlə, mürəkkəb cümlələrin hər bir tipinin aktuallaşması onun müxtəlif üslubi-semantik vasitələrini və həmin vasitələrin funksionallığını meydana çıxarır.

-sa,-sə ümumtürkoloji xarakter daşıyan morfoloji göstəricidir. Şəkilçinin funksiya dairəsi çox genişdir- leksik, morfoloji, sintaktik və üslubi yük daşıyır, nitqin ən zəruri məntiqi kateqoriyasının ifadəsinə xidmət edir.

Bizim bu məqalədə məqsədimiz isə budaq cümlələrin funksional-üslubi və semantik xüsusiyyətlərini üzə çıxarmaqdır. Bu zaman budaq cümlələrin (hipotaksis) komponentləri arası subordinasiya münasibətləri müəyyənləşdirilir, onların subordinasiya əlamətləri aşkar olunur.

Azərbaycan dilinin budaq cümlələrinin təkamül meyilləri, həmçinin də çağdaş durumu və s. haqqında ciddi tədqiqatlar aparılsa da, onların funksional əlamətləri, demək olar ki, öyrənilməmiş qalmışdır. Hələ də bu tip mürəkkəb cümlələrin funksional özəllikləri, funksional tipləri dəqiqləşdirilməmişdir. «Функциональные характеристики понимались лищ как внутрипредложение функции, которые одни составляющие выполняют по отношению к другим в рамках сложноподчиненного предложения» (1, с. 54)

Hələ də bizim dilin sintaktik quruluşu əsasında, ümumən budaq cümlələrin (baş və budaq cümlələr arasında) olan paradiqmatik-sintaqmatik münasi-

bətlər araşdırılmamışdır. Qeyd edək ki, özbək dilçiliyində bu problem qismən də olsa həllini tapa bilmiş, A.Berdaliyev öz doktorluq işində bu məsələni tədqiq etmişdir (2).

Budaq cümlənin bir tipi- sa,-sə şəkilçili tipi mübtəda, xəbər, tamamlıq, təyin, zərflik budaq cümləsinin növlərini struktur baxımdan formalaşdırır. –sa,-sə əlaməti strukturu səciyyələndirir. -sa,-sə şəkilçili budaq cümlələr dilimizdə konkret nitq situasiyasında meydana çıxır. Bunlar rəngarəng funksional üslublarda işlənir və sintaktik-üslubi fiqura çevrilir. Bu fiqurlar arasında paralelizm, təkrar və onun quruluşu, antiteza, ellipsis, həcm vasitələri, qradasiya kimi məsələlər başlıca yer tutur.

Q.Kazımov yazır ki, -sa,-sə şəkilçisi, demək olar ki, «budaq cümlə+ baş cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrdə bütün budaq cümlə növlərini baş cümləyə bağlayır və bu cəhətdən onu «baş cümlə + budaq cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrdə k i bağlayıcısı ilə müqayisə etmək olar. Həm də nəzərə almaq lazımdır ki, -sa,-sə şəkilçisi şərt və qoşulma budaq cümlələri istisna olmaqla, bütün qalan budaq cümlə növlərində (mübtəda, xəbər, tamamlıq, təyin, tərz, zaman, yer, kəmiyyət, səbəb, məqsəd, qarşılaşdırma budaq cümlələrində) bağlayıcı sözlə birlikdə işlənir (3, s. 312).

-sa,-sə şəkilçili budaq cümlələrin semantik təsnifi qrammatik məntiqi münasibətlərə görədir. Bu əlaqə nəticəsində –sa,-sə şəkilçili budaq cümlələr semantik cəhətdən temporal, lokal, modal və səbəb mənalarına bölünürlər. Semantik qruplaşma bu 4 cəhətdən aparılır.

Linqvoüslubi xüsusiyyətlərinə görə –sa,-sə şəkilçili budaq cümlələr həmişə identikdir, hər bir budaq cümlə baş cümlədəki zaman və modal mənaları ifadə edir. Bu mənalar fonunda zəngin informasiya çatdırılır.

Üç növ funksional oxşarlıq -cümlə üzvləri, budaq cümlələr, həmçinin tabesiz mürəkkəb cümlələr qarşılıqlı şəkildə bir-biri ilə əvəzlənir.

Budaq cümlə, hər şeydən əvvəl, kommunikativ funksiyanı yerinə yetirir, aktuallaşır. Tabeli mürəkkəb cümlənin I söyləmi tema, II söyləmi rema ardıcıllığı ilə sıralanır. Baş cümlə informasiyanı əhatə edir. Belə bir xətti ardıcıllıq insan təfəkküründün zaman barədə fikirlərinin müəyyən inkişaf dövrlərində yaranmış, Azərbaycan dilinin daxili qanunları əsasında fəaliyyətini davam etdirmiş və kommunikasiya prosesinə xidmət etmişdir. Bunlar məzmun konkretliyi yaratmaqla baş cümlədəki hərəkət və ya əlamətin vaxtını aydınlaşdırır.

Budaq cümlə daxilində inversiya müşahidə olunur, mətnin emosiyası və ekspressivliyi yaranır.

Bu tip budaq cümlələrin yarımçıq şəklə düşməsi söyləmin dinamizmini artırır. Elliptik budaq cümlələrin işlənməsi situasiya ilə şərtlənir. Situativ ellipsis başlıca olaraq, nitq şəraiti ilə bağlı olub danışanın ümumi sosial təcrübəsi və s. əlaqədar olur. Ellipsis dilin qənaət meyilinin məhsuldar vasitəsi kimi çıxış edir.

Dilimizdə –sa,-sə şəkilçili budaq cümlələr danışanın niyyət və məqsədinə uyğun olaraq nitq fəaliyyətində yenidən meydana çıxır. Bu baxımdan bu cür sintaktik vahidlərə sistem-struktur cəhətdən yanaşmaq, baş və budaq cümlələrin arasında olan paradiqmatik və sintaqmatik münasibətləri aydınlaşdırmaq lazımdır.

-sa,-sə şəkilçili budaq cümlənin funksional tiplərindən biri mətnyaradıcı xüsusiyyətdir. Mətn- xətti struktur olaraq sintaktik münasibətlərin qanuauyğunluqları ilə təyin olunur.

-sa,-sə şəkilçili budaq cümlələr də digər tip budaq cümlələr kimi nitqdə funksionallaşır. Bu zaman həmin dil vahidlərinin psixolinqvistik funksiyası meydana çıxır.

-sa,-sə şəkilçili tamamlıq budaq cümləsində funksionallığı təmin edən başlıca cəhət komponetlərin korrelyativ əlaqəsinə görədir. Burada budaq cümlə əvvəl, baş cümlə sonra gəlir. Əsas informasiya baş cümlədə öz əksini tapır, yəni obyektiv gerçəkliyə münasibətdə hökmün təsdiqi onda gerçəkləşir. Odur ki, cümlənin aktual üzvlənməsinə görə bu tip cümlələrdə baş cümlə rema, budaq cümlə isə temadır. Funksional baxımdan həmin tip tamamlıq budaq cümləsi obyekt münasibətini ifadə edir, bəzi hallarda bu cür quruluş tipi ellipsisin nəticəsi olur. Məs.:- Kəndə nə zaman gələcəksən?- Nə vaxt atamın icazəsi olsa... Bu quruluşda funksional cəhət dialoq nitqi ilə bağlıdır. Cavab cümləsini budaq cümlə şəklinə salıb zaman budaq cümləsi eləmək mümkündür, bu zaman funksiya dəyişir: Nə vaxt atamın icazəsi olsa, o zaman kəndə gələcəyəm.

Şifahi nitqdə –sa,-sə şəkilçili zaman budaq cümləsi yerlərini dəyişə bilir. Bu vəziyyət aktuallaşma şəraitində cümlənin hissələrə ayrılması ilə səciyyələnir. Məs: Hər gün səhər saat onla-on iki arasında zəng edə bilərsiniz. Nə vaxt könlünüz istəsə (M.İbrahimov).

Həmin zaman konstruksiyasını bütöv zaman budaq cümləsi şəklində bərpa etmək olar: Nə vaxt könlünüz istəsə, o zaman zəng edə bilərsiniz.

Semantik baxımdan- sa,-sə şəkilçili zaman budaq cümlələri məzmun konkretliyi əmələ gətirməklə baş cümlədəki hərəkət və ya əlamətin vaxtını aydınlaşdırır. Bu cür zaman konstruksiyalarında üslubi efifek qüvvətli olur. Semantik funksiya ani və təkrar zaman planında verilir.

-sa,-sə şəkilçili budaq cümlələrdə semantik funksiya baxımından məzmun quruluşu başlanğıç, iştirakçı və tamamlayıcı komponetlərindən ibarətdir.. Hər bir məzmun komponeti bir-birilə bağlı olur. Məs.: Haçan Tehranın nüvə silahı olarsa, onda heç kəs cəsarət edib bu ölkəyə zərbə vura bilməz («Azərbaycan» qəzeti).

Başlanğıc məzmun komponenti: Haçan Tehranın nüvə silahı olarsa.

Tamamlayıcı məzmun komponenti: Onda heç kəs cəsarət edib bu ölkəyə zərbə vura bilməz.

Budaq cümlələrin digər bir funksiyası sintaktik funksiyadır. Xüsusən də,-sa,-sə şəilçisi müxtəlif növ budaq cümlələrin təşkilində mühüm rol oynayır.

-sa,-şə şəkilçili budaq cümlələrdə təkrar nitqin estetik yükünü tənzimləyir. Təsvir obyektinin, barəsində danışılan subyektin səciyyəvi cəhətləri haqqında dolğun informasiya əldə etmək olur. Məs.:

Günahsız bir körpə ağlasa əgər,
Odlu göz yaşları saxlasa əgər,
Yolçunu yolundan saxlasa əgər,
Mərhəmət qoruyla alışar vicdan (Ə.Tudə).

Göründüyü kimi, üslubi çalarda poetiklik, ifadəlilik imkanlarını genişləndirmək üçün şərt budaq cümləsində –sa şəkilçisi əgər bağlayıcısı ilə yerini «müvəqqəti olaraq» dəyişmişdir.

Üslubi neytrallıq, nitqdə qənaət meyilini yaratmaq üçün –sa,-sə şəkilçili şərt budaq cümlələrində bir çox hallarda şəkilçidən istifadə olunumur. Məs.: İndi ki bir allah bəndəsi bu işdə Osmana kömək etmək istəyir (sə), ona nə üçün

mane olaydı? (İ.Şıxlı); Məhsulu vaxtında yığdın (sa), itki nisbətən az nəzərə çarpar (danışıq dilində).

Başqa budaq cümlə tiplərində də bu vəziyyətlə qarşılaşmaq olur: Bircə istəyim var (sa), o da səni arzuna qovuşdurmaqdır (danışıq dilində), Haradan gəlib (sə), oraya da qayıtsın (danışıq dilində).

Sözügedən morfoloji göstəricinin üslubi-funksional əlamətlərindən T.Əfəndiyeva bəhs edir: «Feilin şərt şəkli də yalnız şərt mənası deyil, həm də arzu, təəssüf, fərziyyə, təxmin, güman kimi ekspressiv çalarlar da ifadəetmə xüsusiyyətlərinə malik olduğuna görə bədii üslubi və funksionallıq baxımından əhəmiyyətlidir. Odur ki, -sa,-sə və onun mürəkkəb variantı-saydı,-səydi ilə gələn epiforalar da qüvvətli ekspressiv vasitə kimi əhəmiyətlidir. Bu da təbiidir; çünki mətni təşkil edən bir neçə budaq cümlənin xəbəri olaraq təkrarlanan, lakin mənası baş cümlənin xəbəri sayəsində dəqiqləşən bu cür sintaktik-üslubi-funksional fiqurlar artıq öz-özlüyündə emosional-ekspressivdir» (4, s. 124).

-sa,-sə şəkilçili budaq cümlələrin funksional əlamətlərindən biri də müxtəlif funksional üslublarda işlənməsi və bir sıra mühüm mətləblərə bu konstruksiyalarla münasibət bildirilməsidir. Məsələn, publisistik üslubda bu tip cümlələrlə Qarabağ məsələsinə, onun həlli yollarlına münasibət bildirilir: «Hərbi əməliyyatlar Dağlıq Qarabağla məhdudlaşsa, KTMT-nin müdaxiləsi üçün əsaslar olmayacaq. Lakin Qarabağda müharibə başlasa, onun Ermənistan ərazilərinə zərbələrlə müşayiət olunacağı qaçılmazdır. Qarabağda müharibə başlasa, Azərbaycan üçün Ermənistanla sərhəd boyu hərəkətsiz qalmaq hərbi-mövqeyi-nəzərdən ciddi səhv olardı («Yeni müsavat, 27 aprel 2012-ci il).

-sa,-sə şəkilçili budaq cümlələr mətbuat dilində sitat funksiyasını yerinə yetirir. Məs.: S.Seyidov: Əgər milli həmrəylik olmasa, biz Azərbaycanın taleyüklü problemlərini həll edə bilmərik». M. Abbaszadə: əgər qəbul planı artarsa, müsabiqə vəziyyəti aşağı düşəcək.

Məqalə başlıqları funksiyasını yerinə yetirir:Bir ölkədə qanunlar işləmirsə, həmin dövlətdə kiminsə təhlükəsizliyinə təminat vermək mümkün deyil». Ölkədə iş yerlərinin sayı çoxalarsa, hər kəs öz ixtisaına uyğun fəaliyyət göstərmək imkanı qazanarsa, o zaman jurnalistikada gerçəkdən jurnalist olmaq istəyənlər qalacaq.

Mötərizə içərisində verilmiş –sa,-sə şəkilçili budaq cümlələr əlavə məlumat vermək, yaxud informasiyanı konkretləşdirmək məqsədi güdür: «Ötən həftə iqtidardakı qüvvənin yerli və beynəlxalq qaydalar sarıdan (əgər belə bir şey varsa!) yüzdə yüz tənəzzülə üz tutduğuna əminlik hasil etdik (Z.Səfəroğlu).

Başlıq-sərlövhə funksiyasında mətbuat dilində işlədilən-sa,-sə şəkilçili budaq cümlərə də rast gəlmək olur: Başa düşən varsa...(Xalq qəzeti, 23 mart 1999-cu il), Qanuna qalsa...(«Azərbaycan» jurnalı, № 2, 1989).

Şeir dilində də –sa,-sə şəkilçili birləşmələr söyləm funksiyasında işlədilir:

Nə vaxt ki, çılğınan, arzum bəllidir-
Mənim gözlərimə bir baxan olsa...
Ordan bulaq kimi qaynayan sözü,
Oxuyan tapılsa, duyan tapılsa...(R.Behrudi).

Sözügedən şəkilçili budaq cümlələr poeziya dilimizdə məkan-zaman münasibətləri arssında assosiasiya yaradır:

Bircə ovuc torpaq üçün
Sinəsində yer ayırsa;

Bir saralmış yarpaq üçün
Dodaqları bar qoyursa;
Qayalarda çiçək bitər (Əli Rza Xələfli).

Bədii üslubda –sa,-sə şəkilçili budaq cümlə+ baş cümlə» tipində də komponetlərin inversiya imkanları mümkündür: Burdadır, təbiətin nə qədər rəngi varsa, musiqinin nə incə, nə xoş ahəngi varsa (S.Rüstəm).

Şeir dilində bəzən üslubi məqsəd üçün –sa,-sə morfoloji göstəricisi işlənmir, amma təsəvvür olunur. Məs.:

Dəstimdə nə var (...), getdi əldən
Hər nəstə ki var (...), getdi əldən (Ş.İ.Xətai)

Beləliklə, sözügedən şəkilçi felin şərt formasının morfosemasıdır, lakin bu morfoloji göstçərici Azərbaycan dilində bir sıra mühüm morfoloji-sintaktik, kommunikativ, mətnyaradıcı, psixolinqvistik funksiyaları yerinə yetirir. Bu tip budaq cümləlçərin komponetlərinin sıralanmasında bir sərpbəstlik görünür.-sa,-sə ilkin semantikasını sonradan qazandığı üçün sintaktik-funksional mövqelərini itirməmişdir. Çevrilmə, derivasiya qanunauyğunluqları –sa,-sə şəkilçili budaq cümlələrinin bəzi tiplərinin məntiqi-fəlsəfi və funksional aspektlərini də üzə çıxarır. Çevrilmə nəticəsində –sa,-sə göstəricili budaq cümlələrin feili tərkiblərə transformasiya oluna bilməsi imkanları həmin sintaktik sinonim və variant yaradan formalardan dildə geniş funksionallıq baxımından istifadəni təmin edir.

sa,-sə şəkilçili budaq cümlələr Azərbaycan dilinin təbiətindən doğur, geniş informasiyavericilik xüsusiyyətinə malikdir. Bu tip vahidlər də ətraflı məlumat funksiyasını yerinə yetirir.

Ədəbiyyat

1.Слюсарева Н.А. Проблемы функционального синтаксиса современного английского языка. М.: Наука, 1981

2.Бердалиев А. Семантико-сигнификативная парадигматика и синтагматические отношения в конструкциях сложноподчиненного предложения узбекского языка: Авторф. дис. ...докт. филол. наук. Ташкент, 1989.

3.Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: «Ünsiyyət», 2000.

4.Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı, Elm, 2001.

Гаджиева Расмия

Функционально-семантические и стилистические аспекты придаточных предложений с суффиксами –sa, -sə в современном Азербайджанском языке

Резюме

Статье затрагивается функционально-семантические и стилистические особенности, придаточных предложений с суффиксом -sa, - sə в современном Азербайджанском языке. А так же выясняется парадигматические и синтагматические отношение между главном и придаточными предложениями.

R. Hacıyeva

Functional-semantic and stylistic aspects of dependent sentences with – sa, -sə suffixes

Summary

In the paper the application cases, functional semantic and stylistic properties of -sa, -sə suffixes in dependent sentences in Azerbaijani are touched. Here the paradigmatic and syntagmatic relationships between a dependent and the main sentences are revealed

Rəyçi: İsmayıl Kazımov
filologiya elmləri doktoru, professor

RUXSARƏ ABBASƏLİYEVA
ADPU

AZƏRBAYCAN DİLİNDƏ EMOSİONALLIĞIN VƏ EKSPRESSİVLİYİN İFADƏ VASİTƏLƏRİNİN DANIŞIQ DİLİNDƏ VƏ MƏTNDƏ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Açar sözlər: ekspressiya, emosiya, emosionallıq, emotivlər, emotiv leksika, verbal ifadə vasitələri, qeyri-verbal ifadə vasitələri

Key words: expressivity, emotion, emotionality, emotive, emotive lexes, verbal means of expression, non-verbal means of expression

Ключевые слова: экспрессия, эмоция, эмоциональность, эмотивы, эмотивная лексика, способы вербального выражения, способы невербального выражения

Dildə emosionallığın, ekspressivliyin əsas ifadə vasitəsi emotiv leksikadır. Dildəki sözlərin müəyyən qismi insanın daxili vəziyyətini ifadə etmək məqamında istifadə olunur. Belə leksik vahidlər emotiv leksikanı təşkil edir. Məlumdur ki, feillər hərəkət və halı ifadə edirlər. İnsanın emosional vəziyyəti onun hərəkət və halında özünü göstərir. Ekspressiya nitqin obrazlılıq, emosionallıq keyfiyyətidir. Nəvaziş, zarafat, istehza, rişxənd, bəyənməmə, xoşlamama, laqeydlik, etinasızlıq və s. İfadə edən sözlər ekspressiv leksika adı altında qruplaşdırılır. Emotiv və ekspressiv leksika, demək olar ki, eynidir. «Emosional leksika sabit emosional rəngarəngliyə malik söz və ifadələrdir. Kiçiltmə və ya əzizləmə anlayışı bildirən şəkilçilər qəbul etmiş sözlər, nida mənalı sözlər emosional leksikaya daxildir (1, 95, 96).

Emosionallıq, ekspressivlik sözlərdə özünü müxtəlif şəkillərdə göstərir. Emotiv və ekspressiv leksikada ekspressiya sözün semantikasında yer alır. Yəni söz emosional vəziyyəti ifadə edir. Qorxmaq, həyacanlanmaq, hirslənmək, əsəbiləşmək, qeyzlənmək, qəzəblənmək, sevinmək, xoşhallanmaq, ağlamaq, gözələri yaşarmaq və bu qəbildən olan bir çox başqa sözlər insanın müəyyən emosional vəziyyətini birbaşa ifadə edir.

«Kərim kişi yenə zənlə bayıra baxdı və yenə də dodaqaltı dedi:

- Kəsən şey deyil bu!

Cavanşir üşüyə-üşüyə mətbəxə boylandı və tez-tələsik:

-Sabahın xeyir! – deyib daha tamam-kamal ağarmış başını qaşıya-qaşıya arakəsmədəki əlüzyuyana tərəf getdi.

Kərim kişi oğlunun ardınca tərs bir nəzər saldı, heç nə cavab vermədi və bundan sonra özünə də məlum oldu ki, səhər-səhər yataqdan yaman hirsli qalxıb» (5, 298).

Bu nümunədə obrazların daxili alməni açmaq üçün müəllif müəyyən emotiv leksikadan istifadə etmişdir. Bununla belə, həmin vahidlər emosional vəziyyəti birbaşa deyil, dolayısı ilə ifadə edirlər.

«Kərim kişi oğlunun ardınca tərs bir nəzər saldı, heç nə cavab vermədi və bundan sonra özünə də məlum oldu ki, səhər-səhər yataqdan yaman hirsli qalxıb» cümləsində Kərimin emosional vəziyyəti ilə bağlı olan müxtəlif leksik vahidlər vardır. «Hirsli olmaq» insanın sakit vəziyyətdə deyil, neqativ vəziyyətdə

olmasını ifadə edir. Kərim kişi ona görə hirslidir ki, dünəndən yağan qar kəsmək bilmir. Qar kəsmədiyindən oğlu işə gedə bilmir. «Yataqdan yaman hirsli qalxmaq» ifadəsində isə emosional vəziyyətin müxtəlif səviyyələri ifadəsini tapır. Yataqdan hirsli qalxmağın səbəbi daha əvvəlki hadisələr ola bilər. Müəllif nitqində emosional vəziyyətin ifadə olunması imkanları genişdir. Yuxarıdakı nümunədə emosional vəziyyətin qradasiyası vardır. «Kərim kişi yataqdan yaman hirsli qalxıb» ifadəsi ilə «Kərim kişi yataqdan hirsli qalxıb» ifadələri arasında fərq ikinci ifadənin «hirsli olmağın» neytral vəziyyətinə üyğunluğu, birincinin isə gücləndirmə dərəcəsinə yaxınlaşmasındadır. Əgər nitq hissələrindən sifatdə əlamət və keyfiyyətin dərəcələri varsa, müəllif nitqində emotivlərin müqayisəsi aşkar olunur.

Ekspressiya sözün müstəqim mənasında olmaya bilər. Lakin bus öz müəyyən kontekstdə işləndikdə ekspressiya çaları qazanır və emosiolnal leksikaya çevrilir. «Eşşək» sözü dilin lüğət tərkibinə daxil olan vahiddir. Bus öz heyvan adı bildirir. Lakin həmin sözü insana aid etdikdə leksik vahid ekspressiya ilə yüklənir. Bu halda söz danışanın başqa bir adama mənfi münasibətini ifadə etmiş olur.

«Kərim kişi oğlunun ardınca tərs bir nəzər saldı, heç nə cavab vermədi» cümləsində tərs nəzər salmaq obrazın emosional vəziyyətini birbaşa ifadə edən vahiddir. Kərim kişi oğlunun ardınca tərs nəzər salırsa, deməli, o, oğlundan və ya oğlunun hərəkətindən narazıdır. Salamlaşma etiketinə görə kərim kişi oğlunun «Sabahın xeyir!» salamına cavab verməlidir. Müəllif nitqində isə Kərim kişinin salamlaşmaya cavab vermədiyi qeyd olunur.

Son illərdə isə dilin kommunikativ, koqnitiv, emotiv və metadil funksiyaları ilə bağlı tədqiqatlara daha geniş yer verilir. Movcud elmi ədəbiyyatda qeyd olunan problemlə bağlı məqalə və monoqrafiyalarda irəli sürülən fikir və mülahizələr təsdiq edir ki, nitq kommunikasiyası artıq ümumi dilçilik daxilində qapanıb qalmaqdan kənara çıxmış, yeni elmi istiqamətə çevrilmişdir. Kommunikasiyanın altı əsas funksiyasını - referentiv, emotiv, koqnitiv, poetik, metadil və fatik funksiyaları vardır. Bu funksiyalardan biri olan emotiv funksiya həm verbal, həm də qeyri-verbal vasitələrlə ifadə olunur. (2, 27).

Nitqin funksiyaları bütünlükdə nitq fəaliyyətinə deyil, ayrı-ayrı nitq faktlarına məxsus olan funksiyadır. «Nitqin aşağıdakı funksiyaları vardır: emotiv funksiya, poetik (estetik) funksiya, magiya funksiyası, fatik (kontakt) funksiya, nominativ (marka) funksiya, diakritik funksiya.» (3, 13).

İnformasiyanı ötürmək üçün müxtəlif vasitələrdən istifadə olunur. Dil və nitq belə vasitələrdəndir. Adresant informasiyanı müəyyən şəkildə formalaşdırır, 73n udil və ya nitq vasitəsilə müəyyən bir dilə uyğun gələn kod şəklinə salır. Kodlaşdırma dilin leksik və qrammatik vasitələrinin köməyi ilə aparılır. Bu kodlaşmanın mexanizmi həm informasiyanı ötürənə, həm də onu qəbul edənə məlum olur. Əks təqdirdə, informasiyanın ötürülməsi və qəbulu prosesində çətinlik yarana bilər.

Deməli, məlumatı ötürülməsi verbal (sözlə) və qeyri-verbal vasitələrlə həyata keçirilir. Verbal kommunikasiya sözlərlə yaradılan ünsiyyətdir (4, 7).

Danışıq dilinin ifadə vasitələri sistemində qeyri-verbal vahidlər vardır. Qeyri-verbal ifadə vasitələri insanın vəziyyətini, halını, hərəkətlərini göstərmək üçün istifadə edilir. Kommunikativ aktda iştirak edib nitq aktını gerçəkləşdirən

tərəf adresant adlanır. Ona ünvanlanmış nitq aktını qəbul edən tərəf adresatdır. Kommunikasiya prosesində adresat və adresant nitq aktına görə əvəzlənir. Adresant adresata və əksinə, adresat adresanta çevrilir.

Danışıq prosesində adresat və ya adresant qarşı tərəfin hərəkətlərini, onun özünü görür. Məsələn, adresant gülə-gülə danışırsa, adresat bu gülüşü doğuran xüsusiyyəti dərk edir. Birinci tərəfin müəyyən fikrinə gülə-gülə cavab vermək sevinclə bağlı olduğu qədər, istehza ilə də bağlı ola bilər. Bunu aydın dərk etmək situasiyanı, danışanlar arasındakı münasibəti, mövzunu və s. Bilməyi tələb edir. Kommunikantlar bu məsələlərdən xəbərdar olurlar. Yazılı bədii əsərdə isə oxucu kommunikasiya prosesinin iştirakçısı deyildir. Oxucu müəllifin nəql etdiyini oxuyur. Kitabda Kərim kişinin hansı hərəkəti yerinə yetirməsi də dil vasitələri ilə verbal ifadəsini tapmalıdır. Əks təqdirdə oxucu obrazın nə etdiyini bilməyəcəkdir. Müəllif obrazın emosional vəziyyətini oxucuya çatdırmaq üçün bu vasitələrdən istifadə edir. Məhz buna görə Elçinin əsərənidə Kərim kişinin oğlunun ardınca tərs nəzər salmasını yazır. Belə bir cümlənin verilməsi iki məsələyə aydınlıq gətirir. Birinci məsələ Kərim kişinin oğlundan narazılığıdır. İkinci məsələ isə Kərim kişinin daxili vəziyyətidir. Kərim kişi hirslidir. Bu hirs də iki tərəfdən gəlir. Birinci tərəf yenə də Kərim kişinin oğlundan narazılığının, ikinci tərəf isə təbiət hadisəsinin insana, qeyd edilən haolda Kərim kişiyə təsirinin (qar yağır, çovğun, borandır) nəticəsidir.

Emosiya özündə müxtəlif hadisələri birləşdirir. Emosiya həm emosional reaksiyadır, həm də emosional vəziyyətdir. Emosional leksika dil daşıyıcılar tərəfindən dilin öyrənilməsi prosesində mənimsənilir. Emosional reaksiya ilə bağlı olan qeyri-verbal ifadə vasitələri də insanlarda həyat boyun formalaşır. Mimika və jestlər uşaqlıqdan formalaşır. Emotivlən dildə paralinqvistik vasitələrlə (mimika, jest, bədən hərəkətləri), superseqment vasitələri (intonasiya, ton, tembr, səsin ucalığı) qeyri-verbal kontekstlə (nitq situasiyası), verbal kontekstlə (emosional vəziyyətin əlavə təsviri) reallaşır.

Nidalar emosional vəziyyətin əsas ifadə vasitələridir. Onlar dildə müxtəlif forma və şəkildə reallaşır. Müxtəlif emosional vəziyyətlərin özünəməxsus nidaları vardır.

Nida cümlələri cümlə səviyyəsində və cümlədən böyük vahid kimi çıxış edir. Onların struktur tiplərinin formalaşmasında söz sırası rol oynayır.

Qiymətləndirici nida cümlələri həm müsbət, həm də mənfi məzmun daşıya bilir. Məzmunun mənfiliyi və ya müsbətliyi kontekst əsasında müəyyənləşir. Qiymətləndirici nida cümlələrində emosiyanın ifadəsi deyil, daha çox münasibət və qiymət bildirilir: Gözəl! Çox gözəl! Qəşəng! Əla! və s.

Nida gerçəkliyə emosional münasibəti implisitləşdirir. Emosional-ekspressiv xüsusiyyətlər dialoq kontekstində üzə çıxır, başa düşülür.

Nidaların işlənməsinin sintaktik nəticəsi qurulmasında nidaların və ya nidalı birləşmələrin iştirak etdiyi cümlə modellərinin yaranmasıdır. Spesifik danışıq modeli ikikomponentli kommunikativ konstruksiyalarla gerçəkləşir. Belə konstruksiyalarda əsas nitq hissələrinə aid vahidin rema funksiyasında çıxış edərək nidanı motivləşdirməsi və ya nida remanın implisit qiymətləndirdiyi tema kimi çıxış etməsində özünü göstərir.

Nida nitqdə yalnız real gerçəkliyə emosional münasibəti ifadə etmək vasitəsi kimi deyil, həm də dilin fatik funksiyasını yerinə yetirən, dialoq iştirakçıları arasında ünsiyyət yaradan, nitq rabitəsini davam etdirən vasitə olur.

Nida və əvəzlik kimi, mətnaltı mənanı başqa nitq hissələri də yarada bilər. Nidadan fərqli olaraq belə nitq hissələri daha çox faktual informasiya daşıyır. Qeyd edilən şəkildə ifadəsini tapan mətnaltı mənanın başa düşülməsi üçün presuppozisiya vacibdir.

Dildə ünsiyyətin təbiiliyini təmin edən kifayət qədər emotiv vasitələr vardır. Emosiyanın xüsusiyyətləri, onların qrup xarakteri, polisemantikliyi, emotiv vasitələrin polufunksionallığına təsir göstərir. Bu cəhət emotivlərin dildə istifadə olunmasında və başa düşülməsində çətinlik yaradır. «Buna bax!» konstruksiyası müxtəlif situasiyalarda, fərqli intonasiya ilə deyilməsi təəccüb, heyrət, ikrah və s. ifadə edə bilər.

Emosiya subyektiv psixoloji vəziyyətdir. Bu vəziyyət danışan (adresat) və dinləyənə (adresant) də aiddir. Danışanın və dinləyənin emosional vəziyyətləri fərqli və oxşar ola bilər. Emosiya fərdin nitq prosesindəki halı, bu proses zamanı baş verən hadisələrə, eləcə də nitq prosesinin iştirakçılarına münasibəti, həmçinin insanın psixoloji və fizioloji xüsusiyyətləri ilə bağlı olduğundan müxtəlif şəkillərdə özünü göstərə bilər. Fərdlərin emosional vəziyyətlərinin eyniliyi nisbi səciyyə daşıyır. Nisbi eynilik fərdlərin eyni zamanda sevinməsində, kədərlənməsində, qəzəblənməsində və s. təzahürünü tapır. Bu vəziyyətlərin dəqiq ölçü həddləri olmadığından onları bərabərləşdirmək də mümkün deyildir.

«Sakit olmaq» emosional gərginliklər arasındakı neytral vəziyyəti ifadə etmək üçün istifadə olunan dil vasitəsidir. Bu feilə semantik cəhətdən yaxın olan başqa feillər də vardır: narahat olmamaq, nigaran olmamaq, nigaran qalmamaq, əsəbiləşməmək, hirsələnməmək, sakitləşmək, sakitləşdirmək, sakitləşdirə bilmək və s. Bütün bu sıradakı feillərin danışıq aktlarındakı funksiyaları müxtəlifdir. «*Əlbəttə, bu saat mən onu* ***sakitləşdirə bilərdim****, deyərdim ki, əzizim, dostum, heç* ***nigaran qalma***» (5, 236). Nümunədə emosional vəziyyətində gərginlik olan şəxs haqqında danışılır. Obrazın emosional vəziyyətini mənfi emosiyadan neytral emosiyaya gətirmək üçün onu sakitləşdirmək lazımdır. Adresant oxucuya ünvanladığı nitq aktında haqqında bəhs olunan obrazı neytral emosional vəziyyətə gətirmək iqtidarında olduğunu söyləyir. «*Dostum, heç* ***nigaran qalma»*** ifadəsi nigarançılıq keçiréni sakitləşdirmək, neytral emosional vəziyyətə gətirmək üçün istifadə edilir. Təbii ki, ünsiyyət prosesində tərəflərdən birinin istifadə etdiyi bu vasitələr digər tərəfin emosional vəziyyətini dərhal dəyişdirə bilmir. Ümumiyyətlə, tərəflərin emosional vəziyyəti onların bir-birinə ünvanladığı nitq aktlarından tam asılı deyildir. Başqa bir nümunəni nəzərdən keçirək.

«*Sakit ol, dedim, arxayınçılıqdır daha, Solmaz dedi ki, sakitəm daha, görmürsən sakitəm? Lap sakit ol, dedim, lap, lap istəyirsən bir az ağla, ağla bir az, ürəyin boşalsın. Yox, dedi, ağlaya bilmirəm, ağlaya bilmirəm, çünki daha Şahin bizimlə qaldı. Elədir, dedim, ağlama. Şahin bizimlə qaldı. Çünki belə olmalı idi, mən bilirdim ki, belə olacaq, lap əvvəldən bilirdim ki, Şahin bizimlə qalacaq, ağlama, dedim, ağlama, qurtardı daha, hər şey qurtardı. Ağlamıram, dedi, bu elə-belədir, ağlamıram, fikir vermə*» (5, 258).

Bu nümunədə də tərəflərdən biri digərini neytral emosional vəziyyətə gətirmək istəyir. Göründüyü kimi, Solmazın neytral emosional vəziyyətə gəlməsi-

nə kömək edə biləcək vasitələrdən biri onun ağlamasıdır. Ağlamaq insanın psixi-fizioloji vəziyyətlərindən biridir. İnsan qəmdən, kədərdən və ya sevincdən ağlaya bilər. Bütün bu hallarda insanın daxili gərginliyi qismən aradan qalxır. Yuxarıdakı nümunədə tərəflərin yaxın emosional vəziyyətdə olması aşkar hiss olunur. Burada emosional vəziyyətin ifadəsi həmin vəziyyətdən çıxmaq yolu, eləcə də bir tərəfin digərini sakitləşdirmək, yəni neytral emosional vəziyyətə gətirmək istəyi ilə ifadəsini tapmışdır.

Paralinqvistik vasitələr nitqi müşaiyət etməklə kommunikasiyanın emosional tərəfini tamamlayır, müsahibin həmin andakı vəziyyəti barədə əlavə məlumat verir (sakit, həyəcanlı, inamlı, yorğun). Paralinqvistik vasitələr dil vahidləri ilə paralel istifadə oluna bilər. Superseqment vasitələr hökmün mənasının tamamlanmasında əhəmiyyətli rol oynayır və dialoji nitqdə geniş istifadə edilir.

Dialoji nitqdə emosional vəziyyətin birbaşa ifadəsi qeyri-verbal vasitələrin köməyi ilə olur. Məsələn, əlini əlinə vurmaq, fit çalmaq, ah çəkmək və s. Bu vasitələri nitq müşaiyət edə bilər. Emotivlərin dildə istifadə olunmasının xüsusiyyətlərindən biri onların kontekstuallığıdır. Onların mənası konsituasiya ilə birbaşa bağlıdır.

Nidalar daha çox danışıq dilində işlənir. Bununla belə, onlar həm şəraitlə, həm də əsas hökmlə birbaşa bağlıdır. Nidalar onları səsləndirən şəxsin daxili vəziyyətini ifadə edir. Yazıda bu vəziyyəti başa düşmək çətindir. Eyni bir nida müxtəlif şəraitlərdə bir-birinə zidd olan emosiyaları göstərə bilər. Çoxmənalı sözlərdə belə xüsusiyyət yoxdur. Məsələn, ingilis dilində ooh həm ağrını, həm məmnunluğu, ləzzəti ifadə edir.

Ədəbiyyat

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989.
2. Klöev E.V. Reçevaə kommunikaüiə. Moskva, 2002
3. Axundov A. Ümumi dilçilik. Bakı, 1979
4. Qoyxman O.Ə., Nadeina T.M. Reçevaə kommunikaüiə. Moskva, 2001
5. Elçin. Bir görüşün tarixçəsi. Bakı, Azərnəşr, 1977

R. Abbasaliyeva

About features of expression means of emotionality and expressivity in Azerbaijani language

Sammary

Questions of means of expression of expressivity in oral and written text are studied. Forms of emotional state, its subjective and situational characters are considered. Distinctive and features and means of reflection of expressivity in oral and literary works are defined. Peculiarities of various emotional states of participants of the communication process are considered. Lexical means expressing emotional state that constitutes a certain chain are included into the research. In the article, attention is also focused on exclamations as main tool of expression of emotionality. Possibilities of usage of exclamations in sentences are taken into account.

R. Abbasalieva

Об особенностях способов выражения эмоциональности и экспрессивности в Азербайджанском языке

Резюме

В статье рассматриваются вопросы выражения экспрессии в разговорной речи и письменной форме. Выявляются формы эмоционального состояния, его субъективный и ситуативный характер. Определяется различные черты и способы выражения экспрессии в устной речи и художественных произведениях. Рассматриваются особенности разных эмоциональных состояний участников коммуникации. Также привлекаются к изучению лексические способы, выражающие эмоциональное состояние. В статье также уделяется внимание восклицанию как основного способа выражения эмоционального состояния. Рассматриваются возможности использования восклицаний в предложении.

Rəyçi: Buludxan Xəlilov
filologiya elmləri doktoru, professor

LALƏ ƏMİRƏHMƏDOVA
Odlar Yurdu Universiteti

«İN» SÖZÖNÜ TƏLƏB EDƏN FELLƏRLƏ DÜZƏLƏN RAZEOLOJİ BİRLƏŞMƏLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Açar sözlər: frazeoloji birləşmələr, struktur dəyişiklik, leksikologiya, funksiya, tədqiqat.

Key Words: phraseological components, structural changes, lexicology, function, observation.

Ключевые слова: Фразеологические компоненты, структурные изменения, лексикология, Функция, исследование.

Məsələnin qoyuluşu. Məqalə in sözönü tələb edən frazeoloji birləşmələrin əhatə olunduqu leksik-semantik qruplarin öyrənilməsinə yönəlmişdir.

İşin məqsədi. Tərkibində ‘’in’’ sözönü olan fellərin iştirak etdiyi feli frazeoloji birləşmələrin struktur əlamətlərini onlarin xarici quruluşu əsasinda sxematik şəkildə modelləşdirmək və İngilis dilinin leksikologiyasina daxil olan bu tip frazeoloji birləşmələrin leksikonda istifadə olunmasi yönümündə tədqiqat işi aparmaq.

«İn» sözönü tələb edən frazeoloji birləşmələrin əhatə olunduğu leksik-semantik qruplar özlüyündə ekspressivliyin ifadəsi planında ən zəngin söz qruplarından biridir. Çünki insan nitqi fərdin daxili aləmi ilə sıx bağlıdır və onun özünü aparması, emosional vəziyyəti, ətraf mühitə, insanlara və s. münasibətinin ifadə vasitələrindən biridir.

Belə olan halda «in» sözönlü frazeoloji birləşmələrin iştirakı ilə yaranmış müvafiq vahidlərin də ekspresivlik-emosionallıq tutumunu ikiqat zəngin gözləmək olar. Felin və üstəlik onun əmələ gətirdiyi konstruksiyanın emosionallıq-ekspresivlik göstəricisi başqa söz və ifadə sahələrinin səviyyəsindən üstündür.Digər tərəfdən, frazeoloji vahidin modeli də emosionallıq-ekspresivliyi artırmağın üsullarından biri kimi çıxış edir. Deməli, bu cür frazeoloji vahidlərin struktur imkanlarının öyrənilməsinin mühüm elmi-nəzəri əhəmiyyəti vardır.

5. Туманова К.С. Аналитическое чтение в языковом вузе – одно из средств подготовки учителя средней школы. – ИЯШ 1997, №1.
6. Чернышева Н.И. Аналитическое чтение на старших курсах педагогических институтов иностранных языков . – М., 1991.
7. Соколов А.А. Теория стиля. М., 1988.
8. Виноградов В.В. Проблема авторства и теория стилей. М., !999
9. Мельчук А.С. Понятие структуры и системы. - «ВЯ», 1970,№1
10. Артёмов В.А. Психология обучения иностранным языкам. М., 1966.

E. Heydərova
K.Ələkbərova

Rus dilində mətnin təfsiri metodikası

Xülasə

Rus dilinin xarici dil kimi tədrisi prosesində mətnin təfsiri xüsusi yer tutur. Məqalədə qeyd olunur ki, mətnin təfsiri ancaq mənimsənilən xarci dilin yuxarı səviyyəsi bazasında aparıla bilər və tələbələrin üslubiyyat, leksikiloqiya , ədəbiyyat və ölkəşünasılıq fənlərindən mühazirə və seminarlarda əldə etdikləri müəyyən biliklərə söykənir.

E.Haydarova
KAlakbarova

The interpretation method of the text in Russian

Resume

The interpretation of the text plays an important play in teaching Russian as a foreign language. It is mentioned in article that the interpretation of the text can be conducted as a high level base of learning foreign language, and it leans against the students' knowledge that has been achieved in seminars and lectures of stylistic, lexicology, literature and country study subjects.

Rəyçi: G. Əsgərova
filologiya elmləri namizədi, dosent

MƏLAHƏT ABDULLAYEVA
ADİU

FRANSIZ DİLİNDƏ MORFOLOGİZMLƏR

Açar sözlər: fransız dili, morfologizmlər, leksikologiya, suffikslər.
Ключевые слова: французский язык, морфологизмы, лексикология, суффиксы.
Key words: french, morphologisms, lexicology, suffixes.

Leksik-semantik yolla sözdüzəltmədən fərqli olaraq morfoloji üsulla sözdüzəldici şəkilçilərin artırılması ilə dildəki mövcud modellər üzrə yeni sözlər düzəldilir. Nəticə etibarilə dildəki mövcud sözlər şəkilçilər artırılması nəticəsində həm məna, həm də fonetik–morfoloji baxımdan yeni sözlərə çevrilir.

Müasir fransız dilində morfoloji üsulla yeni sözlər mövcud sözlərə son şəkilçilərin (suffikslərin), ön sözlərin (prefikislərin) və eləcə də prefikslərlə suffikslərin eyni zamanda artırılması yolu ilə düzəldilir.

Şəkilçilərin artırılması yolu ilə dilin lüğət tərkibinin zənginləşməsi məsələsi fransız dilində söz yaradıcılığı sistemində həmin üsulun məhsuldar olub-olmaması məsələsi kimi mübahisəli olaraq qalmaqdadır. Məsələn, müxtəlif şəkilçilərin məhsuldarlığının öyrənilməsi lüzumunun xüsusi olaraq qeyd edən K.Goryen, A.Qoldis, M.A.Qurçova və digərləri müdafiə edirlər.

A.Dozaya görə suffikslərin köməyilə söz yaradıcılığı fransız dilinin lüğət tərkibinin zənginləşməsində mühüm mənbə kimi çıxış edir. Prefiks sözə suffiks qədər möhkəm bağlanmır, öz müstəqilliyini nisbətən daha çox saxlayır. Bununla yanaşı A.Doza bu deyilənlərə zidd olan digər bir fikir də irəli sürür. Onun fikrinə görə, şəkilçilərin işlənməsi yolu ilə sözdüzəltmə müasir fransız dilində analitizm meyllərinin güclənməsi nəticəsində baş verir.

F.Brüno şəkilçilərin işlədilməsi yolu ilə söz yaradıcılığının fransız dilinin bütün dövrləri üçün məhsuldar olmasını iddia edir.

Digər fransız dilçisi E.Püson belə hesab edir ki, suffikslərin artırılması yolu ilə yeni sözlərin yaradılması müasir fransız dilində məhsuldar üsul olaraq qalmaqdadır.

Sovet dilçisi M.S.Quriçeva roman dillərində söz yaradıcılığı yollarında müşahidə edilən qanunauyğunluqların tədqiqi zamanı belə nəticəyə gəlir ki, fransız dilində söz yaradıcılığı sahəsində, şəkilçilərin işlədilməsi yolu sabit xarakter daşıyır.

M.A.Kataqoşina və A.K.Stepanov müasir fransız dilində yeni sözlərin yaranmasında ən məhsuldar olan suffiksləri göstərir.

Ş.Baldi, C.Maruza, V.Brödal, L.A.Bulaxovski və digər dilçi alimlər isə belə hesab edirlər ki, şəkilçilərin artırılması ilə yeni sözlərin yaranması müasir fransız dilində məhsuldar xarakter daşımır. Ş.Baldi belə nəticəyə gəlir ki, ilk baxımdan suffikslərin məhsuldar olması nəzərə çarpır. Lakin daha dərin tədqiqatlar aparılsa aşkar ola bilər ki, suffikslərin məhsuldarlığının artması fikri yanlış olsun. Ş.Baldi bunun səbəblərini müasir fransız dili üçün səciyyəvi olan analitizm meyllərinin daha da müxtəlif xarakter daşıdığını iddia edir.

Fransız dilçisi C.Maruçovun fikrinə görə müasir fransız dilində şəkilçilərin işlədilməsi yolu ilə söz yaradıcılığı imkanlarından zəif istifadə edilir.

Dilçi alim L.A.Bulaxovski yeni sözlərin yaradılmasında məhdud ifadə vasitələri olan fransız dilini, bu baxımdan nisbətən zəngin imkanları olan digər dillər ilə, məsələn, (rus, alman) muqayisə edir.

Burada nəzərdən keçirdiyimiz nöqteyi-nəzərlərin hər ikisindən belə bir nəticəyə gəlmək olar ki, suffikslərin işlədilməsi söz yaradıcılığının müasir fransız dilində hal-hazırda məhsuldar olub-olmaması məsələsi çox mürəkkəb məsələdir.

Fransız dilinin leksikologiyası məsələləri ilə məşğul olan Z.N.Zlever yazır ki, əgər fransız dilində söz yaradıcılığının məhsuldar olub-olmamasından söhbət gedirsə, bu müddəanı dəqiqləşdirmək lazımdır; belə ki, söhbət əsasən sintatik yolla baş verən söz yaradıcılığından gedə bilər və bu söhbət yalnız hamı tərəfindən anlaşılan fransız mənşəli çoxişlənən sözlərə aid ola bilər. Daha sonra o qeyd edir: «Lakin bu qeyri-məhsuldarlıq ümumdanışıq nitqində işlədilən ümumişlək sözlər əsasında inkişaf edən analitik yolla yaradılan sözlər hesabına əvəz olunur».

Z.N.Hevinin fikrincə leksik-analitik vahidlər bəzi əlamətlərinə görə kitab dilinə xas olan söz yaradıcılığına uyğunlaşır, çünki onlar informasiya cəhətdən dolğun, təkmənalı və çoxhecalı olur.

Fransız dilinin tədqiqatçıları göstərirlər ki, bəzi şəkilçilərin işlədilməsi ilə yaranan sözlər (məsələn: subyektiv qiymətverici mənası olan sözlər) situativ xarakter daşıyaraq dildə möhkəmlənə bilmir. Digər tərəfdən isə ümumdanışıq nitqində şəkilçilərin köməyilə söz yaradıcılığının həm mütləq, həm də nisbi məhsuldarlığının zəif olması və eyni zamanda onların işlədilməsinin elmi və texniki terminlərin yaradılmasında zəngin və məhsuldar rol oynadığı qeyd olunur.

Demək lazımdır ki, morfoloji üsulla söz yaradıcılığı sahəsində məhsuldar üsul olub-olmaması baxımından söhbət getdikdə bəzi dillər əsassız olaraq məhdud dil materialları üzərində aparılmış, müşahidələrdən çıxış edərək bu və ya digər ümumi xarakter daşıyan müddəalar irəli sürürlər. Bu baxımdan söz yaradıcılığı prosesində iştirak edən, mümkün qədər çox şəkilçini əhatə etməklə aparılan geniş tədqiqata ehtiyac duyulur.

Məlumdur ki, bu və ya digər şəkilçinin məhsuldarlığını müəyyənləşdirmək üçün müvafiq metod olmalıdır. Əslində belə bir metod son illərin tədqiqat əsərlərində hazırlamaq üzrədir. Bu baxımdan tərkibində eyni bir suffiks olan sözlərin içərisində müəyyən tarixi müddət əzində köhnəlməkdə olan sözlər ilə yeni yaranan sözlərin kəmiyyət göstəricilərinin müqayisəli şəkildə tutuşdurulması, şübhəsiz ki, sözdüzəldici şəkilçilərin məhsuldarlığının hansı istiqamətdə inkişaf etdiyini qiymətləndirmək üçün müəyyən bir əsas verir.

1). «itude» şəkilçisi vasitəsilə düzələn isimlər

Qadın cinsli isimlər düzəldən hal və keyfiyyət bildirən «**itude**» suffiksi az məhsuldar şəkilçilərdəndir. Tərkibində bu şəkilçinin olduğu isimlər qrupunda dinamik dəyişikliklər çox zəif şəkildə baş verir. Buna □issal olaraq köhnəlməkdə olan «*inhabitude*» (défant dihabtude), yeni qeydə alınan «*complétude*» (caractire d′ un systeme hypothético-déductif on toute proposition □issal□d aux règles de formalisation peut-êre soit démontré, soit □issal), «□*issal*□*de*» (condition des personnes de race notre caractére □issal à cette race) sözlərini □issal göstərmək olar.

2) «aie» şəkilçisi ilə düzələn isimlər

Həmin şəkilçi ismə artırıldıqda sözə müəyyən iş aləti, yaxud vasitəsi bildirən, kişi cinsli isimlər düzəldən «**aie**» suffiksi az məhsuldar şəkiçilərdəndir. İsimlər qrupunda baş verən dinamik proseslərdə bu suffiksin iştirakı zəifdir. Belə ki, burada köhnəlməkdə olan 2 söz qeydə alınmışdır. Bunlar aşağıdakılardır:

1). «*aspirail*» (ouverture pratique dans un fourneom, poêle pour donner passage à l′ art) ;

2). «*bucail, bucaille*» (sarassin, blé noir) ;

3). «*gémail*» (vitrail sans plombes obtenu par juxtaposition et superposition de verre colorée) ;

3). «and» şəkilçisi ilə düzələn isimlər

Məhsuldarlığı azalmaqda olan «**and**» şəkilçisi kişi cinsli isim düzəldici şəkilçilərdəndir. Bu şəkilçi adətən kiçildici, istehza mənası bildirən isimlərin tərkibində işlənir. Bu qəbildən olan sözlər sırasında da köhnəlmə prosesi getməkdədir. Aşağıdakı sözləri buna misal gətirmək olar :

«*pitand, e*» (paysan lourd et grossier, niai),

«*sourdand*» (ful n′ entend qu′ avec peine).

Ümumişlək leksikaya «*corniaud*» (chien matinée pop. Imbesille) sözü yeni daxil olmuşdur.

4). «âtre» şəkilçisi vasitəsilə düzələn isimlər

Müəyyən istehza bildirən və kiçildici mənası olan, eyni zamanda müəyyən bir fikri, dini cərəyanı və s. Bildirən şəkilçilərdəndir. Tərkibində «**âtre**» şəkilçisi olan «*androlâtre*» (qui pratique l′ andrôlatre, culte divin rendu à un homme), *gentillâtre* (fam : gentilhomme pauve ou de petite noblesse) kimi sözlər köhnə sözlər qrupuna, «*parâtre*», «*palastre*» (boit qui contient de mécanisme d′ une serrure) sözü isə yeni qeydə alınan sözlər qrupuna daxil edilmiş və bu proses hal-hazırda davam etməkdədir.

5). «age» şəkilçisi haqqında məlumat

Fransız dilində əsasən kişi cinsli isimlər yaradan «**age**» şəkilçisi ən məhsuldar şəkilçilərdən biridir. Hərəkət mənasının ifadə edən «**age**» şəkilçisi bəzən ümumi cəmlik mənasını da ifadə edə bilir. Bu şəkilçinin iştirakı ilə yaranmış isimlər, adətən sənayenin, kənd təsərrüfatının müxtəlif sahəsinə aid olan anlayışları ifadə edir.

«**Age**» şəkilçisi eyni zamanda müasir fransız dilində baş verən dinamik proseslərdə fəal iştirak edir. Belə ki, köhnəlməkdə olan sözlər arasında «**age**» şəkilçisi olan sözlərin sayı 263, yeni yaranan isimlərin sayı isə 248-dir.

Tərkibində «**age**» şəkilçisi olan bir çox sözlərin köhnəlməsi ifadə etdikləri texnika, istehsalat ilə bağlı olan anlayışların özlərinin köhnəlməsi, müasirlikdən çıxması ilə izah olunur.

Tərkibində «**age**» şəkilçisi olan yeni isimlərin meydana gəlməsinə əsas səbəb də məhz yeni elmi-texniki anlayışların əmələ gəlməsidir. Bunlara aşağıdakı sözləri misal göstərmək olar : «*furboforage*» (forage fait par une turbine) ; «*dégasolinage*» (action de degasoliner traiter un gaz naturel pour en sepárer les hydrocarbures liguides) və s.

«**Age**» şəkilçisi təkcə müəyyən bir leksik uslubi qrup sözlər ilə bağlı olmayıb, həm də geniş işlənmə dairəsinə malikdir. Belə ki, gündəlik həyatın müxtəlif sahələri

ilə bağlı sözlərin içərisində bu şəkilçi ilə yaranmış sözlərin sayı az deyildir. Bunlara misal olaraq köhnəlməkdə olan «*farinage*», «*avenage*» və s. Göstərmək olar.

Bəzi dilçilər belə hesab edirlər ki, ««**age**» şəkilçisinin tərkibində «**iss**» elementi olan «**issage**» variantı da var. Lakin «**iss**» elementi «**age**» şəkilçisinin ifadə etdiyi hərəkət mənasına əslində heç bir məna incəliyi əlavə etmir.

«**iss**» elementi ilə düzələn isimlərə misal olaraq «*clissage*» (le clissage d′ un bouteille) ; «*alunissage*» (action d′ alunir – aya enmək) ; «*amerissage*» (action of d′ amerrir – suya enmə) və s. Göstərmək olar.

Beləliklə, yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, «**age**» şəkilçisi məhsuldar olaraq qalır.

III. «Age» şəkilçisi ilə bitən isimlərin Azərbaycan dilində işlənməsi

Məlum oduğu kimi, Azərbaycan dilinin lüğət tərkibində fransız dilinə mənsub söz və terminlər başqa əcnəbi alınmalara nisbətən sayca üstünlük təşkil edir.

Bir dildən başqa dilə sözlər keçdiyi kimi sözlərlə birlikdə şəkilçilər də keçə bilər. Fransız dilinə mənsub Azərbaycan dilində işlənən şəkilçilərdən ən çox məhsuldar olanları «**gie**» və «**age**» şəkilçiləridir.

«**gie**» şəkilçisinə aid bir neçə sözü misal gətirək : *metodologie, technologie, morfologie, metallurgie* və s.

Azərbaycan diliçiliyndə həmçinin müqayisəli dilçilik nəzəriyyəsində fransız-şünasların elmi-tədqiqat əsərlərində tezis və məqalələrdə morfoloji üsulla yaranan yeni söz və terminlər haqqında demək olar ki, bəhs edilməmişdir. Təkcə Nizami Xudiyevin «Azərbaycan ədəbi dilinin zənginləşmə yolları» kitabında bu problem haqqında ötəri də olsa bəhs edilmiş və həmin şəkilçilərin qeyri-məhsuldar olması haqqında yanlış fikrə gəlmişdir.

Morfoloji yolla yaranan «**age**» şəkilçisi ilə bitən dilimizdə işlənən fransız dilinə mənsub aşağıdakı terminlərə nəzər salaq : *bangaj, massaj, garaj, metraj, dub-lyaj, mantaj, makiyaj, arbitraj* və s.

Fransız dilində **-tion**, **ation** suffiksləri hərəkət və nəticə bildirməkdən başqa çox vaxt hal vəziyyəti bildirir. Onların kimya, nüvə fizikası, metallurgiya, kənd təsərrüfatı və s. Sahələrinə aid sözlərdə işlənməsi bununla izah olunur. Belə hala aşağıdakı modelləri misal göstərmək olar : *disposition, réaction, construction, attraction, conversation* və s.

Müasir fransız dilində affiks şəkilçilər artırmaqla əmələ gələn terminlərin sistemləşdirilməsində «**iser**», «**isation**» suffiksləri özünə diqqət cəlb edir.

I – hərəkət ifadəsi bildirir,

II – hərəkətin nəticəsini.

Məsələn : *insonoriser – insonorisation*

transistoriser – transistorisation

rentabiliser – rentabilisation.

IV Azərbaycan dilində ifadə üsulları

Fransız dilində morfoloji yolla yaranan sözlərin azərbaycan dilində ifadə üsul-larını aşağıdakı misallardan aydın görmək olar:

Scoalire- scolarite təli, dərs- kurs, tədris dövrü

Reeligible- reeligibilite- yenidən, təkrar seçilən- yenidən, təkrar seçilmə

Scissipare- scissiparite bölünməklə çoxalan- bölünməklə çoxalma

Müasir sözdüzəltmə prosesində **-isme**, ist suffiksləri fəal və məhsuldardılar. Onlar çox vaxt eyni, qoşa törəmələr verirlər.

Ədəbiyyat

1. «Книга для чтения на французском языке». Москва «высшая школа». 1985 г.
2. «Учебник французского языка». Москва. «Высшая школа». 1982 г.
3. В.Л.Кодухов: «Введение в языкознание». Москва. «Просвещение». 1978.
4. R.C.Cəfərov: "Manuel de français". Bakı. 1996 il.
5. "Cours pratique de qrammaire Française". Москва. «Высшая школа» 1969.
6. А.В.Коржавин и др.: «Учебник французского языка». М. 1980 г.
7. И.Р.Прудникова: «Пособия по французскому языку». М. «Высшая школа». 1982 г.

Abdullayeva Malahat

Morphologisms in French

Summary

The article speaks about the forming of words in French helping of grammar method, appearance of the new words and their translation into Azerbaijani meant multimeaningual kinds of expression in various aspects in Azerbaijani reality. The article also speaks about morphologisms in French, presents ideas and thoughts of scientists and investigators, analyses suffixes and prefixes in morphological system of French, also word formation by means of morphological method in the lexics of French, and some words and forms formed with the help of morphologisms.

Абдуллаева Малахат

Морфологизмы во французском языка

Резюме

В статье рассматриваются морфологизмы во французском языке, изучается мысли и мнение ученых и исследователей, анализируются суффиксы и префиксы в морфологическом системе французского языка, и некоторые слов и терминов образующиеся с помощью морфологизмоф.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

NAİLƏ QƏDİMOVA
ADİU

İNGİLİS DİLİNİN FONOSİSTEMİNDƏ SONOR TİPLI AĞIZ VƏ BURUN SAMİTLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏKİ SONOR SAMİTLƏRLƏ FƏRQLİ VƏ OXŞAR XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: ingilis dili, fonisistema, Azərbaycan dili, sonor sözlər.
Ключевые слова: английский язык, фоносистема, азербайджанский язык, сонорные звуки.
Key words: English, phono-system, Azerbaijan*, sonart sounds*

İngilis dili sonor samitlərlə zəngin olan dillərdən biridir. Bu dildə sonor samitlərin sayı yeddidir: [l, m, n, r, j, w, ŋ] .

Məlumdur ki, sonor samitlər, ümumiyyətlə, bu və ya digər dilin fonemləri sistemində ayrıca yer tutur. Belə ki, sonor samitlər özlərinin bəzi xüsusiyyətlərinə görə samitlərə, bəzi xüsusiyyətlərinə görə isə saitlərə oxşayır. Təsadüfi deyildir ki, sonor samitlərin bəzilərini ingilis fonetistləri (o cümlədən D.Counz) yarımsait adlandırırlar. Sonor samitlərin ümumiyyətlə samitlərlə oxşar cəhəti bundan ibartədir ki, onların tələffüzündə ağ ciyərdən gələn hava axını müəyyən maneələrə rast gəlir, beləliklə, onlar samitlər bəhsinə daxil edilir. Sonor samitlərin saitlərlə oxşar cəhəti isə onların tələffüzündə tonun küyə üstün gəlməsidir. Məhz bu ümumi xüsusiyyətə görə sonor samitlər vahid bir qrupa daxil edilir. Başqa xüsusiyyətlərə görə isə sonor samitlər bir-birindən fərqlənir.

İngilis dilində olan sonor samitləri Yumşaq damağın vəziyyətinə görə sonor samitlər iki yerə ayrılır:

a) ağız sonorları: [l] , [r] , [j] , [w] ;

b) burun sonorları: [m] , [n] , [ŋ] .

a) Ağız sonor samitləri

Yuxarıda qeyd etdiyimiz kimi, ağız sonorları dörd samit daxildir: [l] , [r] , [j] , [w] . Bunlar özləri də fəal və qeyri-fəal danışıq üzvlərinin iştirakına, habelə maneənin dərəcəsinə görə aşağıdakı şəkildə qruplaşdırıla bilər:

1. Qoşadodaq, novlu, ağız sonor samiti: [w] ;
2. Dilönü, yuvaq, apikal, novlu, ağız sonor samiti: [l] ;
3. Dilucu-yuvaqarxası, novlu, ağız sonor samiti: [r] ;
4. Dilortası-sərt damaq, novlu ağız sonor samiti: [j] .

[l] . Yuxarıda qeyd olunduğu kimi, bu samit apikal məxrəcə malik olub dilin yan hissələrində əmələ gələn novdan keçən, musiqili tonu olan səda ilə tələffüz olunur.

Bu səsin tələffüzü zamanı dilin ön hissəsi ucu ilə birlikdə [t] , [d] səslərinin tələffüzündə olduğu kimi, yuvaqlara kipləşir, dilin yanları isə aşağı düşmüş vəziyyətdə olur. Beləliklə, dilin yanlarında və yaxud bir yanında nov əmələ gəlir.

İngilis dili [l] samitinin tələffüzü zamanı danışıq üzvlərini, habelə dilin vəziyyətini aşağdakı şəkillərdə göstərmək olar:

İngilis dilindəki [l] samiti Azərbaycan dilindəki [l] samitinə uyğun gəlir. İngilis dilində olduğu kimi, Azərbaycan dilində də bu samit sonor samitlər sisteminə daxildir. Lakin Azərbaycan dilindəki [l] samiti özünün bir sıra xüsusiyyətlərinə görə, ingilis dilindəki [l] samitindən kəskin surətdə fərqlənir. Bu fərqləri aşağıdakı maddələrlə göstərmək olar:

1. İngilis dilindən fərqli olaraq Azərbaycan dilində [l] səsi dilin ön hissəsinin üst ön dişlərin arxasına toxunması ilə əmələ gəlir. Başqa sözlə, ingilis dilindəki [l] samiti apikal, Azərbaycan dilindəki [l] samiti isə dorsal məxrəcə malikdir.

2. İngilis dilindəki [l] səsi öz keyfiyyətinə görə Azərbaycan dilindəki [l] səsindən qalındır. Hətta bu qalınlıq o qədər çoxdur ki, ingilis və Azərbaycan dillərindəki [l] , [l] səslərini bir-birindən eşitmə vasitəsilə asanlıqla fərqləndirmək olar. Bu iki mühüm fərqi göstərdikdən sonra qeyd etmək lazım gəlir ki, ingilis dilindəki [l] səsi, həmin dilin samit fonemləri içərisində xüsusi yer tutur. Belə ki, [l] samitinin öz fonetik mövqeyindən asılı olaraq qalın və incə variantları vardır. Başqa sözlə, məsələn, [a] samitindən əvvəl gələn ingilis qalın [l] samiti, [ı] saitindən ciddi surətdə fərqlənir.

[l] səsindən danışarkən, D.Counz göstərir ki, «… İngilis dilində l səsinin bir neçə variantına təsadüf edilir. Lakin bunlardan prakitiki əhəmiyyətinə görə ikisini qeyd etmək kifayətdir. Bunlardan biri incə l, o biri isə qalın l səsidir. Onlar eyni bir fonemin variantlarıdır ki, bunlardan yumşaq l ancaq saitlərdən və j-dən əvvəl, qalın l isə qalan samitlərdən əvvəl və sözün axırında özünü göstərir».

Belə bir halı Azərbaycan dilində də müşahidə edirik. İngilis dilində olduğu kimi, Azərbaycan dilində də [l] səsi [a] saitindən, habelə başqa qalın saitlərdən əvvəl və sonra gələrkən qalın, incə saitlərdən əvvəl və sonra gələrkən isə (məsələn [i] saitindən əvvəl və sonra) incə tələffüz olunur. Beləliklə, özünün müxtəlif fonetik mövqeyindən asılı olaraq, dil müxtəlif vəziyyətlər alır. Lakin qeyd etmək lazımdır ki, ingilis dilində olduğu kimi Azərbaycan dilində də [l] samitinin incə və qalın tələffüz edilməsi fonematik səciyyə daşımır. Ümumiyyətlə, müasir türk dilindən başqa, türk dillərinin heç birində palatalizasiya fonematik mahiyyət kəsb etmir.

İngilis dilindəki [l] samitinin qalın və incəliyini müqayisə etdikdə aydın olur ki:

1. İngilis dilindəki [l] samiti Azərbaycan dilindəki [l] samitindən onun hansı fonetik vəziyyətdə işləməsindən asılı olmayaraq xeyli qalındır;

2. İngilis dilindəki incə [l] samiti Azərbaycan dilindəki [l] samitinin incə çalarından xeyli qalındır;

3. İngilis dilindəki incə [l] samiti öz qalınlıq-incəlik dərəcəsinə görə təxminən Azərbaycan dilindəki qalın [l] samiti kimidir.

Lakin bu heç də o demək deyildir ki, ingilis dilindəki incə [l] samiti Azərbaycan dilindəki qalın [l] ilə eynidir. Əksinə, onlar əmələ gəlmə yerinə görə müxtəlif olduqları kimi, akustik cəhətdən də bir-birindən əsaslı surətdə fərqlənir.

Azərbaycan dilində söz əvvəlində olan [l] səsinin amplitudası ingilis [l] səsinin amplitudasından kiçikdir. Bu da ingilis dilindəki [l] səsinin sonorluluq dərəcəsinin daha çox olduğunu göstərir. Davamlılıq dərəcəsinə görə isə Azərbaycan [l] səsi ingilis [l] səsindən daha davamlıdır. Lakin bu ikinci fərq intervokal

mövqedə tamamilə əksinə olur. Sonorluğuna görə isə: intervokal mövqedə olan [l] və [l] samitləri arasındakı fərq, söz əvvəlində işlənən [l] , [l] samitləri arasında olan fərq kimidir. Eyni sözləri söz axırında işlənən [l] , [l] samitləri haqqında da demək olar.

[r] . Dünya dillərinin demək olar ki, hamısında olan bu samitin ingilis dilində bir sıra spesifik xüsusiyyətləri vardır. Bu xüsusiyyət bir tərəfdən həmin səsi artikulyasiya bazası, digər tərəfdən isə onunla əlaqədar akustik keyfiyyətləri ilə bağlıdır. Belə ki, ingilis dilində [r] səsini tələffüz etmək üçün dilin ucu yuvaqların arxasına qalxaraq, yuxarıda qeyd olunmuş novlu, küylü samitlərə nisbətən iri nov əmələ gətirir. Dilin yanları möhkəm surətdə dişlərə kipləşir və beləliklə dilin ortasında hava axınının keçməsi üçün arx əmələ gəlir. Q.P.Torsuyevə görə [r] səsinin məxrəci kakuminak məxrəc adlanır.

Qeyd etmək lazımdır ki, bəzi dilçilər, o cümlədən O.İ.Dikuşina ingilis dilində-ki [r] səsini apikal məxrəcli səs hesab edir. O yazır: «… İngilis dilində olan bütün dilönü samitlər kimi [r] fonemi də apikal məxrəcə malikdir».

Göründüyü kimi, O.İ.Dikuşina ilə Q.P.Torsuyevin fikri bu məqsədə uyğun gəlmir. Qeyd edək ki, [r] səsinin kakuminal məxrəcli olması bəzi digər ingilis dili tədqiqatçıları tərəfindən da irəli sürülmüşdür.

Azərbaycan dilindəki [r] səsinə gəldikdə isə bu samit əmələ gəlmə üsuluna görə kipləşən-titrək olan yeganə samitdir. Həmin səsin tələffüzü zamanı, dilin ön hissəsi ucu ilə birlikdə yuvaqlara doğru istiqamətlənərək yüngülcə onlara toxunur. [r] samitinin tələffüzü zamanı dodaqlar, demək olar ki, neytral vəziyyətdə olur.

Azərbaycan dilindəki [r] səsi ilə ingilis dilindəki [r] səsi arasında aşağıdakı fərqləri göstərmək olar:

1. Yuxarıda qeyd olunduğu kimi, ingilis dilində [r] səsi kakuminal məxrəcin, Azərbaycan dilindəki həmin səs apikal məxrəclidir;

2. İngilis dilində [r] səsi novlu samit olduğu halda, Azərbaycan dilində titrək samitdir. Bu o deməkdir ki, ingilis [r] səsi tələffüz olunarkən dil titrəmir. Məhz buna görə də ingilis dilindəki [r] Azərbaycan dilindəki [r] səsindən fərqlənir. Belə ki, ingilis [r] səsi təxminən dilimizdəki [y] samitinə oxşar bir səsi xatırladır. [r] səsinin düzgün məxrəcini tapmaq üçün dərslik və dərs vəsaitlərində, adətən, aşağıdakı 2 üsul tövsiyə olunur:

a) [r] səsinin məxrəcini tapmaq üçün yuvaqarxası [a:] saitinin tələffüzündə dilin vəziyyətindən istifadə etmək olar. Maneənin tədricən aradan qaldırmaq yolu ilə dilin kakuminal vəziyyətə salmaq şərti ilə aşağı buraxdıqda, ingilis [r] səsi üçün lazım olan novun həcmini tapmaq olar;

b) Rus dilindəki [a] səsinin tələffüzündən başlayaraq, dilin ucunu tədriclə yuxarı əymək yolu ilə də ingilis səsinin tələffüzü üçün lazım olan novun həcmini tapmaq mümkündür.

Təcrübə göstərir ki, ciddi dəyişiklik etmədən bu üsullardan Azərbaycan auditoriyasında da geniş surətdə istifadə etmək olar.

3. İngilis [r] samitinin öz fonetik mövqeyindən asılı olaraq müxtəlif variantları vardır.

İngilis dilində [r] səsi bir çox hallarda kar samitlərdən sonra gəlir. Bu zaman irəli assimilyasiyanın təsiri ilə sədalığını itirərək karlaşır və beləliklə, küylü samitə

çevrilir. Azərbaycan dilindəki [r] səsi isə məlum oluduğu kimi, belə bir fonetik mövqedə işlənmir. Ona görə də [r] səsinin yuxarıda bəhs etdiyimiz mövqedə tələffüzündən danışarkən, bu məsələlərə ciddi fikir verilməlidir.

4. İngilis dilindəki [r] səsinin tələffüzündə dodaqlar gərginləşdiyi və dairəviləşdiyi halda, Azərbaycan dilindəki [r] səsinin tələffüzündə dodaqlar tamamilə neytral olur.

5. Nəhayət, ingilis dilindəki [r] səsi yalnız saitlərdən əvvəl işləndiyi halda, Azərbaycan dilində hər cür fonetik vəziyyətdə işlənir. İngilis və Azərbaycan dillərindəki [r] , [r] səslərinin ossilloqrafik müqayisəsi aşağıdakı nəticəni vermişdir:

- söz əvvəlində ingilis [r] səsinin tonu Azərbaycan dilindəki [r] səsindəki tondan daha artıqdır;

- intervokal mövqedə işlənən [r] , [r] səsləri arasındakı fərq söz əvvəlində işlənən ingilis və Azərbaycan [r] , [r] samitləri arasındakı fərq ilə təxminən eynidir. İngilis [r] səsi söz sonunda işlənmədiyinə görə, bu cəhətdən Azərbaycan dili [r] səsi ilə ossilloqrafik müqayisə aparılmamışdır.

[j] . Bu sonor samit də ağız sonorlarına daxildir. İngilis dilindəki həmin səsin məxrəcini dilin ortası ilə sərt damaq təşkil edir. Belə ki, dilin orta hissəsi sərt damaqla birlikdə nov əmələ gətirir. Sədalı səs bu novdan keçərkən [j] səsini əmələ gətirir və bu səs qısa tələffüzlü [ı] səsinə oxşaryır.

Azərbaycan dilində [j] səsi də novlu, dilortası, sərt damaq, saf, cingiltili samitdir. [j] səsinin tələffüzündə dilin orta hissəsi sərt damağa yaxınlaşır. Öz artiçkulyasiya bazası cəhətdən Azərbaycan dilindəki [j] ingilis dilindəkindən demək olar ki, fərqlənmir. İngilis dilindəki [r] səsi kimi, [j] səsi də söz sonunda işlənmədiyinə görə, Azərbaycan [j] səsi ilə ossilloqrafik müqayisə aparılmamışdır.

b) Burun sonor samitləri

Bu sonor samitləri ağız sonor samitlərindən fərqi yalnız yumşaq damağın vəziyyəti ilə müəyyənləşir. Burun samitlərini tələffüz etdikdə yumşaq damaq yuxarı qalxmış vəziyyətdə olur. İngilis dilində üç burun samiti vardır [m] , [n] , [ŋ] . Əmələ gəlmə yerinə görə [m] qoşadodaq, [n] isə dilönü yuvaq samitdir.

[m] . Yuxarıda qeyd etdiyimiz kim, bu səs dodaqların kipləşməsi və yumşaq damağın aşağı salınması yolu ilə əməl gəlir.

Azərbaycan dilindəki [m] səsi demək olar ki, ingilis dilindəki [m] səsindən fizioloji cəhətdən fərqlənmir. Onların arasında olan yeganə fərq bundan ibarətdir ki, ingilis [m] samitinin tələffüzündə kipləşmiş dodaqlar Azərbaycan dilindəkinə nisəbətən daha çox gərginləşmiş olur.

Söz axırında işlənən [m] samiti Azərbaycan dilindəki [m] samitindən demək olar ki, yalnız güclülüyünə görə fərqlənir.

[n] . Məlum olduğu üzrə, [n] apikal yuvaq samitidir və əmələ gəlmə yerinə, habelə dilin vəziyyətinə görə başqa apikal-yuvaq samitlərindən demək olar ki, fərqlənmir. İngilis və Azərbaycan dillərindəki [n] , [n] samitləri arasında olan fərq, demək olar ki, ingilis [t] , [d] samitləri ilə Azərbaycan [t] , [d] samitləri arasında olan fərqlər kimidir.

Söz əvvəlində və söz axırındakı [n] , [n] samitlərinin arasında demək olar ki, heç bir ciddi fərq yoxdur.

Ədəbiyyat

1.F.Veysəlov: «Cümlədə intonasiyanın iki funksiyası». ADU. 1974. №2.
2.N.Məmmədov: «Azərbaycan dilçiliyinin nəzəri əsasları». «Maarif» nəşriyyatı.
3.İ.Rəhimov, T.Hidayətzadə: «İngilis dilinin praktik qrammatikası». Bakı. 1966. s. 14.
4.Ə.M.Dəmirçizadə: «Azərbaycan ədəbi dilinin inkişaf yolları». Bakı, 1958.
5.A.A. 1956.

Наиля Кадимова

Сонорные звуки в фоносистеме Английского языка и их сопоставление со звуками Азербайджанского языка

Резюме

В статье рассматриваются сонорные звуки в фоносистеме английского языка и их сопоставление в азербайджанском языке. В статье также рассматриваются ротовые и носовые звуки сонорного типа в фоносистеме английского языка, их произношение в отдельных слогах, и словах данного языка. Английская фонетика сравниваются с фонетикой Азербайджанском языком.

Naila Kadimova

Sonant sounds in the phonosystem of English and their contrasting with Azerbaijani sounds

Summary

Sonant sounds in the phonosystem of English language and their contrasting in Azerbaijan language are considered in the article. The article also speaks mouth and nasal sounds of sonant types in the phonosystem of English their pronunciation in separate words of this language. English phonetics is compared with the Azerbaijani phonetics.

Rəyçi: b/m R.Musayeva

RÜBABƏ MUSAYEVA
ADİU

QƏDİM İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ BAŞ VERƏN SEMANTİK TRANSFORMASİYA VƏ DİL ƏLAQƏLƏRİ

Açar sözlər : lüğət tərkibli, ekstranlinqvistik amillər
Ключевые слова: словарной состав, экстралингвистика.
Key words : vocabulary stock , extranlinguisitic factors

Məlumdur ki, heç bir dil təkçə fəaliyyət göstərmir. O, həmişə başqa dillərlə əlaqədə olur. Bu dillər müxtəlif vasitələrlə bir-birinin mədəniyyətinə, dilinə ədəbiyyat və həyat tərzinə təsir edir.

Heç bir dildə bu əlaqədən, bu kontaktdan yayına bilmir. Böyük alim V.V.-Humboldta görə dil tamamlanmamış bir olmaqla həm də daim hərəkətdə olan bir adətdir.

Xarici amillər aramsız olaraq dilə təsir edir və onda öz izlərini qoyub gedir. Odur ki, ingilis dilinin tarixində xarici təsir məsələsinə həmişə çox diqqət yetirilmişdir.

Məlum olduğuna görə, dil içtimai hadisədir . içtimai hadisə olmaq minarilə o, başqa ictimai hadisələrlə. Xalqın öz tarixi ilə sıx sürətdə bağlıdır. Hər bir dil, yavaş-yavaş da olsa , daim və durmadan inkişaf edir təkmilləşir.

Qədim ingilis dilinin lüğət tərkibi əsasən daxiili amillər hesabına zənginləşmiş, inkişaf etmiş və təkmilləşmişdir.

Qədim ingilis dilinin lüğət tərkibi, əsasən german mənşəli sözlərdən ibarət olmuşdur. Halbuki, orta və yeni ingilis ilinin lüğət tərkibi çoxlu miqdarda ekstalinqvistik təsirlərə məruz qalmışdır və onların lügət tərkibində alınma sözlər çoxluq təşkil etmişdir: Çoxlu xarici sözlərin mənisənilməsi nəticəsində doğm asözlərlə alınma sözlərin tarazlığı pozuldu.

Qədim ingilis dilinin lügət tərikibini nəzərdən keçirərkən ingilis tayflarının Roma mədəniyyəti və romalılardan müəyyən əlaqələrinin olması məlum olur. Roma dillərində qədijm ingilis dilinə ən çox təsir edən dil latın dili olmuşdur. Hələ qitədə yaşayərkən german tayfaları romalılarla, uzunmuddətli ticarət əlaqələrinə girmiş, onlarla sıx unsuyyətdə olmuş və bunun nəticəsində 50-yə qədər latın sözləri, onların dilinə daxil olmuşdur. Bu sözlər kənd təsərufatı, ev muxəlifatı və hərbi işlərlə bağlı olan sözlərdir.

Eramızın birinci əsrində germanlarda kənd təsrufatı çox zəif inkişaf etmişdir. Buynuzlu heyvan əti və süd ən mühüm qida maddələrindən biri olduğuna baxmayaraq, germanlar yağ və pendir nə olduğunu bilmirdilər. Bir sıra meyvələri , o cümlədən armud, gavalı, gilas və.s bostan məhsullarından turp çuğundur , noxud istiot , nanə və.s tanımirdıar . Yeni əmtəələrin germalar arasında yayaılmasında roma tacirlərinin böyük rolu olmuşdur.

Eramızın birinci əsrində Braitaniyanı zəbt edən romalılar ölkəni öz müstəmləkərinə çevrib, orada bir sıra hərbi düşərgələr, daş döşənmiş yoolar –via- strata , istehkamlar və.s qurdular.

Müdafiə və yaşayış məqsədilə tikilmiş bu cür tikintilər latınca starata " küçə": castra düşərgə : vallum –kərpic divar : vicus – yaşayış qəsəbəsi və.s adlanırdı .

O zaman İngiltərənin yerli sakinləri Keltlər idilər. Onlar həmin latın sözlərini mənimsədilər, öz dillərində işlətdilər . Kelt dili vasitəsi ilə V əsrdən sora qədim ingilis dilinə keçmiş bu cür sözlər latın alınma sözlərinin ikinci qatını təşkil edir.

Latın "strata" sözü qədim ingilis dilində "straet " formasında işlənmişdir Bu söz əvvəlcə

Latın dilidə olduğu kimi yol mənasında işlənmiş, sonralar isə yolun hər iki tərəfində yaşayış qəsəbələri tkilidiyindən, həmin söz- street – kücə mənası kəsb etdi.

Romalıların müdafiə məqsəd ilə kərpic hasara verdikləri ad-vallum-qədim ingilis dilində "weall" (wall) adlanmağa başladı.

Qeyd etmək ki Keht-german leksik əlaqələri məsələsi geranistikada o qədər də aydın müəyyənləşdirilmişdir.

Keht dilində qədim ingilis dilinə keçən sözlər təxminən aşağıdakılardan ibaraətdir: dry

" istehkam" təpə" və.s bu sözlərin bəzilərinə coğrafi adlarda da təsaduf edilir.

Britanynın hərbi dətələrə yanaşı Roma tacirləri , Roma vətəndaşları axıb gəlməyə başladılır. Onların yaşadıqları qəsəbə "vicus" adlanırdı . Bu söz anglo-sakslar tərəfində mənimsələlinildi və qədim ingilis dilində wic forması kəsb edir . "Wic" isimindən "wician"

" Yaşamaq , məskunlaşmaq" feli yarandı . Soralar daha doğrusu, orta dövürdə wic siz fonetik dəyişikliyə məruz qalaraq wich forması aldı və bu söz aşağıdakı bir sıra yer adlarının tərkibində işlənməyə başladı: Greenwich, woolwich, Norwich , samitdən sonra "w" oxunmur.

Latın sözləri , əsasən , kilsə və dini sözlərdən ibarətdir . Eramızın VI –VII əsirlərində Rimdən gondərilmiş monaxlar Britaniyada xristian dinini yaymağa və əhalini xristianlaşdırmağa başladılar. Xristian dinin ölkədə yayılması ilə əlaqədər olaraq ingilis dilinə dinlə bağlı yeni məfhumlar, yeni sözlər axıb gəlməyə başladı.

Latın sözləri kimi qədim ingilis dilinə daxil olmuş sözlər mənşəcə, əslində yunan sözləri idi . Tarixdən məlumdur ki, əvvəlcə dini kitabalar yunanca yazılmış , sonradan isə latın dilində tərcümə edilmişdir . Latın dili kilsə dili olduğundan , Həmin dilin sözləri bir çox xalqların lüğətinə keçmişdir. Tədqiqatçıların hesablamalarına görə, qədim ingilis dilində təxminən 500-ə qədər din və təlimlə bağlı alınma latın sözlərinə təsadüf edililr.

Kilsə ayinlərini icra etmək və müqqədəs mətnləri oxumaq savadlı dini xadimlərin olmasını tələb edirdi . Odur ki, VII əsrdən başlayaraq Britanıyadan monastr məktəbləri təsis edildi . Britaniyada məktəblərin açılması , adamların latın dilində savadlanması, qədim ingilis dilinin lüğət tərkibinə bir sıra latın sözlərinin daxil olmasına səbəb oldu. Onlar din və təlimlə bağlı sözlər idi.

Təlimlə bağlı olan sözlərinə aşağıdakılar göstərmək olar:

Latın O.E	**O.E**	**Mod.E**
Centuriton	Hundred mann	«yüzbaşı
Asronomos	lunzolcaet	«Astronomiya» (yeni ulduzları haqqında biliklər
tericala	Eor-pbizenza	«Yer məskunları»
paganus	haepen	«Bütbərəst, atəşpərəst»
Centurion	Hundrer mann	«Yüzbaşı»

Latın	**O.E**	**MOD.E**
Schola	Scol	Schol «məkbət»
Scolare	Scolere	Scholar «şagird, alim»

Qədim ingilis dilinin lüğət tərkibi din və təlimlə əlaqədər alınma latın sözlərində əlavə, kalka yolu ilə yeni latın sözlərinin hərfi tərcümə etməklə də zənginləşmişdir.

Buna misal olaraq hərfinin günlərinin adlarını göstərmək olar.

Latın	**O.E**	**Mod.E**
Lunal dies (hərfi : Ay günü)	Monan deaz tuvez deaz	Monday « bazar ertəsi»
Martis dies (hərfi Mars günü)	Hərfi marsla	Tuesday «çərşənbə axşamı»
Mercuri (hərfi: Merkuri günü	Eyniləşdirilən Tuv muharibə allahı	Vedesday çərşənbə

Xristian dini və təlimlə bağlı olaraq yaranan kalkalara misal olaraq aşağıdakıları göstərmək olar

Ekstralingvistik amillərin təsiri özünü məhdud da olsa, dilin qrammatiksaına da göstərir. Lüğət tərkibinin intensiv şəkildə dolğunlanması , sözlərin axıb gəlməsi ingilis qrammatik quruluşunda xeyli dəyişikliklər baş verməinə səbəb oldu.

Adətən alınma sözlər onu mənimsəyən dilin inkişaf qanunlarına tabe olur, lakin onlar özlərim də o dildə inkişaf etnəyə meyilli olan inkişaf proseslərini sürətləndirir.

Bu zaman kəmiyyət dəyişilmələri müəyyən keyfiyyət dəyişilmələrinin yaranmasına gətirib çıxarır. Ingilis dilində belə oldu. Məlum olduğuna görə, qədim ingilis dili sintetik qrammatik quruluça mailk idi. Bu o deməkdir ki sözlər arasındakı əlaqə söz formaları, hal şəkilçiləri və.s ilə ifadə olunurdu, söz sırası bir növ müstəqil idi., sabit deyildi. Yeni mübtəda feldən əvvəldə gələ bilirdi və mübdatadn sonra yaxud cümlənin sonunda gələ bilirdi. Lakin orta dövürdə qədim ingilis dilinin sitetik qrammatik quruluşu analitik qrammatik quruluşla əvəz olunurdu : Yeni sözlər arasındakı əlaqələr artıq affikslər deyil, köməkçi sözlərlə , sabit söz sırası ilə ifadə olunmağa başladı.

Bəzi dilçilər ingilis dilində sintetik qrammatik quruluşun nalitik qrammatik quruluşla əvəz edilməsini fransız dilinin təsiri ilə izah edirlər . Fransız dilinin təsirilə ingilis dili fellərdən dəyişikliklər baş verdi.

Fransız dilində alınan təsirli və təsirsiz fellər mövcud idi, lakin bu katiqoriyalar üçün morfoloji göstərici mövcud deyil. Eyni bir fransız feli həm təsirli , həm də təsirsiz fel kimi işlənirdi. Halbuki, qədim ingilis felində təsirli fellər təsirsiz fel fərqlənirdi.

Orta dövürdə fransız "boil", "change", "continue", "decline","join" ,"sound", "turn" və.s kimi alınmalar həm təsirli , həm də təsirsiz mənalarını ingilis dilində saxlayırdılar. Fransız dilində "to recover" feli ancaq təsirli fel məasında malik idi. Orta və yeni ingilis dilində isə həm təsirli , həm də təsirsiz fel mənası kəsb etdi: Təsirli: She hath recovered the king

Təsirsiz: He will recover straight (Shakespeare , Othello , IV , I , 58)

Bu onu göstərirki, İngilis dilində özündə fel əsasında ikimənalılığı inkişaf etməyə meylli idi. Fransız alınmaları buna manə olmalıdılar, əksinə, qədim təsirli-təsirsiz fellərin dəyişəsi , prosesinə, onun tezləşməsi prosesinə kömək etdilər. Dilin qrammatik quruluşunda dəyişmələr o zaman baş verir ki, ana dilinin öz rüşeymlərində bu xüsüssiyətlər mövcüdr məsəəlməm, qədim ingilis dilində zeif dental şəkilçili keçmiş zaman felləri çox məhdud idi. Lakin orta dövürdə fransız alınma fellərinin təsiri nəticəsində, onların təkanı nəticəsində əvvəlki zəif sözlərin təsrifi forması ən məhsuldar növə çevrildi fransız dilinin təsiri ilə ingilis dilində yaranan analitik quruuluşla yanaşı sintaktik kalkalarda oldu.

Bir şeyi qeyd etmək lazım bilirik ki, umümmuyətlə sintaktik "yad"meyllərə qarşı çox sabitidir. Bu deyişmələr o zaman baş verir ki, doğma dilin üz rüşeymində belə meylər olsun. Frnsız dili bu meylləri hərəkətə gətirib inkişaf etdiridi.

Yarseva kalkaların iki müxtəlif növünü ayırmaq lazımdır.

a)sintaktik model mənimsələnir, həmin fransız tərkibi sözbə söz ingilis dilininə quruluşu saxlamaqla tərcümə edilir:

Fr:mettre son estude – Eng . to set one s study

Fr:a mon pouvour –Eng. At one s might

Əgər qədim ingilis dilində sintaktik modellər , sintaktik kalkalar fransız dilində edilirisə, orta ingilis dili dövründə ransız dilində dilində (sans kimi) mənimsəlinirdi).

İngilis dili ilə skandinav dillərinin çarpazlaşması A.İ göstərdiyinə görə ingilis dilində qrammatik qurulusunun deyismesine sebeb oldu.Sintetik quruluslu dil analitik qrammatiq qurulusla evez edildi.

Skandinav dili ingilis dilinin sintaksisinə də təsir etmisdir. Müasir ingilis dilində modal mənalı "should" və "would" fellərinin köməyi ilə felin analitik şəkil formasının yaranmasını (məs: İ should have spoken to him Mən onunla danışmalı idim: Mən gərək onunla danışaydım)

Fel –zərf birləşmələrinin (məs: to give up , to go on , to put out)geniş vüssət alınmasınıda Skandinav dilinin təsiri ilə izah edirlər.

Yarseva göstərir ki, ingilis dilinin qrammatik quruluşunda baş verən bəzi faktları latın dilinin qismən yaxud tam təsiri ilə izah etmək olar. Məsələn :

1) Acc+inf (İ want you to come and dine with me) konstruksizası : Non +İnf (sara is said to resemble me) konstrssiyası :

2) Absolute + participle (generally speaking , this novel is not very interesting) konstrussiyası :

3) Sequence of Tenses:

4) Bir koməkçi to be felləri analatik passivin işlədilməsi :

5) " Continuous Tenses zamanların əmələ

Alınma prefikslər məhsuldar ve qeyri məhsuldar ve qeyri mehsuldar tekmənalı və çoxmənalı ola bilirlər .Məsələm ,alınma ."de" prefiksi , Müller luğetine əsaəsən yüzə qədər fel əmələ gətirmişdir . prefiks təkcə sözüzün mənasını dəyişdirmiur, o sözü başqa leksik qrammatik sinife aid etmək qabiliyətinə də malikdir.

Ədəbiyyat

1. Z.Verdiyeva , F. Ağayeva , M.Adilov, "Azərbaycan dilinin semosiologiyası" Bakı 1979
2. F.Yadigar "German diliçiliynə giriş" Bakı 2003
3. Antusisina . B, Apha syeva .O , V, Morozova .N N , Engilish lexicology" M,1985

Rubaba Musayeva

Semantical transformation in voratulary of old English and lingual relations

Summary

The article deals with the role of extralinquistk factors in change of the English vocabulary.

The article the touches problem of changes in grammatical of the English language as a result of the English language as a result of extralingistic factors as well. The article analyses some words of Latin origin in English, their comporation with other languages of Western-European origin. Such terms as: "change", "continue", "sound", "turn", "join" are analysed duply in simple and compound sentences.

Рюбабе Мусаева

Семантическая трансформация в словарном составе старинном Английском языке и языковых связи

Резюме

Статья посвящена изучению роли экстралингвистических факторов в изменении словарного состава английского языка.

В статье так же затронуть грамматические изменение в результате экстарилингвистического фактора английского языка.

В статье анализируются некоторые слова латинского происхождения в английском языке, их сравнение с другими языками западноевропейскими происхождения. Такие термины как: "change", "continue", "sound", "turn", "join" глубоко анализируются в простых и сложных предложениях.

Rəyçi: b/m S.Mehdiyeva

XALİDƏ ZEYNALOVA
İLAHƏ QULİYEVA
AzTU

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ELMİ-TEXNİKİ TERMİNOLOGİYANIN BƏZİ ÜSLUBİ ƏLAMƏTLƏRİ

Açar sözlər: elmi-texniki tərcümə, mətn, fel, qrammatik terminlər, praktik tərcümə, söz birləşmələri

Ключевые слова: научно-технический перевод, текст, глагол, грамматические термины, практический перевод, фразы.

Key words: scientific and technical translation, text, verb, grammar terms, practical translation.

Bu məqalədə elmi-texniki tərcümənin bir sıra çətinliklərindən danışılır.

Texnikanın sürətlə inkişafı və elmi-texniki informasiyanın genişlənməsi ilə əlaqədar olaraq, elmi-texniki tərcümənin praktik əhəmiyyəti xeyli artmışdır. Tərcümə zamanı meydana gələn çətinlikləri aradan qaldırmağın yollarını göstərən bu məqalədə əsas məqsəd elmi-texniki mövzuda mətnin müxtəlif elementlərini analiz edə bilmək, düzgün tərcümə etmək bacarığı və vərdişlərini inkişaf etdirməkdir.

Giriş və üç hissədən ibarət olan bu məqalədə əsasən ingilis və Azərbaycan dillərinin leksik, qrammatik və stilistik xüsusiyyətləri aydınlaşdırılır.

Birinci hissədə, yəni «Elmi-texniki tərcümənin leksik problemləri»ndə elmi texniki tərcümənin bəzi xüsusiyyətlərindən, neologizmlərin yaranması üsullarından, onların qurulmasından və tərcümə vasitəsi ilə çatdırılmasından bəhs edilir.

İkinci hissədə – «Tərcümənin qrammatik problemləri»ndə praktik tərcümə zamanı rast gələn olduqca mürəkkəb qrammatik quruluşlar araşdırılır. Felin şəxsiz formaları və onların tərkiblərinin izahına xüsusi yer ayrılır. Bu hissədə xüsusilə ingilis və Azərbaycan dilləinin müxtəlif struktur quruluşundan irəli gələn tərcümə problemlərinə fikir verilir, məchul növlü tərkiblər, sözün çoxmənalılığı və çox funksiyalılığı izah edilir. Üçüncü hissədə – «Elmi-texniki mətnlərin praktik tərcüməsi»ndə isə texniki məqalələrin başlıqlarının struktur və tərcüməsi açıqlanır.

Elmi-texniki məqalələri tərcümə edərkən nəzərə alarmaq lazımdır ki, onların dili ümummilli dilin bir hissəsi olsun. Elmi-texniki ədəbiyyatın dilini bədii ədəbiyyatın dilindən fəqləndirərkən əsas cəhət mətnlərdə müəyyən edilən termin bolluğudur. Mətnin tam dolğun bir şəkildə tərcüməsi üçün vacib olan tələblər aşağıdakılardır:

1. Orijinalda olan mətnin dəqiq dolğun verilməsi;
2. Fikrin tam aydınlığı ilə lakonik formada çatdırılması. Bunun üçün ingilis dilinin spesifik xüsusiyyətlərini Azərbaycan dilində əks etdirmək vacib deyil. Burada milli kalorit gözlənilməlidir;
3. Tərcümə tam şəkildə Azərbaycan ədəbi dilinin normalarını özündə qoruyub saxlamalıdır. Tərcümə zamanı Azərbaycan dilində yox dərəcəsində olan, lakin ingilis dili üçün xarakterik hesab edilən sintaktik tərkiblərin nəzərə alınması da vacibdir.

Elmi-texniki ədəbiyyatda sübhəsüz ki, emosionallıq, obrazların fərqliliyi, metafora, yumor və s. olmur. Lakin onu da qeyd etmək lazımdır ki, canlı danışıq dilinə

aid olan bu ifadə üsulları olmasa da, elim-texniki mətnlərdə bəzən texniki üslubda obrazlı frazeoloji birləşmələrə də rast gəlmək olar.

Məsələn: *The wife is alive – Məftil cərəyan altındadır.*

Dead man´ s handle – Təhlükəsizliyi təmir edən düyməli dəstək.

4. Elmi-texniki terminologiyada bir neçə komponentdən ibarət çoxlu terminlər vardır. Çoxkomponentli terminlər elə sözbirləşmələridir ki, onların komponentləri arasında məntiqi əlaqə uzlaşma əlaqəsi ilə ifadə olunur.

Məsələn: *load governer – gücün tənzimlənməyicisi*.

Onlar həm də elə söz birləşmələridir ki, bunların komponentləri qrammatik yolla, yəni sözönü vasitəsilə, ya da saysız-hesabsız şəkilçilərin köməyilə düzəlir.

Məsələn: *rate of ejchange – valyuta kursu*.

Terminli söz birləşmələri sözün həqiqi mənasında tam leksik vahidlərdir.

Birinci qrupa elə terminli sözbirləşmələri aiddir ki, onların hər iki komponenti xüsusi lüğətə aid olan sözlərdir. Onları sərbəstdirlər və verilmiş birləşmələrdən kənarda işlənə bilər. Məsələn: *brake – tormoz*.

Belə ki, bu komponentlərdən ibarət olan terminli birləşmələr sərbəst şəkildə yeni məna kəsb edir. Məsələn: *brake gear – tormozlaşdırma avadanlığı*.

İkinci qrupa elə terminlər aiddir ki, bu terminlərin birinci komponenti olan sifət bu və ya digər elm sahəsi ilə bağlı xüsusi, spesifik məna kəsb edir.

Məsələn: *vitreous electricty – yarımkeçirici cərəyan*.

İkinci qrupa həm də elə termin birləşmələr aiddir ki, onların 2-ci komponenti həqiqi mənalarda işlənmiş olsun, lakin 1-ci komponentlə birləşmədə isə müəyyən elmi sahəsinə uyğun xüsusi, spesifik məna kəsb etsin.

Məsələn, *electric eye – foto element*.

Üçüncü qrupa aid terminlər terminoloji cəhətdən bölünməzdirlər və onların komponentləri arasındakı əlaqə bir qədər sıx olur.

Məsələn, *wire – gərginlik altında olan naqil; live steam – ilkin buxar*.

Terminin xarakter xüsusiyyəti onun müəyyən anlayışla çıx əlaqədə olması, dəqiqliyi və təkmənalılığa meyd etməsidir. Terminli birləşmələrin komponentləri təyini əlaqədə olur. Bir qayda olaraq terminli birləşmələrin əsas komponenti axırda işlənin. Elmi-texniki terminli birləşmələrin tərcüməsinin əsas üsulları bunlardır.

5. Təyin kimi işlənən birləşmədə komponentlərin ardıcıllığında dəyişiklik etməklə tərcümə. Məsələn: *avtomobile repair plant construction project – avtomaşın təmiri zavodunun tikinti proyekti*.

Elmin inkişafı, xüsusən də texnikanın, radiotexnikanın inkişafı dildə bir sıra neologizmlərin yaranmsına təkan vermişdir. Yeni sözlər digər bir tərəfdən atom texnikasının başa düşmən tələbatından yaranmışdır. Məsələn, *atom* sözündən bir çox terminlər əmələ gəlmişdir – *atomize, atomizatron, atom energy* və s.

Elmi-texniki terminologiyada neologizmlərin yaranma yolları aşağıdakılardır:

- şəkilçilərlə;
- konvensiya yolu ilə;
- mürəkkəb elmi-texniki sözlərlə;
- ixtisar etmə yolu ilə.

Şəkilçilərlə düzələn neologizmlər özləri də iki yerə bölünür: suffikslər və prefikslər.

Elmi-texniki terminologiya sahəsində ən geniş istifadə olunun prefikslər isə bunlardır: *-re, -over, -under*.

Məsələn: *undervoltage – azaldılmış gərginlik, instellar - ulduzlar* və s.

İngilis dilində yeni sözlər əks hallarda dildə mövcud olan sözlərin dəyişmədən bir nitq hissəsindən, başqa bir nitq hissəsinə keçməsi ilə əmələ gəlir. Bu proses konvensiya adlanır. Konvensiyanın ən geniş yayılmış növü isimlərin felləşməsi prosesidir. Məsələn: *power, to power, motor, to motor* və s.

Mürəkkəb elmi-texniki terminlər yeni söz əmələ gətirmənin elə bir üsuludur ki, burada iki sözün birləşməsindən bir söz yaranır və onlar ya bitişik, ya da defislə yazılır. Məsələn, *bootleg – kabelin dirəyi, flashbulb – impuls lampası*.

Bəzi mürəkkərb neologizmlər bir-birinə sözün vasitəsi ilə birləşən iki sözdən ibarət olur. Məsələn, *voltage to groud – yerə nisbətən gərginlik*.

Son zamanlar ixtisaretmə yolu ilə yeni sözlərin əmələ gəlmə tendensiyası xeyli genişlənmişdir. İxtisarların sayca artımı onunla izah oluna bilər ki, mürəkkəb söz və söz birləşmələri həcmcə böyük və əlverişli deyillər və təbii ki, buradan onların qısa şəkildə verilməsi tələbatı yaranır. İxtisarların aşağıdakı növləri var:

- hərbi ixtisarlar – *E-east, R-ramlway, HB-hidrogen bomb;*
- hecalarla ixtisarlar – *Maxcap-maximum capacity – maksimum güc;*
- yeni söz əmələ gələrkən bəzən başlanğıc sözdən şəkilçi düşür;
- sözün sonuncu hecasının saxlanması ilə əmələ gələn neologizmlər: *chute – parachute*; - iki sözdən süni yolla əmələ gələn neologizmlər də vardır ki, buraya əsasən *electronic – elektrikin köməyi ilə hərəkət edən, motel – avtoturistlər üçün mehmanxana* və s. bu kimi sözlər daxildir.

Elmi-texniki neologizmlərin tərcüməsi zamanı ilk növbədə onların yaranması üsullarını bilmək, bunlardan başqa söz və söz birləşməsinin strukturunu da analiz etmək baracığına malik olmaq lazımdır. Belə ki, *follower* sözündəki *er* suffiksi yarışın icraçısını, ya da əşyanı göstərə bilər. Bu sözün əsas mənası eisə follow sözündən yaranan izləmək sözüdür. Sözün strukturu baxımından məzmuna istinad edərək Azərbaycan dilində *follower* terminə bir qədər uyğun gələn məna tapırıq: *təkrarlayıcı, izləyici mexanizm*. Azərbaycan dilində oxşarlığı olmayan neologizmlər bir qayda olaraq əvvəlcə müxtəlif cür tərcümə olunur və müəyyən vaxt keçəndən sonra verilmiş neologizm üçün irəli sürülmüş variantlardan ən yaxşısı seçilir və doğma dilimizdə möhkəmləndirir.

İngilis dilində formaca məlum, məzmunca isə məchul olan felin səxsiz formalarına rast gəlmək olar. Bunlara misal olaraq gerund və məsdəri göstərmək olar. Məsələn: *after weighing the loads were shipped to the consumers – yüklər çəkiləndən sonra slıcılara göndərildi*.

Bu cür cümlələr xəbəri məchul növdə olan tabeli mürəkkəb cümlə vasitəsilə tərcümə edilir. *To need, to want, to require, to stand, to endure* və s. fellərindən sonra gerund məlum növdə işlənir, lakin mənaca məchul növ olur. Bu halda onun ifadə etdiyi hərəkətin kiminsə tərəfində icra edildiyi və ya icra edilməli olduğu göstərilir. Məsələn: *The equipment needs repairing – Bu avadanlıq təmir olunmalıdır.*

Bəzən elmi-texniki məqalələrdə bu cür cerundla yanaşı formaca məlum, məzmunca isə məchul növdə olan məsdə də işlənir.

Məsələn: They were not to use – Onlardan istifadə etmək lazımdı gəlmədi.

Bu cür məsdər əksər hallarda təyin funksiyasını yerinə yetirir və Azərbaycan dilinə təyin bucaq cümləsi kimi tərcümə olunur. Beləliklə də, formaca məlum növdə, lakin məzmunca məchul növdə olan məsdər və cerundlu cümlələr Azərbaycan dilinə ya məlum növdə olan qeyri-müəyyən şəxsli cümlələrdə, ya da müxtəlif budaq cümlələrdə tərcümə oluna bilər. Digər dillərdə olduğu kimi müasir ingilis dilində də modallıq kateqoriyası bir sıra vasitələrlə ifadə edilir. Bunlardan biri də modal fellərdir. Modal fellər məsdərin müxtəlif formaları ilə işlənir. Məsdərlə işlənərkən, modal fellər hərəkətin mümkünlüyünü, qeyri-mümkündüyünü, vacibliyini, gerçəkliyini, lazımlığını və s. bildirir. Modal fellər *car, may, must* məchul növdə olan məsdərlə işlənərkən Azərbaycan dilinə olar, bilər, lazımdır+məsdər növdə olan məsdərlə tərcümə olunur.

Məsələn: *The machine tool can be stopped at any moment –*
Dəzgahı istənilən anda dayandırmaq olar

və yaxud *Dəzgah istənilən anda bayandırıla bilər*.

Must, may və *micht* kimi modal fellər məsdərin bitmiş forması ilə işlənərkən bu zaman hərəkətin bitməsinə əhəmiyyətli dərəcədə əminlik ifadə edir.

Məsələn: *He may have got the condenser he needed – Bəlkə də o ona lazım olan kondenseoneri alıb.*

İndiki zaman feli sifəti, yəni Participle I cümlədə əsasən 2 funksiyanı – təyin və zərflik funksiyalarını yerinə yetirir və əsasənf elin axırına – *ing* şəkilçisi artırmaqla düzəlir. Bu feli sifət məchul növdə olanda çox nadir hallarda təyin funksiyasını yerinə yetirir və təyin olunan sözdən sonra işlənir.

Məsələn: *The compound being treated for several hours turned dark red – Bir neçə saat ərzində tədqiq olunan maddə tünd qırmızı rəngə çevrildi*.

Keçmiş zaman feli sifəti, yəni P II əsas felin 3-cü formasından əmələ gəlir və sərbəst işləndikdə iki funksiyanı yerinə yetiririr.

Təyin funksiyasında olanda o təyin etdiyi söz və yaxud isimdən əvvəl yazılır. Feli sifət II təyin etdiyi sözdən sonar gələ bilər. Bu halda feli sifət indiki və keçmiş zamanın məchul növü ilə, ya da bucaq cümlə kimi tərcümə oluna bilər.

Məsələn: *He offered the best solution of the problem concerned – O müzakirə olunmuş problemin çox yaxşı həllinə təklif etdi*.

Bəzi hallarda Partisiple I tərcümə edərkən Azərbaycan dilində söz sırasını dəyişməku tələb olunur. Məsələn: *The capactance received is belived to be half the total capacatance required – Əldə edilmiş həcm tələb olunan ümmui həcmin yarısı hesab olunur*. Feli sifət I və feli sifət II izah edici sözlərin köməyi ilə bir təyin birləşmə əmələ gətirir ki, bu da Azərbaycan dilinə ya indiki və keçmiş zamanın məlum və məchul növləri, ya da təyin budaq cümləsi şəklində tərcümə oluna bilər.

Feli sifət II zərflik funksiyasında işlənəndə onun qarşısında *when, while, if, az, thouch* bağlayıcıları işlənir. Bu zaman onlar Azərbaycan dilində zaman budaq cümləsi və güzəşt bucaq cəmləri şəklində, ya da feli bağlama kimi tərcümə oluna bilər.Məsələn:

They worked as ordered – Onlar tələb olunduğu kimi işlədilər.

While used precision instruments require very dedicate handing –

Dəqiq qurğulardan istifadə edrəknə, onlarla ehtiyatla davranmaq tələb olunur. İngilis dilində tamamlıq feli sifət tərkii mövcuddur ki, bu da əsasən ümumi hal-

da isim və feli sifətdən ibarətdir. Bu tərkib bütövlükdə cümlədə mürəkkəb tamamlıq funksiyasını yerinə yetirir və Azərbaycan dilinə budaq cümlə vasitəsi ilə, ya da təsirlik halda olan isim və feli sifət vasitəsilə tərcümə edilir.

Tamamlıq feli sifət tərkibi adətən hissi və əqli qavrayış ifadə edən fellərdən – *to have, to get* fellərdən və arzu, istək, niyyət ifadə edən *to want, to wish, to keep* fellərindən sonra işlənir.

They wanted the test results plotted and explained – Onlar istəyirdilər ki, yoxlamanın nəticələri diaqramlar şəklində olsun və izah edilsin.

Ədəbiyyat

1. N.Xudiyev: "Azərbaycan dilinin zənginləşmə yolları".
2. A.Qarayev: "Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar"
3. E.Haugen: "The analyse of indiguistic horriwing", "Lang.", 1950.
4. R.C.Cəfərov: "Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər", Bakı, 2001.
5. И.В.Соловьева: «Нормализация научно-технической терминологии», М., 1965.

Khalida Zeynalova
İlaha Kuliyeva

Scientific-technical terminology in English and Azerbaijani

Summary

This article deals with the difficulties of scientific-technical literature in Azerbaijani and English has got some ways of training. The article gives the whole analyse of their learning. Problem arising during the translation and elimination methods of these matters have been reflected in this article, too. Important terms of the translation are those that the text should be rich in content; idea should be fully clear and laconic and should keep the norms of the literary language.

Халида Зейналова
Илаха Кулиева

Научно-техническая терминология в английском и Азербайджанском языке

Резюме

В этой статье рассматриваются трудности научно-технического перевода и техническое развитие, проблемы. Трудности, возникающие при переводе и методы их устранения также нашли за свое отражение. Основными условиями при переводе является то, что текст должен быть содержательны, идея – ясной и лаконической, обязательное сохранение норм литературного языка. Научно-техническая литература в азербайджанском и английском языках имеет некоторые способы изучения. В статье дается полным анализ их присвоение.

Rəyçi: b/m Hamlet Süleymanov

B/m LEYLA İBRAHİMOVA
B/m ZİBAHƏT NƏSİROVA
AzTU

MÜASIR ALMAN DİLİNDƏ DİLİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİ YOLLARI

Açar sözləri: Alman dili, lügət, Azərbaycan dili.
Ключевые слова: Немецкий язык, словарь, Азербайджанский язык.
Key words: L`almany, diksoner, Azerbayjany.

Alman dilinin lüğət tərkibinin zənginləşməsinin əsas yollarından biri də sözdüzəltmədir. Alman dili üçün sözdüzəltmə aşağıdakı əlamətlərlə xarakterikdir:

- Mürəkkəb sözlər,
- Ableitung, yeni söz mənasına keçmə (Bir qrammatik kateqoriyadan digərinə),
-İxtisarlar
- Yamsılama

Sözdüzəltmənin bu növləri eyni mənaya malik olmur. Alman dilində mürəkkəb sözlər daim inkişaf etdiyi halda, yamsılamalar lüğət tərkibinə bir şey əlavə etmir. Alman dili mürəkkəb sözlərlə zəngindir:

- Schlafzimmer, Dampfschiff, dunkelblau, stattfinden u.a.

Əlamətə görə

- derDickbauch, ein dicker Mensch.

Mürəkkəb sözlərin komponentləri elə sıx birləşirlər ki, onlar tam vahid kimi başa düşülür. Formanın struktur vahidliyi müxtəlif cür xarakterizə olunur:

-Fonetik. 1-ci komponentə vurğunun düşməsi. –Arbeitsplan

2. Orfoqrafik. Birgə yazılmaqla

3. Qrammatik-bütün kompleks üçün qrammatik əlamət-der Wollstoff-der wollene Stoff. Alman dilində ən geniş yayılmış mürəkkəb sözlərin bir növü təyini söz birləşməsidir. Bestimmungszusammensetzungen- bu mürəkkəb saylar iki hissədən ibarət olur, beləki, (bir tərkibi-digərini təyin edir).

- Zimmertür, Wehnungstür, Esszimmer, Nebenzimmer u.a.

Alman dilində söz sırasını dəyişmək olmur, əgər dəyişilərsə tam başqa bir məna alınır. Məsələn:

Obstgarten-meyvə bağı; Gartensobst-bağın meyvəsi

Birinci tərkib ikinciyə ya müstəqil, ya da –(e)s, (en)-er,-e ilə birləşir.

Bergtal, Bergsgipfel u.a.

Alman dilində ismin təkində və yiyəlik halını bildirən belə birləşmələr mənsubiyyətlik bildirir.

2. Mürəkkəb sözlərin 2-ci variantı bərabərhüquqlu semantik birləşmələrdir. Onların təyini birləşmələrdən fərqi odur ki, bir neçə komponentdən düzələ bilirlər – ein blaugrauweisser Stoff- göy-boz-ağ material.

Mürəkkəb sözü təşkil edən hər üç tərkib semantik münasibətdə bərabərhüquqludur, morfoloji münasibətdə isə bu tərkib bərabərhüquqlu olmaya

bilir, beləki, bütün sözlərin bir tərkibdə özünü göstərməsi sonuncu komponent vasitəsilə baş verir:

- ein üeisser Stoff, ein blaugrauweisser Stoff- blaugrauweisser-təyinidir, çünki ağ bu tərkibə daxildir.

3. Mürəkkəb sözlərin çox qismi əşya və ya hadisənin müəyyən bir əlamətə və ya əşyaya bənzədilməsi nəticəsində əmələ gəlir. Bənzətmə yolu ilə əmələ gələn mürəkkəb isimlərdə ifadə olunan əlamətlər həqiqi məna deyil, məcazi məna ifadə edir. Mürəkkəb sözlər bənzətmə əlamətinə görə iki qrupa ayrılır;

a) Əlamətlərin məcaziliyini müəyyən əşya ilə əlaqədar ifadə edənlər;

-Məs: Rotkäppchen, Rotmantel, Graubart.u.a.

b) Əlamətlərin məcaziliyini əşya ilə əlaqəsiz, olduqca mücərrəd şəkildə ifadə edənlər. Məsələn:

- Trotzkopf-inadkar, Glatzkopf-dazbaş

Mürəkkəb sözlər sözdüzəltmənin bir növü kimi alman dilinin qədim inkişaf dövründə böyük rol oynamışdır. 17-ci əsrdən başlayaraq mürəkkəb sözlər sözdüzəldici vasitə kimi çox məhsuldar olmuşdur. Elə də olurki, mürəkkəb sözlərin ayrı-ayrı elementləri söz mənasının qüvvətləndirilməsinə xidmət edir:

-stockfinster, sehr finster.

Söz mənasının qüvvətləndirilməsi yolu ilə əmələ gələn mürəkkəb sözlər öz məna xüsusiyyətinə görə 2 qismə ayrılır.

a) Mürəkkəb sözlərdə mənanın qüvvətləndirilməsi əsas yer tutur və sadə söz hansı nitq hissəsinə mənsubsa ondan düzələn mürəkkəb söz də eyni nitq hissəsinə aid olur.

b) Mənanın qüvvətləndirilməsi ilə bərabər kefiyyətin dəyişməsi xüsusiyyəti də rol oynayır.

Məsələn: Mordsskandal, Heidenlärm (Höllenlärm).

Alman dilində söz mənasının tutqunlaşması. Ohrfeige- ikinci-feige elementi müasir alman dilində, Hieb- müstəqil məna bildirmir.

Orta əsrlər alman dilində "Hieb ins Ohr" deməkdir. Nachtigall-die Sängerin der Nacht. Bu günki alman dili daha çox neologizmlərə zənginləşir.

Söz yaradıcılığı prosesinin ən qədim növlərindən biri olan bu qayda ədəbi dilin leksikasının inkişafında böyük rol oynayır. Müasir dildə sintaktik yolla söz yaradıcılığı prosesi öz qədim dövrlərindən fərqli olaraq, bir sıra yeni xüsusiyyətlərə malik olmuş və yeni qaydalar yaratmışdır. Ona görə də sintaktik yolla söz yaradıcılığı prosesinin tədqiq obyekti mürəkkəb sözlərdir. Mürəkkəb sözün tərkibində iştirak edən elementlərin ayrılıqda müstəqil məfhum ifadə edən sözlərdən ibarət olduğuna baxmayaraq, mürəkkəb söz problemi düzəltmə söz problemindən daha qarışıq, daha mürəkkəbdir. Çünki mürəkkəb sözlərin tərkib hissələri həm sərbəst şəkildə, həm də başqa sərbəst söz tərkiblərində-daxilində iştirak edə bilirki, buda həmin tərkiblərin öz forması etibari ilə mürəkkəb sözlərə oxşarlığını meydana gətirir. Məsələn:

-Goldschmied-mürəkkəb sözünün tərkibində olan Gold və Schmied sözləri ayrılıqda hərəsi müəyyən bir məfhum ifadə etdiyi kimi, sənət bildirən zərgər (adam) mürəkkəb sözündə və - Goldschmied feli sifət tərkibində də iştirak edir.

Mürəkkəb sözlərin müəyyənləşdirilməsi üçün ancaq mənanı və ya ancaq formanı nəzərə almaq olmaz.

Sözlərin birləşərək mürəkkəb söz əmələ gətirilməsində məzmun rol oynadığı kimi, forma da mühüm yer tutur, çünki formasız heç bir məzmun yoxdur və bunu təsəvvür etmək qeyri-mümkündür.

Ümumiyyətlə, hər hansı bir mürəkkəb söz tərkibinə girən leksik vahidlər özlərinin ayrılıqda ifadə etdiyi məna xüsusiyyətlərini az və ya çox dərəcədə itirir və birlikdə yeni vahid bir məfhum ifadə etməyə xidmət edir. Bu məsələ yenə də mürəkkəb sözlərin etimalogiyası ilə əlaqədar bir məsələ olub formalaşması üçün də əsas təşkil edir.

Mürəkkəb sözlərin əmələ gəlməsi, əsasən bizim xarici aləmlə olan əlaqəmiz nəticəsində baş verir. Dilimizdə olan mürəkkəb sözlərin belə maddi əsasları bu xüsusiyyətdə birləşir.

-Funksiyaya, əlamətə, bənzətməyə, qüvvətləndirməyə, mənsubiyyətə və hərfi tərcüməyə görə.

Funksiyaya görə bir sıra mürəkkəb sözlərin əmələ gəlməsində əşyanın daşıdığı funksiya mühüm yer tutur. Funksiya xüsusiyyəti əsasında əmələ gəlmiş mürəkkəb sözlər 3 qismə ayrılır:

a) formal cəhətdən müəyyən prosesi özündə əks etdirə bilənlər,

b) hər hansı bir prosesin əmələ gəlməsində iştirak edənlər, daha doğrusu, obyekti olanlar,

c) hər hansı bir prosesi xatırladanlar.

Mürəkkəb sözləri müxtəlif prinsiplər üzrə təsnif etmək olur. Əvvəlcə morfoloji baxımdan təsnif etmək lazımdır. Mürəkkəb sözlər istənilən söz növünə aid ola bilərki, bu da birləşmənin qrammatik xarakterini təsvir edən ikinci elementdən asılıdır. İstənilən söz ilk element kimi çıxış edə bilir.

Mürəkkəb isim aşağıdakı morfoloji quruluşa malik ola bilər:

1. İsim+isim-Silbermünze, Hofhund
2. Sifət+sim-Schwarzbrot, Graukopf.
3. Fel kökü+isim-Schreibtisch, Bindelauf.
4. Say+isim-Zweikkampf, Dreieck.
5. Əvəzlik+ isim-Ichform, Selbstgespräch
6. Sifət+isim, Zusammenkunft
7. Sözönü+isim-Fürwort, Umwelt

Mürəkkəb sifətlər ibarətdir:

1. Sifət+sifət-dunkelrot-hellblau
2. İsim+sifət-blutrot, Stockdunkel
3. Sifət+fel-siedeheiβ, merkwürdig
4. Say+sifət-zweigliedrig, dreieckig
5. Əvəzlik+sifət-selbstgefallig, diesbezüglich
6. Sözönü+sifət-überglücklich, unterirdisch

Mürəkkəb fellər ibarətdir:

1.Fel+fel-stehenbleiben, kennenlernen
2. İsim+fel-teilnehmen, stattfinden
3. ifət+fel-freisprechen, stillstehen
4. Say+fel-vierteilen
5. Sifət+fel-weitergehen, fortfahren

Semantik-sintaktik baxımından mürəkkəb sözləri dörd növə ayırmaq olar:

1. Attributive Zusammensetzungen-bu növ mürəkkəb sözlər komponetlərin atrubutiv əlaqəsilə xarakterikdir, yəni 1-ci komponent 2-cini təyin edir. Təyini sözbirləşməsi, nəinki ismi, həm də təyini ola bilər. Schwarzbrot, Tischlampe, dunkelrot. u.a.

Buraya xüsusi bir növ kimi Bahuvrihi-lər də daxildir.

Graukopf, Rotkäppchen u.a. kimi. Bahuvrihiləri digər hind-avropa dillərində də görmək olar: yunan, rus, qotik və s. Yunan mifalogiyasında bahuvirihilər çox geniş yayılmışdır. Rus dilində isə bahuvirihilər yalnız mürəkkəb söz (krasnoqrudka) kimi deyil, sabir söz birləşməsi-(krasnaya şapoçka, siniy çulok) kimi də formalaşıb, bu isə rus dilinə xas səciyyəvi bir xüsusiyyətdir.

2. Kopulative Zusammensetzungen- komponentlər arasında sintaktik bərabərlik hökm sürür. Bu bərabərhüquqlu sintaktik əlaqənin kökündə vahid bir komplex meydana çıxır: wie Strichpunkt, taubstumm, dreizehn u.a.

3. Zusammensetzungen- bu iki və daha artıq elementlərin, bəzən hətta hissələri nitq zamanı yüngülcə geri çəkilən bütöv bir cümlənin lokal bağlantısıdır. Onun komponentləri öz leksik müstəqilliyini qoruyub saxlayır və bütöv kompleksin mənasının anlaşılmazlığına rəğmən asanca başa düşülür: Vergiβmeinnicht, Einmaleins, derart, infolge, stehenbleiben usw.

4. Zusammensetzungen – iki prosesin: mürəkkəb sözlərin və sözdüzəldici suffikslərin nəticəsidir, beləki, hər bir birləşmə, sözə bir suffikslə birləşir: Z.B.Frühaufsteher, blauäugig u.a.

Mürəkkəb sözlərin bir qismi də başqa dillərdən hərfi tərcümə (kalka) yolu ilə düzəlir. Hərfi tərcümə yolu ilə əmələ gələn mürəkkəb sözlər, bir qayda olaraq hər hansı bir dilin əlaqədə olduğu dil materialına əsaslanır.

Bu misalların sayını artırmaqda olar, lakin əsas mövzumuz sintaktik yolla sözlərin yaranma prosesində mürəkkəb sözlərdir. Yazılanlardan bu nəticəyə gəlmək olar ki, alman dilinin lüğət tərkibinin zənginləşməsində mürəkkəb sözlərin rolu böyükdür.

Ədəbiyyat

1. В.В. Виноградов. Словообразование в его отношения к грамматике и лексикологии. Изд.МГУ, 1952.

2. К.А. Лековская. Лексиология немецкого языка.Москва,1956.

3. S.Cəfərov. Müasir Azərbaycan dili. Bakı-1970.

4. A.İskos. A.Lenkova. Deutsche Lexkologie. Учпедгиз-1963.

5. М.Д. Степанова. Словообразование современного немецкого языка. Москва, 1953.

Л.Ибрагимова
З.Насирова

Обогащение словарного состава Немецкого языка

Резюме

При словосложения основы разных слов, причем взаимоотношения между этими основами могут быть различными. Словообразование (словопроизводства, словосложение, а также сочетание обоих способов) представляет собой не толка основное и постоянное –действующее во все исторические эпохи – средство пополнения словарного состава, но оно является также основной для определенной классификации единиц словарного состава – слов род их структурно-семантическим особенностям.

L.İbrahimova
Z.Nasirova

Richening of vocabulary the heard of trainers fund of German

Summary

While word-formation of main parts of different words, the mutual relations between these parts may be various. Word-formation (word-forming, word-souving also both of these methods) presents not only the main and ever-acting in all historical centreries fulling up vocabulary fund, also the main for the definite classifocation of units of vocabutury frend – words and their structural-semantical pecularities.

Rəyçi: A.Abbasova
filologiya elmləri doktoru, professor

SƏİDƏ ZEYNALOVA
ADİU

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN QARŞILIQLI MÜNASİBƏTLƏRİNƏ DAİR

Açar sözlər: Azərbaycan dili, ingilis dili, alınma söz, qarşılıqlı əlaqə.
Ключевые слова: азербайджанский язык, английский язык, заимствованные слова, взаимосвязь.
Key words: Azerbaijani, English, borrwings, mutual relations.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra xalqımız dünya xalqları ilə beynəlxalq arenada bərabərhüquqlu əlaqələr yaratmaq imkanı qazandı. Bu əlaqələrin əsasında iqtisadi və siyasi faktorlar dayansa da, tarixi-mədəni amillər də kənarda qalmadı. Müasir dövr dünyanın qloballaşması ilə səciyyələnir. Texniki tərəqqinin indiki səviyyəsində dünya xalqları bir-birinin elmi, ədəbi və mədəni nailiyyətlərindən istifadə edə bilir. Bu da xalqları bir-birinə daha da yaxınlaşdırır. Bu yaxınlaşma və inteqrasiya prosesində dil amili əsas rol oynayır.

Azərbaycan iqtisadi cəhətdən dünyanın diqqət mərkəzində olduğu üçün bir sıra dövlətlərin marağı burada cəmləşmişdir. Buna görə ingilis, alman, fransız, rus şirkətləri Azərbaycana maraq göstərir. Rus dili artıq Azərbaycan üçün proritet xarici dil sayılmır. Çünki sovet dönəmində Azərbaycan xalqı rus dilini istər-istəməz öyrənməli olmuşdur. İngilis dilinin öyrənilməsi rəsmi şəkildə Azərbaycanda 1948-ci ildə başlasa da, bu, yalnız təhsil çərçivəsi ilə məhdudlaşmışdır.

Müasir dövrdə isə dünyanın iki qüdrətli ingilisdilli dövləti – ABŞ və İngiltərə Azərbaycana daha çox maraq göstərir. Azərbaycanın karbohidrogen ehtiyatları və geosiyasi mövqeyi sosial həyatın bütün sahələrində bu iki dövlətin diqqət mərkəzində dayanmışdır. Təsadüfi deyil ki, neft konsorsiumlarında 19 şirkət ABŞ və İngiltərənin payına düşür, bu isə ingilis dilinin Azərbaycanda nüfuzunun artmasına səbəb olmuşdur. Bu proses, demək olar ki, bütün dünyada getməkdədir. Beynəlxalq Aviasiya Təşkilatının qərarına görə, 1992-ci ildən rus dili həmin sahədən çıxarılmışdır. Eyni sözləri Beynəlxalq Dəniz Təşkilatı haqqında da demək olar. Azərbaycan hər iki təşkilatın üzvü olduğu üçün bu sahədə ingilis dilindən istifadə olunur. Bu və ya digər amillər Azərbaycan xalqı üçün xarici dil olaraq ilk növbədə ingilis dilini öyrənməyi zəruri edir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi onun bir çox ölkələrlə, o cümlədən Böyük Britaniya, ABŞ və başqa ingilisdilli ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə səbəb olmuşdur. Respublikada neft sənayesinin güclü inkişafı ölkədə xarici şirkət və firmaların çalışmasına şərait yaratmış, nəticədə Azərbaycanda çalışan xarici ölkə vətəndaşlarının sayı xeyli artmışdır. Qeyd olunan kontingentlə ünsiyyət və işgüzar əlaqələrdə ingilis dili vasitəçi olduğundan Azərbaycan-ingilis təmaslı dil əlaqələri genişlənmiş, sözalma prosesi yeni istiqamət kəsb etmişdir. Bu cəhət ingilis dilindən sözalmanı yeni aspektdən araşdırmağı aktuallaşdırır.

Azərbaycan-ingilis dil əlaqələrinin uzun müddət vasitəçi dilin iştirakı ilə mövcudluğu, ingilis dilindən sözalmada bədii tərcümənin özünəməxsus rol oynaması bu

amillərin təsiri ilə leksik sistemdə baş vermiş dəyişmələrin spesifik xüsusiyyətlərinin həm dil əlaqələri, həm də sözalma baxımından öyrənilməsi əhəmiyyətli məsələlərdəndir.

Məlumdur ki, hər bir alınma söz keçdiyi dildə semantik dəyişikliyə məruz qalır və onun semantikasında daralma, genişlənmə baş verir. Söz dilə uyğunlaşma prosesini yaşayır, dilin qrammatik normalarına tabe olur, sözdüzəltmə prosesinə qoşulur. İngilis dilindən alınma sözlərin semantikasında baş verən dəyişmələr, bu sözlərin dilimizdə müxtəlif səviyyələrdə (fonetik, qrammatik, semantik) mənimsənilməsi məsələləri tədqiq olunmamışdır. Təhlil də göstərir ki, Azərbaycan dilində ingilis dilindən leksik alınmaların bir çox məsələləri tam araşdırılmamışdır.

Xalq və dillərin yaxınlaşdığı və qarşılıqlı münasibətlərin intensivləşdiyi hazırkı dövrdə, ictimai-siyasi, elmi-texniki üstqurumlara aid anlayışların yayılması prosesində dünya dilləri bir-biri ilə qarşılıqlı şəkildə faydalanmaqdadır. Uzun dövrlər ərzində davam edən bu proses millətlərarası əlaqələrin, ünsiyyət vasitələrinin artması nəticəsində daha da sürətlənmişdir. Elə bunun nəticəsidir ki, dünyada elmə məlum olan elə bir dil tapmaq çətindir ki, başqa dillərlə qarşılıqlı əlaqədə və ünsiyyətdə olmasın. Dillərin qarşılıqlı əlaqə və təsirindən danışdıqda isə təbii ki, ilk növbədə sözalma, yaxud sözvermə prosesi nəzərdə tutulur.

Dillərin uzunmüddətli qarşılıqlı təsirinin nəticəsində bir dildən digərinə keçən sözlər həm dil tarixini, həm də alınma prosesinin özünü öyrənmək üçün böyük maraq kəsb edir. Alınma sözlər eyni zamanda sözalmanın səbəblərini, mənbələrini, alınma yollarını, tiplərini və formalarını, eləcə də alınma sözlərin obyekt dildə məruz qaldığı dəyişmələri ətraflı öyrənməyə imkan verir.

Bar (ing. bar) – 1) müştərilərə ayaqüstü xidmət göstərən balaca yeməkxana, qəlyanaltı yeri; 2) dağ çapan maşın və ya dağ kombaynının işlək hissəsi.

Dilin mənşəcə öz sözləri ilə üst-üstə düşməyən fonetik tərkibli alınma sözləri də kifayət qədərdir. Belə leksik vahidlərə məxsus söz yuvası dilin fonetik sistemli vahidlərinin birləşmə normalarını pozmur. Azərbaycan dilində CVC quruluşlu söz yuvalarında mənşəcə dilin özünəməxsus olan *fut, bor, bak, rol* kimi leksik vahidlər yoxdur. Dil bu sözlərin hər birinin tələffüzünə imkan verir, həmin sözlər dilin morfoloji normalarına tabe olur. Lakin bu sözlər alınmalardır.

L.Krısin sözün alınma kimi qəbul edilməsi üçün dörd meyar irəli sürür:

1) alan dilin başqa dilin sözünü qrafik-fonetik ifadə imkanı; 2) alınan sözün dilin müəyyən qrammatik siniflərinə və kateqoriyalarına şamil edilməsi; 3) alınan sözün semantik müstəqilliyi; 4) ən azı iki funksional üslubda işlənmə və müəyyən terminoloji sistemdə termin kimi istifadə olunması.

K.Yeryomina qeyd olunan dörd əlamətdən birinci ikisini əsas sayır. Onun fikrinə görə, digər iki əlamətin olması mütləq deyil. Bununla yanaşı müəllif özü iki meyarı qəbul edir: 1) alınmanın alan dildə qrafik-fonetik ifadəsinin mümkünlüyü; 2) alınmanın dilin qrammatik normalarına uyğun işlədilməsi.

Sözün onu alan dildə qrafik ifadə olunması amili bəzi alimlər tərəfindən alınma meyarı kimi qiymətləndirilmir. Məsələn, E.Axunzyanov bu məsələyə münasibət bildirərkən postsovet dövründə bir sıra xalqların dilinə rus alınmalarının keçməsində heç bir qrafik məhdudiyyətin olmadığını bildirir. Zənnimizcə, bu, təbii hadisə sayılmalıdır, çünki əvvəla, keçmiş sovet xalqlarının əksəriyyəti Kirill əlifbasına keçmişdi; ikincisi, bir çox xalqların əlifbasında rus dilinin özünəməxsus qrafemləri (ü,

ə, h, ö, ğ, c, y) özünə yer tapmışdı. Bu hadisə Azərbaycan dilinin əlifbasında da müəyyən dövrdə qeydə alınır. Əgər əlifbada bu və ya digər sözü ifadə etmək üçün tələb olunan bütün qrafemlər varsa, onda sözün qrafik səviyyəsində alınmasına maneə də olmazdı. E.Axunzyanovun müddəası da bu zəmində formalaşmışdır. Bütün dillərdən, o cümlədən ingilis dilindən Azərbaycan dilinə, eləcə də başqa dillərə keçən bir sıra sözlərin qrafem-fonem dəyişmələrinə uğraması şübhəsizdir. Məsələn, *Will Clinton, William Shekespear* şəxs adlarındakı «**w**» qrafemi və ona uyğun fonem Azərbaycan dilində yoxdur. Nəticədə həmin adın *Bill, Uill, Vilyam, Uilyam* yazılışları, onlara uyğun oxunuşları qeydə alınır. Halbuki, ingilis dilində *Bill, Billi* adları da vardır. Onu da qeyd edək ki, *Will (wil)- Uill, Vill; Uilyam, Vilyam (tarixən-Vilhelm); Bill (bil)- Bill; Billy (bili)- Billi* – adlarının ikili oxunuşu vardır. Lakin «W» qrafemi ilə başlanan formaların oxunuşunda (B) fonemi yoxdur. Bunun müqabilində həmin adların kiçiltmə formaları olan *Bill, Billy* adlarında bu fonem var.

Alınma sözlər və Azərbaycan dilindəki alınmalarla bağlı müxtəlif məsələlər dilçiliyimizdə geniş tədqiq olunmuşdur. A.Qarayev sözalmaları alınma söz tipinin bir növü və sözalma prosesinin yekunlaşmış aktı hesab edir.

Dildə alınma sözlərin miqdarına müəyyən həddqoyulması, onlara dilin lüğət tərkibində müəyyən qədər yer ayrılması ilə bağlı müxtəlif fikirlər vardır. Alimlərin bir qismi belə hesab edir ki, alınma sözlər yeni realiyaların və anlayışların adlandırılması üsuludur. Digər qrup alimlər alınma sözlərin dilin lüğət tərkibində çoxalmasına qarşı çıxır. Hər iki nöqteyi-nəzərə müxtəlif istiqamətlərdən yanaşan tədqiqatçılar da az deyildir.

İctimai həyatda baş verən hadisələri adlandıran ingilis mənşəli sözlərin böyük əksəriyyəti semantik dəqiqliyə malik olub, konkretliyi ilə seçilir. Məsələn, *spiçteyker (speechmaker)* «yüksək vəzifəli şəxslər üçün nitq hazırlayan»; *sammit (summit)* «dövlət başçılarının görüşü və danışıqları» və s. deyilənlərə nümunə olaraq göstərilə bilər. Bir sıra alınmalar üçün qənaət səciyyəvidir. Sözalan dildə bir sözə xas olan məna izah edildiyindən alınmış sözün istifadəsinə üstünlük verilir. Məsələn, *diler (diler*) «öz adından vasitəçilik fəaliyyəti göstərən fiziki şəxs və ya şirkət»; *broker (broker)* «alqı-satqı işlərinin görülməsi zamanı birja adından və ya müstəqil şəkildə müştərinin hesabına vasitəçilik edən ticarət yaxud maliyyə agenti); *peycer* (informasiyanın ötürülməsi və qəbulu üçün istifadə olunan portativ simsiz qurğu) və s. Dilin sözalmasına təkan verən və mane olan bir sıra səbəblər mövcuddur. Qeyd olunduğu kimi, alınma sözə müraciət etmək intralinqvistik və ekstralinqvistik səbəblər kompleksindən bəhrələnir. Ekstralinqvistik səbəblərə siyasi, iqtisadi, sosial, mədəni sahələrdəki dil əlaqələri daxildir.

Əvvəl məlum olmayan predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanın səbəbinə çevrilir. Lakin qeyd olunan sözalmanın dilxarici amillərdən asılı olduğu yalnız bir səbəbidir. Belə səbəblər isə az deyildir. Ekstralinqvistik amillər cərgəsində psixoloji, estetik, evfemistik ifadəyə canatma olduğu kimi, sözalma prosesində əhəmiyyətli rol oynayan tarixi şərait, dini mənsubluq, ölkənin siyasi vəziyyəti kimi şərtlər də az deyildir. Alınmaların dildaxili və dilxarici bütün səbəblərini ayırmaq çətin olsa da, bunları müəyyənləşdirmək mümkündür.

Sözün alınmasının əsas səbəblərindən biri onun ifadə etdiyi hadisə və əşyanın adının alan dildə olmamasıdır. Bəzən belə hadisə və əşyaları adlandırmaq üçün dilin öz sözlərindən, başqa dilə məxsus sözlərdən istifadə etmək olur. Söz yaradıcılığı da

bu çatışmazlığı aradan qaldıran yollardan biridir. Lakin digər dilə məxsus elə sözlər vardır ki, onları alan dildə dəyişmək həmin sözlərin adlandırdıqları əşyaların qavranmasına xələl gətirir. Məsələn: *funt-sterlinq, pens, lord, ledi, miledi, fut, konstebl, miss, missis* və s.

M.A.Breyter sözalmanın aşağıdakı səbəblərini qeyd edir: 1) reseptor dilin koqnitiv bazasında müvafiq anlayışın olmaması; məs.: *noutbuk, laptop, audiobuk, peycer, taymer, şreder, plotter, skayner, printer, tüner, toner*; 2) reseptor dildə müvafiq adın olmaması: *virtual, investor, dayjest, spiçrayter, sponsor, sprey*, *prayslist, imcj* (*obraz*), *top-model*.

Yuxarıda verilmiş nümunələrdən bəzilərini ifadə etmək üçün dilin lüğət tərkibindəki müəyyən sözlərdən istifadə etmək olar. Məsələn, *imic* leksemini bir çox məqamlarda *obraz* sözü əvəz edir. Çoxmənalı *obraz* sözü daha geniş semantikaya malikdir. *İmic* sözündə isə məna konkret və dəqiqdir. Ona görə də müəyyən mövqe və ətrafda *obraz* əvəzinə *imic* işlənir. Məsələn: «Təşkilat qarşısına ümdə bir məqsəd qoyub: xalqına, dövlətinə, vətəninə, millətinə ləyaqətlə xidmət etmək, onun *imicini* bütün dünyada daha da yüksəltmək».

Təbii ki, yuxarıdakı cümlədə *xalqın obrazını yaratmaq* ifadəsini işlətmək yerinə düşmür; izahlı kontekst tələbi meydana çıxır. *İmic* sözünün yerində işlədilməsi həmin tələbi aradan qaldırmışdır. Bu hadisə, yəni dilin başqa dildən konret məqamda istifadə olunan sözlər alması sözün müəyyən semantika üzrə xüsusiləşməsi də adlandırılır. Təhlildən belə nəticə çıxır ki, M.Breyter sözalmanın ikinci səbəbi kimi fərqləndirdiyi qrupdakı sözlər sırasına müəyyən səbəblərə görə daha asan tələffüz olunan, qısalığı, etimologiyasının şəffaflığı, semantikasının konkretliyi ilə seçilən alınma leksemləri də daxil edir. Sözalma hadisəsi üslubi effektlə, sözün emfatik funksiyası ilə də səciyyələnə bilir. Lakin bu xüsusiyyət özünü dildə az göstərir. Danışanın, yaxud alınma sözü istifadə edənin yüksək bilik səviyyəsi ilə yanaşı, adresatın qavrama dərəcəsinin kamilliyi də nəzərdə tutulmalıdır. Məsələn, müasir informasiya vasitəsi - kompüterlə əlaqədar olan *WINUP* birləşməsinin *Vinap* şəklində istifadə olunması üslubi effektlə əsaslandırıla bilər. Bu cür alınmalar, bir qayda olaraq, kompüterlə işləyənlərin nitqində, daha çox isə danışıq dilində qeydə alınır. Reseptor dildə müsbət və ya mənfi konnotasiyanın ifadəsi üçün ekvivalent leksik vahid olmadıqda da sözalma hadisəsi baş verir. Belə sözalma, həm də psixoloji amillərlə şərtlənir. Ölkənin iqtisadi vəziyyəti, burada istifadə olunan texnoloji proseslər, istehsal olunan mallar inkişaf etmiş ölkələrdə müvafiq şeylərdən keyfiyyətinə görə geri qalır. Qeyd olunan cəhət xarici malların, texnologiyanın daha yaxşı olması ilə bağlı fikri formalaşdırır. Nəticədə, nəinki malların, xidmətin adını bildirən sözlərin, hətta həmin məhsulların satıldığı, xidmətin göstərildiyi müəssisələrin adlarının da dilə keçməsi prosesi baş verir. Bu cəhət özünü daha çox reklamlarda, forma adlarında göstərir. Məsələn, *auto-rental* «maşın icarəyə verilən yer», *pab (pub*) «pivəxana», *market (market)* «mağaza» və s. İngilis dili müasir dövrdə bütün dünyada ən geniş yayılmış dil olduğundan onun başqa dillərə təsiri də böyükdür. Bu cəhət özünü Azərbaycan dili ilə bağlı göstərdiyi kimi, rus dilinə münasibətdə də eyni, hələ bəlkə də yüksək səviyyədədir.Ona görə də ingilis dilində sözalma səbəbləri Azərbaycan və rus dilləri üçün eynidir. Şübhəsiz ki, başqa dillərdəki vəziyyət öyrənilərsə, bu eyniliyin ümumi səciyyə daşıması faktı ilə üzləşmək mümkündür. Alınma sözlərdən dilin öz sözləri, həmçinin dildə olan başqa alınma sözlərlə paralel istifadə

edilməsi, onların semantik eyniliyi ekstralinqvistik amillərlə bağlıdır. Belə işlənmə daha çox müvəqqəti səciyyə daşıyır. Zaman keçdikcə, paralel işlənən sözlərdən biri köhnəlir, işləklik dərəcəsini itirir. Digər bir hal da mümkündür; paralel işlənən sözlərdən birinin semantikasında dəyişmə baş verir. Semantik differensasiya hər iki sözün dildə qalmasına imkan yaradır. Dilin struktur xüsusiyyətlərinin də sözalma prosesinə böyük təsiri vardır. V.V.İvanov göstərir ki, Çin dili öz struktur xüsusiyyətlərinə görə başqa dillərdən sözalmaya mənfi təsir edir. Sözalma, o cümlədən ingilis dilindən sözalmanın səbəblərinin araşdırılması aşağıdakıları fərqləndirməyə də imkan verir: sosial-iqtisadi təsisatların yeni fəaliyyət formalarının adlandırılması: *softmeyker (softmaker)* «istehsalçıdan alınmış malların satışını təşkil edən ticarət agenti», *barter (barter)* «puldan istifadə etmədən malların dəyişdirilməsi»; şəxsi təşəbbüskarlıqla bağlı fəaliyyətin adlandırılması: *sponsorluq (sponsor)*«sosial əhəmiyyətli hadisə və proseslərə qeyri-dövlət yardımı»; 3) cəmiyyətdəki kriminogen şəraitlə bağlı anlayışları adlandırılması.

Ədəbiyyat:

1. M.Qasımov: "Azərbaycan dilinin terminoligiyasının əsasları".
2. N.Məmmədli: "Alınma terminlər".
3. N.Məmmədov: "Dilşiliyə giriş".
4. Ə.Qarayev, R.Zeynalov: "Neft və qaz quyularının qazılması texnikası və texnologiyası".

Saida Zeynalova

Mutual relations between English and Azerbaijani

Summary

The article speaks about the mutual relations between English and Azerbaijani, analyses economical and political relations between Azerbaijani and Great Britain and America in contemporary phase, also investigates borrowings of English origin, gives examples some words of English origin in native language.

Саида Зейналова

Взаимосвязь с английском и азербайджанском языками

Резюме

В статье рассматриваются взаимосвязь между английском и азербайджанском языками, анализируются экономический и политический связи между Азербайджаном и Великобританией и Америкой в современном этапе, а также исследуются заимствованные слова английского происхождения в азербайджанском языке, приводится примеры нескольких слов английского происхождения в родном языке.

Rəyçi: R.C.Cəfərov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏNƏM MEHDİYEVA
ADİU

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İXTİSASYÖNÜMLÜ SÖZLƏRİN MORFOLOJİ QURULUŞU

Açar sözlər: sözdüzəldici şəkilçilər, peşə bildirən şəkilçilər, məhsuldar və qeyri-məhsuldar peşə bildirən şəkilçilər.
Key words: professional affixes, productive effixes, non-productive affiexs.
Ключевые слова: прооресмонотьных аффиксов, продуктивии, непродуктивии аффиксы

Məlumdur ki, hər bir dil özünün fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu ilə bir dil kimi mövcud olur və bu üç tərkib hissələrdən bir qismi inkişaf prosesində tədricən müstəqilliyini itirərək köməkçi sözə qoşularaq yeni sözlərin və birləşmələrin yaranmasına, lüğət tərkibinin zənginləşməsinə səbəb olmuşdur.

Dilçilikdə leksikologiyanın yeri danılmaz olduğundan uzun illər boyu dilçilər tərəfindən müzakirə obyekti olmuş və bugünkü gün də öz aktuallığın itirməmişdir. Leksikologiya zənginləşdikcə, inkişaf etdikcə sözlər və onların tərkibi dəyişir ki, bu da öz-özlüyündə yeni mübahisələrə yol açır.

Mövzunun aktuallığını itirməməsinin əsas səbəblərindən biri də sözdüzəldici şəkilçilərin çoxşaxəli, müzakirəli olması və bununla yanaşı texnologiyanın inkişaf etməsi, yeni terminlərin yaranması, habelə cəmiyyətin inkişafı nəticəsində yeni incəsənət, onun növlərinin yaranmasıdır.

Məsələn: *typewriter – artist*.

Sözlər arasında əlaqədə şəkilçilərin rolu böyükdür. Ona görə də dilmizdə qrammatik mənaların yaranmasına şəkilçilər xüsusi əhəmiyyətə malikdir. Söz həm leksikologiyanın, həm də morfologiyanın tədqiq obyektinə daxildir. Əgər leksikada tək-tək sözlərin fərdi xüsusiyyətləri, leksik mənası, onun başqa sözlərdən məna fərqi, mənşəyi və s. öyrənilirsə, qrammatikada, morfologiyada sözlərin qanunauyğunluqları və xüsusiyyətləri öyrənilir ki, onlar tək-tək sözlərə deyil, bütöv söz qruplarına və onların dəyişmə sisteminə aid olur.

Morfologiyada sözlərin hansı qrammatik formalara düşdüyü, hansı qrammatik mənaları ifadə etdiyi və necə ifadə etdiyi sözlərin hansı prinsiplər əsasında dəyişdiyi öyrənilir, sözlərin dəyişmə və təsrif sistemləri üzə çıxarılır, qrammatik kateqoriyalar onların nitq hissələrinə xidməti müəyyənləşdirilir.

Sözün fonetik quruluşu ilə morfoloji quruluşu, sözün fonetik tərkibi ilə morfoloji tərkibi eyni şey olmadığı kimi, sözun quruluşu və tərkibi anlayışlarını da eyniləşdirmək olmaz.

Sözün tərkibi anlayışı quruluşundan genişdir. Sözün tərkibi anlayışına sözün tərkibindəki səslər, hecalar, vurğu, sözün kökü və şəkilçilər daxildir. Sözün tərkibinə daxil olan maddi hissələrin hamısı – səs, heca, kök və şəkilçi eyni dərəcədə mənalı vahidlər deyildir. Səslər və hecalar ayrılıqda heç bir məna ifadə etmir. Bunlar yalnız söz şəklində birləşdikdə ictimai məna kəsb edir. Söz kökləri və şəkilçilər isə mənalı vahidlərdir.

Dilçilikdə birinci qrupu sadə sözlər, ikinci qrupa düzəltmə, üçüncü qrupa mürəkkəb sözlər deyilir. Söz kökü əsas anlayışı ifadə edir, ona görə də sözün zəruri hissəsi sayılır. Əcnəbi sözləri nəzərə almasaq kök sözün əvvəlində yerləşir və əsasən sabit olur, dəyişmir. Şəkilçilər isə əlavə anlayışları birdirir və şəkilçiyə çevrilmiş, qrammatik quruluşun ixtiyarına keçmişdir. Öz növbəsində həmin köməkçi sözlər və şəkilçilər də lüğət tərkibindəki müstəqil mənalı sözlərə söz kökündən sonra işlənir, kökə əlavə olunur. Şəkilçilərin ifadə etdiyi anlayışlar köz kökünün ifadə etdiyi məna ilə bağlı olur.

Sözün müstəqil mənaya malik olan, ayrılıqda işlənə bilər və dəyişməyən hissəsinə kök deyilir. Beləliklə, söz lüğət tərkibinin vahidi olduğu kimi, morfologiyanın da əsas vahididir.

Lakin morfoloji vahid olan sözlə lüğəvi vahid olan sox mahiyyətcə tam bir-birinin eyni deyildir.

Morfologiyanın sözlə leksik mənalı morfemlə yanaşı, şəkilçilərdən və köməkçi sözlərdən ibarət lüğət də vardır. Morfologiyada söz həmin şəkilçilərin və köməkçi sözlərin iştirakı ilə fəaliyyət göstərir. Bu fəaliyyət və əlaqə nəticəsində sözləri ünsiyyətin əsas vasitəsinə çevirir.

Söz kökünün ingilis dilində, o cümlədən Azərbaycan dilində bir sıra xüsusiyyətləri vardır:

1) kök sözün müstəqil leksik mənaya malik olan hissəsidir;
2) kök sözün əsasını təşkil edir;
3) söz kökü şəkilçilərdən ayrı işlənə bilir;
4) bir kök müxtəlif şəkilçilər qəbul edə bilir.

Azərbaycan dilində sözün kökünə şəkilçi artırdıqda əsasən kök dəyişmir və sabit olur. Lakin ingilis dilində kök dəyişə də bilər.

Sözlərin ayrılıqda işlənməyən, müstəqil lüğəvi mənaya malik olmayan söz kökünə artırılarkən yeni mənalı söz düzəldən və ya sözlər arasında əlaqə yaradan hissəsinə şəkilçi deyilir. Şəkilçi morfemlər özləri də morfoloji funksiyasına görə fərqlənir və sözdüzəldici, sözdəyişdirici olmaqla üç qrupa ayrılır:

- yeni söz düzəldən şəkilçilər; bunlar sözə artırıldıqda yeni mənalı söz yaradır; *tarix-tarixçi, göz-gözlük*- sözlər arasında əlaqə yaradan şəkilçilər; ismin hal, mənsubiyyət, felin şəxs şəkilçiləri cümlədə sözlər arasında əlaqə yaradan şəkilçilərdir; *Mən dənizçilik peşəsini seçdim.*

Bu iki qrup şəkilçidən birincisinə sözdüzəldici, ikincisinə sözdəyişdirici şəkilçilər, eyni zamanda birincisinə leksik, ikincisinə qrammatik şəkilçilər deyilir. Dəniz-çi-lik sözdüzəldici, peşə-si-ni isə sözdəyişdiricidir;

- şəkilçilərin bir qismi kateqorial şəkilçidir, nə yeni söz düzəldir, nə də sözlər arasında əoaqə yaradır. Bu və ya digər morfoloji kateqoriyanın yaranmasına xidmət edir. İsimdə kəmiyyət şəkilçisi, feldə inkarlıq, şəkil əlamətləri belə şəkilçilərdəndir.

Söz-formalar sözlərin paradiqma cərgəsinə daxil olur və cümlə üzvü kimi çıxış edir. sözdəyişdiricilik prosesində kökün, əsası forması və semantikası sabit qalır. isimlərdə mənsubiyyət və hal, fellərdə şəxs əlamətləri, feli sifət, feli bağlama, feli isim və məsdər şəkilçiləri sözdəyişdiricilik vasitələri sayılır.

Sözdəyişdirici şəkilçilər sözün dəyişən hissəsi olub, cümlədə sözlər arasında əlaqə yaradır.

Sözdüzəldici şəkilçilər sözlərin kökünə və ya əsasına artırılaraq həm formaca, həm də mənaca fərqlənən yeni sözlər yaradır və həmin sözlər başqa sözlərlə yanaşı dilin lüğət tərkibinə daxil olur.

Sözdüzəldicilikdə məna dəyişikliyi semantik dəyişiklikdir, bir sözdən yeni söz yaranır. İngilis dilində, o cümlədən Azərbaycan dilində şəkilçilərin fonetik tərkibi sabit deyildir və onlar söz kökü və ya əsasının tələbi ilə dəyişir, variantlaşır və eyni zamanda yalnız sözə birləşdikdə müəyyən yaranır, daha ümumi məna ifadə edənlər dar məna ifadə edənlərdən, sözdüzəldicilər sözdəyişdiricilərdən əvvəl sözə artırılır. Şəkilçilərin sözdə möhkəm sırası vardır.

Əvvəl sözdüzəldici, sonra sözdəyişdirici şəkilçilər işlənir. Söz kök və ya əsaslarında şəkilçilərin hər birinin öz pozisiyası olur: *dəniz-çi-lik-dən*.

Digər tərəfdən, bütün morfoloji kateqoriyalar da hər dildə yoxdur. Azərbaycan dilində cins kateqoriyası yoxdur, dakin bunun tam əksi olaraq ingilis dilində cins kateqoriyası var: *actor-actress, waiter-waitress*.

Sözdüzəldici şəkilçilər məhsuldar və qeyri-məhsuldar olmaqla fərqlənir. Qeyri-məhsuldar şəkilçilər cəmi bir neçə söz düzəldə bildiyi halda, məhsuldar şəkilçilər daha çox söz düzəldir və lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır.

Adlardan isimdüzəldən məhsuldar şəkilçilər aşağıdakılardır:

-çı, -çi, -çu. –çü. Bu şəkilçi ən məhsuldar isimdüzəldən şəkilçidir. Əksərən isimlərdən bəzən də sifət və saylardan şəxs anlayışı ifadə edən isimlər düzəldir: *balıq-çı, trak-tor-çu, tarix-çi, güləş-çi, işğal-çı, şikayət-çi, əla-çı* və s.

Azərbaycan dilində «çı, çi, çu, çü» məhsuldar şəkilçidir, «er, or» ingilis dilində isə qarşılığıdır: *iş-çi*. Azərbaycan dilində qeyri-məhsuldar şəkilçilər saz, kar və s. *rəngsaz, sənətkar*.

Hər iki dildə bütün şəkilçilərin semantik mənaları var. şəkilçilərin hər birinin fərdi xüsusiyyətləri, məna və işlənmə məqsədləri var. təbiidir ki, hər iki dildə şəkilçilərin əsas məqsədi leksikologiyanın zənginləşməsidir.

Buna uyğun olaraq da, təbii ki, şəkilçilər öz semantik xüsusiyyətlərindən asılı olaraq söüzn müfvafiq hissəsinə artırılır. Bundar da öz məna qazanmış olur. Aqlütinasiya əsasında sözlərdə şəkilçilərin düzülüş ardıcıllığı.

Görkəmli ingilis alimi V.Arnold da sözyaradıcılığı haqqında bir neçə fikir irəli sürmüşdür. Şəkilçilər əslinə, məhsuldarlığına, semantik xüsusiyyətlərinə görə bir neçə qrupa bölünür.

Buna uyğun olaraq da, təbii ki, şəkilçilər öz semantik xüsusiyyətlərindən asılı olaraq sözün müvafiq hissəsinə artırılır.

Bunlar da öz növbəsində, isim düzəldən şəkilçilər, sifət düzəldən şəkilçilər, fel düzəldən şəkilçilər və sairdir. Bu şəkilçilər də məhsuldar və qeyri-məhsuldar olmaqla iki qrupa bölünür. Məhsuldar şəkilçilər er, or və sairdir.

Məsələn: painter.

Qeyri-məhsuldar şəkilçilər isə *joumalist, profiteer*.

Hazırki dövrdə ayrı-ayrı dil ailələrinin başında duran protodillərin söz köklərinin müəyyənləşdirilməsinə ilə protodillər arasında əlaqə və qohumluğun öyrənilməsi paralel aparılır.

Təbii ki, bu sahədə Yer üzərində heç bir koordinasiya yoxdur. Hər bir mədəni xalq öz dilinin müasir vəziyyətini və traixi inkişaf yolunu öyrənməkdədir. Laikn bir

sıra görkəmli alimlər böyük ümumiləşdirmələr apararaq dil ailələrinin və ailələrarası münasibətləri müəyyənləşdirmişlər.

Qeyd etdiyimiz amilərin yaradıcılıq təcrübəsi və tədqiqat metodları ulu dilə doğru araşdırmaların gələcəyinə böyük ümidlər doğurur. Biz dünya dillərinə məxsus saysız söz köklərində ulu dilin söz köklərini görürük. Lakin əsas mövzumuza aid olmadığı üçün illərdən bəri topladığımız nümunələrdən bir neçəsinin şərhi ilə kifayətlənəcəyik.

Bu cür araşdırmaların bir xeyri odur ki, tədqiqatçılar sözün dünya dillərində yayılma arealını müəyyənləşdirə bilirlərö təhsil, tədris prosesində yunan, latın mənşəli söz kimi izah edilən bir çox sözlərin xalis yunan və ya latın sözü olmadığı, dünya dillərinə məxsus ulu dildən gəldiyi aydınlaşır və eyni zamanda aydın olur ki, o sözün kökü elə bizim dildə, türk dillərində də işlənməkdədir.

Ədəbiyyat

1. Engilish Lexicology. O.B.Афанасьева, H.H.Морозова, Аркадий Куракин, г. Николав, апр. 2003.
2. И.В.Арнольд: «Лексикология английский языка». Москва, «Высшая школа», 1986.
3. Q.Ş.Kazımov: «Azərbaycan dili, Morfologiya» . «Nurlan», Bakı, 2010, 400 s.

Саням Мехтиева

Морфологическая структура аффиксиальных слов в английском и азербайджанском языках

Резюме

Эта статья посвящается схематическим свойствам пространственных аффиксов. Аффиксы являются частью мксикороим, а также изучает образование слов определенного языка. Этого аффиксами являются er, or, eer, ist которые не имеют определенного значения в отдельности, но являются основной частью слова.

Корен это част слова, которое содержит в себе мксическое слова. Продуктивиш аффиксы во вы периоды языка не теряют актулаьност. В результате, можно сделать вывод из статьи, что появление новых терминов параллельно с развитие общества стоит неминуемым. И это, в свою очередь будет исследоваться и изучаться со стороны ученых.

Sanam Mehdiyeva

Morphological structure of affixal words in English and Azerbaijani

Summary

The article is devoted to the semantic structure of forming professional affixes. It is the Branch of lexicology that studies the structure of existing words and the patting on which a language builds new words.

There were Mentioned ere, or, ere that these affixes don′ t acing as free form but only constituents of words.

The process meanings their own. The root is the morpheme that exprexes the lexical meaning of the word.

Rəyçi: N.Ə.Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

SEVİNC BABAYEVA
ADİU

LEKSİK SİNONİMLİYİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İŞLƏNMƏ XÜSUSIYYƏTLƏRİ

Açar sözlər: leksik paralelizm, etimoloji dubletlər, sistemdaxidi paralellər, semantik differensiallaşma.
Key words: lexic paralelism, etymological dublets, intersystem parallels, semantic differenciation.
Ключевые слова: лексически параллелизм, этимологический дублеты, внутрисистемных параллелей, семантический дифференциация

Azərbaycan dilindəki kino və sinema sözlərinin sistemdaxili semantik paralelliyi dublet vəziyyətini yaradıb. Məsələnin maraqlı tərəfi isə ondan ibarətdir ki, bu leksik vahidlərin özləri də eyni bir sözün variantlarının fərqli mərhələlərdə və fərqli mənbələrdən dilimiz tərəfindən mənimsənilmiş variantlarından başqa bir şey deyil. Kino sözü Azərbaycan ədəbi dilində həm müstəqil şəkildə, həm də digər mürəkkəb sözlərin komponenti kimi istifadə olunmaqdadır: *kinodramaturq, kinoatnlye, kinoaktyor*.. Sinema sözü nisbətən yeni dövr alınmalarından hesab edilir və bu səbəbdən də onun standart izahlı lüğətlərə daxil olduğunu söyləmək olmaz. Buna baxmayaraq KİV-in dilində sinema sözünün və törəmələrinin geniş şəkildə işləklik nümayiş etdirməsi «təkrar alınma»nın baş verdiyini söyləməyə əsas verir. Məsələn: *1895-ci il dekabırn 28-də Kapusin bulvarında ilk sinemaatoqraf göstərildikdən sonra bu məqsədlə yeni binanın tikintisinə ehtiyac yarandı. Kino musiqisinə meyillik hiss olunur. Bu, müasir sinematoqraf üçün maraqlı material ola bilər.* Sonuncu nümunədən göründüyü kimi, dilimizdə variantlardan törəmiş bu dubletlərin müvazi işlənmə potensialı var.Etimoloji aspektdən əhəmiyyət kəsb edən variantlılıq və dublet məsələlərinə ingilis leksikologiyasının nəzəri problemləri çərçivəsində aydınlıq gətirmiş Arnold da özünün məşhur tədqiqatına münasibət bildirmişdir. Belə ki, irəlidə izləyəcəyimiz kimi, dilçi, bu kimi oxşar misalların timsalında dildaxili, sistemdaxili leksik parallelizm faktlarına aydınlıq gətirmişdir. Bizi bu kimi dil vahidlərində maraqlandıran cəhət həmin leksemlərin və variantlarının Azərbaycan dili ilə paralelizm təşkil etməsi məqamlarıdır. Məsələn, N.K.İvanovanın ingilis dilinin leksikologiyasına həsr edilən *goal u jail, channel u canal* tədqiqatında qeyd edilən etimoloji dubletlərin Azərbaycan dili ilə paralelliyi diqqətdən yayına bilməz. Məsələn: *qol – futbolp, kanal – su kanalı; TV kanalı*. Təqdim olunan nümunələrdən də göründüyü kimi, bu hallarda həm sistemdaxili, həm də sistemlərarası leksik parallelizm situasiyalarını təsbit edilməsi mümkündür. Belə ki, həmin situasiyalarda konkret bir dil sistemi çərçivəsində gerçəkləşən və dilin daxili inkişaf qanunauyğunluqları ilə şərtlənən müvazilik situasiyalarından söhbət gedir. Lakin onu qeyd etmək lazımdır ki, bu kimi faktların meydana gəlməsində ekstralinqvistik faktların da iştirak payının olması həmin dil faktlarını maraqlı dil innovasiyaları sırasına aid edir.

Nə üçün «təkrar alınma»?. Belə ki, artıq söylədiyimiz kimi, kino və sinema sözləri eyni mənbədən şaxələnmədir. Yunan dilində kino hərəkət edirəm deməkdir.

Sinema sözü isə yunan dilindəki bu leksemin latınlaşmış, yəni latın dilinin fonetik sisteminə adaptasiya olunmuş variantıdır. Müqayisə üçün deyək ki, *kinema, kinematos hərəkət* mənasını ifadə edir. və L.Uspenskiy bu sözün ixtisar edilmiş şəkildə film mənasında istifadəsini dilin qənaət prinsipi ilə izah edir. Maraqlıdır ki, ədəbi dildə mövqeləri möhkəmlənmiş və ixtisar edilməmiş variantın fonetik tərkibinin təhlili burada variantla bənzərliyi ortaya qoyur: *kinematoqraf – sinematoqraf, kinematoqrafik – sinematoqrafik*. Variantlılıqdan törəmiş olan bu debletlilik bizim üçün ona görə maraqlıdır ki, həmin dublet cütündən biri ingilis dili ilə tam dublet paralelizmini, digəri isə qismən dəyişiklik nümayiş etdirən natamam parallelizmi nümayiş etdirir. Məsələn: *Asian cinema refers to the film industries and films produced in the continent of Asia, and is also sometimes known as Eastern cinema*.

Onu da qeyd edək ki, Azərbaycan və ingilis dilllərinin fonetik sistemlərinin yetərincə fərqliliyinə görə, bu dillərin leksik sistemindəki parallelizmlər çox məhdud hallarda tam şəkildə adekvatlıq mümayiş etdirirlər. Yeri gəlmişkən onu da qeyd edək ki, leksik parallelizm vəziyyətlərinin təhlili çərçivəsində bu cür maksimal adekvatlıq hallarına da dillərarası dubletlər deyilir. Göründüyü kimi, biz yenidən dublet termini ilə və yenidən terminoloji çoxmənalılıqla qarşılaşmış oluruq.

Bu kimi leksik paralelizmlər, ingilis diliinin leksikologiyası və qrammatikasını diaxronik aspektdə tədqiq etmiş mütəxəssislərin bildirliyi kimi, bütbövlükdə, ingilis dilinin leksik inventarvının zənginləşməsi və qrammatik sisteminin formalaşmasında mühüm rol oynamışlar. İngilis dilinin dialekt rəngarəngliyinin nəticəsi kimi meydana çıxan paralelizm situasiyalarının kütləviliyi ingilis ədəbi dilinin mövqelərinin möhkəmlənməsi ilə azaltmağa başladığı məlumdur. Xatırladaq ki, daha əvvəl də bildiyimiz kimi, bu qrup paralelizmlər dilçilik ədəbiyyatlarından daha çox etimoloji dubletlər çərçivəsində tədqiq edilir. Konkret olaraq, ingilis dilinin leksikası sahəsindəki etimoloji araşdırmalarda qeyd edildiyi kimi, *whole – sağlam* və ya *xəstəlikdən azad* və *hale – sağlam bərk*. İkinci öz orijinal mənasında qalmaqdadır və have and hearty – sağlma və gümrah birləşməsində saxlanılır. Hər iki söz qədim ingilis dilindəki hāl sözündən yaranmıqdır: biri qədim ingilis dilindəki ā hərfinin hərfinə ō olan normal inkişafı nəticəsində yaranmışdır. Digər isə bu modifikasiyanın daş vermədiyi şimal dialektindən gəlmişdir. Oxşar cəhət *raid* və *road* dubletlərində var, onların əlaqəsi mənası *düşməncəsinə soxulma a raid* olan *inroad* terminində aydın şəkildə qalmışdır. *Drag* və *draw* felləri qədim ingilis dilində *dragan* sözündən gəlmişdir. Azərbaycan dilindəki tarixi-etimoloji planda araşdırmaların obyektini təşkil edən etimoloji dubletlər dilmizin özünün fərqli tipoloji quruluşu səbiyyət dərin morfem rekonstruksiyası araşdırmalarının obyektini təşkil etmişdir. Bu sahədə dilçiliyimizdə V.Aslanovun araşdırmalarının xüssui maraq kəsb etdiyini vurğulamamaş olmaz. Dilimizdəki etimoloji dubletlərdən bəhs edərkən V.Aslanovun tədqiqatlarında diqqətə alınan bir çox faktlarının, o cümlədən, *kiçik/küçük, cocuq/çocuq və cüyüx, cınqılı/dınqılı/cıqqılı/dıqqılı*, habelə *dırnaq/dırmaq/-gırmaq/cırnaq/caynaq*, eləcə də *çevri-/devri-/evir-/əyir-/dövrə/yörə* və bununla bərabər, *yumru/yumruq/yumupta/ tumurcuq* və s. bu kimi paraleliklərin eyni kökün fonosemantik təkamülündən törəyən etimoloji dubletlər olduğunu da qeyd etmək istərdik. Azərbaycan dilinin tarixi leksikologiyasına, habelə morfonologiyasına dair araşdırmalarda dilimizdəki etimoloji dublet törəmələrinin formalaşmasın üçün həm anlaut mövqeyindəki konsonant səslərin, eləcə də auslaut mövqeyindəki samitlərin

variativliyinin mühüm rol oynadığı qeyd edilir. Sonuncular bəzi hallarda ilkin köklə üzvlənməyə məruz qalmayaracaq şəkildə birləşən fel köklərinin növ kateqoriya formatlı söz formalarıdır. Belə ki, Q.Batırovun Azərbaycan dilindəki fellərin fonosemantik inkişafına həsr edilmiş araşdırmasından bəlli olur ki, dilimizdə uzan-, azut-, daıt-, dağıl-, gödəl- və s. kimi fel köklərinin auslaut konsonantı törəmə kök tərkibində «daşlaşmış» növ kateqoriyası göstəricilərindən başqa bir şey deyil. Azərbaycan dilçiliyindəki bəzi araşdırmalarda həmin növ etimoloji dubletlərin, əslində, fuziyon xəlitə törəmələrindən başqa bir şey olmadığı iddia edildir. Azərbaycan və ümumilikdə, türk dillərində fuziallaşmış kök morfemlər problemini araşdırmış B.Məhərrəmli yazır: «Ənənəvi olaraq dilçilikdə bu proses «daşlaşmış» da adlandırılır. Eyni zamanda müxtəlif dilçilik ədəbiyyatlarında həmin prosesə leksikləşmə, sıxılma da deyilir. Məhz aqqlütinativ quruluşun təkamülündən yaranan fuzial kök morfemlər türk dillərinin morfoloji inkişafının əsa göstəricilərindəndir. Azərbaycan dilindəki qarış- felinin qar- kökü ilə –ış növ şəkilçisinin fuziallaşması nəticəsində yaranmasını digər türk dillərindəki faktlar təsdiq edir». Bir sözlə desək, Azərbaycan dilinin morfoloji quruluşunun özəllikləri ingilis dilinin struktur xarakteristikasından yetərincə fərqləndiyi üçün dilimizdəki etimoloji dubletlər mahiyyət etibarılə ikincidəkilərdən əhəmiyyətli şəkildə fərqlənir. Maraqlıdır ki, ingilis dilindən fərqli olaraq Azərbaycan dilinin morfoloji struktur özəyini təhkil edən komponentlər arasında sinhaerminizm faktoru mühüm rol oynayır. Və həmin faktorun nüfux dairəsi nəinki dilimizin morfoloji struktur spesifikasını formalaşdırır, habelə çoxsaylı araşdırmalardan məlum olduğu kimi, etimoloji dubletlərin tirajlaşdırılmasında da əhəmiyyətli dərəcədə iş əmsalı nümayiş etdirir. Belə ki, bir çox türkoloji səpkidi, eləcə də altayşünaslıqla bağlı araşdırmalarda qeyd edildiyi kimi sözügedən dil ailəsinə daxil olan dillərin aksial söz strukturunu formalaşdıran ahəng qanunu, eləcə də sinharmonik oppozisiyalara istinad edən etimoloji dubletləri formalaşdırmağa qadirdir. Bu zaman isə daha öncə qeyd edilən auslaut və anlaut konsonantının vriativliyi deyil, sait tərkibinin və bir çox hallarda intervokalın variativliyi həlledici rol oynayır. Leksik parallelizm hadisəsi özlüyündə eyni bir dil sistemi çərçivəsində və ya fərqli dil sistemləri müstəvisində nəzərdən kençirilə bilən və fonomorfoloji və semantik parametrlərə əsaslanan korrelyasiya faktlarını ehtiva edir. Bir çox leksik parallelizm faktlarının kökündə dubletlik situasiyasının durması faktı burada əlaqəli təhlili labüd edir. İlk olaraq onu qeyd edək ki, D.E.Rozantal və M.A.Telenkovanın linqvistik terminlər lüğətində qeyd edildyi kimi, dublet dil vahidinin ikinövlülüyünü bildirir. Məsələn, vurğu dubletləri: иначе-иначе, творог-творог.

Bəzən həmin dubletlərin fonomorfoloji xüsusiyyətlərində əsaslı dəyişikliklər baş verir və zamanla həmin dəyişikliklər öz ardınca daha yeni və daha fərqli metaforfozları labüd edir ki, bu da son nəticədə sistemdaxili paralleliklərin seydana çıxmasına rəvac verir. Təqdim edilən məqalə çərçivəsində biz, həmin keçid prosesini yəni etimoloji dubletlərin sistemdaxili və ya sistemlərarası leksik paralleliklərə çevrilməsi prosesini dəyərləndirəcək və konkret dil faktlarının nümunələrində həmin metamorfozları əyaniklə izləyəcəyik.

Sistem linqvistikasının aparıcı simalarından hesab edilən G.P.Melnikov, haqlı olaraq yazır: «Dil özünü tənzimləyən dinamik sistemdir və bununla da olduqca mürəkkəb bir hadisəni təcəssüm etdirir». Məhz, dilin özünün daxili nizam yarada bilmə potensialı onu artıq omonimik ballastdan sığortalamaq məqsədilə variant

parallelizmni təklif edir. yəni əslində Azərbaycan dilçiliyində bir çoxhallarda fonetik sözyaradıcılığı kimi dəyərləndirilən, ingilis dili ilə bağlı araşdırmalarda isə dialekt variantlılığı törəmələri hesab edilən dil hadisələri dilin daxili resurslarından, habelə kənar faktorlardan yararlanmaqla nominasiya prosesinə daha da aydınlıq, hada da konkretlik gətirilməsinə xidmət edir.

İngilis dilinin leksikologiyasını sistemli şəkildə araşdırmış V.V.Yeliseyeva bu dildəki omonimiya faktlarının mənbələri sırasında etimoloji dubletlərin xüsusi yer tutduğun qeyd edir və bunu konkret nümunələr əsasında nəzərdən keçirir: *bazis towest part of anything* və eyni zamanda *basis deep sounding*. Bu kimi dil faktları eyni zamanda dublet səciyyəli leksik parallelizmləri təşkil edirlər. Dilçilik ədəbiyyattlarında bu kimi dil faktlarına etimoloji dubletlər problemi çərçivəsində ceniş şəkildə müraciət edilir, onların yaranma səbəbləri və şəraiti müxtəlif rakuslarından araşdırılır. Onu da qeyd edək ki, etimoloji dubletlər məsələsini leksik paralellər problemi çərçivəsində araşdırmaya cəlb edərkən, istər-istəməz leksik variantlar probleminə də toxunmalı oluruq. Belə ki, sistemdaxili parallelik situasiyaların, habelə dubletik vəziyyətini yaradan situasiyalarda məhz variantlılıq öz işini görmüş olur. konkret olaraq «İngilis diliin tarixində etimoloji dubletləri»ni araşdırmış M.O.-Nikitina özünü eyniadlı dissertasiyasında bu dildəki etimoloji dubletlərdən bəhs edərkən onların həm dialekt rəngarənliyi səbəbiylə, həm də fərqli zamanlı və fərqli tranzit dil vasitəçiliyi ilə mənimsənilən alınmalarla bağlı meydana çıxdığını qeyd etmişdir. Dilçi, bu qrup leksemlər və variantları sırasında *ancient-ensign, guard-ward, mainour, manner-manoeuvre* və s. faktları qeyd etmişdir. «Müasir ingilis dilinin lüğət tərkibinin etimoloji əsasları» sahəsində fundamental araşdırma müəllifi olan N.N.Amosova da məsələyə geniş rakusdan nəzərə salaq, etimoloji dubletlik situasiyası ilə səciyyələnən paralellik hallarının yekcins təbiətli qənaətini dilə gətirmişdir. Belə ki, dilçi bizim xüssui növ sistemxalili paralellik kimi xarakterizə edə biləcəyimiz bu dil faktlarının meydana gəlməsində daxili və xarici faktorların rolunu fərqləndirmişdir. Daha dəqiq desək, biz, müəllifi apardığı fərqləndirmə əsasında yanaşmanın məhz intro- və ekstralinqvistik faktorlara söykəndiyi haqqında məntiqi nəticə hasil edə bilmişik. Konkret olaraq N.A.Amosova «ümummilli dildə təsadüf edilən dialektal dubletləri, yəni eyni bir sözün fonetik variantlarını» fərqləndirmiş və müvafiq nümunələri qeyd etmişdir: kent.dial dent-əzik, mərkəzi şərq dial. dint-zərbə, şimal diat. Raid-hücum, mərkəzi Şərq road-yol və s. İrəlidə təkrarən Amosovanın yanaşmasına qayıtmamaq üçün məqamı yetişdiyinə görə, onun variant və dublet faktlarına yanaşması ilə bağlı məsələyə öz münasibətimizi bildirmək istərdik. Belə ki, doğurdan da, sistemdaxili paralelliklərdən bəhs edərkən, sözün variantları ilə bağlı nəzəri problemə toxunmamaq mümkün deyil. Lakin variantlılıq situasiyasının N.N.Amosovanın yanaşmasında şahidi olduğumuz kimi, demək olar ki, dubletlik hadisəsi ilə eyniləşdirilməsi bir qədər qeyri-adekvat təhlil yanaşması hesab edilə bilər. Belə ki, bu növ dubletlik özlülüyündə, N.N.Amosovanın bildirdiki kimi, çox vaxt semantik şaxələnmə ilə nəticələnən variantlılığı təgəssüm etdirmir. Dubletlik özlülüyündə tələffüz fərqliliyinin sərhədlərini aşan bir hadisə olub mütləq şəkildə variantlılıq çərçivəsindən kənarlaşan müstəqil söz yaradıcılığını ehtiva edir. N.N.Amosovanın bu qeydi ilə bağlı fərqli mövqeyimizin olmasına baxmayaraq, ümumilikdə, onun ingilis dilinin sistemdaxili paralellikləri ilə bağlı fikirləri ilə bölüşürük. Belə ki, daha əvvəl də bildiyimiz kimi, ingilis dilinin tarixi leksikolo-

giyasını araşdıran dilçi bu dildəki sistemdaxili paralelliklərin yaranma səbəbləri sırasında kənar dil faktorunun da mövcudluğuna, tam bağlı olaraq, diqqət çəkərək yazırdır: «İngilis dilinin lüət tərkibində anqlo-skandinav dublet formaları da mövcuddur. Həmin dublet formalar səs forması və məna cəhətlərinə görə fərqlənsələr də, ortaq kökdən şaxələnmə faktlarını ehtiva edirlər. Məsələn: shirt-köynək və skirt-ətək».

Ədəbiyyat

1. V.Aslanov: «Azərbaycan dilinin tarixinə dair tədqiqlər», II cild, Bakı: Elm, 2003. 271 s.
2. Arnold I.V. «The English Word». Moscow «Vysshaya shkola», 1986, -295 p.
3. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, Bakı: Şərq-Qərb, 2011, 792 s.
4. Q.Bağırov: «Azərbaycan dilində fellərin leksik-semantik inkişafı» Bakı, maarif, 1971, 160 s..

Sevinj Babayeva

The ways of use o lexic synonyms in the English and Azerbaijani languages

Summary

In this article the facts of the etymological doublets, played an important role in the formation of the intersystem lexic papallels are studied. Etiymological doublets pass the process of their formation on the base of phonetic, phonomorphological variations the same word which appears in the semantic differentiated parallels later. At an early stage of the given sort the etymological doublets identify themeselves special group of intersystem parallels. Then, at times they can pass in a rank of the intersystem parallels.

Севиндж Бабаева

Способы употребление лексические синонимия в Английском и Азербайджанском языках

Резюме

В статье исследуется факты этимологических дублетов, сыгравших немаловажную роль в возникновении внутрисистемных лексических параллелей. Этимологические дублеты проходят процесс своего становления на почве фонетических, фономорфологических вариаций одного и того же слово, которые позже переливаются в семантически дифференцированных параллелей. На раннем этапе данного рода этимологические дублеты отождествляют собой особую группу внутрисистемных параллелей. Затем, по пришествию времени они могут переходить в ранг межсистемных параллелей.

Rəyçi: R.C.Cəfərov
filologiya üzrə fəlsəfə doktoru, dosent

YEGANƏ ƏLƏSGƏROVA
ADİU

KƏMİYYƏT KATEQORİYASININ İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: sayılan isimlər, sayılmayan isimlər, mücərrəd isimlər, toplu isimlər, ikili oppozisiya.

Ключевые слова: числительные существительные, абстрактные существительные, двойное оппорисия.

Key words: the categoriy of number, countable nouns, uncountable nouns, abstract nouns, collective nouns, singularia tantum, pluralia tantum, binary opposition.

Müasir ingilis dilində kəmiyyət kateqoriyası yalnız isimlərə xas deyildir O.Yespersen «A Modren English Grammar on historical principles» kitabında qeyd edirdi ki, kəmiyyət kateqoriyası isimlərdə, əvəzliklərdə və fellərdə fərqləndirilir. Belə ki, şəxs, yiyəlik, qayıdış, işarə əvəzliklərində, habelə indiki qeyri-müəyyən, davamedici, bitmiş zamanlarda üçüncü şəxsin təkində kəmiyyət kateqoriyası öz əksini tapır.

Kəmiyyət kateqoriyası ismin morfoloji əlamətlərindən biridir. Bu əlamət ismi digər nitq hissələrindən asanlıqla ayırır, çünki kəmiyyət kateqoriyası yalnız isimlərdə müntəzəm olaraq morfoloji yolla ifadə olunur.

Müasir ingilis dilində ismin kəmiyyət kateqoriyası o/fleksiya şəklində ikili oppozisiya təşkil edir. Bu oppozisiyanın güclü tərəfi ismin cəmidir, çünki ismin tək formasının heç bir morfoloji əlaməti yoxdur.

V.V.Vinoqradov ismin kəmiyyət kateqoriyasından bəhs edərkən qeyd edirdi ki, ismin cəm kateqoriyası çox mənalı kateqoriyasıdır, onunla müqayisədə ismin təki neqativ və bəzən də sıfır kimi təsir bağışlayır.

İ.P.İvanova, B.B.Burlakova «Müasir ingilis dilinin nəzəri qrammatikası» kitabında qeyd edirdilər ki, ismin təki bazis təşkil edir, ismin cəmi bu bazisə əsaslanaraq düzəlir.

Bir sıra struktur dilçilər ismin təklində heç bir şəkilçinin olmamasını «sıfır» suffiks kimi dəyərləndirirlər. Lakin bildiyimiz kimi «o» suffiks morfem deyil, yəni o, sözdən səsli formada ayrılan hissə təşkil etmir. Yaxşı olardı ki, o, «sıfır» eksponent adlandırılsın.

Məlum olduğu kimi, müasir ingilis dilində ismin cəm formasının formal əlaməti məhsuldar (e(s)) suffiksidir. Bu suffiks ona görə məhsuldar adlanır ki, əksər isimlərin cəmi bu şəkilçinin köməyi ilə düzəlir. «s»in üç allomorfu var {s; z; iz}. Lakin müasir ingilis dilində ismin cəmini düzəltmək üçün digər qeyri-məhsuldar şəkilçilər də vardır. Bunlar aşağıdakılardır:

1) -en şəkilçisi. Bu arxaik şəkilçidir və onun köməyi ilə iki sözün cəmi düzəldilir. Məsələn: *Children and tools tell the truth – Sözün düzünü uşaqdan xəbər al.*

2) latın dilindən alınma sözlərin sonuna artırılan cəm şəkilçiləri.

-i (nucleus – nucleii)

-a (atratum – strata)

-ae (antenna – antennae).

Qeyd etmək lazımdır ki, son zamanlar latın dilindən alınma sözlərin cəmi onların sonuna (e(s)) şəkilçisinin artırılması yolu ilə düzəlir. Məsələn: *formula – formulae, formulas*.

Deskriptiv dilçilər Harris, Hokket və başqaları qeyd etmiqlər ki, «en» şəkilçisi «s»in allomorfudur. Əgər bu belədirsə, demək latın dilindəki «i, ae, a» cəm şəkilçiləri də «s»in allomorfudur. Lakin biz bu fikirlə razılaşa bilmərik, çünki funksional cəhətdən eyni bir funksiyaya xidmət etsələr də, onlar müxtəlif cür səslənirlər. Onların funksional sinonim adlandırılması daha məqsədəuyğun olardı.

Rus dilçilərindən B.S.Xaymoviç, B.İ.Roqovskaya «İngilis dilinin nəzəri qrammatikası» kitabında qeyd edirlər ki, ğəzi isimlədə kəmiyyət kateqoriyası iki (boy-boys, boy′ s - boys), bəzilərində bir (table-tables), bəzilərində isə heç bir oppozisiya təşkil etmir (news information).

Adətən təkdə olan isimləp bir, cəmdə olan isimlər isə birdən çox obyekti bildirir. Bu qayad normal sayılan isimlərə aiddir. Məsələn, table-tables. Lakin təkdə olan isim eyni zamanda həmin obyektin konkret bir sinfə daxil olduğunu da göstərir və o, maddə, mücərrəd məfhum, ölçü vahidi və s.d bildirə bilir. Eyni fikir cəmdə olan isimlərə də aiddir. Onlar təkcə birdən çox obyekti deyil, hiss, maddə növləri, təbiətin obarzlı ifadəsi və s. də bildirə bilir.

Müasir ingilis dilində isimlər sayılan və sayılmayan olamaqla iki əsas qrupa bölünürlər. Sayılan isimlər o isimlərdir ki, həm təkdə, həm də cəmdə işlənir və xəbərlə şəxsə və kəmiyyətə görə uzlaşır. Onların qarşısında qeyri-müəyyənlik artikli miqdar sayları, maye, few sözləri işlənə bilir, onlar how many? sualı ilə müəyyənləşdirilirlər. Məsələn: *a student, four students, many students* və s.

Sayılmayan isimlər isə, əsasən aşağıdakılardır:

1) göünməyən maddə və material adları – air, brass, oxygen, sugar və s.;

2) abstrakt (mücərrəd) mənalı isimləp. Bu isimlərr keyfiyyət, əvəziyyət, fəaliyyət, hiss və s. bildirə bilir. Bu qəbildən olan isimləp, adətən, cəmdə işlənmir, onların qarşısında qeyri-müəyyənlik artikli, many, few sözləri işlənmir. Lakin bəzi hallarda mücərrəd mənalı isimlər «s» şəkilçisi qəbul edir. Bu aşağıdakı hallarda olur:

- nəzm əsərlərində. Bu zaman onlar qrammatik deyil, ekspressiv-poetik məna kəsb edirlər. Məsələn: when sorrows come, they come not single spies, but in battalions. Of all wonders – June;

- həmin ismin mənasında dəyişiklik olarsa – the horrors of the desert.

Material və maddə bildirən sözləp isə aşağıdakı hallarda «s» qəbul edir.

- həmin maddənin nisbətən böyük ərazini əhatə etdiyni bildirərkən – The waters of the Pacific Ocean, the lowlands of the Amazon. The children were on the sands;

- həmin maddələrin müxtəlif növlərini bildirdikdə – Different teas are grown in Azerbaijan. Oils differ very much in quantity;

- metaforik mənada işləndikdə – many waters cannot quench love cümləsindəki waters – illər məansında işlənmişdir.

Müasir ingilis dilində bir qrup isim var ki, ya yalnız təkdə, ya da cəmdə işlənir. Yalnız təkdə işlənən isimlər singularia tantum, cəmdə işlənən isimlər isə pluralia tantum adlanır. Təkcə işlənən isimlərin cəm forması, cəmdə işlənən isimlərin isə

tək forması olmadığı üçün Q.N.Vorontsova qeyd edir ki, bu cür isimlərdə kəmiyyət kateqoriyası yoxdur.

Məsələn: *The first Ayshire cattle were appearently brought to the US.in 1922. These cattle weoe crolssed with the native cattle and their infuence was lost to the breed; one or twl people; 20 police; 20 clergy.*

Göründüyü kimi, göstərilən nümunədəki isimlər arasında morfoloji, sintaktik və semantik baxımdan fikir ayrılıqları var. Bunu əsas götürərək E.A.Kobrina və b. Q.N.Vorontsovanın fikri ilə razılaşırlar.

«Pluralia tantum» başlığı altında gedən isimlər aşağıdakılardır:

- iki hissədən ibarət olan əşya və ya geyim – scissors, tongs, spectacles və s.;
- eyni prosesin dəfələrlə edilməsindən yaranan əşyanı bildirən isimlər – slops, sweepings, earnings, savings, belongings və s.;
- mürəkkəb proseslərin edilməsindən yaranan sözlər – labours – doğum, pains – cəhdlər və s.

Müasir ingilis dilində bəzi isimlərin cəm forması daxidi fleksiya, yəni kök saitinin dəyişilməsi yolu ilə düzəlir. Bəzi isimlərin tək forması ilə cəm qrammatik omonim təşkil edir, yəni həm təkdə, həm də cəmdə onlar eyni cür yazılır. Onların tək və ya cəmdə olması qarşılarında qeyri-müəyyənlik artiklinin, miqdar sayların və s. işlənməsi ilə müəyyənləşdirilir. Məsələn, a sheep, three sheep, these sheep və s. Cəm forması bu yolla düzələn isimlərin sayı məhduddur. Məsələn, sheep, deer, fish, swine.

Müasir ingilis dilində ismin cəm kateqoriyasının müxtəlif yolla düzəlməsi kəmiyyət kateqoriyasının mahiyyətini dəyişdirmir, yəni təkdə olan isimlər bir, cəmdə olan isimlər isə birdən çox əşya və ya şəxsi bildirir.

Müasir ingilis dilində ismin kəmiyyət kateqoriyasından bəhs edərkən toplu isimlərdən yan keçmək olmur. Onların xarakterik xüsusiyyəti həm təkdə, həm də cəmdə işlənmələridir. Onlardan bəhs edərkən O.Yespersen qeyd edirdi ki, family is / are paradiqması əsasən candı varlıqları bildirən toplu isimləri əhatə edir: army, band, chorus, government, group, management, crew, staff, team və s.

Müasir ingilis dilində isimlərin sonuna artırılmış «s» səşkilçisi heç də həmişə ismin cəmini bildirmir. Bəzi hallarda ismin sonuna «a» şəkilçisi əlavə etdikdə, həmin isim tamailə başqa məna kəsb edir ki, bu da yeni sözün yaranmsına gətiriö çıxarır.

Məsələn, *oil (yağ, sayılmayan) – oils (yağlı boya ilə çəkilmiş şəkil); arm (qol) – arms (silah); honour (şərəf)- honours (orden)*.

Beləliklə, müasir ingilis dilində isimlərin kəmiyyət kateqoriyasına görə aşağıdakı təsnifatını verə bilərik:

I qrup. Bu qrupa daxil olan isimlərin kəmiyyət kateqoriyası «o/s» morfoloji əlamətə malikdir. Məsələn: table-tables, child-children, man-men və s. Bu qəbildən olan isimlər sayılandır, yəni onların qarşısında qeyri-müəyyənlik artikli, miqdar sayları və s. işlənir, onlar how many sulaı ilə müəyyənləşdirilirlər.

II qrupa daxil olan isimlər ya yalnız təkcə, ya da yalnız cəmdə işlənir. Singularia tantuma aiddir:

- mücərrəd məfhumları bildirən isimlər;
- maddə və material bildirən isimlər;
- bəzi toplu isimlər;

- ayrı-ayrı səma cisimlərinin adları;
- ölkə adları.

Pluralia tantuma aiddir:

- iki hissədən ibarət olan geyim əşyaları – trousers, shorts, braces; iki hissədən ibarət olan alət və əşyalar – tongs, glasses, pincers və s.;
- bəzi oyun adları – cards, billiards, domonoes və s.;
- toplu isimlər – people, cattle, clergy və s.;
- bəzi qarışıq mənadı isimlər – riches, contents, dregs və s.

III qrupa daxil olan isimlərin təki ilə cəmi omonimdir, yəni eyni gür yazılır və deyilir. Bu isimlərin cəmini fərqləndirən morfoloji əlamət yoxdur, onların təkdə və ya cəmdə olmasını kontekst daxilində işlənmələrinin sintaktik xarakteristikasından bilmək olan. Məsələn*: a sheep – a lot of sheep – 5 sheep* və s.

Ədəbiyyat

1. В.В.Виноградов. Русский язык, 1947, стр. 147.
2. И.П.Иванова, В.В.Бурлакова, Г.Г.Почепцов. Теоретическая грамматика современного английского языка. М., 1981.
3. И.Ф.Иртеньева. Грамматика современного английского языка (Теоретический курс), 1956.
4. R.A.Close, A.Reference. Grammar for students of English. M., 1979.
5. E.M.Gordon, I.P.Krylova. A Grammar of Present-Day English. M., 1980.
6. E.Hemingway. «To have and have not». M., 1980.

Егана Алескерова

Категория число имен существительных

Резюме

Данная статья посвящена категории числа имен существительных в современном английском языке. Известно, что категория числа является одним из основных морфологических признаков имени существительных. Она четко выделяется существительное на фоне других частей, поскольку число в английском языке регулярно выражается морфологически лишь в существительном.

В данной статье не только приведены примеры из работ многих лингвистов, а также анализированы средства выражения категории числа, имен существительных в современном английском языке.

Yeqana Aleskerova

The category of number of nouns

Summary

This article has been dedicated to the category of number of nouns in Modern English. It is known that the category of number is one of the main morphological categories of the noun.

It clearly differentiates the noun from other parts of speech as the category of number only in nouns is regularly expressed morphologically. Not only the examples from the works of some linguists have been given, but also the means of the expression of the category of number of nouns in Modern English have been analysed in this article.

Rəyçi: b/m Rübabə Musayeva

RƏSMİYYƏ BABAYEVA
ADİU

TARİXİ İNKİŞAF PROSESİNDƏ İNGİLİS DİLİNİN QƏDİM DİL ƏLAQƏLƏRİ VƏ ONUN ETİMOLOJİ DURUMU

Açar sözlər: ingilis dili, lüğət fondu, etimoloji, mənzərə, alınma sözlər, mədəni əlaqələr, dil əlaqələri, tarixi inkişaf prosesi.
Ключевые слова: английский язык, словарный фонд, заимствованных слов, культурные связи.
Key words: English, vocabulary fund, borrowings, cultural relations.

Tarixi inkişaf prosesində hər bir dil müxtəlif dəyişmələrə məruz qalır. Dəyişmələr dilin ayrı-ayrı səviyyələrində özünü göstərir. Lakin ilkin dəyişmələr özünü bilavasitə dilin lüğət tərkibində biruzə verir. Dil tarixinin öyrənilməsi dilin mövcud olduğu müxtəlif dövrlərdə onda baş verən dəyişmələrin ümumi mənzərəsini açmağa imkan verir.

Dilin lüğət tərkibindəki alınmalar həm alınma mənbəyinə, həm də alınma dövrünə görə fərqləndirilir. Müasir ingilis dilində müxtəlif dillərdən alınmalar vardır. İngilis dilindəki alınmaları beş əsas qrupa birləşdirmək olar:

1) kelt dilindən alınmalar;
2) latın dilindən alınmalar (ümumiyyətlə latın alınmalarının üç qatı göstərilir. I qat bizim eradan əvvələ təsadüf edib bizim eranın VI əsrinə qədər bir dövrü əhatə edir, II qat V-VI əsrlərə, xristianlığın İngiltərədə yayıldığı dövrə aid edilir, III qat intibah dövrü ilə əlaqədar XV-XVI əsrlərdə ingilis dilinə keçmiş latın sözləridir);
3) skandinav dillərindən alınmalar;
4) qədim fransız (XII-XVəsrlər) və yeni fransız (XVI əsrdən sonra) dilindən alınmalar;
5) başqa dillərdən (yunan, italyan, holland, ispan, rus, alman, fars və s.) alınmalar Müasir ingilis dilində alınmalar sayca həm çoxluğu, həm də mənbə müxtəlifliyi ilə seçilir. Bu dildə dünyanın təqribən 50 dildən alınma sözlər vardır. Bu sözlər müasir ingilis dilinin lüğət tərkibinin, demək olarki, 70 %-ni təşkil edir. Qeyd olunan alınma sözlər ingilis dilinə müxtəlif dövrlərdə müxtəlif tarixi mərhələlərdə keçmişdir. Hər bir dövr özünə görə tarixi, sosial, iqtisadi, mədəni əlaqələri əhatə edir. Dil elementlərinin qeyri-müntəzəm inkişafı haqqında ümumi qanun görə dilin daha vacib elementləri təsirə tez məruz qalır. Dildə belə elementlər dilin lüğət tərkibinə daxil olan sözlərdir. Dilin qrammatikası isə kənar təsirə qarşı davamlıdı. Bu və ya digər dilin təsiri tarixi səbəblərlə - müharibələr, ərazinin işğalı, səyahət, ticarət və s. ilə əlaqədardır. Bütün bu hadisələr dillərarası əlaqələri sürətləndirir. Yeni alınma sözlərin intensivliyinin artması müxtəlif dövrlərdə fərqlidir. Konkret tarixi şəraitdən asılı olaraq alınma sözlərin sayı artır, ya da azalır. Bir dilin digərinə təsiri dil amili ilə bağlıdır. Qarşılıqlı əlaqədə olan dillərin yaxınlığı, yaxud uzaqlığı bu məsələdə əhəmiyyətli rol oynayır. Yaxın və qohum dillərin bir-birinə təsiri həmişə daha güclü və intensiv olur. Lakin dilin tarixi inkişaf prosesində dillərarası əlaqədə qohum dillər arasındakı əlaqə çox vaxt dominant səviyyədə olmur. Nəticədə müxtəlif sistemli, yaxud qohum olmayan dillər arasındakı əlaqə ön plana

keçir. İngilis dili də müxtəlif dillərdə qarşılıqlı əlaqədə olmuşdur. Bu əlaqələr ingilis dilinə təsir etmiş və bu dildə izini saxlamışdır.

İngilis dilini tarixinə görə üç dövrə bölürlər:

-qədim ingilis dövrü(VII- XI)

-orta ingilis dövrü (XII-XV əsrlər)

-yeni ingilis-XVI əsrlərdən başlanan dövr

Qədim ingilis dilinin leksik tərkibi əsasən bircinsli olub german mənşəli sözləri əhatə etmişdir. Bu sözlərin hind-Avropa dillərində oxşarları özünü göstərmişdir.

İngilis dilinin lüğət tərkibindəki alınmalar leksikanın elə sahələrini əhatə edir ki, onlar İngiltərənin tarixinin müxtəlif səhifələrindən xəbər verir, müxtəlif zaman kəsiklərində ingilis dilinə təsiri aydınlaşdırmağa imkan yaradır.

Dilin lüğət tərkibindəki alınmaları alınma mənbəyinə sözün alınmanın dildə mənimsənilməsi baxımından təsnif etmək olar.

Ona görədə ingilis dilinin müasir vəziyyəti bu dildəki alınmaları tarixi aspektdən nəzərdən keçirməyi tələb edir. İngilis dilində alınma dövrünə və mənbəyinə görə alınmaların aşağıdakı ardıcıllıqla araşdırmaq məqsədəuyğundur:

1) kelt alınmaları;
2) latın alınmaları;
3) skandinav alınmaları;
4) fransız dilindən alınmalar;
5) yunan dilindən alınmalar;
6) ərəb və fars dilindən alınmalar;
7) italyan, holland, ispan, rus, alman dillərindən alınmalar;
8) sovetizmlər;
9) müasir dövrdə baş vermiş hadisələrlə bağlı alınmalar;

Eramızın V əsrindən anql, saks və yutlar Britaniyaya köçmüşlər. Britaniyanın dağ rayonları –Şotlandiya, Uels və Kornuoll istisna olmaqla german tayfaları burada belə yerləşmişdir:anqlar Şotlandıyanın sərhəddindən Temza vadisinədək, sakslar Temza vadisindən və ondan cənubda, yutlar adanın cənub şərq hissəsində məskunlaşmışlar. Linqvistik məlumatlar qədim ingilis dilində Friz elementlərinin olduğunu da təsdiq edir. Göründüyü kimi, qədim ingilis dili müxtəlif tayfaların yayıldıqları ərazilərdəki dialektlər şəklində inkişaf keçmişdir.

Qeyd olunan tayfaların Britaniyaya köçməsi nəticəsində kelt əhalisi (brit və qall) qərbə və şimala sıxılmışdır. Hec şübhəsiz ki, sıxışdırma dərhal baş verməmişdi də dillər arasında əlaqələr yaranmışdır. Bu dil əlaqələri prosesində gəlmələrin dilləri dominant mövqeyi tutmamışdır. Kelt sözlərinin ingilis dilinə keçməsi də bununla əlaqədardır. Buna baxmayaraq ingilis dilindəki kelt alınmaları çoxluq təşkil etməmiş, daha çox toponimlərdə qorunub qalmışdır. Müasir dövrədək gəlib çıxmış kelt alınmalarının vapposk(fətir), down, dune (təpə), dun (qəhvəyi) sözlərini nümunə göstərmək olar.

Sonrakı dövrlərdə tərkibində keltizmlər olan sözlər Şotland dilindən (məs., slogan, Whisky, clan), irland dilindən (məs., bard, fun, Tory) və fransız dili vasitəsilə alınmalar (məs., beak, budget, career, gravel, harness, tunnel) ingilis dilinə daha çox daxil olmuşdur.

Latından alınmış castrum (qala, fort) sözünün cəm forması olan castra sözündən qədim ingilis (ceaster) və müasir ingilis (caster) variantları qeydə alınır. Jhaster sözü bir sıra coğrafi adların tərkibində işlənir. Məs, Lanhcaster, Dorchester, Manchester, Winchester. Bu qrupdan olan bütün sözlər şifahi yolla alınmış və tam assimilasiyaya uğramışdır. Həmin sözlər ingilis dilinin qrammatik quruluşuna tam tabe olmuş, latın dilinə xas qrammatik formalarını isə itirmişdir. Latın alınmalarının birinci layına mənsub sözlər ingilis dilinin inkişaf tarixi boyu tələb olunan bütün fonetik dəyişikliklərə məruz qalmışdır.

Latın alınmalarının ikinci qatını əhatə edən sözlər ingilis dilinə 596-cı ildən xristianlığın qəbul edilməsindən sonra daxil olmuşdur. Birinci layda olduğu kimi bu laydakı sözlərdə əsasən təkhecalı olub şifahi yolla dilə keçmişdir. Onların əksəriyyəti konkret anlayışlar ifadə edir. Qədim ingilis dilinin leksik tərkibi daha bircinslidir və buradakı alınmalar əsasən isimlərdir. Bununla yanaşı, həmin dövrə məxsus alınmalar içərisində üç fel qeydə alınır:to offer, to spend, to shrive. İlkin dövrdə alınmış latın sözləri həm formalarına, həm də mənalarına görə sonralar əhəmiyyətli dərəcədə təkamülə uğramışdır.

Qədim ingilis dilində latın alınmalarının üç layından birincisi bizim eranın 800-cü ilinə qədər olan alınmalardır. Bunlar kelt dili vasitəsilə ilə keçmiş, elecə də romalıların Britaniyadakı hökmranlığı ilə bağlı olmuşdur. Nəzərə almaq lazımdır ki, bu sözlərin anql və saksların dilinə onlar bu yerlərə köçməmişdən də gələ bilərdi.

Məlumdur ki, eramızın birinci dörd yüzilliyində romalılar Britaniyada hakimiyyətdə olmuşlar. Təbii ki, romalılar həmin dövrdə german tayfalarına nəzərən daha böyük maddi mədəniyyətə malik idilər. Ona görə də ingilis saksonlara məlum olmayan əşya və anlayışlara aid adlar bu mədəniyyətdən keçmişdir. Məsələn, şərab-wine(müasir ing.), win(qədim ing.), winum(lat.);mil(uzunluq vahidi), mile (müasir ing), mil (qədim ing), milla (lat);liman-port-portus (lat)

Anql, saks və yutlar Britaniya adlarına köçməmişdən əvvəl romalılarla ticarət əlaqələrində olmuşlar.

Latın dilindəki alınma sözlərin müəyyən hissəsi bu və ya başqa fonetik cilddə, qrammatik quruluşda və mənada bir çox dillərdə rast gəldiyindən internasional sözlər cərgəsində yer tutur. İnternasional sözlərin əsas hissəsi latın mənşəlidir. Müasir elmlərin çoxunda latın mənşəli terminlər müəyyən çəkiyə malikdir. İngilis dilində latın mənşəli olan alınmalara **obliqation,**

constitution, alibi, microscope, modern, laboratory, proqramm, system, socialism, communism, climatk, raqius, tradition və s. misal ola bilər.

VII əsrdə skandinavların Britaniya adalarına hücumları artmış və 1017-ci ildə İngiltərə Danimarka krallığına tabe edilir. Bu dövrdə həm Danimarka, həm də ingilis xalqları ictimai və istisadi cəhətdən eyni səviyyədə idilər. Onların dilləri də qohum dillər ailəsinə mənsub idi.

Skandinav dillərindən qədim ingilis dilinə keçən sözlər mənşəcə dilin özünə aid sözləri sıxışdıraraq sıradan çıxarmış, bəzi sözlər isə semantik dəyişmələrə uğramışdır. Danimarka və ingilis dillərinin yaxınlığı semantik alınmaların sayının daha çox artmasına, elecə də onların semantik dəyişməyə məruz qalmasına səbəb olmuşdur. Saitlərdən əvvəl (sk) samit birləşməsi də bu dövrə aiddir. Qeyd olunan birləşmə skandinav alınmalarının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Bununla yan-

aşı, qeyd etmək lazımdır ki,(sk) birləşməsi yalnız skandinav sözlərinə şamil edilməmişdir. Birləşmə başqa dillərdən alınmalarda da özünü göstərir.

1066-cı ildə İngiltərədə normanların hakimiyyəti qərarlaşır. Bu isə ingilis dilinə fransız dilinin təsir göstərməsinə yol açır. Sonralar ingilis dili ölkədə hegemon mövqeyə keçəndə fransız dilindən alınma siyasi terminlərin böyük əksəriyyəti dildə qalır. Beləliklə, fransız-ingilis dil əlaqələrinin bu dövründə ictimai-siyasi sahədə fransız alınmalarının daha çox olması müşahidə edilir. Məsələn, feodal münasibətlərlə bağlı sözlər:**feudal, baron, vassal, lieqe, chvalry.** Belə sözlərdən bir qismi sonralar daha ümumi məna kəsb etmişlər. Məsələn, **obey, serve, noble, qlory, command, danqer.**

İngilis dilində işlənən titulların böyük əksəriyyəti **kinq, queen, earl, lord, lady** istisna olmaqla norman-fransız mənşəlidir. Dövlət idarəçiliyi ilə bağlı (**people, nation, government, curt**) pul münasibətlərini ifadə edən **money, property** sözləri də fransız mənşəlidir. Ailə münasibətləri bildirən **parnet, spouse, cousin, uncle, niece** sözləri də həmin qəbildəndir.

Onu da qeyd etmək lazımdır ki, o dövrün fransız dili özü alınmalardan xali deyildi. Bu dildə alman alınmaları müəyyən çəkiyə malik olmuşdur. İngilis dilində yer almış **blank, blanket, blue, coat, danse, garden, gay, pocket, ticket** kimi sözlər alman mənşəli olub fransız dili vasitəsilə ingilis dilinə keçmişdir.

Ədəbiyyat

1. Обшее языкознани внутренняя структур языка. М.,1972, с.517
2. В. А. Успенский: «Структурная типология языков». М., 1955.
3. Н. С. Турбецский: «Основы фонологи». М., 1960

Расмия Бабаева

Языковые связи Английского языка и его этимология

Резюме

В статье рассматриваются исторические языковые вязи английского языка и его этимологические состояния с прошедшего до настоящее время.

В статье также анализируются некоторые заимствованных слов из кельтского, латинского, французского и других Западноевропейских языков. Кроме того, исследуются исторический этап английского языка, который делятся на 3 группы – старинный английский язык, средневековый английский язык и новоанглийский язык.

Rasmiyya Babayeva

Lingual relations of English and its etimology

Summary

The article speaks about the historical linguistie relations of English and its etimological situation from past till present time. The atricle analyses some borrowings from Celt, Latin, French and some other Westorn-European languages. Besides this, historical Phases of English are which divides 3 groups – old English, middle age English, and new English.

Rəyçi: Rəfiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

ZAMİRƏ MƏMMƏDOVA
ADİU

MÜASİR DİLÇİLİKDƏ LİNQVOKULTUROLOJİ ASPEKTLƏR

Açar sözlər: dilşünaslıq, ingilis dili, linqvokulturologiya, nitq mədəniyyəti.
Ключевые слова: лингвистика, английский язык, лингвикултурология, культура речи.
Key words: linguistics, English, linguicultrerology, speech culture.

XX yüzilliyin son illəri ikinci dilin öyrənilməsi zamanı kommunikativ kompetensiyanın formalaşması amillərindən biri kimi mədəniyyətlərin qarşılıqlı əlaqəsi probleminə alimlərin xüsusi marağının yaranması ilə xarakterizə olunur.

Əgər yaxın keçmişdə xarici dilin tədris metodikasında dil kompetensiyasının formalaşdırılması məqsədi ilə qrammatiklaşdırma halları (dil sistemini, onun funksional-nitq müxtəlifliyini, düzgün təşkilini, semantikasını, dil vahidlərinin nitqdə istifadə olunmasını və fəaliyyətini, nitqin əmələ gəlmə qaydalarını bilmək) üstün idisə, hal hazırda kurs kommunikativ kompetensiyanın formalaşdırılmasına yönəlib. Lakin, məlum olduğu kimi dil kompetensiyası adekvat ünsiyyəti təmin edə bilməzdi, danışan və dinləyən üçün onlar üçün ümumi olan kodları bilmək kifayət deyil, bundan əlavə ümumi fon biliklərinin mənimsənilməsi də zəruridir, çünki nəyi nə vaxt deməyi, hər bir situasiyada hansı sosiolinqvistik amillərdən istifadə etmək lazım olduğunu bilmək zəruridir.

Müasir linqvometodika milli mədəniyyətin translyasiyası şəxsiyyətin formalaşmasından biri kimi milli-mədəni komponentin dilin tədrisinə daxil edilməsinin zəruriliyini qəbul edir, belə ki, milli mədəniyyət özündə humanitar fənlərdə sona qədər tələb edilməyən amil kimi qalan böyük sosial-pedaqoji potensial daşıyır.

V.Fon Humboldtun fikrincə dil – millətin mənəvi gücünü formalaşdıran bir fəaliyyətdir və eyni zamanda bir prosesdir, mənəviyyətin fəaliyyyətidir. Mənəviyyatın hərəkəti – xalqın mədəniyyətini ifadə edən təfəkkürün, intellektin yaradıcılığıdır. Mədəniyyət dildən asılıdır və dilə təsir göstərir. Təsadüfi deyil ki, müasir mərhələdə tədris metodikası xarici dilin tədrisi zamanı milli mədəniyyət probleminə böyük maraq göstərir.

Dilin, onun tarixinin və bu dildə danışan xalqın tarixinin öyrənilməsi "mədəniyyət" anlayışı ilə ayrılmaz surətdə bağlıdır. Şəxsiyyətlərin yaxınlaşdırılması prosesi "yad mədəniyyətə qapılmaq" və öz mədəniyyətini unutmaq anlayışı ilə deyil, başqa mədəniyyətə hörmətli münasibətlə əlaqəlidir. Xalqın mədəniyyətinin və dilin qarşılıqlı təsir prosesi bir aksiomadır, belə ki, mədniyyət "dünyanı görmə, onu təsvir etmə, dünya ilə qarşılıqlı təsir üsuludur və bu qarşılıqlı təsirin nəticəsidir".

Təcrübə sübut edir ki, tələbələrdə ikinci dilə olan maraq o zamanalınır ki, tədris zamanı ölkəşünaslıq və doğma mədəniyyətlə bağlı materiallar da paralel olaraq tədris edildin. Belə yanaşma ikinici dili öyrənənlər üçün böyük tərbiyəvi-etik əhəmiyyətə malikdir, ümumi qanunauyğunluqları ortaya çıxarmağa,

son nəticədə isə mədəniyyətlərin anloqunu aparmağa, polimədəni sosiumun hormonik olaraq eyni zamanda mövcudluğuna kömək edir.

Xalqın dilini və mədəniyyətini öyrənərək tələbələr dünyanın şəklini mənimsəyir, ətraf aləmi başqa bir mədəniyyətin daşıyıcısı olan xarici dildə ünsiyyət qurana qədər gördüklərindən fərqli olaraq bir qədər başqa zamanda görürlər. Dilin müxtəlif xalqlarda təfəkkürün quruluşu və ətraf aləmi dərk etmə üsulu ilə necə qarşılıqlı münasibətə girməsinin parlaq nümunəsi vaxt anlayışıdır. "vaxt – puldur" - ingilis dilli mədəniyyət üçün tipik bir söz birləşməsidir, lakin cənubi Avropa bu anlaışı qiymətləndirmir. "dəqiqlik" sözündə də müxtəlif mənalar tapılar. Almanlar üçün bu görüşə təyin edilmiş vaxtda gəlmək, yaponlar üçün – görüşə on dəqiqə qalmış gəlmək, italyanlar üçün isə - iyirmi dəqiqə gecikmək deməkdir.

Tədris edilən dildə və ədəbiyyatda (şifahi xalq yaradıcılığı materialları, mətnlər və.s) əks olunan mənəvi dəyərlərə qoşulma başqa bir mədəniyyətə daxil olma deməkdir,belə ki, elmdə dilin və mədəniyyətin, dilin və cəmiyyətin vahidliyi problemi qeyd edilir.

Dil milli mədəniyyətin qoruyucusudur, buna görədə xarici dili təkcə öz fikirlərini, hisslərini ifadə etmək üsulu kimi deyil, həmçinin tədris olunan dilin xalqının mədəniyyəti haqqında məlumat alma mənbəyi kimi də öyrənmək lazımdır. Hər bir mədəniyyətin öz açar sözləri vardır: almanlar üçün – bu dəqiqlik və intizam, amerikanlar üçün – fərdilik və məxfilik, yaponlar üçün – kollektiv və komanda işidir. Mədəniyyətin açar sözü olmaq üçün söz ümumişlək olmalıdır, frazeoloji vahidlərin və atalar sözlərinin tərkibində olmalıdır.

Linqvokulturologiya (linqvomədəniyyət) – xalqın, onun dilində möhkəmlənən mədəni irsini öyrənmək məqsədi ilə bir çox qohum dilləri birləşdirən bütöv bir linqvistik və kultroloji fənndir. Dil ətraf aləm haqqında məlumatları qorumağa və nəsildən nəsilə ötürməyə qadirdir. Qeyd etmək lazımdır ki, bizim dövrümüzdə linqvokultrologiya nəzəriyyəsi təşəkkül tapmış hesab edilir və bu sahədə kifayət qədər işlər toplanmışdır (Y.N.Karaulov, V.Q.Kostomarov, E.M.Vereşaqin, V.İ.Koduxov, L.Q.Sayaxova, R.Q.Xayrullina və.b).

Dili və mədəniyyətin, dil və cəmiyyətin qarşılıqlı təsiri ilə linqvistika, sosiologiya, sosiolinqvistika, psixologiya, psixolinqvistika, linqvodidaktika, etnilinqvistika, etnopsixolinqvistika kimi elmlər məşğul olur ki, bunların əsasında da yeni istiqamət – linqvokultrologiya (linqvomədəniyyət) yaranmışdır. Dünyanın dil mənzərəsi, yəni etnosun onun dilində ifadə olunan maddi, mənəvi mədəniyyəti tədqiqat predmetidir. Y.V.Bromleyin hesab etdiyi kimi linqvokultrologiyanın tədqiqat predimetinə - "əmək alətlərindən məişət alətlərinə kimi, insanların adət-ənənələrindən, həyat tərzindən elm və mədəniyyətə, din və ateizmə, mənəviyyat və fəlsəfəyə qədər" hər şeyi aid etmək olar. Ümumi plandalinqvokultrologiya "dünyanın dil mənzərəsi", "dil şəxsiyyəti" anlayışlarını özündə birləşdirir.

İnsanın onu əhatə edən dünya ilə qarşılıqlı əlaqəsi "dünya mənzərəsi" anlayışı ilə uyğun gəlir. Indi linqvistikada eyni zamanda "dünyanın milli mənzərəsi" geniş istifadə edilir ki,bu da əsrlərlə təşəkkül tapan adə-ənənələr və mərasimlər, həmçinin xalqın həyat tərzini əhatə edəncoğrafi yerləşməsi ilə

qarşılıqlı əlaqədə formalaşmışdır. Dünyanın milli mənzərəsi dil olmadan formalaşa bilməz. Dil – idrak vasitəsidir. Onun nəticələrini qeyd edir, dünya görüşünün spesifik milli xüsusiyyətlərini əks etdirir.

Dünyanın dil mənzərəsini təsvir edərkən kultroloji amil dilin bütün səviyyələrində öz əksini tapır, daha aydın isə o leksika və frazelogiyanın tərkibində təzahür olunur. Qərb mədəniyyətində "insan – kainatın sahibidir" anlayışı mövcuddur, çünki dildə self –(öz) önşəkilçisi ilə başlayan çox söz vardır – öz müqəddəratını təyin etmə, özünütərbiyə, hətta self-made man, bu da o deməkdir ki,insan özünü inkişaf etdirərək həyatda çox şeyə nail olmuşdur."insan – təbiətin hakimidir" anlayışının mövcud olmadığı şərq mədəniyyətlərində insanın xarici aləmlə birlikdə daha harmonik mövcudluğu üstünlük təşkil edir. Belə mədəniyyətlərin dillərində siz böyk hərflə yazılan "mən" sözünə rast gəlməyəcəksiniz.

Linqvokultroloji (linqvomədəni) tələbat və insanın başqa bir dili və başqa bir mədəniyyəti mənimsəmək qabiliyyəti ondan xəbər verir ki,xarici dil dərslikləri iki dilin, iki mədəniyyətin (doğma və xarici) görüşünə çevrilməlidir. Didaktika nöqteyi nəzərdən biz hətta triada haqqında da danışa bilərik: tələbələrin mədəni şüuru tədris olunan dilin daşıyıcılarının şüuru və müəllimin şüuru. Bu zaman tələbənin onu dərk etmək imkanı vardır ki, o da ümumi insanı tələbatları və marağı əks etdirir. O, öyrənilən dilin daşıyıcılarının görüş dairəsini zənginləşdirən idrakı dəyərlər kimi təqdim edilməlidir. Dil digər mədəniyyətə mənsub olan insanlarla ünsiyyət, dialoq yaratmaq üçün, öz özünü, öz mədəniyyətini daha yaxşı dərk etmək üçün öyrənilir.

Linqvokultroloji aspektlərin əhəmiyyəti milli dillərə diqqəti artırmaqla təhsil sisteminin yeniləndirilməsi tentensiyası ilə bağlıdır. Son illərdə dilin qrammatik qaydalarının və qanunlarının sadə formada öyrənilməsi deyil, kommunikativ bacarıqların formalaşması, yəni dilin ünsiyyət vasitəsi kimi mənimsənilməsi tendensiyası meydana gəlir.

Ali məktəblərdə dilin tədrisinin linqvokultroloji aspektləri nitq aspektini, realiyaları, dil vahidlərinin milli-mədəni komponentlərini özündə birləşdirməlidir. Söz –realiyalar leksikanın milli-mədəni təbəqəsini əhatə edir, yəni həyatın real obyektlərini, xalqın həyat tərzini adlandıran sözlər, söz birləşmələri. Folklor nümunələri, dini anlayışlar, bayramlar xalqın milli xüsusiyyətlərinin, həmçinin antropoloji, etnoqrafik və başqa materialları əks etdirən memarlıq və mədəniyyət abidələridir.

Qeyd edildiyi kimi mədəniyyətin dialoqu tələbələr üçün xarici diin tədrisində linqvokultroloji aspektin reallaşdırılması xüsusiyyətlərindən biridir. Mədəniyyətlərin dialoqu ikitərəfli ikidilliliyin formalaşmasına və təşəkkül tapmasına səbəb olur.

Müxtəlif sosiolinqvistik şərtlərdə mədəniyyətlərin dialoqu müxtəlif formalarda həyata keçirilir. Bəzi regionlarda millətlərarası qarşılıqlı münasibətdə milli məsələlərin kəskinləşməsi şəraitində mədəniyyətlərin dialoqu xüsusi əhəmiyyət kəsb edir və xalqlar arasında münasibətlərin harmonizasiya funksiyasını yerinə yetirə bilər ki, bu da "etnomədəni dözümlülüyün" tərbiyyə edilməsi üçün çox vacibdir. Digər xalqın dilinin və mədəniyyətinin öyrənilməsi nəinki qeyri –milli mədəniyyətin dərk edlimə vasitəsidir, eyni zamanda

doğma mədəniyyəti daha dərindən dərk etmə üsuludur. Bununla əlaqədar olaraq L.V.Şerbanın sözlərini yada salmaq yerinə düşərdi: xarici dili bilmək doğma dilin xüsusiyyətlərini daha yaxşı öyrənməyə kömək edir, öz dilinə başqa bir tərəfdən baxmaq imkanları verir.

"Əgər doğma dil və mədəniyyət şəxsiyyətin sosiallaşmasının əsasını təşkil edirsə, başqa xalqın dilinin və mədəniyyətinin dərk edilməsi – mədəniyyətlərarası ünsiyyətlərin əmələ gəlməsinə və bu ünsiyyət prosesi nəticəsində bilinqival (multilinqival) şəxsiyyətin təşəkkül tapmasına şərait yaradır".

Beləliklə, auditoriyada xarici dilin linqvokultroloji aspektinin mahiyyəti özündə aşağıdakıları birləşdirir:

- mövzu ilə tanışlıq – öyrənilən dilin daşıyıcılarının milli-mədəni xüsusiyyətlərinin təsəvvür edilə biləcəyi bədii ədəbiyyat nümunələri ilə;
- xalqin həyat tərzi, məişəti, adətləri, milli psixologiyası haqqında təsəvvürlərin formalaşması və mövcud biliklərin doğma mədəniyyət haqqında biliklərlə müqayisə edilməsi;
- öyrənilən dilin daşıyıcıları ilə ünsiyyət qurmağı asanlaşdıran qeyri-verbal vasitələrin mənimsənilməsi.

Ədəbiyyat

1. В.А.Маслова, Лингвокулътурология, Москва 2001.
2. В.В.Воробъев, , Лингвокулътурология, , Москва 2008.
3. В.фон Гумболт, Язык как философия кулътуры. Москва, 1985.
4. Ю.В.Бромлей, Р.Г.Подолский, Создано человечством. Москва 1984.
5. Л.В.Щебра, Как надо изучат ъ иностранные языки. М., 1929.
6. Е.М.Верещагин, В.Г.Костомаров, Лингвостранноведческая теория слова М., 1980.

Замира Мамедова

Аспекты лингвокультурология в современном лингвистике

Резюме

В статье рассматривается некоторые аспекты в современном лингвистике, изучается различные виды речевой культуры, а также изучается мысли и мнение различных ученых исследователей зарубежных стран, исследуется практический курс студентов и магистров в этой области и отдельно дается оценки философский взглядов лингвикультурологии.

Zamira Mamedova

Aspects of linguicultrerology in contemporary linguistics

Summary

The article speaks about some aspects of contemporary linguistics, it teaches different kinds of speech culture, also ideas and thoughts of various scientist – investigators of foreign counrties, it investigates practical course of student and magistres in this field and it apartly appreciatcs philasophical linguicultrerology.

Rəyçi: b/m Nailə Qədimova

SEVİNC SADIQOVA
filologiya üzrə fəlsəfə doktoru
i-mail: sevincsadigova@gmail.com.

QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI ƏRAZİSİNDƏ ETNONİMLƏRDƏN, ANTROPONİMLƏRDƏN, HİDRONİMLƏRDƏN, ORONİMLƏRDƏN, ZOONİMLƏRDƏN, FİTONİMLƏRDƏN, OYKONİMLƏRDƏN TÖRƏNƏN ORONİMLƏR

Açar sözlər: oronim, leksik-semantik xüsusiyyətlər, hidronim, zoonim, fitonim.
Key word: oronym, lexico-semantic features, hidronym, zoonym, fitonym.
Ключевые слова: ороним, лексико-семантические особенности, гидроним, зооним, фитоним.

Dərələyəz mahalının toponimlərini öyrənmək, onların spesifik xüsusiyyətlərini üzə çıxarmaq üçün yalnız oykonimlərin – şəhər, kənd, qəsəbə adlarının öyrənilməsi kifayət deyil. Bu yerlərin toponimlərinin linqvistik xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi üçün digər toponimləri – oronimləri də tədqiqata cəlb etmək zəruridir. Oronimlər relyef quruluşuna görə bir-birindən fərqlənən yer adlarıdır. Oronim dedikdə dağ, təpə, zirvə, qaya, yarğan, aşırım, yoxuş, eniş, dərə, düz, qobu, örüş, kövşən, meşə, otlaq, biçənək, çöl, sahə və s. adları nəzərdə tutulur. Dərələyəz mahalının təbii şəraiti, coğrafi obyektlərin zənginliyi rəngarəng coğrafi adların yaranmasına səbəb olmuşdur (1.53-59).

"Qərbi Azərbaycanın digər yerlərində olduğu kimi, Dərələyəzdə də hər daşın, hər qayanın, hər gədiyin, hər enişin, hər yoxuşun, hər biçənəyin öz adı vardır. Kənd ərazilərində işlənən bu yer-yurd adlarına elmi ədəbiyyatda mikrotoponim deyilir. Kiçik bir qrup insanlara məlum olan mikrotoponimlərdə dilimizin bir çox qatlarındakı leksik vahidlər, şivə xüsusiyyətləri, yerli coğrafi terminlər və müəyyən tarixi hadisələr öz ilkin formasını qoruyub saxlayır" (2.478).

Hər bir xüsusi ad - onomastik vahid leksik vahidlərin xüsusiləşdirilməsi nəticəsində formalaşır. Oronimlərin formalaşmasında iştirak edən leksik vahidlərin ilkin formalarının aşkar edilməsi, onların xüsusi vahidlərin formalaşmasında, iştirak etmə səbəbinin müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən oronimləri leksik-semantik qruplara ayırmaq vacibdir.

Azərbaycan dilçiliyində, toponimika sahəsində aparılan tədqiqatlarda oronimlərin leksik-semantik xüsusiyyətlərinə görə qruplaşdırılması az öyrənilən sahələrdəndir. Bu sahə ilə bağlı N.Məmmədov oronimləri aşağıdakı prinsiplərə uyğun qruplaşdırmışdır:

1. Oronimlərin dil mənsubiyyəti.
2. Oronimlərin yaradılmasında coğrafi terminlərin rolu.
3. Oronimlərin ad verilmə səbəblərinə görə təsnifatı.
4. Azərbaycanda bəzi oronimlərin mənşəyi (3.180).

Bundan başqa, bir çox dilçilər, toponimistlər toponimlərin leksik-semantik qruplarına aid müxtəlif bölgülər vermişlər. Qərbi Azərbaycanın Dərələyəz mahalı ərazisindəki oronimləri nəzərdən keçirdikdən sonra, onları aşağıdakı leksik-semantik qruplara ayırmağı məqsədəmüvafiq hesab edirik:

1. Etnonimlərdən törənən oronimlər;
2. Antroponimlərdən törənən oronimlər;
3. Hidronimlərdən törənən oronimlər;
4. Oronimlərdən törənən oronimlər;
5. Zoonimlərdən törənən oronimlər;
6. Fitonimlərdən törənən oronimlər;
7. Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimlər;
8. Oykonimlərdən törənən oronimlər;
9. Apelyativ leksik vahidlərdən törənən oronimlər;

Etnonimlərdən törənən oronimlər: Məlumdur ki, tayfa və nəsil adlarından törənən onomastik vahidlər tarixi baxımdan daha qədim hesab olunur. Dərələyəz ərazisində qeydə alınmış *Xalaclar yurdu, Xalaclar arxacı, Təhlə düşən yurd, Kəngərli yeri, Oğuz üzü kaha, Xaç düzü, Xaç dərəsi, Qazaxlar yurdu, Qazax dərə, Qısır dağ, Qısır yurd, Cığatay yurdu, Əyricə yaylağı, Əyricə dağı, Vers dağı, Versin çınqılı, Çıraqlı dərəsi, Çıraqlı yurdu* kimi oronimlər çox qədim dövrlərdən məlum olan etnonimləri özündə yaşadırlar.

Antroponimlərdən törənən oronimlər: Dərələyəz mahalındakı oykonimlər kimi, oronimlərin də formalaşmasında antroponimlər geniş şəkildə iştirak etmişdir. Qeyd etmək lazımdır ki, digər qruplara nisbətən, antroponimlərdən törənən oronimlər miqdarına görə çoxluq təşkil edir. Belə ki, Dərələyəz ərazisində qeydə aldığımız antroponimlərdən törənmiş oronimlərin sayı 400-dən çoxdur. Onların birinci komponentləri şəxs adı – antroponim, ikinci komponentləri isə ərazinin relyef quruluşunu əks etdirən müxtəlif sözlərlə (topoformantlarla) ifadə olunur. Bu topoformantlardan dağ *(Abduləsər dağı)*, dərə *(Əli dərəsi)*, təpə *(Qurban təpəsi)*, qaya *(Gəncimalı qayası)*, yal *(Məmərza yalı)*, kaha *(Əlinin kahası)*, düz *(Səfi düzü)*, gədik *(Zamanın gədiyi)*, güney, quzey *(Vəli güneyi, Qaraxan quzeyi)*, çınqıl *(Hüseynalı çınqılı)*, biçənək *(Məhəmmədəli biçənəyi)*, yer *(Sultanın yeri)*, aşırım *(Biniş qəbri aşırımı)*, kalafa *(Mirzənin kalafası)*, yurd *(Fətəli yurdu)*, meşə *(Abtalıb meşəsi)*, yol *(Əlidərəsi yolu)*, arxac *(Vəlibəy arxacı)*, dem *(Rəfinin demi)*, çeyil *(Abduləlinin çeyili)*, gəz *(Xıdırın gəzi)* və s. misal göstərmək olar.

Bunlardan başqa antroponim əsasında yaranmış oronimlərdən, Dərələyəz mahalı ərazisində *Səfi binəsi (Axta), Hacı Qasımlı zolağı (Ardaraz), Məmməd Həsənin yoncalığı (Çivə), Həsənalı zağası (Ertiş), İsmayılın yastanası (Ələyəz), İbişin söyüdlüyü (Gülüdüzü), Təhməzin bərəyəsi (Gülüdüzü), Calalın qumu (Gülüdüzü), Hüseynin qumu (Gülüdüzü), Əsdanın yolyenəni (Gülüdüzü), Bəylərin yolaşanı (Gülüdüzü), Alışan qoruğu (Heşin), Mahmuddu yaylağı (Horbadığ), Namazın şumu (Hosdun), Qanlı Eyvaz ağacı (Hosdun), Hacıəsədin mağarası (Qalaser), Kalbahüseyn dolayısı (Qoduxvəng), Həsən qayasının başı (Qoduxvəng), Cəlilin şamı (Qovuşuq), Vəlibəy yaylağı (Qozulca), Hüseynin çöpləri (Məmərza), Təhməzin bərəsi (Nəbilər), Pərinin armudluğu (Nəbilər)* kimi oronimlər də qeydə alınmışdır ki, bunlar da ismi birləşmə modelində formalaşmışdır.

Dərələyəz mahalı ərazisində antroponimlərdən törənərək feli birləşmə modelində olan oronimlərə də rast gəlirik: *Məmmədalı əkən (Heşin), İbrahim əkən (Qovuşuq)* və s.

Hidronimlərdən törənən oronimlər: Dərələyəz mahalı ərazisində xeyli miqdarda oronimlər vardır ki, bunlar hidronimlər əsasında yaranmışdır. "Dil və

onun daşıyıcılarının tarixini, tarixi coğrafiyasının, etnoqrafiyasının və s. məsələlərini həll etməkdə hidronimlər mühüm vasitələrdəndir. Bu və ya başqa ərazinin (hidronimik səciyyəsində) su hövzələrinin və su mənbələrinin bütöv şəkildə qeydə alınması vacib məsələdir. Hər bir ölkənin hidronimləri mürəkkəb tarixi inkişafın nəticəsi olub müxtəlif qədimlik dərəcəsinə malik, müxtəlif mənşəli qat və mərhələlərdən ibarətdir" (4.111).

Hidronimlər oronim yaradıcılığında da məhsuldar iştirak edir. Dərələyəzin hidrooronimlərini yaranma yollarına görə, əsasən, iki növə ayırmaq olar:

1. morfoloji yolla əmələ gələn hidrooronimlər (Novlar, Kəhrizli və s.);
2. sintaktik yolla əmələ gələn hidrooronimlər (Sulu dərə, Çay arxac və s.).

Oronimlərdən törənən oronimlər: Oronimlərin coğrafi landşaftın ayrı-ayrı obyektlərinin, torpağın üst qatının relyef quruluşunun adlarını bildirməsi məlumdur. Dərələyəz mahalı ərazisinin oronimlərini araşdırarkən məlum olur ki, onların bir qismi relyef bildirən sözlər və adlar əsasında yaranmışdır. Yəni bu adları oronimlər əsasında yaranmış oronimlər və ya oronimik oronimlər adlandıra bilərik. Bu qəbildən olan adları iki qrupa ayırmaq olar:

I. Müəyyən bir oronim digər oronimin yaradılmasında iştirak edir:

Ağ yarğan - Ağ yarğan dağı,
Pələng dərəsi – Pələng dərəsi dağı,
Dik daş – Dik daş dərəsi,
Göy kab – Göy kab çınqılı və s.

II. Coğrafi obyektlərin tipini bildirən terminlər oronimlərin adlandırılmasında iştirak edir:

gədik, çınqıl – Gədik çınqılı;
dağ, arxac – Dağ arxac;
dərə, yer – Dərə yerləri;
yazı, yurd – Yazı yurdu;
yarğan, dərə - Yarğan dərəsi və s.

Bu oronimlərin komponentləri, adətən, dağ, dərə, təpə, yarğan, qaya, daş, yol, yal, gədik, dolay, zağa, kaha, qobu, yayla, çayır, biçənək, arxac, yataq, ağıl, kalafa, çala, çökək, çuxur, tap, taxta, binə, çınqıl, yastana, örüş, yazı, kaha, tala, gəz və s. sözlərdən ibarət olur.

Zoonimlərdən törənən oronimlər: Zoonimlərdən törənən oronimlər də Dərələyəz toponimləri arasında kifayət qədərdir. "Heyvan, quş, balıq, həşərat və s. canlıların adları əsasında düzələn toponimlər zootoponimlər adlanır. Tarixən xalqımızın iqtisadi həyatının bir hissəsini heyvandarlıq təşkil etmişdir. Bununla əlaqədar olaraq bir sıra yaşayış məskənləri, yer adları əmələ gəlmişdir" (5.331).

Bu xüsusiyyət Dərələyəz zooooronimlərinin bir qisminə aiddir, çünki bu qrupa daxil olan oronimlərin digər bir qismi vəhşi heyvan adları (*Qurd təpəsi, Pələngənin güneyi, Ayı çınqılı*), başqa bir qismi gəmirici və sürünənlər adlarını (*İlanlı dağ, Siçanlı yurd*), həşərat adlarını (*Gənəli yurd, Birəli dağ, Böcəkli yurd*), quş adlarını (*Bildirçinli yer, qaraquş qayası, Qaz kahası qayası, Humay quşun qayası* və s.) əks etdirir.

Fitonimlərdən törənən oronimlər: Dərələyəzin zəngin flora və faunası onun oronimlərində də əks olunmuşdur. Fitooronimlərin formalaşması həmin ərazidə olan bitkinin daha çox olması ilə bağlıdır. Oronimin adlandırılmasında bitkinin hə-

min ərazi üçün xarakterik olması əsas götürülür. Beləliklə, bitki adları əsasında oronim formalaşmış olur. Dərələyəz ərazisindəki fitooronimlər iki yolla yaranmışdır:

1. morfoloji yolla (*Almalıq, Gərməşovluq, Zirinclik, Gilənarlı, Qarağaclar* və s.);
2. sintaktik yolla (*Çivişli yurd, Kolluq dərə, Qarağac dərəsi, Şam meşəsi, Həmörsünlüyün biçənəyi, Alçalığın dərəsi*).

Ümumiyyətlə, Dərələyəzin zəngin bitki aləmi oronimlərin adlandırılmasında da öz əksini tapmışdır.

Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimlər: Dərələyəz mahalı ərazisində bir sıra oronimlər vardır ki, bunlar müəyyən hadisə ilə əlaqədar olaraq yaranmışlar. Bu qəbildən olan oronimlərin birinci komponenti, yəni baş verən hadisəni əks etdirən sözlər feli sifət tərkibi ilə, ikinci komponentləri isə topoterminlərlə ifadə olunur: Qız ölən yaylaq (Ayısəsi), Xanpərini ilan vuran dərə (Ələyəz), Təkədonduran qaya (Ələyəz), Qurban kəsilən dərə (Qovuşuq), Rus qırılan qaya (Qovuşuq) və s.

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, bu qəbildən olan adların böyük bir qismi topoterminsiz işlənir. Yəqin ki, yarandığı dövrdə bu oronimlər topoterminlə işlənmiş, sonradan danışıq prosesində topotermin ixtisara düşmüşdür. "Bir qisim mikrotoponimlərin birinci tərəfi feli sifət tərkibləri ilə ifadə olunur. Lakin belə mikrooronimlər əsasən, elliptik formada deyilir. Həm də bir tarixi hadisə ilə bağlı olur... Göstərilən mikrooronimləri araşdırarkən aydın olur ki, müəyyən bir kənd, bəzən də rayon ərazisində bu tipli mikrotoponimlər elliptik formada deyilir. Söhbətin hansı coğrafi obyektdən getdiyi məlum olur" (6.105-106).

Dərələyəzdəki *Usubölən (Ağkənd), Fatı uçan (Arınc), Palantökülən (Ərgəz), Kərimqaçan (Horbadığ), Zəncir itən (Qalaser), At ölən* və s. bu qəbildəndir. Müəyyən hadisələri əks etdirən sözlərdən törənən oronimləri aşağıdakı kimi qruplaşdıra bilərik:

Hər hansı şəxslə bağlı müəyyən hadisəni əks etdirən və coğrafi terminlə işlənən oronimlər: *Hüseynalı düşən yurd (Axta), Eyvaz düşən yer (Amağu), Rusölən güney (Axta), Qaçaq vurulan yurd (Amağu), Qız ölən yaylaq (Ayısəsi), Şamo vurulan yurd (Ayısəsi), Qızyetərqaçan yer (Canı), Qız uçan qaya (Ertiş), Talıb yatan dərə (Ələyəz), Xanpərini ilan vuran dərə (Ələyəz), Fəro yatan dərə (Ələyəz), İsa yatan dərə (Ələyəz), Eyvaz düşən dərə (Ələyəz), Qızyetərqaçan yurd (Gülüdüzü), Qızyetərqaçan kövşən (Gülüdüzü), Qasımölən dərə (Gülüdüzü), Oruc ölən dağ (Herher), Zöhrə boğulan yurd (Herher), Quluboğulan kövşən (Hors), Baxşı ölən dərə (Hors), Qurbanölən dərə (Hors), Xəlil ölən kaha (Hors), Pəri ölən örüş (Hosdun), Məmmədölən yaylaq (İstisu), Məmməduçan qaya (İstisu), Həsənuçan qaya (İstisu), Qasımölən kövşən (İstisu), Qurbankəsilən kövşən (İstisu), Mehriölən kövşən (Kotanlı), Həlimə ölən yer (Kotanlı), Haqverdi toyu olan yurd (Qabaxlı), Baxışuçan qaya (Qalaser), Əsgərölən biçənək (Qoduxvəng), Ağamalılar düşən yurd (Qoduxvəng), Qurban ölən qaya (Qoduxvəng), Xəlil uçan yer (Qovuşuq), Səməd düşən yer (Qovuşuq), Rus qırılan yer (Qovuşuq), Məmməd gedən yer (Sallı), Leyliqaçan biçənək (Terp), Uşaq qırılan dərə (Zeytə), Abbas ölən yer (Gülüstan).*

Hər hansı şəxslə bağlı müəyyən hadisəni əks etdirən və coğrafi terminsiz işlənən oronimlər: *Nağı görüb (Ağkənd), Usubölən (Ağkənd), İsgəndər ölən (Arınc), Fatı uçan (Arınc), Səlimölən (Canı), Haqverdi olan (Canı), Məmmədəli döyülən*

(Canı), Şıxalıqorxan (çöl) (Çaykənd), Tükəzölən (dağ) (Çaykəd), Mehriölən (Ərgəz), İsgəndər əkən (Gülüdüzü), Məmmədölən (Herher), Zöhrəboğulan (Herher), Qızyetərölən (Herher), Zeynəbçalan (Horbadığ), Kərimqaçan (Horbadığ), Hüseyn düşən (Horbadığ), Zamanölən (Hors), Həsən çapılan (Hosdun), Məmməd ölən (Köçbək), Məmmədalı bəy ölən (Qabaxlı), Tutu qaçan (Qalaser), Seyidlər düşən (Qalaser), Novruzəli uçan (Qalaser), Qızyetərqaçan (Qoduxvəng), Xuda Mədəd düşən (Qovuşuq), Xıdır ayı basan (Zeytə).

Müəyyən canlı ilə bağlı hadisəni əks etdirən və coğrafi terminlə işlənən oronimlər: *Ayı ölən yaylağı (Ayısəsi), Qoyunbasan yurd (Ayısəsi), Maral vurulan qaya (Ayısəsi), Buzov qırılan yal (Gabut), Ayıbasan yer (Gendərə), İnəkölən kövşən (Gülüdüzü), Ayı ölən zağa (Gülüdüzü), Ayı ölən qaya (Gülüdüzü), Arı qonan qaya (Gülüdüzü), Ayıölən çınqılı (Gülüdüzü), Atölən kövşən (Qabaxlı), Qancıqölən kövşən (Qoduxvəng), Dəvə ölən biçənək (Qoduxvəng), At uçan biçənək (Qoduxvəng), Təkədonduran qaya (Ələyəz), İt qırılan yer (Sallı), Ayı ölən burun (Qovuşuq).*

Müəyyən canlı ilə bağlı hadisəni əks etdirən və coğrafi terminsiz işlənən oronimlər: *Eşşək ölən (Ərgəz), Qancıqölən (Gülüdüzü), Ayı ölən (Hors), At ölən (Köçbək), Ayı ölən (Qalaser), Eşşək uçan (Qoduxvəng), Qancıq ölən (Sallı).*

Müəyyən hadisə ilə əlaqədar yaranaraq coğrafi terminlə işlənən oronimlər: *Pultapılan kövşən (Ağkənd), İldırım düşən yer (Amağu), Tar gələn dərə (Ələyəz), Qazağ ölən yurd (Gomur), Şapa düşən yurd (Heşin), Canqurtaran dağı (Hors), Palantökülən yer (Horbadığ), Saman tökülən qaya (İstisu), Qurban kəsilən dərə (Qovuşuq), Güllə dəyən daş (Qovuşuq), Can qurtaran dağ (Heşin).*

Müəyyən hadisə ilə əlaqədar yaranaraq coğrafi terminsiz işlənən oronimlər: *Qabaq kəsilən (Ayısəsi), Palan tökülən (Ərgəz), Mis tapılan (Gabut), Qılıncsınan (Gülüdüzü), Dağ dələn (Hors), Zəncir itən (Qalaser), Sutökülən (Qoduxvəng), İlgək itən (Sallı), Səbətkeçməz yol (Qabaxlı).*

Bunlardan başqa, Dərələyəz ərazisində *Dübür yatan düzənlik (Ələyəz), Qızyetərqaçanın arxacı (Qabaxlı), Səlim ölənin çınqılı (Qabaxlı), Qaradüşən qala biçənək (Qoduxvəng), Qurbanölən qəyənin başı (Qoduxvəng), Qasım ölən dərənin kövşəni (Qoduxvəng), Sutökülənlər (Qovuşuq)* kimi müəyyən hadisə ilə bağlı müxtəlif quruluşlu oronimlər olmuşdur.

Oykonimlərdən törənən oronimlər: Dərələyəz mahalının oykonimlərini əvvəlki məqalələrimizdə ətraflı şəkildə təhlil etmişik. Lakin ümumilikdə Dərələyəz toponimlərini nəzərdən keçirdikdə, belə bir faktın şahidi oluruq ki, bir sıra oronimlər məhz oykonimlər – yaşayış məntəqələrinin adları əsasında formalaşmışlar. Adətən, yaşayış məntəqəsinə yaxın olan oronimlər həmin obyektin adı ilə adlandırılırlar. Digər üsullarla yaranan oronimlərə nisbətən, oykonimlər əsasında yaranan oronimlər miqdarına görə azdır. Oykonimlərdən törənən oronimlərə *Sallı dərə, Çivə yurdu, Qozulca dağı, Herher yalı, Əyricə aşırımı, İtqıran yurdu, Axta dərəsi* və s. göstərə bilərik.

Apelyativ leksik vahidlərdən törənən oronimlər: Apelyativ leksikaya daxil olan elə sözlər var ki, onların xüsusi adyaratma imkanları daha genişdir. Bunlara əlamət, keyfiyyət bildirən sözlər, bədən üzvlərini bildirən sözlər (baş, qaş, burun, göz, qol və s.), müxtəlif əşya adları və s. daxildir. Bu qəbildən olan sözlər müxtəlif coğrafi terminlərə qoşularaq oronimlər əmələ gətirir: *Daşlı güney (Axta), Qırmızı*

güney (Axta), Şor dərə (Ələyəz), Böyük düz (Ələyəz), Qızıl qaya (Ələyəz), Sarı qaya (Ələyəz), Uçuq qaya (Ələyəz), Sıvırçaq daş (Ələyəz), Top daş (Ələyəz), Əyri tar (Ələyəz), Sandıqlar örüşü (Axta), Yanıqlar örüşü (Axta), Çölməklər kövşəni (Axta), Kəllə qaya aşırımı (Axta), Çaxmaqlı biçənəyi (Almalı), Qala dərəsi (Amağu), Böyükbaş aşırımı (Amağu), Oğru binəsi (Amağu), Ağ qaya (Ardaraz), Qara qaya (Ardaraz), Həvşə yeri (Arınc), Qum yeri (Arınc), Pir təpəsi (Arınc), Qarama dərəsi (Arınc), Axund bağı (Arınc), Göy qəcəl yaylağı (Ayısəsi), Zağanın ağzı (Ardaraz), Sarının başı (Ardaraz), Demin dərəsi (Arınc), Yanığın çınqılı (Ayısəsi), Ağzıdarın kahası (Ayısəsi), Taxtaların yolu (Ayısəsi), Kəndin altı (Canı).

İstifadə olunmuş ədəbiyyat

1.S.Sadıqova. Etnonimlər əsasında yaranan oronimlər. "Filologiya məsələləri", N-2, AMEA-nın
M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2008, s.53-59.
2. Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. I, Bakı, "Elm", 2004, 854 s.
3. Məmmədov N. Azərbaycanın yer adları. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 184 s.
4. İsrafilov R., Məşədiyev Q., Cəfərov Q. Azərbaycan dilinin onomastikası. Bakı,"Elm",1987, 187 s.
5. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, "Maarif", 1998, 595 s.
6. Bayramov A. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri), Sumqayıt, 1996, 240 s.

Севиндж Садыхова

Оронимы Дерелеязского округа Западного Азербайджана сформировавшиеся на основе этнонимов, антропонимов, гидронимов, оронимов, зоонимов, фитонимов, ойконимов, на основе слов, связанных с определенными событиями, на основе апельятивных лексических единиц

Резюме

Объектом исследования статьи является лексико-семантические особенности оронимов Дерелеязского округа. Лексико-семантические особенности оронимов округа Дерелеяз сгруппированы в 9 группах: 1.Оронимы сформировавшиеся на основе этнонимов (*Хорсун кьахасы*); 2.Оронимы сформировавшиеся на основе антропонимов *(Селимин гьядийи)*; 3.Оронимы сформировавшиеся на основе гидронимов (*Гёлъ юрд*); 4.Оронимы сформировавшиеся на основе оронимов (*Гендере ковшени*); 5.Оронимы сформировавшиеся на основе зоонимов *(Пеленгье дереси)*; 6.Оронимы сформировавшиеся на основе фитонимов (*Зейлийин дереси*); 7.Оронимы сформировавшиеся на основе слов, связанных с определенными событиями *(Гьяндбёлен)*; 8.Оронимы сформировавшиеся на основе ойконимов (*Ариндж ялы*); 9. Оронимы сформировавшиеся на основе апельятивных лексических единиц (*Пирин ялы*).

Sevinj Sadıgova

Oronyms in Daralayaz region of Western Azerbaijan
derived from etnonyms, antroponyms, hidronyms, oronyms, zoonyms, fitonyms, oykonums, oronyms derived from the appealative lexical units.
Summary

The sintaktic features of oronyms in Daralayaz region of Western Azerbaijan (present Armenia) have been researched in the article. The lexico-semantic characteristics of oronyms in Daralayaz region have been examined and those were divided into 9 groups: 1. oronyms derived from etnonyms *(Horsun kyahasi)*; 2. oronyms derived from antroponyms *(Selimin gyadiyi)*; 3. oronyms derived from hidronyms (*Sulu dere, Chay qovushan dere, Gol yurd*); 4.oronyms derived from oronyms (*Gendere kovsheni*); 5.oronyms derived from zoonyms *(Pelenge deresi)*; 6.oronyms derived from fitonyms (*Zeyliyin deresi*); 8. oronyms derived from the oykonums (*Arinj yali*); 9. oronyms derived from the appealative lexical units (*Pirin yali*).

Rəyçi: Həsən Mirzəyev
filologiya elmləri doktoru, professor

TSVETA KARADZHOVA
ЦВЕТА КАРАДЖОВА

PERCEPTION OF SPA- CONJOINT ANALYSIS

Açar sözlər: Sağlamlıq, Spa, Birgə tədqiqat, Spa məhsulu
Ключевые слова: хорошее здоровье, СПА, совместный анализ, СПА – продукт
Key words: Wellness, Spa, Conjoint analysis, Spa product

Spas or bathing have been part of every culture since aboriginal man with hot springs or thermal bathing being found worldwide with both modern and historical concepts. Most major regions require some form of cleansing before entering the house of worship, and baptismal rites require water. The culture of the spa as we know it today draws from traditions around the world, including Japan's hot springs (onsen), with their fine food and Zen gardens, Finland's saunas, with their sweat room and ice plunges, and the Ottoman's hammams, with their steam rooms and private washing quarters.

While each spa has its own culture, values and beliefs, the essence of the spa- a place of restoration and health- has remained remarkably constant, even as the popularity of spas has ebbed and flowed throughout their long history. As oases of wellness, activities at spas have revolved around baths, massages, and other health treatments. Above all, spas have been places apart from the work-a-day world.

The rapid growth of the Spa industry has created many challenges. As a high-touch, people based business; training, recruiting and managing staff has emerged as major issues. Other major issues are the development of appropriate business models and valuation methods to enable investors to transparently asses their potential for returns. As well as being challenged by financial reporting, spas, like other business, are also being challenged by issues of sustainability and the rise of consumer consciousness that is demanding greater disclosure of business practices as well as environmental and social performance.

While the global spa industry is still evolving, it is apparent that the industry is beginning to embrace wellness as part of its core business. The emergence of the global spa industry can therefore be understood as a natural response to the human desire for wellness and viewed in the context of the evolution of consciousness, globalization and the many crises the world is now facing.[22]

We are now moving from service economy to a more personal experience economy. As Pines and Gilmore state: "When a person buys a service, he purchases a set of intangible activities carried out on his behalf. But when he buys an experience, he pays to spend time enjoying a series of memorable events that a company stages- as in a theatrical play- to engage him in personal way".[23]

The growing trend for spas to sell "experiences" rather than simply treatments or services places spas at the forefront of the experience economy. A spa's

[22] Cohen M., Spas, wellness and human evolution, 2008
[23] Pines J., Gillmore J., The Experience Economy, 1999

profitability is directly linked to its ability to consistently delight guests by providing enjoyable and transformative experiences. Such experiences build spa's reputation and drive return business and word-of-mouth advertising. These experiences are created through every aspect of the spa's operation including the ambience, customer service, value added benefits, the quality of the treatments and attention to detail before and after the treatment.

Combined with the existing popularity and convenience of independent day spas, hotel and day spas together are the largest segment of the spa industry. Hotel operators suggest that their spas are an ideal place to commence a visit, as guests feel relaxed, energized, and motivated. In keeping with their new wellness focus, these hotel properties provide healthful meal choices. To complement their spa services, resorts provide hiking trails, running maps, yoga, meditation, etc. Despite all this interest, few data are available to explain consumers' behavior with regard to wellness, and more research is necessary to develop this concept.

Although some guests seek out the full range of services, particularly in destination spas, massages (including body wraps and facials) constitute the largest portion of the day and hotel spas' business- approx. 70%. Some researchers observed that spa consumers may shy from more exotic treatments, while they are well aware of the indulgence and relaxation in a massage. In addition to facials and massages, spas outside the USA see strong demands for saunas and steam baths. [24]

Aspiring to discover and correspond to consumer expectation is an ongoing challenge faced by many present day firms in their search for competitiveness. This capacity to offer and increase value for the customer is a critical factor, which is accentuated even more in firms within the hotel sector, where customer loyalty shows dynamic and volatile characteristics that require continuous, in depth study of their expectations, motivations and preferences.

What establishes a company's competitive advantage, and has therefore become a critical factor for its long term success, is the ability to serve customers' present and future needs; it is the company's awareness and fulfillment of customers' evolving needs that nurture and validate their ongoing relationship with the customer. [25] The adjustment between supply and demand in the spa sector increases in complexity owing to the fact that some components of what is perceived and expected by the customer as the product are not merely one but a combination of a variety of products, partly outside the spa center's control. The value of the spa service is also influenced by facilities and attractions offered by the hotel, which are a part of customer expectations and experiences.

Conjoint analysis is a multivariate research technique which is used in the marketing area of product development research. Conjoint analysis has a number of particular strengths which also make it useful in other areas of research where the respondents are confronted with decisions between competing options.

Conjoint analysis is used in marketing research to analyze consumer preferences for products and services. This analysis grew out of the area of conjoint measurement in mathematical psychology. Conjoint analysis decomposes ranking

[24] Clousing, J. Hotel Spa Profits Grow., 2008

[25] Kandapully J., Duddy R., Relationship Marketing: A concept beyond the primary relationship", 1999

or rating-scale evaluation judgments of products into components based on qualitative attributes of the products. Attributes can include price, color, environmental impact, and so on. A numerical utility or part-worth utility value is computed for each level of each attribute. The goal is to compute utilities such that the rank ordering of the sums of each product's set of utilities is the same as the original rank ordering or violates that ordering as little as possible. [26]

To gain a better understanding of the needs, wants and preferences of spa consumers, a choice-based conjoint analysis survey was undertaken. The study was conducted among 103 Bulgarian spa customers, selecting all hotels that belong to the company of BT Development Services. All customers visited the hotels through 2011. The spa hotels are located in sea or mountain resorts in Bulgaria.

The respondents were asked to answer an online questionnaire designed to question their preferences on characteristics they prefer in different spa services. For the purpose of this article, we present the results of consumers' preferences on sauna and gymnasium services.

Using factorial design (aided by XLSTAT computer analysis), we arranged for respondents to receive various combinations of twelve profiles of each service. This approach provided the respondents with an appropriate number of combinations to choose from.

The key outcome of conjoint analysis is the part-worths (marginal utilities) of the various attributes that comprise the conjoint stimuli. The part-worths can be estimated through least squares regression with the subjects' ranking as the dependent variable and indicators of the various levels of the attributes as the independent variables. Then, the coefficient of each independent variable would be part-worth corresponding to that level of attribute.

Further, the relative importance of each attribute may be calculated as the part-worth corresponding to the maximum level of that attribute divided by the sum of the part-worths corresponding to the maximum levels of attributes. [27] The relative importance of each attribute was characterized by considering how much difference each attribute could make in the total utility of a product. That difference is the range in the attribute's utility values. We calculated percentages from relative ranges, obtaining a set of attribute importance values that add to 100 percent.

Table 1. Sauna's Relative importance (the values are in %)

	Importance
Over 100C	46.463
Unisexual	39.423
For more than 4 pax.	14.113

Source: Author

[26] Kuhfeld W., Marketing research: Methods in SAS, 2010
[27] Png P. Conjoint analysis, 2003

Table 2. Gymnasium's Relative importance (the values are in %)

Importances	
Life Fitness	69.622
Man	12.121
Without individual training	18.258

Source: Author

The typical approach is to compare the utility scores within one table; either across the three levels for one element or across the elements at each of the three levels. The first table above represents that the temperature of the saunas is the most important characteristic for the spa consumers (46.46%), followed by the consumer's preference to be used by men and women together (39.42%). The most preferred characteristic of the gymnasium is the brand represented by the American fitness producer "Life Fitness" (69.62%). Second most preferred gymnasium's characteristic is the male sex of the fitness instructor. The preference of not having an individual training with a professional instructor is on third place.

Conclusion: With their current popularity, expectations are high for spas' popularity to continue growing. In that regard, spas are also expected to continue the trend of drawing together elements from various cultures to create an overall sensation of well-being and health for guests. The tide seems to be running strong for spas, given cultural mores, promoting the ideas of wellness, nutrition, and stress reduction- all of which are spas' strong points. As with ail hospitality-industry concepts, spas face a danger of overbuilding at same point. In the meantime, the role of spas as places apart seems well accepted as a s valuable and essential service.

This study has aimed to provide an initial approach to the development of a methodology that will facilitate a conjoint analysis for complex adjustment between spa offer and demand in a hotel, with a view to a more extensive, in depth future study with the inclusion of other variables, which would provide more knowledge about them, thereby facilitating a basis for designing a competitive spa product as a specific hotel.

References

1. Clousing, J. Hotel Spa Profits Grow., 2008
2. Cohen M., Spas, wellness and human evolution, 2008
3. Kandapully J., Duddy R., Relationship Marketing: A concept beyond the primary relationship", 1999
4. Kuhfeld W., Marketing research: Methods in SAS, 2010
5. Pines J., Gillmore J., The Experience Economy, 1999
6. Png P. Conjoint analysis, 2003

Çveta Karacova

SPA gavrayısı - Birgə Tədqiqat

Xülasə

Sağlamlıq keçmiş dinə üstün gələn, dünyəvi ruhaniliyin bir formasını ifadə edir. Spa və sağlamlıq mərkəzləri bu səbəbdən insanların dini mərasimləri icra edə, öz şəxsi sağlamlıq təcrübələrini dərinləşdirməyi öyrənə, özünüdərketməni gücləndirə, yaşamaq təcrübəsini dərinləşdirə və yaşamaq üçün təkmilləşdirilmiş üsullardan istifadə edə biləcəkləri mədəni və sosioloji terminlərdə müasir dövr ibadətgahları kimi başa düşülür. Şəxsi səviyyədə, sağlamlıq üçün mübarizə aparmaq, bilavasitə özünüdərki gücləndirmək və hər iki daxili və xarici dünyanı dərk etməkdir.

Birgə tədqiqat, müştərilərin kurort məhsulu və ya xidmətinin xüsusiyyətlərinə verdikləri dəyərin ölçülməsi üçün ən müvafiq bazar tədqiqatı yanaşmasıdır. Bu ümumi yanaşma həqiqi bazar qərarlarının modelləşdirilməsi ilə real həyat ssenarilərini və statistik üsulları birləşdirir.

Цвета Караджова

Восприятие СПА - Совместный анализ

Резюме

Сегодня хорошее здоровье определяет форму светской духовности, которая выходит за пределы формальной религии. Следовательно, СПА и оздоровительные курорты можно определить с помощью как культурных, так и социальных терминов, так как современные храмы, где люди могут испытать результаты, углубить свои личные знания в сфере оздоровления, повысить свое сознание открыты для расширения способов бытия и углубления опыта, как оставаться в живых. На персональном уровне, стремление к хорошему здоровью непосредственно предполагает повышение сознания и большего осознания внутренних и внешних миров.

Совместный анализ является альтернативным подходом исследования рынка для измерения стоимости, которое устанавливается потребителями относительно особенностей СПА-продукта или услуг. Этот широкоиспользуемый подход объединяет в себе сюжеты из реальной жизни и статистические методы моделирования с фактическими решениями рынка.

Rəyçi: Professor İsmayıl Kazımov

ƏBİLOV QƏNBƏR
Odlar Yurdu Universiteti

AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Açar sözlər: Frazeologiya, tərkiblər, birləşmələr
Key words: Phrazeology, units, combinations
Ключевые слова: Фразеология, Соединения, Комбинации

Məqalənin qoyuluşu. Məqalədə ingilis və azərbaycan dilində olan frazeoloji birləşmələrin qarşılıqlığından bəhs olunur. Məqalədə həm müasir, həm də klassik ədəbiyyatlarda olan frazeoloji birləşmələrdən söhbət açılır.

İşin məqsədi. Məqalədə olan frazeoloji birləşmələrdan müasir dövrdə həm azərbaycan, həm də ingilis dilində istifadəsindən danışılır.

Nitqin dəqiqliyi və ifadəliyi sözlərin, ifadələrin qanunauyğun şəkildə işlədilməsindən asılıdır. Bir nitqimizi müəyyən qramatik qaydalar əsasında qururuq. Sözlər kimi, bütövlükdə bir məna ifadə edən sabit birləşmələdə dilimizin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayır. Bir çox hallarda müəyyən məna bildirmək məqsədi ilə tək bir sözdən yox, vəhdət təşkil etmiş sözlər qrupundan istifadə olunur.

Dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin məcmusunda frazeologiya deyilir. Frzeologiya mənşəcə yunan sözü olub, pharases ifadə, logos-nəzəriyyə, elm sözlərinin birləşməsindən əmələ gəlmişdir. Frazeologiya sabit söz birləşmələrinin qanunauyğun inkişafını, mənbəyini və yaranmasını, xüsusiyyətlərini forma və məzmun zəngiliyini, işlədilmə imkanını, semantik və qramatik strukturunu, söz və sərbəst birləşmələrlə əlaqəsini və.s tədqiq edir.

"Frazeologiya" terminini dilçilik aspektində ilk dəfə Şarl Balli işlətmişdir. O söz birləşmələrinin iki tipini qeyd edərək yazır ki, birləşmələrin birisi sözlərin sabit olmayan birləşməsidir, bunlar daimi olmur, nitq prosesində yaranır və ona görə də nitq vahidlərini təmsil edir. Birləşmələrlin bəzisi frazeoloji tərkiblər yaradır. Bunlar dil sisteminə onun vahidləri kimi daxil olur.

Dilçilikdə dil haqqında elmin başqa sahələri ki, frazeologiya da iki hissəyə ayrılır: 1) ümumi frazeologiya; 2) xüsusi frazeologiya.

1. Ümumi frazeologiya bir sıra inkişaf etmiş dillərin frazeoloji materaillarının tədqiqinən alınan nəticələr ümumiləşdirilir, bunun əsasında frazeologiyanın ümumi problemləri müəyyənləşdirilir.

2. Xüsusi frazeologiyda isə hər bir konkret dilin faktları əsasında həmin dilin frazeoloji sistemi semantik strukturu və.s cəhətləri təsvir olunur.

Frazeologiya az öyrənildiyindən onun əsas tədqiqat obyektini təşkil edən söz birləşmələri üçün vahid konkret termin yaranmamışdır. Odur ki, bu sabit söz birləşmələri bir sıra dilçilərin əsərlərində müxtəlif adlar altında verilmişdir. Onlar sabit söz birləşmələrini, idiomatik ifadələr, idiomlar, frazemlər, frazeologizmlər və s. kimi çoxlu termlər vasitəsi ilə adlandırmışlar. Belə müxtəliflik frazeoloji

məsələləri dəqiq anlamağa maneçilik törədir və fikri yayındırır. Dildəki belə sabit söz birləşmələrinin "frazeologizm" termini ilə verilməsi daha məqsədə uyğundur.

Fikrin ifadəsində nitqin bilavasitə tərkib hissəsini təşkil edən iki və ya daha artıq sözlərin birləşməsindən ibarət olub, komponenetləri sintaktik və sematik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşmələrinə və ya cümləyə oxşayan, dildə hazır şəkildə mövcud olub ənənəyə görə ya bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstrukiyalara frazeologizmlər deyilir. Frazeologizmi təşkil edən sözlərin hamısı ümumilikdə bir məna ifadə edirlər.

Frazeologizmlər dilin xalq fizionomiyası, onun orijinal vasitəsi, varlıq və zaka zənginliyidir. Onların həm məzmun, həm də forma etibarı ilə zənginliyi və dildə həddindən artıq işlədilməsi alimlərin diqqətini özünə cəlb etmişdir. Ona görə də frazeologiya dilçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevrilmişdir. Frazeologizmlərin daxili məna quruluşunun və xarici strukturunun, onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunama imkanlarının öyrənilməsi, milli və beynəmiləl mahiyyətinin şərhi, onların işlənmə xüsusiyyətlərinin və istifadə olunma sahələrinin təhlili həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.

Frazeologizmlərdən istifadə insanlara öz fikirlərini dəqiq, qısa və idiomatik ifadə etmək imkanını verir. Onlar məfhumu dolayı olsa da, konkret ifadə edir. Frazeologizmlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasıdır. Belə ki, frazeologizmlər dilin ekspressivliyində onun emosionallığında xüsusi rol oynayır. Onlar bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir.

Frazeologizmlərdən həm bədii, həm publisist, həm də digər üslublarda istifadə olunur. Onlar ədəbi dilin yazılı növündə, əsasən bədii üslubda yazılan əsərlərdə, xüusi üslubi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu böyüdür, bədii əsərin emosionallığını, üslubi kefiyyətlərinin zənginləşməsinə xidmət eləyir. Yazıçı frazoloji birləşmələri cümlədə işlədərkən mətnlə frazoloji birləşmənin qarşılıqlı münasibətini əsas görür, yəni mətn frazeologizmlərin semantik çalarlarını dəqiqləşdirir, frazeologizmlər isə mətnin. Böyük yazıçı və şairlərin əlində frazeologizmlər bu və ya başqa sürətin danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir.

Frazeologizmlər möhkəm milli xüsusiyyətə malikdir. Hər hansı bir xalqın frazeologizmlərini öyrənməklə, biz həmin xalqın mədəniyyəti, tarixi, həyat və yaşayış tərzi ilə yaxından tanış oluruq.

Hər bir dilin özünəməxsus frazeologizmləri var. İngilis dilinin də frazelogiya dünyası çox böyük və müxtəlifdir. İngilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürərkkəb frazoloji sistem o dərəcə zəngindir ki, danışıq prosesində, frazeologizmlərin vasitəsi ilə bu və ya digər fikri aydın şəkildə başqasına çatdırmaq mümkündür. Bu dilin frazeologizmləri minillik tarixə malikdir. Onlar müxtəlif ictimai tarixi şəraitdə və çox mürəkkəb səbəblər əsasında əmələ gəlmişdir. İngilis dilinin frazeologizmlərinin əmələgəlmə mənbəyi, əsasən, xalq danışıq dili, yazılı ədəbiyyat və folklor olmuşdur.

Uzun zamandır ki, dünya ölkələrində ingilis didlinin öyrənilməsinə geniş yer verilir. Bizim ölkəmizdə də həmçinin bu dilin öyrənilməsinə böyük diqqət yetirilir. Hər hansı bir dilin mükəmməl formada öyrənilməsi, o cümlədən ingilis dilinin

öyrənilməsi, o cümlədən ingilis dilinin öyrənilməsi onun frazeologizmlərini bilmədən mümkün deyildir. İngilis dilini öyrənən şəxslər üçün onun frazeologiya sahəsi böyük çətinlik törədir. Onlar əsasən bu dilin frazeologizmlərinin tərcüməsi zamanı böyük çətinliklərlə üzləşirlər. Frazeologizmləri əksər hallarda başqa bir dildə olduğu kimi tərcümə etmək olmur və çox zaman mənasız, gülünc alınır. Bəzi tədqiqatçılar, o cümlədən S.İ.Abakumov, A.Areformadski. L.A.Bulaxovski, E.İ.Levintova, Y.M.Volf, M.Ruzikulova, A.Arnold, S.İ.Ojeqov və başqaları frazeologizmlərin bir dildən başqa bir dildə hərfən tərcümənin mümkün olmasını qeyd edir və bunun səbəbini həmin dillərin milli səciyyəsi ilə əlaqələndirmirlər. Bəzi dilçilər isə bu əlaməti frazoloji vahidlərin dilin milli xüsusiyyətini əks etdirməsi ilə izah edir.

Azərbaycan dilçiliyində də bu məsələ müxtəlif şəkildə şərh edilmişdir. Onlar frazeologizmlərin başqa dillərə eynilə tərcümə oluna bilməsini qeyd edir.

İngilis dili frazeologizmlərinin tərcüməsi prosesində nəinki təcrübəsiz tərcüməçilər, həmçinin təcrübəli tərcüməçilər də çətinliklərlə üzləşirlər. Onlar çox zaman bu frazeologizmlərin yalnış tərcüməsini verirlər.

Tətqiqatçılar frazeologizmlərin tərcümə problemlərini aradan qaldırmaq üçün müxtəlif fikirlər irəli sürmüşlər və müxtəlif tərcümə metodları təqdim etmişlər.

Bizim də əsas məqsədimiz ingilis dili frazelogizmlərinin azərbaycan didlinə tərcüməsi yollarını öyrənməkdən və tərcümə prosesində ortaya çıxan problemləri aydınlaşdırmaqdan, aradan qaldırmaqdan ibarətdir.

İngilis dilində verilmiş fraziologizmin azərbaycan dilində maksimal adekvat tərcüməsini əldə etmək üçün tərcüməçi tərcümənin müxtəlif növlərindən istifadə edir. Bunların sırasına ekvivalent, analoq, təsviri, kalka və ya hərfi, antonim, müştərək, paralel tərcümə növləri daxildir.

Frazioloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, nəhayət dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirdiyindən belə ifadələr azərbaycan dilinə çox zaman yalnış tərcümə edilir. Onların yanlış tərcüməsinin əsas və ilkin səbəblərindən biri onların verilmiş mətndən düzgün seçilməməsi, sərbəst söz birləşmələri ilə qarışdırılmasıdır. Digər bir səbəb isə tərcüməçinin seçilmiş bu fraziologizmləri yalnış dərk etməsidir ki, bu da çox zaman mətnin təhrifinə gətirib çıxarır. Buna görədə tərcüməçi ingilis dilində verilmiş fraziologizmi azərbaycan dilinə düzgün, səhvə yol vermədən, orijinaldaki xüsusiyyətlərini saxlayaraq tərcümə etmək üçün aşağıdaki qaydalara riayət etməlidir.:

1. Tərcümə olunacaq frazilogizmi tam başa düşməli
2. Orijinalda təsvir olunan xalqın həyatını və milli varlığını təşkil edən xüsusiyyətlərini bilməli
3. Tərcümə prosesində lüğətdən düzgün istifadə etməli, dil və üslubi məsələlərinə dərindən diqqət yetirməli
4. Hər iki dilə məxsus müxtəlif ifadə vasitələrindən istifadə etməli
5. Verilmiş fraziologizmin azərbaycan dilinə tərcüməsində onların sinonimlərindən istifadə etməyi bacarmalı
6. Tərcümə metodlarından düzgün istifadə etmək bacarığına malik olmalıdır
7. Bədii əsərin konteksindən uzaqlaşdırmamalı
8. Tərcümə olunduğu dilin tələblərinə cavab verməli

Beləliklə hər bir dil bu və ya digər fraziologizmi özünəməxsus şəkildə dərk edir. Buna görə də tərcüməçi dillər arasındakı fərgi dəqiq şəkildə öyrənməyə borcludur. Bir sözlə tərcümə olunan ayrı-ayrı frazioloji ifadələr həm orijinal zəmində qoparılmamal, həm də bu ifadə ilə azərbaycan oxucusu arasında nəzərə çarpacaq ögeylik olmamalıdır.

İşin elmi nəticəsi. Frazeoloji birləşmələr və onların dildə əhəmiyyətindən bəhs edir.Frazeologiyanın tarixi, frazeoloji birləşmələr və söz birləşmələrinin dildə əsas rol oynaması müəllif tərəfindən təfərruatları ilə izah edilmişdir.

İşin elmi yeniliyi. Frazeoloji birləşmələrin müasir dövrdə daha çox işləkdir. Bir çox yeni və müasir frazeloji birləşmələrdən istifadə olunub.

İşin tətbiqi əhəmiyyəti. Frazeoloji birləşmələr daha çox bədii ədəbiyyatda istifadə olunduğu üçün bu məqalə məna etibarilə çox vacibdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1.Arnold İ.V. The english word. M-L., 1966 səh 165-199.
2.Babayev A. Dilçiliyə giriş. Bakı, 1992 səh 262
3.Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları.Bakı, 1978 səh 4-67
4.Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1970. səh 95-100
5.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı.Bakı, 1962. səh 59-62
6.Həsənov H. Azərbaycan dilinin frazeologiyası.Bakı,1979. səh 2-9
7.Hüseynzadə M. Müasir Azərbaycan dili.Bakı,1954. səh 69-71
8.Vəliyeva N.Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət.Bakı,2006
9. http://qu.edu.az/library.php?&action%5Bbook_view%5D=120
10. http://azerbaijans.com/content_941_az.html

Abilov Ganbar

Phrazeological combinations in the Azerbaijan and English language

Summary

This article deals with the usage of phrazeological units and their importance in the language .The history of phrazeology , the main role of phrazeological units and word combinations have been in detail explained by the author. Phrazeolgy combinations are more efficient in modern period. It is used new and modern phrazeology combinations in this article. This article is very actual in modern period.

Абилов Ганбар

Фразеологические обороты в Азербайджанском
и Английском языках
Резюме

В этой статье говорится о фразеологических оборотах и об их значении. Автором глубоко объясняются история фразеологии, роль фразеологических оборотов и словосочетаний в языке. Фразеологические обороты используются в современный период. В статье использовано много новых и современный фразеологических оборотов. В современный период очень актуальна.

Rəyçi: B.m Zemfira Abbasova

XANIMBACI İBRAHİMOVA
ADPU-nun magistrantı

AZƏRBAYCAN TERMİNOLOGİYASININ TƏDQİQİ TARİXİNDƏN

Açar sözlər: terminologiya, dil, müasir, elm, inkişaf, formalaşmaq
Ключевые слова: терминология, язык, современный, наука, развитие, формирования
Key words: terminology, language, modern, science, development, formation

Azərbaycan dilinin terminologiyası müasir inkişaf səviyyəsinə çatanadək müxtəlif mərhələlərdən keçmiş, fərqli mənbələrdən bəhrələnmişdir. Dilimizdə terminlərin yaradılması tarixi çox qədimdir. Ona görə də keçilən yola dərindən nəzər salmadan əldə edilmiş təcrübədən, ümumiləşdirmədən, vaxtilə bu sahədə görülmüç işləri düzgün qiymətləndirmədən terminologiya sahəsində düzgün yol tutmaq mümkün deyildir.

1920-ci illərdən sonra Azərbaycan dilinin inkişafı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri elm və texnikanın, iqtisadiyyat və mədəniyyətin ayrı-ayrı sahələri üzrə ana dilində terminlər yaradılması məsələsi idi. Həmin dövrdə Azərbaycan dilində külli miqdarda ərəb, fars mənşəli sözlər işlədilirdi. Bu isə ana dilində mövcud və mümkün olan qarşılıqların kənarda qalması ilə nəticələndi. Bununla da alınma sözlərin mənimsənilməsindəki çətinliklər azlmadığı kimi, dilin daxili mənbələri əsasında söz və terminyaratma imkanlarından da istifadə olunmurdu. Ana dilinə məxsus terminlərin kasadlığı isə müvafiq dərsliklərin, qəzet və jurnalların nəşri, yazı və savadlanma işində ləngimələrə səbəb olurdu.

Bu dövrdə terminoloji leksikanın mənbələri dəqiq müəyyənləşdirilməmişdi. Buna görə 1921-ci ildə N.Nərimanovun təşəbbüsü ilə Azərbaycan Xalq Komissarları Şurası yanında İstilah Komissiyası yaradılmışdı. Bu komissiyanın ilkin ilkin fəaliyyəti dövründə iş gələcəkdə respublikada termin yaradıcılığı sahəsində görüləcək işlər üçün başlanğıc oldu. (14. 6)

İstilah Komissiyasına 1923-cü ildən S.Ağamalıoğlu sədrlik etməyə başlamışdır. Həmin dövrdə riaziyyata, coğrafiyaya, ədəbiyyata və s. dair terminoloji lüğətlər hazırlanmışdır. Həmin lüğətlərdə fərdi terminyaratma təşəbbüsü ilə yanaşı, müəyyən qisim ərəb, fars mənşəli sözlərə, həmçinin rus və Avropa mənşəli sözlərə də yer verilmişdir. Bu dövrdə lüğətlərin hazırlanmasında müvafiq təcrübə olmadığından nöqsanlara yol verilirdi. Odur ki, terminoloji lüğətlərin yaranması üçün daha ciddi təşəbbüslər göstərmək tələb olunurdu.

1926-cı ildə Bakıda keçirilən və türkdilli xalqların hamısının elmi- mədəni həyatında mühüm izlər qoymuş I Türkoloji qurultayın iclaslarından birnini yalnız türk dillərinin terminologiyası məsələlərinə həsr edilməsi də Azərbaycan dili, eləcə də digər türk dillərində Terminologiya elminin gələcək inkişafı üçün baza hazırlamış oldu.

Türkoloji qurultayın terminlər məsələsinə həsr olunmuş 8-ci iclasında irəli sürülən fikirlər böyük elmi-nəzəri əhəmiyyət daşıyaraq, Azərbaycan terminologiyasının gələcək inkişafı üçün güclü təkan vermiş oldu.

1929-cu ildən işə başlayan Dövlət İstilah Komitəsinin fəaliyyəti, xüsusən, 1930-cu illərdən sonra canlanmağa başlamışdır. Bu dövrdə artıq termin yaradıcılığı sahəsində müəyyən təcrübə qazənılmışdı. Odur ki, Terminologiyanın nəzəri məsələlərinə dair daha ciddi fikirlər irəli sürülürdü.

İstilah Komitəsi termin yaradıcıllığı üçün üç əsas mənbədən istifadə olunmasını məqsədəuyğun hesab etmiş:

A)Bu dilin öz lüğət tərkibi ;

B)Rus və Avropa dillərinə məxsus sözlər;

C)Azərbaycan dilinə çoxdan daxil olub özlərinə vətəndaşlıq hüququ qazanmış ərəb, fars sözləri.

Terminoloji fikirdə mühüm mövqeyi olan Bəkir Çobanzadənin terminin mahiyyəti barədə söylədiyi fikirlər ondan xeyli sonra ümumi dilçilikdə təkrar olunmuş və beləliklə Azərbaycan dilçiliyində terminə münasibət onun səciyyəvi əlamətlərinin müəyyənləşməsi baxımından yüksək qiymətləndirilmişdir. Bəkir Çobanzadə öz mənbələrində dilçiliyin terminoloji bazası ilə bağlı üç mənbəyi müəyyənləşdirirdi:

1.İlk mənbə kimi ümumi türk leksik bazasını mənbə kimi götürərək qeyd edir ki, onlar arasında fərq olsa da, ortaq cəhətlər çoxdur.

2.İkinci mənbə kimi ərəb-fars terminlərini vacib hesab edir, müxtəlif səbəblərlə yanaşı, islam dininin də rol oynadığını göstərir.

3.Avropa mənşəli terminlərin istifadəsini əsas götürürdü və türk terminoloji inkişafı baxımından zənginləşməsində əsas baza olduğunu qeyd edir.(1. 3-7)

Azərbaycan dilçiliyində müəyyən fasilələrlə M.Şirəliyev, Ə.Orucov və başqa terminlərin müxtəlif problemləri ilə bağlı fikirlər yürütmüşdürlər.

Terminologiya sahəsində görülən işlər 1941-1945-ci illər müharibəsi dövründə müəyyən durğunluq dövrü keçirmişdir. 1944-cü ildə Bakıda keçirilən dil konfransında terminologiya məsələlərinə mühüm yer verilmişdir. Bu dövrdə mətbuatda dil və terminologiya məsələlərinə həsr olunmuş müzakirə xarakterli məqalələr dərc olundu. Onların ümumi istiqaməti terminologiyada dil normalarının müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məsələlərindən ibarət idi. (14. 7)

Bu sahənin sistemli, müəyyən plan əsasında, ardıcıl şəkildə araşdırılmasında, müxtəlif sahə terminlərinin qaydaya salınmasında 1952-ci ildə Azərbaycan SSR EA Rəyasət Heyəti yanında Terminologiya Komitəsinin yaradılması irəliyə doğru atılmış böyük bir addım hesab edilir. Komitənin tərkibində bu işdə səriştəsi olan alimlər, yazıçılar, qabaqcıl elm və mədəniyyət xadimləri daxil edilmişdir. M.Ş.Qasımovun 1967-ci ildə çapdan çıxmış "Azəri dilində terminlər necə yaranır", 1973-cü ildə çap olunmuş "Azərbaycan dili terminologiyasının əsasları" kitablarının işıq üzü görməsi bu sahədə aparılan tədqiqat işinin sürətinə güclü təkan verdi.

Hər bir dilin inkişaf yolunun onun daşıyıcısı olan xalqın tarixi inkişafı ilə sıx bağlı olması bir həqiqətdir. Terminologiyanın inkişaf tarixini indiyədək tədqiqatçılar müxtəlif mərhələlərə ayırmışdırlar. Bu şərti bölgülər ədəbi dilin inkişaf tarixinin mərhələlərinə əsasən müəyyənləşdirilmişdir.

M.Ş.Qasımov terminologiyanın inkişaf mərhələlərini aşağıdakı kimi bölmüşdür:

1. XII-XIII əsrlərdən XIX əsrin 30-cu illərinə qədər;

2. XIX əsrin 30-cu illərindən Azərbaycanda sovet hakimiyyəti qurulana qədərki dövr;

3. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonrakı dövr. (8. 43)

Bu dövrləşmə Azərbaycan ədəbi dilinin Dəmirçizadə tərəfindən 30-cu illərin sonlarında verdiyi bölgüyə uyğundur. Məlumdur ki, ərəb və fars dillərinin uzun müddət hökmran olduğu dövrlərdə terminlərin də əksəriyyəti ana dilində deyil, məhz həmin dillərdə yaranırdı.

Azərbaycan dilçiliyində ədəbi dilimizin dövrləşdirilməsinin izahında müəyyən fikir ayrılıqları mövcuddur. Ə.Dəmirçizadə, T.Hacıyev, N.Xudiyev, Q.Kazımov dilimizin inkişaf tarixini bir-birindən fərqli şəkildə dövrləşdirmişdilər.

M.Qasımov "Azərbaycan dilinin terminologiyasının əsasları" əsərində terminologiyanın yaranmasını nəzəri cəhətdən əsaslandırılaraq tarixi aspektdə tədqiq olunmuşdur.

S.A.Sadıqova terminologiyanın inkişafının ədəbi dilin inkişafı ilə bilavasitə əlaqədar olduğunu göstərir və buna uyğun olaraq, Azərbaycan dilinin fizika-riyaziyyat terminologiyasının inkişaf tarixini aşağıdakı dövrlərə bölür:

1. VII-XIII əsrlərdən XIX əsrin 30-cu illərinə qədərki dövr;

2. XIX əsrin 30-cu illərindən Azərbaycanda sovet hakimiyyəti qurulana qədərki dövr;

3. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı dövr. (13. 35)

İ.Z.Qasımov hərbi terminoloji leksikanın inkişaf tarixini aşağıdakı şəkildə dövrləşdirmişdir:

1. Ta qədim dövrlərdən islama qədərki dövr;

2. VII-XIX əsrlər;

3. XIX əsrin əvvəllərindən 90-cı illərin əvvəllərinə qədərki dövr;

4. XXəsrin 90-cı illərindən bu günə qədərki dövr. (9. 15)

Azərbaycan dilində terminologiyanın inkişafı ilə əlaqədar görülən işləri sovet hakimiyyəti illərində aşağıdakı mərhələlərə ayırmaq olar:

1.1920-1929-cu illər;

2.1929-1944 –cü illər;

3.1944-1952-ci illər;

4.1952-ci ildən sonrakı dövr. (10. 67)

Həyatın müxtəlif sahələrinə aid anlayışı vəməfhumları ifadə edən xüsusi funksiya daşıyan söz qrupları cəmiyyətin inkişafı ilə bağlı yaranır. Lakin dilin ilk inkişaf mərhələlərində terminlər hələ sabitləşmədiyindən lüğətdə xüsusi qrup təşkil etmirdi. Ona görə də hər hansı bir anlayışı, məfhumu ifadə edən sözün mənası məlum olurdu. Buna səbəb cəmiyyətin üzvlərinin çoxunun təsərrüfatla, əkinçiliklə, hərb işi ilə sıx bağlı olması idi. Bu baxımdan terminoloji leksikanın təşəkkülü və formalaşıb sabitləşməsi prosesi cəmiyyətin inkişafını izləmək və tədqiqata cəlb etmək bütövlükdə dilin inkişafını izləməyə imkan verir. Çünki hər bir xalqın tarixi inkişaf prosesi eyni ardıcıllıqla və eyni xətt üzrə davam etməmiş, tarixin müxtəlif dövrlərində inkişaf tempi bir-birindən fərqlənmişdir. Belə dəyişmələr leksik fondun terminoloji sisteminə də təsir göstərmiş, dilə təsərrüfat həyatındakı yeniləşmələrlə bağlı dəyişikliklər gətirmişdir. Dildə fasiləsiz olaraq yeni-yeni terminoloji vahidlər formalaşmağa başlayır, terminoloji sistem də həmin prosesə uyğun olaraq daim zən-

ginləşir. Deməli terminoloj sistemin formalaşması cəmiyyətin inkişafı ilə bağlıdır. İ.Qasımov yazır: "İlk insan birliklərinin , cəmiyyətin varlığının qorunması onun mövcudluğunun təmin olunması üçün müdafiə vasitələri ən zəruri həyati atributlardan biri kimi meydana çıxmış, özünümüdafiə instiktinə uyğun denotatın adı kimi dilində terminlərin yaranmasına imkan vermişdir" (9. 15)

Xalqların və cəmiyyətin tarixində baş verən verən bütün dəyişmələr, tarixi hadisə və proseslər, ictimai dəyişikliklər dildə öz əksini tapır. Ona görə də dilin tarixi xalqın tarixi ilə bağllı dəyişir, inkişaf edir. Ə.Dəmirçizadə yazır: " Dil bu və ya digər şəraitlə əlaqədar olaraq, ondan ünsiyyət vasitəsi kimi, bilavasitə, dolayı yolla istifadə edənlərin tarixi ilə üzvi surətdə bağlı və vacib bir vasitədir. Bəşəriyyətin ilk dövrlərindən müxtəlif birliklər halında yaşayann insanlar birdən-birə xalq keyfiyyəti kəsb etmədiyi kimi, vahid ümumxalq dili də birdən-birə formalaşmış olmur". (2.48)

Deməli, cəmiyyətimizin tarixində baş verən hadisələr, dəyişikliklər, inkişaf istiqamətləri və tarixi proseslər dilimizin bütün laylarında, o cümlədən onun terminoloji leksikasında öz əksini tapmışdır. Beləliklə, VI-VII əsrlər arasında Azərbaycan dilində terminologiyanın yaranıb formalaşması üçün əlverişli tarixi şərait olmuş, məhz bu şərait də elmi dilin formalaşmasına zəmin yaratmışdır.

Bu baxımdan Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı tarixini aşağıdakı şəkildə dövrləşdirmək olar:

1.VI-VII əsrlərdən XV əsrə qədərki dövr;

2. XVII-XVII əsrlərdə terminologiyanın təşəkkülü;

3.XIX əsrin 30-90-cı illərində terminologiyanın inkişafı;

4.XX əsrin birinci rübündə terminologiyanın inkişafı;

5.XX əsrin 20-90-cı illərində terminologiyanın inkişafı;

6.XX əsrin 90-cı illərində terminologiyanın inkişafı. (12. 33)

Terminologiyanın təşəkkülü və inkişafı tarixində bu dövrlər öz xarakterik xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Odur ki, hər bir dövrü ayrılıqda xarakterizə etmək zəruridir.

Bu mərhələlərdə terminologiyanın inkişafı müxtəlif səviyyələrdə olmuşdur. Bu cür müxtəliflik elm sahələrinin ayrıöayrı dövrlərdə inkişaf sürəti ilə bağlıdır.

Hər bir dövr termin yaradıcılığının xüsusiyyətlərini müəyyən dərəcədə əks etdirir. Qədim dövrlərdə terminlər lüğət tərkibinin az hissəsini təşkil etdiyio halda, müstəqillik dövründə ictimai tələbata uyğun olaraq, termin yaradıcılığı daha sürətlə inkişaf etmişdir.

Birinci mərhələdə terminologiyanın inkişafına nəzər salsaq, görərik ki, ədəbi dilin inkişafı ilə bağlıdır. Şifahi ədəbi dilin daha erkən meydana gəldiyini nəzərə alaraq, ilk şifahi ədəbiyyat nümunələrindən "Kitabi-Dədə Qorqud" dastanlarında işlənən terminlərin müxtəlif sahələrə aid olduğunu müşahidə edə bilərik.

İlk yazılı abidədə verilən ədəbiyyat nümunələri sübut edir ki, termin yaradıcılığı abidənin yarandığı dövrdən də əvvələ aiddir.

Milli dildən bir mənbə kimi istifadə olunması birinci dövr termin yaradıcılığı üçün səciyyəvi cəhət hesab oluna bilər. Dastanlardakı terminlər də ümumxalq dilinə əsaslanmaqla yaradılmışdır. Həmin terminlər müxtəlif sahələri əhatə etmişdir. Abidədə iştifadə olunan terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Geyim adları: qaftan, don, kürk vəs.

a)Aftan olsun, oftan olsun,
Dək oğulana qaftan olsun .
b)Ər ondur, doqquzu dondur.
c)Gününə görə kürkün gey.
2. Yemək adları: aş, mərcimək, süd, şəkər və s.
a)Elin ağzında mərcimək islanmaz.
b)Süd dadın tadan bilir
c)Şəkər dadın yeyən bilir.
3. Heyvan adları: inək, dəvə, qurd, aslan və s.
a)İnək südünə görə mələr.
b)Dəvəyə nəl yoq.
4. Bədən üzvlərinin adları: ayaq, burun, üz, qulaq, baş və s.
a)Ayağa eşq yolunda çalı ilməz. (4. 54, 55, 58, 120, 62, 107, 101, 66)
5. Saylar: bir, iki, beş, doqquz, on bir, min və s.
a) Bir daş ilə iki quş vurulmaz.
b) Beş də beş, beş bucaq da beş.
c) Ondan keç, doqquz qalsın. (3. 70, 47, 21)

Göründüyü kimi, ilk yazılı abidələrdə işlənən terminlər daha çox insanların məişəti, məşğuliyyəti və sənəti ilə bağlı yaranıb. Bu terminlər sırf elmi anlayışları ifadə etməkdən çox ümumişlək səciyyə daşıyan sözlərdir.

Qeyd edək ki, "Kitabi-Dədə Qorqud" dastanında işlənən saylar "Oğuznamə" də işlənmişdir. Terminologiyanın tarixini aydınlaşdırmaqda şifahi ədəbi dilin böyük rolu vardır. Bu cəhətdən Azərbaycan şifahi xalq ədəbiyyatının ilk zəngin və qədim abidələrindən sayılan "Kitabi-Dədə Qorqud" dastanı diqqəti cəlb edir. Dastanda ən çox işlənən saylardır. Saylar isə riyazi terminologiyanın formalaşmasında əsasdır. (13.47)

VII əsrlər və daha əvvəlki dövrlərin dil xüsusiyyətlərini bütün dolğunluğu ilə əks etdirən bu möhtəşəm abidə - "Kitabi-Dədə Qorqud" dastanı uzun müddət tədqiqat obyekti olmuş və hər bir tədqiqatçı ondan bəhrələnmişdir.

Dilimizin lüğət tərkibinə daxil olan terminlərin əksəriyyəti milli sözlər əsasında yarandığından qədim dövrdən bu günə qədər gəlib gəlib çatmışdır və bu gün də işlənməkdədir. Bədən üzvləri (baş, göz, qulaq, əl. Ayaq vəs.), zoonimlər (qaz, keyik, şahin , dovşan, siçan və s.) ifadə edən terminlər uzun əsrlərin sınağından çıxaraq bu günümüzə gəlib çatmışdır.

XI-XIII əsrlərdə bir sıra müəlliflər öz əsərlərini farsca və ərəbcə yazırlar. Dəmirçizadənin fikrinə görə, ədəbi dildə işlədilən terminlərin demək olar ki, 90 faizi, o cümlədən, ərəb dilindən alınmışdır. Həmin dövrdə termin yaradıcılığında Azərbaycan dili nəinki əsas, hətta ikinci dərəcəli mənbə kimi özünü göstərirdi.

XI-XII əsrlərdə ədəbi nümunələrdə işlənən terminlər müxtəlif elm sahələrinə aid olmuşdur. Fəlsəfi terminlər olan cahan, dünya, dövran, fələk anlayışları Xaqaninin əsərlərində çox zaman sinonomlər kimi işlənir.

XIII əsrdən başlayaraq ana dilli ədəbiyyatımızın yaranması dilimizin leksikasının milli terminlərlə zənginləşməsinə təsir edən əsas amillərdən olmuşdur. XIII əsrə aid olan "Dastani-Əhməd Hərami" məsnəvisinin dilində xeyli termin sözlər işlənmişdir. Bu terminlər məişətin, təsərrüfatın müxtəlif sahələrinə aiddir. " Dastani-

Əhməd Hərami"nin dilində işlənən terminlər müasir ədəbi dilimizdə işlənən terminlərlə çox hallarda üst-üstə düşür. Məsələn: ay, rəqəm, damar, on və s.

Ümumiyyətlə, XIII əsrdən sonra yaranan terminologiyanın xeyli hissəsi ərəb-fars mənşəli olsa da, ümumxalq dilində işləklik qazanan sözlərdən ibarət olmuşdur. Qazi Bürhanəddin, Nəsimi , Füzuli, Vaqif, Vidadi kimi klassiklərin ədəbi irsində termin səciyyəli sözlərin işlənmə tezliyi bunu sübut edir. Lakin buna baxmayaraq, Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrünün ilk mərhələsində (XIII-XIV əsrlərdə) göründüyü kimi funksional üslub trilogiyası yaranır. (6.162) N.Xudiyevin fikrincə, XII-XIV əsrlərdə türk mənşəli sözlərin miqdarı bir neçə dəfə artır və bu mərhələdə klassik üslubda işlənən alınma sözlər anlaşıqlı olmayanlardan həmişə ən azı iki dəfə çox olur. (6. 225)

XIII-XIX əsrlər arasında yaranan terminologiyanın xeyli hissəsini etnoqrafiya terminləri təşkil edir. Bu Azərbaycan xalqının həyat tərzinin, məişətinin zənginliyi və məşğuliyyəti növlərinin müxtəlifliyi ilə bağlıdır.

Məişətdə işlənən müxtəlif əşya, alət, xörək, geyim, oyun adları və leksik qatı təşkil edən etnoqrafik leksikanın ayrı-ayrı tematik qrupları maddi-mənəvi mədəniyyətimizin aynası sayıla bilər.

Ayrı-ayrı dövrlərdə termin yaradıcılığının inkişaf istiqamətləri olmuşdur. Məsələn, birinci mərhələdə (VI-VII əsrlərdən XIII əsrə qədərki dövrə qədər), əsasən, türk mənşəli; ikinci mərhələdə (XIII əsrlərdən XIX əsrin 30-illərinə qədər) ərəb-fars mənşəli; üçüncü mərhələdə (XIX əsrin 30-cu illərindən XX əsrin I rübünə qədər) ərəb, fars dilləri ilə yanaşı rus dilindən alınan terminlər də üstünlük təşkil edir.

XIX əsrdə milli dilin təşəkkülü, elmi üslubun formalaşması və leksik qata yeni-yeni terminlərin daxil olması terminologiyanı daha da zənginləşdirdi. Publisistik və rəsmi-epstolyar üslubun meydana gəlməsi terminlərdən geniş istifadəyə imkan yaratdı.

Elmi üslubun müxtəlif sahələrini əhatə edən terminoloji leksika müxtəlif üsullarla yaranırdı. Xalq dilində işlənən bir sıra sözlər terminkimi işlənərək yeni məna kəsb edir.

XIX əsrdə fəaliyyət göstərən yazıçı və publisistlərin – M.F.Axundov, H.Zərdabi, N.Vəzirov və başqalarının xalq danışıq dilində işlənən sözlərin elmi anlayışları ifadə etmək istifadə etmələri terminologiyanın zənginləşməsinə xidmət etdi.

XIX əsrdə meydana gələn terminoloji leksikanı yaranma mənbəyinə görə üç qrupa bölmək olar:

1. Ümumxalq dili əsasında meydana gələn terminlər;
2. Ərəb-fars mənşəli sözlər əsasında yaranan terminlər;
3. Rus-Avropa mənşəli terminlər.

Dilimizin leksik qatına daxil olan terminlər elmi üslubda ümumişləklik qazanmaq üçün elmi-kütləvi mətbuat orqanlarının nəşri vacib idi. Görkəmli maarifçi Həsən bəy Zərdabinin nəşr etdiyi "Əkinçi" qəzeti və bu qəzetdə çap olunan elmi məqalələri elmi texnologiyanın yaranmasına təkan vermiş və müxtəlif elm sahələrinə aid terminlərin mətbuata gəlməsinə şərait yaratmışdır.

"Əkinçi" qəzetini dilində işlənən terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Tibb terminləri: titrədib-qızdırmaq, yatalaq, islah, yel və s;

2.İqtisadiyyat terminləri: ticarət, alış-veriş, tamojna, gömrük, podrat, icarə, xırda ticarət şəhadətnaməsi və s. (5. 1)

XIX əsrin sonu, XX əsrin əvvəllərində milli terminologiyamızın sistemli yaranması və milli dilin termin yaradıcılığında əsas mənbə rolunu oynaması mərhələsi başlanır.

XIX əsrin 30-cu illərindən XX əsrin birinci rübünə qədərki dövrdə əvvəlki dövrlərə nisbətən termin yardıcılığı daha məhsuldar olmuşdur. İctimai, iqtisadi və mədəni həyatın müxtəlif sahələrinin inkişafı ilə əlaqədar olaraq rus dilindən alınan, eləcə də beynəlmiləl terminlərdən daha çox istifadə olunmuşdur. Termin yaradıcılığı prosesində həm ədəbi dildən, həm də dilimizin ayrı-ayrı dialekt və şivələrindən bəhrələnərək yeni-yeni milli terminlər yaradılmışdır. Kənd təsərrüfatı ilə bağlı yaranan terminlərin meydana gəlməsində dialekt sözlərdən istifadəyə üstünlük verilirdi. Lakin bu dövrdə terminologiya sahəsində bir sıra nöqsanlar olmuşdur. Belə ki, ərəb-fars mənşəli terminlərin rus və Avropa dillərindən alınan terminlərlə əvəzlənməsi prosesi güclənmişdir. Bu isə uzun müddət terminologiyanın lüğət tərkibinin qeyri-sabitliyi və paralel terminlərin işlənməsinə gətirib çıxarmışdır.

XIX əsrin elmi üslubunun formalaşmasında termin yaradıcılığı mənbələrinin genişlənməsi, ərəb-fars mənşəli terminlərlə yanaşı, rus-Avropa mənşəli terminlərin fəal şəkildə istifadəsi həmin dövr alim və ədiblərinin əsərlərində öz əksini tapmışdır. Dilimizə keçən forma, kvadrat, termometr, kalsium, karbon, spirt, fotoqraf, tamaşa, tema, problem terminləri M.F.Axundzadənin, F.Köçərlinin, C.Məmmədquluzadənin əsərlərində tez-tez işlənmişdir. (12.səh2)

1990-cı ildən sonra respublikamızda əldə olunan müstəqillik xalqımızın tarixində ən əlamətdar hadisə oldu. Milli mədəniyyətin tərkib hissəsi olan Azərbaycan dilinin müxtəlif dillərin və fərqli istiqamətlərin nəticəsində zənginləşməsi prosesi getməyə başladı. Qərbi Avropa, qonşu türk dövlətləri ilə qarşılıqlı əlaqə terminologiyanın inkişaf istiqamətlərinə təsir etdi.

Müstəqillik illərində müxtəlif elm sahələrinə aid terminlərin yaranmasında aşağıdakı istiqamətlər müşahidə olunur:

1. Dilimizin daxili imkanları əsasında yaranan terminlər;
2. Avropa dillərindən alınan terminlər;
3. Türk dillərindən alınan terminlər.

Bütün bunlar onu göstərir ki, son dövrlərdə Azərbaycanın müstəqil olması dilimizin daxili imkanları əsasında termin yaradıcılığının əsasistiqamətlərindən birinə çevrilmişdir. Bu dövrdə terminologiya daha da zənginləşmiş, ziyalılarımız müxtəlif elm sahələrinə aid alınma terminlərlə yanaşı, Azərbaycan dilinin daxili imkanları hesabına termin yaradılmasını həmişə ön plana çəkmişlər.

İstifadə olunmuş ədəbiyyat

1. Çobanzadə B. "İstilah-terminləri işləri. Azərbaycanı öyrənmə yolu" 1930, N 4-5
2. Dəmirçizadə Ə. "Azərbaycan ədəbi dili tarixi" I hissə, Bakı," Maarif ",1979
3. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud dastanlarının dili haqqında". Bakı, APİ nəşri 1959
4. Əlizadə S. "Oğuznamə". Bakı, "Yazıçı", 1987
5. Həsən bəy Zərdabi. Seçilmiş əsərləri. ("Əkinçi" qəzeti N 1")
6. Xudiyev N. "Azərbaycan ədəbi dili tarixi". Bakı," Maarif", 1955
7. İsmayılova M. "Azərbaycan dili terminologiyasının linqvitik təhlili". Bakı," Elm ",1997
8. Qasımova M.Ş. "Azərbaycan dili terminologiyasının əsaları". Bakı 1973
9. Qasımov İ.Z. "Azərbaycan dilinin hərbi-terminoloji leksikasının təşəkkülü və inkişafı". Bakı,
" Nurlan ",2001
10. Qasımova İ. "Azərbaycan terminologiyası". Bakı.2007
11. Qasımova M.Ş. "Azərbaycan dilinin terminləri necə yaranır". Bakı, "Azərnəşr", 1967
12. Qasımova X. "Müstəqillik illərində Azərbaycan dilində termin yaradıcılığının əsas
istiqamətləri". Bakı, 2009
13. Sadıqova.S.A "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və
inkişafı". Bakı, "Elm", 1997
14. "Terminologiya məsələləri" . Bakı, 1990

X. Ибрагимова

История исследование Азербайджанской терминологии

Резюме

В статье изучают историю развития терминологии Азербайджанского языка. Несмотря что история развития терминов в нашем языке является очень древней, но как наука она была изучена с 20-го века. В соответствии с этом, история развития, развития в современном периоде, развития и формировании терминологии изучается в различных областях науки. По данным исследования, развитие в современном мире разных областях науки, способствовали формираванию терминологии как науку.

X.Ibragimova

History of reseanch Azerbaijan terminolojis

Summary

The article studied the history of the development of language terminology. Although definitions of terms in our language is very ancient history as a science is the study of the 20th century. According to this terminology, the history of the development of science in various stages of development and in the formation of the modern state is investigating. According to research, the development of various disciplines in the modern terminology contributed to emerge as a science.

Rəyçi: Mirvari İsmayılova
filologiya elmləri doltoru, professor

LEYLA QOCAYEVA
Filologiya üzrə fəlsəfə doktoru (ATU*)*

ÇAĞDAŞ AZƏRBAYCAN MƏTBUATI VƏ DİL PROBLEMLƏRİ

Açar sözlər: mətbuat dili, ədəbi dil normaları, orfoqeafiq-leksik-semantik qaydalar, cümlə konsruksiyası, nitq inkişafı, funksional üslublar.

Key words: the longuage of media, the norms of the literary language, or the graphitical – lexical – semantical rules, sentence structure, speech improvement, functional styles.

Ключевое слова: язык прессы, нормы литературного языка, орфогРафические, лексические, синонимические нормы, конструкция предложений, развитие речи, функциональные стили.

Milli ictimai təfəkkürü ifadə edən publisistik üslubun Azərbaycanda inkişaf tarixi 140 ilə yaxın bir dövrü əhatə edir. Bəs bu gün "publisistik üslub" ifadəsinin ekvivalenti kimi işlətdiyimiz "mətbuat dili" birləşməsi Azərbaycan ədəbi və ümumxalq dili anlayışları fonunda hansı funksiyaları özündə əks etdirir?

Jurnalistika ilə yanaşı dilçiliyin də mühüm problemlərindən olan "mətbuat dili"nin inkişaf mexanizmi bu günə qədər hansı proseslərdən keçib?

1875 – ci il iyulun 22 – də "Əkinçi" qəzetinin birinci nömrəsinin çıxması ilə Azərbaycanda milli dövri mətbuat yaranır. Lakin tarixi faktlar göstərir ki, bundan xeyli əvvəl – 1832 – ci ilin yanvar ayında "Tiflis əxbarı" qəzetinin Azərbaycan dilində ilk nömrəsi işıq üzü görmüşdür. Azərbaycan dilində "Tiflis əxbarı" qəzeti farsca çıxan qəzet bağlandıqdan sonra buraxılmışdır. O zaman Qafqazın baş hakimi olmuş baron Rozen maarif Nazirinə yazdığı məktubunda göstərirdi ki, qəzetin azərbaycanca çıxması ilə hökumətin "müvafiq xeyirxah niyyətlərinin " buradakılar arasında yayılması üçün "ən layiqli vasitə" əldə ediləcəkdir. Lakin bu qəzetin ömrü uzun olmamış, 1833 – cü ildə bağlanmışdır.

Qəzeti "ana dilini öyrədən bir məktəb" kimi dəyərləndirən H. Zərdabi yazırdı ki, "qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir".

Mətbuat maarifçilik ideyalarını yaymaq üçün bir xitabət kürsüsüdür. Mətbuat tariximizdə bu maarifləndirmə fəaliyyətinin böyük bir hissəsi də dil ilə bağlı olmuşdur. "Əkinçi" qəzetinin bütün saylarını maraq və diqqətlə izləyən M. F. Axundov H. Zərdabiyə yazdığı məktublarında dil, orfoqrafiya qüsurlarına qarşı xüsusilə ciddi yanaşırdı. O, geniş oxucu kütləsi üçün buraxılan mətbuat orqanının şiriftlərinin gözəl, dil, üslub, orfoqrafiyasının tam düzgün olmasının zəruriliyini dönə - dönə vurğulayırdı. Böyük mütəfəkkir "Əkinçi"dəki dil qüsurları ilə bağlı yazmışdı: "... sizin azərbaycanca məktubları hazırlayan mühərrirdən çox narazıyam. O, Azərbaycan dilini bilmir. Buna görə də kiçik bir elanda bir çox bağışlanmaz səhvlərə yol vermişdir. Həmin bu mühərriri ərəb qrammatikasını bilən, fars və türk dillərinə bələd olan başqa bir savadlı adamla əvəz etmək lazimdir".[1]

M .F. Axundov "Əkinçi"yə həm də ifadənin gözəlliyi, ibarələrin zərifliyi, aydınlığı, orfoqrafiyanın düzgünlüyü prinsiplərinə riayət etməyi, Azərbaycan yazısını

[1] M.F.Axundov.Əsərləri. III cild. Bakı. 1962. Səh 387 .

düzgün olmayan ifadələrdən təmizləməyi məsləhət görürdü və qeyd edirdi ki, "sizin qəzetiniz bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır".[2]

S. Ə. Şirvani də "Əkinçi"nin dili ilə bağlı yazırdı ki, qəzet ana dilində çıxdığı üçün dilin saflaşmasında , təmizlənməsində mühüm rol oynayır!

Həmin illərdə Moskvada təhsil alan N. Vəzirov isə "Əkinçi"ni "ana dili müəllimim" adlandırırdı.

Bütövlükdə Azərbaycan xalqının ictimai fikir tarixində mühüm hadisə hesab edilən "Əkinçi" qəzetinin nəşri mətbuat, ədəbiyyat və digər sahələr ilə yanaşı dilimizə də müsbət təsir göstərmişdir.

Daha sonralar nəşr edilən "Kəşkül" qəzetində həmçinin, ədəbiyyat, incəsənət, maarif və s. ilə yanaşı dilin də nəzəri məsələlərinə dair məqalələr dərc olunurdu. Məsələn, "Bir şəxs" imzası ilə nəşr olunmuş "Ana dilimiz" məqaləsində deyilirdi: "öz millətini əbədi saxlamaq istəyənlər öz ana dillərini saxlamağa çalışmalıdırlar və o dildə elm və fünuni övladi – millətə verməlidirlər."[3]

Gördüyümüz kimi, Azərbaycan mətbuatının dili, eyni zamanda dilə münasibəti onu yaradanların və keşiyində duranların prinsipial mövqeyini canlandırır.

Aydındır ki, kütləvi təbliğat vasitələrindən olan mətbuat ədəbi dilin üslublarının formalaşmasında, lüğət tərkibinin (o cümlədən, termin bazasının) zənginləşməsində, qrammatik normaların tənzimlənməsində mühüm rol oynayır. Qəzet dili vasitəsilə kütləviləşən yeni ifadə formaları və terminlər ədəbi dilimizin lüğət fonduna asanlıqla daxil olur, çünki, dövri mətbuatın lüğət tərkibi cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Məlumatların, xəbərlərin, hadisələrin çoxcəhətli və rəngarəngliyini özündə əks etdirən, obrazlı və oxunaqlı olmaq şərtlərinə riayət edən mətbuat dili müasir oxucunu özünə cəlb etmək üçün səlis, aydın, mənalı və təsirli şəkildə işlənməlidir. Oxucuya çatdırılacaq informasiyanın mükəmməl və cəlbedici olması ilk növbədə onun yazıldığı dillə bağlıdır.

Mətndəki yersiz söz və ifadələr, təkrarlar, söz çalarlarından düzgün istifadə edə bilməmək və s. mətbuat dili normalarını pozur və nitq mədəniyyətinin inkişafına zərbə vurur.

Bütün yaradıcılığı boyu Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparan C.Məmmədquluzadə "Molla Nəsrəddin"də açıq – aydın dil yolunda cihada çıxmışdı. Rus, ərəb, fars, osmanlı sözləri ilə nitqlərini və yazılarını "bəzəyən" azərbaycanlıları "Dil", "Bizim obrazovannılar", "Osmanlı dili" felyotonunda kəskin tənqid edirdi.

Son illərdə ictimai – siyasi, sosial – mənəvi həyatımızda baş verən yeniliklər Azərbaycan dilinin lüğət tərkibində ciddi dəyişikliklərə səbəb oldu. Dilin qrammatik normalarına nisbətən daha dəyişkən və çevik olan leksik normaları müəyyənləşdirmək müasir dilçiliyimizin aktual məsələlərindən birinə çevrildi. "Leksik normalaşma müəyyən proses keçdikdən sonra sabitləşir. Mətbuat dilində bu proses heç də ləng getmir, müsbət dəyişmələrlə, yeni normalaşma meylləri ilə müşahidə edilir. Həmçinin normalaşma, sabitləşmə prosesi bu gün intensivliyi ilə diqqəti cəlb edir, funksional üslubların hər birini əhatə edir. Onun müsbət cəhətləri bundan ibarətdir

[2] Yenə orada.

[3] ."Kəşkül"qəzeti. 1886,N32.

ki, vaxtilə dilimizə məcburən gətirilən alınma sözlər, terminoloji vahidlər Azərbaycan sözləri ilə əvəz olunur. ”[4]

Ölkəmiz müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, mətbuatda da dönüş yarandı. 600 -ə yaxın qəzet və jurnal nəşri Azərbaycan dilinin ifadə imkanlarını genişləndirdi. Sözsüz ki, bu çoxsaylı və çoxçeşidli mətbuat orqanları ədəbi dilimizin normalarına əməl etmək baxımından bir – birindən fərqlənir. Dilin zənginləşməsi və normativləşməsi uğrunda yazıb – yaradan müəlliflərlə yanaşı dil, üslub baxımından mükəmməl və professional olmayan, dil qanunlarından kənara çıxan, məsuliyyətsiz, “yeni leksik – terminoloji vahidlər” adı altında kobud və heç bir məna ifadə etməyən sözləri mətbuat səhifələrində gen –bol işlədən nəzəri və praktik baxımdan yararsız yazılara imza atan müəlliflər də var ki, onların “müstəqillik” adı altında dildən sərbəst istifadəsi bu gun dilçi alimlərin haqlı narazılığına səbəb olur.

İctimai duşuncədə, yaddaşda özünə tez yer eləyən gündəlik mətbuat dilindəki dinamiklik, çeviklik dil və cəmiyyət münasibətlərində canlılıq, emosionallıq yaradır, dilin leksikonundakı yenilikləri geniş oxucu kütləsinə asanlıqla ötürür. Təəssüf ki, bu gün xüsusilə müstəqil mətbuat dilində ədəbi dil normalarının pozulması halları daha çox müşahidə olunur. “...bəzən qəzetlər yenilikçi kimi görünmək üçün ehtiyac olmadan əcnəbi sözləri dilimizə gətirir, özü də bu qəzetlər əcnəbi sözləri dilimizə zorla daxil etmək cəhdlərində bulunduqları halda elə həmin səhifədəcə bu gun dilimizdən artıq çıxmaqda olan sözləri də xüsusi bir həvəslə bizə “sırımaqda” davam edirlər. Məsələn,”525-ci qəzet”in 7 iyun 1999-cu il tarixli sayının 9-cu səhifəsində: ajiotaj,reputasiya, imic kimi “dəbdə olan” sözlərlə yanaşı, bu gün artıq “davamlı” sözü ilə əvəzlənmiş “mütəmadi”, “can ”sözü ilə əvəzlənmiş “məgz”kimi “dəbdən düşmüş” sözlərin işlənməsi bizi bir qədər təəccübləndirir.Həmin məqalədə belə bir cümlə də var: “Ü. Allahyarov sırf iş baxımından oraya telefon açmışdı”.Bu cümləni necə başa düşək?”[5]

Müəllifin bu iradını haqlı sayırıq. Lakin monoqrafiyada bir çox müəlliflərə dil və üslub xətası kimi aid edilən məqamlara aydınlıq gətirmək istəyirik. E.İsmayılov yazır: “Mübariz Əhmədoglu adlı şəxsin kiçik bir yazısında bu gün Azərbaycanda çoxlarının başa düşə bilməyəcəyi onlarla söz vardır. Məsələn, innovasiya,elita, qarant, region, bubregional, kontur, stimul, missiya, versiya, kommunikasiya, sivilizasiya, sintetik, populyar, pritça, konsepsiya, və s. Yaxud tanınmış publisist-teatrşünas İlham Rəhimlinin qəzetin həmin sayında “Azərbaycan milli teatrının poetikası” adlı məqaləsi lap terminlər lüğətinə oxşayır.

Bu kiçik məqalədə aşağıdakı terminlər işlənmişdir: struktur qurumu, ideya-estetik bazis, institusional teatr, faciə poetikası, antik, renesans, klassik, romantik, realist, naturalist, konflikt, dekor,maşineriya, akustika, konturna, meşşan, determinik, əlbəsə, barokko, proto-teatr, butaforiya, ortadoksal, primitiv, romark, utilitar, mifik, magik, lyuklar, ştanget, təxliyyə-evakuasiya, elflər, və s. Gğründüyü kimi , bu məqalə, çox güman ki, nəinki sadə oxucular, heç incəsənət adamları tərəfindən də anlaşılan səviyyədə deyil”.[6]

[4] S.Məmmədova.Kütləvi informasiya vasitələri və dil.Bakı.”Elm və təhsil” 2009.s 27
[5] E. Ismayilov. Müstəqil Qəzetlərimizin dili. Bakı.2006. s. 170-171
[6] E. Ismayilov. Müstəqil Qəzetlərimizin dili. Bakı.2006. s. 172-173

Təbii ki, həm M. Əhmədoğlunun, həm də publisist – teatrşunas İ. Rəhimlinin sözügedən məqalələrinin elmi – publisistik üslubda yazılması və söz açdıqları məsələ ilə bağlı nəzəri – elmi mülahizələr söylədikləri faktı unudulmamalıdır. Hər iki məqalədəki terminlər sırf mövzuya aiddir.

Onu da qeyd edək ki, müəllifin "anlaşılmaz termin çoxluğu " iradı altına alınmış "elita", "qarant", "region", "stimul", "missiya", "sintetik", "populyar", "antik", "klassik", "romantik", "realist", "naturalist", "konflikt", "meşşan", "primitiv" və s. kimi sözlər artıq məişət üslubunda belə anlaşılmaz deyil.

Dilin lüğət fondunu və fikri ifadə imkanlarını genişləndirmək üçün terminlərdən, alınmalardan yerli – yerində istifadə etmək zərurəti də meydana çıxıb. Azərbaycan mətbuatı yaranıb formalaşana qədər alınma sözlər daha çox ədəbiyyatımızda – bədii sözdə əks olunmuşdur. Lakin XX əsrin əvvəllərində, mətbuatımızın güclü inkişaf etdiyi bir dövrdə alınma sözlər dilimizin lüğət ehtiyatı bazasına asanlıqla daxil olurdu. "Təsadüfi deyil ki, ümumiyyətlə, mətbuatın dili və üslubu ilə bağlı mətbuatın özündə gedən diskusiyalarda alınmalara münasibət ciddi yer tuturdu. C. Məmmədquluzadə, Ü. Hacıbəyli, Ö. F. Nemanzadə, Ə. Hüseynzadə, Ə. Ağaoğlu kimi böyük publisist və jurnalistlər dilin bütün aspektləri sırasında alınmaların xarakteri, işlənmə xüsusiyyətləri, üslubi məqamları, yerli – yersizliyi ətrafında ciddi polemika, mübahisə və müzakirəyə girişmişlər" [7]

Əlbəttə, sadəcə dilin leksik vahidlərini artırmaq məqsədilə alınmalardan səmərəsiz istifadə doğru olmaz. Istənilən bir sözün dildə vətəndaşlıq hüququ qazanması üçün obyektiv və zəruri situasiya yaranmalıdır.

Sözün bir dildən digərinə keçməsi prosesi tədrici, tarixi və tələb olunan şəraitdə reallaşmalıdır.

Bu gün informasiya və mədəniyyət vasitəsi hesab etdiyimiz mətbuat orqanlarının dili – orfoqrafiyası, leksikası və semantikası çağdaş Azərbaycan ədəbi dilinin aynası kimi əks olunur. Bəzən hətta mətbuatda oxucular üçün anlaşılmaz olan dialektlərdən də istifadə edilir ki, bu da ədəbi dilin norma və qaunlarını pozur. Mətbuatda jurnalist olmayan, qeyri – peşəkar müəlliflərin fəaliyyəti üçün bu qədər geniş meydan açılması həm jurnalistika tariximizdə, həm də dilimizin inkişaf prosesində öz zərərli fəsadları ilə yadda qalacaq.

Çağdaş mətbuatımızın dilindəki nöqsanlardan biri də tərcümələrlə bağlıdır. Bu nöqsanlar İ. Məmmədovun da qeyd etdiyi kimi "tərcümə nəticəsində, bəzən də tərcümə olmasa da yad dilin sintaktik quruluşunun təsiri üzündən yaranır: bəzən mətbuat səhifələrində terminlərin işlənilməsində yol verilən nöqsanlara ifadə və birləşmələrdə süniliyi ,tərcümə təsiri olduğunu da əlavə etməliyik". [8]

Dilçilik elminin digər ciddi problemlemlərindən biri də mətbu orqanlarda cümlə konstruksiyası ilə bağlıdır. Cümlədə sözlərin düzgün sıralanmaması, məna və məntiqi əlaqənin dolaşıqlığına gətirib çıxarır. Informasiyanın çatdırılması zamanı rəvan və anlaşıqlı olmayan fikir assosiasiyasını da məhz həmin yerində olmayan sözlər-cümlədə məna və qrammatik cəhətdən öz yerini tutmayan sözlər yaradır. Qəzet və jurnallarda ədəbi dil normalarından məqsədyönlü şəkildə istifadə etmək, bəzi hallarda monoton və yeknəsək ifadə tərzindən imtina etməklə, yazı üslubuna

[7] T. Yaqubova. Azərbaycan mətbuat dilində alınmalar.Bakı.2008.s. 3

[8] İ. Məmmədov. Ekran, efir və dilimiz. Bakı. Elm. 1989. s 96 - 97

yaradıcı yanaşmaq bacarığı da tələb olunur. Məsələn, mənaya xələl gətirmədən, ahəngdarlıq və intonasiyanı pozmadan inversiyadan istifadə etmək cox zaman yerinə düşür.

Mətbuat radio və televiziya kimi kütləvi informasiya vasitələrindən bir çox əlamətlərinə görə seçilir. Eyni mövzu ilə bağlı yazılı informasiya şifahi informasiyadan kəskin fərqlənir.”Yazılı nitq şifahi nitqdən tamamilə fərqli olan xüsusi spesifik ifadə vasitələrinə malikir.Bu fərqlər demək olar ki, hər şeydə-əlifbanın hərflərində, müxtəlif işarələrdə, abzaslarda, başlıqlarda, kursivdə, ölçüsünə görə hərflərin fərqlənməsində, çəkilən xətlərdə və s. göstərir....linqvistik tədqiqatlar göstərmişdir ki, ədəbi danışıq dilində yazılı dildən fərqli olaraq, feli bağlama tərkibləri və feli sifətlərlə zəngin olan ifadələr işlənmir”.[9]

Dünyadakı və ölkədəki bütün yeniliklər kütləvi informasiya vasitələri, xüsusilə daha operativ və təsirli ifadə potensialına malik olan dövri mətbuat xətti ilə ictimaiyyətə çatır. Hazırkı dövrdə cəmiyyətlə daha çox ünsiyyətdə olan dil rəsmi-işgüzar, elmi, bədii dil deyil, mətbuat, publisistika dilidir. Bu dildə xalqla düzgün danışmağın, (xalq üçün yazmağın) məsuliyyəti unudulmamalıdır.

Ədəbiyyat

1. Azərbaycan mətbuat tarixi. Bakı ,“Təhsil ” ,2006,250 s.
2. E. İsmayılov. Müstəqil qəzetlərimizin dili. Bakı ,2006, 205 s.
3. İ. Kazımov. Müstəqil mətbuatın dilində gedən proseslər. Terminologiya məsələləri. Bakı, Elm, 2002, 167 s.
4. Q. Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, “Ünsiyyət” ,2004 ,496 s.
5. M. F. Axundov .Əsərləri. III cild, Bakı, 1962, 387 s.
6. N. Xudiyev. Radio. Televiziya və ədəbi dil. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2002, 286 s.
7. N. Vəzirov. Məqalə və felyotonlar. Bakı, 1961, 214 s.
8. S. Məmmədova. Kütləvi informasiya vasitələri və dil .Bakı,“Elm və təhsil”, 2009, **128 s.**
9. T. Hacıyev. Satira dili. “Molla Nəsrəddinin dili ”. Bakı, ADU, 1975, 177s.
10. T. Yaqubova. “Azərbaycan mətbuat dilində alınmalar” .Bakı “,MBM” ,2008, 153 s.

L. Qocayeva

Contemporary Azerbaijan press and language problems

Summary

The article deals with the processes in the contemporary language of media, the problems of our language, the development trends in various literary organs. It is also noted that all these organs which act in Azerbaijani language serve the development of Azerbaijani language to some extent. They contribute to the

[9] N, Xudiyev. Radio, televiziya və ədəbi dil. Azərbaycan Dövlət Nəşriyyatı. 2002. s 97

enrichment of vocabulary, enlarging of the stylistic possibilities, the popularization and spreading of norms. Simultaneously we can observe a number of mistakes in the press, which is the object of investigation of both the journalistics and linguistics.

Л. Годжаева

Современный Азербайджанский пресс и проблемы языка

Резюме

В данной статье рассказывается о процессах, протекающих в современной литературной прессе (печати) и тенденциях развития различных литеРатурных органов. Отмечается и то, что все органы печати пишущие и творящие на азербайджанском языке, в определённой степени служать развитию литературного языка, помогают обогащению словарного состава языка, расширению функциональных стилей и их распространению.

Эти актуальные проблемы должны исследоваться не только в Журналистике, но и в современном азербайджанском языкознании.

Rəyçi: Professor İsmayıl Kazımov

SEVİNC BAĞIROVA
ADİU

MÜASİR İNGİLİIS DİLİNDƏ İSMİN CİNS KATEQORİYASININ NÖVLƏRİ

Açar sözlər: İngilis dili, cins kateqoriyası, Azərbaycan dili.
Key words: English language, English words, Category.
Ключевое слова: английском язык, категория рода, родственных отношениях.

Dildə mövcud olan gerçək həqiqətlərlə sıx surətdə bağlı olan kateqoriyalar aid olduğu dilin daşıyıcıları olan xalqın təfəkkürünün və dilinin inkişafının müəyyən dövrlərində yaranmış, inkişaf etmiş və təkmilləşmişdir. Kateqoriya eyni cinsli əşya və hadisələrin müəyyən qrupları üzrə toplanması haqqında anlayışdır. Kateqoriyalar içində cins kateqoriyasının ingilis dilində qramatik səviyyədə deyil, leksik-semantik səviyyədə müşahidə etmək mümkündür. İngilis dilində cins (gender) kateqoriyası III şəxs əvəzliklərinin tək formasında və isimlərdə müşahidə olunur. III şəxsin təkində əvəzliklərdə özünü biruzə verən cins kateqoriyası suppletivizm yolu ilə düzəlir. Bu və ya digər sözün öz leksik mənasını mühafizə edərək, başqa sözə çevrilməsi və çevrilmə zamanı müəyyən bir mənanın əks olunması (6, s. 170) nəticəsi olan suppletivizm hadisəsi nəticəsində ingilis dilində III şəxs əvəzliklərinin təkində kişi, qadın və orta cinsin təzahür forması belədir.

He - (o-kişi cinsi); She - (o-qadın cinsi);

It - (o-orta cins, heyvanlar və cansız əşya və məfhumlara aiddir)

İsimlərdə cins kateqoriyası bir0biri ilə qarşılaşan, yəni qarşı-qarşıya duran iki oporisiyadan yaranır. Bu iki oporisiyadan biri isimləri iki yerə-insan (human) anlayışı və qeyri-insan (non-human) anlayışı isimlərə ayırır və bu qarşılaşmada əks olunur. II opporisiya isə şəxs bildirən isimləri qadın (feminal) və kişi (masculine) cinslərinə ayıraraq onlardan təzahür edir və cinsin səciyyəvi sistemidə burdan yaranır. Bu ənənəvi terminalogiya tərəfindən kişi (masculine), qadın (feminal) və orta cins (neuter) adlanır. İngilis dilində orta cins həm cansız isimləri, həm də heyvan anlayışı bildirən sözləri əhatə edir. Məsələn: “book”, “hill”, “world”, “city”, “friendshio”, “love”, “ant”, “horse”, “hen” və s. isimləri orta cinsə aiddir.

Müasir ingilis dilində ismin cinsini göstəricisi ola biləcək xüsusi morfoloji forma, səciyyəvi şəkilçi yoxdur. Cins ingilis dilində leksik mənada özünü göstərir. Cins göstəricisi ola biləcək morfoloji vasitənin olmamasına baxmayaraq ismin cins məna leksik seviyyədə yetərincə təzahür edilir. Kişi (male), qadın (female) və orta (neuter) isimlər bu dilin leksik tərkibində, lüğətində mühüm yer tutur. İsimlərin kişi cinsi bildirən sözləri kişi cinsinə, qadın cinsi bildirən sözləri qadın cinsinə aid olunur. Qalan bütün isimlər orta cinsə şamil edilir (4, s. 205). İngilis dilində kişi və qadın cinsinə aid oluna isimlər struktur baxımından üç prupa bölünürlər.

1) Sadə isimlər
2) Düzəltmə isimlər
3) Mürəkkəb isimlər.

1. Sadə quruluşlu kişi və qadın cinsli isimlər yalnız bir kökdən ibarət olur. Məsələn: kişi cinsində: man, boy, husband, uncle və s., qadin cinsində: woman, girl, wife, ant və s..

2. Düzəltmə quruluşlu kişi və qadın cinsli isimlər analitik - flektiv quruluşlu ingilis dilində sözdüzəldici şəkilçilərin vasitəsilə düzəlir. Bu söz düzəldici şəkilçilər ingilis dilinə əsasən fransız dilindən keçmiş və qeyri-məhsuldar şəkilçilərdir. Belə şəkilçilər əsasən kişi cinsli isimlərdən müvafikqadın cinsli isimlər əmələ gətirir. Məsələn:

- ess - Bu şəkilçi kişi cinsli isimlərə artırılaraq qadın cinsli ismlər əmələ gətirir:

actor - actress; host - hostess; poet - poetess; prince - princess; emperor –empress; peer - peeress; duke - duches; count - countess; waiter - waitress və s.

- ine - hero (qəhraman) - heroine (qəhraman (qadın c.))
- ette- usher (teatırda bilet yoxlayan kişi) - usherette (bilet yoxlayan qadın); cosmonette
- rix - testate [testit] - (miras qoyam kişi) - testatrix (miras qoyan qadın)

Bu şəkilçilərdən başqa ingilis dilində fel və isim köklərinə əlavə olunaraq kişi cinsli isimlər əmələ gətirən məhsuldar şəkilçi -er və onun variantı (-or) düzəltmə isimlər əmələ gətirir: actor (aktyor); widower (dul kişi); lover (məşuq); waiter (xörəkpaylayan kişi) və s.

3) Mürəkkəb quruluşlu kişi və qadın cinsli isimlər iki və daha artıq sözün birləşməsindən yaranır və əmələ gəlmə üsullarına görə fərqlənirlər. Belə ki, bu tip isimlərin bəzisi iki sözün birləşib işlənməsindən , digərləri isə defis ilə yazılması youlu ilə yaranır. Buna görə də bu mürəkkəb isimlər iki növə ayrılır:

1) Bitişik yazılanlar: İki sözün bir-birinə yanaşma əlaqəsi ilə yanaşıb birləşməsindən yaranın. Məsələn:

Kişi cinsli isimlər: grandson, stepfather, stepson, fosterfather, godfather, godson, sportsman.

Qadın cinsli isimlər: granmother, granddaughter, stepmother, stepdaughter, fostersister, godmother, goddaughter, sportswoman.

2) Defislə yazılan kişi və qadın cinsli isimlər iki və üç sözdən yaranır.

Məsələn:

Kişi cinsli isimlər: father-in-law, brother-in-law və s.

Qadın cinsli isimlər: mother-in-law, sister-in-law və s.

İngilis dilində kişi və qadın cinsli isimlər ifadə etdikləri məna və aid olduqları siniflərə görə aşağdakı qruplara bölünürlər.

I. İnsan anlayışı bildirən isimlərdə cins mənası. Bu isimlər də öz növbəsində yarımqruplara bölünürlər:

1) Qohumluq mənası bildirənlər: kişi cinsi: father, brother, son, husband, nephew, heir, uncle, grandfather, grandson, father-in-law, brother-in-law, son-in-law; qadın cinsi: mother, sister, daughter, wife, niece, heiress, aunt, grandmother, granddaughter, mother-in-law, sister-in-law, daughter-in-law.

2) Ümumi cins fərqi bildirən isimlər: kişi cinsi: man, boy, fellow, lad, kid, male; qadın cinsi: woman, girl, amid, lass, dame, female.

3) Zadəgan titulu bildirən isimlər: kişi cinsi: king, prince, baron, count, tzar, duke, peer, emperor, marguess; qadın cinsi: queen, princess, baroness, countess, tzarina, duches, peeress, empress, marchioness.

4) Nigah prosesi ilə bağlı isimlər: kişi cinsi: bridegroom (bəy), fiance (bəy – toya qədər),l over (məşuq, sevgili), windower (dul kişi), birdesman (bəyin sağ dişi), bachelor (subay kişi); qadın cinsi: bride (gəlin - toyda), fiansee (gelin - toya qədər), sweetheart (sevgili), widow (dul qadın), spinster (ərə getməmiş qız, qarımış qız), bridesmaid (gəlinin sağdişi).

5) Müxtəlif əlaqələr əsasında yaranan isimlər: kişi cinsi: godfather - xaç atası, godson - xaç oğulluğu, stepfather - ögey ata, stepson - ögey oğul, foster father – atalıq, foster brother - süd qardaşı; qadın cinsi: godmother - xaç anası, goddaughter - xaç qızlığı, stepmother - ödey ana, stepdaughter - ögey qız, foster mother - analıq, foster sister - süd bacısı.

6) Nəciblik, alicənablıq bildirən isimlər: kişi cinsi: gentleman, knight (cəngavər); qadın cinsi: lady (xanım).

7) Müraciət forması kimi işlənən isimlər: kişi cinsi: miste (Mr.); qadın cinsi: (ərə getməmiş qıza müraciətdə işlənir), mistress (ərə getmiş qadına müraciətdə işlənir, (Mrs.)).

8) Peşə bildirən isimlər: kişi cinsi: actor, waiter, poet, milker (süd sağan kişi), salesman (satici kişi), cowboy (çoban), cowherd (çoban), policeman (polis), craftsman (sənətkar), sculptor (heykəltəraş), sportsman (idmançı) və s.; qadın cinsi: actress, waitress, poetess, nurse, (tibb bacısı), midwife (akuşer), needle woman (dərzi), saleswoman (satıcı qadın).

9) Sahiblik bildirən isimlər: kişi cinsi: host (ev sahibi), landlord (torpaq sahibi); qadın cinsi: hostess (ev sahibəsi), landlady (torpaq sahibəsi).

II. Heyvan anlayışı bildirən isimlərdə cins mənası: erkek cinsli: lion (şir), tider (pələng), boar (donuz), bick (maral), bull (kəl, öküz), ram (qoç), dog (it); dişi cinsli: lioness (dişi şir), tigeress (dişi pələng), sow (dişi sonuz), dol (dişi maral), cow (inək), ewe (qoyun), bitch (dişi it).

III. Quş anlayışı bildirən isimlərdə cins mənası: erkək cinsli: cock (xoruz), cockerel (beçə), drake (ördək), gander (qaz); dişi cinsli: hen (toyuq), pullet (fərə), duck (ördək), goose (qaz).

İngilis dilində isimlərdə cins mənası göstərmək üçün ismin qarşısına onun cinsini göstərə biləcək sözlər yazılır (5, 191). Kişi və qadın cinsinin göstəricisiola biləcək bu sözlərin yaranmasının öz səciyyəvi cəhətləri var. Belə isimlərin yaranmasında vastəçi olacaq sözlər bunlaedır.

1) Man, woman, maid, boy, girl, he, she sözləri cins mənası göstərmək üçün əsasən peşə yönlü sözlərin qarşısında işlənir:

kişi cinsi:	qadın cinsi:
man - teacher	woman - teacher
man - doctor	woman - doctor
boy - friend	girl - friend
he - cousin	she - cousin

2) “Male”, “female”, “he”, “she” sözləri heyvan mənalı isimlərin cinsini göstərmək üçün onların qarşısında işlənir:

kişi cinsi:	qadın cinsi:
male - elephant	female - elephant
he - wolf	she - wolf
male - frog (qurbağa)	female - frog

3) Insan adları heyvan mənşəli isimlərin cinsini göstərmək üçün onların qarşısında cins göstəriçisi kimi işlənir.

kişi cinsi:	qadın cinsi:
Jack - ass (eşşək)	Jenny - ass
Tom - cat	Tabby - cat
Billy -goat	Nanny - goat

4) "Cock" və "hen" sözləri quşların cinsini göstərmək üçün quş adlarının qarşısında nə sonunda işlənir.

kişi cinsi:	qadın cinsi:
cock - sparrow (erkək sərçə)	hen - sparrow (dişi serçə)
cock - pheasant (erkək qırqovul)	hen - pheasant (dişi qırqovul)
heath - cock (erkək tetra quşu)	heath - hen (dişi tetra quşu)
peacock - (erkek tovuz quşu)	peahen - (dişi tovuz quşu)

İngilis dilində quş, balıq, heyvan adları, mücərrəd isimlər orta (neuter) cinsə aid edilir. Ancaq müəyyən qrup isimlərin cins mənası ilə bəzi ənənəvi əlaqələri mövcuddur. Bu hal cümlə daxilində ismin əvəzedicisi kimi əvəzliklər işlədiləndə təzahur edir. Məsələn:

1) "Sun" (günəş) kişi cinsinə aid edilir.

It is pleasant to wacth the sun and his chariot of gold.

2) "moon" və "earthy" qadın cinsinə şamil edilir.

It is pleasant to wacht the moon in her chariot of pearl.

At firs the earth was large, but every moment she grew smaller.

3) Gəmi adları qadın cinsinə aid edilir.

(ship, boat, steamer, ice - breaker, cruiser, etc)

The new ice - breaker has started on her maiden voyage/

4) Nəqliyyat vastələrinin (car, carriage, coach) adları qadın cinsinə aid edilir. Bu hal ən çox bu vastələrin sahibləri tərəfindən haqlarında danışdıqları anda mümkünlənir.

She is a fine car.

4) Ölkə adları əsasən qadın cinsinə aid edilir.

England is proud of her poest; Azerbaijan is famous for her oil.

Ümumiyyətlə, bəzən heyvan adları və mecərrəd isimlərin situasiya içərisində cins mənası kəsb etməsi halına təsadüf etməsi mümkündür. Belə halda güc, qüvvət, dəhşət, vahimə bildirən sözlər kişi cinsinə; zəiflik, zəriflik, gözəllik ifadə edən isimlər qadın cinsinə aid edilir. Bu halda ancaq kontekst daxilində mümkündür.

Ədəbiyyat

1. Amold I.V. "The English Word" Москва «Высшая школа» 1986.
2. Əsədova M.N. "İngiliscə - Azərbaycanca tematik sözlər lüğəti", Bakı Nurlan - 2001.

3. Blokh M.Y. “A Course in Theoretical English Grammar”, Moscow - Vishay Shkola - 2000.
4. Gorden E.M., Krylova I.P. “A Grammar of Present Day English”, Moscow - Vishay Shkola - 1980.
5. Коврина Н.А., Корнеева Е.А., Оссовская М.И., Тузеева К.А. «Грамматика Английского языка». С.Питербург - Союз - 1999.
6. Məmmədov H., Axundov A., “Dilçiliyə giriş” Bakı - Maarif - 1980.
7. Смиринцикй А.И. «Лексикология Английского язык», Москва – 1956.

Sevinj Bagirov

The cathegary of gender in English

Summary

This article deals with the Category of Gender in Modern English. The author proves it as a lexical category but not a grammatical category. She also mentions the borrowed French gender suffix endings with the examples used in English language. The article also speaks about the simple and compound nouns, the use of the category of gender in relations and analyses the English words such as “man, woman, maid, boy, girl, he, she” which are used with the category of gender.

Севиндж Багирова

Категория рода в Английском языке

Резюме

В статье описываются категории рода в современном английском язык. Автор отличает что категория рода является лексической категорией а не грамматической. В тоже время автор доказывает, а наличии взаимостенных французских грамматических родовых окончаний, которые используются в современном английском язык, и приводит свои примеры. В статье также рассматриваются простые и сложные существительные, употребление категория рода в родственных отношениях и анализируются английские слова как “man, woman, maid, boy, girl, he, she” которые употребляется с категориям рода.

Rəyçi: Rafiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

XAVƏR HACIYEVA
ADİU

QAYIDIŞ NÖV ƏVƏZLİKLƏRİNİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər Əvəzlik, ingilis dili, Azərbaycan dili.
Key words: English language, English words, reflexive verbs
Ключевое слова: английском язык, возвратного залога родственных отношениях.

Qayıdış növ öz mahiyyətinə görə,hərəkətin,onu icra edənin (subyektin) öz üzərinə yönəldiyini bildirir:

Still,she comforted herself,this was she chance of a lifetime(D.James).

I undressed,and when I got down to the hide I looked at my belly.

Beləliklə,problemi morfoloji cəhətdən nəzərdən keçirdikdə onu müəyyənləşdirmək zəruridir ki, "fel+qayıdış əvəzliyi" (məs:she comforted herself) birləşməsini qayıdış növ forması hesab etmək olar,yəni belə hallarda qayıdış əvəzliyi ayrı-ayrı növ formalarının təşkilində iştirak edirmi? Məsələnin sintaktik aspekti də mövcuddur: qayıdış əvəzliyi onun aid olduğu fellə birlikdə cümlənin bir üzvüdürmü,yaxud qayıdış əvəzliyi cümlədə müstəqil sintaktik funksiyanı daşıyırmı?

Məna nöqteyi-nəzərindən tasdiq edə bilərik ki, "She comforted herself"cümləsində comfort leksemi "she comforted him"cümləsindəki kimi,eyni diatezə malikdir.Hərəkət subyekt tərəfindən yerinə yetirilir və birinci halda subyektə uyğun gələn obyektə yönəlmişdir,ikinci halda isə,hərəkət subyektə münasibətdə kənarda qalır. Bu halda o fakt aıkar görünür ki, "She comforted herself" cümləsində herself əvəzliyi vasitəsiz tamamlıq funksiyasını ("She comforted him" cümləsindəki kimi) yerinə yetirir.

Bir sırahallarda "fel+qayıdış əvəzliyi" birləşməsinin mənası onun komponentlərinin mənasının məcmusuna uyğun gəlmir.Məsələn:

And then he found himself on the street (R.Shekley).

One night I found myself on an operating table…(R.A.Heinlein)

Verilən nümunələrdə "to find oneself" birləşməsi,sadəcə olaraq, "özünü tapmaq" kimi başa düşülə bilməz. Buna görə də, "to find oneself" tipli birləşmələrin frazeoloji vahidlər kimi nəzərdən keçirmək lazımdır.

B.İlyiş "fel+qayıdış əvəzliyi" birləşmələrinin statusu barədə məsələnin həllində həmin birləşmələrin iştirak etdiyi sintaktik kontekstlərin təhlilinə müraciət etməyi təklif edir (3,397). Məsələn,belə hallarda qayıdış əvəzliklərinin sintaktik müstəqilliyinə "fel+qayıdış əvəzliyi+isim, yaxud əvəzlik",yaxud "fel+(qayıdış əvəzliyi+əlavə)" tipli birləşmələr nümunə ola bilər:

I see this man Week doing everythinf that is natural to a complete man: carpentering, painting, digging, pulling and hauling, fetching and carrying, helping himself and everybody esse… (B.Shaw)

I am defending myself-an accused communist (R.Fox)

Fikrimizcə, ingilis dilində belə cümlələrin mövcudluğu imkanlarının özü "fel+qayıdış əvəzliyi" konstruksiyalarının qrammatik səlisliyini şübhə altına alır,

hətta autentik mənbələrdə yuxarıda göstərilən nümunələr müşahidə olunmadıqda belə, bu şübhə yenə də qalmaqdadır.

"Fel+qayıdış əvəzliyi" birləşmələrini qayıdış növün analitik formaları kimi qəbul edilməsinə, həmçinin, onların semantik cəhətdən müxtəlifcinsli səciyyəli olması da mane olur. Bir sıra hallarda qayıdış əvazliyi fellə birlikdə (bu, xüsusilə ditranzitiv fellərə aiddir) hərəkətin birbaşa yönəldiyi obyekti deyil,hərəkətin ünvanını ifadə edir.

This was ridiculous, she told herself (S.Weston).

She lit herself a cigarette (R.Dahl).

She comforted herself və she told herself cümlələrinin zahirən oxşarlığı qeyri-identik diatezlər əsasında yaranır, onların tərkibinə daxil olan herself əvəzliyi isə müxtəlif sintaktik funksiyaları-vasitəsilə və vasitəsiz tamamlıq funksiyalarını yerinə yetirir. Belə diferensiasiya "fel+qayıdış əvəzliyi" birləşmələrinin kifayət qədər qrammatikləşmədiyinə əlavə sübutdur.

Yuxarıda deyilənlərin hamısı belə nəticəyə gəlməyə imkan verir ki, fellə qayıdış əvəzliyinin birləşməsindən yaranan konstruksiyalar qrammatik növün xüsusi növü kimi nnəzərdən keçirilə bilməz. She comforted herself tipli cümlələrdə fel məlum növdə çıxış edir, qayıdış əvəzliyi isə vasitəsiz tamamlığın funksiyasını yerinə yetirir. Fel və qayıdış əvəzliklərinin iştirakından yaranmış birləşmələr müəyyən idiomatiklik səciyyəsi (məs: to find oneself "görünmək, iştirak etmək" mənasında, to help oneself "qonaq olmaq", to enjoy oneself "vaxtını yaxşı keçirmək" mənasında) daşıdıqda, söhbət komponentlərin qrammatik deyil, leksik uyarlığından gedə bilər.

Ənənəvi tərifə görə, qarşılıq növ iki və daha artıq subyektin müştərək hərəkətlərini ifadə edir:

...they take to...trying to comfort one another with stories (R.Dahl).

...I would give us both time to get to know each other again (C.Lamb).

...the next time we met he might be the colonel and I the sergeant (R.A.Heinlein).

İngilis dilində qarşılıq növü tədqiq edərkən qayıdış növə aid olan məsələlər kimi, bir sıra suallara cavab vermək zərurəti yaranır.Onlardan ən başlıcası - "fel+qayıdış əvəzliyi (each other/one another)" birləşməsinin qarşılıq növün analitik forması kimi qiymətləndirmək mümkündürmü sualına cavab tapmaqdır.

Bu suala cavab vermək üçün aşağıdakıları müəyyənləşdirmək vacibdir:

1. "Fel+qayıdış əvəzliyi" birləşməsini sabit analitik forma kimi qəbul etmək üçün bu konstruksiya semantik uyardığa malikdirmi?
2. Həmin birləşmələr cümlədə bir üzv kimi, yaxud müstəqil sintaktik tərkiblər kimi çıxış edirmi?

"Fel+qayıdış əvəzliyi" konstruksiyalarının idiomatikliyi haqqında danışmaq düzgün olmaz, çünki həmin birləşmələrin semantikası onların komponentlərinin mənalarının məcmusu ilə müəyyənləşir.Semantik cəhətdən They comforted one another cümləsi The comforted the neighbours cümləsinə uyğundur. Hər iki halda subyektin hərəkəti obyektə yönəlmişdir: birinci halda obyekt subyekt ilə oxşardır, ikinci halda isə ondan fərqlənir.

Nəzərdən keçirilən konstruksiyalarda qayıdış əvəzliyinin tam məna yükünə malik olması faktı onu analitik konstruksiyaların köməkçi elementi hesab etməyə

imkan vermir, yəni "fel+qayıdış əvəzliyi" konstruksiyasında qarşılıq mənası morfoloji yolla deyil, leksik vasitə ilə ifadə edilir.

Konstruksiyanın tərkibinə həmcins tamamlıqların daxil olması imkanı belə birləşmələrin qeyri-morfoloji səciyyəsini bir daha nümayiş etdirir (Məsələn:They comforted one another and the neighbours).

Aning sıdkıga nazil boldı ayet.
Bilür Tanrı egerçi hâlimizni,
Terazuga salur amelimizni.
Kılur agah kulun kılmışlarıga,
Yetüşmes akıl İgemning işlerige.
Terazi barığa ikrarımız var,
Neçük erkaniğa ne karımız var.
İlaha, kıl ağız mizanımızni,
Selamet tut, bizning imanımızni.

"İmanın beyanı", "Meleklerin beyanı", "Peygamberlere iman itmenin beyanı", "Resulüllahın miracının beyanı", "Ecelin beyanı", "Kabir azabının beyanı", "Kıyametin gerçekliğinin beyanı", "Sırat köprüsünün beyanı", "Kevser havuzunun beyanı", "Peygamberlerin şefaatlerinin beyanı" bölümleri hakkında da aynı sözleri söyleyebiliriz. Bazı yerlerde akaid metinlerinde gelen birkaç konu bir bölüme alınmıştır. Örneğin, her biri ayrı bir konu olan hayat, ilim, kudret, besiret, sam', irade, kelam, tekvin kavramları "Allah Tealanın sıfatlarının beyanı" bölümünde açıklanmıştır. Tabii ki, bunun da bir nedeni vardır. Farklı anlam taşıyan bu sıfatların tek bir Zata ait olması nedeniyle onların ayrı ayrı bölümlerde açıklanmasına ihtiyaç yoktur. Cetvelin dördüncü sütununda kaynaklardan alınan alıntılar noktalı virgül vasıtasıyla ayrılmış ve böylece üç kaynakta gelen açıklamalar bir araya toplanmıştır. Ayrıca, cetvelin *iman* kelmesine ait olan satırında iman nurunun güçlenmesi veya zayıflaması hakkındaki açıklama akaid metinlerinde değil, onun şerh kısmında vardır.

Bütün bu karşılaştırmalar sonucunda bir soru ortaya çıkar. Yani, Sabatü-l-acizin esas itibarıyla bu üç kaynaktan hangisine daha yakındır? Burada *esas itibarıyla* ifadesini bu üç kaynaktan birinin Sebatü-l-acizin'in ortaya çıkmasına neden olmuştur, şeklinde kabul etmemek lazım. Çünkü her üç kaynağın Sebatü-l-acizin'in yazıl-

masında birer kaynak oldukları gerçektir. Ama bizim merakımızı uyandıran husus Sufî Allahyâr'in bu kaynaklardan hangisinden daha çok etkilendiğini be bu etkinin Sebatü-l-acizin'e ne kadar yansıdığını öğrenmektir.

"El-akaidü-n-nesefî"de Yaradanın sıfatlarını açıklayan şöyle bir ifade vardır: **و [هي لا هو ولا غيره]** yani, Allah'ın Zatındaki sıfatlar Zatın kendisi değil ve Zatından başka da değil. Bu cümle Sebatü-l-acizin'ın "Allah Teala'nın sıfatlarının beyanı" bölümünde başarıyla ifade edilmiştir ki, onu yukarıdaki Arapça metnin tam tercümesi diyebiliriz: *Subutidür aning sekkiz sıfatı, Sıfat Zatı emes, ne gayri zatı.*

Sufî Allahyâr'in "El-akaidün nesefî"den daha çok etkilendiğini ve bu eserden istifade ettiğini şu deliller de kanıtlar:

"Tekvin (peyda etmek) Allah'ın ezeli sıfatıdır. O bu sıfatıyla bütün alemi ve alemin bütün parçalarına kendine uygun olan bir vakitte yaratmıştır. Tekvin sıfatı Allah için söylenirken "peyda edilen" olarak değil, akidemize göre "peyda eden" olarak anlaşılmalıdır.

Tekvin sıfatı "El-akaidün nesefî"den başka metinlerde yoktur. Sebatül acizin'de bu sıfat şöyle açıklanmıştır:

Sıfatının birin tekvin demişler,
Hudadın halka ruzi berçe iler.
Yarattıkim, neçük sizniyu bizni,
Takı halk etti bizni fiilimizni.

"El-akaidü-n-nesefî"de cüz-i ihtiyar hakkında şöyle denir: **[و للعباد أفعال اختيارية يثابون بها و يعاقبون عليها و الحسن منها برضا الله تعالي و القبيح منها ليس برضاه]**

Yani, "Kullarda ihtiyari fiil ve hareketler vardır. Bu hareketleriyle onlar sevap kazanırlar veya günah işlerler. Amellerin iyisi Allahın rızasıdır, en kötüsü de Allahın rızasının dışında yapılır". "Sebatül acizin"de:

Eger çendiki koymas erkimizge,
Beribdür ihtiyari cüz'i bizge...
Uşança ihtiyari cüz'idin baz,
Tapar bende ceza köp kılsa ya az...
Huda razı emes isyanımızga,
Rızasıdur aning ihsanımızga...

Beyitlerin metne bu kadar uyması tesadüf olamaz. Onlarca (belki de yüzlerce) fetva kaynaklarından yararlanarak on iki binden fazla beyitli fıkıh kitabını yazmış Sufî Allahyâr'ın akide ilmine ait müteber kaynaklardan haberdar olduğunu yukarıda getirilen deliller kanıtlamaktadır. Dolayısıyla, "Sebatü-l-acizin"i akaid meselelerini ele alan çok değerli bilimsel, sanatsal bir kitap olarak kabul edebiliriz.

Peki, niçin bilimsel sıfatının yanında sanatsal sıfatını da dile getirmekteyiz? İlk önce, bu eser Ali bin Osman Siraciddin el-Uşi'nin "Bad'ül ameli" ve Mahmud bin Seyyid Nazir Terazi'nin "En-nazmül havi li akidetil imam Tahavi" gibi nazım şeklinde yazılmış eserler gibi tam bilimsel olması için baştan sona kadar (hem şekil hem anlam bakımından) akaid metinlerinin kalıbında olması lazımdı. Ancak "Sebatül acizin" hem vazife, hem oluşum açısından bu kalıba uymamaktadır. Ayrıca, müellif eserin yazılış sebebini açıklarken boşuna "Nesayihdin hem andek eyledim yad" dememişti. Eserin üçte ikisi münacat, rivayetü hikayet türlerine ait öğütlerin sanatsal bir şekilde ele alınmasından ibarettir. Demek ki, Sebatü-l-acizin akaid il-

minde itiraf edilmiş âlimleri tasnif ettikleri müteber kaynaklara esas ve hüküm açısından uygunluk sağlamıştır. Dolayısıyla da inanılır bir kaynaktır. Genel karakterine göre de bilimsel ve sanatsal bir kaynaktır.

Список литературы

1. Сўфи Оллоёр. Саботул ожизин (Нашрга тайёрловчи Рашид Зоҳид), Т.: “Санъат журнали” 2007

2. “Ҳидоят ут-толибийн” – “Сабот ул-ожизийн” шарҳи (нашрга тайёрловчи Озодбек Алимов), –Т.: “Тошкент ислом университети” нашриёт матбаа бирлашмаси, 2009

3 Сирожиддинов Ш. Сўфи Оллоёр илоҳиёти.Т.: “Имом ал-Бухорий халқаро жамғармаси нашриёти, 2001

4. Ақоид матнлари.//Нашрга тайёрловчи ва таржимон Шайх Абдулазиз Мансур/ -Т.: “Тошкент Ислом университети”, 2006.

5.Шайх Муҳаммад Содиқ Муҳаммад Юсуф. Сунний ақидалар. –Т.: “Мовароуннаҳр”, 2005;

10. 06. 2013 г.

Захидов Рашид Фазылович

Доказательство «акида» - основа веры

Резюме

В этой статье изучается письменный памятник XVII-XVIII века «Сабатул аджизин», который по содержанию и структуре является книгой акаид – науке изучающей основы веры, в которой наряду с вопросами вер убеждения также изложена настоящая человеческая природа и его нравственное достоинство посредством мудрых изречений, назидательных рассказов.

Zahidov Rəşid Fazyloviç

Dəlil "akida" - iman əsasında

Xülasə

Sualdinlərinvə inancları ilə yanaşı, müdrikkəlamlarvasitəsilədoğruinsantəbiəti və onunmənəvidəyəryola çıxan, iman əsaslarını,araşdırmalaredənelm, xəbərdarlıq - Buyazıdayazılı abidə XVII-XVIII əsrlərdə Sabatuladzhizin" kitabınınməzmunuvə strukturuakaidolduğunu öyrənməkhekayələr.

Zakhidov Rashid Fazylovich

The evidence of "akida" is the basis of faith.

Summary

In this article studies the work of XVII-XVIII centuries "Sabatul adjizin" on the subject and structure of the book is akaid – the science of studying the basics of faith, which along with questions faith and beliefs set out real human nature and its moral dignity through wise sentences, didactic tales.

Rəyçi: N. Cabbarov
filologiya elmləri doktoru, professor

RUHƏNGİZ ABADOVA
ADU-nun b/m
e-mail: lamka13@rambler.ru

ŞİFAHİ NİTQİN İNKİŞAFINDA QRAMMATİKANIN ROLU

Açar sözlər : şifahi nitq, qrammatika, kommunikativlik.
Ключевые слова: устная речь, грамматика, коммуникативность.
Key words: le langage oral, la grammaire, la communication.

Dillərin kommunikativ məqsədlə tədrisi kommunikativ bacarıq və vərdişlərin bütün növlərinin eyni zamanda və bir-biri ilə əlaqəli şəkildə inkişafına əsaslanır. Bu prosesə öz fikrini şifahi və yazılı ifadə etmə, danışanı və yazılanı anlama, qrammatik səriştələri bu bacarıqların inkişafına tətbiq etmə daxildir.

Anlama bacarığı əvvəllərdə mənimsənilmiş və dərk olunmuş dil materialı əsasında xarici dildə söylənilən fikrin başa düşülməsindən ibarətdir.

Danışma, fikri ifadə etmək isə fəal proses olub, fikrin şüurlu surətdə xarici dildə ifadəsi deməkdir. Şifahi nitqin bu iki cəhəti bir-biri ilə sıx surətdə əlaqədardır.

Bu iki bacarığı əlaqələndirib, səmərəl tətbiq etmək üçün kommunikativ metoddan istifadə etmək daha səmərəli nəticə verə bilər.

«Müasir dövrdə dillərin tədrisi və öyrənilməsinin başlıca məqsədi onun ünsiyyət vasitəsi olması və ünsiyyətə xidmət etməsidir» tezisindən çıxış etsək, yuxarıda sadaladığımız kommunikativ vərdişlər arsında şifahi nitq, yəni danışma bacarıq və vərdişləri öz əhəmiyyətinə görə ön planda durur. Bu məqalədə biz şifahi nitqin inrkişafında linqvistik bacarıqların, o cümlədən qrammatikanın rolu və əhəmiyyətindən bəhs edəcəyik.

Dillərin tədrisi və təliminə kommunikativ yanaşma aşağıdakı səriştələrin vacib inteqrasiyasını tələb edir:

1. Linqvistik səriştələr. Dilöyrənən dilin lüğəti və bu dilə xas realii ləri sahəsində əldə etdiyi bilikləri onun qrammatikasının köməyi ilə reallaşdıraraq öz fikrini ifadə edə bilir.

2. Sosial-linqvistik səriştələr. Dilöyrənən linqvistik elementlərdən, dilin qrammatikasından əldə etdiyi bilikləri yerində və məqsədyönlü şəkildə nitq situasiyalarında öz nitqinə tətbiq edə bilir.

3. Diskursiv səriştələr. Dilöyrənən söhbət zamanı öz fikrini əminlik və yəqinliklə elə aydın və ardıcıl ifadə edə bilməlidir ki, həmsöhbəti onu anlamaqla, onun fikrinə öz münasibətini bildirsin.

4. Strateji səriştələr. Dilöyrənən xarici dildə öz fikrini səlis ifadə etmək, danışmaq məqsədilə bir sıra verbal və qeyri-verbal kommunikativ priyomlardan istifadə edir.

5. Sosial-mədəni səriştələr. Dilöyrənən öyrəndiyi dilin sosial-mədəni dəyərlərinə bələd olmalı və yerigəldikcə onları öz ölkəsinin sosial-mədəni dəyərləri ilə müqayisə edə bilməli və müəyyən oxşar və fərqli cəhətləri aşkar edə bilməlidir.

6. Sosial səriştələr. Dilöyrənən başqası ilə ünsiyyətə girməsi üçün özündə bu dildə danışmaq, öz fikrini ifadə etmək üçün həm arxayınlıq, əminlik duymalı, həm də onun bu ünsiyyətə məqsədli şəkildə ehtiyacı olmalıdır[28].

Kommunikativ təlimin əsasını təşkil edən bu tezisləri nəzərdən keçirdikdə məlum olur ki, onun ilk və iki əsas elementi linqvistik dəyərlərə, dilin qrammatikası sahəində əldə edilmiş bacarıq və vərdişlərə əsaslanır. Bu isə onu göstərir ki, dilöyrənmənin, xarici dil təliminin əsasını onun hansı metod və ya üsulla həyata keçirilməsi deyil, bu dilin qrammatikası sahəsində əldə edilmiş bacarıq və vərdişlər təşkil edir.

Dillərin kommunikativ məqsədlərlə tədrisi və təlimində, o cümlədən şifahi nitqin inkişaf etdirilməsində qrammatikanın rolu və əhəmiyyəti barədə dilçilərin və didaktiklərin rəyi müxtəlif olmuşdur. Onların bir qrupu hesab etmişdir ki, dil təlimində dilöyrənənlərə möhkəm qrammatik bilikləri öyrətmək lazımdır ki, sonradan onlar xarici dildən ünsiyyət vasitəsi kimi istifadə etdikdə, danışdıqda, danışıqda müəyyən dərəcədə iştirak etdikdə bu biliklərdən istifadə etməklə cümlə qura bilsin və öz fikrini anlaşıqlı iafdə edə bilsin. Digərləri isə belə fikirdə olmuşlar ki, qrammatikanın tədrisindən asılı olmayaraq, dilöyrənənlərin qrammatik materiala bələd olub-olmamalarından asılı olmayaraq onlara kommunikativ səriştələri aşılamaq lazımdır. Üçüncü qrup dilçi-metodistlər isə hər iki nəzəriyyəçiləri bir araya yığmaq və sanki bunların fikrində bir tarazlıq yaratmaq məqsədilə şifahi nitqin inkişafında qrammatikanın rolunu saxlamaqla kommunikativ fəaliyyət növlərinə üstünlük vermişlər.

Bizim fifkrimizcə, yuxarıda irəli sürülən tezislərin hər biri öz-özlüyündə həqiqətə bənzəyir. Amma bunlar bir-biri ilə əks cəbhələrdən deyil, əlaqəli şəkildə inkişaf etdirilməlidir. Yəni xarici dildə danışmaq üçün, ondan kommunikativ məqsədlərlə istifadə etmək üçün mütləq dilöyrənən bu dilin müvafiq qrammatik quruluşuna bələd olmalı və məhz bunun əsasında kommunikativ situasiyalardan öz nitqində istifadə etməyi bacarmalıdır. Burada əsas diqqəti məhz hansı qrammatik materialdan və necə, nə zaman istifadə etmək məsələsi cəlb edir. Qrammatika əvvəlcədən sistem şəklində öyrədilməli, sonradan ondan danışıqda istifadə edilməlidir, yoxsa danışıq üçün vacib linqvistik material tədris olunmalıdır? Bu məsələdə bir sıra poblemlər ortaya çıxır: xarici dil nə məqsədlə, kimə və ya kimlərə, harada, hansı yaşda öyrədilir? Məqsəd aydın olduqdan sonra qrammatik miaterialın şifahi nitqin inkişafındakı rolunu daha qabarıq şəkildə göstərmək olar. Tədrisin ilkin mərhələsində şifahi nitqin inkişafında asan və bəsit qrammatik materialdan istifadə edilməlidir. ... Bu, dilörənənlərdə təkrarlar vasitəsilə vərdişə çevrilməli və onlar bu qaydalardan yerigəldikcə asanca istifadə etməyə alışmalıdırlar.

Bu məqsədlə qrammatikanın tədrisi praktik istiqamətdə, yəni nitq daxilində (dialoq və s.-də) aparılmalıdır.

Qrammatik məfhumları mexaniki olaraq əzbərləmək əvəzinə, şagirdlər onları düzgün dərk etməli, şifahi nitqdə düzgün işlətməyi bacarmalı və bu sahədə avtomatlaşdırılmış vərdişlərə yiyələnməlidirlər.

Şagirdlər qrammatik konstruksiyaları və nitq modellərini möhkəm mənimsədikdə, öz fikirlərini xarici dildə ifadə etməkdə demək olar ki çətinlik

[28] *La communication dans la classe de langue.* Les éditions du Conseil de l'Europe. Strasbourg, 1993, p. 1-2

çəkmirlər. Didaktikanın sadədən mürəkkəbə prinsipinin tələbinə uyğun olaraq, müxtəlif çalışma və tapşırıqlardan istifadə etmək vacibdir, yəni şagirdlərdən cümlələri təsdiq, sual və inkar şəklində işlətmək, nöqtələrin yerini lazımi formada doldurmaq, indiki zaman formasında verilmiş cümlələri keçmiş zamanda söyləmək, əvəzlikləri şəxslərə görə təsrif etmək, verilmiş sözlərdən cümlələr düzəltmək, müvafiq üzvləri artırmaqla cümlələri tamamlamaq, rabitəli nitqi dinləyərək müəyyən əlamətə görə oradakı formaları qruplaşdırmaq və s. kimi yaradıcı və nisbətən mürəkkəb çalışmaları yerinə yetirmək tələb olunur.

Təlimin ilk pilləsində şifahi nitq vərdişlərinin yaradılmasında ana dili də mühüm rol oynayır. Təcrübə göstərir ki, şagird nəinki həmin dildə sadə bir fikri ifadə etməkdə çətinlik çəkir, hətta o başqasının nitqini də qavrayıb dərk edə bilmir. Bu zaman o, ana dilinin reallıqlarından istifadə edərək, xarici dildə çıxış edərkən səhvlərə yol verir. Ona görə də müqayisədən istifadə etmək lazımdır ki, şagird öyrənilən dilin ana dili ilə müqayisəsi zamanı hər iki dil arasında oxşar və fərqli cəhətləri aşkar etsin.

Azərbaycan dili ilə müqayisəli şəkildə öyrənilməsi vacib olan qrammatik hadisələrdən biri fransız dilində söz sırasıdır. Məlumdur ki, Azərbaycan dilindən fərqli olaraq fransız dilində təyinlər təyin etdikləri sözdən, tamamlıqlar isə mənasını tamamladıqları feldən sonra gəlir, yer və zaman zərflikləri məntiqi vurğudan asılı olaraq, ya cümlənin əvvəlində, ya da sonunda, tərzi-hərəkət zərfliyi isə, adətən, feldən sonra işlənir.

Azərbaycan dilində isə əksinə, hər bir təyinedici söz təyin etdiyi sözdən əvvəl gəlir.

Məs.: *maraqlı kitab – un livre intéressant*

Su içmək – boire de l'eau

Evə qayıtmaq – rentrer à la maison

Çox danışmaq – parler beaucoup

İşdən sonra dincəlmək – se reposer après le travail

Fransız dilindən fərqli olaraq Azərbaycan dilində xəbər heç vaxt öz yerini dəyişmir, bir qayda olaraq həmişə cümlənin sonunda gəlir.

Məs.: *O, işindən danışır – Il parle de son travail.*

Mən anamı çox sevirəm – J'aime beaucoup ma mère.

Müqayisəli şəkildə öyrənilməsi vacib lan digər qrammatik hadisələrdən biri də uzlaşma hadisəsidir.

Azərbaycan dilindən fərqli olaraq fransız dilində cins kateqoriyası mövcud olduğundan fransız dilində uzlaşma hadisəsinə çox rast gəlinir.

- sifət aid olduğu isimlə cinsə və kəmiyyətə görə uzlaşır, məsələn:

Un livre intéressant - maraqlı kitab

Une leçon intéressante - maraqlı dərs

Des livres intéressants - maraqlı kitablar

Des leçons intéressantes - maraqlı dərslər

- ismi xəbərin ad hissəsi mübtəda ilə cinsə və kəmiyyətə görə uzlaşır, məsələn :

Il est étudiant – Elle est étudiante

Ils sont étudiants – Elles sont étudiantes

- xəbər mübtəda ilə cinsə və kəmiyyətə görə uzlaşır, məsələn:
Je travaille – Nous travaillons
Tu lis – Vous lisez
Il arrive – Ils arrivent

- feli sifət mübtəda yaxud feldən əvvəl gələn tamamlıqla (COD) uzlaşır, məsələn :
Il est allé – Elle est allée
Ils sont allés – Elles sont allées
Il s'est réveillé – Elle s'est réveillée
Ils se sont réveiollés – Elles se sont réveillées
La robe qu'elle a mise lui allait bien.
Ces belles chaussures, où tu les as achetées ?

Müqayisəli şəkildə öyrənilməsi vacib olan digər qrammatik hadisələrdən biri də idarə əlaqəsidir.

İdarə əlaqəsindən danışarkən göstərməliyik ki, fransız dilində idarə : à, de, pour və s (vasitəsiz tamamlıq sözönüsüz işlənir), Azərbaycan dilində isə hal kAteqoriyası mövcud olduğundan idarə müxtəlif hal şəkilçilərilə düzəlir və onlar isimdən sonra gəlir.

Məs.: *Je répète mon cours - Mən dərsimi təkrar edirəm.*

Fransız dilində vasitəsiz tamamlıq kimi çıxış edən «mon cours» azərbaycan dilində vasitəsiz tamamlıq kimi çıxış edən «dərsimi» sözünə uyğun gəlir.

Məs.: *Je travaille dans une bibliothèque - Mən kitabxanada işləyirəm.*

Bu cümlədə «dans une bibliothèque» yerlik halda olan yer zərfliyidir.

Je vais au stade avec Michel – Mən Mişel ilə stadiona gedirəm.

Bu cümlədə isə «au stade» yönlük halda olan yer zərfliyidir. «Avec» Sözönüsü isə azərbaycan dilindəki «ilə» qoşmasına uyğun gəlir.

«A» və «de» sözönüləri ilə düzəlmiş bir sıra konstruksiyalar azərbaycan dilinə tərcümə zamanf ismin müxtəlif hallarına uyğun gəlir.

Məs. : *C'est le frère de mon ami - O, mənim dostumun qardaşıdır (çıxışlıq hal)*

Nous sortons du bureau à 5 heures - Biz işdən saat 5-də çıxırıq (çıxışlıq hal)
Il offre des fleurs à sa mère - O, anasına çiçək bağışlayır (yiyəlik hal)
Je me réveille à 7 heures - Mən saat 7-də oyanıram (yerlik hal)

Fransız dilində mənsubiyyət sifətləri Azərbaycan dilində həm şəxs əvəzliklərinin yiyəlik halına (mənim, sənin, onun), həm də mənsubiyyət şəkilçilərinə (ton livre – kitabın ; sa table – stolu və s) uyğun gəlir; bəzən mənsubiyyət sifətləri Azərbaycan dilinə «öz» qayıdış əvəzliyi kimi də tərcümə olunur.

Məs.: *Je donne mon livre à mon ami - Mən öz kitabımı dostuma verirəm*

Azərbaycan dilindən fərqli olaraq, fransız dilində mənsubiyyət sifətləri aid olduqları isimlə uzlaşır.

Məs.: *mon livre - mənim kitabım ; mes livres - mənim kitablarım*

İşarə sifətlərindən danışarkən qeyd etmək lazımdır ki, Azərbaycan dilindəki işarə əvəzliklərindən fərqli olaraq, fransız dilindəki işarə sifətləri isimsiz işlədilmir və aid olduğu isimlə cinsə və kəmiyyətə görə uzlaşır. Məs. :

Ce livre – bu kitab

Ces livres – bu kitablar
Cette pomme – bu alma
Ces pommes – bu almalar

Bütün bunlarla yanaşı qeyd etmək istərdim ki, təlimin ilk pilləsində bir qayda olaraq, şifahi nitqin ən sadə forması olan sual-cavabdan (interraktiv metoddan) da daha geniş istifadə olunur. Məlum olduğu kimi fransız dilinin sual cümləsi Azərbaycan dilinin sual cümləsindən fərqlənir.

Belə ki, fransız dilində sual sözü cümlənin əvvəlində işləndiyi halda, Azərbaycan dilində sual sözləri işləndikləri yerə görə sərbəstdir. Məs.:

Que font-ils ? - Onlar nə edirlər?
Où allez-vous ?- Siz hara gedirsiniz?
Comment écrivent-ils ? - Onlar necə yazırlar?
Pourquoi ils sont en retard ? - Onlar nə üçün gecikirlər?

Sual-cavabları avtomatlaşdırmaq üçün şagirdlərə əvvəlcə intonasiya vasitəsilə düzələn sual cümlələrini öyrətmək lazımdır. Ona görə ki, bu Azərbaycan dilində intonasiya vasitəsilə düzələn sual cümləsi ilə eynidir. Məs.:

Tu es français ? - Sən fransızsan?
Oui, je suis français. - Bəli, mən fransızam.
Il est espagnol ? - O ispandır?
Non, il n'est pas espagnol, il est italien. - Xeyr o ispan deyil, o italyandır.
Vous êtes étudiant ? - Siz tələbəsiniz?
Oui, je suis étudiant. - Bəli mən tələbəyəm.

Bu modelləri təkrar dinləmiş şagirdlər oxşar sual formaları qurarkən heç bir çətinlik çəkmirlər.

Qeyd etmək lazımdır ki, bu tipli suallarla əlaqədar cavablar da birtipli olmalıdır. Çünki şagirdlər sualı başa düşsələr də ona cavab verməkdə çətinlik çəkirlər. Ona görə də ilk dəfə şagirdlərə «bəli» və «xeyr» cavabı tələb edən sadə ümumi suallar vermək lazımdır. Birtipli sual və cavab üzrə müəyyən bacarıq yarandıqdan sonra şagirdləri müxtəlif növ suallara cavab verməyə öyrətmək lazımdır. Şagirdlərin nitqini inkişaf etdirmək üçün verilən suallar müxtəlif ola bilər:

1) Ayrı-ayrı cümlələrə
2) Mətnin bir hissəsinə
3) Tam mətnə verilən suallar

Məs.: *Quel* *âge as-tu ?* - *Neçə* *yaşın var?*
Comment *allez-vous ?* - *Necəsiniz?*
De quelle couleur *est votre sac ?* - *Sizin çanta* *nə rəngdədir?*
Quelle heure *est-il ?* - *Saat* *neçədir?*
Comment *t'appelles-tu ?* - *Sənin adın* *nədir?*
Combien *êtesvous dans le groupe ?* - *Siz qrupda* *neçə* *nəfərsiniz?*

Şagirdlər belə çalışmaları icra edərkən, sözləri müxtəlif forma və konstruksiyalarda işlətmək bacarığına yiyələnirlər.

Bu qəbildən olan çalışmaların böyük didaktik əhəmiyyəti vardır; bunlar şagirdlərdə ünsiyyətə girmə bacarığını yaradır, qrammatik vahidləri düzgün işlətməyi öyrətməklə bərabər, onları sadə məişət mövzularına dair müsahibə aparmağa da hazırlayır.

Fransız və Azərbaycan dillərində qrammatik konstruksiyaların müqayisəli təhlili hər bir azərbaycanlı oxucusunun rast gəldiyi çətinlikləri müəyyən etməyə, şifahi nitqdə onların səhvlərini aradan qaldırmağa imkan verir.

Nitq materialının xarakteri dəyişdikcə qrammatik materialın xarakteri də dəyişir. İndi dilöyrənən müəyyən qədər mürəkkəb quruluşlu cümlələrə müraciət etməli olur. Öz nitqini ardıcıl şəklə salmaq, fikirlərini bir-birinə məntiqi cəhətdən bağlamaq üçün müxtəlif qrammatik vasitələrə əl atmalı olur. Bu halda qrammatikanın öyrədilməsi daha çox maraq və əhəmiyyət kəsb edir. Bu halda əvvəlcə dilöyrənənə konkret qrammatik materialın rolu və əhəmiyyəti izah olunmalı, onun hansı məqsədlərlə nitqə daxil edilməsinin səbəbləri öyrədilməli və sonra isə asandan-çətinə, sadədən mürəkkəbə olmaqla həmin qrammatik material nitqə daxil edilməlidir. Məsələn, tutaq ki dilöyrənən Planetin mühafizəsi mövzusu üzərində danışır, öz fikrini şifahi şəkildə anlatmağa çalışır. Bu situasiyada mütləq şagirdlər məsələnin mahiyyətini anladıqdan sonra Planetimizi mühafizə etmək üçün nə etməli olmaları barədə ünsiyyətə girir, hərə öz təklifini irəli sürür, arzularını, istəklərini, məqsədlərini bildirir, bu sahədə hər hansı bir işi görməyin vacibliyini ortaya atır. Burada onlar mütləq « Je voudrais que », « Je souhaite que … », « Je désir que … », « Il faut que … », « Il est nécessaire que … », « Il est possible que … » və s. kimi ifadələr işlətməli olurlar. Bu halda hər şeydən əvvəl onlara fransız dilində arzu şəklinin mənası və düzəlməsi, hansı məqsədlə işlənməsi qaydalarını aşılamaöı, sonra isə həmin strukturları məqsədyönlü şəkildə nitqə daxil etməyi öyrətmək lazımdır. Əks təqdirdə, dilöyrənən *arzu, istək, bacarıq, məqsəd, səbəb, məcburiyyət* mənalarını ifadə edə bilməzlər. Ümumtəhsil məktəblərinin 9-cu sinif üçün fransız dili dərsliyinin (Prof. B. İsmayılov, prof. Ç. Babaxanova və dos. R. İsayeva, Bakı, «Kövsər» nəşriyyatı 2011[29]) 12-15-ci səhifələrinə nəzər salaq. Müəlliflərin şifahi nitqin inkişafında qrammatik materialın tədrisinə düzgün yanaşmaları və şagirdləri «Planetin muhafizəsi» mövzusu ətrafında danışığa cəlb etmələri, mövzu ətrafında onların müəyyən fikir yürütmələri, öz arzu və istəklərini ifadə edə bilmələri, onlara verilən suallara cavab verə bilmələri, danışıqda iştirak etmələri və s. kimi interaktiv fəaliyyətləri məhz qrammatik materialın, o cümlədən arzu şəklinin məqsədyönlü şəkildə tədrisi və mənimsədilməsinin nəticəsidir. Qeyd edək ki, dərslikdə qrammatik material ənənvi üsulla deyil, sistem şəklində deyil, kommunikativ aspektdə tədris olunur. Yəni qrammatik material şifahi nitq materiallarından əvvəl deyil, onlardan sonra gəlməklə məhz öyrədilən kommunikativ situasiyaların nitqə daxil edilməsinə xidmət etməklə nitq materiallarından sonra gəlir və onuları tamamlayır. Daha sonra həmin linqvistik material sonrakı mətnlərdə təkrarlanaraq möhkəmləndirilir və onlar vərdişə çevrilir. Deməli, qrammatik material qrammatik biliklərə yiyələnmək və onu əzbərləyib (passiv şəkildə) yadda saxlamağa xidmət etmir, əksinə, nitq situasiyalarında istifadə etmək məqsədi daşımaqla kommunikativ məqsədə, danışığa, o cümlədən şifahi nitqin inkişafına xidmət edir. Qrammatik material nitq sitüasiyalarında danışıq ehiyacını ödəyir. Adını çəkdiyimiz dərsliyə müraciət edək (Bax səh. 12):

- *Il faut que la pollution diminue.*– - Lazımdır ki, çirklənmə (ətraf mühitin) azalsın.

[29] B. İsmayılov, Ç. Babaxanova, R. İsayeva. *Le Français.* Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı, «Kövsər» nəşriyyatı, səh. 12-11.

- *Pour que notre Planète se porte mieux.* - Planetimiz özünü yaxşı hiss etsin deyə

- *Je veux qu'on interdise l'utilisation des sacs plastiques qui sont dangereux pour l'environnement.* - İstəyirəm ki, ətraf mühit üçün təhlükəli olan salafan torbalardan istifıadə qadağan edilsin.

- *Je voudrais qu'on fasse des expositions, des réunions pour informer les gens.* İstərdim ki, insanları məlumatlandırmaq üçün sərgilər, iclaslar təşkil edilsin.

- *Nous souhaitons que notre club des jeunes écologistes s'occupe de la protection de l'environnement.* Arzu edirik ki, bizim gənc ekoloqlar klubu ətraf mühitin mühafizəsi ilə məşğul olsun.

- *Les écoliers désirent que chacun fasse quelque chose pour garder notre Planète.* Məktəblilər arzu edirlər ki, Planetimizi mühafizə etmək üçün hərə bir iş görsün, və s.

Bu mövzu ətrafında interaktiv tapşırıqların icra edilməsi və şifahi nitiqin inkişaf etdirilməsi arzu şəklinin tədrisi ilə sıx bağlıdır. Əks təqdirdə danışıq aktı baş tutmaz.

Bu mövzunun kommunikativ məqsədlə tədrisi danışıq üçün vacib olan digər bir qrammatik materialın öyrədilməsini ön plana çəkmişdir. Buraya *hərə, kimsə, çoxları, hamı, başqaları, digərləri, hamısı, heç kim, heç nə* kimi şifahi nitqin düzgün qurulması və əsas məqsədin ifadəsinə xidmət edən əvəzliklər daxildir.

Yuxarıdakı tədris materialına saldığımsız qısa bir nəzər göstərir ki, dillərin kommunikativ məqsədlə tədrisində, xüsusilə də şifahi nitqin inkişafında qrammatikanın aşılanması çox mühüm əhəmiyyət kəsb edir. Amma dillərin ənənəvi metodla tədrisindən fərqli olaraq, kommunikativ təlimdə qrammatik materialın tədrisi mütləq kommunikativ məqsədlərə xidmət etməli, danışıq üçün, ünsiyyətə girmək üçün müvafiq fikri düzgün və anlaşıqlı ifadə etməyə xidmət etməlidir. Habelə, qrammatik material nitq materialını tamamlamalı, onun reallaşdırılmasına yönəldilməli və nitq ehtiyacını ödəməlidir. Yalnız bu halda qrammatikanın tədrisi əhəmiyyət kəsb edər.

Ədəbiyyat

1. Besse, H., et R. Porquier. *Grammaire et didactique des langues,* Paris, Hatier. 1984

2. Coste, D., « Sur quelques aspects relations récentes entre grammaire et didactique de français langue étrangère », *Langue français,* N 68, p. 5-17.

3. Job, B., « Enseigner la grammaire des langues », *Etudes de Linguistique Appliqué.* N 74, Paris, 1989.

4. 1. *La communication dans la classe de langue.* Les éditions du Conseil de l'Europe. Strasbourg, 1993, p. 1-2.

5. Moirand, S.R., Porquier et R. Vives., … *Et la grammaire. Le Français dans le monde*. Numéro spécial, Paris, Hachette, 1989.

6. B. İsmayılov, Ç. Babaxanova, R. İsayeva. *Ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələrinin 9-cu sinifləri üçün fransız dili dərsliyi.* Bakı, «Kövsər» nəşriyyatı, 2012.

R Abadova

The role of grammar in oral speech

Summary

The article is devoted to the importance of teaching grammar in teaching languages with communicative purposes especially in oral speech while teaching and learning any foreign language. The learner can't clearly express himself unless he is acquainted with the grammatical structure of this language. The learner can express himself if only he knows the grammatical material to some extent. But in CLT teaching grammar should not be traditional and consequent, but it should help for the acquisition of communicative situations and inclusion of them onto the speaker's speech.

Абадова Р.

Роль грамматики в устной речи

Резюме

Статья посвящена важности грамматики в обучении языков с коммуникативной целью особенно в обучении устной речи. Если человек изучающий какой-либо иностранный язык не знаком с грамматической структурой этого языка, то он не сможет правильно и понятно высказаться на этом языке. Лишь будучи знакомым, в какой-то мере с грамматическим материалом, человек изучающий язык может ясно выразить свою мысль. Но в обучении грамматике не должно носить традиционный и последовательный характер, а должно помочь усвоению речевых ситуаций и включению их в речевую базу изучающего язык.

Rəyçi: f.ü.f.d., dos. R.M.İsayeva

DİLARƏ HƏMİDOVA
AzTU

İNGİLİS DİLİ RAZEOLOGİZMİNDƏ MODİFİKASİYA PROBLEMİ

Açar sözlər: idiom, sabitlik, modifikasiya, mütləq, privativ.
Ключевые слова: идиома, стабильность, модификация, абсолютный, приватив.
Key words: idiom, private, stability, absolute, modification.

Frazeologizmlərdə psixoloji aspektdə tədqiqi onların fiqurativ dil vahidləri olduğu qənaətinə gəlməyə imkan verir. Bu da onunla izah olunur ki, onlar komponentlərinin leksik mənalarının toplusu kimi başa düşülmür, əksinə iki mənalı anlama gəlir. Frazeologizmlərin psixoloji tədqiqindən bəhs edərkən onlar "idiom" termini ilə ifasə olunur, çünki frazeologizmi əmələ gətirən leksemlərin sözbəsöz başa düşülməsi mənasızlığa gətirib çıxarır. Ona görə də frazeoloji birləşmələrin tərkib komponentlərinə istinadən tərcüməsi qeyri-mümkündür.

"İdiom" termini Y.Qottşedin 175-ci ildə nəşr olunmuş "Beobachtungen über den Gebrauch und Miβrauch vieler deutscher Wörter und Redensarten" əsərində götürülmüşdür: "dilimizdə ifadələr vardır ki, başqa bir dilə sözbəsöz tərcümə olna bilmir. Bunkar məhz "idiotiklər" (axmaq) ifadələrdir".

Müasir dilçilikdə bu termin rus dilində "idiom" və ya "idioma", ingilis dilində isə "idiomaticity" sözləri ilə ifadə olunur. Qeyd olunmalıdır ki, sabit söz birləşmələrinin xüsusi bir növü kimi seçilən bu ifadələrin təsadüf nəticəsində söylənilən müqdrik kəlamlardan yarandığı ehtimal olunur.

İdiomlar obyektiv gerçəkliyin obrazlı təsəvvürü əsasında yarandığından ümumi dəyişilmiş məna əsasında çulğalaşmış sözlərin sabit birliyidir. Ona görə də idiomların mənası komponentlərinin mənasının məcmusunu əhatə etmir. Qeyd olunmalıdır ki, həm alman, həm də Azərbaycan dilində olan idiomlar ictimai həyatın müxtəlif sahələrinə aid xalq zəkasının və təfəkkürünün məhsulu olan sabit birləşmələrin toplusudur. Bəzi idiomların etimologiyasına nəzər salsaq, bunu asasnlıqla müşahidə edərik.

Nümunələrə nəzər salaq: *etwas an die groβe Glocke hängen – aləmə car çəkmək* mənasını ifadə edən bu idiom müasir alman dilinin həm rəsmi-publisistika, həm də bədii və danışıq üslublarında yüksək işlənə tezliyi ilə diqqəti cəlb edir: *Er hoffte, daβ die Polizei die Sache nicht an die groβe Glocke hängen werde (Sendung: Leute-heute). Ich denke gar nicht daran, meine Privatangelegenheiten an die groβe Glocke zu hängen (Alltagsrede).* Bu idiomun etimologiyasının qədim alman adət-ənənəsinə söykəndiyi belə izah olunur. Qədim zamanlarda və həmçinin orta əsrlərdə əhaliyə vacib məlumatları elan etmək, hər hansı bir təhlükədən xəbər vermək, oğrunun və ya günahkarın cəzalandırılmasını el-obaya yaymaq üçün zəng çalınarmış. Bu zəng səsi hamını bir yerə toplayar və məlumatın verilməsinə şərait yaradarmış. *Den Fuβ auf den Nacken setzen* – idiomunun etimologiyası "İncil"də təsvir olunan dini mərasimdən götürülmüşdür. Dini mərasim zamanı yarışlar təşkil olunardı. Bu döyüşlərdə qalib şəxs qələbə rəmzi olaraq məğlub olanı itaət etdirər

və ayağını onun peysərinə qoyardı. İndi isə bu idiom kiməsə "gücünü göstərmək", "qəddarlıq etmək" mənasında işlənir.

Der Sultan hatte den Führem der Bergastämme den Fuβ auf den Nacken gesetzt (Märchen aus dem Morgenland, s.124).

Azərbaycan dilində "fatihəsi oxunmaq" idiomu hər hansı bir fəaliyyətin və ya işin sona çatdığını göstərir. Bu idiomun etimologiyasının dəfn mərasimində oxunan "Fatihə" surəsi ilə əlaqədar olduğu zənn edilir.

"Dərisini boğazından çıxarmaq" idiomunun mənasının qədim dövrlərdə heyvanları kəsdikdən sonra soyma adət-ənənəsinə söykəndiyi ehtimal olunur. Çünki qədim insanlar dərini bütöv heyvanın boğazından çıxardaraq ondan "geyim" əşyası kimi istifadə etmişlər. Müasir dildə bu idiom "kiməsə cəza vermək" mənasında bədii və danışıq üslubunda geniş tətbiq dairəsinə malikdir: Bax deyirəm sizin birinizin pişiyi o, birinizin evinə gedə bilməz. And olsun allaha, dərinizi boğazınızdan çıxardaram. (Ə.Haqverdiyev).

B.Hillel (1955), D.Heller (1973), X.Hokkert (1983), U.Şröder (1984), Q.Qreçiano (1987), M.Hiqi-Vidler (1989), D.Dobrovolski (1995), H.Qrasserqer (1989) kimi görkəmli dilçilər məhz frazeologizmlərin tərkibinə daxil olan idiomları ayrıca bir tədqiqat obyekti kimi araşdırmışlar. Bu tədqiqatlarda idiomların struktur-semantik aspektdə təhlilindən, multimedia kommunikasiyada modifikasiyasından, idiomların mətnlə əlaqəsindən, dilin müxtəlif üslublarında reallaşma şərt və imkanlarından, idiomatik ifadələrin tərcümə yollarından bəhs edilmişdir.

Əksər araşdırıcılar (2; 3) tərəfindən idiomların beş mühüm əlaməti nəzərə çarpdırılır: 1) müəyyən söz birləşməsindən ibarət olması, 2) komponentlərinin vahid məna ifadə etməsi, 3) bu mənanın idiomun tərkib elementlərinin nominativ mənası olması, 4) sintaktik və leksik cəhətdən parçalanmaması, 5) başqa dillərə tərcüməsinin qeyri-ümkünlüyü.

Qeyd olunmalıdır ki, adları sadalanan dilçi tədqiqatşılarla yanaşı, bir sıra lüğət müəllifləri də idiomların başlıca nxüsusiyyəti kimi onların tərcüməsinin qeyri-mümkünlüyünü vurğulayırlar. M.Hiqi-Vidlerin fikrincə idiomların bu əlaməti onların ayrı-ayrı dillərin mühüm xüsusiyyətlərini özündə əks etdirməsi ilə izah olunur. T.Şipan isə frazeologizmləri belə xarakterizə edir: "Frazeologizmlər dedikdə iki və daha artıq sözün mphkəm birliyi (feste Einheit) başa düşülür. Dilin frazeoloji tərkibini təşkil edən bu dil vahidlərinin başlıca xüsusiyyətləri sabitlik, idiomluq, tətbiq olunarkən dəyişikliyə uğramadan bir bütöv halda işlənməsi, konstituentlərin sərbəstliyinin qismən və tamam itməsi nəticəsində vahid semantikaya malik olması ilə müəyyənləşir".Məhz bu dörd əlamət alman dilçisi V.Flayşer tərəfindən ilk dəfə dolğun şəkildə şərh olunmuşdur.

Frazeologizmlərin qeyd olunan əlamətlərinin ayrı-ayrılıqda təhlili maraqlıdır. Bunu iki cümlənin müqayisəsi əsasında asanlıqla müşahidə etmək mümkündür:

1. a) Wütend fiel er seiner Frau ins Wort und schrie: "Das ist eine Lüge!"

b) Als er am Ufer entlangging, rutschte er aus und fiel in den See.

c) Hamı düşüb üstümə, atam öləndən sonra məni gözdən salıblar (Ə.Vəliyev).

2. a) Gəlin əlkütdür, qab-qacağı salıb sındırır.

A.Buhoffer və H.Burger idiomların modifikasiyasına reklam mətnlərində daha çox təsadüf olunduğunu q eyd edirlər. Müəllifin qənaətincə dil yaradıcılığı ba-

xımından belə modifikasiyalar əhəmiyyətlidir. E.Danielson idiomlarda baş verən modifikasiyanıon dörd qrupa ayırır:

1. leksik substitusiya (*rette mich, wer kann*);
2. sifətinəlavə olunması (*Spiel mit dem politischen Feuer*);
3. Determinativ kompozisiya (*ein Strich durch die Waahrechnungen machen*);
4. yiyəlik halda olan təyinin daxil olması (*Die Träume einer internationalen Entspannung sind leider Schäume geblieden*);
5. komponentlərin bir-birindən ayrılması (*das Ohr, über das er mich gebauen hat*);
6. ixtisar olunma (*Wähungsform auf der langen Bank*);
7. koordinasiya etmə (*Er hat ein Auge auf sie und die Flinte ins Korn geworfen*);
8. təsdiq-inkar dəyişkənliyi (jmdm. *Ein Haar krüm*men);
9. kontektdaxili əsaslanma (le*ichte haben's leichter ...*);
10. semantik şərtlərin pozulması (*weil auch der Schrank ihn mit offenen Armen empfing*);
11. kontaminasiya (etw. *in einen Hut werfen*);
12. mətndaxili şərtlərin pozulması;
13. Şərh yolu ilə (*Die Schweiz gerät buchstäblilich ins Schussfeld einer geheimen, nach unbekannten Orqanization*);
14. mətn strukturu prinsipi əsasında (*Hört nicht auf den Wurm, m Wurm ist der Wurm!*).

Bu on dörd dəyişkənlik göstərir ki, idiomlarda sabitlik əlaməti heç də mütləq mənada başa düşülməməlidir. Sabitliyin özünün müxtəlif dərəcələri vardır, bəzən onun cüzi pozulması frazeologizmin mənasının itməsinə səbəb ola bilir.

İdiomlarda modifikasiya imkanlarından bəhs edərkən D.Dobrovolski frazeologizmlərdə sabitliyin iki mənada (mütləq və nisbi) təzahür etdiyini göstərir. Deyilənləri aydın təsəvvür etmək üçün *die Hände in den Schoβ legen =nichts tun* – "boş-bekar olmaq" privative frazeoloji birləşməsini cümlə daxilində nəzərdən keçirək: *sie hat die Hände in den Schoβ gelegt. Sie hat die Zeytung auf den Tisch gelegt.* Təhlil zamanı ikinci cümlənin səkkiz variantda modifikasiyasının mümkünlüyü nəzərə çarpır:

1. *Die Zeitung hat sie auf den Tisch gelegt.*
2. *Die Zeitung würde von ihr auf den Tisch gelegt.*
3. *Die Zeitung, die sie schon gelesen hat, hat auf den Tisch gelegt.*
4. *Sie hat die alte Zeitung auf den Tisch gelegt.*
5. *Auf den Tisch wurde die alte Zeitung gelegt.*
6. *Lege die Zeitung auf den Tisch.*
7. *Welche Zeitung hat sie auf den Tisch gelegt.*
8. *Der Vater liest die von ihr auf den Tisch gelegte Zeitung.*

Eyni dəyişikliyi Azərbaycan dilində olan nümunələrdə də müşahidə etmək olar. O, həmişə yaxasını kənara çəkirdi. Uşaq həmişə şəkli çəkirdi. Lakin, *die Hände in den Schoβ legen* və "yaxasını kənara çəkmək" idiomlarının dəyişikliyinin mümkün olmaması heç də bütün privative frazeoloji birləşmələrin modifikasiyasının qeyri-mümkünlüyünə dəlalət etmir. Çünki dil faktlarının təhlili göstərir ki, bəzi privativ frazeoloji birləşmələrin modifikasiyası mümkündür, məsələn:

1. jmdm. *An die Wand stellen* = jmdm. *Standrechtlich erschieβen* – divara söykəmək = güllələmək.

Der ehemalige Minister wurde an die Wand gestellt. An die Wand gestellt. An die Wand wurde der ehemalige Minister gestellt.

2. jmdm. *wie ein Hund behandeln* = jmdm. *mit groβer Verachtung behandeln* – it yerinə qoymamaq.

Der Schalterbeamte hat die alte Frau wie ein Hund behandelt. Die alte Frau wurde vom Schalterbeamten wie ein Hund behandelt.

3. *gegen den To dist kein Kraut gewachsen* = v*or dem Tod gibt es keine Rettung* – ölümə çarə yoxdur.

Auch die Reichen müssen sterben, gegen den Tod ist keinKraut gewachsen. Auch die Reichen müssen sterben, kein Kraut ist gegen den Tod gewachsen.

4. jmdm. *die Krallen zeigen* = jmdm. *dass man sich nichts gefallen lässt* – dirsək göstərmək: Auch seinem Chef gegenüber hatte er häufiq die Krallen gezeigt.

Tədqiq olunan həm alman, həm də Azərbaycan dillərində elə frazeologizmlər vardır ki, onların ifadə etdiyi məna eynilə qalmaqla müxtəlif leksik komponentlərdən ibarət olur, məsələn:

a) *Bohnen in den Ohren haben = absichtlich nicht hören;*
b) *Knöpfe in/auf den Ohren haben = nicht hören, nicht beachten;*
c) *Watte in den Ohren haben = nicht hören wollen.*

Hər üç privativ semantikalı bu sabit birləşmələrin Azərbaycan dilində ekvivalenti də implisit inkara malik frazeoloji birləşmədir: "qulağına pambıq təxamaq" və yaxud "qulaq ardına vurmaq". Müdir bu tələbi qulaq ardına vurdu. Eləcə də Azərbaycan dilində:

1. ağlına batmaq; beyninə batmaq;
2. ağlını itirmək; başını itirmək;
3. arzusu gözündə qalmaq; arzusu ürəyində qalmaq;
4. yurduna od salmaq; yurdunda turp əkmək;
5. ilan ağzından çıxmaq; ilan ağzından qurtarmaq.

Belə frazeoloji birləşmələri H.Bayramov frazeoloji variantlar hesab edir: "dildə eyni mənanı ifadə etmək üçün frazeoloji vahidin leksik, leksik-qrammatik cəhətdən dəyişikliyə uğramasına frazeolojivariasiya, bunun əsasında yaranan belə sabit birləşmələrə isə frazeoloji variantlar deyilir".

Nümunəllərdən göründüyü kimi, bir sıra frazeoloji vahidlərin eyni məna ifadə etməklə leksik tərkibi, komponentləri arasındakı sintaktikəlaqənin səciyyəsi və bəzi başqa əlamətləri bir-birindən fərqlənən iki, üç, hətta daha çox forması mövcuddur. Belə frazeoloji privativlərin neqo-pozitiv variasiyanın yaranmasında mühüm əhəmiyyəti vardır. Aparılan təhlil belə bir nəticəyə gəlməyə imkan verir ki, frazeologizmlərin tərkib elementləri leksik cəhətdən dəyişir və bunun nəticəsində frazeoloji variantlar və yaxud frazeoloji sinonimlər yaranır. Frazeoloji birləşmənin mətndaxili modifikasiyası zamanı o, struktur cəhətdən parçalanmaya məruz qlır və bu halda komponentlərinin inversiyası reallaşır. Frazeoloji variantlar məhz belə inversiyalardan əmələ gəlir. Fvrazeologizmlərdə modifikasiya dedikdə proqmatik aspektdə frazeoloji birləşmələrin tərkibində baş verən fonetik, leksik və proqmatik dəyişkənlik imkanları başa düşülür. Modifikasiya zamanı frazeoloji birləşmələrin

komponentini əvəz edən söz onunla ya məna çalarına görə fərqlənən sinonim, ya da tematik cəhətdən eynicinsli leksik vahid olur.

Ədəbiyyat

1. Gottsched J. Chr. "Beobachtungen über den Gebrauch und Miβ rauch vieler deutscher Wörter und Redensarten". Strassburg und Leipzig: VEB Verlaq Bibliographisches İnstitut. 1955, 405 s.
2. Аничков И.Е. «Идиоматика идиом и идиоматика идиоматизмов». Вопросы фразеологии. Исследование и материалы. Москва. Изд-во «Наука». 1964.
3. Bayramov N.A. "Azərbaycan dili frazeologiyasının əsasları". Bakı. "Maarif" nəşriyyatı. 1978.
4. Higi-Wydler M. Zur Wbersetzung von Idiomen. Eine Beschreibung und Klassifizierung deutscher Idiome und ihrer französischen Übersetzungen. Bern-Frankfurt am Main- New Work – Paris: Petr Lang Europäischer Verlag der Wissenschaften. 1989.

Д.Гамидова

Возможности модификации идиом

Резюме

В статье повествуется о том, как происходит модификация идиом. Как известно, идиомы – это языковые единицы, созданные на основе образных представлений объективной реальности. Поэтому значение самой идиомы не всегда соответствует сумме значений ее отдельных компонентов. Главный признак идиом – стабильность – должен пониматься (восприниматься) в обязательном смысле (значении), так как возможна модификация некоторых идиом. С помощью языковых единиц этот факт анализируется (интерпретируется) в настоящей статье.

D. Hamidova

The changings in the idioms

Summary

The article deals with the changings in the idioms. It is known that the idioms are the language units creating on the basis of figurative images of objective reality. That is why the meaning of the idiom does not match to the surn (totality) of the meanings of its components. The stability as the main characteristics of the idioms must be understood in the absolute meaning, because the modification of some idioms is possible. This fakt is commented by means of or (help) of the language units in the artickle.

Rəyçi: R.C.Cəfərov
filologiya elmləri namizədi, dosent

ŞƏFİQƏ ƏLİYEVA
AzTU
şafiqa.aliyeva@mail.ru

İNGİLİS DİLİNDƏ EVFEMİZMLƏRİN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ

Açar sözlər: frazeoloji evfemizmlər, diskret vahidlər, evfemistik əvəzlənmə, tabu sözlər.

Key words: praseological euphemisms, discrete units, euphemistic substition, taboo words.

Ключевые слова: фразеологические евфемизмы, раздельные сочетание, табу.

İngilis dilinin tədqiq olunmamış sahələrindən biri olan evfemizmlər, xüsusi ilə də frazeoloji evfemizmlərin linqvistik şərhini vermək ingilis dilçiliyinin qarşısında duran vacib məsələlərdən biridir. Dillərin frazeologiyasına nəzər saldıqda aydın görünür ki, frazeoloji evfemizmlər tədqiq olunmamış sahələrdən biridir. Doğrudur, evfemizm sahəsində bəzi tədqiqat işləri mövcuddur. Lakin, onlar evfemizmlərin leksik-semantik-üslubi çalarlıqlara aid olan materiallardır. Demək olar ki, frazeoloji evfemizmlər nə xüsusi, nə də ümumi dilçiliklə fundamental tədqiqat obyekti olmamışdır. Məlumdur ki, «evfemizm» yunan mənşəli söz olub «yaxşı, bəlağətli danışıram» (speak well) mənasında işlənir. Bu termin o zaman işləklik qazanır ki, insanlar çətin və ya utandırıcı, pərtedici vəziyyətdən çıxsınlar. Hər bir kəs müəyyən vəziyyətdə evfemizmlərdən istifadə etməyi bacarmalıdır.

Evfemizmlərə aid elmi ədəbiyyatın təhlili və aparılan müşahidələr göstərir ki, hər hansı bir dilin lüğət tərkibində evfemizmlərlə yaranmış frazeoloji birləşmələr çoxluq təşkil edir. Onlar kobud, nalayiq, deyimi münasib sayılmayan, hətta ayıb sayılan, nəzarətsiz hesab edilən və qadağan olunan söz və ifadələrin əvəzediciləridir. Bu termin sadaladığımız ifadələrin yumşaldılması, layiqli və mərifətli, bəlağətli söz və ifadələrlə əvəz olunmasını bildirən frazeoloji birləşmələrdir. Məsələn, ingilis dilində «*to die*», yəni «*ölmək*» felinin bir sıra evfemistik variantları mövcuddur: «*to go to one´ s last resting(long) place(home)*». Bu halda tərcüməsi «*rəhmətə getmək, son mənzilinə getmək*». «*to breath one´ s last*» - «*son nəfəsini almaq*», «*to join to one´ s majority*» - «*əbədiyyətə qovuşmaq*», «*to pay the debt of nature*» - «*həyatda borcunu vermək*» və s. Məsələn:

Bob Harden went to his last resting place in a coffin made of packing cases (Prichard K.S. The Roading Nineties).

Bu cümlədə «*coffin*», yəni «*tabut*» sözü olmasa həmin ifadə *Bob Hardenin uzunmüddətli, axırıncı dəfə istirahətə getməyi* mənasında anlaşılardı.

Yuxarıda göstərilən sinonim frazeoloji evfemizmlər içərisində «*to pay the dept of nature*» birləşməsi qeyri-məhsuldardır və dini motiv əsasında yaranmışdır.

İngilis dilində bir sıra *taboo* sayılan sözlər vardır ki, onları ictimai yerdə demək yasaq sayılır. Məsələn, ana olmağı gözləyən qalınları, yəni hamilə qadınları utandırmamaq məqsədi ilə (hərçənd ki, ana olmaq qalınlar üçün şərəf və baş ucalığı hesab olunur) «*pregnant*» əvəzinə «*to be in the family way*» kimi frazeoloji

evfemizmdən istifadə edilir. Məsələn, «*Congratulations! I hear wife is in the family way*». Məsələn,*Congratulations! I hear, your wife is in the family way.*

Bu sahədə Azərbaycan dilində tədqiqat aparılan dilçi alim Y.Kərimovun çox düzgün bölgüsünə nəzər salaq. Müəllif mürəkkəb və çoxşaxəli dil hadisəsi kimi evfemizmlərin tədqiqinin üç mühüm aspektinin vacibliyini xüsusi ilə vurğulayır: sosial-mənəvi və dini aspektli, psixi-evfemistik əvəzlənmə ilə əlaqədar deyimlərin yumşaldılması aspekti və xüsusi linqvistik aspekt.

Müəllif aspektləri bölərkən evfemizmlərin həm sosial durumda, həm dini sahədə, həm də psixoloji vəziyyətdə geniş işləndiyini vurğulayır. Məsələn, müəllifin apardığı bölgülərə əsasən «*to go to one´s long home*» frazeoloji evfemizmini «*to go to one´s grav*e» kimi də işlətmək olardı. Amma birləşməni daha da yumşaldaraq ölənə hörmət, mərhumun qalanlarına rəğbət əlaməti kimi nəzakətli şəkildə onu «*to go to one´s long home*» ifadəsini işlətmək daha məqsədəuyğun hesab olunur. Məsələn,*One more Forsity going to his long home – wonderful were! – Wonderful how he had held on!* Dil faktlarından aydın olur ki, frazeoloji evfemizmlərlə əşya və hadisələrin birbaşa adlandırılması məqbul sayılmır və nəticədə onlar yasaq və qadağan statusu qazaranar dildə daha münasib, cəmiyyətin məqbul saydığı yeni frazeoloji evfemizmlərlə əvəz olunur.

Frazeoloji evfemizmlərin dillərin lüğət tərkibinə daxil olan diskret vahidlərdən biridir. Bu vahidlərin deyilişi qadağan sayılan tabu sözlərdir. Tabu sayılan belə tematik qruplar içərisində onlar kəmiyyət etibarı ilə və işlənmə tezliyinə görə bütün dillərdə diqqəti cəlb edir.

Evfemizmlərin yaranmasına səbəb tabu sözlərdir. Tabu sözlər olmasa evfemizmlər də yaranmazdı. Demək ki, tabu və evfemizmlər bir-birinə antonim olan terminlərdir. Tabu sözlər neqativ əlamətin ifadəsidir. Bu əlamətlərdə neqativ münasibətə malik əşya və hadisə anlaşılır və neqativ fikir yaratma təsiri bağışlayır. Bu zaman danışanvə dinləyənin şüurunda daha müsbət, pozitiv reaksiya yaranması tələb olunur. Bu pozitiv əlamət müəyyən əlamətdən, reaksiyadan üstün olur. Yəni, neqativ əlamət azalır. Məsələn, «*to have one´s own life; to lay hands on oneself, to do (make) ay with oneself*» evfemizmləri «*to commit suicide*» frazeoloji birləşməsinə sinonimdirlər.

Bu ideoqrafik sinonimlər içərisində «*to have one´s own life*» frazeoloji evfemizmi psixi evfemistik əvəzlənmə ilə əlaqədar deyimin yumşaldılmasıdır. Məsələn, *From the poems written at his period we gather that he meditated takin\ his own life.*

Bu cümlədə «*to have one´s own life*» frazeoloji evfemizmini onun sinonimləri ilə də əvəz etmək olardı. Amma, birləşmənin sinonimləri Y.Kərimovun dediyi kimi, sosial-mənəvi aspektdən yasaq hesab olunardı, danışan və dinləyənin şüurunda neqativ reaksiya yarada bilərdi. Yuxarıda qeyd edilənləri təsdiq etmək üçün bir daha ölümlə bağlı frazeoloji evfemizmləri nəzərdən keçirək. Ölümlə əlaqədar olan evfemizmlər bütün dillərdə mövcuddur. Bu cür evfemizmlər həm şifahi nitqdə, həm də yazılı nitqdə geniş yayılmışdır və onların müxtəlif formalarına rast gəlmək mümkündür. Ölüm hadisəsi insanlara özü-özlüyündə mənfi təsir bağışlamaqla bazar, bu hadisəni ifadə edən frazeoloji birləşmələr də mənfi təsirə malikdir. Ölümlə bağlı frazeoloji evfemizmlərin aşağıdakı formaları vardır:

- ***Öz əcəli ilə ölmək***: *to die with one´ s boots on – döyüşərək ölmək; to breath one´ s last – son nəfəsini almaq; to depart his life – həyatla vidalaşmaq. Done for* əmtəə evfemizm ədəbi dildə işlənərək mənası *elə bir çətin vəziyyətdə olaq ki, oradan çıxmaq mümkün deyil* kimi anlaşılır; *one one´ s deatrh ded – ölüm yatağında olmaq; one´ s number is up – ölümü yaxınlaşıb; not dong for this world – dünyasını dəyişmək* və s.;
- ***Bir kəsi öldürməklə bağlı frazeoloji evfemizmlər:*** *to bite the dust; to cash in one´ s chipf;* bu frazeoloji evfemizm *oyunun axırında haqq-hesabı çürütmək* kimi anlaşılır; *to be struck down* frazeoloji evfemizmini də *öldürmək* mənasındadır. Lakin ağır xəstəliyin *kimisə öldürməsi* anlamındadır. *Bir kəsi suda boğub öldürmək* mənasında olan *slip with the fishes – balıqlara yem olmaq* evfemizmi ilə ifadə olunur;
- ***Slenq kimi işlənən frazeoloji evfemizmlər:*** *to blow someone´ s brain out – beynini dağıtmaq;*
- ***Yumorla işlənən frazeoloji evfemizmlər:*** *to come to a stricky end, to meet a stricky end – pis vəziyyətdə ölmək; to join the choir invisible – xəlvəti xora qoşulmaq, yəni ölümündən heç kəsin xəbəri olmamağı.* Yumorla deyilən bu frazeoloji evfemizmi Monti Piton öz hekayələrində dəflərlə işlətmişdir: *to go home in a box – baş-ayağı bağlı evinə getmək* frazeoloji evfemizmi isə mübaliğə ilə deyilən birləşmədir ki, adətən qarğış edilən zaman işlədilir; yumorla deyilən – *wearing a pine overcoast* frazeoloji evfemizmi XX əsrin əvvəllərində Amerika banditləri tərəfindən işlədilirdi; *to meet one´ s maker* – frazeoloji evfemizmi xristian inancından və hər kəsin *qəlbində Allahın, yaradanın yanına getmək fikri keçir* mənasında işlənir;
- ***Qəfil ölümlə bağlı frazeoloji evfemizmlər:*** bu birləşmələr ingilis dilində daha çox işlənir. Məsələn, *drop dead-die suddenly* ifadəsinin başqa bir variantı da mövcuddur – *just drop dead.* Deyimi daha da emfatik etmək üçün isə frazeoloji evfemizmlərin əvəzinə *to get lost* evfemizmi də işlədilir.Beləliklə, qeyd etmək lazımdır ki, frazeoloji evfemizmlərin tədqiqi istər xüsusi, istərsə də ümmui dilçilik baxımından mühüm əhəmiyyət kəsb edir. Üslubi laylardan hesab edilən frazeoloji evfemizmlər danışıq dilinin leksikasının açıqlanmasında əhəmiyyətli olduğu kimi, lüğət tərkibinin zənginləşməsində də əvəzsiz rol oynayır. Frazeoloji nəzəriyyənin banisi Şarl Ballidir.Balli ilk dəfə olaraq Üslubiyyatın oçe- rki və Fransız üslubiyyatı kitablarında söz birləşmələrini sistemləşdirmişdi.Balli Frazeologiya haqqında bölməni üslubiyyatadair yazdığı kitablarına daxil etmişdir. Birinci kitabda o birləşmələrin dörd qrupunu fərqləndirdi:1) sərbəst birləşmələr; 2) adi birləşmələr; 3) frazeoloji sıralar; 4) frazeoloji bitiş- mələr.Balli birləşmələri sa- bitlik səviyyəsinə görə fərqləndirdir: tərkib hissələrinin qruplaşmasında sərbəstliyi olmayan birləşmələr. Lakin Balli bu qrupların ətraflı təsvirini verməmişdir, onları yalnız sxem şəklində vermişdir. Özünün sonraki kitabında (Fransız üslubiy- yatı) Balli adi birləşmələri və frazeoloji sıraları birləşmələrin ara növü kimi qiy- mətləndirir və birləşmələrin yalnız iki əsas qrupunu fərqləndirir:

1) sərbəst birləşmələr
2) frazeloji bitişmələr

Germanistikada frazeologiya nəzəriyyəsinə aid olan işlər çox azdır[12], lakin Mövcud olan işlərdə belə frazeoloji vahidlərin ayırd edilməsinin elmi surətdə əsaslandırıl- mış meyarları, frazeoloji vahidin və sözün əlaqəsi, frazeologiyanın sistemliliyi, fra- zeologiyanın tədqiq metodu kimi fundamental suallar qoyulmur.İngilis və

amerikan dilçiliyində frazeologiyanın dilçiliyin müstəqil bir qolu olması məsələsi də qoyulmur. İngiltərə və ABŞ- da frazeologiya məsələləri, əsasən qrammatikaya və semati-kaya aid işlərdə və frazeoloji lüğətlərin giriş hissəsində izah olunur.Söz Birləşmələrinin idiomatikliyinə həsr olunmuş məqalələr də var.

Qərb dilçilərindən fərqli olaraq, rus dilçiləri frazeologiyanın dilçiliyi müstəqil bir sahəsi hesab edirlər. Frazeologiyanın dilçiliyin müstəqil bir sahəsi olması məsələsini ilk dəfə rus alimi E.D.Polivanov qoymuşdur.Polivanov bu məsələyə dəfələrlə qayıtmış və qeyd etmişdir ki, leksika sözlərin özünəməxsus leksik mənalarını, morfologiya sözlərin formal mənalarını, sintaksisə söz birləşmələrinin formal mənalarını öyrənir. Beləiklə də, sintaksisə söz bərabər, lakin ümumi növləri deyil,verilmiş ayrı-ayrı birləşmələrin fərdi mənalarını (leksikanın ayrı-ayrı sözlərin fərdi mənalarını öyrəndiyi kimi) öyrənən xüsusi bir bölməyə ehtiyac əmələ gəlir. Dilçiliyin bu bölməsi üçün mən frazeologiya adını ayırıram[13].

E.D.Polivanov belə hesab edirdi ki, frazeologiya gələcəyin dilçilik ədəbiyyatıyatında xüsusi və möhkəm yer tutacaqdır.

Frazeologiyanın dilçiliyin müstəqil bir sahəsi olması məsələsini V.V.Vinoqra dov da qoymuşdur.Frazeologiyanın aid işlərində o, rus dilinin frazeoloji vahidləri haqqında təlimi formalaşdırmışdır.

Akademdik V.V.Vinoqradov rus dilinin materialı əsasında frazeoloji vahidləri frazeoloji birləşmələr (frazeoloqiçeski sraheniə) frazeoloji bitişmələr (frazeoloqiçes kie edinstva) frazeloji birləşmələr (frazeoloqiçeskie soçetaniə) adı ilə 3 semantik qrupa bölünür, bunların hər birinin özünəməxsus əlamətinini göstərir.O, frazeoloji bitişmələrdən bəhs edərkən yazır ki, bunların ümumi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, əlaqə, hətta potensial əlaqə belə yoxdur.Bunların tərkib hissələri dildəki bu və ya digər sözlə eyni səs tərkibinə malik olsa da, bir cür qarşılıqlı əlaqə omonimlikdən başqa bir şey deyildir. Frazeoloji bitişmə sözün potensial ekvivalentidir.Bu cəhətdən bunlar frazeoloji birləşməyə yaxınlaşır, lakin öz məna quruluşlarının mürəkkəbliyi, komponentlərinin məna əlaqəsinin potensial şəkildə mövcud olması ilə frazeoloji bi-rləşmələrdən fərqlənir.Frazeoloji birləşmədə sərbəst mənada olmayan sözlərin sinonimlərlə əvəz edilməsi mümkündür[14].

V.V.Vinoqradovun bu bölgüsündə frazeoloji birləşmələr adlandırılan qrup ilk baxışda Ş.Ballinin təsnifatındakı frazeoloji qrup və ya adi birləşmələrə oxşayır.Lakin əslində bunların bir-birindən kəskin surətdə fərqlənir.Belə ki, V.V.Vinoqradovun bölgüsündə frazeoloji birləşmə səviyyəsi daşıyanların kom- ponentlərindən biri ancaq məhdud sözlərlə frazeoloji cəhətdən bağlı məna da- şıyır.Ş.Ballinin təsnifatında isə, özünün qeyd etdiyi kimi, birləşmə parçalandıqdan sonra sözlər öz mənalarını saxlayır. V.V.Vinoqradov bu bölgüsü bir müddət həm rus dilinin,həm də bir sıra başqa dillərin frazeologiyasından bəhs edən əsərlərdə tamamilə məqsədəuyğun sayılmış və olduğu kimi saxlanılmışdır. Lakin son illərdə bir sıra dillərin frazeologiyası ilə daha dərindən məşğul olan tədqiqatçılar müəyyənləşdirmişlər ki, bu təsnifat özünü doğrultmur. A.A.Bulaxoviski frazeologiyaya hazır şəkildə işlədilən sitat materialı kimi ba- xaraq, ümumiyyətlə fikir mübadiləsi zamanı istifadə edilən sabit birləşmələrinin hamısını frazeologiyanın tədqiqat obyekti hesab edir. N.M.Şanski frazeoloji ifadə (frazeoloqiçeskiy oborot) adı ilə dildə iki və ya daha artıq çoxvurğulu sözdən ibarət mənaca tam,söz tərkibi və qurluşca sabit şəkildə işlənən vahidləri nəzərdə.

Rus dilçiləri ingilis frazeologiyasını da geniş surətdə tədqiq etmişlər.Bu sahədə tədqiqat aparan alimlərdən A.İ.Smirnitski, N.N.Amosova, A.V.Kuninin və başqalarının adlarını çəkə bilərik.Bu alimlərin frazeologiya sahəsində xidmətləri böyükdür.

Ədəbiyyat:

1. Н.Ц.Босчаева: «Контекстуальная эвфемия в современном английсклм языке». Л., 1989, -190 с.
2. А.М.Кацев: «Языковое табу и эвфемия». Л., 1088.
3. Y.Kərimli: «Azərbaycan dilində evfemizmlər». Bakı, 1999.
4. А.Ю.Кудрявцев, Г.Д.Куропаткин: «Англо-русский словарь табуированной лексики и эвфемизмов». М., 1002, 384 с.

Ш.Алиева

Фразеологическим эвфемизмам в фразеологических системах языка

Резюме

Представленная статья посвящена фразеологическим эвфемизмам в фразеологических системах языка. В нем анализируется фразеологические эвфемизмы и обосновываются на примерах. Исследование фразеологических эвфемизм показывает, что изучение этой проблемы является очень необходимым в лингвистике. Некоторые фразеологические эвфемизмы, связанные со смер тью показано в этой статье. Различные формы фразеологических эвфемизмов со смертью приведены с фактами.

Ş.Aliyeva

The problem of phraseological euphemisms in English.

Summary

The article deals with the problem of phraseological euphemisms in English. The investigation of phraseological euphemisms showm that the study of this problem is very necessary in linguistics. Some phraseological euphemisms connected with death are shown in this article. Different forms of phraseological euphemisms with death are given with the factes.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

NƏSİBƏ ABBASOVA
NDU

TRANSFORMASİYA HADİSƏSİNİN NƏZƏRİ-LİNQVİSTİK ASPEKTLƏRİ

Açar sözlər: cümlə ekvivalentləri, nüvə cümlə, qrammatik transformasiya, standart nəzəriyyəsi, semantik sahə.
Key words: Grammatical transformation, sentence equivalents, nuclear sentence, the theory of standart, semantic field.
Ключевые слова: Эквиваленты предложения, предикативные предложения, грамматическая трансформация, теория стандартов, семантическа область.

Dil çox mürəkkəb və çoxfunksiyalı bir sistemdir. Onun sintaktik quruluşu digər strukturlarla müqayisədə daha mürəkkəb və mütəhərrikdir. Müxtəlif struktur situasiyalar, sintaktik modellər, sintaktik paradiqmalar sintaksisin qanunauyğunluqları əsasında əks olunur. Burada cümlə sintaksisinin üzdə və dərində olan strukturları qarşılaşdırılır, müqayisə edilir, ümumi və fərqli cəhətlər aşkara çıxarılır.

Bu mürəkkəb sistemdə maraq doğuran problemlərdən biri də transformasiya hadisəsidir. «Transformasiya tam şəkildə transformal üzvlə, funksional ekvivalentliklə, sintaktik sinonimliklə, sintaktik variantlıqla, sintaktik derivasiya ilə və s. mühüm dil hadisələri ilə yaxından bağlıdır. Buraya kompleks, invariantlıq, dominantlıq, «semantik nüvə» (1; 2; 3) kimi məsələləri də aid etsək, problemin həll olunma bucaqlarının nə qədər genişliyinin şahidi ola bilərik» (4, s. 14).

Transformasiya dil işarəsidir. Transformasiyanın dil işarəsi kimi funksional spesifikası genişdir. Transformasiya sintaqmatik işarə kimi də dilin yaruslarında özünü göstərir. Dil işarələrinin asimmetriyası poetik mətnlərdə müəyyən ardıcıllıq yaradır.

Transformasiya dilçilik anlayışıdır. Bir termin kimi latın mənşəlidir (*transformo, transformator* sözündəndir) Şəklini dəyişmə, başqa şəklə, bir haldan başqa hala keçmə mənasında işlənir. Anlayış baxımdan transformasiya ayrı-ayrı komplekslər arasındakı münasibətləri quran strukturdur.

Transformasiyanın özünəməxsus nəzəri-linqvistik aspektləri mövcuddur. Bu aspektlər cümlə çevrilmələrində, cümlənin struktur dəyişmələrində müşahidə olunur.

Transformasiya dilin semantik inkişafının əsas vasitələrindən biridir. «Semantik sahə»də bu hadisə eyni mənanın müxtəlif strukturda qoruyucusudur, daha doğrusu oxşar mənanın müxtəlif formalarla təqdimidir.

Z.Hərris eyni sintaktik əhatədə gələn dil vahidləri arasındakı üst qata çevrilmə əlaqələrini bildirmək üçün işlətdiyi termin «transformasiya» adlanırdı. Transformasiya N.Xomskinin generativ transformasional qrammatika modelində cümlələrin alt qatı arasındakı əlaqələri öyrənən əməliyyatlar toplusu kimi xarakterizə olunurdu (5, s. 412-527)

F.Veysəlli adı çəkilən alimlərin terminə münasibətini belə açıqlama ilə göstərir: «Transformasiya alt qatın söyləm strukturları vasitəsilə əmələ gələn struktur ağaçlarını üst qatın struktur ağaçlarına çevrir. Transformasiya qaydaları söyləm struktur qaydalarından onunla fərqlənirlər ki, onların əməliyyat sahələri ayrı-ayrı şəbəkələr olmayıb, söyləm struktur ağaçlarıdır, bunlar da (dəqiq xüsusiləşmiş şərtlərə əməl edildikdə) dəyişirlər. (6 , s. 308).

R.Liz Hərrisin, N. Xomskinin transformasiya qaydalarını təhlil edir, qrammatik identikliyi (eyniliyi), derivasiya (törəmə) prosesini eyniyyət daşıyan cümlərdə başlıca keyfiyyət sayır, cümlə çevrilmələrini qaydaların əsasında durduğunu göstərir. İki cümlə tipi arasında münasibət baxımından şərh edir (7, s. 69-77).

Transformasiya nəzəriyyəsinin bünövrəsi görkəmli Amerika dilçisi N.Xomskinin «Sintaktik strukturlar» (Chomsky N. Syntactic Structures. Mouton, 1937) və «Sintaksis nəzəriyyəsinin aspektləri» (8) əsərlərində öz əksini tapmışdır. Əvvəllər konkret dil materialları ilə transformasion-törədici qrammatikanın mahiyyəti açılır, induktiv yanaşma metodunun yardımı ilə mətndəki məlumatlar analiz edilirdi. N.Xomski isə bundan fərqli olaraq deduktiv metoda əsaslanır. Onun transformasional qrammatikası lokal miqdarda formadan sonsuz miqdarda cümlələrin formalaşdırılmasını şərh etməyə istiqamətlənir. Bu metod cümlə strukturlarını, hər şeydən öncə, paradiqmatik istiqamətdə izah edir ki, bu, deskriptiv texnika ilə mümkün olan şey ola bilməz. N.Xomski qeyd edir ki, cümlənin komponentlər əsasında şərhi metodu kifayət etmədiyi üçün o, transformasion metodunu irəli sürür. Bu metodla «söyləm struktur dəyişmələr yolu ilə hansı cümlədən və ya cümlələrdən alınmışdır?» sualına cavab tapılır. Dil elə mexanizmidir ki, əslinə qalanda düzgün cümlələrə «yol açır», başqa sözlə, düzgün cümlələr «istehsal edir». Bu «əməliyyat» cümləninin qrammatik strukturunun dəyişdirilərək fərqli şəklə salınması prinsipinə əsaslanılır. Belə bir «əməliyyat»ın köməyilə ən sadə cümlələr daha mürəkkəb strukturlara çevrilir və yaxud əksinə mürəkkəb cümlələri sadə şəklə salmaq şansı «əldə edilir».

«Transformasion qrammatikada birinci yerdə cümlənin konstituyent səviyyədə təhlili durur ki, onun üzərində transformasion yarus ucalır və bunun ardınca da morfoloji və fonoloji səviyyələr gəlir. Transformasiya nəzəriyyəsinə görə dildəki bütün cümlələr iki bərabər olmayan kateqoriyaya bölünür. Bunların bir qismi strukturca çox sadə olub, miqdarca da azdır. Bunlar «nüvə cümlə»lərdir. Ona görə də bu cümlələr belə qeyd olunur ki, qrammatikanın nüvəsinə aid olur. Bu cümlələrin düzəlmə qaydaları sintaksisin birinci bölməsinin-yəni normativ-adi sintaksisin məzmununu təşkil edir. Digər kateqoriya nüvə cümlələrin qrammatik strukturu üzərində dəyişdirmə əməliyyatı aparmaqla əldə edilən düzəltmə cümlələr və ya derivatlardır. Dilin bütün cümlələri bir neçə nüvə cümlə üzərində müxtəlif əməliyyatlar aparmaqla düzəlmiş olur. Burada transformasiya hadisəsinin derivasiya hadisəsi ilə əlaqəsi meydana çıxır ki, bu, ayrıca bir tədqiqat mövzusudur.

Transformasion modeldə əməliyyat üsulu başlıca yer tutur. Dilin qrammatikası, üzərində mümkün olan ən sadə strukturlar şəklində təzahür edir. Bu sadə strukturlardan müxtəlif üsullarla çoxlu sayda düzəltmə strukturlar alınır. Sadə struktur (nüvə cümlələr) üzərində mürəkkəb cümlə almaq üçün edilən

əməliyyata transformasiya deyilir, burada alınan düzəltmə cümlələr isə transformlar adlanır» (9, s. 165-166).

Semantik ekvivalentlik transformasiya hadisəsinin əsas məğzini təşkil edir. Bu ekvivalentlik cümlə əhatəsində də mövcuddur. Bəllidir ki, dil sistemində eyni anlayışı ifadə edən xeyli miqdarda nitqi müşayiət edən cümlə ekvivalentləri özünü göstərir. Linqvistikanın semasiologiya adlı daha ümumi bir elm ilə birləşməsi faktı da sübut etdi ki, işarələrin və onların mənalarının yaranması və transformasiyası qayda və qanunlarının tədqiqi ilə sintaktik-semantik sahəsində yeni nitq modellərinin formalaşması və fəaliyyət göstərməsi imkanları genişləndirir (10, s. 3).

Hələ 60-cı illərdə R.B.Liz transformasiya nədir sualına belə cavab vermişdir: transformasiya transformlar məcmusudur, dildə invariant cümlələrin toplusudur (7, 34)

Hərrisə görə, transformasiya eyni sintaktik əhatəli iki cümlə arasında ekvivalentlik əlaqəsidir. N.Xomiskinin nəzərincə, transformasiya mücərrəd qaydalardır ki, onların köməyi ilə müvafiq dilin bütün qrammatik cümlələri törədilmiş olur.

Transformasiya fenomenal hadisələrdəndir. Semantik potensial bu hadisənin nəticəsi olaraq reallaşır, üzə çıxır.

Transformasiya növlərinin struktur-funksional təsviri Azərbaycan dilçiliyinin də qarşısında duran məsələlərdəndir. Həmin növlərin məna yaxınlığı, üslubi-semantik çalarları və s. dərindən öyrənilməlidir.

Dil işarələrinin transformasiyası- hər hansı formanın yaranması, yaxud işarənin məzmun əsasında ikinci semantik funksiyanın doğulması (törəməsi) deməkdir. Bu, dil işarəsinin asimmetrik formasıdır, onun variativ interpretasiyası, hər bir sistemin sərhəddidir. Bütün transformasiya işarələri uzual və okkazional, struktur-semantik və sistem-funksional qruplara ayrılır ki, bu məsələlərin də tədqiqi qarşıda duran əsas məsələlərdəndir.

Transformasiya-çoxsəviyyəli strukturdur, linqvistik münasibətlər prosesində gerçəkləşir, dil vahidləri bütün istiqamətlərdə yenidən qurulur, derivasiya və rekonstruksiya (bərpa) olunur.

Sitntaktik transformasiya söz birləşməsi, cümlə və mətn səviyyələrində qurulur. Buraya müxtəlif nitq fiqurları aiddir: müqayisə, perifraz, anjambeman, metafora, epitet, inversiya, zevqma, paradoks, oksimoron və s.). Transformasion istiqamətdə bu məsələlərə baxılmalıdır.

Dildə sintaqmatik transformasiya söz birləşməsi bazası əsasında da yaranır. Transformasiya paradiqm və sintaqm səviyyələrində törəyir. Transformişarənin ikinci sintaktik funksiyası əsasında meydana çıxır (paradiqmatik və sintaqmatik əlaqələr əsasında).

Transformasiya çoxsəviyyəli xarakterlidir. Həm də sinkretik səciyyə daşıyr. Transformasion-törədici model dərin strukturdan səthi struktura qədər transformasiyalar dəsti vasitəsilə mənanı sintaksis və fonetika ilə bağlayır. N. Xomskinin standart nəzəriyyəsi (sonradan bu genişlənir) belə bir nöqteyi-nəzəriyəyə əsaslanır ki, cümlənin dərin strukturu və həmin strukturda istifadə olunan leksik vahidlərin mənaları cümlənin ümumi mənası ilə adekvat təşkil edir. Bu cür struktur səviyyədə sözlər sintaktik formalara «seçim lokallığı»nın tətbiqi, subyekt və obyekt kimi anlayışların identifikasiyası ilə daxil edilir. Lokallıq

əlaməti həmçinin dərin struktur səviyyəsində digər qrammatik vahidlərə münasibətdə müəyyən qrammatik vahidlərin seçimi ilə bağlı yerləşdirilir.

Çevrilmə əməliyyatı silinmə, köçürmə, hərəkət və daxiletmə xüsusiyyətlərinə malikdir. Bunlar transformasiyanın dörd formasını təmsil edir.

Ayrı-ayrı transformasiyalar dil hadisəsi kimi cümlələrin semantikasına müəyyən təsir göstərir. Odur ki, transformasiyalar semantik komponentə daxil olan informasiya kimi nəzərdən keçirilə bilər.

Transformasion qrammatika nəzəriyyəsinə standart nəzəriyyə (səthi və dərin strukturlar), genişlənmiş standart nəzəriyyə (həmin nəzəriyyəyə görə dərin və səthi strukturların hər ikisi cümlənin semantikasını müəyyənləşdirir), prinsiplər və parametrlər nəzəriyyəsi, relasional qrammatika, leksik-funksional qrammatika, əsas söyləm struktur qrammatikası və s. daxil edilir.

Transformasiya mühüm sintaktik hadisələrdəndir. Bu hadisə «nüvə cümlə»lərin digər cümlə strukturuna çevrilməsi qaydalarını öyrənir. «Nüvə cümlə» terminoloji birləşməsi adı altında dilin nüvəsi, cümlələrin cəmi, toplusu başa düşülür. Transformasiya nəticəsində eyni anlayışı bildirən cümlə ekvivalentləri yaranır. Bu zaman «sintaktik semantikanın sərhədləri müəyyənləşir və dərinləşir». «Dilçiliyin semasiologiya adlı daha ümumi bir elm ilə birləşməsi sübut etdi ki, işarələrin və onların mənalarının yaranması və transformasiyası qanunlarının öyrənilməsi ilə dilin sintaktik-semantik sahəsində yeni nitq modellərinin formalaşması və fəaliyyət göstərməsi imkanları genişləndi» (10, s. 3)

Transformasiya metodu nüvə komponentinin düzəltmə modellərlə əlaqə qaydalarını sistemə salır, mükəmməl bir metod olmaqla sintaktik vahidlərin invariant mənalarını müəyyən edir.

Transformasiya prosesində fərqli cümlə ekvivalentləri müəyyənləşir və onlar bir neçə transforma ayrılır. Yeni konstruksiyalar strukturca fərqlənir və müxtəlif vasitələrlə ifadə olunur.

Nəqli, sual və əmr cümlələrinin -intonasiyadan asılı olaraq həmin cümlələrin hər biri cümlə ekvivalenti ola bilər.

Eyni fikri həm geniş, həm də müxtəsər cümlə ilə ifadə etmək olar.

Məs.: Mən oxuyuram\\Mən mahnı oxuyuram\\Mən «Lalələr» mahnısını oxuyuram və s.

Transformasiyanın bir növü qrammatik transformasiyadır. Transformasion qrammatika cümlə üzvləri arasında əlaqələri idarə edən qaydaları, yəni transformasiyaları elə bir güman əsasında müəyyən edir ki, söz sırası kimi aspektlərin altında baza struktur mövcud olur.

Qrammatik transformasiya müasir dilçilikdə, tərcümə sənətində ən aktual problemlərdəndir. A.L. Semenov qrammatik transformasiya adı altında tərrcümə prosesində qrammatik forma və struktur vahidlərin bir-biri ilə əvəzlənməsini, hansı birinin (formanın) saxlanmasını nəzərdə tutur.O, qramatiik transformasiyaya söz birləşməsi və cümlələrdə söz sırasının dəyişməsini və əvəzlənməsini də aid edir (11).

Transformiasiyada əvəzlənmə vacib şərtlərdən sayılır. Əvəzlənmə- qrammatik transformasiyanın müxtəlif görüntüsüdür. Məs.: rus dilində «Dobroe utro! Dobrıy den! Dobrıy veçer!

Azərbaycan dilində: Sabahın xeyir! Axşamın xeyir!

Transformasiya məqamında əvəzetmə söz formaları və nitq hissələri arasında da olur.

Transformasiyada dəyişmə başlıca kiteriyalardan, şərtlərdən sayılır. Dəyişmə söz sırsında- söz birləşməsi və cümlənin sırasının dəyişməsidir.

Ümumiyyətlə, qrammatik transformasiya qrammatik və leksik planda meydana çıxır. Qrammatik transformasiya prosesində müxtəlif qrammatik variantlar yaranır. Bu variantlar aşağıdakılardır: leksik sinonimlər, sintaktik sinonimlər, sintaktik omonimlər, sintaktik antonimlər. Bunlar məna ekvivalentləridir.

Transformasiya sintaksisdə söz birləşmələrini, sadə cümlələri və tabeli mürəkkəb cümlələri də əhatə edir. Sintaktik sinonimlik anlayışı tabeli mürəkkəb cümlələrin tabesiz mürəkkəb cümlələrlə sinonimlik münasibətində yaranır. Bu zaman sinonim cütlük formalaşır. Bir çox semantik forma ayrı-ayrı insanların düşüncəni əks etdirir. Ona görə də belə formalar «təfəkkürün semantik forması» da adlandırılır (12, s. 43).

Beləliklə, bu məqalədə transformasiya bir dil hadisəsi kimi nəzərdən keçirilir, onun bir sıra nəzəri-linqvistik apsektləri ona yaxın olan anlayışlarla müqayisəli şəkildə araşdırılır, bu sahədə müvafiq tədqiqatların aparılması tövsiyə olunur.

Ədəbiyyat

1.Адамец П. Очерк функционально-трансформационного синтаксиса современного русского языка. Прага, 1973.
2.Аперсян Ю.Д. Трансформационный метод\\Лингвистический энциклопедический словарь.\Под ред. В.Н.Ярцева.-М.: Советская энциклопедия, 1990.
3.Касевич В.Б. Трансформационно-порождающая грамматика\\Элементы общей лингвистики. М.: Наука, 1977, с. 101-109
4.Kazımov İ. Türk dillərində sintaktik hadisələr. «Türkologiya», Bakı, 2010, № 1-2.
5.Хомский Н.Синтаксические структуры\\ Новое в лингвистике. М.: 1962.
6.Dilçilik ensiklopediyası. 2-ci cild, Prof. F.Y.Veysəllinin redaktəsi ilə. Bakı, «Mütərcim», 2008.
7.Лиз Р.Б. Что такое трансформация? –Вопросы языкознания. 1961, № 3
8.Chomsky N. Aspekcts ov the Theory of Syntax, 1965.
9.Verdiyeva Z., Ağayeva F., Adilov M. Dilçilik problemləri. I, Bakı, «Maarif» nəşriyyatı, 1982.
10.Ağayeva Ü. Cümlə ekvivalentlərinin sintaktik-semantik təhlili (İngilis və Azərbaycan dillərinin materialları əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010.
11.Семенов А.Л. Основные положения общей теории перевода. М.: 2004.
12.Сухотин В.П.Синтаксическая синонимика в современном русском языке. М.: 1960.

Nassiba Abbasova

The aspects of theoretical-linguistic events of transformation

Summary

In the article transformation is looked through as linguistic event. A number of language facts which are the result of this event are analysed. Different sides of this event in the formation of functional-transformational grammar are investigated.

Насиба Аббасова

Теоретико-лингвистические аспекты трансформационного явления

Резюме

В статье трансформация рассматривайся как лингвистическое явление, анализируется ряд лингвистических фактов, порожденных в последствии данного явления, освещаются его разные направления, формирующие функционально-трансформациональную грамматику.

Rəyçi: Sevindik Vəliyev
filologiya elmləri doktoru, professor

SALATIN ƏHMƏDOVA
guliyeva_r@mal.ru

AZƏRBAYCAN DİLİNDƏ SİNONİMLİYİN GENOTİPOLOGİYASI

Açar sözlər: dominant, nominativ, sinonim cərgə, dublet, variantlıq,
Ключевые слова: доминант, номинатив, синонимичный ряд, дублет, вариантивность.
Key words: dominating, nominative, synonymous line, dublet, variant.

Əslində, dilin struktur - sistem mahiyyəti, yaxud «işarəvi təbiəti» (F. de Sössür) sinonimliyi, prinsip etibarilə, istisna edir; belə ki, dilin öz funksiyasını yerinə yetirməsindən ötrü bir leksik və ya qrammatik mənanın ifadəsi (fiksasiyası) üçün yalnız bir stabil işarə tələb olunur. Lakin bu, məsələnin hər cür stilizasiyalardan uzaq, sxematik tərəfidir. Dildə isə, tamamilə təbii olaraq, sinonimlik geniş yayılmışdır.

Azərbaycan dilində sinonimliyin genotipologiyası barədə danışarkən onun yaranması tarixinin hansı mərhələlərdən keçməsindən başlamaq lazımdır. Müşahidələr göstərir ki, sinonimliyin meydana çıxmasının ilk mərhələsi Azərbaycan türkcəsinin ümumtürkcədən ayrıldığı dövrə düşür. Demək olar ki, bütün orta əsrləri əhatə edən bu dövrdə Azərbaycan dili biri digərinə çox yaxın olan əsasən üç türk tayfa dilinin xüsusiyyətləri arasında təbii seçim edir ki, bu zaman oğuz, qıpçaq və karluq türk tayfa dillərindən birincisi (oğuz) aparıcı olur, ikincisi (qıpçaq) kifayət qədər geniş, üçüncüsü (karluq) isə epizodik fakt- göstəricilərlə təmsil olunur. Beləliklə, Azərbaycan dilinin və ya Azərbaycan türkcəsinin qazandığı ilk sinonimlik onun genetik təbiətindən, başqa sözlə desək, qədim türk dilinin diferensiasiya qanunauyğunluqlarından irəli gəlir.

Azərbaycan dilində bütün orta əsrlər boyu yazı – çöl, yeg – yaxşı, varmaq – getmək və s. sözlərin sinonimliyi mövcud olmuş və maraqlıdır ki, bu oğuz- qıpçaq sinonimliyi yeni dövrdə oğuz deyil, qıpçaq variantının sabitləşməsi ilə aradan qalxmışdır. Azərbaycan türkləri birinci şəxsin təkini ifadə etmək üçün min ildən artıq qıpçaq mənşəli mən ilə oğuz mənşəli bən arasında tərəddüd etdikdən sonra qıpçaq mənşəli mən i seçmişlər.

Müşahidələr göstərir ki, qədim türk tayfa dillərinin Azərbaycan coğrafiyasındakı inteqrasiyasından əmələ gələn sinonimlik, məsələn, qabaq – ön – irəli, arxa – dal – geri və s. bir sıra normativ faktları nəzərə almasaq, müasir dildə, demək olar ki, stilizasiya məqamlarında özünü göstərir.

Azərbaycan dilində sinonimlik sisteminin formalaşmasına təkan verən ikinci qüvvə (və nəticə etibarilə, mərhələ) Şərq dillərinin təsiridir ki, bunlar, əsasən, ərəb və fars dillərindən ibarətdir. İslam dinini qəbul edən Azərbaycan türkləri onunla birlikdə, eyni zamanda tezliklə ərəb, eləcə də farscadan külli miqdarda dil xüsusiyyətləri mənimsəyirlər. Həmin mənimsəmə o səviyyəyə çatır ki, orta əsrlər Azərbaycan dili, bir sıra elmi- dilçilik mənbələrində, məşhur ifadə ilə, obrazlı şəkildə «üç ayayqlı», yəni türk, ərəb və fars qarışığından olan dil adlanır. Və bu «qarışıqlıq» özünü yalnız lüğət tərkibində deyil, bu və ya digər dərəcədə qrammatikada, hətta fonetikada da göstərir.

Ana, ata, ev, çörək, ağ, qara, sevgi və s. kimi populyar milli sözlər ola- ola Azərbaycan dilinə, ilk növbədə yazının təsiri ilə madər – ümm, pədər, xanə, nan, bəyaz, siyah, eşq- məhəbbət və s. alınmalar gəlir ki, bunların böyük bir hissəsi yeni dövrdən etibarən arxaikləşsə də, ondan heç də az olmayan hissəsi «milliləşir» və ya normativləşir. Və qeyd etmək lazımdır ki, müasir Azərbaycan dilində leksik sinonimliyin əsasını məhz türk – ərəb – fars müvaziliyi təşkil edir. Məsələn: uğur – müvəffəqiyyət, gözlük – eynək – çeşmək, ürək – könül – qəlb, çətin – müşkül, uyğun- müvafiq – məqbul – münasib, yan (yön) – ətraf (tərəf) və s. və i.

Nitq təcrübəsində bu sinonimlərdən hansısa birinin seçimində, ənənəvi prinsip olaraq, intellektual- mədəni üstünlük çox zaman alınma sözə verilmişdir ki, bunun da səbəbi alınma sözün ideoloji nüfuzu ilə yanaşı mətndə çoxmənalılıq «təhlükə»si yaratmaması olmuşdur.

Müasir dövrdə həmin prinsip tədricən aradan qalxmaqda, milli mənşəli sözlərə daha çox maraq yaranmaqda və hətta ərəb, fars alınmaları ilə konkurensiyaya girəcək milli mənşəli sözlər fəallaşdırılmaqdadır; məsələn, dövr, yaxud mərhələ əvəzində dönəm, əsr əvəzində yüzil(lik), tərcümə əvəzində çevirmə, lüğət əvəzində sözlük və s.

Nəhayət, Azərbaycan dilində sinonimliyin bir sistem olaraq qərarlaşmasının üçüncü – sonuncu mərhələsini Qərb dillərinin təsiri müəyyənləşdirilir. XIX əsrin əvvəllərindən başlayaraq rus dilindən, daha doğrusu, rus dili vasitəsilə xüsusilə Qərbi Avropa dillərindən Azərbaycan dilinə get- gedə artan sürətlə, birinci növbədə, elmi- texniki söz- terminlər keçir ki, XX əsrin sonlarından etibarən, Azərbaycan xalqının (və Azərbaycan dilinin) müstəqillik qazanması ilə əlaqədar olaraq, həmin söz-termin keçməsi prosesi həm müstəqimləşir, yəni rus dilinin vasitəçiliyi aradan qalxır, həm də daha geniş miqyas alır, hətta modernləşir.

Azərbaycan dilinə ilk mərhələlərdə keçən (və sinonimlik yaradan) Qərb mənşəli sözlər milli, yaxud «milliləşmiş» variantlarını tezliklə arxaikləşdirdi. Məsələn, məzhəkə – komediya, firqə – partiya, sərf – nəhv, qramer (qrammatika), tənəzzöh – ekskursiya, darülfünün – universitet və s. Bəzi alınmalar isə «uğursuz» oldu. Məsələn, revolyusiya sözünün inqilab, front sözünün cəbhə, soldat sözünün əsgər və s. sözü ilə sinonimliyi çox çəkmədi. Bununla belə Qərb mənşəli alınmalar müasir Azərbaycan dilində sinonimliyin genişlənməsinə əhəmiyyətli təsir göstərmişdir. Məsələn: məsləhət – konsultasiya, ünsiyyət – kommunikasiya, məlumat - informasiya, mənşə – genezis, izah (at) – interpretasiya, əməliyyat – operasiya, zirvə görüşü – sammit və s.

Və beləliklə, müasir Azərbaycan dilinin sinonimlik sisteminin genotipologiyası sxematik olaraq aşağıdakı kimi təsəvvür oluna bilər:



Sinonimliyin Azərbaycan dilində həm bir sistem (dil aktı), həm də funksional hadisə (nitq aktı) olaraq qərarlaşmasına olduqca müxtəlif amillər təsir etmişdir (və edir) ki, buraya, ilk növbədə, aşağıdakıları aid etmək olar:

1) şifahi dil, yazı dili və onların münasibəti, və ya «dialoq»u;

2) daxili dil məhsuldarlığı, xarici (Şərq və Qərb) təsirlərinin qəbul ehtiyacları;

3) Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin dünyagörüş tələbatından irəli gələn mənimsəmə ehtiyacları və onların ümumən dil cəmiyyətində nə dərəcədə inteqrasiya olunub- olunmaması;

4) dilin funksional üslub müxtəlifliyi, həmin müxtəlifliyin diferensiasiya dərinliyi və inteqrasiya səviyyəsi;

5) Azərbaycan cəmiyyətinin qloballaşan müasir dünyadakı dil- nitq proseslərində iştirakı imkanları və s.

Sinonimliyin nə dərəcədə sabit olub- olmamasına gəldikdə, müşahidələr göstərir ki, Azərbaycan dilində bunun ən azı üç təzahürü vardır:

1) sabit və ya ardıcıl sinonimlik;

2) qeyri- sabit və ya tərəddüdlü sinonimlik;

3) keçici və ya tarixi sinonimlik.

Və nəhayət, hər bir dildə, o cümlədən də Azərbaycan dilində sinonimliyin genotipologiyasını izah edəcək bir mühüm göstərici və ya əlamət də vardır ki, bu da həmişə özünəməxsusluğu ilə fərqlənən hər hansı dil daşıyıcısının, fərdin (İnsanın!) sinonimlikdən istifadə ehtiyacı, imkanları və üsulları (texnologiyaları)ndan ibarətdir. Xüsusilə müasir dünyada dəyərləndirmə meyarlarının bütövlükdə cəmiyyətə, yaxud cəmiyyətdən daha çox insana yönəldiyi, onun üzərində cəmləşdiyi bir şəraitdə bundan qaçmaq mümkün deyil. Və həmin metod cavab verməlidir ki, mən, təbii ki, dünyagörüşümdən, mədəniyyətimdən, ana dilimin verdiyi imkanlardan (dil təfəkkürümdən), dünyanın müxtəlif mədəniyyətləri (və dilləri)nə çıxış imkanlarımdan və s. və i. subyektiv (eləcə də, mahiyyət etibarilə, obyektiv!) göstəricilərimdən asılı olaraq, sinonimlərdən niyə, hansı şərtlərlə və necə istifadə edirəm?..

Normativ bir müasir azərbaycanlı obrazı təsəvvür etsək, onun dil təfəkküründə sinonimlik yaradan mənbələr bu sıra ilə düzüləcəkdir: türk mənbələri (Azərbaycan türkcəsi, eləcə də müasir türk dillərindən alınmalar) + Şərq mənbələri (Azərbaycan türkcəsində artıq mənimsənilmiş, «milliləşmiş» çərçivə daxilində) + Qərb mənbələri (əsasən, ingilis dilinin beynəlmiləlləşdirdiyi səviyyədə). Məsələn:

1)alver (alverçi) + ticarət (tacir) + kommersiya (kommersant);

2)köçürmə +nəql + transfer;

3)soykök +xalqın mənşəyi + etnogenez;

4)ardıcıl + davamlı + periodik;

5)sonuc + nəticə + rezultat və s.

Bu, normativ (ədəbi) səviyyədir, normativ olmayan səviyyədə isə sinonimliyin miqyası daha genişdir; məsələn, adi danışıq dilində «köçürmə» cərgəsi rus mənşəli «perevod», «ardıcıl» cərgəsi isə «pastayannı» sözləri ilə «genişlənəcəkdir».

Bugünkü Azərbaycan dilində sinonimliyin tipologiyasına qlobal (beynəlxalq) dildən (ingilis dilindən) qaçılmaz olan söz keçmə prosesi müqabilində milli (türk

mənşəli) qarşılıqlar tapmağa meylin artması daha çox təsir edir ki, bunlardan birincisi real- stabil, ikincisi isə romantik- eksperimental hadisə kimi görünür.

Ədəbiyyat

1. Cəfərov N. Seçilmiş əsərləri, I c., Bakı, «Elm» nəş., 2007.
2. Əlizadə S. Orta əsrlərdə Azərbaycan yazı dili, Bakı, ADU nəş., 1985.
3. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi, I- II c., Bakı, «Elm» nəş., 2012.
4. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları, Bakı, Azərb. SSR EA nəş., 1973.
5. Sadıqova S. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı, Bakı, «Elm» nəş., 2005.

Salatın Ahmadova

The genotype of synonymy of Azerbaijanian language in English

Summary

The history of synonymy formation is consisting of three stages in Azerbaijan language:

1) The languages created on the basis of Turkish family of languages (oghuz, polovtsian and etc.)
2) The synonymy originated by the loan-words of Eastern family of languages;
3) The synonymy originated by the loan-words of European family of languages;

In modern Azerbaijan language the genotype of synonymy is defined by integration of three families of languages into Azerbaijan language context:

Turkish language origin;

1) Eastern language origin;
2) Western language origin:

Салатын Ахмедова

Генотипология синонимности в Азербайджанском языке

Резюме

История формирования синонимности в азербайджанском языке состоит из 3-х этапов:

1. Синонимность, образовавшаяся на основании тюркских племенных языков (огузы, кыпчаки, карлуки);
2. Синонимность, образовавшаяся за счёт заимствования с восточных языков:
3. Синонимность, образовавшаяся за счёт заимствования с европейских языков.

В современном азербайджанском языке и генотипологию синонимности определяет интеграция языковой системы в контексте азербайджанского языка: 1. Тюркские источники; 2. Восточные источники; 3. Западные источники.

Rəyçi : Nizami Cəfərov
filologiya elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü

СЕВДА КАДИЕВА
Азербайджанского
Медицинского Университет

О ЛЕКСИЧЕСКИХ ПРОБЛЕМАХ ПЕРЕВОДА

Açar sözlər: söz , tərcümə, dil, problem, məna
Key words: word, translation, language, problem, sense, meaning
Ключевые слова: Слово, перевод, язык, проблема, смысл.

История развития переводческой деятельности исчисляется тысячелетиями и уходит корнями в глубокую древность. Народы, жившие по соседству и говорившие на разных языках, стремились к взаимопониманию, общению, взаимодействовали.

История перевода изучалась в основном как история перевода художественной литературы, ей всегда уделялось и уделяется основное место, что является закономерным. Перевод художественной литературы представляет особую сложность и играет огромную роль в истории литературы и культуры.

История перевода знакомит нас с существованием двух переводческих тенденций, двух типов передачи иноязычного текста, которые засвидетельствованы как сохранившимися текстами самих переводов, так и дошедшими до нас теоретическими высказываниями. Встречаются они и в античном мире, и в средние века, и в новое время.

Первый тип это перевод, основанный на тенденции к дословному воспроизведению оригинала – в ущерб смыслу целого и в ущерб языку, на который текст переводится.

Второй тип - перевод, основанный на стремлении отразить «дух», смысл подлинника.

Как отмечает профессор П.М.Топер, «Литература в силу своей словесной природы, единственное из искусств, замкнутое национально-языковыми границами: литературное произведение понятно только тем, кто знает язык, на котором оно написано, тогда как музыка, живопись, скульптура, танец, даже театр и кино (в той мере, в какой они не связаны с текстом) доступны непосредственно восприятию любого зрителя или слушателя. Распространение искусства слова за пределы той языковой среды, в которой оно создано, а тем самым взаимовлияние и взаимообогащение литератур, становится возможным благодаря п е р е в о д у, одному из главных проводников культурного обмена между народами», ибо литература, по верному замечанию М.Горького, «всегда легче и лучше знакомит народ с народом»(1).

Разные языки – это разные системы со своими лексическими, грамматическими, фразеологическими, словообразующими и синтаксическими особенностями. Не всегда решаемая задача, стоящая перед переводчиком - найти в словарном запасе другого языка адекватный лексический эквивалент или передать средствами другого языка синтаксическую конструкцию, адекватно отражающую динамику или экспрессию действия из текста оригинала. Трудность связана с тем, что лексические единицы, выбираемые переводчиком как

эквиваленты, у носителей разных языков вызывают в сознании разные представления.

Правильный выбор слова для полной передачи значения его в переводимом тексте – одна из основных лексических проблем перевода, связанная со сложной природой слова, его многогранностью и семантическим богатством.

В азербайджанском и русском языках лексические единицы слов не всегда совпадают. Часто одному слову в русском языке в азербайджанском соответствует целое словосочетание или наоборот. Переводчик должен подобрать адекватное слово, которое имело бы то же значение, ту же стилистическую окраску и вызывало бы у читателя те же ассоциации.

Учитывая то, что большинство слов в азербайджанском и русском языках не совпадают по значению, переводчику следует определить значение азербайджанского слова и выбрать в русском языке то слово, которое наиболее соответствует по значению азербайджанскому. Иногда переводчику приходится вводить дополнительное русское слово, чтобы передать полностью все значение азербайджанского. Часто, в поисках нужного слова переводчик обращается к синонимическому ряду другого языка, за счет чего он достигает адекватности при переводе.

Иногда употребляемые в тексте слова могут приобретать контекстуальное значение, не являющееся постоянным, а возникающим в данном контексте. Значения этих слов не находят отражения в словарях, но как бы заложены в слове и могут выявиться в зависимости от контекста. При переводе контекстуального значения переводчику приходится сталкиваться с большими трудностями, так как словарь может только подсказать направление, в котором переводчику следует искать нужное слово.

Контекст - это не отдельное предложение, где употреблено слово, а связь слова с другими окружающими его словами. В процессе работы над оригиналом, для раскрытия значения слова и адекватной его передачи в переводе, переводчик должен учитывать более широкий контекст - несколько предложений, абзац, главу, а иногда и все произведение в целом.

Разнообразный и разнородный по своему характеру словарный состав азербайджанского и русского языков включает в себя общеупотребительные слова, составляющие его основу, слова книжные, разговорные, вульгаризмы, профессионализмы, научные термины и т.д. Принадлежность слов к различным пластам словаря ярче всего выступает в художественной литературе.

Очень часто переводчики заменяют слова, принадлежащие к одному пласту словаря, словами, принадлежащими к другому, что является грубой ошибкой, ведущей к искажению мысли автора. Иногда общеупотребительные слова оригинала неудачно подменяются научными терминами и т.п., что создает у читателей неправильное представление об общественном положении, характере персонажей, а также о социальных отношениях между ними. В таком случае перевод нельзя считать адекватным, так как он создает неправильное представление о языке автора. Подмена общеупотребительного, а тем более просторечного слова, словом литературным в прямой речи может совершенно исказить социальный облик персонажа.

Серьезной ошибкой является внесение вульгаризмов и просторечия в авторский текст, написанный строго литературным стилем, или в речь персонажей, принадлежащих к кругу образованных людей.

В процессе работы над оригиналом, переводчик всегда должен помнить, что словарный состав каждого языка находится в постоянном движении, многие слова устаревают, становятся архаизмами, многие слова связаны с определенной эпохой.

Особо следует остановиться на переводе местных диалектов, которые в отличие от жаргонизмов и профессионализмов представляют наибольшую трудность при переводе. При переводе местных диалектов переводчик не должен пользоваться диалектами языка, на который делается перевод, так как это вносит совершенно неправильные ассоциации и теряется национальный колорит. Перевод местных диалектов представляет собой особую сложность, разрешение которой возможно только при помощи адекватных замен.

Большой интерес представляет перевод всех типов фразеологических единиц: сращений, т.е. идиом, фразеологических единств, главным образом пословиц и поговорок, так называемых свободных сочетаний, допускающих подмену одного из своих элементов.

Учитывая то, что идиомы в основном имеют национальную окраску и не имеют абсолютного соответствия в другом языке, при переводе сращений необходимо знать значение данного идиома и правильно передать его с м ы с л. Трудность передачи сращений заключается в том, что их нельзя переводить дословно и переводчик должен умело подыскать соответствующий им вариант.

Перевод азербайджанских фразеологических единств – пословиц и поговорок можно разделить на три группы.

Некоторые азербайджанские пословицы и поговорки полностью совпадают с русскими – по смыслу и по форме, т.е. по образу или по входящим в них компонентам.

Встречаются среди пословиц и поговорок такие, которые совпадают по смыслу, но не совпадают по образу, положенному в их основу. В этом случае переводчик должен придерживаться принципа передать привычное столь же привычным, иначе пословица или поговорка произведет на русского читателя впечатление чего-то неожиданного и оригинального.

Однако, переводчик сталкивается и с такими пословицами и поговорками, которые не имеют соответствия в русском языке. Они переводятся либо описательным путем, либо при помощи поговорки, созданной переводчиком.

Пословицы и поговорки часто имеют четко выраженный национальный характер, поэтому такие пословицы не могут быть использованы при переводе, несмотря на то, что они полностью совпадают по смыслу. В таких случаях приходится либо дать близкий к оригиналу перевод, либо перевести ее по смыслу.

Отдельно следует остановиться на передаче национального колорита, к которому следует отнести имена собственные, географические названия, названия улиц, парков, гостиниц, театров, ресторанов и т.д., названия газет и

журналов, формы обращения, меры веса, объема, длины, названия национальных блюд и напитков, национальные обычаи, нравы, верования.

Проф.Т.А.Халилова отмечает, что «перевод – понятие историческое; разные эпохи вкладывают в него разное содержание и по-разному понимают его взаимоотношение с оригинальной литературой. Сегодня главное требование к переводу – это максимально бережный подход к оригиналу и воссоздание его как произведения искусства в единстве содержания и формы, в национальном и индивидуальном своеобразии»(2).

Переводчик решает очень серьезную задачу по сохранению в переводимом тексте информации, связанной с историей и культурой народа, жизни которого посвящено произведение. Эту задачу разные переводчики решают поразному, и здесь многое зависит от таланта переводчика и его общей образовательной культуры.

Необходимость сохранения национального колорита - главное требование, предъявляемое к переводчику. Перевод, лишенный национального колорита, недопустим. Каким же образом переводчик может сохранить национальный колорит оригинала?

Имена собственные и географические названия должны обязательно передаваться при помощи транслитерации: азербайджанское произношение должно передаваться как можно точнее буквами русского алфавита. Однако здесь следует сделать очень существенную оговорку. Переводчик должен считаться с установившейся традицией в отношении исторических имен собственных и географических названий, а также персонажей всемирно известных литературных произведений.

Тот же принцип транслитерации должен применяться при переводе названий улиц, гостиниц, театров, а также названий газет и журналов. Однако, в переводе имена, названия улиц, газет и т.д. переводятся, если они являются «говорящими» именами, т.е. если их название является существенно важным для раскрытия содержания.

Сохраняются в переводе и передаются при помощи транслитерации формы вежливого обращения: xanım – ханум, bəy-бек, müəllim - мюаллим и т.д. Денежную единицу же следует всегда оставлять ту, что в оригинале, поскольку она характерна для определенной страны, и рубли, использованные в переводе с любого другого языка на русский, перенесли бы действие в Россию. Однако, чтобы сделать текст доступнее пониманию, переводчик может заменить менее известные денежные единицы более известными.

Передача содержания оригинала равноценными средствами - один из основных принципов теории перевода. Оригинальное передается столь же оригинальным и необычным, и наоборот, общеупотребительное и характерное для языка должно быть передано столь же характерным и общеупотребительным. Другими словами, переводчик не должен ни обесцвечивать перевод, ни делать его более красочным и ярким.

«Реалистический» метод перевода связан с именем И.А.Кашкина. Уделяя большое внимание проблеме национальной специфики, своеобразия иноязычного произведения и необходимости ее воссоздания, И.Кашкин отмечал: «Если удается художественно убедительно воспроизвести то, что хотел

показать автор, если читатель увидит то, что видел и слышал автор, - задача решена»(3).

Список использованной литературы:

1. Краткая Литературная Энциклопедия. Т.5., М.,1968, с.656.
2. Халилова Т.А. Проза и перевод. Проблемы русских переводов азербайджанской
художественной прозы советского периода. Баку.,1991, с. 4.
3. Кашкин И.А. Для читателя – современника. – М., 1977. – с.432.

S.Kadiyeva

Tərcümənin leksik problemləri haqqında

Xülasə

Son illər "tərcümə" problemi özünün müxtəlif aspektləri ilə müasir tərcüməşünaslığında daha cox diqqəti cəlb edir.

"Tərcümənin leksik problemləri haqqında" adlı məqalə bədii mətn tərcüməsi haqqında bəhs olunur.

Məqalədə Azərbaycan dilindən rus dilinə tərcümə zamanı yaranan leksik-semantik transformasiyalarının problemləri öz əksini tapmışdır.

Leksik transformasiyaların seçim yollarını müəyyən edən linqvistik faktorlar tədqiq edilmişdir.

S. Kadiyeva

About the lexical problems in translating

Summary

Last year the problem of "translation" with its different aspects take a central part of the modern translate sciences. In the given article is talked about the translation of fiction text.

The prezent article **" About the lexical problems in translating"** describes the problems of lexical and semantic transformation in translating from Azerbajcan into Russian.

Linguistic factors determining the selection of the ways of lexical transformations are studied.

Rəyçi: Tamilla Xəlilova
filologiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

AYTƏN ABBASOVA
AMEA-nın akad. Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun doktorantı
ayten.abbasova@list.ru
UOT - 82.08

CENGİZ DAĞCININ «ONLAR DA İNSANDI» ROMANINDA TÜRKÜN YURD İTKİSİNİN MİLLİ FACİƏ TİPİNDƏ TƏQDİMİ

Açar sözlər: Krım türkləri, vətən sevgisi, yurd itkisi, torpağa bağlılıq, türk humanizmi
Ключевые слова: Крымские тюрки, любовь к Родине, потеря родного очага, привязанность к земле, тюркский гуманизм
Keywords: Crimean Turkishs, love for the motherland, native land loss, affection for land, Turkish's humanism

1920-ci ilin noyabrında Krımda Qızıl Ordu tərəfindən Sovet hökuməti quruldu. Bir il sonra, 18 oktyabr 1921-ci ildə Sovet hökuməti tərəfindən Krım Muxtar Respublikası elan olundu. Bundan sonra qismən də olsa Krım türkləri dövlət idarəsində hüquqa malik oldular. 1921-29-cu illərdə Yeni İqtisadi Siyasətin tətbiqi ilə Krım türklərinin sosial-iqtisadi həyatında müsbət dəyişikliklər oldu. Ancaq 1929-cu ildə Stalin Yeni İqtisadi Siyasətə son qoydu və bundan sonra tətbiq olunan kolxozlaşdırma siyasəti Krım türklərinə çox baha başa gəldi. Kolxozlaşdırmaya etiraz edənlər həbs olundu, yaşadıqları kənddən sürgün edildi. Bu illərdə çoxsaylı qırğınlar da törədildi, 40 mindən çox Krım türkü Ural bölgəsinə köçürüldü. Bütün bu hadisələr müasir türk ədəbiyyatının görkəmli nümayəndəsi Cengiz Dağcının "Onlar da insandı" romanında öz geniş bədii əksini tapır.

Cengiz Dağcı bir sıra romanlarında olduğu kimi «Onlar da insandı» romanında da Krım türklərinin başına gətirilən müsibətləri dilə gətirməyə çalışır. Bu romanda yazıçı Kızıltaş kəndinin sakinlərinin yaşadıqları fonunda Krım türklərinin faciəli taleyini özünəməxsus bir üslubla əks etdirə bilir. Xatirələrində «Ben yalnızca Kırım'ın yazarı değilim, ama Kırım'ın faciasını bütün gerçeği ve içtenliğiyle yalnız ben yazabilirdim» (1, s.6) deyən yazıçının bu fikri ilə adı çəkilən romanla yaxından tanış olduqdan sonra tam əmin olmaq olur.

Romanda hadisələr təxminən 1928-33-cü illər arasında Krımın Kızıltaş kəndində cərəyan edir. Bir nəfər də olsun rusun yaşamadığı bu kəndin insanları torpağına ürəkdən bağlıdır. Romanda hadisələrin cərəyan etdiyi Kızıltaş kəndində rusların yaşamaması faktı yazıçı tərəfindən Krım torpaqlarının tarixi türk torpaqları olduğuna işarədir. Yazıçı kənd sakinlərinin torpağa bağlılığı timsalında türklərin möhkəm yurd sevgisini göstərməyə çalışır. Bu zəhmətkeş insanlar üçün torpaq təkcə əkib-becərdikləri, məhsulu ilə dolandıqları cisim deyildir. Daha müqəddəsdir, toxunulmaz-

dır, namusdur, nəsildən-nəslə keçən ən qiymətli mirasdır. «Toprak onlar üçün, hava gibi, su gibi, ekmek gibi, bunların da ötesinde evlat ve ya sevgili gibi bir şeydir». (1, s.92)

Romanda torpağına, yurduna bağlı kənd sakinlərinin faciəli həyatı təsvir olunur. Romanda daha çox ön plana çıxan Bəkir torpağına ürəkdən bağlı zəhmətkeş bir kəndlidir. Bütün sərvəti balaca evi, inəyi, atı və tütün tarlası olan Bəkirin torpağa hədsiz bağlılığı hətta qızı Ayşənin təəccübünə səbəb olurdu. Bəkirin rahat həyatı iki rusun kəndə gəlməsi ilə dəyişir. Acınacaqlı görkəmdə olan bu iki rus Bəkirdən yardım istəyir, Bəkirin onlara tövlənin bir kənarında yer verəcəyi təqdirdə ona hər işdə kömək etməyə hazır olduqlarını bildirirlər. Çox keçmədən onların əsl niyyətləri üzə çıxır. Bəkirin mallarını və evini ələ keçirdikdən sonra burada donuz saxlamağı planlaşdırırlar. Maraqlısı odur ki, bir pərişan görkəmli iki rusdan yaşlı olanını Bəkir Karl Marksa bənzədir və ona «Kala Mala» deyir. Kəndə gələn ilk rusun Karl Marksa bənzədilməsi bir müddət sonra kommunizmin, kollektivləşmənin kəndə gələcəyindən sanki xəbər verir. Rusların kəndə gəlişi ilə eyni gün qonşu Ənvər Noqaylıq adlanan yerdə torpaqların kəndilərin əlindən zorla alınması xəbərini gətirir. Ənvərin sərt çıxışı da kənd sakinlərinin torpağa bağlılığını aydın təzahür etdirir: «Veririm ben onlara toprak! Atamın toprağına burnumu sokmak isteyen cenabetin gözünü patlatırım vallahi! Ezerim de leşlerini gübreye gömerim. Toprak vermek haa! Kime? Komalizmaya! Altın ile zor alınan şey besbedava verilir mi, Bekir ağa?». (1, s.67)

Bəkir rusların halına acıyır və onlara tövlənin bir kənarında yer verir. Ancaq Bəkirin bu hərəkəti kəndlilər tərəfindən heç də xoş qarşılanmır. Tezliklə Bəkir bir sıra uğursuzluqlarla qarşılaşır, belindən çiban çıxır, gözünün ağı-qarası bircə qızı Ayşə xəstələnir, sevimli inəyi Macikin südü azalır, bərk xəstələnir. Bütün kənd bu uğursuzluqların səbəbini İvan və Kala Malada görür. Bunlara baxmayaraq Bəkir rusları qova bilmir, ürəyi gəlmir. Elə bu günlərdə kənddə naməlum şəxslər görünür. Məlum olur ki, onlar Kızıltaş torpaqlarını qeydiyyata salmağa gələn ruslardır. Bundan bərk sarsılan Bəkir bazarlıq etmək üçün getdiyi Yaltada sərv ağaclarının kəsiləcəyini, Kuşkayanın dağıdılacağını xəbərini eşitdikdə bunların gerçək olacağına inanmaq istəmir. Bəkirin həyat yoldaşı Esma ilə söhbətində torpağına ürəkdən bağlı bu insanların yurd sevgisi bir daha aydın görünür: «…İnsanın toprağını almak olur mu? Toprak almak, can almak! Kim alır senin toprağını! Baba toprağı bu! Dünyada namus denen şey tükenmedi daha. Korkma, korkma!» (1, s.63) Millətə məxsus torpağın başqası tərəfindən alınması onlara o qədər uzaq gəlir ki, qətiyyən belə bir şeyin olacağına inanmırlar. Həyat yoldaşı Esmanın Bəkirə dediyi «Topraklarımız da atadan miras. Kimin toprağında gözümüz var ki, bizim toprağımıza göz koysunlar?» (1, s.71) Bəkirin sözlərindəki əminlik də məhz bu düşüncənin əksidir.

Yazıçı roman boyunca mütəmadi olaraq bir neçə əsrdir davam edən Krım türklərinə qarşı olan rus zülmünü nəzərə çatdırmağa çalışır. İvanın içib sərxoş olduqdan sonra Bəkirin qızı Ayşəni vəhşicəsinə döyməsi səhnəsini yazıçı təsadüfi olaraq vermir. İvanın əsl siması burada ortaya çıxır: «İvan şimdi kendisiydi, müthiş ve korkunçtu. Yağmurun çamurların içinde yumruk, tekme Ayşe'yi dövüyordu. …İvan şimdi kendisiydi. Ayşe, kırmızı entarisi göğsüne çekilmiş, mosmor, kanlı bacakları çamurlarda, kuvvetsiz ve zavallı yatıyordu. Bu manzara İvan'ı ayıltmıştı

sanki. Artık Ayşe'yi yağmurun içinde bırakıp kenardan uzun uzun seyretmek istiyordu». (1, s.166-167)

Rusların kəndə gəlişindən sonra kənddə dəyişikliklər görünür. Kiminin evindən qoyun, kiminin evindən toyuq oğurlanır. Yavaş-yavaş evlərin qapılarında kilidlər görünməyə başlayır. Baş verənləri təəccüblə seyr edən safqəlbli Bəkir torpaqların ruslar tərəfindən əllərindən alınacağına inana bilmir. Ancaq Ənvərin söylədikləri Bəkiri sanki qəflət yuxusundan oyadır: «Bu toprak, iki gözüm, bu toprak, senelerden beri Nikola'nın boğazında bir kemik gibi durdu. Senelerden beri yutkundu, yutamadı. Ama bir böyle sırtüstü yatıp da «belayı da Tanrı verir, bereketi de» dersek, yalnız göğe bakar da hiçbir şey yapmazsak, söyledim, yine de söylerim, o bu toprağı yutacaktır. Komünizmanın Nikola'sı gelecek, bu toprağı yutacaktır». (1, s.187)

Bu zaman artıq ruslar tərəfindən çəkilən yol hazır idi. Rus kəndlərindən xeyli kəndli Yalta şəhərinə yerləşdirilməyə başlamışdı. Onların arasında İvan da görünür. İvan tarixi türk torpaqlarının ruslar tərəfindən ələ keçirilməsindən çox məmnundur. «İvan, çarşıda Poltava, Don, Sibirya Rusları arasında hayli dolaştı. Pek memnundu. Çarşıyı dolduran yurdumun insanları, kadınları, elleri arasında domuz yavrularının çığlıkları, onu yeni doğmuş çoçuk gibi sevindiriyordu…» (1, s.351)

Az əvvəl Bəkirin evinə sığınan İvan indi kəndə yol çəkməyə gələn ruslara başçılıq edir. İvan yol tikintisi üçün daş daşıyanları incidir, «mən rusam, istər söyərəm, istər döyərəm, sən isə tatarsan» deyərək onları təhqir edir. Onun hərəkətləri hamını təbdən çıxarmaqdadır. Seyid-Alinin oğlu bunlara dözməyib İvanı döyür. Ancaq bu vəziyyətdə də Bəkirin ona yazığı gəlir, onu evində saxlayır, etdiyi hərəkətləri unudur. Yazıçı türk humanizmini romanda ən çox Bəkirin timsalında təqdim etməyə çalışır.

Bəkirin həyat yoldaşı Esma da kənddə baş verənlərdən, xüsusilə də Seyid Əlinin atının öldürülməsindən sonra narahatdır, qorxu içindədir. Ancaq buna etiraz edən topluluğu, meydana toplaşan kənd camaatını gördükdə daxilən rahatlayır, millətinin şanlı tarixi ilə qürur duyur, torpaqlarının əlindən alınacağına heç cür inanmır. Bu zaman yazıçının öz düşüncələri Esmanın dili ilə verilir: «Neden korkacaktı? Türk yurdunda doğmuştu, Kırım'ın güneşinde büyümüştü. Damarlarında ateş gibi sıcak, kırmızı türk kanı akmıyor muydu? Nice nice saltanatlar gelip geçmişti. Nice zalimler bu memleketi, bu toprağı kemirmişler, kanlara bulamışlardı, fakat dinden, haktan, namustan doğan bu Türk milletinin ruhunu kıramımıştı, Rus komolizması da kıramazdı». (1, s.198)

Baş verənlərə baxmayaraq Bəkir evində xəstə halda yatan İvana acıyır, onun da insan olduğunu düşünərək ölməsini istəmir. «Yaşasın, o da insan değil mi? Diye düşüne düşüne başı, beyni ağırlaşıyor, gözleri usulca kapanıyor, uyuyordu. Fakat İvan, İvan'dı. Yüzyıllar boyu İvan olagelmişti. İvan'dı İvan olup gidecekti. Yüzyıllar onu değiştiremediği gibi Bekir de, merhamet dolu kalbi de değiştiremezdi». (1, s.217)

Bəkir safqəlbi, mərhəmətli, pislik düşünməyən bir insandır. O, rusların onlara qarşı pis niyyətləri olduğunu düşünmür. Ümumiyyətlə, romanda bütün obrazların dilindən digər xalqlara qarşı humanist niyyətdə olmaları aydın görünür. Allahın yaratdığı bu gözəl topraqlarda bir çox millətin eyni anda mehriban şəraitdə yaşaya bilməsi istisna edilmir. Sadəcə ictimai-siyasi proseslər nəticəsində rusların tarixi

türk torpaqlarını ələ keçirmə niyyətləri qəbuledilməzdir. Torpaqlarının əllərindən alınma xəbəri Bəkirə real görünmür. Axı bu torpaqlar Bəkirin dədəsindən, atasından qalmışdı. İvan Bekiri hədələyəndə, «Yeqorof səni türməyə atar!» deyəndə Bəkir sarsılır. Dədələrindən qalma bu torpaqlarda hür yaşamağın onun hüququ olduğunu İvanın necə dərk etmədiyini anlaya bilmir. Bütün baş verənlərdən sonra Bəkir kəndə gələn meşin geyimli rusların məqsədinin onu ata-babalarının işləməkdən cadar-cadar olmuş əlləriylə daş-kəsəkdən təmizləyərək cənnətə çevirdikləri torpağından ayırmaq olduğunu dərk edir. Belə məqamda Bəkir torpaqdan imdad diləyir: «…Torpağım, Ben seninim, Ben seninim, toprağım! Beni bırakıp gitme gavur Ruslara! Al beni, al! Koru beni, toprağım koru». (1, s.242)

Bəkir obrazı ilə yazıçı türklərin torpağa bağlılığını, yurd sevgisini təqdim etməklə yanaşı türk humanizmi də təsvir etməyə çalışır. Bəkir evinə qəbul etdiyi iki rusun mənfi əməllərini gördüyü halda onların da insan olduğunu düşünərək onlara acıyır. O, İvanı da, atasını da rus olaraq deyil, insan olaraq görür. Zəlzələ zamanı divarın altında qalıb can verən Kala Mala üçün çox kədərlənir, onu rus məzarlığında dəfn etdirir. Atası son mənzilə yola salınarkən oğlunun da yanında olmasını istəyir, mənfur hərəkətlərinə görə kənddən qovulan İvana çətinliklə bəd xəbəri çatdırır. Bu məqamda İvanın əsl siması bir daha üzə çıxır. Atasının ölümünə qətiyyən kədərlənməyən İvan Kala Malanı dəfn etmək üçün Rəmzi ilə birlikdə Gurzufa yola düşür. Burada təklikdən istifadə edən İvan hiylə qurub Rəmzini uçuruma itələyərək öldürür. Kənddə baş verən fəlakətlər təkcə bununla yekunlaşmır, getdikcə basqınlar, oğurluqlar daha da çoxalmağa başlayır. Bəkirin inəyi Macikin ruslar tərəfindən oğurlanaraq yaxınlıqdakı rum kəndində kəsilərək ətinin Yaltaya satılmağa aparılması xəbərini alması ilə bütün dünyası alt-üst olur. Bəkirin bu ağır itkisi sanki yaxın gələcəkdə itirəcəklərinin xəbərçisi idi. Bu hadisədən bir gün sonra o, rusların yolu açmaq üçün Kuşkayanı partladacağı xəbərini alır. Bəkir həyatını təhlükəyə ataraq öz tarlasından çıxmır və bu torpağın əlindən alına biləcəyinə heç cür ehtimal vermir. Uzaqdan tarlasına baxır. Bu tarla hər şey idi onun üçün, yurdun bir parçası idi. «Tarla oradaydı, babasının tarlası, dedesinin tarlası, Bekir'in toprağı! Nice nice saltanatlar, nice nice hükümdarlar gelip geçmiş, zillet dolu nice yıllar bu yurdun, bu toprağın sırtını kemirmişti. Ama tarla oradaydı. Bekir'in tarlası olarak kalmıştı». (1, s.376)

Bəkir «geri çəkil» xəbərdarlığını, Kuşkayanı dağıtmağa hazırlaşanların hayküyünü belə eşitmir. Fasiləsiz olaraq «çıxmaram, bu torpaqdan çıxmaram» deyən Bəkir yumruqlarını sıxır, tarlaya doğru hərəkət edir. Birdən Bəkir qəlbinin ən dərin yenidən var gücü ilə qışqırır: «Söyle toprağım bana, neden seni bırakıp gideyim? ...Benim atalarım burda büyüdü, burda yaşadı, burda öldü toprağım! …Ben bu dünyada başına hiçbir şey istemiyorum, yalnız seni… seni toprağım! Yüzyıllardır atalarım sana benim dilimle söyledim, sen benim dilimi dinledin. Sana senelerden beri derdimi döktüm. Ben sonumu burda bekleceğim. …Atma beni toprağım! Bil ki bu kalp sensiz hiçtir, boştur, karanlıktır». (1, s.380)

Bəkirin səsində doğma yurduna canı ilə, qanı ilə bağlı olan minlərlə Krım türkünün, o cümlədən yazıçının yurd itkisindən doğan fəryadı eşidilir. Bəkirin fəryadını Kuşkayanı dağıdan dinamitin səsi üstələyir. Ancaq Bəkirin parça-parça olan bədəni öz doğma yurdunda, öz doğma torpağında qalır. Bəkir öldükdən sonra İvan nəhayət ki, planını reallaşdıra bilir, Bəkirin evinə soxulur. Artıq kəndə gələn ruslar

tərəfindən kolxozlaşdırma, kollektivləşdirmə təbliğatı aparılmağa başlayır. Romanın bu hissəsində yazıçı kollektivləşdirmənin əhali üçün ağır nəticələrini tragi-komik yolla çatdırmağa çalışır. Ənvərin kəndin girəcəyində gördüyü eşşəyin boynunda «Geberirim açlıktan, ama kolhoza girmem!» (1, s.405) yazılmış taxtanı görməsi, uşaqların kolxoza həsr edərək oxuduğu məzəli mahnı, ağacdan asılmış toyuğun kolxoza hər gün 10 yumurta verə bilmədiyi üçün «özünü asması» vəziyyətin gərginliyini maraqlı bir yolla diqqətə çatdırır. Ancaq Ənvərin gecə ilə bütün kəndin silah gücünə boşaldığı xəbərini eşitməsi bir an onun bütün varlığına hakim kəsilir. Ona bu xəbəri verən kəndlinin yerə çöküşü, yaşlı gözləri Ənvər üçün millətinin məğlubiyyəti demək idi. «Enver'in ayakları önünde oturan adam, sadece bir köylü değildi, bir milletti. Nasıl olmuştu da bu millet, böyle korkunç sessizliklere yıkılmıştı? Daha dün önlerinde tir-tir titreyen düşmanları, bu milleti süngülerle böyle sindirmişlerdi?» (1, s.403)

Yazıçı xalqın torpağa, yurda bağlılığını kəndə gələn təbliğatçılarla söhbət zamanı da göstərməyə çalışır. Təbliğatçılar kəndliləri kolxozun yaxşı bir şey olduğuna, onlara xoşbəxtlik gətirəcəyinə, birliyin, bərabərliyin olacağına inandırır. Çıxışları dinləyən kənd ağsaqqalları bu «uydurlama»lara inanmır, bunun bir zamanlar başqa adlarla aparılmış işğalın yeni bir forması olduğunun fərqindədirlər. Qarşıya qoyulan tələblər arasında torpağın kolxoza təhvil verilməsinin də olduğunu eşidən camaatın səbr kasası dolur. Axı türklər üçün torpaq yurddur, millətin varlığıdır, bir sözlə, hər şeydir. Kəndlilər arasından yaşlı bir kişi dözə bilməyib deyir: «Sen bu iki rusa anlat, bebek! De ki, ne isterlerse veririz. At veririz, üzüm veririz; tütün, para, koyun veririz. Ama toprak vermeyiz. Anlat onlara, iyice anlat! De ki, bizim topraklar yurt parçasıdır; toprak bizim değil, ulusundur. Eh, ulus toprağını nasıl veririz? Söyle bana, nasıl veririz! İnsan her şeyini verir, ama canını nasıl verir, söyle bana!» (1, s.395) Onun sözlərində torpağa bağlılığın böyüklüyü, yurd itkisinin faciə şəklində dərki hiss olunur. Heç bir vəchlə torpağını vermək istəməyən kəndlilərin siyahısı tutulur, İvan bu siyahını Vasil Dimitroviçlə birlikdə kəndə gətirir. Çox keçmir ki, kəndin hər tərəfindən ölüm xəbərləri gəlir. Bütün müqavimətlərə baxmayaraq artıq Kızıltaş rusların əlindədir. Gözlənilən nəticə əldə edilmişdi, Rusiyanın hər tərəfindən ruslar köçürülərək kəndə yerləşdirilir.

Vasil Dimitroviç də türklərin torpağa bağlılığını görür, zor və güc tətbiq etmədən bu torpaqlara sahib olmağın qeyri-mümkünlüyünü də dərk edir. Maraqlısı budur ki, Vasil Dimitroviç torpağa bağlılıqda bu millətin zəngini ilə kasıbı arasında fərq olmadığını da bilir və bunu xüsusi vurğulayır. Aparılan siyasətin mahiyyətini izah edərkən Vasil Dimitroviç Krım türklərinin tabe olmayacağı təqdirdə bolşevizmin qərar tutacağına da şübhə ilə yanaşdığını, şanlı tarixlərini xatırladıqca bu millətin nələr edə biləcəklərindən ehtiyatlandığını açıq şəkildə söyləyir: «Milliyetçilik, onların kanlarına sinmiştir. Onlar hala vaktiyle kahraman bir millet, yüksek, büyük bir devlet olduklarını hatırlıyorlar. …Onların bu düşüncelerinin bizim için ne kadar tehlikeli olduğunu anlatmaya hacet yok! Türkçe konuşuyorlar, evet, Türkçe! Çoçuklarının kafalarını, kalplerini Türkçe türkülerle, Türk edip ve kahramanlarının adlarıyla kirletiyorlar. Bu duruma yakın zamanda son verilmezse büyük bir tehlikeyle karşılaşacağız». (1, s.428)

Romanda torpağa ürəkdən bağlılığı ilə diqqəti daha çox cəlb edən obraz Ənvərdir. O, hələ iki rusun kəndə gəldikləri ilk gündən onların mənfi niyyətlərini dərk

edir, dəfələrlə Bəkirə onları uzaqlaşdırması üçün xəbərdarlıq edir. Gənc və məğrur bir türk gənci olan Ənvər millətinin qəflət yuxusunda olmasından narahatdır, yaxınlaşan təhlükənin dərəcəsini hər kəsdən öncə sezməkdədir. Vətənini gözləyən təhlükədən narahat olan Ənvərin oğlu Niyazinin kəndə gələn rus avtomobili tərəfindən vurulub öldürməsi onun dərdini birə-min artırır. Öz əlləri ilə yeganə balasını torpağa tapşıran dərdli Ənvəri İvanın sözləri daha da yaralayır. «Oğlunun mezarına gidiyorsun, ha? Bir sene sonra burada mezar da kalmaz, hoho, kalmaz! Her şey hükumetin olacak!» …Enver, gözden kaybolana kadar, İvan'ın arkasından baktı. Gözlerinin içinde ateşler yavaş yavaş söndü, dudakları sarktı, sonra Niyaziciğin mezarına gitti, geceleyin yonttuğu ay-yıldızlı tahtayı çocuğun baş ucuna dikti, oturdu, dua etti, ağladı, kalbi kırık, gözleri kızarmış evine döndü…» (1, s.248)

Rus əsgərləri kəndi ələ keçirdikdən sonra itaət etməyənləri sürgün etməyə başlayırlar. Ənvər heç bir vəchlə vətənini tərk etmək istəmir. Yeni çəkilən yolla gələn maşınların səsi Ənvəri özündən çıxarır, torpağına uzanan yad əlləri görən Ənvərin gözləri nifrətlə parlayır. Ata-babalarından qalan bu torpaqların ilk sakini olduqlarını, əsrlər boyu türk qanı ilə islanan bu torpaqları heç kimə verməyəcəyinə söz verir. O bütün Krım türklərini də buna çağırır, yurdlarını tərk etməməyə səsləyir: «Gələcək nəsillərin də, bütün türk dünyasının da bu iztirablardan xəbərdar olmasını istəyir: «Kırım'ın sevgisini, Kırım için dökülen kanları, gözyaşları, Kırım'ın acısını beraberinize alın, kalplerinizte götürün! Türk dünyası geniştir, gidin! O güneşin doğduğu yerlerde kalplerinizi Türk kardeşlerinize açın, söyleyin onlara: Bir hayatta hiyanetlik nedir, küfür nedir bilmedik, deyim. Hak ve adalete inandık, deyin. …Düşmanlarımızı da insan sandık, ama başımıza neler getirdiler deyin». (1, s.451)

Ənvərin son nəfəsində həyat yoldaşı Zəminəyə dediyi bu sözlər olduqca təsirlidir və əzəli türk torpaqlarının yenidən türklərin olacağına yazıçının inamını əks etdirir.

Bəkir qədər onun qızı Ayşə də torpağına bağlı bir insandır. Atasını və həyat yoldaşı Rəmzini itirdikdən sonra bu həyatda yeganə ümidi dünyaya gələcək körpəsidir. Ayşənin tək arzusu övladını atasının evində dünyaya gətirməkdir. Çora Batır kimi cəsarətli, Alim Aydamak kimi vətənsevər bir oğlunun olmasını arzulayır və körpəsini çətinliklə də olsa, Bəkirin evində dünyaya gətirir. Belə oğullar sayəsində Ayşə Rəmzinin və bütün millətinin intiqamının alınacağına ürəkdən inanır.

Roman «Son bir neçə söz» adlı hissəylə tamamlanır. Bu hissədə sakinləri öldürülərək və ya sürgün edilərək boşaldılan Kızıltaş kəndi təsvir olunur. Saysız-hesabsız insanın faciəsi üzərində ruslar bu kənddə rahat həyat qurmağa çalışırlar, boş qalmış evləri öz aralarında bölüşdürürlər. «Yüzyıllardır orada yaşayan insanların, vatanlarından zorla koparılışları ile yeni yerleşimcilerin duydukları mutluluk arasındakı tezat, eseri trajik bir atmosfere sürükler». (3, s.34)

Kənd yenə də gözəldir, ancaq artıq bu torpaqlar üzərində yeriyənlər bu toprağın əbədi sakinləri deyildir. Romanın sonunda Pavlenko adlı bir rusun «Oqonyok» jurnalında dərc etdirdiyi «Rassvet» adlı yazısı verilir. Yazının müəllifi Stalinə belə bir cənnəti onlara bəxş etdiyinə görə minnətdarlığı ilə bitir. Axı bu «minnətdarlıq» minlərlə insanın faciəsi, yurdundan, torpağından didərgin düşməsi ilə əldə olunmuşdu. Yazıçı bu minnətdarlığı, bu sevinci başa düşür, belə bir torpaqda yaşamaq imkanı əldə edən Pavlenko kimilərinin sevincinə də haqq verir. Ancaq faciəli tale yaşamış minlərlə insanın da insan olduğunun dərk edilməsini istəyir. Elə roman

da yazıçının bu fikri ilə tamamlanır: «Evet, onlar da insandır! Pavlenko'lar, İvan'lar, Kostyük'ler, Vasil Dimitroviç'ler, Stepan'lar, belki bunu gülünç görecekler, ama nasıl görürlerse görsünler, ben eserimi tekrar sakin bir dua ile bitirmek istiyorum. Romanımı kapatırken «Tanrım, diyorum. Onlar da insan! Acı onlara! Kendileri gibi, başkalarının da insan olduklarına inandır onları! Ötekiler, o hayvan kimi sürülüp götürülenler… Onlar da insandı!» (1, s.463)

Bütün ömrü boyunca canından çox sevdiyi vətəninə dönmək arzusu ilə yaşayan, lakin bu arzuya çata bilməyən Cengiz Dağcı bütün əsərlərində Krım türklərinin rusların zülmü altındakı həyatlarını dünyaya çatdırmağı qarşısına əsas məqsəd qoymuşdur. Əsərlə yaxından tanışlıqdan sonra deyə bilərik ki, yazıçı "Onlar da insandı" romanı ilə bu məqsədinə uğurla nail ola bilmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Dağcı C. Onlar da insandı. İstanbul, «Ötüken», 2012, 463 s.
2. Kabaklı A. Türk edebiyatı. 3 ciltte, III c., İstanbul, 1997, 776 s.
3. Kara A. Gamalı haç ile kızıl yıldız arasında bir yazar Cengiz Dağcı. İstanbul, "İQ yayıncılık", 2012, 134 s.
4. Kocakaplan İ. Kırım'dan Londra'ya Cengiz Dağcı. İstanbul, «Damla yayınevi», 1998, 288 s.
5. Kocakaplan İ. Kırımın ebedi sesi Cengiz Dağcı. İstanbul, «Türk edebiyatı vakfı yayınları», 2012, 224 s.
6. Qədim dövrdən bu günə qədər Türkiyə türk ədəbiyyatı. Ankara, "Ankara Valiliği Ostim Çıraklık Eğitimi Merkezi Müdürlüğü matbaası", 1999, 679 s.

Айтен Аббасова

Представление в романе Ченгиза Дагчы «Они тоже люди» потери тюрками родного очага в форме национальной трагедии

Резюме

В статье впервые в Азербайджанском литературоведении был расследован роман одного из видных представителей современной турецкой литеРатуры Ченгиза Дагчы «Они тоже люди». В этом романе писатель пытался показать тяжёлую трагедию в судьбе Крымских тюрков, которую принесла политика коллективизации Советского правительства в 20-30-х годах XX века. Со стороны автора статьи в романе в центре внимания подчеркивалась любовь тюрков к Родине и понятие потери родного очага как национальной трагедии.

Ayten Abbasova

The representation against the back ground of the national tragedy of Turkish's native land loss in Cengiz Dagci's novel "Onlar da insandi" ("They were human too")

Summary

In the article was analysised the one of notable representatives of Turkish literature Cengiz Dagci's novel "Onlar da insandi" ("They were human too") for the first time in the history of Azerbaijan literature. In this novel writer had tried to demonstrate the severe tragedies which brought the policy of collectivization of Soviet government to the destiny of Crimean Turkishs in the 20-30 years of the XX century. By the author of article were emphasized especially the keeping in the limelight of the cognition of Turkishs' love for the motherland and the native land loss as the national tragedy in the novel.

Rəyçi: Professor Elman Quliyev

AQİL İSLAMLI
Sumqayıt Dövlət Universiteti

60-80-Cİ İLLƏR AZƏRBAYCAN POEZİYASINDA NAZİM HİKMƏT
(Məsələnin qoyuluşuna dair)

Açar sözlər: Nazim Hikmət, 60-80-ci illər Azərbaycan poeziyası, ənənə və novatorluq, paradiqma, poetik təcrübə.
Ключевые слова: Назим Хикмет, Азербайджанская поэзия 60-80-х годов, традиция и новаторство, парадигма, поэтическая практика.
Key words: Nazim Hikmet, 6-80s Azerbaijani poetry, traditions and innovation, paradigm, poetic practice.

Keçən əsrin 60-80-ci illər dönəmi Azərbaycan ədəbiyyatının inkişafında ayrıca mərhələlərdir, ancaq dünya ədəbiyyatının, o cümlədən türk dilində yaranan ədəbiyyatın Azərbaycan ədəbi prosesinə təsiri baxımından onları bir ümumi cəhət birləşdirir: qabaqcıl proses təzahürlərinin tez bir zamanda mənimsənilməsi və bu meyllərin ədəbi prosesin gedişində qabarıq nəzərə çarpması. Sosioloji xarakterli ədəbiyyatşünaslıqda, bir qayda olaraq, bu vahidlərdən birincisini "yeni ədəbiyyat", digərini isə "durğunluq" tipinə aid edirlər. Bütün hallarda "yeni Azərbaycan ədəbiyyatı" anlayışı daha çox nəsr sahəsini əhatə edir. Ancaq bu yeniləşmə, yaxud "poetik münasibətin radikal şəkildə dəyişməsi" hər şeydən öncə poeziyadan başlamışdı. Fikrimizcə, adı keçən dönəmdə poeziyada baş verən hadisələrin bir az xaotikliyi, müəyyən dərəcədə elmi klassifikasiyaya yatmaması və nəhayət, poeziyaya ənənənin dominant təsiri yuxarıda adı çəkilən anlayışın yalnız nəsrə aid edilməsini şərtləndirən əsas səbəblərdəndir. Halbuki o dövrün Azərbaycan poeziyasında Rəsul Rza, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Fikrət Sadıq, Fikrət Qoca, Qabil, Tofiq Bayram, Eyvaz Borçalı və Məstan Əliyev kimi imzalarla yanaşı Əli Kərim kimi ənənə ilə münasibətlərini qovğasız və rahat şəkildə tənzimləyən, artıq təsbit edildiyi kimi, ədəbi prosesə kənardan təsir göstərən (8, s.33) son dərəcə orijinal bir ədəbi fiqur da var idi. Əli Kərimin ədəbi nəslindən olan şairlərin bir çoxu bu və ya digər şəkildə o zaman Moskvada yaşayan böyük türk şairi Nazim Hikmətin cazibəsi altında idi. Onların poetik mətnlərindəki yeni nəfəs, yeni söz və ifadələr, bədii mətləbi ifadə etmək məharəti məhz Nazim Hikmət ənənəsi ilə bağlı idi.

Böyük türk şairi Nazim Hikmət naturası etibarı ilə elə bir fiqurdur ki, yaşadığı və şeirlərinin çap edildiyi dövrdə onun təsiri altın düşməmək, bu poetik nümunələrin özəl musiqisinin ahənginə uymamaq qeyri-mümkün idi. Yəni bu poeziyanın mahiyyətində elə bir önəmli cəhət var idi ki, ədəbi prosesi yaradanlar qulaq asıb onu təqlid etməyi deyil, onun gedə bildiyi dərinliklərin həsrəti ilə alovlanmağı tələqin edirdi (2, s. 91). Elə buna görədir ki, türk ruhunun dərindən-dərindən ifadə edildiyi bu şeirlər məhz daxili musiqisi hesabına hətta bu dili anlamayan şairlər tərəfindən asanca anlaşılır, onlara yazmağın yollarını tələqin edirdi.

Məlumdur ki, Nazim Hikmətin ilk şeir kitabı 1928-ci ildə Bakıda "Günəşi içənlərin türküsü" adı altında çap edilmişdi. Nazim Hikmətin Bakıya bu ilk gəlişi ilə son gəlişi arasında dünyagörüşü fərqlərini incələsək, bəlkə də, ayrı-ayrı insanlardan danışmaq zərurəti yarana bilər. Şairin birinci kitabında onun inqilabi romantikası

əksini tapır, bu yöndə şairin kommunizm və sosializmlə bağlı xülyaları aparıcı xətt təşkil edirdi. SSRİ-də yaşamağa məhkum edildikdən sonra bu coşqun inqilabi romantika duman kimi çəkilib getmiş, o sosialist quruluşunun bütün iyrəncliklərini real şəkildə görərək anlamış və bütün bunlar şairin poetik dünyagörüşünün başqalaşmasına səbəb olmuşdu. Dərin tərəddüd və metamorfozlar nəticə etibarı ilə bədii obraz və metaforaların təbiətinin dəyişməsi ilə nəticələndi. Obrazlı şəkildə ifadə etməli olsaq, ilk dəfə Bakıya gələndə qartala bənzəyən şair 50-ci illərdən sonra qəfəsə salınmış quş misalı idi və bu dərin kədərin poetik nümunələrindəki izləri başqa bir cəhətdən maraq doğururdu: indiyə qədər hələ heç bir tale kədəri, heç bir nisgil, yaxud vətən həsrəti şeirdə belə canlı, sirayətedici və dərin təsir bağışlamamışdı.

Nazim Hikmət ədəbi prosesə yaratdığı poetik nümunələrdəki prinsip və yönləri ilə təsir göstərirdi. Bu elə bir yön, yaxud yol idi ki, özündən əvvəl qərarlaşan poetik ənənəni də içinə alır, yeni nəfəslə ənənədən gələn daşlaşmış prinsiplərin sintezi şəklində yarış stixiyası yaradırdı.

Nazim Hikmət şeirinin intonasiyası və ritmi oxucuya ünvanlanan poetik fikrin məğzini də ehtiva edirdi, başqa sözlə, hətta bu dili bilməyən insanlar da bu ritmə qulaq kəsildikdə "bölünməyən mənaya" sahib ola bilərdilər. Yəni yad dildə səslənən sözləri elə bil bir dəfə eşitmiş, indi bu təsadüfdə həmin sözlərin yaratdığı mənaların açdığı cığırla tale dayanacaqlarına doğru irəliləyirdilər. "Prozadan fərqli olaraq şeirdəki "poetik obrazda sözün dar mənasında (cığır obrazında) bütün hərəkət – sözobrazın dinamikası sözlə predmet arasında baş verir. Söz tükənməz zənginliyin və predmetin özünün ziddiyyətli müxtəlifliyinin içinə, onun "bakirə"" hələ "deyilməmiş təbiətinin" içinə qərq olur; buna görə də o, öz kontekstindən kənarda nəyinsə olmasını nəzərdə tutmur (şübhəsiz ki, dil xəzinəsindən başqa). Söz öz predmetinin ziddiyyətli söz şüurunu və bu şüurun ən müxtəlif və çeşidli indisini yaddan çıxarır" (9, s.219). Poetik obrazdakı bu huşsuzluq elementi, məsələn bayatılarda daha qabarıq şəkildə özünü göstərir.

Əzizim qar ətri var,
Bağlarda bar ətri var,
Mən ölsəm, sinəm yarın,
Sinəmdə yar ətri var. (1, s.432)

Burada göründüyü kimi, ətraf mühit yoxdur, hər şey sözlə əşya arasında baş verən olayın dərinləşməsinə, sözün bu əşyanın içində "qəzaya uğramasına" (8, s.41) xidmət edir.

İndi Nazim Hikmətin yaxın dostu Mikayıl Rəfilinin ölümünə həsr etdiyi şeirə diqqət yetirək:

Ne diyecektim...
Moskova'da, bizde, bir yılbaşı gecesi,
Sofrada, dibinde donanmış çam ağacının
Kocaman bir oyuncak gibiydin pırıl pırıl.
Pırıl pırıl gözlerin, dazlak kafan,
Saygıdeğer göbeğin. (7, s.239)

Bu şeir parçası ilə yuxardakı bayatı arasında daxili bağlılıq onların dil yaxınlığından başqa M.Baxtinin möhtəşəm ideyasındakı prinsipin hər iki mətndə qabarıq şəkildə əyaniləşməsidir. Söz əşyanın içinə qərq olduqca onun daxili qatları açılır, dərinlikdəki zülmətin işıq haləsinə çevrilməsi olayı baş verir. Nazim Hikmətin yu-

xarıdakı şeirində əlahiddə heç nə yoxdur, diqqət edilərsə, burada nə metaforik deyimlərə, qeyri-adi bənzətmələrə, nə də hamının az qala ilk dəfə eşidib şahidi olduğu fikirlərə rast gəlməzsən. Mikayıl Rəfilinin xatirəsinə həsr edilən parçada poetik nəfəsin bütövlüyü, sözün sözü, pıçıltının pıçıltını doğurması, üstəlik yaxın bir dostun ölümünün doğurduğu nisgilin adi ifadələrlə əks etdirilməsi poetik mətni maddi aləmdən çəkib aparır, insan kədərinin yüzdə yüz əks etdirilməsinə nail olunur.

Nazim Hikmətin bu kədəri az qala ovuc içindən göstərən 60-cı illər Azərbaycan poeziyasına, ümumən ədəbi fikrinə dərin təsir etdi. Bu şeirdən öncə, Səməd Vurğunun

Ölüm sevinməsin qoy, ömrünü vermir bada... (10, s.199)

-misrası ilə başlayan şeiri Azərbaycan poeziyasında geniş əks-səda doğurmuşdu və bu misra mətndən ayrı şəkildə sonsuz sayda sitat gətirilmişdi. Poetik ənənədə bircə misranın hikmətli deyim kimi sitata çevrilməsi məlumdur, ancaq "nəslimin yarpaq tökümü başlandı, dəliyə döndüm, Rəfili..." həm yarıca deyim formasında ("nəslin yarpaq tökümü"), həm də canlı poetik impuls olaraq işlədilirdi.

Əli Kərimin özünə həsr etdiyi "Xatirəsinə" şeiri də bu qəbildəndir. Ömrünün sonunda, taleyin, ömrün min bir tapmacası qarşısında yazılan bu mətn Nazim Hikmətin yuxarıda sitat gətirilən poetik parçası kimi, prosesə kənardan təsir göstərmiş, insanların heç vaxt xüsusi məqsədlə əzbərləmədiyi, ancaq kədərləndiyi an birdən tam şəkildə yadına düşən mətnə çevrilmişdi. Tədqiqatların birində qeyd edilir ki, "Bu şeirlə Əli Kərimin aşağıdakı şeiri arasında yeganə oxşarlıq hər iki sənətkarın "həyat sirrində"dir. Əli Kərimin poetik sistemində əsas cəhətlərdən başlıcası - ənənənin, klassik poetik mətnin "məchul", işarə edilməyən, ancaq nəzərdə tutulan məqamdan başlamaqdır. Bu məqam hələ tapılmayıb, ən azı ona görə ki, yerin bu qatında arxeoloji qazıntı aparmaq heç kəsin ağlına gəlməyib. Həmin məchul məqam tapılan kimi, gerçəkliyə ayrıca münasibət tipi formalaşır, "qarşılanmamış gecə", "nəfəs dəyməmiş gecə" tipli deyimlər Əli Kərimdə bütöv bir mətn təşkil edir. "Xatirəsinə" şeirində də hər şey "yoxluqdan", həmin o "həyat sirrindən", yəni məchul məqamdan başlayır" (8, s.47).

O, dünyada yox imiş,
Gördüyün şəxs yuxuymuş.
Oturmazmış burada,
Bu divarın yanında,
Görünməzmiş dərdimiz
Onun həyacanında... (5, s.87)

Ədəbi prosesin ictimai gerçəklik və ictimai şüur formaları ilə münasibətdə cüzi şəkildə, ancaq aramsız olaraq dəyişməsi arqumentini nəzərə alaraq güman edirik ki, 60-80-ci illər Azərbaycan poeziyası poetik ənənəyə həm maksimum yaxınlaşma, həm də maksimum uzaqlaşma radiusunda hərəkət etdiyi üçün aldığı, məruz qaldığı təsirləri birbaşa deyil, yenə də poetik ənənə çərçivəsində həll etmiş, bu dönəmin ədəbi praktikasının yeni çalarları məhz ənənə ilə novatorluğu mükəmməl şəkildə birləşdirən poetik fiqurların təsiri ilə meydana gəlmişdir. Bu dövrdə yazıb-yaradan şairlər Nazim Hikmətdən yaradıcılıqda orijinal olmaq yolunu - ənənənin içindən keçməklə ədəbi prosesə yeni nəfəs gətirmək yolunu öyrəndilər.

İşin elmi yeniliyi. 60-80-ci illər Azərbaycan poeziyasında Nazim Hikmətin böyük təsiri və rolu olmuşdur. Ə.Kərim, V.Bayatlı, Ə.Salahzadə və başqa sənətkarların yaradıcılığında bu ənənənin özünəməxsusluğu xüsusi səciyyə daşıyır.

Tətbiqi əhəmiyyəti. Ən yeni dövr Azərbaycan ədəbiyyatı ilə bağlı xüsusi kurslarda, Azərbaycan-türk ədəbi əlaqələrinin öyrənilməsində istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan bayatıları. Bakı, Elm, 1984.
2. Yaşar Qarayev. Min ilin sonu. Bakı, Elm, 2002.
3. İsa İsmayılzadə. İşıqlı yarpaqlar. Bakı, Gənclik, 1972.
4. Kamil Vəliyev. Dastan poetikası. Bakı, Azərnəşr, 1984.
5. Əli Kərim. Qaytar ana borcunu. Bakı, Gənclik, 1970.
6. Nazim Hikmət. Seçilmiş əsərləri, iki cilddə, 1-ci cild. Bakı, 1961.
7. Nazim Hikmet. İnsan manzaraları. Sofya, 1958.
8. Cavanşir Yusifli. Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış. Bakı, Mütərcim, 2010.
9. Бахтин М.М. Эстетика словесного творчества. Москва, Наука, 1990.
10. Səməd Vurğun. Seçilmiş əsərləri, 3 cilddə, 1-ci cild, Bakı, Elm, 2004.

Агил Исламлы

Назим Хикмет в Азербайджанской поэзии 60-80-х годов
(О постановке вопроса)
Резюме

В статье изучается влияние великого тюркского поэта Назима Хикмета на поэзию 6080-х годов; объектом исследования становятся традиционализм и новаторство в поэтической практике, изменение поэтической атмосферы в единицах данного периода, смешивание и воздействие Азербайджанской поэзии на мировой поэтический опыт, и другие подобные вопросы. Установлено, что новое дыхание, возникшее в азербайджанской поэзии в 60-80-г., объединение традиции с рядом особенностей реальности и художественного мышления под новым углом, создав в поэтической практике нового ракурса и парадигмы, на самом деле было явлением рождения классической поэзии в современных условиях с новыми оттенками. Изменение взгляда на содержание и реальность радикально менял и форму, возникали новые средства для более лаконичного и систематичного выражения поэтической мысли. В этом смысле влияние великого тюркского поэта Назима Хикмета на азербайджанскую поэзию неоспоримо.

Aqil Islamlı

Nazim Hikmet in the azerbaijani 60-80s poetry
(On the question)
Summary

The paper investigates the influence of the great Turkic poet Nazim Hikmet's poetic works on the 60-80s poetry of Azerbaijan; relations between heritage and successor in the poetic practice, changing of the poetic atmosphere in units of the period, mixing of Azerbaijani poetry with the world poetic experience and other issues have become the object of study. It is determined that new breath, new aspect angle and paradigm created in the poetic practice due to combination of the poetic traditions with some elements of reality and literary thoughts was indeed a birth of classical poetry with new aspects in the modern circumstances. As the content and views towards reality were changed, the literary forms were also changed efficiently and there have been occurred new means to express poetic idea concisely and systematically. In this respect, influence of Nazim Hikmet, the great Turkish poet on the Azerbaijani poetry is irrefutable.

Rəyçi: Prof. R.Əliyev

NİLUFƏR MƏMMƏDZADƏ
Azərbaycan Xarici Dillər Universiteti

HERMAN HESSENIN "MUNCUQ OYUNU" ROMANINDA YOZEF KNEXT VƏ PLINIO DEZIQNORI DÜNYAGÖRÜŞÜNÜN ZiDDiYYƏTLƏRi

Açar sözlər: utopik cəmiyyət, dünyəvi cəmiyyət, kamillik, meditasiya Kastaliya dünyası, humanizm
Ключевые слова: утопическое общество, светское общество, мудрость, медитация, Касталийский мир, гуманизм.
Key words: a utopian society, secular society, wisdom, meditation, Kastalia world, humanism.

Böyük alman yazıçısı Herman Hesse o qəbildən yazıçıdır ki, onun yaradıcılığı insanın mənəvi yüksəlişinə təkan verən humanist ənənələrə söykənir. Onun istənilən əsəri dünyanın dərkinə, insanın özünü dərkinə ünvanlanıb. Məhz bu səbəbdən sərgərdanlıq, tənhalıq və asilik motivləri onun yaradıcılığının ana xəttini təşkil edir. O, əsərlərində öz dünyasını yaradır və qəhrəmanlarına bu dünyada məskunlaşıb xəyali rahatlıq tapmalarına kömək edir: "... Dünyanın zəhərindən nəfəs alıb yaşamaq üçün bir məkan, qala, sığınacaq qurmalıydım. < .. > Onu uydurmaq və qurmaq lazım deyildi: o, özüm də bilmədən çoxdan mənim içimdə yaranmış, boy ata-ata formalaşmışmışdı. Və bununla da nəfəs almaq üçün axtardığım məkan aşkarlaşdı"(1,128). Bu, dahi yazıçının "Muncuq oyunu" romanının necə yaranması ilə bağlı 1955-ci ildə Rudolf Pannvitsə ünvanladığı məktubundakı xatirələridir. Nobel mükafatına layiq görülmüş əsər həmin dövrün felyeton epoxasına, despot aləmə, bəsit həyata, mədəniyyətin humanistlikdən uzaqlaşmasına qarşı yazıçının bir reaksiyası idi. Bu əsərlə Herman Hesse mənəvi və maddi həyatın pozulmuş harmoniyası problemini gözlənilməz yüksəkliyə qaldırdı.

Dünyəvi cəmiyyətə qarşılıq olaraq paralel mövcud olan Kastaliya əyalətinin mənəvi sütunlarını xüsusi olaraq seçilmiş ən yüksək ali savadlı insanlar təşkil edirdilər ki, bunlar da öz ali məqsədlərini bəşəriyyətin mənəvi dəyərlərinin qorunmasında görürdülər. Adi gündəlik məişət qayğıları onlara yaddır, onlar əsl elm, yüksək incəsənətlə məşğul olurlar və bu yüksək incəsənət mürəkkəb, müdrik oyun olan muncuq oyunudur. Kastaliya əyaləti Platon akademiasının bədii oxşarı olaraq romanda öz əksini tapmışdır. Əsərin qəhrəmanı Yozef Knext uşaqlıqdan bu mühitdə böyüyərək Kastaliya əyalətinin ən yüksək - Magistr Ludi, yəni oyun ustadı- ali dərəcəsinə çatmış şəxsdir. Kastaliya ideallarını həyatının mənası hesab edən Yozef Knext böyük daxili müvazinətə malik kamil bir insan olaraq yetişir. Sanki dünyada heç bir şey onu Kastaliya gerçəkliyinin ideallığı barədə tərəddüdlərə sala bilməz. Lakin bu baş verir. Əsərdə coxsaylı obrazların içində xüsusi diqqət çəkən Plinio Deziqnori buna müvəffəq olur:

"... Plinionun fikirlərində elə bir şey vardır ki, mən sadəcə olaraq "yox" deyə bilmirəm, bu fikirlər bəzən içimdə onun haqlılığını etiraf etməyə meylli olan hansı-sa bir səsin baş qaldırmasına səbəb olur. "(2,171)

Plinio Deziqnori Kastaliyada qonaq qismində təhsil alan dünyəvi cəmiyyətin nümayəndəsidir. Varlı patrisian ailəsinə mənsub olan bu gənc, ailəsinin Kastaliya əyalətinə göstərdiyi maddi köməyin müqabilində burada təhsil almaq hüququna malikdir. Hesse müxtəlif mövqelərdə duran, müxtəlif ideyaları təbliğ edən qəhrəmanları müəyyən məqamlarda polemik şəkildə qarşılaşdırır. Bununla yazıçı oxucuya onun müdaxiləsi olmadan əsərin qayəsini çatdırmaq istəyir. Bu, əslində iki şəxsin deyil, iki dünyabaxışın, iki tam fərqli məkanların görüşü və ziddiyyətidir.

Ayrı-ayrılıqda hər biri olduqca maraqlı personaj olan Knext və Desiqnori həm ziddiyyət, həm də vəhdət təşkil edirlər. Bu iki yüksək istedadlı şəxs arasında xüsusi münasibətin yaranması labüd idi. Onları birləşdirən yeganə şey hər ikisinin öz vəzifələrini yaxşı bilmələri və dürüst olmaları idi. Qalan bütün cəhətlərdən onlar bir-birinin əksi idilər. Bir tərəfdə üsyankar, dikbaş Plinio- adi cəmiyyətin nümayəndəsi, digər tərəfdə sakit təbiətli, üzüyola Knext paralel mövcud olan qapalı cəmiyyətin - əxlaq və ləyaqət etalonu olan quraşdırma bir cəmiyyətin nümayəndəsi kimi üz-üzə durublar. Plinio Dezoqnorinin dünyası heç də gözəl və ahəngdar deyil, buradakı qaydalar vəhşi cəngəllik qanunlarını xatırladır: güclü olan qalib gəlir. Lakin yer üzündəki insanların hamısı yalnız belə bir həyat tanıyır. Onların həyatı Kastaliyadakı həyat tərzindən tamamilə fərqlənir. Dünyəvi həyat əlvan olmağıyla bərabər mənən daha bəsit, yaşayış üşün daha təhlükəli, fərd üçün daha müdafiəsiz və maddi təsəvvürlərə bağlı idi. Deziqnori də bu cəmiyyətin bir üzvü, maddi həyatın nümayəndəsidir. Ona görə də o, heç vaxt bu həyatın çirkabından azad ola bilməz. Lakin bu onu heç də mənfi insan etmir. O, Kastaliya reallığını görən və etiraz etməyi bacaran bir şəxsdir. Hətta Kastaliyanın orta əsrlərə malik ciddi hierarxiya ənənələrinə baxmayaraq, buranın qayda-qanunlarını açıq tənqid etməkdən çəkinmir. Knext ilə söhbətində o, Kastaliyanın müəllimlərini və tərbiyəçilərini " kahinlər kastası, buradakı şagirdləri isə onların müti, xədim edilmiş sürüsü" [2,171] adlandırır. Əlbəttə ki, Kastaliya şagirdlərinin həyatı və yaşam tərzi şox fərqlidir. Real dünya onlar üçün qadağan olunmuş "cənnət almasıdır". Onlar üçün muncuq oyunu ibadətə çevrilmiş bir meditasiyadır. Onların dünyası çox fərqlidir. Buradakı həyat daha təhlükəsiz, daha əxlaqlı və ləyaqətli, həmçinin mötəbərdir. Buradakı cəmiyyət "süni", "quraşdırma" olsa da, daimi nəzarət, məşqlər və hierarxiya tələb edir. Məhz bu cəhət Kastaliyanı qapalı cəmiyyət kimi qəbul etməyə imkan yaradır. Buradakı ciddilik vəsərtlik zaman- zaman müəyyən təbəqələr, hətta hakimiyyətin bəzi strukturları tərəfindən tənqid edilsə də, öz qayda-qanununu qoruyub saxlamışdı. Burada təhsil monastr həyatına bənzəsə də, şagirdlərə dini mülahizələrdən daha çox, fəlsəfi və elmi ideyalar aşılanır, musiqinin ilkin kökləri öyrədilirdi. Aşılanan ideyaların daha dərin əxz edilməsi və dünyəvi ehtirasların qurbanına çevrilməmək üçün asketlik həyatına üstünlük verilirdi, çünki qayda-qanunu, fəlsəfi düşüncəni, Kastaliya normalarını qorumaq üçün buranın üzvləri siyasətdən, iqtisadiyyatdan və digər dünyəvi işlərdən, hətta ailə həyatından belə imtina etməliydilər. Bu,Yozefin dünyası idi. Lakin Deziqnorinin dünyası Yozefi qan yaddaşı təki cəzb edir, çünki bu dünya Tanrı tərəfindən yaradılan hər bir bəşər övladına yaradılışından bəri pay olaraq verilmişdir. O, süni deyil, təbiidir. Məhz buna görə Yozef içində bu dünyaya qarşı qərib, gizli bir maraq və həvəs duyur, onun üçün darıxır. Bəlkə Plinio da buna görə onu belə cazibəylə özünə çəkir.Ola bilsin ki, bu cazibə Yozefin qan

yaddaşının dünyası olan dünyəvi cəmiyyətin cazibəsidir. Buna görə də o, "Mən həqiqəti istəyirəm" deyir.

Onun üçün Deziqnoridən fərqli olaraq bir həqiqət vardır: insan yalançı eqodan və təkəbbürdən azad olmalıdır. Bu zaman insan ona həvalə edilmış işdən şəxsi mənfəət gözləmir. Knextə həvalə edilmiş işlərin nəticələrinə baxdıqda, Knextin davranışından bunu aydın görmək olar. Knext üçün yalnız ümumi bir məqsəd vardır. Bu da Kastaliyadır. O, öz işinin bəhrələrini Kastaliyaya, buranın ümumi məqsədlərinə qurban vermişdir. Hətta Deziqnorinin sözləri onun fikirlərində tərəddüd, qəlbində qəribə bir təlatüm yaratdığı halda, ona Deziqnori ilə yaxınlaşaraq Kastaliyanı müdafiə etmək tapşırığı verildikdə, o, özündə mənəvi qüvvə taparaq, ümumi işin naminə var qüvvəsi ilə mübarizə aparır. Lakin bu yüksək incəsənət fədaisi özünü kor-koranə Kastaliya qanunlarına da qurban vermək istəmir. O, Kastaliya məhdudluğu ilə barışmaq istəmir. Lakin bu hələ gənc Knextin yox, kamil Knextin qənaəti olacaqdır. İndi isə onun Deziqnori ilə dilemması başlanır. Deziqnori və Knext dilemması qərb və şərq dünyasının, xristian və hind-çin fəlsəfi dünyagörüşünün , eyni zamanda intellekt və meşşan dünyasının qarşıdurmasıdır, bu, Herder və Konfutsi dünyabaxışının bədii ifadəsidir. Məsələn, tarixçi Herder Konfutsi etikası barədə bu fikirdə idi ki, bu etika bütün dünyadan və mədəni- mənəvi inkişafdan qapanmış qullar yaratmaq imkanına malikdir. Eyni fikirləri Deziqnori də Knextlə olan mübahisələrində dilə gətirir. Belə yanaşma Hesse dahiliyini bir daha sübuta yetirir, çünki o, müəllif fikrini oxucuya sırımaq istəmir. Bu dialoqlar içində seyrçi olan oxucunun hansı mövqe tutacağını onun öz öhdəsinə buraxır.

Herman Hessenin yazıçı olaraq personajlarına seçdiyi adlar da öz təkrarolunmazlığı ilə seçilir. Bunlar sadəcə adi ad deyildir, əksinə onlar bu adı daşıyan şəxslər haqqında çox söz deyirlər. Məsələn kökü italyan dilində "sinyor", yəni "ağa" mənasını verən Deziqnori və bunun əksi olaraq "nökər", "xidmətçi" anlamına gələn Knext adları məxsus olduqları bu obrazların mahiyyətini ilk baxışdan açıq göstərir.Təzadlı ad seçimi belə, iki dünyanın- yüksək və "aşağı" təbəqənin qarşıdurmasını göstərir. İntellekt cəhətdən yüksək elitar təbəqəyə mənsub olan Yozef Knext sosial cəhətcə ailəsiz, yetim bir uşaq olmuşdur. Hər halda əsərdə onun ailəsi haqqında heç bir söz deyilmir, onun on iki yaşında olarkən musiqi müəllimi tərəfindən Kastaliya məktəblərinə namizədliyi verilməsi göstərilir və bundan sonra onun bu məktəbdəki həyatı təsvir edilir. Deziqnoriyə gəldikdə isə o, maddi həyatın qanunları ilə yaşadığına görə yalnız özünü və ailəsinin mənfəətini düşünür. O, "qıraqdan gəlmədir", kastaliyalı deyil. Onun atası, anası, əmi və dayıları, bacı-qardaşları var. Kastaliya onun üçün adi bir məktəb dünyasıdır və o, bilir ki, Kastaliyanın o tayında – dünyəvi cəmiyyətdə onu real həyat, yəni valideynləri, karyera, ailə həyatı və siyasət gözləyir. Bununla belə o, sosial cəhətdən yüksək təbəqədən olduğunu buradakılara hiss etdirsə də, mənən heç də kor insan deyil. Yozef Knext onda həmişə xoş duyğular oyadır və Plinio onun üstün mənəvi keyfiyyətərini yüksək qimətləndirir. Deziqnorinin adi dünyəvi adamlardan fərqi ondan ibarətdir ki, o, Kastaliyanı tanıyır, başqa, alternativ bir düşüncə tərzini öyrənib, fərqli dəyərlərə sahib insanların mənəvi keyfiyyətlərini qimətləndirməyi bacarır. Bu səbəbdəndir ki, çox illər sonra öz oğlu Titonun tərbiyəsini Yozef Knextə etibar edir. Lakin özünün razılığı olmadan atası tərəfindən Kastaliyaya təhsil almağa göndərilən Deziqnori illər sonra onların ailəsinə mənsub çox qədim malikanəni bu qərara qarşı içində illərlə bəslədiyi kin

və daxili etiraz əlaməti olaraq satıb yeni, daha müasir bir evə köçdükdə özü ilə oğlu Tito arasında yaranmış dərin uçurumun səbəblərindən birini də artırır. Beləliklə də atalar və oğullar arasında gedən nəsil barışmazlığı yenilənir. Yazıçı bu epizodik hadisəylə dünyəvi cəmiyyətin mənəvi aşınmasının daha bir səbəbini oxucunun diqqətinə sətiraltı olaraq çatdırır. Eyni zamanda Kastaliya əyalətində keçirdiyi illər Deziqnoridə öz izini buraxmamış deyildir. O, hər iki dünyagörüşünün arasında qalmış natamam bir şəxs kimi formalaşır. Bu səbəbdən Kastaliyadan getdikdən sonra dünyəvi cəmiyyətdə ictimai uğurları ilə bərabər şəxsi həyatındakı uğursuzluqları- atası, həyat yoldaşı, oğlu ilə olan münaqışəli münasibətləri buna aydın sübutdur. İllər sonra Deziqnori və Knext yenidən görüşdükdə Deziqnorinin qəlbində Kastaliyaya qarşı nifrətin böyüklüyü qədər də sevgi və niskilin olduğu bəlli olur. Məhz bu niskil onu yenidən Kastaliyaya çəkib gətirir. Bu zaman onların arasında uzun çəkən bir söhbət olur və bu söhbət əsnasında keçmiş tələbəlik illərinin hətta bir qədər ürəkqırıcı polemikaları yada salınır və oxucu üçün onların hər ikisinin bir-birinin dünyası üşün necə darıxdığı məlum olur. Bununla belə Deziqnori öz əvvəlki fikrində qalaraq Kastaliyanı "süni, sterilləşdirilmiş, çox vasvasılıqla ayrılmış bir dünya" adlandıraraq bayırdakı dünyanın çirkabında kasıb, kinli adamların əsl həyatı yaşayıb, əsl iş gördükləri vaxt, buradakı adamların "yalnız heca və hərfləri saydığını, musiqi və Muncuq oyunu ilə məşğul olduqlarını dilə gətirməkdən yenə də çəkinmir. Knext isə əvvəlki kimi təmkinin pozmadan Muncuq oyunun məğzini bir daha ona başa salaraq bu oyunun özündə üç prinsipi birləşdirdiyini izah edir: bunlar elm, gözəlliyə sitayiş və meditasiyadır. Eyni zamanda Knext bu dəfə Plinionun varlığından təşviş keçirmir, əksinə onun gəlişinin çox vaxtında olduğunu bildirərək, dünyəvi həyatın çağırışını hiss etdiyini və bunun üçün darıxdığını bildirir. Bu gəliş Yozef Knextin həyatında da ciddi qərar qəbul etməsi uçün şərt olur. Xeyli sonra Kastaliyanı tərk edərək Deziqnorinin oğluna tərbiyəçilik etməyə razılıq verən Knext bunu bir borc olaraq etməli olduğunu düşünür, çünki Deziqnori ilə söhbətlərindən o, belə bir qənaətə gəlmişdi ki, "Kastaliya bu qədim Deziqnori ailəsi qarşısında borclu qalmışdı; o, Titonun bir vaxtlar buraya əmanıt edilmiş atasına kifayət qədər möhkəm tərbiyə verə bilməmiş, onun dünya və mənəviyyat arasında qalan çətin mövqeyi üçün onu kifayət qədər güclü edə bilməmişdi. Bir vaxtlar istedadlı və xoş bir gənc olan Plinionun bu səbəbdən narahat və uğursuz həyatı olan bir bədbəxtə çevrilməsi azmış kimi, üstəlik onun yeganə oğlunu da atası kimi eyni problemlər içində azıb qalmaq təhlükəsi gözləyirdi"[2,536-537] Sitatdan göründüyü kimi Kastaliya iki dünyagörüşün daşıyıcıları olan şəxsləri nəinki ayırmış, əksinə dost olaraq birləşdirmısdır. Çünki onların mübahisə və söhbətləri vaxtı əslində bir- birinə verdikləri çox olmuşdu: bu, fikirlərdə dəyişiklik, qarşılıqlı hörmət hissinin artması və nəhayət dostluqdur. Bununla Hesse Knextin müdafiə edib qoruduğu Kastaliyanın timsalında intellekt dünyasının və Deziqnorinin simasında maddi dünyanın birbirindən təcrid olunmuş halda mövcudluğunun qeyri-mümkün olduğunu, bəşəriyyəti kökündə humanist ənənələr duran cəmiyyətin xilas edəcəyini göstərmək istəmişdir. Bu səbəbdən Herman Hesse yaradıcılığı bütün dövrlər üçün aktual olaraq qalacaqdır. Çünki insanlığın ən böyük nailiyyəti humanistlik və kamillik olaraq qalacaqdır.

Ədəbiyyat:

1. Zeller Bernhard, ”Hermann Hesse in Selbstzeugnissen und Bilddokumenten.- Reinbeku. Hamburg: Verlag GmbH, 1988.-292 səh. 1990
2. Herman Hesse “Gesammelte Schriften”- DasGlasperlenspiel,Band 6, Suhrkamp Verlag,1987, 685 səh.

Н. Мамедзаде

Противоречия мировоззрений Йозефа Кнехта и Плиния Дезигнори в романе «Игра в бисер» Германа Гессе

Резюме

В данной статье рассматривается проблема взаимоотношений двух Героев романа Германа Гессе « Игра в бисер », которому была присуждена Нобелевская премия. Каждое его произведение посвящено пониманию мира и самопознанию. Дилемма между главным героем романа Йозефом Кнехтом, учеником, а также будущим магистром Игры, и Плинием Дезигнори, представителем мирского, мещанского общества, показывает глубину противоречий разных мировоззрений и двух обществ – реального и вымышленного. Но это и есть единство и борьба противоречий. Анализируя их взаимоотношений, противоречия их характера мы пришли к выводу, что это единство и эта борьба противоречий являются неотъемлемым частям жизни, и человечеству можно спасти, только опираясь на гуманистических традициях, способствующих духовному росту человека.

N. Mammadzada

Contradictions worldviews of Joseph Knecht and Pliny Designori in the novel "The Glass Bead Game" by Hermann Hesse

Summary

This article is devoted to the problem of the mutual understanding of two heroes of the novel “The Glass bead Game” written by Hermann Hesse, which was awarded the Nobel Prize. All of his works deal with the understanding of the word and self-consciousness.The dilemma between the protagonist of the novel Joseph Knecht, the student, as well as the future Master of Games, and Pliny Dezignori, a representative of the secular, middle-class society, shows the depth of the contradictions of different ideologies and two companies- the real and the fictional. Analyzing the contradictions of his characters, we came to conclusion that unity and struggle is the integrity part of life and humanity can be saved only by relying on the humanistic traditions of contributing to the spiritual growth of man.

Rəyçi: İslam Qəribli
filologiya üzrə fəlsəfə doktoru

LAMİYƏ RƏHİMOVA
Əlyazmalar İnstutu

NƏFİ HƏCV ŞAİRİ KİMİ

Açar sözlər: Sihamı-qəza,Nəfi, həcv,türk ədəbiyyatı
Ключевые слова: Сихами- геза, Нефи, памфлет, турецкой литература
Key words: Sihami-Geza, Nephi, pamphlet Turkish literature

XVII əsr, Osmanlı İmperiyasının böhranli dövrü olaraq tarixçilər tərəfindən qeyd edilsə də, ədəbiyyatda bunun əksi olaraq ən parlaq zamanlar yaşanmışdır. Bu dövrdə Osmanlı padşaları nəinli nəinki himayə etmiş, hətta özləri də şeir daxil müxtəlif incəsanət sahəsində əsərlər yaratmışlar.

Bahti təxəllüsü ilə daha çox dini şeirlər söyləyən IƏhməd,atlara xüsusi sevgisinə görə "usta minici" mənası verən Farisi təxəllüslü Gənc Osman, Muradi təxəllülü IV Murat, Vəfayi təxəllülü IV Məhmət həm padişah , həm də şair olaraq tanınmışlar. XVII əsrdə özlərindən əvvəlki şairlərin üslubunu davam etdirən şairlər olsa da hikəmi üslub, səbki-hindi və məhəlləşmə cərəyanlarının təsiri ilə şeir yazan şairlər də olmuşdur.

Qaynaqlarda XVII əsrə məxsus dört üslubdan bəhs olunur. Bunlar Baqi üslubunun davamçıları, yeni üslub axtarışında olanlar,hikəmi və məhəlləşmə üslubunun təmsilciləri və təsəvvüf şeirinin nümayəndələridir.

XVII əsr klassik türk ədəbiyatının yenilikçi şairlərindən biri də Nəfi olmuşdur. Nəfi təxəllüsü ilə qəlblərə yol tapan bu qüdrətli şairin əsl adı Ömərdir. Doğulduğu yerin Ərzurumun 40km yaxınlığında olan Həsənqala olduğu qaynaqlarda qeyd edilsə də şairin doğulduğu tarix dəqiq bilinmir. Ancaq tədqiqatçılar Nəfini təqribən 1072-ci ildə anadan olduğunu qeyd edirlər. Əbdülqadir Qaraxan şairin Hafiz Əhməd Paşaya h.1034/m.1625-ci ildə yazdığı bir qəsidəsində "otuz ildən bəri şeir yazdığını" söylədiyinə və eyni zamanda Qaraxan tərəfindən üzə çıxarılan Gelibolulu Mustafa Əlinin (1541-1600) bir nüsxədən ibarət olan "Məcmaul-bəxreyn"(h.1000/m.1591) əsərinin giriş hissəsində Nəfidən "gənc və ağıllı bir şair" kimi bəhs etməsinə istinadən həqiqətən də şairimizin yuxarıda qeyd etdiyimiz tarixdə anadan olduğu fikrini daha düzgün hesab edir.

Qaraxan, Raif Yelkəncinin kitab kolleksiyası arasında mövcud olan bir elyazmaya istinadən Nəfinin atasının Məhməd Bəy babasının isə Əli Paşa olduğunu qeyd edərək şairin soyunun Şirvana dayandığını da bildirir. Nəfi ilk əvvəl "zərərə mənsub" mənasına gələn "Darir" təxəllüsünü istifadə etsə də Mustafa Əlinin tövsiyəsi ilə daha sonra dəyişdirdiyini "Sühən" rədifli bir qəsidəsindən anlayırıq:

Eylədüm məxləsi Nəfi ilə qədrüm əfzun,
Zihni pakimdə görüp qüvvəyi-izanı sühən. (2,207)

Hələ uşaq vaxtı onu qoyub Kırım xanına nədimlik etmək üçün gedən atasını həcv edən şairin yazdıqlarına istinadən onun çox da firavan uşaqlıq keçirmediyini söyləmək olar:

Saadət ilə nədim olalı pedər hana,
Nə mərcimək görər oldu gözüm nə tarhana.

Pedər deyil bu bəlayi-siyehdir başıma,
Sözüm yerində nola güç gəlirsə gər hana (2,46)

Nəfi ilk vaxtlar İran şairləri Hafiz və Sədinin şeirlərindən bəhrələnərək şeir yazmışdır. Şəirin gənclik illəri haqda əlimizdə kifayət qədər məlumat yoxdur. Hətta onun nə vaxt və nə səbəbdən İstanbula gəlməsi haqqında da dəqiq fikir yoxdur. Ancaq onun qaynaqlara istinadən otuz ilə yaxın İstanbulda yaşadığını söyləyə bilərik. Şair I Əhməd, I Mustafa, II Osman, IV Murad zamanında yaşamış ancaq bunlardan sadəcə IƏhmədlə IV Muradı sevmişdir. Bunlardan birinciyə 8 , ikincisinə isə 12 qəsidə yazaraq onların ehtiramını qazanmışdır. Bu əsrin sədrazamları olan Quyucu Murad Paşaya (öl.1020), Nasuh paşaya(öl.1023), Damat Məhməd Paşaya (öl.1029) və Xəlil Paşaya (öl.1040) qəsidələr yazmış ve hər birindən də lazımınca hörmət görmüşdür.

Nəfinin həyatının və sənətinin ən parlaq illəri IV Muradın səltənəti dövrünə təsadüf etdiyi kim acınacaqlı və faciəvi dövrü də bu dönəmə aitdir. Belə ki IV Murad bəzən özü də şeir yazdığı üçün şairləri hər zaman yüksək qiymətləndirmiş onları müxtəlif məclislərə dəvət etmişdir. Nəfi də o cümlədən bu məclislərdə isştirak edən şairlərdən olmuşdur. IV Murad təbiət etibari ilə olduqca sərt və biraz da coşğun xarakterə sahib idi. Elə məhz bu keyfiyətinə görə Nəfinin məthiyələrini də, söyüşlə dolu həcvlərini də həvəslə dinləyir və onlardan zövq alırdı. Hətta Nəfini məth edən bir şeirinin də olduğunu burada xüsusi olaraq qeyd etməliyik:

Gəlin insaf edəlim fərq edəlim miqdarı,
Şairiz biz də deyü , laf ü güzafı koyalım.
Edəlim bi-məzə söz söyləmədən istiğfar,
Daməni-Nəfii-pakizə-ədayı tutalım.
Biz kəlam nəqliyiz nərdə o sahib-güftar,
Ona təslim edəlim əmrinə münkaad olalım.(6,)

Ancaq bu firavan və xoşbəxt günlər 24 İyun 1630- cu ildə sona çatmışdır. Rəvayətə görə IV Murad atası IƏhmədin Beşiktaşdakı sarayında oturub Nəfinin "Sihamı-qəza" əsərini oxuyub feyziyab olarkən şimşək düz taxtın yanına düşər, bunda bir bədbəxtçilik nişanəsi olduğuna inana padişah əsəri cırıb atar. Nəfini isə çağıtdıraraq bir daha həcv yazmamasını təmbeh edər. Bu hadisədən sonra Nəfi vəzifəsindən azad edilir. Hətta bu hadisə Nəfiyə həcv yazmış bir şairin misralarında belə verilmişdir:

Gökdən nazirə endi Sihamı-qəzasına,
Nəfi dili ilə uğradı həqqin bəlasına.(6,)

Qaynaqlarda Nəfinin ölümü ilə əlaqədar da bəzi rəvayətər mövcutdur. Deyilənə görə Padişaha verdiyi sözün üstündə durmayan şair sədrazam Bayram paşaya bir həcv yazmış və bu səbəbdən də IV Murad onu Bayram paşanın əlinə verərək ölü-

münə imza atmışdır. Şair boğdurularaq öldürülmüş daha sonra da cəsədi dənizə atılmışdır. Nəfinin ölümünə əbcəd hesabı ilə bir neçə tarix tarix yazılmışdır:

"Keçdi Sihamı-Kaza", Qətlinə oldu səbəb həcvi hələ Nəfinin", "Nagəhan gəldi bir əksikli dedi tarixin, ah kim qıydı felek Nəfi kimi ustada" Bütün bu tarixlərə istinadən şairin h.1044/m. 1635-ci ildə öldürüldüyünü söyləyə bilərik.

Nəfinin həyatı və yaradıcılığı haqqında müxtəlif qaynaqlarda məlumatlar mövcutdur. Bütün bu qaynaqların hamısında, xüsusən katib Çələbi (1608-1657), təzkirəçi Rıza(Seyid Məhməd, öl. 1671), Ziya Paşa (1825-1880), Rəcaizadə Mahmud Əkrəm (1847-1914),Tofiq Fikrət (1867-1915) yazılarında Nəfinin qəsidə və həcv yazmaq qabiliyyətini vurğulayır, bu sahəyə təzə , orjinal dil və üslub gətirdiyini qeyd edirlər. Öz sənətçi yoldaşları olan Sabri(öl.1648),Naili (öl.1666),Nabi (1642-1712),Nədim (öl.1730), Şeyh Qalib (1757-1799) də Nəfinin qüdrətli şair olduğunu qeyd edir. "Şairin şeir texnikasına olan hakimiyyəti xüsusi diqqət çəkir. Vəzin və qafiyəni onun qədər hislərinə ram edən şair çətin tapıla"(karahans13)

Əli Əkrəm Bolayıra istinadən Karahan da Nəfinin ruhunu mübaliğə və şeirdəki ahəngi yarada bilmək qüdrətində tapır.Nəfi şeirlərində müharibə meydanlarını, silah və at sevgisini, yazın gözəlliyini, qəhramanlığı, sevgi və şərab zövqünü müvəffəqiyyətlə dilə gətirmişdir. Qəsidənin fəxriyə hissəsinə ən çox yer verən şair də yenə məhz Nəfi olmuşdur. I Əhmədə yazdığı bir qəsidəsində şairin özünə inam hissinin nəqədr qüvvətli olduğu ortaya çıxır:

İltifat et şuhan ərbabına kim anlardır,
Mədhi-şahanı-cəhan-bana verən ünvandır,
Kim bilirdi şuara olmasa gər sabıkda,
Dəhrə dövlətlə gəlip yenə gedən sultanı
Həşrə dək abı-həyatı-suhanı-Bakidir,
Andırıp zində kılan namı-Süleyman Xanı

Nəfi bəzən o qədər qeyri mütəvazi olur ki hətta özünü Hafiz(öl.1398),Xəyyam (öl.1313),Urfi (öl.1591), Feyzii-Hindi(1547-1595) Möhtəşəm Kəşani(öl.1588) ilə müqayisə edir bəzən də onlardan da üstün olduğunu qeyd edir.

Nəfinin türkçə və farsça divanı bir də həcvlərini toplandığı "Sihamı-qəza" adlı əsəri mövcutdur. Türkçə divanının dünyanın bir çox yerində nüsxələri mövcutdur. Türkçə divanında qəsidələr say etibari ilə daha çox yer almışdır. Peyqəmbərə və Mövlanaya yazılan mədhiyələrdən başqa Divanda 3 padişaha,8 sədrazama, 2 şeyxüslama və bir çox nüfüzlu dövlət adamlarına yazılmış qəsidələr mövcutdur. Farça Divanı isə dördü Mövlanaya, biri Sultan Murada, biri Sultan Səlimə, biri Hüsam Gəray Xana və biri də Şeyxülislam Məhməd Əfəndiyə yazılan 8 qəsidə, 1 Saqinamə,1 fəxriyə qitəsi,21 qəzəl və171 rübai dən ibarətdir. Nəfinin Farsça Divanındakı şeirlərə daha çox təsəvvüf havasının hakim olduğunu söyləmək mümkündür.

"Sihamı-qəza" Nəfinin məşhur həcvlərini toplandığı əsəridir. Nəfinin ağır və sərt söyüşlərə görə bədiiyi qiyməti verilməyən bir əsərdir. Nəfini bu əsərini əlyazma nüsxələri çox azdır. Əldə olan nüsxələrə əsasən tədqiqatçılar şairin bu əsərində əsasən atasına yazdığı mənzumə,Gürcü Məhməd paşaya, Kəmankeş Əli paşaya, Əknməkçizadə əhməd Paşaya, Veysiyə,Nevizadəyə, qəsisə,tərkibbənd, qitə şəklində yazılmış həcviyələrin olduğunu qeyd edirlər.Bunlardan başka Şairin digər

nüfuzlu dövlət adamları, həmkarlarına yazdığı həcvlərdə bu əsərdə yer almışdır. Nəfinin həcv etdiyi həmkarlarından Məntiqi, Firsəti,Nigar, Nihan, Bəhsi Kamil, Qənizadə Nadiri, Ruhi, Itri, Riyazi, Kafzadə Faizi,Azmizadə Haləti, Məşrəbi və Nevizadə Atayini göstərmək olar. Beləcə Nəfinin imkan düşdükcə həcv etmədiyi, acı söz söyləmədiyi məhşur şəxsin olmadığını söyləsək yanılmarıq.

Kinayə və imadan tut təhqir, söyüşə qədər uzanan bu həcvlərin çoxunda kobud ifadələr bu əsərlərin ədəbi nümunə kimi gavramağı əngəlləyən amillərdir. Bütün bunlara baxmayaraq Sihanı-qəza satirik şeirin, canlı həcvin gözəl nümunələrindən də xali eyildir. Bunlar əxlaq çərçivəsində oxuyucuya şairin parlaq məntiqi ilə yazılmış qüvvətli həcv ustalığını isbatlayan nümunələrdir. Bu da Nəfinin Həcv sahəsindəki müvəffəqiyyətini bir daha sübut edir.

Nəfinin yuxarıda da qeyd etdiyimiz kimi həcvləri Sihamı-qəza əsərində toplanmışdır. əsərin İstanbul, Ədirnə ,Ankara və Londonda nüsxələri mövcutdur.(2,130-141). Tədqiqatçılar bəzən "Sihamı-qəza" əsərinin Nəfiyə aid olub olmaması haqqında şübhəyə düşürlər . Bunun ən əsas səbəbi isə şairin Divanı ilə həcv əsərinin dil və üslub baxımından tamamən fərqli bir xüsusiyyət göstərməsidir. Divanında gördüyümüz o təmiz, dururu, saf dil və üslubun yerini sihamı kaza da olduqca kobud ifadələr tutur.

Saffəd Sıdqı Nəfinin "Sihamı-qəza" haqqında hazırladığı tədqiqatı "divan ədəbiyyatının əzəli və əbədi günahının yayılması" kimi təqdim edir.(9,23)

Mətin Aqquş "Müxtəlif satirik şeirlərin də olduğu əsərin ittiham, həqarət, və söyüşlə əlaqəli ifadələrlə dolu olması onun bədiiliyinə kölgə salır."(2,103)

Məhmət Fuad Köprülü "Həcvlərində ahəng və böyüklüyü ilə böyük şairin əsəri olduğunu xatırladan bir neçə şeir istisna olursa əsərin çox hissəsi çirkin, mənasız və çox vaxt söyüşdən ibarət olan qaba və iyrənc mənzumələr təşkil edir. İnsan Nəfi kimi böyük şairin bu qədər bayağı və ibtidai şeirlər yazacağına inanmaq istəmir. (7,395)

Turhan Tan (Samih Fəthi) "Nəfi qəsidələrində bir ahəng pərisi, həcvlərində sərxoş və söyüşkən bir qaldırım sərsərisidir"(10)İsmail Həbib Səvüq "Onun həcvlərinin toplandığı "Sihamı-qəza" əsərinin bir çox mənzumələrini söyüşlə dolu olduğu üçün insan tək başına qalan da belə oxumğa çəkininir.(8,152)

Karahan ".Bu zərif lətifələr xaricində "Sihamı- qəza"dakı şeirlərin böyük qiyməti yoxdur. Bəzən bu şeirlər arasında da Nəfinin sənətinin xüsusiyyətlərininəks etdirən parçalar olsa da bu azdır." ". əsərin əlyazma nüsxələri də azdır. 4-5 dən çox deyil, bunlar da bir-birindən fərqlidir."(6,10)

Şeyxülislam Yəhyanın bir həcvində Nəfiyə kafir deməyinə şairin verdiyi cavab divan şeirində çox məşhur həcv nümunəsi olaraq bilinir.

Şeyxülislam Yəhyanın şeiri:

Şimdi xeyli sühənvəran içrə,
Nəfi manəndi var mı bir şair.
Sözləri səbayi-müəlləqadır
İmrül-Qeys kəndidür kafir.

Nəfinin cavabı:

Bizə kafir demiş müfti əfəndi,
Tutalı bən ana diyəm müsəlman.
Varulduqda yarın ruzı-cəzaya,
İkimiz də çıxaruz anda yalan.(2,250)

Əsasən divanında eyni zamanda da Sihamı-qəzanın bəzi nüsxələrində olan bu qitə ilə Nəfi həqiqətən həcv yazmaqdakı ustalığını bir daha ortaya qoymuşdur. Ancaq belə nümunələr olduqca azdır. Şeirlərin əksəriyyəti isə daha çox tənqid etdiyi insanların qüruru ilə ynayır, onların xarici görkləmlərinə tənə edir. Bu baxımdan onun Fürsətini həcv etdiyi qəsidəsi tənqidçilərin olduqca etirazına səbəb olmuşdur:

Ana bənzərdi gər sürsə yüzinə zərbəçav iblis,
Ana bənzərdi gər cinni olaydı kəhrüba-talat.(2, 200)

"Sihamı qəza"da "Dər haqqı Məhməd Əli" başlığı ilə yer alan bir qitədə isə tənqid edilən şəxsin söyüldüyünün şahidi oluruq:

Görmədim səncileyin rindi-cəhan-didə gidi,
Birə nazük, birə axmaq, birə vadidə gidi.
Sən də İtri gibi harlikdə qalup gər şimdi,
Taib olsan nicə olurdı birə varidə gidi.(2,247)

Şir Gürcü Məhməd Paşaya yazdığı " a köpək" rədifli həcvində də çox ağır sözləistifadə edir, tənqid etdiyi şəxsi söyməkdən də çəkinmir:

Molla Sultana zıbıqçıbaşı da olsa əgər,
Görünür bana yenə cariyədən kəm a köpək.(2,161)

Bu böyük şairin yaradıcılığının xüsusən də həcvlərinin öyrənilərək Azərbaycan elm aləminə tanıdılması Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin tədqiqi fonunda olduqca maraqlıdır .

İstifadə olunmuş ədəbiyyat

1. Akgül A.Nefinin Siham-ı Kazası ile Türkçe Divanındaki iki farklı üslup üzerine bazı tespitler. Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 7/2 Spring 2012, p.47-57 , ANKARA/TURKEY
2. Akkuş M. Nefi ve Siham-ı Kaza, Ankara. Akçağ yayınları, 1998
3. XVII yüzyıl Türk Edebiyatı Eskişehir, Anadolu Üniversitesi,2011
4. İpekten H. Nefi Hayatı,Sanatı, Eserleri. Ankara, Akçağ yayınları,1999
5. Kabaklı A. Türk Edebiyatı CII İstanbul, 2006
6. Karahan A. Nefi Divanından Seçmeler, Ankara, Kültür Bakanlığı,1992
7. Köprülü M. F. Divan Edebiyatı Antolojisi, İstanbul, 1941

8. Sevük İ.H. Edebiyat Bilgileri. İstanbul,Remzi ktabevi 1942
9. Sıdkı S. Nefi vd Siham-ı Kazası, İstanbul, Aydınlık, 1943
10. Tan.M. Turhan. Cumhuriyet Gazetesi, 5Haziran 1937

Ламия Рагимова

Нефи как автор памфлетов
Резюме

Нефи, выдающийся представитель турецкой литературы, известен своими памфлетами. Списки произведений «Сихами- геза», а также его тюркский и персидский Диваны, имеются в различных библиотеках мира. Предполагаем, что было бы интересным провести сравнительный анализ списков произведения «Сихами-геза».

Lamia Ragimova

Nephi as the author of pamphlets
Summary

Nephi is known representative of Turkish literature for his pamphlets. Copies of works "Sihami-Geza" , his Turkic and Persian Divans is available in various libraries of the world. We assume that it would be interesting to conduct a comparative analysis of the copies of works "Sihami-Geza."

Rəyçi: Prof. Azadə Musayeva

SAKİBƏ ƏLƏSGƏROVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
UOT: 821 (479,24)

XALQ ŞAİRİ BALAŞ AZƏROĞLU VƏ "21 AZƏR HƏRƏKATI"

"... onun şeirləri məhz insanları ayağa qaldıran, mübarizəyə və gələcəyə səsləyən yüksək poeziya örnəklərdir."

Anar

Açar sözlər: inqilab, poeziya, vətən, ayrılıq, mühacirət
Ключевые слова: революция, поэзия, родина, разлука, эмиграция
Keywords: revolution, poetry, patriotism, separation, emigration

Cənubi Azərbaycanda 68 il bundan əvvəl baş vermiş İnqilabi Demokratik Hərəkatın fəallarından olan və bu mübarizənin detallarını bədii lövhələrə çevirən Balaş Azəroğlunu o taylı-bu taylı poeziyamızın ağsaqqalı adlandırırlar. Yaşadığı müddətdə yerindən, yurdundan, ehtiyaclarını təmin edən maddi imkanından uzaqlşadırılaraq bir dəfə deyil, təkrar olaraq məcburi həyata yönəldilmək və bu həyatı yaşamağa dözmək hər kişinin işi deyil. Mühitindən tez-tez ayrılmaq, məcburi düzənsizlik yaşamaq yaradıcı şəxslər üçün daha da ağır və mənəviyyatı tükədici bir vəziyyətdir. Ancaq B.Azəroğlu bütün bunlara dözdü, uzun illər yaşadı və yaratdı. İllərin ona olan "əzazilliyi" onun inqilabi Hərəkatda da, yaradıcılığında da, yaşamında da olan mövqeyinə zərər verə bilmədi. Görkəmli şair buna imkan vermədi, ən çətin günlərində də dimdik durdu və zamana meydan oxudu. Heç bir kəsin qarşısında əyilməyən, şeirlərini qiymət verilən yerlərdə oxuyan, mənəviyyatca bütöv, getdiyi məclislərdə hörmətlə qarşılanan, məddahçılıqdan uzaq ellər oğlunun məramı aydın idi:

Şeirim eldən alıbdır bu ilhamı, qüvvəni,
Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.

Klassik ədəbiyyatı dərindən əxz edən şair üçün bütün yaradıcıların həyatı və yazdıqları gün kimi aydındır. Nəhəngləri də, mədahları da yaxşı tanıyır. Şaha, sultana zinətə, saraylara, səltənətə baş əyməyən şair özünü xalqının, vətəninin azadlığı uğrunda qurban verə biləcək bir gücdə hiss edir. Azadlıq hissini şəxsən yaşayan B.Azəroğlu onun uğrunda mübarizə aparmağı qeyrət işi sayır, bu mübarizə gücünü özündə və bütün fədailərdə görür.

Xalqına arxalanan şair qarlı qış və tufandan qorxmur. Xalqı da, özü də heç kəsdən kömək ummur, mübarizə gücünü özlərində görür.

Mən əl açıb göylərdən diləmədim azadlıq,
Mənim arxalandığım onlardan daha artıq.
Ölkələr həsrət çəkən afitab şairiyəm,
Azadlığın carçısı inqilab şairiyəm.

(Ərdəbil, 1941)

Bu şeirdə milli demokratik poeziyanın mübarizliyi var. Gənc bir şairin birdən-birə inqilabi mühitə düşməsi, az vaxtda bu mühiti mənimsəməsi təqdirəlayiqdir. Yaşının az olmasına baxmayaraq, şeirləri "ağır basır", elə bil ağsaqqal inqilab rəhbəri azadalıq mübarizəsinin manifestini elan edir. B. Azəroğlunun həmin dövr yaradıcılığı siyasi lirikanın "bütün açıqları"nı örtmək, bağlamaq gücündədir. O, Vətən üçün dişiylə zəncirləri qıra bilən, sinəsini süngü qabağına verən oğullar istəyir. Elə bil ki, XXI əsrin ən iradəli, ən vətənpərvər Azərbaycan oğlu Mübariz İbrahimovu 1945-1946-cı illərin qovğasına çağırır. Burada şair romantikası, təxəyyülü at oynatmır, tarixi həqiqət yaşanır və bədiiyyata çevrilir. Hicran dolu ömür sürən, həyatın məşəqqətləri ilə üzləşən, ömrünün gəncliyi vaxtsız olaraq tufanlarda solan, elindən, obasından ayrılan günahsız müqəssirə çevrildi Balaş Azəroğlu. Zəmanəsinin hər möhnətini dadan şair Vətəninin xatiri üçün dözdü. Xalqının rəşadətindən qürur duydu. Belə bir ömür, həyat yaşıyan Azəroğlunun xatirələri göz yaşı, ümid, ölüm, mübarizə, yurduna pənah gətirən insanların ürək göynədən anıları ilə doludur. O taya keçəndə bu tayın, bu taya gələndə o tayın həsrətiylə qovrulmaq, əlbəttə ki, ürək qanı hopmuş, həsrət dolu əsərlərin yaranmasına səbəb olacaq. Vətən torpağından, Babək, Səttarxan nəfəsli, nişanəli yurddan güc alan şair ona çəkilən dağlardan əyilmir.

Atamın səngəri məzarı oldu,
Üstünə bir qırıq kərpic qoyuldu.
Dostları süngüylə qazdı: "Mücahid"
Mənim də "Fədai" qalacaq adım.
Sabahkı döyüşə olmasam şahid,
Başqa bir ad ilə yenə övladım
O gün vuruşacaq...
Bil, bu zülmətdən
Qurtaracaq səni, vətən, ay vətən.

(Bakı, 1948)

Sovet Azərbaycanının sosioloji təqiblərindən uzaqlaşaraq Cənuba gedən, oddan qaçarkən yalova tutulan, gəncliyinin çiçəklənən vaxtında özünü qanlı mübarizənin orta göbəyində tapan şair bundan şikayətlənmədi. İnqilab şairi artıq həyatında olan dəyişikliyi normal bir şəkildə mənimsəmişdi. Yaradıcılığı da, yaşayışı da başqa bir səmtdə idi. Xəzərdən uzaqlaşmışdı, Savalan ətəyinə, qədim Babək yurduna yerləşmişdi. Şair karvanların kədər gətirdiyi qədər sevinc apardıöını da bilir. Amma şairin qulağında onu Güneyə gətirən karvanın sarvanının səsi, özü də qəmli, gəvə zənglərinin cingiltisi altında aramla bayatı deyən səsi eşidilirdi.

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı qan apardı,
Dərmanı qızda qaldı.

(1938)

Bu karvan onu Ərdəbilinə gətirmişdi. İllərlə Ərdəbil adı çəkiləndə könlü şad olan şair yazdığı "Ərdəbil" adlı şeirində özü haqqında ona hesabat verir. Üstəlik zaman-zaman bu şəhərin başına gələnləri xronoji olaraq xatırlamağa çalışır. Şair illərin Ərdəbilin köksünə çəkdiyi dağların, yüz-yüz müşküllərin keçəcəyinə inanır. Talanmış şəhərin hələ də cəlbedici tərəfləri, bol nemətləri var. İnqilabi mübarizənin Ərdəbilə də xoş günlər gətirəcəyinə inanır.

Vaxt keçər, dövran keçər, qalmaz bu bünyad, Ərdəbil.
Onda bu könlüm kimi könlün olar şad, Ərdəbil.

Qızılbaş ordusunun and içib silaha sarılan sələfləri Vətən yolundakı vuruşmalarda düşmənə diz çökdürəcək. Gənc nəsillərin də talan edilərək Londona aparılan nadir əlyazmaların tələb etməsinin vaxtı çatıb. Ərdəbilə - Şeyx Səfi məqbərəsinə uzaqdan-yaxından gələnlərin məramı müxtəlif olub. Kimi sırf ziyarət üçün, mənəvi təmizlənmək və tariximizi xatırlamaq, üçün kimisi nəyisə gözaltı edib aparmaq üçün. Belə şeylərə göz yuma bilməyən ellər oğlu eldən qüvvət alan şeirlərində etirazını gur səslə, heç kimdən və heç nədən çəkinməyərək bildirir. Şair fikirlərində əzmli görünür. Tədqiqatçı Sabir Nəbioğlu yazır: "Azəroğlu həyatı boyu taleyin acı qismətinin qəm və həsrət karvanının doğurduğu əzablara dözməli olmuşdur. Amma nəzəri xüsusi cəlb edən cəhət bundan ibarətdir ki, o, bu yükün siqləti qarşısında heç vaxt müvazinətini itirməmişdir."[30]

Cənubi Azərbaycanda azad dünya uğrunda mübarizədə çox qəhrəmanlar həyatını qurban verib. Başqa ölkələrdən, onların qəhrəmanlarından güneylilərin fərqi ondadır ki, vətən uğrunda ölümü əvvəlcədən göz önünə alıblar. İnqilab şairinin xoşbəxtliyi Vətənin bu tərəfindən digər tərəfinə getməsi idi. Şimalda baş verən bütün ictimai-siyasi hadisələr bir qədər gecikməklə Cənuba da yansıyıb. Bu tarixi faktdır ki, inqilablar Güneydə daha güclü, daha partlayışlı əks-səda doğurub Xiyabaninin rəhbərliyi ilə həyata keçirilən və məğlubiyyətlə sonlanan Təbriz üsyanından sonra xalqın vəziyyətinin ağırlığı Balaş Cənuba gedəndə hələ də davam edirdi. Həm xalqın, həm mətbuatın üzərində nəzarət çox güclü idi. Odur ki, Azəroğlu fars dilini və əlifbasını öyrənməyə diqqət edirdi. Rejim tək ona yox, Şimaldan gələn bütün mühacirlərə şübhə ilə yanaşırdı. Balaş Bakıdan Ərdəbilə pənah aparmış Ağakişi, Əbülfəz, Əsgər adlı mühacirlərlə əlaqə saxlayır və dostluq edirdi. Şimala qayıtmaq çətinləşdiyinə görə şah rejiminin ciddi nəzarətində həyatlarını davam etdirmək qaçınılmaz olmuşdu.

İşsizlik, maddi çətinlik mühacirləri Bakıya doğru sürükləyirdi. Ancaq II Dünya müharibəsi vəziyyəti dəyişdirdi. 1941-ci ildə Sovet dövlətinin Sovet-İran müqaviləsinə əsasən qoşunlarını İrana, xüsusən Cənubi Azərbaycan bölgəsinə yeritməsi və ordu ilə birgə incəsənət xadimləri və ədəbiyyatçıların gəlişi çox sevindirici idi. Şimaldan gələn nümayəndə heyətinin tərkibində C.Xəndan, M.İbrahimov, O.Sarıvəlli, M.Rahim kimi yaradıcı insanların olması Cənubda mədəniyyətin, ədəbiyyatın inkişafında böyük rol oynadı. M.İbrahimov "Vətən yolunda" qəzetinin nəşrlərinə ciddi nəzarət edir və Təbrizdə inqilabi ideyaların yayılmasında bu mətbu orqanın rolu get-gedə artırdı. Azərbaycan dilində çıxan qəzetin ilk nömrəsi 1941-ci ilin payızında – oktyabrında işıq üzü gördü. 89 nömrədən sonra fasilə verən qəzetin 1944-cü ilin aprelindən 1946-ci ilin mayına kimi cəmi 406 sayı nəşr olundu. Əvvəlcə sovet şair, yazıçı, publisist və ədəbiyyatşünaslarının yazıları və köməyi ilə nəşr olunan qəzetin ətrafında sonralar xeyli sayda cənublu şair və mühərrirlər toplandı. Balaş Azəroğlu, Mədinə Gülgün, Etimad, Fikrət, Əli Tudə və s. kimi tanınan insanların qəzetin şöhrət tapmasında və oxucu kütlələri arasında yayılmasında böyük rolu oldu. Balaş Azəroğlu daxil olmaqla digərləri də

[30] *Sabir Nəbioğlu. "Milli poeziyanın unudulmaz sənətkarı". "Respublika" qəzeti. 11 may 2011-ci il.*

mədəniyyətin inkişafını onun əhali içərisində daha çox anlaşılması və kütləviliyində görürdülər. Sovet ordusu ilə bərabər Cənuba gəlmiş Qulam Məmmədlinin "Vətən yolunda" qəzetində əməkdaşlıq etməsi, bölgələrdə qabiliyyətli yazıçılar axtarması və Ərdəbildə B.Azəroğlu ilə görüşüb onu Təbrizə dəvət etməsi təsadüfi deyildi. Nümayəndə heyətinin əsas missiyalarından biri idi və bunu müvəffəqiyyətlə həyata keçirirdilər. Təkcə inqilabçı şair və yazıçılarla əlaqə saxlamır, əsərləri bütünlüklə nəşr olunmayan, üzə çıxmayan şair və yazıçıların da həyatı və yaradıcılığı ilə maraqlanırdılar. Q.Məmmədli həmin dövrdə Cənubi Azərbaycanın Sabiri adlandırılan M.Ə.Möcüz Şəbüstərinin də əsərlərinin kütlə tərəfindən tanınması üçün çox işlər görmüşdü.

Azəroğlunun Təbrizə gəlməsi ona sənətin əsl yolunu göstərdi. Şairlər məclisində müəllimi C.Xəndanı şeirlərini, Azərbaycan və dünya klassiklərinin həyat və yaradıcılığı haqqında məruzələri dinlədi. "Şairlər məclisi"nin (7 yanvar, 1945) iclaslarında fəal iştirak etdi. Məclisin nəşr etdiyi jurnala şeirlərini verdi. Məclisin bəyənilmiş ədəbi nümunələri içərisində onun da əsərləri var idi ki, bu əsərlər sonralar "Cövdət", "Yumruq", "Vətən yolunda" qəzetlərində, "Ziddi-faşist" vərəqələrində nəşr olunurdu. "Şairlər məclisi"nin üzvləri görkəmli şair və yazıçılara çevrildilər ki, onlardan biri də B.Azəroğlu idi.

S.C.Pişəvəri yazırdı ki, sözümüzün, hədəfimizin bir olması üçün bir cəbhədə birləşməliyik. Həmin dövrdə (1945, 3 sentyabr) Azərbaycan Demokratik Firqəsi yarandı. Ərdəbildə bölməsi yaradılan firqənin orqanı "Cövdət" qəzeti, qəzetin redaktoru isə B.Azəroğlu seçildi. Qəzetin ilk nömrəsində şairin "Gəlin, dostlar, gəlin" ("Çağırış") şeiri çıxdı və bu onun yerlilərinə müraciəti idi:

Vətənin qədrini duyanlar gəlsin.
Gəlsin qoy gözləri yolda qalanlar,
Səttarxan yurduna arxalananlar.
Gəlib axın-axın qoşulsun bizə,
Qaynayıb qarışsın sıx cərgəmizə.
Gəlin, vətən deyən cavanlar, gəlin,
Gəlib siz istəyən zamanlar, gəlin,
Gəl yapış ananın indi əlindən.

S.C.Pişəvəri Azəroğlunun bu şeirinin vərəqələrdə çap olunub Firqənin I qurultayında nümayəndələrə paylanılması üçün göstəriş verdi. Bu, qurultayın Məramnamə və Nizamnaməsi ilə bərabər paylanan bir çağırış şeirinin müəllifinin poetik və siyasi gücünün göstəricisi idi. Şair əsərində el oğullarını vətənin dar günündə köməyə çağırır. Körpəliyində səni saxlayan, həyatın fırtınalarından çıxaran ananın girdabda boğulduğu vaxt sənə ehtiyacı var. Yalnız əl-ələ verməklə, birləşməklə güc əldə edib Vətəni düşmən əlindən qurtarmaq olar.

Deyir: "Dar günümdür, oğul, gəlsənə.
Gəl, yad pəncələrdən gəl qurtar məni,
Soydu quldur məni, hökmdar məni.
Gözlərim yollarda qaldı amandır,
Sönən çırağımı əlinlə yandır.

Bəlkə bu zülmətdən qurtaraq biz də,
Bir də qul olmayaq öz ölkəmizdə."

(Ərdəbil, 1945)

1946-cı ildə Təbrizdə "Şairlər məclisi"nin təşkil etdiyi müsabiqədə şairin bir şeiri II dərəcəli mükafata layiq görülmüşdür. Bu, onun "Səttarxan" adlı şeiridir. Zaman-zaman Səttarxanın, Bağırxanın, Xiyabaninin şəninə çox əsərlər yazılıb. Azəroğlunun əsərində isə kədər, həsrət, qürur,şərəf kimi hisslər birlikdə addımlayır. Səttarxanın mənəvi varlığını hiss edərək vətəninə sadiq əsgər kimi əmrinə müntəzir dayanan şair heç vaxt sınaqdan namərd çıxmayan Azərbaycan oğludur. Səttarxan və digər şəhidlərin qanı onun damarından axır. Səttarxan Vətənimizə şan, şöhrət gətirdi, qüdrətimizi artırdı. Azərbaycan xalqı bütün adlı qəhrəmanlar kimi onu ürəklərdə yaşadır. Təbrizdə çox igidlər at oynadıb, çox qəhrəmanlar vuruşub, ancaq Səttarxan kimi bu qədər ucalmamışdır, zaman onun kimi qəhrəmanları az-az yetirir. O, özünü elin gözündə var olduğu qədər böyütdü. Xalqımız, tariximiz yaşadıqca Səttarxan da yaşayacaq, Babək, Cavanşir kimi. Xalqımız daima Koroğlu tək Misri qılınclara, ata arxa, kömək kimi baxıb. Cənubi Azərbaycanın dağlarında at üstündə, beli qılınclı çox igidlər vuruşub. Səttarxanı isə dünya tanıyır. Müsəlmanı da, xristianı da onu igid kimi, xalqını sevən bir qəhrəman kimi təqdir edir.

Təbrizin qoynundan çox igid çıxıb
Fəqət ucalmamış Səttarxan kimi.
Çox az-az qəhrəman yetirir zaman
Bu el böyütdüyü qəhrəman kimi.

B.Azəroğlu xalq qəhrəmanının heyranıdır, hətta onu canlı olaraq görür. Onun at üstündə, süngü qabağında etdiklərini səngərdə də, qələmi ilə də etməyə hazırdır. Xalqına sevgisi, məhəbbəti məlum olan şair Səttarxanı ən əziz, ən böyük bir insan kimi qiymətləndirir:

İgidlərin qanı qanımızdadır.
Nə düşmən, nə ölüm qorxuzmaz bizi
Səttarxan hər zaman yanımızdadır.

S.C.Pişəvərinin başçılığı ilə milli-azadlıq hərəkatının qalib gəlməsi çox qürurverici idi. 1945-ci ilin 12 dekabrında (21 Azər) Milli Hökümət yarandı. Mədəniyyət, aqrar, sənaye sahələrində xeyli işlər görüldü, Azərbaycan dili dövlət dili kimi qəbul edildi. Həmin dövrdə "Şairlər məclisi" öz fəaliyyətində artıq yeni bir dönəm yaşamağa başladı. B.Azəroğlu yazırdı:

Dünya həsrət çəkən kömək bizdədir.
İranın elləri bizə göz dikib
Azadlıq günəşi demək bizdədir.
Bunu şərqlilər də bilmişdir artıq
Bizdən keçəcəkdir Şərqdə azadlıq.

(Təbriz, 1946)

Çeşməzar "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti" əsərində Azərbaycan Demokratik hərəkatın Yaxın və Orta Şərq xalqlarının imperializm əleyhinə mübarizəsinin qüvvətlənməsində əhəmiyyətli rol oynadığını göstərirdi.

Azərbaycan Milli Hökuməti 1946-cı il dekabrın 20-də ləğv olundu. Sovet hökuməti aparıcı dövlətlərin təsiri ilə qoşunlarını Cənubdan çıxartdı və Azərbaycan Milli Hökuməti köməksiz vəziyyətdə, demək olar ki, taleyin ümidinə qaldı.

B.Azəroğlu – üzərindən qan, qovğa, ağır mübarizə keçmiş xalq şairi ümidini yenə sabaha dikdi. Düşmən Təbrizin cəlalını dağıtdı, şəhəri fırtınalı dənizə çevirdi. Ancaq şair gələcək zamandan bu məhkumluq zəncirinin qırılmasını gözləyir.

Azəroğlun qorxutmadı nə sürgün, nə dar,
Baxışlarda qəzəb vardır, ürəklərdə kin.
Xiyabandan qorxa-qorxa keçir ağalar,
Onlar bilir bu ellərin ürəyindəkin.
Onlar bilir azərilər dözməz heç zaman,
Bu məhkumluq zəncirini qırar bir səhər.

(Yalta, 1950).

Ədəbiyyat:

1. Balaş Azəroğlu. Seçilmiş əsərləri. Bakı, 2004
2. Mədinə Gülgün. Seçilmiş əsərləri. Bakı, 2004
3. Ə.Rəhimli. S.C.Pişəvəri. Bakı, 2009
4. "Respublika" qəzeti. 11 may 2011-ci il
5. Sabir Əmirov. Azəroğlu. Bakı,
6. Cəfər Xəndan. Seçilmiş əsərləri, II cild. Bakı, 2010

Сакиба Алескерова

Народный поэт Б.Азероглы и движение «21 Азер»

Резюме

Б.Азероглы поэт, который любит свою родину превыше всего ценит целостность своей родины. Прошедший тяжёлый путь поэт революции, оставил после себя 40 томов своих произведений. Всю жизнь он жил мечтой увидеть мост через Араз. Имея сильное чувство революционный борьбы, поэт не терял надежды в каждой написанной книге. Он был самоотверженным борцом в национально-демократическом движении.

Sakiba Alasgarova

National poet Balash Azeroglu and the "21 Azar" movement

Summary

Balash Azeroglu is a poet who loves his motherland, and keeps integrity of his motherland highly. He had very hard life. Revolutionary poet has more than 40 volumes works. He always wanted to be a bridge on Aras. His struggle determination was very high and he always hoped new spring. He is one of the patriots of National Democratic movement.

Rəyçi: Sabir Əmirov (Nəbioğlu)
filologiya elmləri doktoru, professor

Fil. f. d. ŞƏRƏF CƏLİLLİ

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ (ÜMUMTÜRK KONTEKSTİNDƏ)

Açar sözlər: Heydər Əliyev, milli-mənəvi dəyərlər, adət-ənənə, müasirlik
Key words: Heydar Aliyev, national-spiritual values, tradition, modernity.
Ключевые слова: Гейдар Алиев, национально-моральные ценности, традиция, современность.

Yeni nəfəsin sorağında olan Azərbaycan dərdin ağrısına, əzabına qatlaşa-qatlaşa çox bəlalara sinə gərib, özü sözünə, sözü səsinə söykək olub yaşad. Gələcək illərin, əsrlərin qovşağında səsi dünyanın dörd bir yanından eşidilsin deyə. Min illərin yaddaşından süzülüb gələn əski tarixini, milli dövlətçilik ruhunu və bu parlaq Dünəni sabahlara miras qoyan qürur, şərəf, ləyaqət simvolumuz olan, and, iman yerinə çevrilmiş şəxsiyyətlərin əbədiyaşar hisslərini hər zaman var etmək naminə əsarət zəncirini boynuna deyil, biləyinə doladı, vaxtı çatanda, zamanı yetişəndə qırıb, qoparıb atmaq üçün. Paralandıqca, parçalandıqca inanırdı onu bütövlüyə, birliyə, qurtuluşa aparacaq, azadlığa çıxaracaq şəxsiyyətin gəlişinə. Günlər ayları, aylar illəri əvəzlədikcə, zaman da həsrətin alovunda bu böyük Gəlişin məqamına çökmüşdü. Həmin uduq məqam isə 1969-cu ilin adına bağlandı. Çökmüş dövləti yenidən dirçəltmək, duyğuları, hissləri buxovlanmış milləti azadlıq ruhuna tapındırmaq naminə Lider artıq doğulmuşdu.

Onun doğuluşu ilə türk dünyası ya bütövlüyünə qovuşub Günəşə dönəcəkdi, ya da Ay para olaraq əriyəcəkdi. Mirzə Fətəli Axundzadənin, Mirzə Kazım bəyin, Abbasqulu ağa Bakıxanovun, Həsən bəy Zərdabinin, Şeyx Cəmaləddin Əfqaninin, Əli bəy Hüseynzadənin, Səttar xanın, hətta Atatürkün belə intizarında olduğu bu ulduz çox sonralar öz nurunu bütün türk dünyasına-Altaylardan Anadoluya, Türküstandan Kərkük ellərinə saçacaqdı.

Onun gəlişi məqamında belə, yurdu 1937-ci ilin repressiya xofunun, 1941-45-ci illər müharibəsinin acılarının, itkilərinin, sarsıntılarının ağrısını içində yaşadırdı.

Osmanlı Türkiyəsi məhv olmaq təhlükəsi ilə üz-üzə dayananda Çanaqqala qəhrəmanı Mustafa Kamal Paşa hərbini siyasətə dəyişərək Anadoluya gəldi. Anadolu türklərinin dəstəyi ilə Millət Məclisinin özülünü qoyaraq Sakarya döyüşünə yollanıb, general rütbəsini, sonra isə Atatürk ünvanını qazandı. Memarlığı hərbi-siyasi fəaliyyətə dəyişən Heydər Əlirza oğlu da Moskvadan Bakıya dönərkən hərbi fəaliyyətini siyasi fəaliyyətə dəyişdi. (6, səh. 27)

Bu böyük şəxsiyyətin müəllifliyi ilə 1978-ci ildə doğulan Ana Yasamız – Konstitusiyamız güclü bir imperiyanın içərisində müstəqil dövlətin varlığından xəbər verirdi. Heydər Əliyev Şah İsmayıl Xətaidən sonra dövlətçilik tariximizdə yeganə dövlət başçısı idi ki, Azərbaycan dilini dövlət dili səviyyəsində qanuniləşdirərək dövlət atributuna çevirdi. (8, səh. 252)

Xalqın soykökə qayıdışına, özünüdərkinə xidmət etmiş dahi şəxsiyyətlərin, sənət-söz adamlarının bu illər ərzində keçirilən yubileyləri, anma mərasimləri, Nəriman Nərimanovun, Üzeyir Hacıbəyovun, Bülbülün, Niyazinin, Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Səməd Vurğunun, Məmməd Səid

Ordubadinin ev muzeylərinin yaradılması, Nizaminin, Nəsiminin, Füzulinin, Mirzə Fətəli Axundzadənin, Sabirin, Mikayıl Müşviqin, Vaqifin, Vidadinin, Natəvanın və adlarını sadalamadığımız şərqin və türk dünyasının ünlü simalarının heykəllərə çevrilib cəmiyyətə qaytarılması Heydər Əliyevin millət, məmləkət naminə ömrünü əridən insanlara ehtiramı, daş yaddaşımıza sevgisi idi. Üzünü türk dünyasına tutub:

Turana qılıncdan daha kəskin ulu qüvvət

Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.

-deyə hayqıran və son ana qədər insanın içindəki iblislə mübarizə aparan Cavid Əfəndinin nəşinin Sibir çöllüklərindən vətənə gətirilməsi Heydər Əliyev siyasətinin yeni bir uğurlu qatıdır. Hüseyn Cavidin ruhunu deyil, cismini çökdürən rus imperiyasını qılıncla yox, sözlə, siyasətlə susduran Heydər Əlirza oğlu həmin günlərdə üç böyük addımı ilə də düşməninə qalib gəlmişdi.

Ümumbəşəri dəyərlərə söykənən yeni quruluşa daxil olmaq əslində xalqın yaddaşa, milli köklərə, adət-ənənələrə qayıdışı demək idi. İmperiya buxovlarından azad olaraq öz əxlaqi dəyərlərinə can atan millət onu ayağa qaldıracaq məfkurə ətrafında birləşməli idi. Əli bəy Hüseynzadə ruhundan cücərmiş "Türkləşmək, islamlaşmaq, müasirləşmək" duyğusu 1918-ci il mayın 28-də Xalq Cümhuriyyəti elan olunarkən onun atributlarından birində -dövlət bayrağında öz əksini tapmışdı. Şura hökumətinin gəlişi ilə çökdürülən bu məfkurə 70-80-ci illərdə Heydər Əliyevin hakimiyyəti dövründə ədəbiyyatda, incəsənət və mədəniyyət nümunələrində yaddaşlara qaytarılmışdı. Məhz həmin illərdə bu ideya milli ruhun aynası kimi qorunmuşdu. Heydər Əliyevin qayıdışı "Şərqin mümtaz siması" adlanan Şeyx Cəmaləddin Əfqaninin "Milli–dini birlik" "ideyası"nı yenidən canlandırdı. Azərbaycanda vicdan azadlığına, plüralizmə söykənən, demokratik dəyərlərə arxalanan cəmiyyət qurmaq naminə çoxsaylı islahatlar keçirilməyə başlanıldı. (7, səh. 348)

Millətin Xilaskarı soydaşlarına yaşamaq eşqi ilə yanaşı, dözüm vərdişləri də aşıladı. "Biz hamımız respublikamızın və müstəqil Azərbaycanın çox gərgin dövrünü yaşayırıq. Azərbaycanda yeni dövlət qurulub, yeni iqtisadiyyat yaranır, yeni iqtisadi münasibətlər yaranır, islahatlar həyata keçirilir, yeni qanunlar qəbul edilir, yeni işlər görülür. Bilirsiniz, bu dövrdə yaşamaq həm çətindir, həm də şərəflidir. Çətindir ona görə ki, hamımız ağır vəziyyətdə yaşayırıq. Ağır bir dövr keçiririk. Amma şərəflidir ona görə ki, biz müstəqil Azərbaycanın gələcəyinin əsasını yaradırıq, təməlini qoyuruq". (8, səh. 194)

Qüdrətli siyasi təcrübəyə, dövlət quruculuğu prinsipinə, böyük təşkilatçılıq imkanlarına malik olan Heydər Əliyev gərgin quruculuq illərini arxada qoyduqca, keçid dövrünün və dözüm dövrünün uğur dövrünə qovuşduğuna inandıqca "müstəqilliyimiz daimidir, əbədidir" dedi (2, səh. 17)/ "Ağıl olan yerdə zora ehtiyac yoxdur!" Heydər Əliyevin böyük türk xaqanları kimi müdrikliklə söylədiyi bu kəlam dünyanı ağlın gücü ilə fəth edən bir dövlət başçısının, ona arxalanan xalqın haqqa inamını, həqiqətə etibarını özündə əks etdirir. Fəaliyyətinin bütün dövrlərində xalqının hüquq və bərabərliyini əsas götürən, onun şəxsiyyətinin və ləyaqətinin qorunmasına çalışan Heydər Əliyev demokratik cəmiyyət quruculuğu ilə bağlı addımlarında böyük Atatürkün, Türkiyə Cümhuriyyətinin qurucusunun arzularını həm də Azərbaycanda gerçəkləşdirmişdir: "Allah məni Türkiyəni bəladan qurtarmağa məmur etdi"- deyən Atatürk öz inqilabları ilə modern Türkiyəni qurdu. 1993-cü ildə

ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev də bu amalla Yeni Azərbaycanı qurmağa gəlmişdi.

Müstəqilliyin ilk illəri Azərbaycan üçün çətin keçsə də, sonralar türk cümhuriyyətləri ilə, xüsusən də Türkiyə ilə əl-ələ verərək, müxtəlif iqtisadi, siyasi, mədəni qurumlarda birləşərək öz gücünü dünya dövlətlərinə sübut etdi. Türk dövlət başçılarının zirvə görüşlərinin, Türksoyun, Türk Yazarlar Birliyinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İpək Yolu layihəsinin bərpasının uğurlu özülü bu illərdə qoyuldu. (5, səh. 386)

"Manas"a tapınmaqla, qopuza, tambura, ırçı yaddaşına, Oğuz xaqana, Bilgə xaqana dönmək istəyirdilər. Türküstanın boş, qumsal səhralarını, qırgəzlərini yovşan ətrinə, at kişnərtisinə qərq edən türklərin tarix səhnəsində yenidən göründüyünü söyləyirdilər. Abayın poeziyasına tapınanlar türkün böyük məfkurə sahibinin maarifçilik nuruna qərq olanda İbn Sinalardan, Əlişir Nəvailərdən, Xoca Əhməd Yəsəvilərdən keçib gəldiklərini sübut edirdilər. Bu möhtəşəm tədbirlərin hər birində məhəbbətlə iştirak edən Heydər Əliyev ömrünün Moskvalı günlərində Türküstan türkləri, dövlətləri üçün etdiklərini, Kunanbayevə, Rəşidova, Nazarbayevə münasibətlərini düşündükcə ölməz türk ruhuna dualar yağdırırdı. Çünki o günlərdə türklüyün yolunda atdığı hər bir addımda Heydər Əliyevə böyük türk ruhu yardımçı olurdu. (3, səh. 36)

Özündən cavan dövlət başçılarına ağsaqqallıq edən Heydər Əliyev onların qayğı və problemləri ilə maraqlanmağı da özünə borc bilirdi. Heydər Əliyevi təkcə Azərbaycanda deyil, Türküstanın digər yörələrində sevdirən də onun bu müdrik addımları, ancaq ona məxsus siyasi gedişləri idi. Onun bu qüdrətini qiymətləndirən böyük qırğız yazıçısı Çingiz Aytmatov haqlı olaraq belə bir fikir söyləmişdi: "Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir Avrasiyanın yeni tarixinin bu günki qurucularından biridir" (4, səh. 51)

Bu fikirlərini Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 1993-cü ildə keçirilən 2-ci görüşünün iştirakçılarına ünvanladığı müraciətdə də səmimiyyətlə dilə gətirmişdir: "İqtisadi əməkdaşlıq təşkilatı ölkələrinin Türkiyənin, İranın, Pakistanın, Əfqanstanın, Qazaxstanın, Özbəkstanın, Türkmənstanın, Qırğızstanın, Tacikstanın, Azərbaycanın istifadə olunmamış təbii sərvətləri, materialları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir".

Azərbaycan prezidentinin türk dünyasına, Türkiyə Cümhuriyyətinə olan xüsusi məhəbbəti Atatürk Elmi Araşdırmalar Mərkəzinin yaradılması ilə nəticələndi.

Füzulinin 500 illik yubiley mərasimləri ilə üst-üstə düşən digər iki tədbir də böyük əhəmiyyətə malik idi. Bakıya toplaşan müstəqil Türk Cümhuriyyətlərinin rəsmi dövlət nümayəndələri, eləcə də tanınmış elm, mədəniyyət xadimləri, Türk Dünyası Yazarlarının III qurultayının və Türksoyun VIII toplantısının iştirakçıları olmaqla, türklüyün taleyində başlanan yeni Heydər Əliyev mərhələsinin şahidlərinə çevrildilər. 1926-cı ildə Bakıda keçirilən Türkoloji qurultaydan sonra ilk dəfə idi ki, türkün böyük məfkurə sahiblərinin davamçıları bir yerə toplaşırdı. Türkiyədən, Türküstan ellərindən, Xakasyadan, Tuvadan, Qaqauz yurdlarından, İngiltərədən, Fransadan, Rusiyadan, Almaniyadan, İsveçrədən gəlmiş türk cəmiyyətlərini təmsil edən

yazarların III qurultayda qəbul etdikləri qətnamə və qərarlar türk yazarlarını ortaq ədəbiyyat, ortaq danışıq, ünsiyyət dili ideyası ətrafında birliyə çağırdı.

Heydər Əliyevin YUNESKO-ya növbəti müraciəti türkün mənəvi dəyərlərini özündə yaşadan "Kitabi-Dədə Qorqud" dastanının bu ali qurum səviyyəsində tanınması ilə bağlı oldu. 1999-cu ilin fevralında dastanın 1300 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında ölkə başçısı sərəncam imzaladı. Qorqud Ata ruhu, Qorqud Ata qüdrəti ilə xalqın yaddaşına yazılan Heydər Əliyev bununla da Vatikandan, Drezdendən Azərbaycana, boy aldığı torpağa nisgillə boylanan abidənin ömrünə ömür qatdı. Türk dövlət başçılarının zirvə toplantısının Bakıda keçirildiyi ərəfədə başa çatan yubiley mərasimləri türk dünyasını yenidən Bayat boyundan Peyğəmbər zamanında qopan Qorqut işığına, "Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya" nidası ilə üzünü İç Oğuza, Dış Oğuza tutub "Qaba Ağacınız kəsilməsin", "Adını mən qoydum, baxtını Tanrı versin" -deyib şaman dualarına, qopuzuna söykənən, onun çanağından Tanrının ad verdiyi millətə-türkə sevgi cücərdən Ulu Türkün işığına tapındırdı. O işığı əski minilliklərin o başından bu başına yenidən türklüyün içinə qaytaran da Heydər Əlirza oğlu idi.

2000-ci il iyunun 13-də Xoca Nəsirəddin Tusinin 800 illik yubileyi münasibətilə fərman imzalayan prezident, eyni zamanda bu yubileyin dünya səviyyəsində qeyd olunması üçün YUNESKO-ya da müraciət etdi. Bu, Marağa Rəsədxanasına 25 il rəhbərlik edən, zamanın haqsız insanları üzündən 20 il Əlamut qalasında, göz altında saxlanan, qəbir daşına "Millətin köməkçisi, elm ölkəsinin şahı, dövr anası hələ belə oğul doğmamışdır"- kəlamları yazılan Nəsirəddin Tusiyə türkün böyük ehtiramı idi.

Metenin, Atillanın, Çingiz xanın məzarlarının mübhəmliyindən, möcüzəyə çevrilməsindən, ünvanı bəlli olanlara isə toxunduqda dünyanın siyasi mənzərəsinin dəyişməsindən, tufanların, fəlakətlərin, baş verməsindən, müharibələrin tüğyan etməsindən danışılır. Misir ehramlarına, Teymurlu xanədanına, xüsusən də, Əmir Teymurun məqbərəsinə toxunanda dünyanı dəhşətlərin bürüdüyü barədə çoxlu sayda faktlar mövcuddur. Fəxri xiyabanda, Azərbaycanın, Şərqin və Türk dünyasının müqəddəs ziyarətgahlarından birinə çevrilən Heydər Əlirza oğlunu indi hər gün ziyarətə gəlirlər. Milyonlarla insanlar Tanrının torpaq, daş ucalığından, həm də ziyarətgahların xeyir-duasından keçib haqqa doğru yol gedirlər.

Nəticə:

Adətən, tarix şəxsiyyətləri yetirir. Bütün zamanlarda tək-tək şəxsiyyətlər olub ki, onlar tarixi yaradıblar. Mübaliğəsiz deyə bilərik: onlardan biri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Bu dahi şəxsiyyət əzəmətli, bənzərsiz və təkrarsız insan idi. O tarix yaradırdı. Çünki, o, özü tarixin canlı bir salnaməsi, daha doğrusu tarixin özü idi. Azərbaycan tarixinin uzun və şərəfli bir dövrü onun adı ilə bağlıdır. Bu adın sahibi ilə hər bir azərbaycanlı, hər bir türk qürur duyur. Millətini şərəf, ləyaqət, məmləkətinin cəsarət nümunəsi olan bu qüdrətli şəxsiyyətlə əlində Quran, ruhunda Turan olan hər bir müsəlman da qürur duyur. Dünyanı Odlar Yurdunun oduna, işığına tapındırdığı kimi, Tanrının ona bəxş etdiyi ömür payını da millətinin, məmləkətinin eşqinə şama çevirdi. Bu onun əzəmətindəki sadəliyi, Vətən, Torpaq sevgisi, bir də bu sevgidən köynəyi biçilən xoş xatirələri, Bütöv Azərbaycan naminə cismindən və ruhundan qida verdiyi Yazısı idi!

Elmi yenilik:

Ruhumuzun aynası olan və bütün türk dünyasını çevrələyən milli-mənəvi dəyərlərimizin bu müqəddəs dəyərlərə hər zaman sədaqətdə və xidmətdə bulunan Heydər Əliyevin fəaliyyətində yenidən canlandırılması ilk dəfə bu yazıda araşdırılmışdır. Müasir cəmiyyətin formalaşmasında ideologiji müstəvidə milli-mənəvi dəyərlərin milli dövlət üçün zəruriliyi elmi-nəzəri aspekdə tədqiqata cəlb edilmişdir.

Tətbiqi əhəmiyyəti:

Məqalədən ümummilli lider Heydər Əliyevin zəngin həyat yolunu öyrənən, ictimai-siyasi fəaliyyəti ilə məşğul olan mütəxəssislər, ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr, türk xalqlarının müasir tarixini, ictimai-siyasi həyatını, mədəniyyətini və ədəbiyyatını araşdıran tədqiqatçılar istifadə edə bilərlər. Təqdim olunan məqalədən Azərbaycan ədəbiyyatı və mədəniyyət tarixinə dair dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

Ədəbiyyat:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, c. I-X, Bakı, Azərnəşr, 1997-2004
2. Heydər Əliyev. Müstəqillik yolu: seçilmiş fikirlər, Bakı, 1997
3. Heydər Əliyev beynəlxalq aləmdə. Bakı, 2002
4. Heydər Əliyev dünyanın gözü ilə. Bakı, 2003
5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici syasəti, Bakı, 2005
6. İrfan Ulgü. Qızıl ulduzdan hilala doğru, Bakı, 1994
7. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası, Bakı, 2000
8. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik, Bakı, 2003

Sharaf Jalilli

Heydar Aliyev and the national-spiritual values
(In the Turkish context)
Resume

In the scientific research on “Heydar Aliyev and the national-spiritual values” we’ve analyzed the protection principles of the the national-spiritual values in the statehood philosophy of Heydar Aliyev in the Turkish point of view and have tried to investigate the depths of this rich heritage. There wasn’t such a period in Heydar Aliyev `s rich and meaningful life when he’s not taken into account the tradition of the people and the capacity and power of the people’s memory that can play great role in state progress. The proof of it are: national human resource development, the protection of the moral and ethical values, actualization of the Turkish genetic codes in the different rituals and ceremonies and finally the combination of all of these in the perfect statehood concept.

Шараф Джалилли

Гейдар Алиев и национально-моральные ценности
(в общетюркском контексте)
Резюме

В научно-исследовательской работе по теме Гейдар Алиев и национально-моральные ценности было проанализировано сохранение в общетюркском контексте национально-моральных ценностей в национальной государственной философии Гейдара Алиева. Подготовка национальных кадров, сохранение культурных ценностей, актуализация тюркских генетических кодов на различных мероприятиях и их соединение в совершенную концепцию государственности являются ярким свидетельством сказанному.

Rəyçi: Almaz ÜLVİ
filologiya elmləri doktoru

Др.фил. доц.**А.Ф.ГАХРАМАНОВА**
Бакинский Славянский Университет

АНГЛИЙСКАЯ ЛИТЕРАТУРА КАК ЗЕРКАЛО АНГЛИЙСКОГО МЕНТАЛИТЕТА

Açar sözlər: bədii ədəbiyyat, sivilizasiya, mentalitet, realizm, enerji
Ключевые слова: художественная литература, цивилизация, менталитет, реализм, энергия
Key words: fiction, civilization, mentality, realism, energy

Художественная литература представляет собой один из фундаментальных способов постижения мира человеком. Если *национальный менталитет* не просто красивое словосочетание, а реальное, имеющее за собой какие-то существенные понятия, то его особенности так или иначе должны отражаться в художественной литературе. Феномен художественной литературы *странен* сам по себе. Филогенетическое осмысление данного явления не позволяет однозначно квалифицировать его как эпистемологическое или эстетическое. Именно поэтому исследователи определяют самые разные качественные характеристики литературы, отмечая, что она имеет познавательное, воспитательное и эстетическое значение. Слово *странен* о феномене художественной литературы мы использовали не случайно. В литературоведении, как известно, существует термин *остранение*, введенный формалистами. В «Литературной энциклопедии терминов и понятий» указывается: «ОСТРАНЕНИЕ, остраннение (от слова «странно») – понятие, введенное в теорию литературы русским прозаиком и литературоведом 20 в., представителем русской формальной школы В.Б.Шкловским (1893-1984), означает художественный прием описания любого явления как впервые увиденного» (3, 704).

В свете остранения, воспринимаемого не как отдельный прием, а как сущность художественной литературы, этот род искусства вполне может расцениваться как род рефлексии или рефлексирующего мышления. Мир, созданный художником слова, базируется на бесконечности жизни, однако его творческая фантазия трансформирует эту бесконечность жизни в соответствии с собственным видением. Образы, созданные писателем, также имеют прототипы в действительности, но как порождение творческой фантазии, или творческого мышления, они могут быть значительно более точными, адекватными отображениями действительности, чем мертвые слепки. Возможно, именно такое положение вещей отражает ходячая фраза о том, что чувствовать и знать могут все, многие, если не все, но выразить – только гении. Видимо, вследствие такого художественно-образного изображения дейсТВительности художнику удается передать характерное, не случайное, а важное, существенное. Здесь можно сослаться и на Л.Шестова, рассуждающего о характере познания человеком мира: «Еще Парменид говорил: Одно и то же мышление (мыслить) и бытие (быть). И Плотин повторяет за ним: Правильно, стало быть, сказано: «Одно и то же мышление (мыслить) и бытие (быть)». Здесь νοείν не значит то, что у Декарта его cogitare. Декарт пояснял, что «Под

"Molla Nəsrəddin" jurnalının naşiri və redaktoru Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirlə sıx yaradıcılıq ünsiyyəti qurmuş Əli Nəzmi bir sıra əsərlərini məhz elə Sabirə cavab olaraq yazmışdı.

Sabir şeir məktəbinin istedadlı nümayəndələrindən biri olan Əli Nəzmi satira yoluna doğru yönəlməsini xeyli dərəcədə içərisində yaşadığı mühitlə, dövrlə əlaqələndirmiş, bunu "Gülməli məzmun" adlı şeirində özünə xas bir tərzdə ifadə etmişdi:

Mən bir güləgən adəmiyəm, bax, bu mühitin,
Sən gülmə, düşün, canına diqqətlə nigah et!
Sən baisisən gülməyimin öz əməlinlə,
Bir güzgü alıb bax da, pəzirayi-güvah et!
Gülməzdim əgər mən də gülünc olmasa idin;
Anla səbəbin, sonra məni xakeyi-rah et! [7]

Bununla mollanəsrəddinçi sənətkar ifşa obyektinə amansız zərbələr vurur, öz yaradıcılığında satirik boyaların tündləşməsinin əsas amillərindən birinin məhz mövcud mühitin doğurduğu ictimai bəlalar olduğunu nəzərə çatdırırdı.

Əli Nəzminin satiraları illər boyu iztirabların, ağrıların məngənəsində sıxılan millətin düçür olduğu faciələri bədii sözün imkanları daxilində oxucuya çatdıran sənətkarın şair-vətəndaş hayqırtısıdır, haqq bağıran gur səsidir. Digər tərəfdən isə həmin ədəbi nümunələr Əli Nəzminin mənsub olduğu xalq üçün önəm daşıyan böyük həqiqətləri əks etdirir. Hətta, şeirlərindən birində "Könlümdə yox ki, möhnəti-millətdən özgə dərd" söyləyən şair bütünlüklə qəlbini çulğalamış narahatlığın əsl səbəbini ürək ağrısı ilə bəyan etmişdi. Bu hal şairin satiralarında tənqid və ifşaya bir kədər motivi də əlavə edirdi. Təsadüfi deyil ki, professor Alxan Bayramoğlu satira-

larla bərabər, xeyli sayda publisistik məqalə və felyetonların müəllifi olan Əli Nəzminin yaradıcılığının həmin qismə aid nümunələrini hərtərəfli xarakterizə edərək göstərirdi ki, "Sabirin felyetonlarında kəskin satirik ruh hakim olduğu halda, Əli Nəzmi felyetonlarında tənqidlə yanaşı, lirizm də qabarıq nəzərə çarpır" [1, 130]. Bu cəhətin Ə. Nəzminin əsərlərində ilk növbədə orijinallığı təmin edən ən mühüm vasitələrdən biri olduğu şəksizdir.

Əli Nəzminin ideya-məzmun xüsusiyyətlərinə görə nəzəri cəlb edən "Məsləhət" satirasında [11] mənfi tipin öz dili ilə ifşasına məharətlə nail olunmuşdur. Satirada oxuyuruq:

Molla, sənə eyləyirəm məsləhət,
Söylə görüm evlənim, evlənməyim?
Altmışı sinnim eləyibdir güzəşt,
Bir qız alıb evlənim, evlənməyim? [11]

"Molla Nəsrəddin" jurnalının növbəti nömrəsində Əli Nəzminin "Məsləhət" şeirinə onun gəncəli məsləkdaşı, istedadlı şair Əli Razi belə cavab yazmışdı:

Sijimqulu, eyləmisən məsləhət,
Utanma heç, gəl səni evləndirim.
Eyləmişəm istixarə, yaxşıdır,
Beş-on günə gəl səni evləndirim [12].

Bunun ardınca jurnalda ("Molla Nəsrəddin"də) Əli Nəzminin "Məsləhət" satirasına cavab olaraq böyük Sabirin də yazdığı eyniadlı şeiri dərc olunmuşdur:

Ağrın alım Məşhədi Sijimqulu,
Altmışa yetdin, demə oldum ulu.
Şükr ola allaha canındır sulu,
Çox da kişi tutma beşəlli pulu.
Ver pulunu dadlı, ləzzətli zad al,
Qoy babalın boynuma get arvad al [13].

Əli Nəzminin qadın hüquqsuzluğuna, o dövrdə qoca kişilərin azyaşlı qızlarla evlənməsi kimi çirkin niyyətlərə qarşı yönəlmiş "Məsləhət" satirasının bədii məziyyətləri dəfələrlə hərtərəfli tədqiqə cəlb olunmuş, onun geniş təhlili aparılmışdır. Məsələn, yeri gəldikcə M.Ə.Sabirin də öz həmməsləklərinin səsinə səs verib onların əsərlərinə cavab satiralar yazmaqla mövqelərini müdafiə edib daha da qüvvətləndirməsi haqda danışarkən Məmməd Məmmədov yazmışdır ki, "eyni mövzuya həsr olunmuş bir çox başqa əsərlərə nisbətən "Məsləhət" şeirinin müvəffəqiyyətini və ədəbi-ictimai təsir dairəsinin genişliyini təmin edən başlıca cəhət budur ki, şair (M.Ə.Sabir – S.N.) qələm yoldaşları tərəfindən işlənmiş bədii təsvir və ifadə üsullarından qaçmış, izlədiyi qayəni qabarıq surətdə əks etdirən çox maraqlı və yığcam bir süjet qurmuş, münasib satirik üsula əl atmışdır" [4, 122]. Bu cür hallar həm də ona görə diqqətə layiqdir ki, Gəncə ədəbi mühitinin nümayəndələrinin qaldırdıqları məsələlər, onların qələm aldıqları yeni mövzular jurnalın digər aparıcı müəllifləri tərəfindən təqdir və müdafiə edilmiş, daha da genişləndirilmişdir.

"Molla Nəsrəddin" ədəbi və Sabir poeziya məktəbinin genişlənərək inkişafında Gəncə ədəbi mühitindən olan Əli Nəzmi yaradıcılığının müstəsna rolu danılmazdır və əhatə dairəsi barədə də zəngin təəssüratlar yaradır. Elə yaradıcılıq potensialının bu cür genişliyinin nəticəsidir ki, satirik şeirdə böyük Sabirin ənənələrini yaşatmış, çəkinmədən davam və inkişaf etdirmiş "Əli Nəzminin şeirlərində ədəbi

məktəbin (Sabir ədəbi məktəbinin – S.N.) ideya və poetik sərhədlərini genişləndirməyə ciddi bir meyil duyulurdu. O, şeiri inqilabi dövrün ən vacib məsələlərinə və mətləblərinə yaxınlaşdırırdı. Məhz buna görə onun poeziyasının ictimai gerçəkliyi, bədii əhatə dairəsi geniş idi. Sabirdən sonra inqilabi-satirik poeziya məktəbinin parlaq siması məhz Əli Nəzmi idi" [5, 47].

"Molla Nəsrəddin" ədəbi cəbhəsinin və M.Ə.Sabir poeziya məktəbinin formalaşaraq yeni-yeni ideya, mövzu və sənətkarlıq keyfiyyətləri ilə zənginləşməsində Əli Nəzmi, Əli Razi Şamçızadə, Mirzə Məhəmməd Axundov və digər gəncəli müəlliflər öz əsərləri misilsiz xidmətlər göstərmişlər; jurnalda mənsur felyeton janrının, cavab satiraların, tapmaca və tapmaca-cavab şəklində satirik şeir formalarının, açıq məktub, müraciət üslublu şeirlərin meydana çıxması, Ana dilinin saflığı uğrunda mübarizənin daim aktual bir mövzu olaraq saxlanıb inkişaf etdirilməsində, Mirzə Cəlilin felyeton, Mirzə Ələkbər Sabirin inqilabi satira ənənələrinin inkişaf etdirilib forma, mövzu və ideya-estetik cəhətdən zənginləşməsində və s. Əli Nəzmi öz yaradıcılıq fəaliyyəti ilə müstəsna rol oynamışdır.

Jurnalın Gəncə ədəbi mühitindən olan nümayəndələri – Ə.Nəzmi, Ə.-R.Şamçızadə, M.M.Axundov, "Uşaqlar" və digər satirik gizli imzalarla çıxış edən müəlliflər öz fəaliyyətləri ilə mollanəsrəddinçiliyin, M.Ə.Sabir poeziya ənənələrinin yeni-yeni mövzu, forma və ideya-estetik yaradıcılıq keyfiyyətləri ilə zənginləşib ədəbi məktəb səviyyəsinə çatmasında xüsusi rol oynamışlar.

Ədəbiyyat:

1. Bayramoğlu A. Əli Nəzmi yaradıcılığı haqqında // Ədəbiyyat məcmuəsi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri. XXI cild, Bakı: Ozan, 2008, səh. 103-131
2. Bayramoğlu A. Mollanəsrəddinçi Mirzə Məhəmməd Axundov // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2009, № 3-4, səh. 17-23
3. Məmmədquluzadə C. Əsərləri. Tərtib edəni və izahların müəllifi: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli. Dörd cilddə, IV cild. Bakı: Öndər nəşriyyat, 2004, 472 səh.
4. Məmmədov M. M.Ə.Sabir: mübahisələr, həqiqətlər. Bakı: Yazıçı, 1990, 280 səh.
5. Novruzov T. Sabir ədəbi məktəbi. Bakı: Yazıçı, 1992, 216 səh.
6. Razi Ə. Yadımda qalanlar. "Kirovabad bolşeviki" qəz., 1936, № 172, 25 iyul
7. "Tuti" jurnalı. 1917, № 7
8. "Molla Nəsrəddin" jurnalı. 14 aprel 1907, № 15
9. "Molla Nəsrəddin" jurnalı. 5 avqust 1907, № 29
10. "Molla Nəsrəddin" jurnalı. 8 oktyabr 1907, № 38
11. "Molla Nəsrəddin" jurnalı. 23 mart 1908, № 12
12. "Molla Nəsrəddin" jurnalı. 30 mart 1908, № 13
13. "Molla Nəsrəddin" jurnalı. 6 aprel 1908, № 14
14. "Molla Nəsrəddin" jurnalı. 15 noyabr 1909, № 46
15. "Molla Nəsrəddin" jurnalı. 11 iyul 1910, № 27
16. "Molla Nəsrəddin" jurnalı. 18 iyul 1910, № 28

17. “Molla Nəsrəddin” jurnalı. 8 avqust 1910, № 31
18. “Molla Nəsrəddin” jurnalı. 7 fevral 1911, № 6
19. “Molla Nəsrəddin” jurnalı. 16 mart 1911, № 11
20. “Molla Nəsrəddin” jurnalı. 27 avqust 1911, № 31

Саба Намазова

Сабир и поэты Гянджи
Резюме

В развитии поэтической школы «Молла Насреддин» и поэзии Сабира сделали большие усилия такие представители поэтической мысли Гянджи как Али Назми, Али Рази Шамчызаде, Мирзе Мухаммед Ахундов.

Творческие отношения Сабира с Али Назми развивалось от «Молла Насреддин»а и вплоть до его совершенствования как выдающегося личности.

Молланасреддинец Али Рази Шамчызаде создавая свои сатирические произведения под действием Сабира впервые выдвинул проблему равенства женщин.

Также в произведениях Мирзы Мухаммеда Ахундов чувствуется особенно влияние сатиры Сабира.

Saba Namazova

Sabir and poets of Ganja
Summary

In development of poetical schools of “Mulla Nasreddin” and Sabir have the great role of such poets of Ganja as Ali Nazmy, Ali Razy Shamchyzadeh, Mirze Muhammed Akhundov.

Literary relations between Sabir and Ali Nazmy begins from the “Mulla Nasreddin” till the development of his literary genius.

Mullanasreddins Ali Razy Shamchyzadeh also wrote his works with influence of literary creation of Sabir and the first time spoken about women rights.

In satirical poems of Mirze Muhammed Akhundov we can feel the literary influence of Sabir so more.

Rəyçi: Professor Alxan Bayramoğlu

AYGÜN RÜSTƏMOVA
BDU

TÜRKİYƏ MİLLİ AZADLIQ MÜBARİZƏSİ NƏSRİNDƏ ZIYALI –XALQ PROBLEMİ

Açar sözlər: Türkiyə milli azadlıq mübarizəsi, xiyalı xalq problemi, türk nəsri**.**
Keywords: Turkish prose, problem of intellectuals, period of National War
Ключевые слова: турецкая проза, проблема интеллигенции, период национально-освободительной войны

Türk ədəbiyyatinda Milli Azadlıq Mübarizəsi dövrünün ən qabarıq cəhətlərindən biri ziyalı-xalq probleminin ön plana çıxarılmasıdır. Bu problemin, bəlkə də, başlıca səbəbi həyat tərzinin müxtəlifliyindən qaynaqlanmışdır. O dönəmdə İstanbul aydınları şəhərin elit məkanı sayılan səmtlərində – Şişli və Beyoğlunda yaşayırdılar. Xalqın gün-güzəranından xəbərləri yoxdu.

"Beşlik altın kağıtlarla kapatmalarının yataklarını örterlermiş, çorba kaseleriyle sofralarında havyar yerler".

Milli Azadlıq Mübarizəsi nəsrinin nümayəndələrindən olan R.H. Karayın düşüncəsinə görə, köhnə İstanbul ilə yeni İstanbul arasında böyük fərqlər yaranmışdı. Yeni İstanbulda hər şeyin meyarı maddiyyat olmuşdur. İnsanlara verilən dəyər onların maddi durumu ilə bağlanmaqdadır. Bəlkə də müəllifdə bir nostalji hissi yaranmışdır, əskilərdə qalan İstanbul üçün üzülür, təəssüflənir. Uzun müddət nəhəng bir məmələkətin, səltənətin idarə mərkəzi olan İstanbul daha paytaxt rolunu ifa edə bilmir. Əyalətlər onu qəbul etməz duruma gəlmişdi. İstanbuldakılar zamanın nəbzini tutmaqda çətinlik çəkirlər, ətrafda baş verən dəyişiklikləri anlaya bilmirlər. Lüks həyata aşırı dərəcədə olan meyl onları tərəqqidən məhrum etmişdir. İstanbul əhalisi hələ də məhtab gəzintilərinin, gecə əyləncələrinin həsrətini çəkməkdədir. Bu səbəbdən də Ankara şəhəri yeni ruhlu insanların mərkəzinə çevrilir. Əsərdə yeni nəsil ilə köhnə nəsil qarşılaşdırılır:

"Az sene içinde ne kadar başkalaşmış, yaşayışımızda ne koca bir inkilap olmuştu. O, büsbütün garip, fakat doğrusu hoi bir alemdi. Türedilik içinde bir kibarlık vardı, böyle hercümerc olmuş bir nesil değildik, sınıf sınıf ayrılmış, hudutlarımızda tecavüzsüz yaşıyorduk[31]*".*

Bir qrup yazara görə, mədrəsə sistemi də insanların ruh halına təsir etmiş, onları millət deyil, ümmət ruhunda tərbiyə etmiş, nəticədə dini dəyərlər, milli dəyərlərin önünə keçmiş, insanların bəzi qruplarında passifistik düşüncə yaranmışdır. Bu hal özünü xüsusən də aristokratlar və aydınlar arasında yaygın idi. Bir tərəfdən də dini irticaya rəvac vermiş saxta ruhanilər ölkəni "yaşıl qaranlığa" sürükləməkdə israrlı idilər. Milli Azadlıq Mübarizəsinin ölüm-dirim savaşında yaranmış bu ağır sosial, iqtisadi, gərbi, siyasi durumun vahiməli mənzərəsini R.Nurinin "Yeşil gece" əsərində tam təfərrüatı ilə görə bilirik:

"Medreselerin yeşil gecesi yalnız kendi içlerini karanlığa boğmakla kalmamış, memleketin hər yanına yayılmış, her köşesini kaplamış. Zaten bunun

[31] R.Halit, Memleket Hikayeleri, Ankara, 1997, s.106

başka türlü olmasına da imkan yoktu. Akıllara, vicdanlara şimdiye kadar hep bu medreseden yetişenler rehberlik ediyorlardı. Bu adamlar, memlekete karanlıktan gayri ne götürebilirlerdi ki[32]?"

R. Nuriyə görə, ölkənin bu cür acınacaqlı vəziyyətə gəlməsində əsas bais olaraq sultanı görür. İnsanların dini duyğularını, hisslərini amansızca istismar edən ruhanilər də sultana mənfi təsir göstərmişlər. Bu tipli ruhanilər, ədəbiyyatda "yobaz", "softa" adlanırlar. Şəxsi mənafelərini hər şeydən üstün tutan yobazlar hətta yerli xalqı əcnəbi işğalı ilə barışmağa dəvət etmişlər. Əlbəttə ki, bütün dindarlara və ruhani təmsilçilərinə "yobaz" damğası vurmaq ədalətsizlik və haqsızlıq olardı. Rəşad Nurinin əsərlərində bu suala birmənalı cavab tapmamaq mümkünsüzdür:

"Sadece, bizi bu hale koyanlar, başka tabirle, Yunan'ı Anadolu'nun göbeğine getirenler padişahlarla softalardır diyeceğim[33]".

Rəşad Nuri tərəddüd etmir, bütün ruhani xadimlərini acımasız bir şəkildə irticaçı qüvvələr siyahısına daxil edir. Bizcə, belə münasibət qeyri-obyektiv xarakter daşıyır. Hər ruhani xadim fərd olaraq fərqli keyfiyyətlərə və düşüncəyə malikdir. Onların içərisində, əlbəttə ki, fürsət arayanlar, varlanmaq istəyənlər, ancaq özünü və ailəsini düşünənlər vardı. Fəqət, vətənini, millətini sevənlər də az deyildi. Bu mənada bütün dindarları tərəzinin eyni gözünə qoymaq haqsızlıqdı. R.Nuri "məşrutiyyətçi" adlandırılan insanları da tənqid etmişdir. Məşrutiyyətçilər, konstitusiyalı monarxiya yaratmaq istəyən mihafizəkar düşüncəli insanlara deyilirdi. Onların rəyinə görə, sultanın səlahiyyətlərinin bir qismi parlamentə verilməli idi. Sultanın imzaladığı fərmanlar ancaq parlamentdə təsdiqləndikdən sonra qüvvəyə minə bilərdi. Məşrutiyyətçilər Osmanlı xanədanlığının saxlanmasının tərəfdarları idilər. Başqa sözlə, məşrutiyyətçilər cümhuriyyətin, yəni Atatürkün əleyhdarları olaraq qəbul edilirdilər. Milli Azadlıq Mübarizəsi dövrünün məmurlarından olan maarif müdiri R.Nurinin təqdimatında məşrutiyyətçi düşüncəyə sahib, mühafizəkar bir xarakter kimi təsvir edilmişdir:

"Bu zat da Müfit bey gibi ilk terbiyesini Bab-i Ali'den aldıktan sonra Meşrutiyet dönemini idrak etmiş klasik memurdur. Onlar, toprağın zelzeleleri gibi en idrak edilmez sebeplerle , en beklenilmeyen saatlerde korkunç sarsıntılar və yıkıntılar yapan bir gizli və karanlık kuvvetin vehmi içinde yaşamaya alışmışlardı. Onlara göre, memur mümkünse hiç yerinden kıpırdanmamalı, pek kati bir lüzum olduğu takdirde fevkalade ihtiyat ile adım atmalıydı[34]".

R.Nuri, təşəbbüssüz, ələbaxım, iradəsiz, cəsarətsiz aydınlara olan nifrətini gizlətməmiş, onları yadelli işğalçılarla işbirliyi görməkdə, düşmənlərlə ortaq olmaqda ittiham etmişdir. İnsanın yaşamaq hüququ ən ümdə hüquqdur və hər şərtdə insan bu hüququ uğrunda mübarizə aparır. Fəqət bioloji mövcudiyyətini sürdürmək naminə insan hər alçaqlığa razı ola bilməz. Vətən, milli şərəf məsələsi ortaya çıxdıqda insanın şəxsi həyatı arxa plana keçməlidir. R. Nuri tərsinə düşünənləri tənqid hədəfinə alaraq "belələrinə cəmiyyətdə yer olmamalıdır" fikrinini tələqin edir. X. Ədibin qələminə məxsus olan "Zeyno'nun oğlu" əsəri Milli Azadlıq Mübarizəsi

[32] R.Nuri, Yeşil gece, İstanbul, 1986, X.b; s.226
[33] Yenə orada, s.227
[34] Yeşil gece, s.118

dövrünü əks etdirməsə də o əsərdə həmin dövr haqqında maraqlı fikirlər irəli sürülmüşdür. Türk ədəblərinin çoxu yanlış avropalaşma məsələsinə toxunmuşlar. X. Ədib də bu məsələyə öz münasibətini bildirmişdir. "Zeyno'nun oğlu"nda təsvir olunan Məsturə hanım mədəniləşməni, müasirləşməni, avropalaşmanı düzgün dərk etməyən bir xarakterdir. X. Ədib həmin obrazın daxili aləmini onun öz dili ilə, Ali Nuri bəylə mükaliməsində ifadə etmişdir:*"Ali Nuri bey, subayların özel düşünceleri olduğunu, kostimlerini kendilerinin seçeceklerini söyledi. Mesture hanım köhne ve örümcekli düşünceleri gösteren şeyler olmamasını önledi:*

-Köhne ve örümceklidən maksadınız nedir, Hanımefendi?

-Ne bileyim, örneğin, yeniçeri, yahut köylü kıyafetleri.

-Affedersiniz, ama bu kadar önemli dans gecesinde liker, şarap, hatta şampanya bulundurmak bir uygarlık belirtisidir sanırım[35]*".*

Qısa dialoq parçasından da göründüğü kimi, Məsturə hanım sadəcə qiyafət məsələsində deyil, müsamirədə içiləcək spirtli içkilərin də çeşidlərinin Avropa standartlarında olmasına xüsusi diqqət yetirir. Müasir baxış açısından roman qəhrəmanının bu davranışında bəlkə də qeyri-adi heç nə yoxdur. Hətta qeyd olunan irad yersiz də görünə bilər, amma böyük mənəvi aşınmalar xırda, əhəmiyyətsiz görünən yanlışlıqlardan törədiyini də unutmaq olmaz. Əgər şərqli qadın adətlərə xilaf olaraq aşırı dərəcədə Avropa insanının heyranı olacaqsa, tədricən onun hərəkətlərini təqlidə başlayacaq. Ən dəhşətlisi isə öz torpağına olan mənəvi bağlılıq qırılacaq, "Avropalı yaxşı idarə edər"-düşüncəsiylə vətənini də avropalıya təslim edər. Milli Azadlıq Mübarizəsi dövrünün ən ağrılı məsələlərindən olan mədəniyyətə münasibət problemi türk aydınlarını kompromissiz olan iki zidd cəbhəyə ayırmışdı: Avropa mədəniyyətini panatseya olaraq qəbul edənlər və Avropa mədəniyyətinin qismən iqtibas olunmasını dəstəkləyənlər. "İstiqlal" şairi M.Akifin mövqeyini xatırlamaq bu baxımdan maraqlıdır. O, "Sebil-ür-rəşad" dərgisinin 25 Noyabr 1920-ci il tarixli sayında yayınlanmış məqaləsində belə yazımışdı:

"Öyle ya, gözümüzü açtık, Avrupa medeniyəti, Avrupa irfanı, Avrupa adaleti, Avrupa efkar-i umumiyesi nakaratından başka bir şey işitmedik. İngiliz adaleti, Fransız hamiyeti, Alman dehası, İtalyan terakkiyatı kulaklarımızı doldurdu. Lisan bilenlerimiz doğrudan doğruya bu heriflerin eserlerini, bilmeyenlerimiz tercümelerini okuduk. Edebiyatları, hele edebiyatlarının ahlaki, insani, ictimai mevzuları pek hoşumuza gitti. Müelliflerin kıymet-i ahlakiye ve insaniyetlerini, eserleriyle ölçmeye kalkıştık. İşte bu mukayesedən itibaren aldanmaya, hatadan hataya düşmeye başladık. Bu adamların sözleriyle özleri arasında asla münasebet, müşabehet olamayacağını bir türlü düşünemedik[36]". Yeri gəlmişkən, M.Akif ömrünün sonu qədər qərbliləşmənin əleyhdarı olaraq qaldı. Hətta bu fikir onun məşhur "İstiklal marşı"nda da öz bədii ifadəsini tapmışdır:

Ulusun, korkma nasıl böyle bir imanı boğar
Medeniyet dediğin tek dişi kalmış canavar?

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, Milli Azadlıq Mübarizəsi sadəcə cəbhədə, səngərlərdə getmirdi. Bəlkə də səngərdə mücadilə etmək daha

[35] H. Edip, "Zeyno'nun oğlu", İstanbul, 1984, s.245

[36] M.Kaplan, "Devrin yazarlarının kalemile Milli Mücadele ve Gazi Mustafa Kemal", İstanbul, 1981, I c; s.361

asandı: orada düşmən bəllidir, səngərin qarşı tərəfində durur. Arxa cəbhədə isə vəziyyət daha təhlükəlidir. Beyinləri kosmopolit düşüncələrdən zəhərlənmiş, oxuduğu zərərli əsərlərin təsirindən gözləri dumanlanmış bir qrup insan gerçək təhlükəni görmür, milli zəmindən uzaqlaşır, düşmən tərəfə keçir, bilərəkdən və ya bilməyərəkdən onun ideoloji əsiri olur, xəyanətlərinin nəticəsini isə günahsız dinc vətəndaşlar çəkirlər. Ona görə də Milli Azadlıq Mübarizəsini əks etdirən əsərlər hələ də öz aktuallığını qorumaqdadır. 1839-cu ildən başlayan islahatlar— Tənzimat fərmanı, İslahat fərmanı, ayaqlanmalar, qiyamlar, terror hərəkatı, 31 Mart hadisələri, jön türklər, üsyanlar, Balkan müharibələri, Birinci dünya müharibəsi və Milli Mücadilə. Bütün məhrumiyyət və sıxıntılar, əzab-əziyyətlər xalqın ağır durumuna səbəb oldu. Baisi axtarsaq, əlbəttə, işğalçılıq siyasətindən əl çəkməyən bəzi xarici imperialist dövlətlər və daxildə onlara rəğbət bəsləyən saxta aydınlar və onların ardınca cəhalət girdabına sürüklənən insan kütləsi.

Milli Azadlıq Mübarizəsi dövründə xalqdan ayrı düşmüş bir qrup türk ziyalısının yanlış avropalaşma meylləri, rəhbər işçilərin sərişdəsizliyi nəticəsində türk milləti milli xilaskar Atatürklə bərabər amansız döyüş meydanına atılmalı oldu. Y. Kemal "İleri" dərgisinin 12 may 1921-ci il sayında dərc olunmuş "Mustafa Kemal Paşa" adlı məqaləsində belə yazmışdı:*"Yunanlılar İzmir'e çıktıkları gün çok bedmesttiler, o gün, o feci gün İstanbul'dan Samsun'a bir adamın gittiğini farkedemediler. Her şeyin bittiğini zannettikleri gün o gün her şey başlıyordu. O adamın sonra ismini öğrendiler. Şimdi rüyalarına giriyor. Yunanlılar bu ismi və bu adamı Kartaca, kadim Caton'u nasıl müebbedən hatırladıysa öylə hatırlıyorlar.*

O güne kadar Anadolu'yu, Rumeli'yi, daha doğrusu , bu coğrafya isimlerini bir tarafa bırakarak Türk milletini ne ecnebiler biliyormuş, ne yunanlılar yoklamışlar, hatta ne de biz hissetmişiz. Mustafa Kemal Paşa'nın asıl dehası, Samsun'a çıktığı günden itibaren Türk milletinin istiklal iddiasında olduğunu sezişindedir[37]". R. Enisin "Dikmen Yıldızı" əsərində mütarəkə və Milli Mücadələ dönəmi canlı şəkildə təsvir olunmuşdur. Xatırlatmaq yerinə düşər ki, 30 Oktyabr 1918-ci ildə ağır şərtlər altında Osmanlı dövləti atəşkəs (mütərəkə) müqaviləsi imzalamağa məcbur edildi. Atəşkəs müqaviləsini 7 və 24-cü maddələrini bəhanə edən işğalçılar fərqli bəhanələrlə Anadolunun çox yerini işğal etmişdilər. Düşmənlərin əl-qolunu açan mütərəkə sənədi əslində bəhanə idi. Romanın qəhrəmanı Nedimin yazmış olduğu məktubda əski yunan sevgilisi Diyamandopulas haqqında bəhs edir, onun Nedimə qarşı etdiyi hərəkətlərdən danışılır:

"Bir gün vatan çöktü ve milli mabetler istila edildi. O gün Mondros Mütarekesinin imzalandığı çözülme gününün akşamı ilk defa bana hırçınlık etti[38]*"*. Uzun – uzadı davam edən hərbi vəziyyət, səfərbərliklər, savaşlar, müharibələr milləti o dərəcədə üzmüş, əldən salmış, yormuşdu ki, o, artıq sanki hissizləşmişdi. Ölüm, məhrumiyyət, tələfat, maddi və mənəvi itkilər, elə bil statistik hesabat kimi qəbul edilirdi. Hətta qələbəyə də sevinə bilməz bir hala gəlmişdi xalq. H. Edibin "Ateştən gömlek" əsərində atəşkəs imzalanmasını laqeyd qarşılayan İstanbul əhalisini belə təsvir edir:

[37] "İleri", 12.05.1921

[38] A.Gündüz, "Dikmen Yıldızı", İstanbul, 1974, IV b; s.90

"Sokaklar o kadar sessiz, herkesin yüzünde kendini ta içine çekmiş öylə somurtkan, öyle ağzı sıkı bir şey var ki! Halk o kadar savaştan bıkmıştı. Niçin şimdi sevinmiyor? Savaşta nafile yete akan kanları mı, yoksa Mütarəkənin İstanbul'da karıştıracağı, açacağı iç çirkəfi, deşiləcək eski, kokmuş yaraların akıtacağı cerahati mi düşünüyor?[39]".

Beləliklə, cümhuriyyətçi türk yazarları keşməkeşli dönəm olan Milli Mücadilə dönəmini real zəmində, Atatürkçü düşüncə və baxış açısında təsvir edərək XX əsrin birinci rübündə türk millətinin itilaf devletleri adlandırdıqları işğalçılara qarşı apardığı mübarizənin canlı mənzərəsini yarada bilmişdir.

İşğal edilmiş ərazilərdə işğalçılar türklərə istədikləri zülmü etmişlər. İndi Avropa Birliyinin tövsiyəsi ilə türk ədəbiyyatında üstündən sükutla keçilən və ya susmağa üstünlük verilən bir çox məsələlər XX əsrin 20—30-cu illərində daha cəsarətli şəkildə əks olunmuşdu. Məsələn, Y.Kadrinin "Sodom və Gomore" əsərinə diqqət yetirək:

"1920 senesindeyiz. Llyod George siyəsəti bize çoktan yapacağını yapmıştır. Taraf taraf Türk milletinin bütün nefes alama deliklerini tıkamıştır; izmir'i bir kanlı et parçası gibi yunanlıların önüne atmıştır. İstanbul'da işgal kuvvetleri fertlerinin halka reva görmediği cefa ve zulüm kalmamıştır. Bu memleketin aydın ve vatansever sınıfına karşı ise adeta ilk insanların yırtıcı mahluklara ve ilk Amerika kolonilerinin kırmızı derililerle uyguladıkları "kitle halinde yok etme" sistemini kullanmıştır[40]". ,

M. Kansunun informasiyasına görə, Milli Mücadilə dönəmində İstanbul şəhərində rəsmən səksən bir min düşmən əskəri vardı. İngilis əskəri forması geymiş yunanlar əhaliyə xüsusi qəddarlıq edirdi. Osmanlı əmniyyət qüvvələri aciz bir durumda idi. Türk donanması İzmitdə blokadaya alınmışdı. Bütün yazışmalara sənzor nəzarəti tətbiq edilirdi. M. Kamal bu vəziyyəti belə xarakterizə edir:

"*Mebusan-i kiramın mahalli inikadı olan Darülhilafe'de kırkbin Fransız ve otuzbeş bin İngiliz, iki bin Yunan ve dört bin İtalyan kuvve-i serriyesinin tahaşşüt ettiğini ve İngiliz bahr-i sefid donanmasının Fındıklı sarayına karşı lengerendaz bulunmuş olduğunu gözönünde bulundurmak lüzumunu hatırlatırım[41]".*

Milli Mücadilə dönəmində nəinki yaşlılar, hətta azyaşlı uşaqlar da məhrumiyyətlərlə qarşı-qarşı qalmışlar. Xiristian missionerlər ağlasığmaz bəhanələrlə türk körpələri zorla doğma valideynlərindən alıb aparır, onları gələcəkdə türklərin əleyhində istifadə etmək üçün xristianlaşdırırdılar. Heç kimin şikayət etmək, müqavimət göstərmək hüququ və cəsarəti yox idi.

"Bu Amerikalı misyonerler ermeni çocuğu aramak bahanesiyle ellerini en halis, en masum Türk evlerine sokarak beğendikleri çocukları bütün bütün bir mahalle halkının feryatları, şikayetleri arasında istedikleri yerlere alıp götürmüyorlar mıydı? Hangi ananın "bu benim evladımdır"-diye haykırmaya hakkı oluyordu?

[39] H. Edip, "Ateşten gömlek", İstanbul, XIX b; 1984, s.23
[40] Sodom ve Gomore, İstanbul, VI b; 1984, s.41
[41] M.Müfit Kansu, "Erzurum'dan Ölümünə Kadar Atatürk'lə Beraber", Ankara, 1988, III c; s.545

Hangi babanın adalet istemeğe dili varıyordu? İnsan vicdanı bu Hıristiyan taassubunun karanlığı içinde boğulup gitmişti[42]*".*

İşğalçılar itilaf qüvvələrinə qarşı olanları ya həbsxanaya, ya da sürgünə göndərir, əhalini qorxu və təhdit altında tutmağa çalışırdılar. "Sodom və Gomorre" əsərində təsvir olunan Necdet bəy surəti də belə tale yaşamışdır. Necdet anlaşmazlıq üzündən ingilis zabiti kapitan Rəad ilə bərk mübahisə edir. Bu yaranan arzuolunmaz mübahisə Necdetin sürgün edilməsinə səbəb olur:

"*Kiminə görə Read'ın şahsında İngiliz işgal kuvvətlərini tahkir etmiş omak suçuyla ya Krocker Oteli'nin mahzenlerinde, ya Arapyan hanının işkence odalarında inim inim inlemektedir. Bazıları ise, Necdet'in çoktan Malta'ya sürülmüş veyahut Seylan'a gönderilmiş olduğunu iddia etmekteydi*[43]*".*

İstanbulun işğalından sonra dəyişən sosial vəziyyəti Aka Gündüz "Dikmen Yıldızı" əsərində ətraflı təsvir etmişdir. Pilot Muradın atası Beybaba surətinin dili ilə tanınmaz dərəcədə dəyişmiş, İstanbulun, onun əhalisinin, müxtəlif sosial zümrədən ibarət olan insan qruplarının daxili aləmi təzahür etdirilir.

Bu gün Türkiyə Respublikasında Avropa Birliyinə üzv olmaq üçün mütəmadi addımlar atılır: Konstitusiyada dəyişikliklər aparılır, hüquq, təhsil sistemlərində ciddi dəyişikliklər edilir, radio, televiziya, gəzet və dərgilərdə heyrətamiz fikirlər bildirilir, Avropa Birliyinin təzyiqi altında, İMF-nin diktəsi ilə hələ çox şeylərin islah edilməsi planlaşdırılır, müxtəlif açılımlar layihəsi həyata keçirilir. Bütün bunlar Avropa Birliyinə üzv olmağa yetmir. Onlar Türkiyənin daha çox güzəştlərə getməyə məcbur olacağını gözləyirlər.

Ədəbiyyat

1.Edip H., "Zeyno'nun oğlu", İstanbul, 1984
2.Edip H., "Ateşten gömlek", İstanbul, XIX b; 1984
3.Gündüz A., "Dikmen Yıldızı", İstanbul, 1974, IV b
4.R.Halit, "Memleket Hikayeleri", Ankara, 1997
5.M.Kaplan, "Devrin yazarlarının kalemile Milli Mücadele ve Gazi Mustafa Kemal", İstanbul, 1981
6.M.Müfit Kansu, "Erzurum'dan Ölümünə Kadar Atatürk'lə Beraber", Ankara, 1988, III b.
7.R.Nuri, "Yeşil gece", İstanbul, 1986, X.b R.Nuri, Yeşil gece, İstanbul, 1986, X.b
8."İleri", 12.05.1921
9."Sodom ve Gomore", İstanbul, VI b; 1984

[42] Sodom ve Gomore, s.315
[43] Yenə orada, s.316

A.Rustamova

The problem of intellectuals and people in Turkish prose during National War

Summary

Part of Turkish intellectuals had left country, when Anadolu was occupied. Even some of them supported the foreign invaders. The Turkish people could save their mother land. In this article had investigated the problem of intellectuals and people. Turkish writers for example, R. Halit, H. Edip, Y. Kadri, R. Nuri, R. Enis and etc. had reflected in their roman and stories the period of National War. They thought, that the main hero of the war were Turkish people.

А. Рустамова

Проблема интеллигенции и людей в турецкой прозе во время Национально-освободительной войны

Резюме

Часть турецкой интеллигенции покинула страну, когда была оккупирована Анатолия. Даже некоторые из них поддержали иноземных захватчиков. Турецкий народ смог спасти свою Родину. В этой статье исследована проблема интеллигенции и турецкого народа. Турецкие писатели, такие как, Р. Халит, Х. Эдип, Я. Кадри, Р. Нури, Р. Энис и т.д. отразили в своих произведениях период Национально-освободительного движения. Они думали, что основными героями войны был турецкий народ.

Rəyçi: Əsgər Rəsulov
filolofiya elmləri doktoru, professor

MUHAMMEDOVA HULKAR ELIBOEVNA
Özbəkistan

CHARLZ DIKKENS ASARLARIDA AYOLLAR OBRAZINI TASNIFLASHTIRISH

Açar sözlər: təsnifat, tipologiya, qadın obrazları, cəmiyyət
Key words: Classification, typology, women character, Victorian, society
Ключевые слова: Классификация, типология, женские характеры, общество

XIX asr o'rtalarida Yevropada ijtimoiy turmushdagi muayyan tarixiy vaziyat badiiy tafakkur taraqqiyotini yuqori pog'onaga - tanqidiy realizm bosqichiga ko'taradi. Shu tariqa bu davr ilg'or adabiyotida mavjud ijtimoiy tuzumni keskin tanqid qilish poetik pafos darajasiga ko'tariladi. Aynan mana shu davrda yashab ijod etgan ingliz yozuvchisi Charlz Dikkens ham o'z asarlarida hayotni chuqur badiiy tahlil qilishga xarakat qilgan va shu orqali hayot xaqiqatini badiiy kashf etgan.

Charlz Dikkens o'z asarlarida real hayotni tasvirlash orqali turfa xil xarakterdagi ayol obrazlarni yaratgan. Badiiy adabiyotning tipologik metodiga asoslanib, biz Dikkens ijodidagi ayol obrazlarni tasniflashimiz mumkin. Adabiyotda tipologiya bu ob'ektlar tizimini qismlarga ajratish va ularni umumlashma model yoki tip yordamida guruhlashtirishdan iborat ilmiy metoddir. Mana shu ilmiy metod adibning ayol xarakteridagi obrazlarni tasniflaydi. Adib ijodidagi ayollar obrazini ijobiy, salbiy va murakkab obrazlarga bo'lish mumkin. Mana shu uch guruhdan biz salbiy xarakteridagi obrazlarni maqolamizda keltirib o'tamiz. Ayol dunyosi adib tassavurida yaratilgan bo'lib, aslida "xaqiqiy" salbiylikning qirralari ayol xarakterida o'z belgilari bilan yozuvchi asarlarida namoyon bo'ladi. Bir tarafdan viktorian Angliyaning asl qiyofasini adib mana shunday ayollar orqali ifodalagan bo'lsa, ikkinchi tomondan shavqatsiz burjua jamiyati aslida achinarli bo'lsada, mana shunday ayollar bilan to'la bo'lganligini o'z asarlarida yana bir bor e'tirof etadi.

Charlz Dikkens o'n to'qqizinchi asrdagi "jamiyatning illatini ham salbiy fikrlarning paydo bo'lishida" (Lindsey 1950) deb hisoblagan edi. Bu kabi jamiyat illatini adib o'z asarlari misolida ayollarning salbiy xarakter xususiyatlarini ifodalash orqali ko'rsatib bera oldi.

Adib "Jajji Dorrit" asaridagi Missis Miglz xonim obrazida badavlat ayolni tasvirlaydi. Biroq uning past tabaqa vakillariga bo'lgan munosabati turmush o'rtog'i bo'lgan janob Miglzdan farq qilmaydi. Uyiga xizmatkor bo'lib ishga kelgan Tettikoram ismli qizga qattiqqo'llik bilan muomala qiladi. Miglz xonim Tettikoramga faqat xizmatkor qiz, bundan tashqari erka o'sgan qiziga ovunchoq deb qaraydi. O'z fikrini bildirgan Tettikoramga birdan yigirma beshgacha sanashni buyuradigan xonadon sohibi bu xatti-xarakati bilan oddiy insonlarga bo'lgan munosabatini ochiq oydin ko'rsatadi. Tettikoramga bu og'ir botadi. Bu muomalaning oxiri uning uydan ketishi bilan yakun topadi. Bu kabi munosabat orqali adib badavlat insonning xulq-atvorini xam ochib beradi. Miglz xonim yaxshigina mulk egasi bo'lsada, u umuman kambag'al insonlarga shavqat qilishni

bilmaydigan ayollar sirasiga mansubdir. U faqat o'z qizining kelajagi to'g'risida qayg'uradi. Shuning uchun ham bo'lajak kuyoviga yaxshigina mablag' ajratib berishga erini ko'ndiradi. Shu bilan u qizini va kuyovini ta'minlab turishga xarakat qiladi. Uni umuman xizmatkor qiz yoki uyiga yordam so'rab kelgan ayollarni ham mensimasdan muomala qilishi, bu ingliz jamiyatida mavjud bo'lgan ikki tabaqa vakillari o'rtasidagi ziddiyatli munosabat edi. Asardagi missis Merdl xonim missis Miglzdan mutlaqo farq qilmaydi. Missis Miglz xonim tabiatida yumshoq ko'ngillik mavjud bo'lsada, bu xususiyat uning xarakterida unchalik ko'zga tashlanmaydi. Missis Merdl xonim esa yirik kapital egasi bo'lgan erining xatti-xarakatini boshqarib turadigan ayol bo'lib, u ham o'zidan boshqasi xaqida bosh qotirmaydi. Bu ayol uchun boyliging bo'lsa hurmatga loyiqsan deydiganlar toifasiga mansub. Bu tushunchani muallif Missis Merdl va Fanni o'rtasida kechgan dahanaki so'z o'yinida yanada kuchliroq ochib berish beradi. Xivichdan qilingan qafasda o'rmalaydigan to'tiqushning darg'azabligining mohiyati yuzaga kelgan vaziyatning emotsional fokusi bo'lib, bu "tabiiy qorishma" suhbatning darg'azab qichqiriqqa aylanib ketishi g'ayri oddiiy xodisadir. Bu asarda shunchaki dekorativ element bo'lmay, odatda Dikkensga hamroh bo'ladigan detallar bo'lib, suhbatning mavzusi aynan ular yashayotgan jamiyatda qanchalik notabiiylik yuzaga kelib, hech kim xaqiqiy, asl tuyg'ularni boshqara olmaydi: *"My sister, ma'am", said Fanny, in whom there was a singular mixture of a difference and hardihood, "has been asking me tell her, as between sisters, how I came to have the honor of knowing you. And as I had engaged to call upon you once more, I thought I might take the liberty of bringing her with me, when perhaps you would tell her. I wish her to know, and perhaps you will tell her&" "Do you think, at your sister's age" – hinted Mrs. Merdle.*

"She is much older than she looks," said Fanny, "almost as old as I am". "Society," said Mrs. Merdle, with another curve of her little finger, "is so difficult to explain to young persons (indeed is so difficult to explain to most people), that I am glad to hear that.

I wish Society was not so arbitrary, I wish it was not so exacting – Bird be quiet!"

The parrot had given a most piercing shriek, as if its name was Society and it asserted its right to its exactions. "But," resumed Mrs. Merdle, "we must take it as we find it. We know it is hollow and conventional and worldly and very shocking, but unless we are Savages in the Tropical seas (I should have been charmed to be one myself – most delightful life and perfect climate, I am told), we must consult it. It is the common lot. Mr. Merdle is a most extensive merchant, his transactions are on the vastest scale, his wealth and influences are very great, but even he – Bird, is quiet!"

The parrot had shrieked another shriek; and it filled up the sentence so expressively that Mrs. Merdle was under no necessity to end it.

" – Mening singlim, xonim, - dedi Fanni ozgina bo'lsada xurmatni g'alati tarzda ifoda etib, surbetlik bilan, - mendan opa-singillar qanday munosabatda bo'lish kerakligini ochiqchasiga aytib, mendan siz bilan qanday tanishish baxtiga muyassar bo'lganligimni aytib berishimni so'radi. Qanchalik uni ishontirmay, siznikida yana bir marta bo'lib, o'zimda daddillik bilan uni bu yerga o'zim bilan olib kelishni va balki siz buni o'zingiz aytib berishingiz kerak deb hisoblayman. Men

uni xamma narsani bilishini va agar buni o'zingizdan eshitsa yaxshiroq bo'ladi deb o'ylayman.
- Ammo sizning singlingizda uning yoshida, nahotki payqamayapsiz.... – ma'nodor qiyofada dedi missis Merdl.
- U ko'rinishiga qaraganda kattaroq ko'rinadi, - dedi Fanni e'tiroz bildirib. – Biz deyarli bir xil yoshdamiz.
- Jamiyatda, - deb javob berdi missis Merdl, jimjiloq qaytadan xurpaydi, - bundaylar ko'p bo'lib, yoshlarga buni alohida tushuntirish mushkuldir va shuning uchun ham buni eshitishimdan xursandman. Agarda jamiyat bunchalik noziktabiat bo'lmay, shunchalik talabchan bo'lmaganida edi... Popka, jim bo'l!
Kutilmaganda to'tiqush tap tortmay shunday qichqirdiki, go'yo faqat u jamiyatni talabchanlik bilan o'z fikrida turib olishni ifodalagandek edi.
- Biroq, - deb davom etdi missis Merdl xonim, - uni borligicha qabul qilishga to'g'ri keladi. Biz undagi munofiqlikni, taomilini, xurofotni va xar xil bemazagarchiliklarni bilamiz, biroq biz tropik orollardagi yovvoyilar emasmiz, xar qanday vaziyatda ham uning talablari bilan xisoblashishimizga to'g'ri keladi. Bu bizning umumiy qismatimizdir. Janob Merdlga kelsak u yirik savdogar, kommersant, u keng ko'lamda faoliyat yuritadi, u juda badavlat va katta nufuzga ega, biroq u ham..... jim bo'l Popka!
To'tiqush yana qichqirib yubordi va u ifodali tarzda iborani yakunlab, Missis Merdl xonimni noilojlikdan yakun yasashdan xalos etdi".(Little Dorrit, First Book, Chapter 20)

Dastlab biz to'tiqushni "zarhallangan qafasda o'rmalayotgani, xivichdan yasalgan bu oshiyonda qichishadigan qanotlarini keng yozib, beo'xshov gavdasini pastga qaratib osiltirgan" xolatda ko'ramiz. Missis Merdl xonim xonaga kirgach, darhol "qafas yonida zarhallangan alvon rangdagi yostiqchalar keng va yumshoq o'rindiq" paydo bo'ldi. Bu dikkensona usul adibning ilk ijodiga qaraganda, to'tiqush yashayotgan muhit uni qoralangan hududda, real bo'lmagan qahrga qorishtirib yuboradi, biroq bu yerda adib yanada kuchli ta'sirni ifodalaganini ko'rishimiz mumkin. Bu manzara o'zida shunday kuchga egaki, boshqa barcha metaforalar bir xil yo'nalishni tasdiqlaydi.

Oiladagi nonormal munosabat va asosan ota-ona va bola o'rtasidagi munosabat, bu go'yo medalning boshqa tarafiga o'xshab ketadi. Yana bir tarafi esa bu qamoqxonaga oid xulosadir. Missis Merdl xonim xaqida gapira turib, biz uning turmush o'rtog'i bo'lgan moliyachi janob Merdlni bir mavzudan boshqa mavzuga o'tadigan ko'prik sifatida foydalanishiga guvox bo'lamiz. Merdl xonim yuqori tabaqali ayol bo'lib, uning ham fe'l-atvori o'ziga xos bo'libgina qolmay, past tabaqa vakillariga bo'lgan shavqatsiz munosabatni ko'rish mumkin. Bundan tashqari missis Merdl xonim asarda xuddi faqat qimmatbaho toshlar uchun vitrinaga xizmat qiluvchi shaxs sifatida namoyon bo'ladi. Missis Merdl xonim o'g'li Edmond Spakler jajji Dorritning opasi bo'lgan raqqosa qiz Fannini yoqtirib qolganida ham uni dastlab o'g'liga nomunosib ekanligini aytadi. Missis Merdl xonim allaqanday raqqosa o'g'limning tengi bo'lolmaydi, bu shunchaki o'g'limning ko'ngilxushligi deb qaraydi. Biroq vaziyat Edmond Spaklerning uylanishiga kelganida o'zgaradi. Jajji Dorritga qoldirilgan meros tufayli badavlat insonga aylangan Dorritlar xonadoni endilikda xurmat ila tilga olinadiganlar sirasiga aylanadi. Fanni Dorrit dastlab teatrda

raqqosalik bilan shug'ullangan bo'lsada, keyinchalik o'zini badavlat, yuqori tabaqa vakillariga xos tutadigan qiz singlisidan tubdan farq qiladi. Tabiatan biroz takkabur xarakterga ega Fanni, keyinchalik molk-mulk egasiga aylangach o'zgaradi. U jajji Dorrit uchun qamoqxona muhitini, qamoq hayotini undan yaxshiroq biladigan inson yo'q. Biroq shunday bo'lsada, Fanni qamoqxona hayotini o'tmishda qolgan, unutilib ketgan qora kunlar sifatida tilga oladi. Fanni singlisini xizmatkorlar shug'ullanadigan ro'zg'or ishlari bilan shug'ullanishini singlisiga qat'iyan man etadi. Fanni jajji Dorritning xatti-xarakatlarini kuzatib borishdan erinmas, o'zini yuqori tabaqa vakillariga xos tutishini tez-tez singlisiga eslatib turadi. Bir tarafdan uning xarakteridagi salbiylikning alomatlari u badavlat xonimga aylangach yuzaga chiqa boshlaydi. Missis Merdl xonimning o'g'li Edmond Spaklerga turmushga chiqishi, amakisi va otasi xolidan xabar olmay qo'yishi, singlisiga bo'lgan e'tirozlari Fannini nixoyatda takabbur va injiq tabiat inson ekanligini namoyon qiladi. Merdl xonim eri kasodga uchrab, o'z joniga qasd qilganidan so'ng, kelini va o'g'li bilan yashashga qaror qilishi Fannini biroz cho'chitadi. Biroq Fanni qaynonasiga o'zining kim ekanligini va bu uyda uning aytgani bo'lmasligini qat'iy tarzda bildiradi.O'tmishda otasi Marshalsi qarzdorlar qamoqxonasida yashaganligini aytishga or qiladigan Fanni, qaynotasi kasodga uchragach, singlisidan yordam so'raydi. Baxtli kunlarida kerak bo'lmagan singil qora kunlarida ularga yordamga keladi. Umuman mazkur asar ayollarning fojeali taqdirlari bilan to'la ekanligini adibning o'zi ham qaydnomalarida ta'kidlab o'tadi. Bu yerda alamzada xizmatkor ayollar, nafrat bilan qaraydigan enagalar, yetim qizlar obrazi ko'plab uchraydi. Asarda tasvirlangan nochor ayolning qiyofasi va uning "o'zimni o'ldirayapman" (Dickens 2000, ch 9) deb javob qaytarishining o'zi asardagi ayollarning fojeali taqdirlaridan darak beradi.

Asardagi yana bir salbiy xarakterning qirralarini missis Veyd xonim obrazida namoyon bo'ladi. Kelib chiqishi asli yuqori tabaqaga mansub bo'lsada, keyinchalik qashshoqlashib, badavlat xonadonlarda enagalik qiladigan bu ayolning yuqori tabaqa vakillariga bo'lgan nafrati cheksizdir. Bu ayol tabiatan g'alati fe'l-atvorga ega bo'lib, bir daqiqa bo'lsada, o'tmishda bo'lib o'tgan voqealar sabab badavlat xonadon sohiblariga faqat nafrat ko'zi ila boqadi. Uning tabiatida shaxvoniyparastlikning belgilari gipertrofiyaga uchragan va shu bilan birga axloqiy buzuqlikning alomatlari mavjud edi. Boshqa so'z bilan aytganda u psixologik, ruhiy kasallikdan aziyat chekar edi. Bu narsa missis Jeneral qiyofasida ko'zga tashlangan belgilar bilan bog'lanib ketadi. Dikkens ajablangan holda oshkora tarzda missis Veyd xonimning shahvoniyparastligini ko'rsatib o'tadi va bu holatga missis Jeneral xonim Veyd xonimga qarama-qarshi tomonda turib, hayotning bu kabi shahvoniyatga berilgan tomonini qoralab o'tadi. Miglzlar xonadoni va missis Veyd xonim o'rtasidagi bog'liqlik,ularning xarakteri janob Miglz va Veyd xonim o'rtasida kechgan aynan mana shu mavzuda bo'lgan tortishuvda ham ochib beriladi: *The reserved Englishwoman took up Mr. Meagles in his last remark. "Do you mean that a prisoner forgives his prison?" said she slowly and with emphasis. "That was my speculation, Mrs. Wade. I don't pretend to know positively how a prisoner might feel. I never was one before". (Little Dorrit, Chapter 2, p 27)*

"Odamovi ingliz xonim janob Miglzning so'ngi tanbehidan ushlab oldi. – Xo'sh, sizningcha, mahbus uchun o'zining qamoqxonasini unutish mumkin ekandaq – deb so'radi u asosli ravishda to'xtab olib. – Axir bu mening taklifim, miss Veyd.

Men mahbusning tanish nozik tuyg'ularini isbot qilib bera olmayman. Men birinchi marotaba qamoqqa olinganimni tan olaman". (tarjima bizniki)

Veyd xonim uchun Tettikoram o'zining shaxsiy buyumi bo'lib, asar mualifi uni jajji Dorrit obraziga qarama-qarshi qo'yilgan obraz sifatida salbiy xarakterga ega ayol ekanligini mohirlik bilan ifoda etadi.

Janob Dorritning qizlariga saboq beruvchi bu xonim qirq- qirq besh yoshda bo'lib, kasbi badavlat xonadonlarda oqsuyak xonimlarga saboq beruvchi o'qituvchidir. Xamisha o'z so'zlari bilan janob Dorritning fikrlarini ba'zida qo'llab-quvvatlovchi, ba'zida esa e'tiroz bildiruvchi ayoldir. Jonsiz qiyofasi bilan Jeneral xonim jajji Dorritning xatti-xarakatlarini kuzatib, unga tinimsiz dashnom berib turadi.G'atto so'zlashish borasida jajji Dorrit ishlatadigan so'zlarga ham o'z e'tirozini adib shunday komik ohang ila tasvirlaydi: *"'Papa is a preferable mode of address,' observed Mrs General.'Father is rather vulgar, my dear. The word Papa, besides, gives a pretty form to the lips. Papa, potatoes, poultry, prunes, and prism are all very good words for the lips: especially runes and prism. You will find it serviceable, in the formation of a demeanour, if you sometimes say to yourself in company—on entering a room, for instance—Papa, potatoes, poultry, prunes and prism, prunes and prism.'(Little Dorrit Chapter V, p 467)*

*"Ota" deb aytmang, "dada" deb ayting – missis Jeneral xonim Emi Dorritga shunday deya o'rgata boshlaydi. Labning so'zni talaffuz qilish holatidagi harakat tarzi xonim uchun yaxshi ohangning muhim qoidasi xisoblanadi. "Dada so'zi ota so'ziga qaraganda chiroyliroq talaffuz qilinib, ota so'ziga o'xshab qo'pol so'z emas", deya ta'kidlaydi missis Jeneral xonim. Mehmonxonaga kirishda xonim Emmiga dada so'ziga o'xshash bo'lgan so'zlarni lablarning xarakat tarzi va yuzning ifodasi to'g'ri bo'lishi uchun qayta-qayta takrorlashni maslahat beradi". (tarjima bizniki)*Faqat oq suyak zodagonlarga bo'lgan xurmati va qolaversa, yaxshi xaq olish evaziga o'z burchini amalda isbot qilishga xarakat qiladigan ayol obrazidir. Ahamiyatli tarafi shundaki mussavir Dikkens bu ayolga harbiylarga xos ism bilan aynan missis Jeneral xonim deb nomlashining o'zi ham qaysidir ma'noda ramziy ma'noga egadir.

Asarda tasvirlangan badavlat xonadonning sohibasi bo'lgan missis Klennem obrazida ham salbiy xarakterning xususiyatlarini ko'rish mumkin. Bu ayol tilga olib o'tilgan ayol obrazlaridan farqli o'laroq qalbidagi intiqom tufayli bir umr yuragida sirni yashirib yashashga mahkum etilgan ayoldir. Erining qilgan xiyonati tufayli boshqa ayoldan farzand ko'rganligini xazm qila olmagan missis Klennem bolani o'z onasidan tortib oladi. Va bolani xuddi o'ziga o'xshatib, puritanlarga oid tarbiya beradi. Kambag'al insonlarni odam o'rnida ko'rmaydigan bu ayol nihoyatda rahm, mehr, shavqat nimaligini bilmaydi. U batamom mehr tuyg'usidan bebahra ayoldir. G'atto o'g'li Arturning o'z qilmishi xaqida bilib qolmasligi uchun Xitoyga jo'natib yuboradi. Eri tomonidan yozib ketilgan vasiyatnomani ochmaslik uchun u xamma narsaga tayyor. Janob Riga Blandua vasiyatnomani ochmasligi uchun pul talab qilganida ham u hech ikkilanmay aytilgan pulni berishga va'da qiladi. Missis Klennem xonim jajji Dorritni katta bo'lgunicha qamoqxonada yashashga mahkum etgan qabix ayoldir. U eri qoldirib ketgan boylikni jajji Dorritga bermaslik uchun bor kuchi bilan xarakat qiladi.O'g'li Arturdan o'tmishda sodir etgan qilmishini bir umr yashirib keladi. G'atto umrining oxirgi daqiqalarida ham o'g'lidan kechirim

so'ramaydi. Deyarli bir umr kursidagi joyidan qo'zg'almaydigan missis Klennem xaqiqatda asarda o'z sabablari bilan izohlanib, bir tomondan uning xolatini psixofiziologik xolat deb atash mumkindir. Asar yakunida Dikkens uni o'rnidan turib ko'chalardan yurib o'tishga majbur qilishini ta'kidlab o'tadi, uni falaj qilgan qalb kuchi misis Klennemni xarakatga keltiradi. Ingliz adabiyotshunos olimi Robert Vudning fikricha (2000) "o'tmishdagi qilingan xato majruh ayolni oyoqqa turg'iza oladigan kuch" sohibalari o'z umrining so'ngi nafasida ham qilingan xatoni tan olishni istamaydigan iroda egalaridir deya ta'kidlab o'tgan edi. Missis Klennem xatto uydagi xizmatkorlar taqdirini hal qila oladigan ayol deb ham aytish mumkin.Bunga sabab esa, uydagi necha yillardan buyon xizmat qilib kelayotgan Efferi ismli ayol xizmatkorini o'zi hohlamagan bo'lsada uni majburlab, bir og'iz so'ramay Flintvichga turmushga beradi. Efferining xatti-xarakatlaridan va yuzining xorg'inligidan uning xayoti qanday o'tkanligini anglash mushkul emas.Biroq missis Klennem o'ziga sodiq xizmatkor ayolning hayoti bilan umuman qiziqmas, xatto qiziqib ko'rmagan ham edi. Shuning uchun u nimani maqul ko'rsa xuddi shunday qilar edi. Uni xech qanday kuch to'xtata olmasdi. Ruhan iztirob chekayotganida ham, u o'ziga birovning yordam berishini kutmas va istamas edi.

Mazkur asardagi xizmatkor qiz obraziga qarama-qarshi obrazlardan biri sifatida miss Salli xonim tasvirlangan bo'lib, asardagi bu xonimning nigohlari atrofga nafrat bilan qarovchi ayollarni eslatib yuboradi. Biroq e'tiborga molik tarafi shundaki Dikkens bu obraz orqali xalq ertaklaridagi yovuz yalmog'iz kampir siymosini asarda tasvirlashidadir. Aslida ham Dikkens ta'kidlaganidek mazkur asar ertak qolipida yaratilgan. Xizmatkor qiz Markiza qabix va o'zgalarga shavqat nimaligini bilmaydigan advokat Samson Brass va uning bag'ritosh singlisi missis Salli bilan Londondagi Bevis Marks ko'chasidagi joylashgan uyda yashardi. Bu tilga olib o'tilgan miss Salli xonim o'z xizmatkorlariga tinimsiz tinimsiz qo'l ko'tarib turishi odat bo'lib qolgan.

Ular butunlay kichkina xizmatkor qizni qora ishlarga ko'mib yuborishardi. Shu bilan birgalikda unga nisbatan juda sovuq munosabatda bo'lar edi. Markiza zax va qorong'i xatto tuzdonda xam mittigina qulf osilib turadigan oshxonada yashardi. Xar kuni missis Salli och xizmatkor qizni "ruxiy azob"ni boshidan o'tkazishga majburlardi. Bu ovqatlanish jarayoni bo'lib, missis Salli qo'y go'shtidan ushoqdek kesib olib xizmatkor qizga berar va u shu bilan kifoyalanar edi.Bu jarayon xuddi nota kabi bir xil bajarilar edi. *Yubkadagi ajdarxo" xizmatkor qizdan yana xoxlaysanmi deb so'rar, zo'rg'a eshitilgan yo'q javobidan so'ng xam yana takrorlardi "senga go'sht berishdimi, sen yetarlicha yedingmi, senga yana taklif qilishdi, ammo sen xoxlamayman deb javob berding.Bu bilan xuddi seni bu yerda och ushlab turishibdi deya gapirishga jur'at eta ko'rma, eshitdingmi".(tarjima bizniki)*

"The small servant stood with humility in presence of Miss Sally, and hung her head.

-Are you there? - said Miss Sally. -- Yes ma'm , was the answer, in a weak voice. Go further away from the leg of mutton, or you'll be packing it, I know, - said Miss Sally. The girl withdraw into a corner, while Miss Brass opened the safe, and brought from it a dreary waste of cold potatoes, looking as eatable as Stonehenge. This she placed before the small servant, and then, taking up a great carving-knife,

made a mighty show of sharpening it. – Do you see this? – she said, slicing off about two square inches of cold mutton, and holding it out on the point of a fork. The small servant looked hard enough at it with her hungry eyes to see every shred of it answered, "Yes." "Then don't you ever go and say, - retorted Miss Sally, - that you hadn't meat here. There, eat it up." This was soon done. "Now, do you want any more? – said Miss Sally. The hungry creature answered with a faint "No." They were evidently going an established form. "You've been helped once to meat," said Miss Sally, summing up the facts: "you have had as much as you can eat: you're asked if you want any more, and you answer "No." Then don't you ever go and say you were allowanced, - mind that! (Dickens 2000)

Xizmatkorlarga bunday adolatsiz munosabatda bo'lish Dikkens uchun achinarli xodisa edi. Biroq, bu adib yashagan davrga xos illat edi deb aytsak mubolag'a bo'lmaydi. Shaxsan adib uchun xizmatkorlar nafaqat xizmatkor balki xaqiqiy do'st ham edi. Ingliz adibalaridan biri Margaret Drebbl (1978) adib yashagan davrni bejizga "xizmatkorchilik asri" deb baholamagan edi. Aynan mana shu davrda ayollarni aksariyat qismi xizmatkorchilik bilan shug'ulanar edi. Bu xaqda dikkensshunos olima Jenni Xartli(2008) o'z asarida xizmatkorchilik bu ayol taqdiri deb ta'kidlab o'tadi.

Zero, adib ayollar taqdiriga befarq bo'lmagan inson bo'lganligini unutmaslik lozimdir. Muallif asarlarida ikki tabaqa vakillarining ziddiyatli kurashi namoyon bo'ladi. Mana shu ikki tabaqaga mansub obrazlar bir-biriga qarama-qarshi tarzda ifoda etilgan. Ijobiy xarakterga ega ayollar doimo salbiy xarakterdagi ayollar bilan kurashadi. Bunday qarama-qarshi o'yin adibga xos uslubdir. Charlz Dikkens so'z ko'magida inson psixologiyasini ochib berishning, shaxsni turli falsafiy mezonlar asosida tahlil va talqin qilish san'atining ustalaridan biri ekanligini o'z romanlari bilan isbotlay oldi. Mazkur 2012 yilda Charlz Dikkens tavvaludining 200 yilligi Angliya mamlakatida munosib tarzda nishonlandi. Adib tug'ilib o'sgan shahar adabiyotshunos olimlar bilan gavjum bo'ldi. Adibning tavvallud yili O'zbekistondagi Buyuk Britaniya kengashi tomonidan ham yurtimizda nishonlandi.

Foydalanilgan adabiyotlar ro'yxati

1. Lindsey Johnson (1950) Dickens. London.
2. Dickens Charles. (2000)Little Dorrit. USA. A Penn State Electronic Classics Series Publication
3. Wood Robert (2000) The Demography of Victorian England and Wales. Cambridge Cambridge University Press
4. Slater Michael (1983) Dickens and Women. London: Melbourne and Toronto
5. Margaret Drabble (1978) Britain in the Victorian age, London: Andre Deutsch Limited
6. Jenny Hartley (2008) Dickens and The House of Fallen Women, London: Metheun

Muhammedova Hulkar Eliboevna

Classification of women character's in Charles Dickens novels

Summary

The following article examines women character in the works of English realist writer of the XIX century Charles Dickens. One of the traditional real woman characters often used in Charles Dickens's novels is a house-keeper. He effectively used satire and humor to illustrate convincingly the life of women and children, the unprotected elements of his time. In his novels he demonstrated his heroines as angel of death, unkind, cruel women in order to show their negative features. The writer realistically described life of women in his works and showed the cruel attitude of government towards the women in the British society.

Мухаммедова Хулкар Элибоевна

Классификация характера женщин в романах Чарльза Диккенса

Резюме

Следующая статья исследует женские характеры в произведениях английского реалистичного писателя XIX столетия Чарльза Диккенса. Один из традиционных женщин - персонажей, часто используемых в романах Чарльза Диккенса, является домоправительницей. Он эффективно использовал сатиру и юмор, чтобы иллюстрировать жизнь женщин и детей, незащищенных от элементов его времени. В романах автор продемонстрировал свою героиню как ангела смерти, недобрых, жестоких женщин, чтобы показать их отрицательные особенности. Писатель реалистично описал жизнь женщин в работах и показал жестокое отношение правительства к женщинам в британском обществе.

Muhammedova Hulkar Etibayevna

Çarlz Dinnens romanlarındakı qadın obrazlarının təsnifi

Xülasə

Aşağıdakı məqalə XIX əsr İngilis realist yazıçısı Çarlz Dikkensin əsərlərində qadın obrazlarına həsr olunub. Çarlz Dikkensin romanlarında istifadə olunan ənənəvi qadın simvolu ev baxıcısıdır. Yazıçı ənənəvi qadınlar və uşaqlarını öz dövrünün ən müdafiəsiz elementlərinin həyatını göstərmək üçün satira və yumordan istifadə edir. Onun romanlarında naxələf, qəddar qadınların mənfi xüsusiyyətlərini göstərmək üçün qadın ölüm mələyi kimi təsvir edilir. Yazıçı öz əsərlərində qadınların həyatını real təsvir edir və Britaniya cəmiyyətdə qadınlara qarşı hökumətin qəddar münasibət göstərirdi.

Rəyçi: f.f.d. Mamedov Bahoriddin Qo'chqorovich

ХУРРАМОВА ЗЕБО
Özbəkistan

РУБОИЙЛАРДА ДАВР ВА ИЖТИМОИЙ ҲАЁТ ТАЛҚИНИ

Açar sözlər: poeziya, Vədud Mahmud, tənqid, publisistika
Keywords: poetry, Vadud Mahmoud, criticism, journalism
Ключевые слова: поэзия, Вадуд Махмуд, критика, публицистика

Ўтган аср 20-30- йиллари адабий муҳитида жўшқин ижод билан шуғулланган, кейинчалик 70-80 йилларгача пинҳон тарзда мумтоз йўналишда ижод қилган шоирлардан бири самарқандлик Вадуд Маҳмуддир. Адибнинг ҳаёти оғир кечган. У ёзиб қолдирган шеърларда турли мавзулар қаламга олинган. Шоирнинг шеърларини ўқиган киши муаллиф XX асрда яшаган деб ўйламайди. Чунки шоир қайси мавзуда шеър ёзмасин, барчасида мумтоз шеърият унсурлари очиқ кўриниб туради.

Халқни “коммунизм қуриш”, “фаровон ҳаёт барпо этиш” ҳақидаги алдовларга ишонтирган мустабид тузум даврида яшаган шоир шеърларида мазкур давлат бошқарувига нисбатан тескари қарашларини ифода этган. Ижодкор сифатида Вадуд Маҳмуд халқ ва миллат манфаатларига нисбатан олиб борилган сиёсатга қарши ўз норозилигини билдиради. У ҳам мазкур сиёсат қурбонига айланган минглаб зиёли ижодкорларнинг бири бўлган. Шўро давлатининг дастлабки йилларидаёқ таъқибга олинган адиб, бутун ҳаёти давомида бир лаҳза бўлсин хотиржам яшай олмади. Умрининг деярли 24 йили қамоқ ва сургунларда кечган Вадуд Маҳмуднинг озодликдаги ҳаёти ҳам таҳликада кечди. Олим умрининг қолган қисмини ҳам ҳукумат кишиларининг таъқиби остида ўткарди. Бундай исканжада яшаш ва ижод қилишнинг ўзиёқ шоир учун фожиа эди, албатта. Аммо ўзининг эмас, тузум сиёсатининг қурбонига айланган ватандошлари ҳаёти, тақдири ва келажаги уни кўпроқ ташвишга соларди. Мамлакатни озод, халқни бахтли кўриш шоирнинг энг улуғ орзуси эди. Шу жиҳатдан олганда Вадуд Маҳмуд рубоийларида кишилик жамиятининг маълум бир даври барча муаммолари, сиёсий - ижтимоий ҳаёт тарзининг асосий жиҳатлари ўз ифодасини топган дейиш мумкин. Рубоийларнинг кўпчилиги шоир ҳаётининг муайян даврлари ва ўша пайтларда содир бўлган воқеа-ҳодисалар билан бевосита боғлиқ.

Вадуд Маҳмуднинг шоир сифатидаги шеърий машқлари асосан 1927 йилдаги Қурултой воқеалари таъсирида ёзилган намуналардан бошланади, дейиш мумкин. Бу шеърларда асосан уни ва унга ўхшаганларни “хасдай супуриб ташла”ган совет ҳукумати, бу ҳукуматга хайрихоҳ кишиларга нисбатан норозилиги ифодаланган

من بهر عروج آسمان آمده ام
من شيفه نگار جان آمرده ام
اي غول مرا به پستي تو مكش
من بهر شكلر بند گان آمده ام
Ман баҳри уружи осмон омадаам.
Ман шефтаи нигори жон омадаам.

Эй ғул, маро ба пасти ту макуш
Ман баҳри шикори ломакон омадаам.

(Мазмуни: Мен осмонга кўтарилиш учун келганман, мен суюкли дилбари жонимни деб келганман. Эй иблис, мени тубанликка тортма, мен ломакон этагини тутиш учун келганман.)

Шундай қилиб, Қурултойдан кейин ҳар бир мажлис, ҳар бир йиғилишда, ҳатто матбуотда Вадуд Маҳмуд номи қораланиб тилга олинар, кўча ва бозорларда унга таъна ва маломат тошларини отишарди. Рубоий шоирнинг худди ана шу оғир кунларида қоғозга тушган.

Рубоийда олам ва одамнинг яратилиши, инсон моҳияти ва Аллоҳ, инсон ва борлиқ, инсоннинг яратилиши, моҳияти каби фалсафий –ирфоний тушунчалар ва шу билан бирга шоирнинг ижтимоий-сиёсий қарашлари ёритилган. Бу таълимотга кўра, Аллоҳни таниш, висолига етиш сингари мураккаб ва узоқ муддатли руҳий холатлар замирида аввало Аллоҳга бўлган Ишқ тушунчаси ётади. “Ибн Арабийнинг фикрича, коинот илоҳий севги ва зотий ишқнинг зарурати сифатида шахси аниқ борлиқлар холида зот ягона борлиқ бўлган Аллоҳнинг тажаллисидан бошқа нарса эмас”. Рубоийда баён этилган мантиқий изчилликдан келиб чиқсак, Абад ва Азал, Қудрат ва Ҳикмат соҳиби бўлган Аллоҳгина севилишга лойиқ. Шоир айтаётган «нигори жон” бу Аллоҳ тимсоли бўлиб, бу мисраларда ишқи илоҳий тараннум этилгани сир эмас. Шу билан бирга инсоннинг парвардигор томонидан улуғланганлиги таъкидланади. Демак, Аллоҳ улуғлаган инсон бу дунёга не учун келганлигини тушуниши лозим. Шоирнинг фикрича, инсоннинг вазифаси «ломаконни шикор этиш – қўлга киритиш”дир. Ломакон сўзининг луғавий маъноси “маконсиз”, “макондан холилик” бўлиб, Аллоҳ сифатларидан бири. Унинг ҳар қандай вақт, замон, чекланганлик сингари тушунчалардан холи эканлигини англатади. “Қадиймдир – аввалида бир йўқлик йўқдир, охирида ҳам бир йўқлик йўқдир, ибтидосиз бир аввал, интиҳосиз – сўнгсиз бир охирдир”.

Шуни таъкидлаш керакки, рубоийда фақат тасаввуфий қарашлар эмас, балки инсоннинг яратилиши ва фаришталарнинг унга сажда қилиши билан боғлиқ диний ривоятга ишора ҳам бор. Яна бир эътиборли жиҳати, шоир шайтон деганда инсонийлик сифатларидан узоқ бўлган баъзи бир кишиларни ҳам назарда тутади. 20- 30 йилларда юзага келган қалтис ижтимоий-сиёсий вазият натижасида кўплаб бегуноҳ кишиларни туҳмат ва алдов билан қамаш, ижодкорларни адабий-илмий муҳитдан сиқиб чиқариш сингари воқеалар одатий ҳолга айланиб қолган бир пайтда, ана шу нохушликларни юзага келтирган нокас кимсаларни Вадуд Маҳмуд ҳақли равишда шайтонга ўхшатади. Илмли-фозил инсонларни ерга урмоқчи бўлиб қилаётган турли ҳаракатларини кескин қоралайди.

Шоирнинг Шарқ фалсафасида материянинг асосий элементлари ҳисобланган сув, олов, шамол ва тупроқ - чор унсур воситасида яратган қуйидаги шеърида ҳам унинг ўз замонидаги шу хил одамларга бўлган муносабати тазод санъати орқали юзага чиқарилган. (Тупроқ, ер-осмон; сув (паст) -тахт (юксак); олов (куйдириш)-заррин либос(яшнаш); шамолга совуриш (барбодлик)- кулоҳ луғавий маъноси бош кийим, мажозан –тож.)

بر خاک زنند اوج ماهی گیرم
در اب کنند تخت شاهی گیرم
اتش بزنند رخت زرپندارم
بر باد کنند کج کلاهی گیرم
Бар хок зананд авжи моҳи гирам,
Дар об кунанд тахти шоҳи гирам.
Оташ бизананд рахти зар, пиндорам
Бар бод кунанд кажкулоҳи гирам.

(**Мазмуни**: Тупроққа қормоқчи бўлсалар, ойга интиламан, сувга чўктирмоқчи бўлсалар- подшоҳлар тахтини кўзлайман. Оловга отсалар- зар кўйлак кийгандай бўламан. Шамолга совурсалар кулоҳим –қалпоғимни эгри қўяман.)

Мажозий маънода ўзининг ерга уриб ҳам, оловда куйдириб ҳам, сувга чўктириб ҳам ёхуд шамолга совуриб ҳам йўқ қила олмасликларини таъкидлаган шоирнинг бу мулоҳазалари остида икки мафкура вакиллари ўртасидаги кураш ҳақида. Бу шеър орқали у кўз ўнгимизда дарвешсифат шоир сифатида намоён бўлади.

Вадуд Маҳмуд рубоийларида шўро давлати юзага келтирган ижтимоий - сиёсий ҳолатлар ҳаққоний ва фалсафий аспектда ўз аксини топади:

رفتیم بخواب سخت ما ای بدار
کردیم گزر چو مست ما ای هشیار
جستیم جه بود بلند در این ایوان
آخر افتادیم در این خانه تار
Рафтем ба хоби сахт мо эй бедор,
Кардем гузар чу маст мо эй ҳушёр.
Жустем чи буд баланд дар ин айвон
Охир афтодем дар ин хонаи тор.

(**Мазмуни**: Биз қаттик уйқуга кетдик, эй уйғоқ,
Биз гўё мастдек юрдик, эй ҳушёр, бу баланд айвонда борини изладик.
Алал-оқибат, ушбу тор хона қаърига йиқилдик.)

Рубоийни ўкир эканмиз, ғоявий жиҳатдан фалсафий масалалардан баҳс этаётгандай туюлади. Инсон ҳаёти умр мазмуни ва охир оқибат йўқликка юз тутиши каби азалий фалсафий муаммолар шеърнинг асосий мазмунини ташкил этади. Инсон зоти, унинг қалби аслида уйғоқ- ҳайй этиб яратилган. Чунки унда Аллоҳ нури мавжуд, бироқ инсон дунёда уйқудагидай ғафлатда яшаб ўтади. Ўзининг асл моҳиятини тушуниб етмайди. Аслида ҳушёр бўлсакда, бизга берилган умр йўлини дунё орзу- ҳаваслари ғамида мастдек босиб ўтамиз. Маст киши ўз хатти-ҳаракатларининг тўғри эмаслигини англаб етсада, ўзини бошқаришга ожиз бўлганидек, дунё бизни ўзига асир этди. Одам зоти ўзига буюрилган йўлдан адашади, демоқчи бўлади шоир. Учинчи мисрада ўз моҳиятини тушуниб етмаган инсоннинг юксак осмон сирларини, дунёни, мавжудот сирларини билишга бўлган интилишини бироз киноя тарзида танқид этгандай бўлади. Инсон ана шу улкан борлиқнинг моҳиятини англаб етиши зарурлигини хаёлига келтирмайди. Ўзлигини билиш орқали олам сирларини тушуниши лозим бўлган инсон эса ўзлигидан хабарсиз ҳолда бир куни тор уй- қабрга киради... Шу ўринда "Мақомоти Жомий" китобида келтирилган бир байтни келтириб ўтишни лозим топдик. Маноқиб муалли-

фининг ёзишича, ҳазрат Абдураҳмон Жомий 82 йил яшаб (ҳижрий- қамарий йил ҳисоби бўйича) ушбу байтни айтиб бу ёруғ дунёни тарк этган экан:

Ориф дар ин саройи мусаддас накард жо,
Жойи иқоматаш саройи мусамман аст.

Демоқчи: Ориф ушбу олти бурчакли саройда муқим бўлолмади. Унинг доимий манзили "саройи мусамман" (саккиз бурчакли) манзилда, яъни гўрдадир.

Иккинчи томондан, бу рубоийни ижтимоий- сиёсий мавзуда ёзилган ва шоир бевосита ўзи яшаган тузум билан боғлиқ муаммоларни бадиий ифодалаган дейиш мумкин. Шўро тузуми бир неча ўн йил давомида халқни догма ҳолида сақлашга ҳаракат қилди. Бунинг оқибатида инсонларнинг кўзи кўрар, қулоғи эшитар, аммо мавжуд сиёсатнинг темир қонунлари ўз фикри ва эътирозини баён этишга монелик қиларди. Тузум яратган мана шу ғафлат даврини шоир қаттик уйқуга кетган ҳолатга ўхшатади. Аслида ҳушёр бўлсак-да, дунёдан мастдек ўтдик, дейиш билан шоир ҳар бир инсоннинг ўз фикри, орзу-истаклари, мақсад- хоҳишлари мавжуд, лекин инсоний фикр-мушоҳада, шахс сифатида ўзини намоён этишдан маҳруммиз дейди. Тузумнинг ана шу қонунларига бўйсунишни истамаган, эрки ва ҳуқуқини таниган кишиларнинг макони эса –тор хона, яъни қамоқ бўлганлиги–ўша давр сиёсатининг энг аянчли, шафқатсиз кўринишларидан бири эди. Узоқ муддатли маҳбуслик азобларини чеккан Вадуд Маҳмуд ҳам мавжуд тузум қурбонига айланган минглаб зиёли –ижодкорларнинг типик вакили эди. Шеърда хоб-бедор, баланд айвон–хонаи тор сингари сўз ва сўз бирикмаларидан тазод сифатида моҳирлик билан фойдаланади. Рубоийнинг моҳиятидаги маъно қатлами эса Вадуд Маҳмуднинг шоирлик маҳоратидан дарак беради.

Умрининг охиригача истибдод даврида яшаган олим ватанни бу тузум исканжасидан озод бўлишини, халқини бахтиёр кўришни жуда-жуда истаган. Бир қатор рубоийларида унинг ана шу орзу-умидлари акс этган:

کی این شب ما گردد مهتابستان
کی روز زمستان بشود تابستان
کی خارستان ز نو بشکفد گل گل
بیدار شود کشور در خوابستان
Кай ин шаби мо гардад моҳтобистон.
Кай рўзи зимистон бишавад тобистон.
Кай хористон зи нав бишукуфад гул- гул
Кай бедор шавад кишвар дар хобистон.

(**Мазмуни**: Қачон бизнинг кечаларимиз ойдин бўлади, қачон қиш кунлари ўтиб ёз келади. Қачон тиканзор бошқаттан гулга дўнади, қачон мамлакат ғафлат уйқусидан уйғонади.)

Халқ ҳаётидаги бу асорат йиллари тезроқ ўтишини, шодлик кунлари–мустақиллик ва эрк замонини кутиб яшади:

تا چند سرای ما همه پردود است
این چهره ما بچند گرد الود است
گویند زمان شادمان زود است
این زود ندانیم جی دوری بوده است

(Мазмуни: Қачонгача мамлакатимиз тутунли бўлади, юзларимиз қачонгача чанг-ғуборли бўлади? Шодлик замони яқин дейдилар, бу яқинлик, билмадим, қанчалар узоқ?!)

Шунингдек, у мамлакатдаги рус мустамлакачилик сиёсатини кескин қоралайди:

هر جند که این روسیهء خانه خراب
دارد شب روز بمان مهتاب
هر جند تن ظاهر او هست سپید
از جیست جنین جان وی انگوش نقا ب

Ҳар чанд, ки ин Русияи хона хароб,
Дорад шаб чун рўз ба моон маҳтоб.
Ҳар чанд тани зоҳири ў хаст сапид
Аз чист жони вай ангушти ниқоб.

(**Мазмуни**: Уйинг куйгур бу Русия қачонгача биздан куёшни тўсади. Унинг танаси, ташқи кўриниши қанчалик оқ бўлмасин, бу унинг учун ниқоб вазифасини ўтайди.)

پژمرده شده است نوبهارت ایدوست
اقتاد رواق نوبهارت ایدوست
آلوده خزانیم و یخستان بندیم
ببنیم مگر ز نوبهارت ایدوست

Пажмурда шудааст навбаҳорат, эй дўст,
Афтод равоқи зи навбаҳорат, эй дўст.
Олуда хазонему яхистон бандем
Бубинем магар зи нав баҳорат, эй дўст.

(**Мазмуни**: Навбаҳоринг сўлибди, эй дўст, навбаҳоринг равоқи таназзулга юз тутибди. Хазонга ўралган музликларда асирликдамиз, Навбаҳорингни кўриш яна насиб қилармикан, эй дўст.)

Ватандан жудолик, яқинлари соғинчи ҳасратлари билан Заҳириддин Муҳаммад Бобурнинг шу мазмундаги шеърларини ёдга солувчи ушбу рубоийда шўро давлати исканжасида қолган Ватан тақдири шоирнинг ўз тақдири билан уйғун – Ватан мустабид тузум остида. Шоир эса ана шу исканжа қурбонларидан бири сифатида она-юртидан узоқда, маҳбусликда–ҳар иккиси ҳам мазлум. Шундай бўлса-да, шоир ватанининг озод-мустақил бўлишига умид боғлайди. Ўзининг асирликдан қутулиб юртига қайтишини интиқлик билан кутади. Шеърда навбаҳор сўзининг ҳар бир мисрада алоҳида маъно ифода этиши мазмуннинг теран ва гўзал чиқишига ёрдам беради. Шоир ватаннинг аянчли тақдири билан бир вақтда ғамгин маҳбус ҳолатини ҳам маҳорат билан тасвирлайди. Биринчи мисрада навбаҳор сўзини пажмурда (сўлиш) сифати билан қўллаб, тазод санъатини юзага келтиради. Баҳор гуллаб-яшнашга, очилиш фасли, аммо у очилишга улгурмай хазонга айланган. Кейинги мисрада нав баҳоринг – янги баҳоринг пештоқи йиқилди мисралари орқали Туркистоннинг мустақил давлат сифатида бироз яшагани ва тезда заволга юз тутганлигини назарда тутади. Охирги мисра мазмуни: яна баҳорингни кўриш насиб этармикан?

Шоирнинг бу орзу-армонлари бугун Мустақиллик шарофати билан амалга ошди, унинг ва унга ўхшаган жонфидо инсонлар руҳини абадийлаш-

тириш мақсадида давлатимиз томонидан қатор ишлар амалга оширилди, адабий мерослари халққа етказилди. Бу хайрли ишлар давом этмоқда. Халқимизнинг кўплаб ижод аҳлидан бири бўлган Вадуд Маҳмуд ҳаёти ва меросини ўрганиш бу борада олиб борилган изланишларнинг таркибий қисмига киради деб умид қиламиз.

Адабиётлар:

1.Усмон Турар.Тасаввуф тарихи.Тошкент:Истиқлол нашриёти. 1999
2. Абдулвосеъ Низомий Бохарзий. Мақомоти Жомий. Мукаддима. Тасхеҳ ва таълиқоти Нажот Мойил Ҳиравий. Теҳрон: нашри "Най". 1383/ 2005.
3. Муҳаммад Зоҳид Қўтқу ибн Иброҳим ал-Бурсавий. Аҳли суннат вал-жамоат ақоиди. Иккинчи китоб. Шарҳи Омолий. Тошкент: Мовароуннаҳр нашриёти. 1999.
4.Рубоийлар. Вадуд Маҳмуд. Қўлёзма. Олимнинг шахсий архиви материалларидан.
5. Девмард ҳикоя. Қўлёзма,
6. Хобнома. Биринчи дафтар. 6-бет.

Zebo Khurramova

Reflection of social life and the period in ruboi

Summary

This article is about the poetry of the famous critic and publicist of Uzbek literature of the 20 th years of the XX century Vadud Mahmud. The theme and idea of classic poetry and public structure of the 70 th are described in the poems of the poet. The author uses a huge poetic material from Vadud Mahmoud's works.

Зебо Хуррамова

Отражение социальной жизни и периода в рубаи

Резюме

В этой статье идет речь о поэзии известного критика, публициста узбекской литературы 20- годов XX века Вадуда Махмуда. В стихотворениях поэта виражены тема, идея классической поэзии и обшественний строй 70-х годов. Автор использует огромный поэтический материал из произведений Вадуда Махмуда.

Ziba Xürrəmova

Rübailərdə dövr və ictimai həyatın təsviri

Xülasə

Məqalədə XX əsr özbək ədəbiyyatının görkəmli nümayəndəsi Vədud Mahmudun yaradıcılığından bəhs olunur. Onun poeziyasında 70-ci illərin mövzuları, siyasi durumu, klassik ədəbiyyat ənənələri əks olunur. Müəllif Vədud Mahmudun yaradıcılığını özündə əks etdirən zəngin materialdan istifadə edir.

Rəyçi: f.ü.f.d., dos. Afaq Ramazanova

QÖNÇƏ AĞAYEVA
Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin doktorantı
qonche85@box.az

MÜASİR AZƏRBAYCAN MƏTBUATI VƏ ONUN İNKİŞAFINDA TRANSFORMASİYA PROSESİNİN ROLU

Açar sözlər: Transformasiya, inteqrasiya, milli mətbuat, alternativ KİV, Qərb jurnalistikası

Key words*:* Transformation, inteqration, national press, alternative media, the journalism of West

Ключевые слова: Трансформация, интеграция, народная пресса, альтернативный СМИ, Западная журналистика

Bir sıra elm və fəaliyyət sahələri kimi Azərbaycan jurnalistikası da uzun bir tarixi inkişaf yolu keçmişdir. Bugünkü milli mətbuat və ümumilikdə jurnalistikamız inkişafının müxtəlif mərhələlərində fərqli xarici məktəblərə, standartlara söykənmiş, istinad etmişdir. Təbii ki, qəbul olunmuş, özünü doğrultmuş beynəlxalq norma, prinsip və bu kimi müxtəlif standartlarla fəaliyyət göstərmək kiminsə yolu ilə gedib, onu təqlid etmək kimi anlaşılmamalıdır. Çünki yarandığı dövrdən bu günədək Azərbaycan jurnalistikası xarici ölkə jurnalistikalarından götürdükləri ilə yanaşı, özünün milli- mənəvi çalarlarını, aid olduğu cəmiyyətin xarakterik xüsusiyyətlərini fəaliyyətində əks etdirməyə çalışmışdır.

Müxtəlif ölkələrin jurnalistika tarixinə nəzər salsaq, görərik ki, inkişafın bugünkü pilləsinə çatmaq üçün onlarda da söz azadlığı və jurnalistika çətin yollardan keçmişdir.

"Fırtınalı 1990-cı illərə qədər Şərqi Avropa uzun bir yol qət etməli oldu. Sonrakı hadisələr isə bir daha sübut etdi ki, ədalətli, azad və heç kimdən asılı olmayan jurnalistikanın prinsiplərinə diqqət bütün dünyada gücləndirilməlidir." (1,səh.8) Ümumdünya mətbuat azadlığı komitetinin sədri Ceyms Ottaueyin fikrindən də göründüyü kimi bütünlükdə dünya mediası zaman-zaman dəyişikliklərə məruz qalmış və bu dəyişikliklərin nəticəsi olaraq jurnalistikanın hüquqi bazası zənginləşmiş, beynəlxalq standartlar və prinsiplər isə daha da təkminləşmişdir.

Azərbaycanda yeni jurnalistikanın meydana gəlməsini xüsusi bir tarixi mərhələ adlandırmaq olar. Uzun illər Kommunist partiyasının təbliğat və təşviqat işini yerinə yetirən sovet jurnalistikasının bu quruluşun ideoloji ruporu olmaqdan başqa bir vəzifəsi yox idi. Və nəhayət Sovet imperiyası kabusu da sona çatmağa başladı. İmperiyanın tənəzzülə uğraması ilk növbədə mətbuat orqanlarında hiss olundu. " 80-ci illərin II yarısından bir sıra mətbuat orqanları aşkarlıq və plüralizm prinsiplərinə söykənərək ölkədə baş verən prosesləri nisbətən düzgün işıqlandırmağa başladılar." (2, səh.66)

Rusiyanın özündə başlayan bu oyanış get-gedə Sovet imperiyasının tərkibində olan digər ölkələrin mətbuatında da özünü göstərirdi. Yeni fikir, azad ruh, fərqli məzmun Azərbaycanın kütləvi informasiya vasitələrində də hiss olunmaqda idi. " Molodyoj Azərbaycana", "Elm", " Odlar yurdu", "Azadlıq" və s. bu kimi yerli mətbuat orqanlarında hadisələrə obyektiv yanaşma, ictimai-siyasi vəziyyətin obyek-

tiv təhlilinə çalışılması, ən əsası isə ölkədə baş verənlərin dünya ictimaiyyətinə çatdırılması cəhdi özünü göstərirdi. Beləliklə, 1980-ci illərin sonlarında Azərbaycanın müasir mətbuatının əsası qoyuldu. Müasir Azərbaycan jurnalistikasının tanınmış nəzəriyyəçilərindən biri olan professor Cahangir Məmmədli haqqında danışdığımız bu dövrü bir cümlə ilə belə ifadə edir: "Azərbaycanda yeni jurnalistikaya cığırı qeydiyyatsız, bir qədər də dəqiq desək, gizli qəzetlər açdı."(2, səh.68)

Müstəqillik əldə edildikdən sonra mətbu orqanların sayı artmağa, eləcə də, özəl radio və televiziyalar yaranmağa başladı. Bir-biri ilə rəqabət aparan media orqanları ən son məlumatları daha operativ şəkildə çatdırmağa və beləliklə, auditoriyasını genişləndirməyə çalışırdılar. Lakin professionallıq təkcə operativlikdən ibarət deyil. Və bunu dərk edən kütləvi informasiya orqanlarının beynəlxalq səviyyədə qəbul olunmuş digər yaradıcılıq prinsiplərinə də əməl etməli olduqlarını anlamaları uzun sürmədi. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, ölkəmizdə öz yaradıcılıq prinsiplərinə dəqiqliklə əməl etməyən, cəmiyyətin qarşısında öz məsuliyyətini dərk etməyən mətbuat orqanlarının da sayı az deyil.

Beləliklə, demokratik jurnalistikanın prinsiplərinə və nəzəri modellərinə, eləcə də beynəlxalq konsepsiyalara əsaslanaraq fəaliyyət göstərməyə çalışan yerli kütləvi informasiya vasitələri müxtəlif jurnalistika məktəbləri ilə tanış oldu. Bu tanışlıq tez bir zamanda Azərbaycan KİV-ini baxıb öyrənməyə, yenilikləri göturməyə və yeni yolla getməyə vadar etdi ki, bununla da "jurnalistikada transformasiya prosesi" anlayışı ortaya çıxdı. Onu da qeyd etmək lazımdır ki, müasir dünyada bir sıra ölkələrin jurnalistikası transformasiya prosesi dövrünü yaşayır. Bu siyahıda əsasən inkişaf etməkdə olan ölkələr yer tutur.

Haqqında danışdığımız bu proseslə əlaqədar olaraq günümüzdə " Qərb jurnalistikası" ifadəsinə tez-tez rast gəlirik. " Qərb jurnalistikası deyilən bir anlayış yoxdur. Beləcə Rusiya jurnalistikası, Polşa jurnalistikası, bolqar, fransız, Nigeriya, Hollandiya, tay, fin, İslandiya, Birma, Latviya jurnalistikası yoxdur. Yaxşı və pis jurnalistika var." (3, səh. 388) Bu fikirlərin doğruluğunu qismən qəbul edən professor Cahangir Məmmədli isə belə deyir: " Polyak, bolqar, tay, fin... jurnalistikası olmaya bilər. Ancaq Rusiya jurnalistikasının, fransız jurnalistikasının, ingilis jurnalistikasının... özünəməxsusluğunu, təcrübədə qazanılmış müsbət, mənfi özünəməxsus keyfiyyətlərini inkar etmək də qeyri-elmi olardı." (3, səh. 388) Bu iki nəzəriyyəçinin fikrini qarşılaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, bütün birbirinə zidd fikirlərə baxmayaraq "regional jurnalistika" anlayışı mövcuddur.

Bu anlayışı Qərb və Şərq jurnalistikası kimi daha irimiqyaslı və ya Rusiya, ABŞ, Türkiyə və s. jurnalistikası adlı altında daha konkret qruplara bölmək olar. Bu jurnalistika qrupları və ya məktəblərinin hamısının əsas məqsədi əslində demokratiyanı və söz azadlığını möhkəmləndirməkdən ibarətdir. Məhz bu baxımdan Devid Rendal haqlıdır. Yəni məhz onun qeyd etdiyi kimi " yaxşı jurnalistka" demokratiya və söz azadlığının keşiyində dura bilər. Lakin onu da nəzərə almaq lazımdır ki, hər bir jurnalist və ya onun çalışdığı media orqanı öz vəzifəsini yerinə yetirərkən aid olduğu dövlətin qanunlarına və cəmiyyətin xarakterik xüsusiyyətlərinə söykənir. Bu zaman hər bir jurnalist beynəlxalq norma, kodeks və prinsiplərlə yanaşı öz ölkəsinin keçmiş olduğu təcrübəyə əsaslanır, jurnalistin yaradıcılığında onu formalaşdıran cəmiyyətin şüuru, yaşam tərzi və milli koloriti özünü göstərir. Deməli, Rusiya,

İngiltərə, Fransa kimi zəngin jurnalistika təcrübəsinə malik ölkələrin hər biri ayrılıqda jurnalistika məktəbi və ya peşəkarlıq standartı hesab oluna bilər.

Artıq məlum olduğu kimi Qərb standartlarımın Azərbaycan jurnalistikasına transformasiya prosesi də məhz ölkəmiz azadlıq əldə etdikdən sonra güclənməyə başladı. Əvvəlcə onu qeyd etmək lazımdır ki, transformasiya prosesi sistemli şəkildə gedir. Bu proses aid olduğu sahəyə bir istiqamətdən yox, bir neçə müxtəlif yöndən təsir edir. Transformasiyaya məruz qalan elm və yaradıcılıq sahələrində iqtisadi, siyasi və mədəni baxımdan baş verən dəyişikliklər özünü göstərir. Bu gün Azərbaycan jurnalistikası da təkcə yaradıcılıq baxımından deyil, maliyyə məsələlərinin idarəsinə, biznes sahəsi kimi inkişafına, etik normalar çərçivəsində fəaliyyətinə görə də Qərb standartlarına söykənir. Əgər bu proses, bir istiqamətdə baş verərsə, onun jurnalistikanın inkişafında rolu daha az olar və həmin sahənin inkişafı daha zəif gedər.

Kütləvi informasiya vasitələrinin inkişafı üçün yaradıcılıq istiqamətində transformasiya vacib məsələlərdəndir. Dünya jurnalistikasının yaradıcılıq standartlarının transformasiya prosesi özünü müxtəlif istiqamətlərdən göstərməkdədir. Və bu proses bir sıra dəyişikliklərə də səbəb olmuşdur. Belə dəyişikliklər daha çox janrlar sistemində əks olunur. Belə ki, Qərb modelinə əsaslanan müasir Azərbaycan jurnalistikasında bir sıra janrlar artıq tarixə keçməkdədir. Bu gün az-az müraciət olunan belə janrlara oçerki, felyetonu misal göstərmək olar.

Texnikanın yüksək inkişaf etdiyi və informasiyanın bol olduğu bu dövrdə öz qısa və konkretliyi ilə fərqlənən informasiya janrlarına daha çox yer verilir. "Bu gün jurnalistikada janrın transformasiyası, dəyişkənliyi informasiya janrlarının xeyrinə baş verir." (3,səh 287)

Müasir dövrdə ən çox müraciət olunan xəbər və reportaj kimi operativ informasiya janrları özləri belə, bir sıra dəyişikliklərə məruz qalmışlar. "Headline", "lead", "backgraund" kimi hissələrdən ibarət olan müasir xəbər janrı da ilkin olaraq Qərb ölkələrinin təcrübəsində özünü sübut etmiş və ən çox müraciət olunan formatlara çevrilmişdir.

Müasir Azərbaycan qəzetlərində tez-tez rast gəlinən janrlardan biri də köşə yazılarıdır ki, bu tip yazılar mətbuatımızda 90-cı illərdən görünməyə başlamışdır. Bəzi nəzəriyyəçilər "köşə yazısı" nı janr kimi qəbul etmir, bunun sadəcə bir yazı forması olduğunu bildirirlər. Öz yazarına (jurnalistə) fikrini bildirməkdə bir sıra sərbəstliklər verən köşə yazılarına daha çox Türkiyə mətbuatında yer verilir. Rusiya mətbuatında - "kolonka", Türkiyə mətbuatında isə "köşə yazısı" kimi tanınan bu forma özü də transformasiya prosesinin nəticələrindən biri hesab oluna bilər.

Azərbaycan jurnalistikasının yaradıcılıq təcrübəsinə təsiri ilə diqqəti çəkən transformasiya prosesi eyni zamanda peşə etikasının formalaşmasında da rol oynamaqdadır. Belə ki, beynəlxalq standartlara uyğun şəkildə inkişaf etmək, öz işini jurnalistikanın hüquqi bazasını təşkil edən dünyaca qəbul olunmuş qanun, prinsip və doktrinalara uyğun şəkildə qurmaq zərurəti həm də, qəbul olunmuş etik prinsiplər əsasında fəaliyyət göstərməyi də vacib edir. 1949-cu ildə KİV-in fəaliyyət mexanizmi kimi rəsmiləşdirilən "Qərəzsizlik doktrinası", 1954-cü ildə Jurnalistlərin Beynəlxalq Federasiyasının qəbul etdiyi " Jurnalistlərin davranış prinsipləri haqqında bəyanat", ABŞ Peşəkar Jurnalistlər Cəmiyyətinin 1993-cü ildə qəbul etdiyi " Etika kodeksləri" və s. bu kimi sənədlər jurnalist etikasının hüquqi bazasını təşkil

edir. Müasir dövrümüzdə nəinki müxtəlif ölkələr, hətta bu ölkələrin konkret informasiya orqanları belə özlərinin etik normalarını müəyyən etmişlər və fəaliyyətlərində ümumi prinsiplərlə yanaşı üstün tutduqları konkret etik normalara daha ciddi şəkildə əməl edirlər.

"Məsələn, "Washington Post" qəzeti özünün etik normalarını ifadə edən sənədində göstərir ki, bu qəzet həqiqətin təsdiqinə çox ciddi yanaşır, fəal məsuliyyət hissi və qərəzsiz yanaşma metodunu üstün tutur. Hər cür baxışları əks etdirməkdən çəkinmir, heç kimə heç nəyə üstünlük vermir." (3, səh.211) Onu da qeyd etmək lazımdır ki, hətta Qərb ölkələrində belə heç də bütün informasiya vasitələri və onların jurnalistləri bu normalara əməl etmirlər, şübhəsiz ki, bu ölkələrdə də neqativ hallar müşahidə olunur və məhz bunun nəticəsidir ki, KİV-in hüquqi bazası get-gedə daha da formalaşır, daha təkminləşmiş qanunlara əsaslanmağa başlayır.

Son illərdə texnologiyanın sürətli inkişafı , internetin və mobil əlaqə vasitələrinin həyatımızda rolunun artması kütləvi informasiya məkanının ümumi görüntüsünü dəyişmişdir. Bu dəyişiklik bir sıra yeni anlayışların meydana gəlməsinə səbəb olmuşdur. Konvergensiya, mobil jurnalistika, informasiya məkanının individuallaşması, hibrid media, ənənvi və qeyri- ənənəvi media kimi anlayışlar belələrindəndir.

Konvergensiya terminin açılışı -mətbuat, radio və televiziyanın, daha doğrusu onların istehsal etdiyi informasiyanın internet və mobil texnika vasitəsilə bir araya gətirilməsi – kimi verilsə də, bəzi nəzəriyyəçilər bunu tam dəqiq termin kimi qəbul etmir, ona sadəcə olaraq texnologiyanın yüsək inkişafı kimi baxırlar. Rusiya nəzəriyyəçilərinin fikrincə "konvergensiya" anlayışını "inteqrasiya" ilə qarışdırmaq olmaz. (4, səh. 92)

Artıq kütləvi informasiya vasitələri haqqında elm formalaşmışdır desək yanılmarıq. Belə ki, yuxarıda göstərilən və daha çox ifadə və terminlər var ki, müxtəlif ölkə nəzəriyyəçiləri onların şərhini verməyə, onları təhlil etməyə çalışırlar. Beləliklə, KİV haqqında elm formalaşır. Yeni kutləvi informasiya vasitələrinin, onlarla əlaqəli termin və ifadələrin yaranmasında texnologiyanın inkişafı hər nə qədər əhəmiyyətli rola malikdirsə, bu yeniliklərin dünyanın müxtəlif ölkələrinə yayılmasında transformasiya prosesi bir o qədər böyuk rol oynayır.

Hazırda nəzəriyyəçiləri narahat edən məsələlərdən biri ənənəvi və qeyri- ənənəvi medianın qarşı-qarşıya gəlməsidir. Kütləvi informasiya vasitələri haqqında araşdırmalar aparan bəzi alimlərin fikrincə " bu gün ənənəvi media yeni media ilə (qeyri ənənəvi media ilə) kəskin rəqabət vəziyyətindədir və bu rəqabət ənənəvi medianın iflası ilə sonlanacaq." (4, səh. 106) Dünyanın bir çox böyük mətbuat orqanları, televiziya, radio, hətta informasiya agentlikləri öz internet saytlarını, portallarını yaratmışlar. Lakin dünya jurnalistikasının nəhəngləri hesab olunan "Washington Post", " The New York Times" kimi qəzetlər bunula kifayətlənmir, daha geniş auditoriyanı əhatə etmək üçün informasiyanı təkcə yazılı şəkildə deyil, həm də görüntülü şəkildə öz internet portallarında yerləşdirirlər. Onlar özlərinin əldə etdikləri informasiya ilə yanaşı digər mənbələrdən, televiziya kanallarından alınan görüntülü xəbərləri də yayımlayırlar. (4, səh. 106) Bu tip yenilikləri ilk tətbiq edənlər Qərb jurnalistikasının nümayəndələri olsalar da, kütləvi informasiya vasitələrinin konvergensiya prosesinə uyğun fəaliyyəti digər ölkələrin mediasında, o cümlədən Azərbaycan jurnalistikasında da artıq müşahidə olunmaqdadır. Bu da öz növbəsində transformasiya prosesinin nəticələrində biri hesab oluna bilər.

Təbii ki, bu zaman təkcə jurnalistika sahəsində deyil, eyni zamanda mədəni, iqtisadi və texniki sahələrdə baş verən transformasiya prosesi nəzərdə tutulur. Axı jurnalistikada hər hansısa bir yenilik etmək üçün ilk növbədə texniki və iqtisadi inkişafın olması əsas şərtlərdəndir.

Azərbaycan mətbuatı və ümumilikdə jurnalistikası Qərb jurnalistikasının təcrübəsindən getdikcə daha çox bəhrələnməkdədir. Lakin baş vermiş inteqrasiya və transformasiya kimi önəmli proseslərin nəticəsində təkcə yerli kütləvi informasiya vasitələri deyil, eyni zamanda oxucu, dinləyici və tamaşaçı auditoriyası da yeni keyfiyyətlər qazanmışdır. İlk növbədə onu qeyd etmək lazımdır ki, müasir KİV auditoriyası öz aktivliyi ilə seçilir. Bu gün daha tələbkar olan auditoriya eyni zamanda konkret xüsusiyyətləri ilə fərqlənən kiçik qruplara bölünür. Bu auditoriya qrupları ümumi auditoriya anlayışından kiçik olsalar da, əslində oxşar maraqlara və dünya görüşünə sahib olan kifayət qədər çox insanı özündə birləşdirir.

Haqqında danışdığımız bu insan qrupları məhz ixtisaslaşmış, konkret ünvana istiqamətlənmiş kütləvi informasiya vasitələrinin auditoriyalarıdır. Qərb jurnalistikasında müxtəlif peşə sahiblərinə, evdar qadınlara, uşaqlara və s. bu kimi insan qruplarına ünvanlanmış ixtisaslaşmış qəzet və jurnallar , eləcə də radio və telekanallar mövcuddur. Hazırda Azərbaycan KİV-də də bu proses getməkdədir. Xarici ölkələrdə olduğu qədər geniş yayılmasa da, bu yolda ilk addımlar atılmış hesab oluna bilər. Ölkəmizdə bu günədək müxtəlif auditoriyalara ünvanlanma konkret qəzet, jurnal, radio və televiziyadan daha çox ixtisaslaşmış rublikalar, səhifələr və verilişlərin hazırlanması ilə kifayətlənilirdisə, artıq bütünlüklə ixtisaslaşmış kütləvi informasiya vasitələri mövcuddur. Bunlardan " Mədəniyyət", "İdman Azərbaycan", "Atv int" kimi televiziya kanallarını, eləcə də , "Azərbaycan müəllimi", "Elm qəzeti", "Birja", "Atv maqazin", "Aysel" və bu kimi bir sıra ixtisaslaşmış qəzet və jurnalları göstərmək olar. Qeyd etmək lazımdır ki, ixtisaslaşmış qəzetlərlə sahə qəzetlərini eyniləşdirmək olmaz. İxtisaslaşmış nəşrlər konkret auditoriyaya ünvanlanır, sahə qəzetləri isə müxtəlif idarə və təşkilatların, nazirliklərin mətbu orqanları olub, onların fəaliyyətini işıqlandırır.

İnsanları kütləvi informasiya vasitələrinin bu günü ilə yanaşı, onun gələcəyi də maraqlandırır. Zaman keçdikcə auditoriya və KİV-in münasibətlərində də dəyişikliklər meydana gəlir. Texnologiyanın sürətli inkişafı insana hazır informasiyanı qəbul etməkdən başqa, eyni zamanda ən son xəbərlərin ötürücüsünə çevrilmək imkanı da verir.

Massaçusetsin Texnologiyalar İnstitutunun medialaboratoriyasının rəhbəri Benderin fikrincə "İnformasiya məkanında əsas oyunçu və aparıcı qüvvə şəxslər özləridir." O, qeyd edir ki, " bu inkişaf prosesinin necə davam edəcəyini bilməsək də, personofikasiya və individuallaşma istiqamətində irəliləyəcəyi artıq özünü aydın göstərməkdədir ." (5, səh.6) Benderin belə düşünməsinə səbəb də məhz texnologiyanın yüksək inkişafı, insanların həyatında geniş və önəmli yer tutmasıdır. Heç kimə sirr deyil ki, mobil telefonlar, kompüter və dolayısı ilə internet yaşamımızı özündən asılı bir vəziyyətə salmışdır. Xüsusilə uzaq məsafəni yaxın etmək bacarığı və istənilən vaxt, istədiyimiz şəxslərlə ünsiyyət qura bilmək imkanını bizə verməsi bu vasitələrin qiymətini artırır.

Eyni zamanda onlar informasiyanın daha tez və ilk növbədə ayrı-ayrı fərdlər arasında yayılmasına şərait yaradır. Təbii ki, hələlik fərdlər arasında ötürülən bu in-

formasiya daha çox onların şəxsi məsələlərindən və ya kiçik auditoriyanı maraqlandıran məsələlərdən ibarətdir. Lakin onu da qeyd etmək lazımdır ki, bu gün sosial şəbəkələr vasitəsilə ünsiyyət quran insanlar daha qlobal məsələlərə də öz fikirlərini bildirirlər, eyni zamanda onlar münasibət bildirməklə qalmır, irad və təkliflər irəli sürürlər. Hadisələrin təhlilində, problemlərin həllində insanların rolu artdığı kimi, informasiyanın toplanması və ötürülməsində də onların rolunun daha da artacağını anlamaq çətin deyil. Bu zaman isə müxtəlif suallar ortaya çıxır. Doğrudanmı yaxın gələcəkdə informasiya məkanının ümumi görüntüsü dəyişəcək? Həqiqətənmi individuallaşma adlandırılan bu proses medianın cəmiyyətin həyatındakı rolunu azaldacaq və ya başqa formada fəaliyyətini təmin edəcək? və s.

Bütün bu sualların dəqiq cavabının nə olacağını, hadisələrin necə cərəyan edəcəyini zaman göstərəcək. Təbii ki, Azərbaycan jurnalistikası da bu inkişafdan geri qalmayacaq, həm xarakterik, ənənəvi xüsusiyyətləri, həm də davam etməkdə olan transformasiya prosesinin köməyi ilə yeni inkişaf yolunda uğurla addımlayacaqdır.

Ədəbiyyat

1. Справочник для журналистов Москва, 1998
2. Akif Rüstəmov Jurnalistikanın əsasları Bakı, 2007
3. Cahangir Məmmədli Jurnalistkanın nəzəriyyəsi və təcrübəsi Dərslik, Bakı, 2012
4. Вестник Московского университета Москва, 2010
5. Вестник Московского университета Москва, 2006

Goncha Agaeva

The contemporary Azerbaijan press and role of the process of transformation in its development

Summary

In the presented article, first of all the author looks through the way that contemporary Azerbaijan press had passed. And here the role of national press in gaining independence is highly appreciated. The article also deals with models of foreign journalistic and their influence to Azerbaijan press. And here special attention is paid to the process of transformation. The results of transformation process and their influence to the development of Azerbaijan journalistic have also got their expression in the article. For the making of the article more colourful and interesting the press of foreign countries is compared with our national press according to the concrete facts. Some examples from different theorists and media have also been spoken in the article. It is a scientific article with interesting facts.

Агаева Гонча

Современная Азербайджанская пресса и роль просесса трансформации в развитии прессы

Резюме

В статье автор в первую очередь смотрит на дорогу через которую Азербайджанская пресса прошла. Речь идеть особенно о трансформации зарубежных моделей журналистики на Азербайджанскую прессу. В этой статье автор отценовает результаты трансформационного просесса, его роль в прогрессе Азербайджанской современной журналистики. Что бы статья было интересной и боле научной Азербайджанское СМИ сравневается с иностранной прессой, автор исполъзоваеть цитаты разных теоретиков мировой журналистики. Это научная статья с интересноми фактами.

Rəyçi: Professor Cahangir Məmmədli

XATİRƏ YUSİBOVA
Sumqayıt Dövlət Universiteti
vusalyusibov.x@mail.ru

UŞAĞIN İNKİŞAF VƏ TƏRBİYƏSİNDƏ UŞAQ ƏDƏBİYYATININ ROLU

Açar sözlər: uşaq ədəbiyyatı, folklor, nağıl, tərcümə, uşaq
Ключевые слова: детская литература, фольклор, сказка, перевод, ребёнок
Key words: children's literature, folk, tail, translation, child

Uşağın inkişafında, tərbiyəsində, dünyagörüşünün genişlənməsində və s. ədəbiyyatın, mütaliyənin rolu çox böyükdür. Yaxşı uşaq ədəbiyyatı uşağa sevgini, mərhəməti, dostluğu və insana xas olan digər gözəl xüsusiyyətləri aşılaya bilir. Uşağa oxumağı uşaqlıqdan vərdiş etdirmək lazımdır. Yazıçıların, şairlərin qələmə aldıqları, uşaqların xəyallarında canlandırdıqları ən gözəl, təmiz duyğular uşaq ədəbiyyatında öz əksini tapa bilir.

İnsan ünsiyyətinin ən vacib formalarından biri nitqdir. Bu nitq ədəbi olduqda insana xüsusi təsir göstərir. Hətta uşaqlara təsir göstərə bilən ədəbi dil öz nümunələri ilə onları nağıllar aləminə aparmaq iqtidarındadır.

Məşhur rus yazıçısı M.Qorki uşaq ədəbiyyatı haqqında demişdir: "Uşaq ədəbiyyatı qüdrətli bir dövlətdir, onun öz suveren qanunları və qaydaları var".(1 səh.3)

Uşaq ədəbiyyatının spesifik xüsusiyyətlərindən biri də odur ki, bu ədəbi nümunələrdə uşaqların yaşı, psixoloji durumları, əqli inkişafları nəzərə alınmalıdır. Uşaq ədəbiyyatı aşağıdakı yaş qruplarına görə təsnif olunur:

1. Bağçayaşlı uşaqlar (3-7 yaş)
2. Kiçikyaşlı məktəblilər (7-11 yaş)
3. Ortayaşlı məktəblilər (11-15 yaş)
4. Yuxarı yaşlı məktəblilər və yaxud gənclər (15-17 yaş)

Uşaqlar üçün yazan hər bir yazıçı bu bölgünü nəzərə almalıdır. Eyni zamanda uşaq ədəbiyyatını yazarkən tək yaş bölgüsünü deyil, digər xüsusiyyətləri də nəzərə almaq lazımdır. Bu xüsusiyyətlərə misal olaraq aşağıdakıları nümunə göstərmək olar:

- Mövzuda əsas yer uşaqlara verilməlidir;
- Mövzunun həcmi az, şəkilləri isə çox olmalıdır. (xüsusilə kiçik yaşlı uşaqlar üçün olan kitablarda);
- Sadə dildə, yəni uşaqların başa düşə biləcəyi tərzdə yazılmalıdır;
- Təsvirə az yer verilməlidir;
- Sərgüzəştli hissələr çox olmalıdır;
- Xoşbəxt sonluqla – xeyrin şər üzərində qələbəsi ilə bitməlidir;
- Tərbiyəvi məqsədin olması da əsas şərtlərdəndir.

Yaş səviyyəsi və sadalanan xüsusiyyətlər nəzərə alındıqda uşaqlar üçün yazılan kitab onların maraqlarına səbəb olur, estetik zövqlərini formalaşdırır, onlara sevinc bəxş edərək onlarda nikbinlik ruhunu möhkəmləndirir. Uşaqlar üçün yazıb yaratmaq çətin olduğu qədər də zövq vericidir.

V.Q.Belinski deyib ki, yaxşı kitab "uşaq üçün bayramdır". (1 səh.4)

Uşaqların düşüncələrini qələmə almaq, onları duyaraq onlar üçün yazmaq hər kəsə nəsib deyil. Heç də hər kəs bu işin öhdəsindən uğurla gələ bilmir. Uşaq ədəbiyyatı uşaqların biliklərini artırmağa, maraq dairəsini genişləndirməyə xidmət edən bir vasitədir. Qorki yazırdı: "Uşaq təbiəti rəngarəngliyə, qeyri-adiliyə can atır. Onlar üçün yazılan kitabın dili sadə və aydın olmalıdır ki, movcud olan çətin və müdrik mövzular onlara izah oluna bilinsin". (1 səh.4)

Nəzər saldıqda görürük ki, dünya uşaq ədəbiyyatı, elecə də azərbaycan uşaq ədəbiyyatı nümunələri hər bir xalqın öz folklorundan, şifahi xalq ədəbiyyatından qaynaqlanır. Buna görə də, uşaqların folkloru sevməsi heç də təsadüfi deyil. Nağılları, laylaları dinləyərək həyat haqqında, insan münasibətləri haqqında müəyyən fikirlər formalaşdırmaq olur.

Uşaqlar üçün yazıb yaradanların əksəriyyəti folklora aid olan motivlərdən, mövzulardan öz nümunələrində istifadə edərək uşaqlarımız üçün əvəzolunmaz əsərlər yaratmışlar. Buna misal olaraq azərbaycan, rus, ingilis və başqa xalqların nümayəndələrini və nümunələrini göstərmək olar.

Məşhur rus pedaqoqu K.Uşinski özünün uşaq oxusu üçün nəzərdə tutulan məşhur "Doğma söz" kitabında nağıllar, atalar sözləri, tapmacalar və digər folklor nümunələrindən istifadə etmişdir. Həmçinin Lev Tolstoy qeyd edib ki, folklordakı süjet xəttini uşağa çatdırmaqla yanaşı, burada xalqın dilini, onun xüsusiyyətlərini, təravətini – bir sözlə milliliyi qoruyub saxlamağa diqqət etmək lazımdır. (3 səh.11-12)

Şifahi xalq ədəbiyyatının nümunələrindən olan tapmacalar, yanıltmaclar və s. uşaqlar üçün təkcə əyləncə xarakteri daşımır, onlar uşaqların nitq, təfəkkür, düşüncə və söz ehtiyatının formalaşmasına da təsir göstərir.

Azərbaycan uşaq ədəbiyyatının inkişaf etməsində və bu günə qədər gözəl nümunələrlə zənginləşərək bizə gəlib çatmasında tanınmış ədiblərimizi və onların əsərlərini qeyd etməmək olmaz. M.Ə.Sabir, A.A.Bakıxanov, S.Ə.Şirvani, A.Səhhət, C.Məmmədquluzadə, S.S.Axundov, S.Vurğun, M.Dilbazi və digər yazarlarımız öz ədəbi nümunələrində uşaqların könlünü oxşamaqla yanaşı onlarda vətənə, anaya məhəbbət, sabaha ümid və inam, incə zövq, gözəl fikir və duyğular, yüksək əxlaqi keyfiyyətlr yaratmağı da özləri üçün borc biliblər.

Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" adlı kitabı uşaq ədəbiyyatımızın sistemləşdirilməsi və tədqiqi sahəsində atılan uğurlu addım kimi qiymətləndirmək olar. Bu kitabda ədiblərimizin öz əsərlərində nəyi aşılamaq, uşaqlara nəyi çatdırmaq istəyi açıq şəkildə göstərilmişdir. Kitabda Cəlil Məmmədquluzadə haqqında belə bir fikir qeyd olunub: "Cəlil Məmməd-quluzadənin ən böyük və nəcib arzularından biri uşaqları vətənə və xalqa məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaq normaları aşılamaqdır". (2 səh.100)

Uşaq ədəbiyyatının ən geniş yayılmış və uşaqlar tərəfindən daha çox sevilən və tələb olunan növlərinə aşağıdakı janrları misal göstərmək olar:

- Nağıl
- Təmsil
- Seir
- Povest
- Hekayə
- Roman (tarixi, macəra mövzusunda)

- Fantastika

Yəqin ki, nağıllar azyaşlı, kiçik yaşlı oxucuların ən çox sevdikləri, maraqla qulaq asdıqları janrlardan biridir. Nağılları uşaqlara sevdirən əsas cəhətlərdən biri də yəqin odur ki, burada canlanan obrazlar öz təzahürünü təkcə insanlarda deyil, həm də heyvanlarda tapır. Hələ lap qədim dövrlərdən başlayarq dünya ədəbiyyatında heyvanların həyatından bəhs edən çoxlu əsərlər yazılmışdır. Belə əsərlər çox əvvəllər meydana gəlmiş, təbiətin qoynunda yaşayan canlıların dilindən söylənərək təmsil janrını yaratmış və əsasən insanların həyat və məişətini əks etdirmişdir.

Demək olar ki, dünyanın bütün xalqlarının şifahi xalq yaradıcılığında, xüsusilə də nağıllarda heyvanların həyatına həsr olunmuş süjetlərə geniş yer verilmişdir.

Son zamanların ədəbiyyatında heyvanlar təkcə təmsil və nağılların obrazları olaraq qalmır, roman, povest və hekayələrin baş qəhrəmanları kimi çıxış edirlər.

Təbii ki, Azərbaycan nağıllarında da heyvan obrazları öz əksini tapmışdır. Heyvanların öz dillərinin olması, onların adamlar kimi danışması hələ lap qədim nağıllarda da göstərilmişdir.

Bütün bu qeyd etdiklərimizlə yanaşı, hər bir xalqın ədəbiyyatını zənginləşdirən yollardan biri də tərcümə ədəbiyyatıdır. Təbii ki, hər bir xalqa məxsus uşaq ədəbiyyatı nümunələrinin yayılmasında, təbliğ olunmasında və eyni zamanda dünyada tanınmasında tərcümənin yeri əvəzsizdir. Tərcümə olunan ədəbiyyat nümunələri hər bir xalqın ədəbiyyatının əvəzedilməz xəzinəsidir.

Dünya uşaq ədəbiyyatı incilərinin azərbaycan dilinə tərcümə olunması çox sevindirici haldır. Tərcümə olmasaydı, uşaqlar digər ölkələrin ədəbi nümunələri ilə tanış olmaq imkanından istifadə etməmiş olardılar və biz uşaq ədəbiyyatımızın əvəzolunmaz nümunələrini dünyaya tanıtmaq imkanından məhrum olardıq. Tərcümə olunaraq oxucuların ixtiyarına verilən bu əsərlər insanın dünyagörüşünü formalaşdırmaqla, onu digər xalqların mədəniyyəti, adət-ənənəsi, həyat tərzi və s. ilə tanış olmaq imkanı yaradır. Demək olar ki, dünya uşaq ədədbiyyatının bir çox nümunələri azərbaycan dilinə tərcümə olunub.

İstənilən bədii əsərin, ədəbi nümunənin tərcüməsi zamanı milli özünəməxsusluğun saxlanılması ilə yanaşı, ona milli koloritin verilməsi zəruridir. Hər hansı bir dil vahidinin mənası və ya mahiyyəti onun emosional çaları ilə sıx bağlıdır. Sözü, söz birləşməsini və ya cümləni tərcümə edərək onların mənası ilə bağlı olan hisslər və emosiya problemini düzgün çatdırmaq çox vacibdir. Belə hallarda orijinal sözlərin yalnız mənasını yox, onların üslubi xüsusiyyətlərini də bilmək lazımdır. Bədii əsərləri tərcümə edərkən tərcüməçinin ilk növbədə vəzifəsi bəzi halda çox çətin olan orijinaldakı üslubi vasitələri imitasiya etmək və ya köçürmək yox, onu doğma dilə uyğun şəkildə tərcümə etməkdir.

Ədəbi nümunənin nə dərəcədə yaxşı, keyfiyyətli tərcümə olunduğunu bilmək üçün onu orijinal variantla müqayisə etdikdən sonra bilmək olur. Uşaq ədəbiyyatını da tərcümə edərkən tərcümədə istifadə olunan üsul və metodlardan yararlanmaq vacibdir.

Uşaq ədəbiyyatının tərcüməsində də bəzi mürəkkəb cümlələrin sadələşdirilməsi, əsərdəki müəyyən hissələrin ixtisara salınması kimi hallara rast gəlmək mümkündür. Bəzi hallarda bu məqsədəuyğun olur, bəzi hallarda isə əsəri sadəcə olaraq ixtisara salmaq üçün edilir.

Tərcümə ədəbiyyatının yeri xüsusidir. Belə tərcümələr olmasa biz digər xalqların ədibləri və onların yazdıqları ilə tanış ola bilməzdik. Şarl Peronun "Qırmızı papaq", "Çəkməli pişik", Qrim qardaşlarının nağılları, Andersonun "Düyməcik", "Qar kraliçası" nağılları və digərlərinin dünyaca məşhur əsərləri bizim də oxucular tərəfindən sevilərək oxunur. Bu məşhur nağıllar, əsərlər də tərcümə edilərkən müəyyən ixtisrlara məruz qalmışlar. Məsələn, Şarl Peronun "Qırmızı Papaq " nağılının orijinal sonluğunda qırmızı papaq canavar tərəfindən yeyilir. Amma biz əsərin sonluğunun daha nikbin bitdiyini bilirik. Bu da təbii ki, əsəri tərcümə edənin tərcümə əsnasında əlavə etdiyi bəzi dəyişikliklərdir. (4 səh.47)

Tərcümə olunan ədəbiyyatda tərcüməçi tərəfindən edilən müəyyən əlavələr və ya ixtisarlar əsərin mövzusunu dəyişmək, onun orijinalına xələl gətirmək məqsədi ilə edilmir. Bu zaman əsərə müəyyən rəngarənglik verilir. İxtisarlar isə bəzi siyasi məqamları, siyasi təsvirləri əhatə edir. Buna misal olaraq Stivensonun "Qulliverin Səyahəti" əsərini göstərmək olar.

Tərcümə olunan ədəbi nümunələrdə də folklorun izini görmək olur. K.Anderson qeyd etmişdir ki, nağıllar da folklor nümunələri kimi rəngarəng olmalıdır ki, uşaqların və böyüklərin düşüncələrinin, maraqlarının müxtəlif olmasına baxmayaraq onları eyni maraqla qarşılasınlar. (4 səh 52)

Bu səbəbdən də, uşaq ədəbiyyatının əksər nümunələri folklordan bəhrələnib və bu günükü günümüzdə də geniş oxucu kütləsi tərəfindən oxunur və sevilir.

Ancaq təəssüf ki, çox zaman uşaq ədəbiyyatına barmaqarası yanaşıblar, onu uşaq-muşaq ədəbiyyatı hesab edənlər də tapılıb. Dünya, insan, təbiət və cəmiyyət kimi məfhumları uşaq lap körpə yaşlarından qavrayaraq hafizəsinə həkk etməyə başlayır. Bu məfhumları düzgün qavrayaraq böyümək üçün istiqamət lazımdır. Bunları uşağa çatdıran ən yaxşı vasitə də elə uşaq ədəbiyyatının özüdür.

Bəziləri hesab edir ki, uşaq ədəbiyyatı uşaqda arzularla yaşamaq həvəsini artırır və onu xəyalpərəst edir. Bu zaman isə heç bir sağlam fikirdən söhbət gedə bilməz.

Uşaq ədəbiyyatının çoxəsirlik tarixinə baxmayaraq bu ədəbiyyat haqqında müxtəlif fikirlər söylənilib. Söylənilən fikirlər bununla bitmir.

Burada Səməd Vurğunun qeyd etdiyi bir fikri vurğulamaq zəruridir: "Biz uşaqla danışdığımız zaman – insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman – insan üçün yazdığımızı unutmamalıyıq. (2 səh.4)

Sadəcə, uşaqlar üçün yazarkən onların anlaya bildiyi dildə yazmalı, onların maraq dairəsində olan mövzulara toxunmaq lazımdır.

Müasir dövrümüzdə uşaqların maraqları da geniş və rəngarəngdir. Buna görə də uşaq ədəbiyyatına yeni nəfəs və yeni obrazlar bəxş etməyə davam etmək lazımdır.

Hal-hazırda ədəbi nümunələrdən ilhamlanaraq və istifadə edərək obrazlara yeni nəfəs verilir. Bu obrazlar öz inikasını cizgi filmlərində, oyunlarda, bədii filmlərdə müasir varianta öz təzahürünü tapır.

Qeyd olunanlardan başqa kitabı da uşağa sevdirməyin müəyyən yollarını tətbiq etmək zəruridir. Bu yollardan ən uyğunu və ən sadəsi kitablarda şəkillərin olmasıdır. Kitabaların illyustrasıyasının rəngarəng olması uşağın diqqətini cəlb edən başlıca xüsusiyyətdir.

Müasir nəfəs verilərək oxuculara təqdim olunan uşaq ədəbiyyatı nümunələrinə daha çox xarici ədəbiyyatı şamil etmək olar. Məs.: "Alisa möcüzələr ölkəsində" əsərinin müasir variantı film olaraq çəkilib. Eyni zamanda kompyuter oyunu versiyası da işlənib hazırlanıb.

Elmi yeniliyi: Məqalədə,mövcud fikirlərə yaradıcı münasibət öz əksini tapmışdır və problemə yeni nəzərlə yanaşılmışdır.

Tətbiqi əhəmiyyəti: Təqdim olunan mövzunun müqayisəli şəkildə araşdırılması son illərə bağlıdır. Məqalədə irəli sürülən fikirlərdən tədqiqatçılar istiqamətverici nəzəri bir mənbə kimi bəhrələnə bilərlər.

Ədəbiyyat

1. R.Yusifoğlu. Uşaq ədəbiyyatı. Bakı, ,, Şirvannəşr , 2006
2. Q.Namazov .Uşaq ədəbiyyatı. Bakı,2007
3. "Детская литература". Москва, "Просвещение", 1977. Подредакцией А.В.Герновского
4. "Детская литература". Москва, "Просвещение", 1977. Подредакцией Е.Е.Зубаревой

Хатира Юсибова

Роль детской литературы в развитие и воспитание ребенка

Резюме

Детская литература является одним из самых важных частей литературы. В жизни ребенка эта литература играет большую роль. Знакомство детей с жизнью, природой и другими вещами начинается с детской литературы. Эта литература берёт свои корни из фольклора. И поэтому она так близка детям.

Khatira Yusibova

The role of children's literature in the growth and behaviour of a child

Summury

Children's literature is one of the main parts of literature. This literature plays a great role in the life of a child. Child's acquaintance with life, nature and other things begins with this literature. This literature takes its roots from folk. That's why it is more closer to the children.

Rəyçi: Leyli Əliyeva
filologiya üzrə fəlsəfə doktoru

XATİRƏ XƏLİLOVA
Azərbaycan Dövlət Pedaqoji Kolleci
xatire82@gmail.com

KİÇİK HEKAYƏLƏRİN BÖYÜK USTADI

Açar sözlər: hekayə, satira, bədii portret, realizm ədəbi cərəyanı, qrotesk, sarkazm
Keywords: Literary current (flow, trend) of story, satire, art portrait, realism, qrotesk, sarcasm
Ключевые слова: рассказ, в литературных течений, художественный портрет, гротеск, сарказм.

M.Cəlilin yaradıcılığı hərtərəfli və genişdir. Hər hansı janrda yazmağından asılı olmayaraq yazıçı sözün və fikrin ətrafında dolanmadan açıq yazmışdır. Satira yaradıcılıq yolunu seçən ədib bir sıra janr və formalardan, üsul və vasitələrdən istifadə etmişdir. Hər bir əsər onun qələmindən mükəmməl və müfəssəl çıxıb. Ən kişik janrdan-hekayədən belə məharətlə istifadə etmiş, bir sıra tədqiqatçıların da dediyi kimi "kiçik janrın böyük ustadı" olmuşdur. M.Cəlil nədən yazır yazsın, yegənə məqsədi xalqına xidmət etmək idi. Yazıçı bəzən soyuqqanlıdır: ya hadisənin iştirakçısıdır ya da müşahidə edir. Belə hallarda o öz münasibətini kinayəli gülüşlə bildirir. Lakin, əsas məqsədi gülmək deyil, heç güldürmək də deyil. Güldürə-güldürə düşündürmək, düşünə-düşünə dəyişmək, inkişaf etmək, dünya xalqlarının tərəqqisinə qoşulmaq əsas məqsədidir.

Realizmə heç vaxt naxələf çıxmayan M.Cəlil həmişə yaşayır. O, realizmə həyatı doğru - düzgün əks etdirmək yolu kimi baxmış, qurtuluş yolunu burada görmüşdür. Sabirin təbirincə desək "ayinədə özünü əyri görənlər" şüurlarını və düşüncələrini formalaşdırmağa başlayıblar.

Onun bədii təsvirindəki xəlqilik, realizm həm də dil və üslubunda, yazı tərzində özünü qabarıq göstərir. Açıq ana dilində, xalqın başa düşə biləcəyi sadə dildə yazmaq onun başlıca amalı idi.

Mirzə Cəlilin gülüşü ideya dərinliyi və ictimai məzmunu ilə seçilir. Cəmiyyətin əks qütblərini- aldadan və aldananı, əzən və əzilənləri əsərlərinin mərkəzində birləşdirmişdir. Cəlil bir tərəfdən kəndlinin avamlığını və acızliyini gülüş obyekti seçir, digər tərəfdən kəndlini avam, aciz və çıxılmaz vəziyyətə salan qlava və naçarnikləri, əli şallaqlı katdaları kəskin satira atəşinə tutur. Lakin, onun bu iki obyektə baxışı, şəxsi münasibəti tamam fərqlidir. Avam kəndliyə necə ürək yanğısı ilə acıyırsa kəndlini əzən bu mühitə qarşı o qədər qəddardır.

Ümumiyyətlə, M.Cəlilin əsərlərində ilk dəfə sinfi ziddiyyətlər, cəmiyyətin bir-birinə zidd qütblərində duran zümrələr, təbəqələr real əks olunurdu. İlk dəfə olaraq "xırda" adamları, onların dərdini, ələmini, ürək döyüntülərini bədii ədəbiyyatın, sənətin mövzusu etdi.(2; səh. 6.)

Xalqını ətalətdən qurtarmaq üçün "xırda" adamları ədəbiyyata gətirmişdi, novruzəliləri, usta zeynalları, fatma xalaları, qurbanəli bəyləri öz realist təsvirinin mərkəzinə gətirmişdi.

Qeyd etdik ki, yazıçı hekayə janrına müraciət etmiş bu janrda elə əsərlər yaratmış , elə ideyalar irəli sürmüş, elə məsələləri qoyub həll etmişdir ki! Bəlkə bir romanla bu məqsədə nail olmaq olmazdı. Həm də mövzuları konkretdir, o heç vaxt mücərrəd, ümumi olan mövzulara toxunmayıb. Bütün mövzularını həyatdan alıb. Gündəlik həyatda qarşısına çıxan, başına gələn hadisələri qələmə alıb. Bəzən bunları mübaliğəsiz, sadə təhkiyə yolu ilə yazıb. Onun əsərlərində mübaliğəsiz , bəzəksiz-düzəksiz həyat hadisələri fantastik şəkildə qarşılaşdırılır.

Eybəcər və ülvi olanı, dəhşət və gülünc olanı ustalıqla əsərlərində birləşdirmişdir. Gerçəkliyin təzadlarını üzə çıxarmaq, uzağı yaxına gətirmək, real olmayanı reala çevirmək Cəlilin əsas ustalıqlarındandır. Gülməli durumda görünən əksər qəhrəmanları əslində çox qorxunc bir durumdadırlar, özlərində facəivilik daşıyırlar. M.Cəlil üçün gülüş məqsəd yox vasitə idi. Onun tənqidi mütərrəqi ideyalar üçündür.

Qeyd etdik ki, M.Cəlil kiçik hekayənin böyük ustadıdır. O, realist –satirik nəsrin ənənələrini davam və inkişaf etdirmişdir. Bədii üslub və dil cəhətdən yeni yollar açmış, bu sahədə də böyük dönüş yaratmışdır. Hekayə janrını yeni mövzu və personajlarla zənginləşdirmiş, yeni təhkiyə üsulları yaratmışdır.

Mirzə Cəlilin təhkiyə dili olduqca sadədir. Canlı danışıq dilinə, xalq danışıq üslubuna üstünlük vermiş, hər bir obrazı öz dilində -"sadə kətdi" dilində danışdırmışdır.

Hekayələrində müxtəlif mövzulara toxunmuş, onları müxtəlif formalarda yazmışdır: bəzən yazıçı özü hadisəni nağıl edir, bəzən personajlardan birinin dilindən verir, bəzən də naməlum bir hekayəçi hadisəni nağıl edir. Hər hekayəsində bir, bəzən bir neçə insan həyatının müəyyən məqamlarını təsvir edib başlarına gələn maraqlı əhvalatları nağıl edir. Düşdükləri komik vəziyyətlər bizi həm güldürür həm də düşünməyə çağırır. Ən azı onların vəziyyətinə düşməmək üçün.

"Saqqallı uşaq" hekayəsində divarı yazan yaşlı Kəblə Əzimin savadsızlığı, avamlığı mülayim və şəfqətli yumor yaratsa da onu bu vəziyyətə salıb şikəst edən, kor kimi saxlayan mühit tənqid olunur. Düzdür, biz Kəblə Əzimin yazı –hesab bilməməsinə gülürük, lakin, bu vəziyyətin özü qorxuncdur . Əslində bizim beynimiz bu yaşdakı adamın yazı və hesab bilməməsini qəbul etmir. Yazıçı qrotesk üsulundan istifadə etməklə dövrünü güclü satira atəşinə tutur. Oxucu istər istəməz "saqqallı uşaq"ların yaranma səbəblərini axtarır, araşdırır, düşünür və nəticəni özü çıxardır. Burda yazıçı böyük məqsədini oxucuya şərhsiz çatdırır, bu isə M.Cəlil dühasının böyüklüyüdür.

M.Cəlilin sənəti ona görə böyük gücə malikdir ki, müəllif ağır və zəhmli kinayə intonasiyasına da çox müraciət etmiş, eyni bir əsərdə ciddi və müxtəlif məsələlərə toxunmaqla yanaşı rəngarəng satira vasitə və üsullarını tətbiq etmişdir.-(2.səh321)

Avam müsəlmanlara münasibətini biz "Pirverdinin xoruzu" hekayəsində görürük. Özündə böyük faciəvilik daşıyan obrazlardan biri də Qasım əmidir. Qasım əmi sadə kəndlidir. Qonşu kəndə yaşayan baldızını gətirməyə gedən Qasım əmi Molla Cəfərə rast gəlir.Və elə burada hadisələrə düyün vurulur. Evli-eşikli , ailəliuaşaqlı olan Qasım kişi "o qədər sözəqulaq asan" adamdır ki, mollanın bir sözü ilə Pərinisəni siğə elətdirməyə razı olur. Özü öz başına müsibət gətirir. Əlbəttə, bütün

bunlar onun başına avamlığından, sadəlövhlüyündən, mövhumata, yalançı mollalara inanmağından gəlir.

Onun əsərlərindəki hər bir ailə kiçik cəmiyyəti xatırladır. Ailə münasibətləri dairəsindən həyatın geniş, qaynar meydanına, maraqlı, ziddiyyətli hadisələrlə, insanlarla dolu bir aləmə aparıb çıxarır. Ailə münasibətləri, ailə dərdləri və faciələri fonunda böyük həyat bütün cəmiyyət, bu cəmiyyətin köklü dərdləri, intəhasız müsibətləri göz qabağına gəlir. Bir surətin vəziyyətindən, mənəvi aləmindən bütün bir təbəqəni, insan qrupunu, onların işi , həyatı, təfəkkür tərzini öyrənmək mümkün olur. (2. Səh 121)

Ailəli kişinin mollanın bir sözü ilə ailəsini atıb evlənmək sevdasına düşməsi çox qorxunc və təhlükəlidir. Lakin, Yazıçı bu hadisəni bizə komik şəkildə çatdırır, biz Qasım kişinin halına gülməyə bilmirik. Əslində hekayənin mahiyyətində başqa şey dayanır. Məncə obraz kifayət qədər şişirdilmiş, ona inanılmaz xüsusiyyətlər verilmişdir. Mən ağsaqqal kişinin mollanın bircə sözü ilə ailəsindən üz döndərib təzə ailə qurmaq sevdasına inana bilmirəm. Bu hadisəni təsvir etməklə yazar güclü bir qroteskdən istifadə etmişdir. Öz dövrünün dini fanatizmini, eybəcərliyini ifşa etmək üçün bu üsula müraciət etmişdir.

Dinə, fanatizmə, fırıldaqçı mollalara-onların iç üzünü açmağa həsr olunmuş növbəti hekayə "Fatma xala"dır.

Yazıçının hekayələrində növbəti maraqlı cəhətlərdən biri də hadisələrə bir mövzudan giriş verilərək digər mövzuda bitməsidir."Fatma xala " hekayəsi "Başmağın itməsi" söhbəti ilə başlayır.Yazıq arvadı at götürüb gedəndə, o canının hayına qalan vaxt, hadisələrin digər qütbündə - Təzəkli kəndində Molla Qurbanəli məhəllə əhlinə belə məsləhət verir:

-Arvad nədi, həyətdən küçəyə çıxdı nədi, hələ bir para binamus müsəlmanlar övrətlərini yanlarına salıb aparırlar qohum-qardaş evinə (1.səh.173)

Yazıq və avam kəndlilər də and içib aman edirlər ki, onlar belə qələti heç vaxt etməzlər. Özləri belə hərəkət edənləri lənətləyirlər. Qadının kişinin yanında görünməsinin qəbahət və "günah" hesab edilməsi, əlbəttə , çox qəribədir. Lakin, təəssüf ki, mollalar öz əməllərinin ört-basdır olması üçün bu cür üsullara çox əl atırlar. Yazıçının mətləbi aydındır: qadınlar kölə kimi evdə otursunlar, bu dünyadan xəbərsiz olsunlar, əşya kimi alınıb satılsınlar. Onların nəinki öz haqqını tələb etməyə hətta danışmağa belə haqları yoxdur. Qadınlar öz ərlərinin quludur, və həmişə onlara müticsinə baş əyməlidirlər.

Bu yazıçını narahat edən növbəti məsələlərdən biridir. Bir çox əsərlərində qadın azadlığı mövzusuna toxunmuş və məharətlə həll etmişdir. Onun personajlarına çevrilmiş əksər qadınlar kişilərdən ağıllıdır, cürətlidir, qədirbilən və sədaqətlidir. Lakin, savadsızdırlar və "bozbaş" bişirməkdən başqa savadları yoxdur. Hamı onları əzib keçmək, haqqını yemək, əşya kimi istifadə etmək istəyir. Ərə verilərkən razı narazı olduqlarını soruşmaq heç kimin ağlına gəlmir.

Böyük ədib yenə də öz obrazını- onun eybəcərliyini güclü bir istehzayla vermiş olur.

"Danabaş kəndinin məktəbi"ndə biz feodal kəndinin danışıqsız itaətkarlığından müəyyən etiraz, narazılıq əhval-ruhiyyəsinə doğru inkişafını görürük. Buradakı kəndli surətləri hökumətdən, onun məmurlarından qaçmağa səy göstərir, həmçinin din xadimlərinə nifrətlərini büruzə verirlər. Hekayədə maarif ilə qaranlıq,

elm və cəhalət, rəiyyətlə hökumət, camaatla din xadimləri arasında ziddiyyət, dərin uçurum realist bir soyuqqanlıqla açılır.

Ümumiyyətlə hekayələrini öxuyarkən görürük ki, böyük mütəfəkkir xalqını narahat edən, inkişafdan qoyan hər bir məsələyə toxunmuş, onları qələmə almaqla (həm də onların başa düşəcəyi sadə dildə) istəyirdi ki, həmvətənləri özlərini kənardan görsünlər. Onları əzən, inkişafdan qoyan, dünya ölkələri sırasına qatılmağa imkan verməyən məsələləri dərk edib həll etməyə çalışsınlar.

Mirzə Cəlilin hekayələri hadisə, əhvalat nəqli xatirinə yazılmış əsərlər deyil. Bu əsərlərdə müəllifin əsas məqsədi, zəmanəsinin ən müxtəlif zümrələrinin ən səciyyəvi xüsusiyyətlərini özündə birləşdirən obrazlarla, yəni: xarakterlərlə oxucunu tanış etməkdir.

"Xanın təsbehi" hekayəsində o qədər güclü sarkazm vardır ki, hətta, qrotesk səviyyəsinə qədər qalxır. Onun Nəzərəli xan haqda dediyi"Nəzərəli xan hər kəsi istəsə asıb kəsə də bilərdi, istəsə əhv edib hər bir bəndənin ömrünü ona bağışlaya da bilərdi....Məhkəmə də özü idi, qəzavat da özü idi, şəriət də özü idi."(1. Səh.233)cümlələri obrazı tamamilə bizə təsvir etmiş həm də hekayənin əsas qayəsini açmış olur.

Burada çox maraqlı bir situasiya var. Xanı o qədər müqəddəsləşdiriblər ki, hətta onun təsbehini boş qaytarmaq ən böyük günah sayılır. Və heç kəsin buna cəsarəti çatmaz. "Bu haman təsbehdir ki, iki il bundan qabaq Dəyirmançı Mehdini dərədən tulladı, Orucəlinin evini yandırdı, uşaqlarını çölə atdı". Buradakı ifşaedici məqamlar açıq-aydındır. Çox güclü qroteskdən istifadə edərək yazıçı məqsədinə çatmışdır. Xanın təsbehinin "müqəddəs"liyinə inanmaq təəccüb doğurur.

Yazıçının satira qələmindən çıxan hekayələr , oradakı mövzu və obrazlar haqqında danışmaqla qurtarmaz. Hər bir hekayəsi ilə Azərbaycan həyatının bir səhifəsini canlandırmağa çalışmışdır. Novruzəliləri, usta zeynalları, fatma xalaları, pəri xalaları, sadıq əmiləri ürək yanğısı ilə qələmə almış, onların xarakterindəki saflığı, təmizliyi, mənəvi halallığı şəfqətlə bildirmişdir. Belələrinin dəyişməsi, təhsili, inkişafı, tərəqqisi yolunda yorulmadan çalışmış və buna nail olmuşdur.

Duyub hiss etdiklərini xalqın başa düşdüyü dildə qələmə almaqla yazıçı iki əsrə yaxındır ki, müasirliyini qoruyub saxlayır. Sanki, onun əsərləri bu günə yazılıb. Sadəcə bir az şəklini dəyişmiş formada.

Neçə nəsillər dəyişsə də Cəlil yaradıcılığı güclü, satirası, tənqidi, sarkazmı, incə kinayəli yumoru və gülüşü ilə daim yaşayacaq.

Çünki, bu böyük mütəfəkkir xalqımızın tərəqqisində irəliyə doğru böyük bir addım atıb.

İstifadə olunmuş ədəbiyyat

1.C. Məmmədquluzadə-Seçilmiş əsərləri- Bakı- 2004
2.F. Hüseynov-Adi əhvalatlarda böyük həqiqətlər-Bakı-1977
3.Q. Kazımov-Seçilmiş əsərləri-2-ci cild-Bakı-2004.
4.M. Məmmədov- C.Məmmədquluzadənin bədii nəsri-Bakı-1963

Kh. Khalilova

Great master of litlle story
Summary

It is impossible to imagine the development of Azerbaijan literature of the twentieth century without. M.Jalil's creative activity. M. Jalil who wrote plays in numerous genres is also a story master. His stories are focused on the settlement of different issues. Two or three characters take part in Jalil's stories. But these characters express troubles and sorrow of vast population. Each member of the society binds himself, thinks, changes, develops in Jalil's stories.

Х.Халилова

Большой мастер маленьких рассказов
Резюме

Развитие Азербайджанской литературы XX века нельзя передставить без творчества Мирзы Джалила. Мирза Джалил создавший ряд произведений, в различных жанрах, также является мастерам рассказов. В своих рассказах он ставил ряд проблем и старалел их разрешить. В рассказах учавствовали 2-3 образа. Но эти образы на сили на себе боль, горе больших мале людей каждый глен общества находит себя в рассказах Джалила , мыслит преобразуется и развивается.

Rəyçi: Salatın Əhmədova
filologiya üzrə fəlsəfə doktoru

И.КЯЗИМОВА
Азербайджанского Медицинского Университета

БУНТАРСКИЙ ПАТРИОТИЗМ А.Н.РАДИЩЕВА И ДЕКАБРИСТОВ

Açar sözlər: müəllif, yaradıcılıq, ideal, əsər, fəaliyyət, vətənpərvərlik, vətən, azadlıq, ədəbi, tarixi, xalq.

Ключевые слова: автор, творчество, идеал, произведение, деятельность, патриотизм, отечество, свобода, литературный, исторический, народный.

Key words: author, creation, ideal, work, activities, patriotism, homeland, freedom, literary, historical, folk.

Гражданский пафос нравственно-патриотического идеала Радищева в конце XYIII – начале XIX века позволил ему сплотить вокруг себя группу литераторов, «пусть не поднявшихся до его открытой революционности, но все же донесших его традицию до преддверий декабризма» (1, с.469), воспринявших его разрушительный, воинствующий патриотизм как единственно правильный и приемлемый к жизни. На рубеже XYIII-XIX века Радищев начинает высказывать смелые суждения о государственных устоях, о монаршей власти. Как указывает А.Н.Соколов, в творчестве Радищева «зарождаются те революционно-романтические тенденции, которые найдут богатое развитие с возникновением движения дворянских революционеров» (2, с.34) спустя четверть века. Исследователь творчества Радищева В.И.Невский сознательно сопоставляет имена Радищева и декабристов: «генетически Радищев и декабристы – явление одного и того же порядка» (3, т.2, с.11). Откровенные вольнолюбивые высказывания антикрепостнических убеждений дворянина Радищева касательно политики монархического государства, переустройства человеческого общежития явились для государственной власти неожиданными и крамольными. «Последующие поколения дворянской революционной мысли значительно опередили Радищева в деле практического построения положительной программы» (3, т.2, с.9). Однако, учитывая разницу во времени и отчужденность даже «сочувственников» Радищева, на тот период «ни в нелегальной, ни тем паче, в подцензурной литературе крепостной России мы не найдем ничего, равного по смелости протеста тому, что Радищев счел возможным выпустить в открытое обращение» (3, т.2, с.10).

На собраниях Южного общества декабристов П.И.Пестель разРабатывает политический устав, документ-проект под названием «Русская правда», где в форме предполагаемых конституционных установлений прослеживался идеал гражданского равноправия и свободы с решительным намерением не только освободить крестьян, но и наделить их землей. «Право собственности или обладания есть право священное и неприкосновенное, (...) никакое САмовластие не может лишить его ниже малейшей части его имущества» (4, т.1, с.76). Декабрист А.В.Поджио в «Записках-воспоминаниях» указывает на «единственную праведную славу» в создании этого документа, принадлежащую исключительно Пестелю: «Многие ходили у нас проекты и мысли относительно освобождения крестьян, и все принимали личную свободу при

вознаграждении денежном владельцам, но мысль освобождения крестьян с землею принадлежала Пестелю одному» (5, с.254), однако, на 30 лет ранее Радищев в своем программном «проекте в будущем» уже выдвинул «положение о собственности и защите земледельцев»: «Удел в земле, ими обРабатываемый, должны они иметь собственностию; (...) Никто его оного да не лишит самопроизвольно. Восстановление земледельца во звание гражданина. (...) За сим следует совершенное уничтожение рабства» (6, с.91) – читаем в «Путешествии из Петербурга в Москву» (глава «Хотилов»).

Пестелевская «Русская правда», наряду с таким документом как «Законоположение Союза Благоденствия», войдет в состав «Программно-политических произведений Соединенных Славян», где, сродни радищевским принципам «Союз Благоденствия в святую себе вменяет обязанность распространением между соотечественниками истинных правил нравственности и просвещения» (4, т.1, с.21). Этот программный устав нравственности и добродетели станет идеалом, «путеводной звездой» всей политической и литературной жизни декабристов.

Ранее Радищев обращался к своим детям в «Повести о Филарете» (1790 год): «почти младенцам вам сущим, я старался внятным вам сделать, что добродетель есть вершина всех наших деяний и наилучшее украшение жития человеческого». «...старался я всякими способами возбудить в вас мягкосердие, которое можно назвать физическим корнем добродетели» (7, т.2, с.24-25). Нравственность и добродетель есть суть духовности человечества и в идеале Радищева, и в идеале декабристов. Если душа человека находится в гармонии с общественным укладом и строем общества, значит он в соглисии с людьми, с законом и с Богом. Но, если нет этой душевной гармонии, возникает протест, бунт, террор, революция. Разница между теорией идеальных условий жизни для всех и самой жизнью на практике привели Радищева и его последователей дворян-революционеров к подготовке и осуществлению государственного бунта.

Весь патриотический дух своего идеала Радищев посвящает народу. Воспитанный своими родителими в духе добродетели, нравственности, гуманности, «Радищев знал крестьянскую жизнь до самых ее корней» (7, т.2, с.28), что позволило ему отрицать самодержавие и крепостничество, но без действенной поддержки защищаемого им народа. Радищев был далек от народа, которому он настоятельно рекомендовал свергнуть власть. В этом трагизм бунтарского идеала Радищева. Его воинствующая теория не превратилась в практику; на первых порах, крестьянским бунтом Радищев-реформист хотел «запугать» власть, с целью отмены ею крепостного права, но впоследсивии Радищев-революционер выступает против самодержавия как системы.

В период военных действий Отечественной войны 1812-го года будущие декабристы общались с народом непосредственно. И этот народ трогал их своей простотой и героизмом, нищетой тела и богатством души. Однако, как и Радищев, декабристы не являлись выходцами из народной среды. Роль народа была исключена из борьбы за свободную жизнь самого народа. Учитывая безграмотность, отсутствие средств массовой информации, народные массы могли и не догадываться о причинах случившегося бунта на Сенатсткой пло-

щади 25 декабря 1825 года. Тем не менее, «молодость декабристов (...) – это Отечественная война, время духовного единения нации, година великой славы». «1812 год показал будущим членам тайных революционных обществ мощь и величие русского народа» (8, т.1, с.4). «Подвиг народа осмысливался как возвращение России к собственной сущности, самораскрытие народа» (8, т.1, с.7). Многие декабристы, находясь на поле боя, видели народ в его подвиге и героическом величии. Отечественная война 1812-го года показала миру силу самопожертвования и стойкости духа народа. «Вера в народ, долг перед народом одушевляли дворянских революционеров», но «отношение декабристов к народу было сложным и дифференциированным» – «народ мог предстать то страшной, разрушающей стихией мятежа, то духовной опорой революционного движения, то пассивной массой, довольствующейся вечным рабством» (8, т.1, с.5-6). Как одну из причин поражения восстания на Сенатской площади, историки отмечают недоверие к народной толпе. От имени народа, для блага народа, но... без народа – такова одна из трагических форм декабризма как общественно-политического и литературного движения.

Мечту идеального общежития декабристы выражали в различных литературных направлениях, в том числе и через утопические зарисовки светлого будущего – романтизма. За четверть века до декабристского движения проявляется бунтарская суть народного идеала Радищева. Он видит несоответствие идеала с жизнью, где царят вопиющие противоречия и несправедливость. Недовольство окружающей действительностью заставляет его искать справедливость и добродетель в «проекте» утопического государства, составленного «гражданином будущих времен». Рисуя утопическую идилию человеческого общежития, Радищев вырабатывает «программу» такого государственного устройства, которое должно создать для людей истинно человеческие условия жизни и стать «примером позднейшему потомству, како власть со свободою сочетать должно на взаимную пользу» (6, с.98). В «Путешествии...» в главах «Хотилов» и «Выдропуск» Радищев рисует картину грядущего «царства разума», где «науки, художества и рукоделия, возведенные до высочайшия совершенства степени», и «разум человеческий (...) стал стражею общественных законоположений», где «равновесие во властях, равенство в имуществах отъемлют корень даже гражданских несогласий» (6, с.81-82). Утопические идеи Радищева, зародившиеся как побуждение к социальному действию, окажутся теми искрами ереси, которые подхватят декабристы. В.Г.Кюхельбекер, помимо своих стихов, проникнутых предощущением лучших, светлых дней, оставил потомству свой утопический «проект в будущем» в «Европейских письмах», где рассказ ведется от имени некоего человека XXYI века, который живет «в счастливое время, когда политика и нравственность одно и то же, когда правительства и народы общими силами стремятся к одной цели...». Эта мечта взята из «Законоположения Союза Благоденствия», где «Правосудие – следствие доброй нравственности» (4, т.1, с.24). Декабрист надеется, что настанет время, когда человечество достигнет «высшей степени человечности».

Вслед за успешным в социальной жизни Радищевым свой нравственно-патриотический идеал декабристы пронесли по жизни, а некоторые и приняли

смерть во имя идеи народной свободы, несмотря на собственное благополучие и обустроенность в жизни. Так, представитель военного дворянства, «состоя на службе в конной артиллерии, чего бы, кажется, лучше желать в его лета, красоваться на хорошем коне, в нарядном мундире» (9, т.2 с.26) – писал А.И.Косовский в «Воспоминаниях» о К.Ф.Рылееве. Но при всем внешнем благополучии, достатке и успешности будущий декабрист то ли продуманно допускал, то ли интуитивно предвидел свою смерть во имя высокого идеала любви к отечеству. «Освобождение отечества или мученичество за свободу для примера будущих поколений были ежеминутным его помышлением» (9, т.2, с.62) – вспоминает о Рылееве Н.А.Бестужев. «Судьба наша решена! Я уверен, что погибнем, но пример останется. Принесем собою жертву для будущей свободы отечества!» – Н.А.Бестужев приводит высказывания друга-декабриста, не из литературного произведения, а из самой жизни, что вызывает удивительное чувство обреченности «мученника правды», единственной целью жизни котрого был государственной переворот «за свободу отечества, за счастие соотчичей, для исторжения из рук самовластия железного скипетра, для приобретения законных прав угнетенному человечеству» (9, т.2, с.65).

В творчестве Рылеева слились воедино его дело и слово, последнему отводилась особая роль в теории декабристского учения. Известное программно-политическое произведение декабристов «Законоположение Союза Благоденствия» вменяет: произнося С л о в о, каждый «должен распространять истины», «стараться во всех речах своих превозносить добродетель», «стараться речами своими приносить существенную пользу, а не блистать оными» (4, т.1, с.35), «истинное красноречие состоит не в пышном обличении незначащей мысли громкими словами, а в приличном выражении полезных, высоких, живоощущаемых помышлений» (4, т.1, с.40). В «Слове о Ломоносове», коим Радищев торжественно завершает свое «Путешествие...», Радищев уделяет внимание понятию Слова, которое «есть изображение наших мыслей» (6, с.151). Превознося заслуги М.В.Ломоносова в развитии российской словесности, кому можно позавидовать в умении использовать «прелестные красоты слова», Радищев сетует на неуместную лесть царям «нередко недостойным не токмо похвалы, стройным гласом воспетой, но ниже гудочного бряцания...» (6, с.153). По мнению Радищева высокое Слово призвано «воспеть песнь заслуге к обществу» (6, с.146).

Революционные идеи радищевского патриотизма нашли свое продолжение в идейно-политической деятельности дворянских ревОлюционеров. Бунтарско-патриотический идеал Радищева, равно как и декабристов – это стихия искания истины, добродетели, справедливости через кровь и бунт, что привело к страшным последствиям человеческих отношений, к нарушению гармонического хода истории, к смерти во имя идеи.

Литература

1. Гуковский Г.А. Русская литература ХУШ века. – М.: Учпедгиз, 1939.
2. Соколов А.Н. История русской литературы Х1Х века. (1-я половина). М.: Высшая школа, 1976.
3. Невский В.И. Мученик идеи. // Русские мемуары, дневники, письма и материалы. А.Н. Радищев 1749 – 1802 (в двух томах). – М.-Л.: ACADEMIA, 1935.
4. Декабристы. Избранные сочинения в двух томах. – М.: Правда, 1987.
5. Мемуары декабристов. Южное общество. – М.: Издательство Московского университета, 1982.
6. Радищев А.Н. Путешествие из Петербурга в Москву. Вольность ода. Проза. – Л.: Худ. лит., 1984.
7. Барсков Я.Л. А.Н.Радищев. Жизнь и личность. // Русские мемуары, дневники, письма и материалы. А.Н. Радищев 1749 – 1802 (в двух томах). – М.-Л.: ACADEMIA, 1935.
8. Немзер А.С. Первенцы свободы. // Декабристы. Избранные сочинения в двух томах. – М.: Правда, 1987.
10. Серия литературных мемуаров. Писатели-декабристы в воспоминаниях современников в двух томах. – М.: Худ. лит., 1980.

İ.İ.Kazımova

A.N.Radişev və dekabristlərinin qiyamçi vətənpərvərlik

Xülasə

Məqalədə A.N.Radişevin ideyalarının vətandaşlıq və vətənpərvərlik pafosunun davamçıları olan yazıçı-dekabristlərin yaradıcılıqlarının idealı analiz edilir. A.N.Radişevin vətənpərvər kökləməsini yazıçı-dekabristlərinin ideoloji məsləklərlə müqaisəsi müəlliflərin proqram-siyasi və bədii əsərləri nümunələrində izlənilir.

I.I.Kazimova

A.N. Radishev’s and decembrist’s rebellious patriotism

Summari

The ideal of creation of decembrist-writers as a successors of civil and patriotic fervor of Radishev’s ideas is analysed in the article. The comparison of Radishev’s patriotic mood with ideological convictions of decembrist-writers is traced, exemplified by manifesto-political and fiction works of authors.

Rəyçi: İzabella Ağayeva
filoloqiya elmləri doktoru, professor

YƏDULLA DADAŞLI
filologiya üzrə fəlsəfə doktoru
GÜNEL ORUCOVA

ORTA MƏKTƏBDƏ M.Ə.SABİRİN "AMALIMIZ, ƏFKARIMIZ İFNAYİ - VƏTƏNDİR" SATİRASININ ÖYRƏDİLMƏSİ

Açar sözlər: ictimai satira, ideyalılıq, gənc nəslin tərbiyəsi, milli oyanış, bədii təhlil.
Ключевые слова: общественная сатира, идейностъ, воспитание молодого поколения, националъное возрождение, художественный анализ.
Key words: social satire, ideological, educator of young generation, national wake, literary analyses.

Mirzə Ələkbər Sabir (1862-1911) Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində şərəfli yer tutan, iftixarla xatırlanan qüdrətli və qeyrətli ədəbi simalardandır. Molla- nəsrəddinçi inqilabi-demokratik poeziyanın yaranması, bu poeziyada tənqidi realizm ənənələrinin yaşanması və inkişafı da onun adı ilə bağlıdır. Sabirin öz müasirliyi, dərin realizmi, xəlqiliyi və sənətkarlıq xüsusiyyətləri ilə seçilən satirik poeziyası təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərq ölkələrində bədii və ictimai- siyasi ülkünün tərəqqisində mühüm rol oynamış, Şərq xalqlarının qəflət yuxusundan oyanmasında, öz hüquq və azadlıqları uğrunda inamla mübarizə aparmasında, hürriyyətə qovuşmasında həlledici faktora çevrilmişdir. Sabirin "dəryada duran qocaman dağa bənzəyən" əzəmətli şəxsiyyəti, istiqlal mübarizəsinə səsləyən döyüşkən, humanist və demokratik poeziyası vətənə və millətə, insana və insanlığa, bütövlükdə bəşəriyyətə ləyaqətlə xidmətin parlaq nümunəsidir.Yüz ildən çox bir zaman bölümü M.Ə.Sabiri bizdən cismən ayırsa da, mənən yaxınlaşdırır. Bu mənəvi bağlılıq Sabirin şərəfli şəxsiyyəti və inqilabi- demokratik poeziyasının çağdaşlığı, milli və bəşəri mahiyyəti ilə aydınlaşır. Sabirin mübariz poeziyası bu gün də dünya azadlıq hərəkatına "bir ordudan ziyadə xidmət" (A.Səhhət) etmək qüdrətindədir. Ona görə də zaman keçdikcə M.Ə.Sabir alovlu vətəndaş şair kimi daha çox sevilir, oxunur və öyrənilir. Sabirin milli və bəşəri ideyaları nəsillərdən- nəsillərə ötürülür, yaddaşlarda daşlaşır, xalqın mənəvi sərvətinə çevrilir, öz təravətini, milli və bəşəri dəyərini saxlamaqla, tərbiyələndirici təsir bağışlayır.

Sovetlər Birliyi dönəmindən çağdaş günümüzə qədər M.Ə.Sabirin həyatı, yaradıcılığı və ayrı-ayrı əsərlərinə alı və orta məktəblərin proqram və dərsliklərində geniş yer verilmiş, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid simalı sənətkarlarla paralel öyrədilmişdir. Həmin pedaqoji ənənə indi də yaşayır və uğurla davam etdirilir. Şagirdlər M.Ə.Sabirin uşaq şeirləri ilə hələ ibtidai siniflərdə tanış olur, sadə və anlaşıqlı olan bu şeirləri sevə-sevə oxuyub əzbərləyir, milli ruha köklənirlər. Ümumtəhsil məktəblərinin 8- ci sinif şagirdləri isə dahi şairin həyat və yaradıcılığı ilə yanaşı, "Bir cibimdə əskinasım..." satirasının məzmunu və ideyasını da öyrənirlər. Şagirdlər yaradıcılığa lirik şeirlərlə başlayıb satirik şeirlərlə məşhurlaşan, "Molla Nəsrəddin" dərgisi ilə əməkdaşlıq edən, xalqı qəflət yuxusundan oyadıb öz mənafeyini müdafiəyə istiqamətləndirən dahi Sabirin "Ağlaşma", "Bizə nə?!", "Dilənçi", "Əkinçi" satiraları ilə tanış olurlar. Onu da öyrənirlər ki, zülmkar

çar hakimləri, islam dinindən xəbərsiz olan savadsız din xadimləri, ana dilinə, millətinə etinasız yanaşan ədabaz inteligentlər, İran və Türkiyə xalqlarının milli- azadlıq hərəkatını boğan istismarçı hakim təbəqələr Sabir satiralarının əsas tənqid hədəfləridir.

Göründüyü kimi,tam orta məktəblərin 11-ci sinif şagirdləri "Mirzə Ələkbər Sabir" oçerki ilə tanışlığa qədər şairin həyat və fəaliyyəti, dərsliklərdə adı çəkilən satirik şeirlərinin ideyası, məzmunu və tənqid hədəfləri ilə bağlı müəyyən biliklərə yiyələnirlər. On birinci sinifdə isə Sabirin həyat və yaradıcılığı haqqında verilən elmi məlumatlar daha da dərinləşdirilir və yeni informasiyalarla zənginləşdirilir. "Amalımız, əfkarımız ifnayı- vətəndir", "Səttarxana" şeirləri isə ayrıca dərs saatlarında öyrədilir. "Amalımız, əfkarımız ifnayi-vətəndir" satirasının 11-ci sinfin "Ədəbiyyat" dərsliyinə yeni salınmasını nəzərə alaraq, tədrisi yollarını açıqlamağı məqsədəuyğun sayırıq [1].

Orta məktəbdə "Amalımız, əfkarımız ifnayi-vətəndir" satirasının öyrədilməsinə 2 saat vaxt ayrılması məsləhətdir. Fənn müəllimi bu vaxtdan səmərəli istifadə etməli, satiranın məzmunu və ideyasının öyrədilməsinə diqqət yetirməlidir.Əsərin yüksək səviyyədə öyrədilməsi ayrılmış saatların düzgün bölgüsündən asılıdır. Bizim fikrimizcə, adı çəkilən satira öyrədilərkən aşağıdakı ardıcıllıq gözlənilməlidir:

1. "Amalımız, əfkarımız ifnayi- vətəndir" satirasının oxusu və məzmunu üzərində iş- 1 saat
2. "Amalımız, əfkarımız ifnayi- vətəndir" satirasının təhlili- 1 saat

"Amalımız, əfkarımız ifnayi- vətəndir" şeirinin məzmununun öyrədilməsinə əsər haqqında ümumi məlumatın verilməsindən başlanılmalı, mətn oxunduqdan sonra çətin söz və ifadələrin mənası aydınlaşdırılmalıdır. Məzmunun öyrədilməsi prosesi əsərin məzmunu ilə bağlı planın tərtibi və sual-cavab aparılmaqla davam etdirilməli, məzmunun söylənməsi və şeirin əzbərlədilməsi ilə tamamlanmalıdır.

Əsər haqqında ümumi məlumatların verilməsi dedikdə əsərin müəllifi, adı, yazılma tarixi, mövzusu və janr biçimi haqqında bilgilərin şagirdlərə çatdırılması anlaşılır. Əsərin M.Ə.Sabirin qələmindən çıxması,"Hophopnamə"nin son nəşrində [2,s.40] və 11- ci sinfin "Ədəbiyyat" dərsliyində şərti olaraq şeirin ilk misrası ilə ("Amalımız, əfkarımız ifnayi- vətəndir") adlandırılması şagirdlərə məlumdur. Müəllim xatırlatmalıdır ki, adı çəkilən satirik şeir xıx əsr görkəmli türk şairi Namiq Kamalın (1840-1888) "Amalımız, əfkarımız iqbali- vətəndir" misrası ilə başlanan və "Füyuzat" jurnalının 1907- ci il 3 mart tarixli 11- ci sayında çap olunan bir şeirinə cavab olaraq yazılmışdır. İlk dəfə "Molla Nəsrəddin" dərgisinin 10 mart 1907- ci il tarixli 10- cu nömrəsində "Qabaqda gedən zəncirli" imzası ilə işıq üzü görmüşdür. Vətən və millət mövzusunda yazılmış beş bənddən ibarət "Amalımız, əfkarımız ifnayi- vətəndir" şeiri M.Ə.Sabirin "Kim nə deyir bizdə olan qeyrətə", "Bir cibimdə əskinasım...", "Ürəfa marşı", "Dindirir əsr bizi", "Millət şərqisi", "Ruhum", "Satıram" və bəzi başqa satiraları ilə mövzu, məzmun, ideya və sənətkarlıq xüsusiyyətləri baxımından tamamilə səsləşir.

M.Ə.Sabirin sözü gedən satirası haqqında təxminən belə bir giriş sözündən sonra əsərin oxusuna başlamaq olar. Əsərin məzmununun şagirdlər tərəfindən düzgün anlaşılması üçün ifadəli və izahlı oxudan səmərəli faydalanmaq, bədii oxu texnologiyasını ciddi gözləmək başlıca şərtdir. Müəllim unutmamalıdır ki, "Amalımız,

əfkarımız ifnayi-vətəndir" satirasının hər misrasında vətənini və millətini sonsuz məhəbbətlə sevən Sabir simalı vətəndaş şairin insanlığa örnək olan şəxsiyyəti, milli amalı və düşüncəsi, vətənçilik ülküsü dayanır. Bədii oxu vasitəsilə müəllim Sabirin müqəddəs amalını şagirdlərə aşılamalıdır. Satiranın fonoxrestomatiyası, yaxud aktyor ifasında lent yazısı olmadığından ifadəli oxu birbaşa müəllimin üzərinə düşür və ondan ifadəli oxuya ciddi hazırlıq tələb edir. Müəllim ifadəli oxuya məsuliyyətlə yanaşmalı, ilk öncə ifaçılıq vəzifəsini, yəni əsəri oxuyarkən dinləyicilərə nəyi və necə çatdıracağını, hansı məsələlərə diqqət yetirəcəyini müəyyənləşdirməlidir. Yadda saxlamalıdır ki, satiranın ideya- bədii və sənətkarlıq xüsusiyyətlərinin şagirdlərə dolğun çatdırılmasında məzmunun yüksək səviyyədə öyrədilməsi həlledici amildir.

Məntiqi vurğulu sözlərin tapılması və deyiliş zamanı məna çalarının dürüst ifadəsi ifadəli oxunun təsir gücünü artıran vasitələrdəndir. Klassik poeziya incilərinin məzmununun mənimsədilməsində qarşıya çıxan çətinliklərdən biri də onların əruz vəznində yazılması ilə bağlıdır. Ərəb poeziyasından alınmış bu vəzn özünəməxsus xüsusiyyətləri ilə heca vəznindən ayrılır. Heca vəznli şeirlərdə misralardakı hecaların sayı, əruz vəznli şeirlərdə isə hecalardakı saitlərin uzun və ya qısa tələffüsü başlıca şərtdir. Əruz vəznində yazılmış klassik şeirlərdə müvafiq bəhrin tələbləri gözlənilməli, əsər bu tələblərə uyğun səsləndirilməlidir. Əruz vəzni haqqında söylənənlər "Amalımız, əfkarımız ifnayi- vətəndir" satirasına da şamildir. Bu satira əruz vəzninin həzəc bəhrinin 8-ci növünün "məf ' Ulü məfA' İlü məfA' İlü fə' Ulün " bölgüsündədir. Şagirdlər ərəb dilindən alınmış "həzəc" sözünün ana dilimizdə "xoşagələn avaz", "ürəyə yatan xoş səs" anlamında işləndiyini bilməlidir. Xatırlatmaq yerinə düşər ki, İ.Nəsiminin bir sıra qəzəlləri, Ş.İ.Xətayinin "Dəhnamə" poeması, M.-Füzulinin "Leyli və Məcnun" əsəri, bəzi aşiqanə qəzəlləri, M.Füzuli poeziyasından satirik biçimdə faydalanan Sabirin "Nə işim var?!", "Bakı fə'lələrinə" və bu yönümdən başqa satiraları da həzəc bəhrinin müvafiq qəlibi daxilindədir.

"Amalımız, əfkarımız ifnayi- vətəndir" şeirini ifadəli oxumaq üçün bütövlükdə cədvəldə yerləşdirmək, aşağıdakı nümunədə olduğu kimi, mətnin təf'ilədəki uzun saitlərlə uyuşan hecalarındakı saitlərin üzərinə şərti işarələr(-) qoymaq lazımdır.

məf 'Ulü	məfA'İlü	məfA'İlü	fə'Ulün
Amālı	mız, əfkārı	mız īfnayi-	vətəndir,
Kinū qə	rəzū hirs(i)	bizə ziynə	ti təndir,
Əf 'āl(ı)	yox, āncāq i	şimīz lāfi-	dəhəndir,
Dünyādə	əsārətlə	bütūn kām a	lırīz biz,
Qafqāzlı	larīz yōl kə	sirīz nām a	lırīz biz!

Fənn müəllimləri satiranın digər bəndlərini də cədvəldəki təf'ilələrin tələblərinə uyğunlaşdırmalı, bununla bağlı şagirdlərdə öyrəndikləri əruz vəznli şeirlərin bəhrlərini və uyğun təf'ilələrini müəyyənləşdirmək bacarıq və vərdişlərini formalaşdırmalıdır. Şagirdlərə anlatmalıdır ki, əruz vəznli şeirlərin təf'ilələrinin heç bir leksik mənası yoxdur, lakin onlarda melodiya var. Sözü həmin təf'ilələrə (qəliblərə, yaxud modellərə) saldıqda modeldəki melodiya sözün üzərinə keçir və bütövlükdə misra həmin qəliblərin melodiyası ilə həmahəngləşir. Satiranın ifadəli oxusu ilə bağlı qaydalardan biri də qəliblərdəki böyük hərflərlə bağlıdır. Həmin hərflərin sütununa düşən saitlər eynicinsli qoşa saitlər kimi oxunmalıdır. Təf'ilənin tələbi ilə

parçalanmış sözlərin bütöv oxunuşu, mətndəki durğu işarələrinə uyğun fasilələrin gözlənilməsi də ifadəli oxunun başlıca şərtlərindəndir. İfadəli oxu zamanı həm müəllimlər, həm də şagirdlər göstərilən şərtlərə əməl etməlidir.“Amalımız, əfkarımız ifnayi-vətəndir” satirasının məzmununun metodik tələblərə uyğun mənimsədilməsi mətndə işlədilən çətin söz və ifadələrin mətniçi və lüğəti mənasının anladılması ilə əlaqədardır. Şərq ədəbiyyatı klassiklərinin poeziyası ilə tanışlıq Sabirin dünyagörüşünün formalaşmasında mühüm rol oynamış, təhsili ilə bağlı şeirlərində saysız-hesabsız ərəb-fars söz və ifadələri işlətmişdir. Sabir dövrünün ziyalıları üçün anlaşıqlı olan bu leksik vahidlər çağdaş oxucular, xüsusilə şagirdlər üçün çətin anlaşılandır. Sabir satiralarının, o cümlədən sözü gedən şeirin məzmun və ideyasının daha səmərəli öyrədilməsi üçün ərəb-fars mənşəli söz və ifadələrin lüğəti və misradaxili anlamı ilkin oxu başa çatdıqdan sonra şagirdlərə bildirilməlidir. Bu sözlərin lüğəti mənasını şagirdlər lüğət dəftərlərinə yazmalı, əzbər öyrənməlidir. Şeirdə işlənmiş ərəb-fars mənşəli leksik vahidlər Azərbaycan dilində aşağıdakı məna anlamındadır: Əfkar- fikirlər, niyyətlər; ifna-yox etmə, məhvetmə; ifnayi-vətən-vətənin məhv edilməsi; ziynəti-tənbədənin, vücudun bəzəyi, yaraşığı; əf'al-işlər; laf-söz, boş söhbət; lafi-dəhən-əmələ keçməyib, yalnız dildə qalan sözlər; nam-ad; nam almaq-ad almaq; ikram-hörmət, əzizləmə, ehtiram; ikrahrəsan-iyrənc, mənfur, nifrət oyadan; büxl-paxıllıq, həsəd; saman-sərvət, dövlət, zənginlik, malmülk; tərtib, nizam; ihya-diriltmə; i'la-yüksəltmə, ucaltma; dəhr-dünya, aləm, dövr, əsr; ifqa-əbədiləşdirmə, daimi etmə.

Satiranın ifadəli oxusu zamanı müəllim çalışmalıdır ki, şagirdlər təkcə mətndəki çətin söz və ifadələrin mənasını anlamaqla kifayətlənməsinlər, mətnin məzmununun anlaşılmasında bu leksik vahidlərin faydalılığını nəzərə alsınlar. Çətin söz və ifadələrin mənasının açıqlanması satiranın ideya və məzmunu ilə yanaşı, izahlı oxusunun keçirilməsində, mətndəki hər misranın həqiqi və sətiraltı mənasının anladılmasında da önəmlidir. Fənn müəllimlərinə kömək məqsədilə satiranın izahlı oxusu haqqında məlumat veririk.

Amalımız, əfkarımız ifnayi-vətəndir,
Kinü qərəzü hirs bizə zinəti-təndir,
Əf'al yox, ancaq işimiz lafi-dəhəndir,
Dünyadə əsarətlə bütün kam alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Burjua - mülkədar ağalar, “boynuyoğun”, “şişqarın” yerli imkanlılar özlərini nəzərdə tutaraq deyirlər ki, arzumuz və niyyətimiz vətəni məhv etməkdir. Kin bəsləmək, düşmənçilik etmək, biri-birimizə hirslənmək bizim yaraşığımızdır. İş görmək əvəzinə ancaq boşboğazlıq edirik, yalan vədlər veririk.Öz millətimizi əsarətdə saxlamaqla istəyimizə çatırıq. Qafqazlılarıq, yol kəsməklə, quldurluqla ad alırıq.

Müəllim 11-ci sinfin “Ədəbiyyat” dərsliyindəki məlumata əsasən şagirdlərə çatdırmalıdır ki, Sabir hər bəndin sonuncu misrasında “qafqazlılarız” ifadəsini “azərbaycanlılarıq” anlamında işlətmiş, ümumiləşdirmə aparmaqla Qafqazda yaşayan müsəlmanların taleyindən söz açmışdır.

Əqrəb kimi neştər gücü var dırnağımızda,
İslam susuz olsa, su yox bardağımızda,
Hər küncdə min tülkü yatıb çardağımızda,
Min hiylə qurub, rütbəvü ikram alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Birinci misrada şair zülmkar mənsəb sahiblərini əqrəbə bənzətmişdir. Əqrəb neştərlə canlıları sancdığı kimi, zülmkar ağalar da dırnaqlarıyla öz millətini didib parçalamağa hazırdır.Öz millətinin susuzluqdan yanmasına da razıdır. Şair "islam" dedikdə müsəlmanları, Qafqazda yaşayan azərbaycanlıları nəzərdə tutur. "Çardağımızın hər küncündə min tülkü yatıb" ifadəsində şair tülkü kimi hiyləgərliyi ilə məşhurlaşan, "Min hiylə qurub, rütbəvü ikram alırız biz" ifadəsində isə millətin xoşbəxtliyi yolunda çalışmaq əvəzinə vəzifə və "hörmət" qazanmağa çalışan yerli imkanlıların satirik obrazını yaradır.

Qafqazlı adı aləmə ikrahrəsandır,
Quldur, qoçumuz zülmdə məşhuri-cahandır,
Kim dersə tərəqqi edəriz, məncə, yalandır,
Büxlü həsədə adət edib, kam alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Qafqazlı adı dünyada iyrənc, nifrət oyadıcı bir ad kimi tanınır. Quldur və qoçularımız millətə zülm etməklə dünyada məşhurdur. Şairin fikrinə görə, kim inkişaf edəcəyimizi deyirsə, yalan söyləyir. Biz biri-birimizə paxıllıq etməklə, həsəd aparmaqla "arzu"ya çatırıq. Şair demək istəyir ki, quldur və qoçularının zülmü ilə üzləşən, həsəd və paxıllıqla ad qazanan bir millət sosial- siyasi, mədəni və mənəvi baxımdan inkişaf edə bilməz.

Biz xoşlamarıq dərsi ki, min məktəb açılsın,
Gər min də məarif sözü dünyayə saçılsın,
Məktəbdə nə hörmət ki, o samanə qaçılsın?
Meyxanədə vodka vurarız, kam alırız biz,
Qafqazlılarız, məst olarız, nam alırız biz!

Min məktəb açılsa da, "maarif" sözü dünyaya yayılsa da, biz dərsi və maarifi xoşlamarıq. Məktəbdə hörmət olmadığından o mənəvi sərvətə doğru addım atmaq faydasızdır. Biz meyxanədə araq içib məst olmaqla ad qazanırıq.

Avropalı öz millətin ihya edir, etsin,
Şə'nü şərəfi- qövmünü i'la edir, etsin,
İnsanlıq adın dəhrdə ibqa edir, etsin,
Qəflətdə yatıb, ad batırıb, nam alırız biz!
Başə yumuruq zolladırız, kam alırız biz!

Avropalılar öz millətlərini maarifləndirməklə, şan-şöhrətini ucaltmaqla dünyada insanlıq adını əbədiləşdirir. Biz isə qəflətdə yatmaqla, milli inkişafdan geri qalmaqla ad qazınırıq. Millətin başına yumruq vurdurmaqla istəyimizə çatırıq.

Satiranın izahlı oxusu başa çatdıqdan sonra məzmununa uyğun müsahibə aparılmalı, şagirdlər aşağıdakı tipli suallar üzrə düşündürülməlidir:

1. Şeir kimin dilindən söylənilir?
2. Şair "qafqazlılarız" deyəndə kimləri nəzərdə tutur?
3. Şeirin hansı misralarında yerli imkanlıların səciyyəvi xüsusiyyətləri qabardılır?
4. Mənsəb sahibləri hansı yollarla rütbə qazanırlar?
5. Sabir milli geriliyin səbəblərini nədə görür?
6. Şair nə üçün maarif və məktəbi yüksək qiymətləndirir?
7. Avropada və Qafqazda yaşayan millətləri müqayisə etməklə şair nə demək istəyir?

"Amalımız, əfkarımız ifnayi-vətəndir" şeirinin məzmununun mükəmməl mənimsədilməsində məzmuna dair plan tərtibi, məzmunun söylənməsi kimi iş növlərindən də istifadə olunur. Əsərin məzmunu üzərində aparılan iş əzbər söylənməsi ilə tamamlanır. Şifahi nağıletmə şagirdlərin mətni şüurlu mənimsəmələrinə və nitqlərinin inkişafına kömək edir. Müəllim əsərin məzmunu və ideyasının öyrədilməsinə imkan yaratmaqla, onları əsərin təhlilinə hazırlayır. Prof. C.Əhmədov haqlı olaraq yazır: "Yaxşı nağıl etmək üçün öyrənilən əsərdəki hər bir çətin söz və ya ifadəni yaxşı başa düşmək, hər bir cümlənin mənasını aydın dərk etmək və fikri qısaca ifadə etməyi bacarmaq lazımdır" [4,s.280].

Şeirin birinci şəxsin dilindən söylənildiyini nəzərə alan müəllim mətnin biçimini dəyişməklə nağıletmə üsulundan istifadə edə bilər. Bu zaman şeirin məzmunu üçüncü şəxsin dilindən söylənilir, şagird satirik tipin xarakterini açır. Təlim proseində bu cür çevirmələrin iki növü daha məşhurdur: sətri və sərbəst. Sətri çevirmə aparılarkən misradakı sözlərin məntiqi ardıcıllığını gözləmək və çətin sözləri ana dilimizdəki sinonimləri ilə əvəzləmək kifayətdir. Fənn müəllimi bu iş növündən şeirin izahlı oxusu proseində faydalanır. Ona görə də şeirin məzmununun sorğusu sərbəst çevirmə iş növü əsasında aparılmalı, şagirdlərə müstəqillik verilməlidir. Dos. F.Yusifovun düzgün müşahidə etdiyi kimi: "Sərbəst nağıletmə şeirin məzmununun daha dərindən qavranılmasına imkan yaratmaqla bərabər, onun əzbər söylənilməsi işini də bir qədər asanlaşdırır" [5,s.40].

Yaxşı olar ki, şeirin məzmununun sərbəst iş növündə nağıl edilməsinin öyrənilməsi şagirdlərə ev tapşırığı kimi verilsin və növbəti dərsdə sorğusu keçirilsin. "Amalımız, əfkarımız ifnayi- vətəndir" satirasının məzmunu üzərində iş tamamlandıqdan sonra ədəbi-bədii təhlili, ideyası, sənətkarlıq xüsusiyyətləri və obrazlarınn xarakterinin öyrədilməsi üzərində iş aparmaq məsləhətdir. Əsərin təhlili üzərində iş aparılarkən 11-ci sinfin "Ədəbiyyat" dərsliyində verilən materiallardan istifadə olunmalıdır. Dərslikdə bu şeirin görkəmli türk şairi Namiq Kamalın "Vətəndir" rədifli şeirinə cavab olaraq yazılması xatırladılır. M.Ə.Sabirlə N.Kamalın eyni mövzuda dəyərli şeirlər yazması XX əsrin əvvəllərində Azərbaycanda və Türkiyədə vətənin və millətin azadlığı baxımından bənzər proseslərin yaşanması ilə əsaslandırılır. Müəllim Namiq Kamalın ömür yolunun mühüm məqamlarını açıqlamalı, M.Ə.Sabirin "Amalımız, əfkarımız ifnayi-vətəndir" satirası ilə N.Kamalın "Vətəndir" rədifli şeirinin oxşar və fərqli cəhətlərinə aydınlıq gətirməlidir. Şagirdlərə çatdırmalıdır ki, XIX əsr türk ədəbiyyatının görkəmli nümayəndəsi olan Namiq Kamal (1840-1888) Təkirdağ qəsəbəsində doğulmuş, ilk təhsilini İstanbulda orta (rüşdiyyə) məktəbdə almışdır. "Yeni osmanlılar" partiyasının yaradılmasında fəal iştirak etmiş, "Təsviri-əfkar", "İbrət" qəzetlərinin redaksiyasında çalışmışdır. Maarif və mədəniyyətin inkişafına xüsusi diqqət yetirmiş, ömrünü milli azadlıq mübarizəsində keçir-

mişdir.Onun şeirlərində vətən, azadlıq, mübarizə, inqilab anlayışlarına xüsusi diqqət yetirilir. "Vətən türküsü", "Vətən şərqisi" şeirlərində, "Vətən, yaxud Silistrə" dramında vətənçilik, "Hüriyyət qəsidəsi" şeirində azadlıq ideyaları əsas motivlərdir. Həsən bəy Zərdabi N.Kamalı "osmanlıların ən böyük və ən məşhur olan şairi" adlandırmış, Məhəmməd Hadi özünün sənət müəllimlərindən biri saymış, Hüseyn Cavid onun əsərlərindən bəhrələnmişdir. N.Kamal poeziyasında olduğu kimi, bu poeziyanı sevə- sevə oxuyan və yüksək dəyərlərindirən M.Ə.Sabirin şeirlərində də vətənçilik, azadlıq və maarifçilik ideyaları öz əksini tapmışdır. N.kamalın "Vətəndir" rədifli şeiriylə M.Ə.Sabirin "Amalımız, əfkarımız ifnayi-vətəndir" satirasını da vətənçilik, millətçilik, maarifçilik motivləri birləşdirir. Fərq N.Kamal şeirinin həqiqi realizm, M.Ə.Sabir şeirinin tənqidi realizm metodunda, satirik üslubundadır. N.Kamal şeirinin baş qəhrəmanı öz vətənini dərin məhəbbətlə sevən, onun azadlığı uğrunda qanlı döyüşlərə atılan, igidlik göstərməklə ad qazanan, "amalı, əfkarı iqbali- vətən" olan osmanlılar-vətənçi türk millətidir. Sabir satirasının əsas surətləri isə vətənin məhvinə çalışan, vətənə, millətə xidmət əvəzinə xəyanət edən, millətin heysiyyətini tapdalayan, rütbə qazanmaq xatirinə vətənini və millətini satan, qoçuluqla, quldurluqla ad qazanan zülmkar mənsəb sahibləri, burjua- mülkədar ağalardır. Sabir satirada həmin mənfur yerli imkanlıların portretini yaratmışdır. Şair vətənin və millətin istiqlalını maariflənməkdə, öz hüquqlarını anlamaqda, tərəqqiyə qovuşmaqda görür. Öz millətlərini maariflə tərəqqiyə çatdıran avropalılardan nümunə götürməyi, məktəbə, maarifə geniş meydan açmağı, dünyada gedən proseslərdən nəticə çıxarıb millətin qayğısına qalmağı özümüzdən olan imtiyaz sahiblərinin qarşısına başlıca məqsəd qoyur.

M.Ə.Sabirin "Amalımız, əfkarımız ifnayi- vətəndir" satirası şagirdlərin vətənçilik və millətçilik, bütövlükdə azərbaycançılıq ruhunda tərbiyəsində önəmli olduğundan bu gün də aktuallığını saxla

Ədəbiyyat

1.Cəfərov N., Həbibbəyli İ.,Əliyeva N., Bakıxanova A. Ədəbiyyat. 11-ci sinif üçün dərslik. Bakı, 2006.
2.Sabir M.Ə. Hophopnamə, iki cilddə, I cild, Bakı, 2004.
3.Qabaqda gedən zəncirli. "Molla Nəsrəddin" jurnalı, 10 mart, 1907, №10.
4.Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı, 1992.
5. Yusifov F. Məktəbdə Nəsimi əsərlərinin məzmununun öyrədilməsi. Bakı, 2004.
6. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2012.

Я.Дадашлы
Г.Оруджева

Изучение сатиры М.А.Сабира " Наша целъ, наши размышления"
в средней школе
Резюме

В статъе исследуются способы изучения чтения, содержания и идейно-художественного анализа сатирического стихотворения гениалъного поэта М.А.Сабира " Наша целъ, наши размышления" в средних школах. Даются сведения о влиянии этой сатиры в воспитании школъников в духе патриотизма и

националъно-моралъных качеств. Проясняется полъза сатиры в современный период.

Y. Dadashlı
G.Orucova

Teaching satire “Our aim, our Thoughts” by Sabir at secondary schools

Summery

The ways of teaching of reading, contens and ideological-artistic analiɜe of satirical poems of great poet Sabir is investigated in the article. The anfor mation about the patriotism in the student’s education on the national-moral qwality is given. It is also said of usefulness of the satire in the contemporary period.

Rəyçi: Bilal Həsənli
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

SAMİRƏ KƏRİMOVA
Naxçıvan Dövlət Universiteti
Azərbaycan Jurnalistlər Birliyinin üzvü
Akademiya-elm@rambler.ru

AZƏRBAYCAN ELMİ NƏŞRLƏRİNİN BEYNƏLXALQ MƏLUMAT BAZALARINDA ROLU

Açar sözlər: Elmi nəşrlər, jurnal, beynəlxalq məlumat bazaları, beynəlxalq elmi nəşrlər, agentlik,

Ключевые слова: научные публикации, журнал, международные базы данных, международные научные публикации, агентство.

Key words: scientific publications, journal, international databases, international scientific publications, the agency.

Azərbaycanda elmin kütləvi inkişafı, milli elmi kadrların hazırlanması müstəqillik dövründə də intensiv şəkildə davam edir. SSRİ tərkibində olduğu müddətdə respublikamızda aparılan elmi tədqiqatların istiqamətləri, elmin təşkilati formaları, maliyyə mənbələri, elmi dərəcə və adların təsnifatı və onların verilmə qaydaları SSRİ-nin iqtisadi, siyasi, hərbi tələbatını ödəmək məqsədilə mərkəzləşdirilmiş formada müəyyən edilirdi.

Bu zaman kəsiyində Azərbaycanda elmin yeni sahələri yaranmış, güclü elmi kadrlar yetişmiş, ittifaq və beynəlxalq səviyyədə yüksək qiymətləndirilən elmi nəticələr əldə olunmuşdur.

Elmi nəşrlər dedikdə əsasən tezislər, elmi məqalələr, monoqrafiyalar, metodik tədqiqatlar, dərs vəsaitləri və s. nəzərdə tutulur. Bunlar arasında ixtisaslaşdırılmış nəşrlərdə çap olunan məqalələr daha əhəmiyyətli sayılır. Elmi nəşrlərin digər formaları bəzən irihəcmli (məs., monoqrafiyalar), bəzən də kiçikhəcmliliyinə, azinformasiya daşıdığına (məs., konfrans məruzələrinin tezisləri) görə fərqləndirilir.

Elmi nəşrlər əsasən alimin tədqiqat işinin əsas nəticəsi hesab olunur. Alim material nəşri vasitəsilə elmi ictimaiyyəti öz tədqiqatları, onların təhlili və nəticələri ilə tanış edir. Bununla da müəllif və ya müəlliflər qrupu müəyyən elmi məsələlərin həllinə rəvac vermiş olurlar.

Müstəqilliyimiz bərpa olunduqdan sonra Azərbaycanda elmin idarə edilməsində, mütəxəssislərin hazırlanması metodikası və idealogiyasında əsaslı islahatlar yüksək səviyyədə aparılır. Biz buna dair Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nı və bu strategiyanın həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nı göstərə bilərik.(1)

Beynəlxalq mənbələr bir qayda olaraq yüksək keyfiyyətli elmi nəticələr əsasında tərtib olunduğuna və sahələr üzrə obyektiv məlumat əldə etməyə imkan verdiyinə görə biz beynəlxalq elm və informasiya mərkəzlərinin hesabatlarına daxil edilmiş elmi nəticələrin həcmini diqqətə catdırmağa çalışaq.

Tomson Röyters Agentliyinin məlumatlarına əsaslanan hesabatda Azərbaycan elminin ən məhsuldar mərkəzləri, elm sahələri və alimləri haqqında məlumatlara diqqət yetirək. Burada ölkəmizin iqtisadi artımı, əhalimizin savadlılıq səviyyəsi və elmi nəticələrin dəyişmə dinamikası əlaqəli şəkildə verilmişdir. Sənəd, 1995-2005-ci illərin göstəricilərinə görə, Azərbaycanda elmin 10 məhsuldar sahəsini aşağıdakı kimi təsnifatlandırıb: materialşünaslıq; kondensə olunmuş maddə fizikası; fiziki kimya; tətbiqi fizika; üzvi kimya; kimya mühəndisliyi; riyaziyyat; yanacaq və energetika; neft mühəndisliyi; polimerlər fizikası və kimyası.

Tomson Röyters Agentliyinin hesabatı ən məhsuldar sahələrin yalnız 10 illik cəmlənmiş nəticələrini izləməyə imkan verir. Digər mənbənin hesabatı 1996-2007-ci illərin elmi göstəricilərini əhatə edir və SCOPUS məlumat bazası əsasında İspaniya universitetlərinin birgə tədqiqatı nəticəsində tərtib olunub. O, daim yeniləşmə və dəqiqləşmə prosesindədir. Tomson Röyters Agentliyindən fərqli olaraq SCOPUS məlumat bazası sayca daha cox (təxminən 2 dəfə) elmi jurnal və konfrans materialları əsasında yaradılıb və deməli, daha geniş elmi informasiyaya istinad edir. Bu məlumat bazasında respublikamızdan yalnız "Azərbaycan Tibb Jurnalı" qeydiyyatdan keçib.

Hesabatda 233 ölkənin, 10 regionun elmin bütün sahələri və istiqamətləri üzrə 12 illik nəticələri toplanıb. Azərbaycan Şərqi Avropa regionuna daxil edilib. Bu regiona Azərbaycandan başqa Rusiya, Ukrayna, Belarus, Moldova, keçmiş SSRİ-nin Baltikyanı və Cənubi Qafqaz respublikaları da daxil olmaqla 22 ölkə aiddir. Sənəddə 12 il ərzində Azərbaycan alimlərinin beynəlxalq elmi ictimaiyyətin tanış ola biləcəyi toplam 3745 elmi məqalə çap etdirdikləri qeyd edilir. Bu göstəriciyə görə, elmimiz dünya ölkələri arasında 86-cı, Şərqi Avropa regionunda 18-ci yerdə idi.

Ümumiyyətlə, illər keçdikcə göstəricilərimizdə hiss ediləcək səviyyədə mütləq artım müşahidə edilir. Belə ki, əgər 1996-cı ildə adı çəkilən məlumat bazasında Azərbaycandan 249 məqalə qeyd edilmişdirsə, 2007-ci ildə 472 elmi əsər nəşr edilmişdir ki, bu da dünya elmi məhsulunun 0.03 faizi deməkdir.(2)

Müstəqillik illərindən bəri ölkəmizdə elmi məqalələrdə ən böyük yüksəliş tibb sahəsində əldə edilmişdir. Bu inkişaf o qədər sürətlidir ki, 1996-cı ildə prioritetlər siyahısına düşməyən sahə 2007-ci ildə bu siyahıda birinci, 12 illik hesabatda isə ikinci yerə yüksəlmişdir.

Həqiqətən də, həmin illərdə sahə üzrə çap olunmuş elmi məqalələrin sayı 36 dəfə artmışdır. Ancaq bu inkişaf tibbin bütün istiqamətlərini əhatə etmir. Belə ki, alimlərimiz anatomiya, nefrologiya, urologiya, transplantasiya, oftalmologiya, ortopediya və idman təbabəti kimi istiqamətlərdə nüfuzlu beynəlxalq jurnallarda elmi məqalə çap etdirməyiblər.

"Azərbaycan Tibb Jurnalı" SCOPUS məlumat bazasında qeydiyyatdan keçdiyinə görə həmin jurnalda dərc edilən bütün elmi məqalələr avtomatik olaraq nəticələrdə əks olunur. Belə ki, SCOPUS bazası jurnalda çap olunmuş məqalələri 2002-ci ildən başlayaraq qeydiyyata alır. Azərbaycanda tibb sahəsində nəşr olunmuş məqalələrin də sayı məhz həmin ildən etibarən kəskin şəkildə artır.

Keyfiyyətli elmi nəticələr bir qayda olaraq yüksək səviyyəli jurnallarda çap olunur və bu məqalələr başqa tədqiqatçılar tərəfindən fəal sürətdə istifadə edilir. Məqalənin nəşr edildiyi jurnalın səviyyəsi onun təsir əmsalı ilə bağlıdır. Təsir əmsalı yüksək olan jurnallar istedadlı və fəal müəllif korpusuna arxalanaraq aid olduğu

sahə və istiqamətlərin inkişafını müəyyənləşdirir. Belə jurnallarda məqalə çap etdirmək peşəkarlıq və özünütəsdiq baxımından hər bir alim üçün vacibdir.

Elmi işin keyfiyyətinin ikinci göstəricisi məqaləyə başqa tədqiqatçılar tərəfindən verilmiş istinadların sayıdır. Elmi nəticəyə istinadın verilməsi, onun yeni tədqiqatlarda istifadə edilməsi həmin nəticənin əhəmiyyətinin, yüksək keyfiyyətinin təsdiqidir.(2, səh:42-45)

Beynəlxalq praktikada elmin müəyyən sahələri üzrə ixtisaslaşan məlumat mənbələri mövcuddur. Araşdırmalar üçün tələb olunan informasiyanı da beynəlxalq məlumat bazalarından əldə etmək olar. Onlardan istifadə etməklə hər bir alimin məqalələri, bu məqalələrə verilmiş istinadlar haqda məlumat əldə etmək mümkündür. Riyaziyyat sahəsində Amerika Riyaziyyat Cəmiyyətinin MathScNet (*American Mathematical Society, www.ams.org*), Avropa Riyaziyyat Cəmiyyəti və Almaniya universitetlərinin birgə saytı Zentralblatt MATH (www.zentralblatt-math.org/zmath/en), nüvə və yüksək enerjilər fizikası istiqamətində ABŞ-ın Stenford Universitetindəki "Stenford Xətti Sürətləndirici Mərkəzi"nin (SLAC) (Stanford Linear Accelerator Center, www.slac.stanford.edu) bazaları belə məlumat mənbələri rolunu oynaya bilər.

Belə məlumat mənbələrindən ən mötəbəri Tomson Röyters Agentliyinin Elmi İnformasiya İnstitutunun (ISI) hesabatlarıdır (Thomson Reuters, www.thomsonreuters.com). Tomson Röyters tərəfindən indekslənən və elmin bütün sahələrini əhatə edən təxminən 8000 elmi jurnal, burada çap olunmuş məqalələr müqayisəli təhlil aparmağa imkan verir. Lakin agentlik jurnalların keyfiyyətinə sərt tələblər qoyduğuna görə belə yüksək səviyyəli jurnallarda elmi məqalə çap etdirmək kifayət qədər çətin olur.(6)

SCOPUS, www.info.scopus.com elmin bütün sahələrinə həsr edilmiş və məqalələri hərtərəfli rəy prosesindən keçən 16500 jurnal, 350 kitab seriyası, konfrans materialları əsasında formalaşan informasiya bazasıdır. Bizdə olan son məlumata görə, SCOPUS bazasında respublikamızdan "Azərbaycan Tibb Jurnalı" qeydiyyatdan keçib.

2009-cu ildə isə Rabitə və İnformasiya Texnologiyaları nazirliyi, BDU-nun Tətbiqi Riyaziyyat ETİ və Milli EA tərəfindən birgə nəşr edilən beynəlxalq "Applied and Computational Mathematics" jurnalı da SCOPUS-da qeydiyyata düşüb.(5)

Müasir dövrdə alimlərimizin "Elsevier", "Springer", "Taylor and Fransis" və "Wiley" kimi beynəlxalq səviyyəli aparıcı nəşriyyatlarda elmi məqalələr çap etdirmələri arzuolunandır. Bu məqsədlə də, 2013-cü il aprel ayında Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondu, "Springer" nəşriyyatı və AMEA İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə "Beynəlxalq elmi jurnalların tələbləri" mövzusunda seminar keçirildi.

Məruzəçi Dr.Chris Bendall seminarda ingilis dilində davamlı olaraq "Elmi tədqiqat və elmi nəşrlər: İmkanlar və perspektivlər, Elmi məqalələrin yazılması və jurnallara təqdim edilməsi haqqında, "Springer"in jurnallarında çap olunan məqalələrə dəstək xidməti haqqında" adlı mövzularla çıxış etdi.(3)

Seminarın əsas məqsədi elmi nəşrlərdə peşəkarlıq və beynəlxalq standartlara uyğunlaşma məsələləri – beynəlxalq elmi jurnallarda çap olunan məqalələrə qoyu-

lan tələblər, jurnal seçimi, jurnallarla iş, rəy prosesi və digər məsələlərin müzakirəsi idi.

Qeyd edək ki, "Springer" nəşriyyatında 2765 beynəlxalq elmi jurnal qeydiyyatdan keçmişdir. Bunların daha çox hissəsi tibbə, çox az qismi isə psixologiya və şüurla bağlı nəşrlərdir. Nəşrlər əsasən ingilis, alman, holland, fransız və italyan dillərində çap olunur.(4)

Azərbaycanın elm və təhsil qurumlarının fəaliyyətinin ana xətlərindən biri də dünya elm və təhsil sistemlərinə inteqrasiya etməkdir. Bunun üçün dünya elminin, təhsilinin müsbət nəticələrini, təcrübəsini öyrənmək və AMEA-nın elmi-tədqiqat institutlarında, ali və orta ixtisas məktəblərində tətbiq etmək əhəmiyyətlidir.

Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan Qərb və Şərqin elmi təcrübəsini öyrənmək və sintez etmək üçün geniş imkanlara malikdir. Eyni zamanda, AMEA və Təhsil Nazirliyinin rəhbərliyi Azərbaycan elminin dəyərlərini və üstünlüklərini dünyaya çatdırmağı da zəruri hesab edir.(3)

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" haqqında Sərəncamı. Bakı şəhəri, 4 may 2009-cu il.
2. Əliyev F.Ə., Ağayev Ş.S., Azərbaycanda elmin problemləri və inkişaf perspektivləri. Bakı, 2011.
3. www.science.az
4. www.springer.com
5. www.info.scopus.com
6. www.thomsonreuters.com

С. Керимова

Роль азербайджанских научных публикаций в международных базах данных

Резюме

Одним из основных направлений деятельности научно-образовательных учреждений Азербайджана является интеграция в мировую систему науки и образования. Для этого важно изучить и применить положительные результаты мировой науки и образования в научно-исследовательских институтах НАНА, университетах и средних школах.

Азербайджан, расположенный на перекрестке Европы и Азии имеет большие возможности изучения и синтеза научной практики Запада и Востока. Одновременно руководство НАНА и Министерства Образования считают чрезвычайно важным ознакомить мировое сообщество с научными ценностями и преимуществами Азербайджана.

S. Kerimova

The role of Azerbaijan scientific publications in international databases

Summary

One of the main activities of the scientific and educational institutions of Azerbaijan is to integrate into the global system of science and education. To do this, it is important to learn and apply the positive results of world science and education, research institutes NASA, universities and high schools.

Azerbaijan, located at the crossroads of Europe and Asia has a great opportunities to study and practice the scientific synthesis of East and West. At the same time guide of ANAS and the Ministry of Education considered extremely important to acquaint the international community with the scientific values and benefits of Azerbaijan.

Rəyçi: Surə Seyid
filologiya üzrə fəlsəfə doktoru

KƏMALƏ İSMAYILOVA
AMEA Folklor İnstitutu

FOLKLORUMUZDA ŞAH İSMAYILLA BAĞLI NAĞIL

Açar sözlər: Şah İsmayıl, şahzadə, nağıl, M.H.Təhmasib
Ключевые слова: Шах Исмаил, принц, сказка, М.Г.Тахмасиб
Key words: Shah Ismail, tale, shahzadeh, M.H.Tahmasib

Şah İsmayıl obrazına az da olsa nağıllara da rast gəlinir. Belə nağıllar xalq yaddaşında uzun müddət yaşamamışdır. Bunun səbəbi isə belə nağılların qeydiyyata alınmasından sonra qəhrəman adlarının dəyişdirilməsi olmuşdur, bu nağılların arxaik mətnini ancaq süjetinə görə bərpa etmək mümkün ola bilər. Şah İsmayılla bağlı belə nağılları misal göstərən M.H.Təhmasib «Şahzadə İbrahim» nağılının özəyində daha qədim nağılların durduğunu yazır. O, nağıldakı İbrahimin İsmayıl, Gülruxun isə gülzar ola biləcəyini təxmin edir. Ən maraqlısı isə odur ki, nağılın qız qəhrəmanı ermənidir (1, s.193). Lakin Şah İsmayılla bağlı elə qədim variantlar vardır ki, onları dəyişdirmək, **özününküləşdirmək mümkün olmamış, elə çap olunduğu kimi də qalmışdır. 1888-ci ildə SMOMPK-un** altıncı buraxılışında «Gözəl şahzadə haqqında nağıl»ı çap olunmuşdur (2, s.122 – 140). Bu nağılı A.Zaxarov 1888-ci ildə Şamaxıdan toplamışdır. Nağılın qısa məzmunu belədir: Bir şah, onun da tək bir oğlu var idi. O, İskəndər Zülqərneyn kimi gözəl, loğman kimi ağıllı, Rüstəm Zal kimi cəsur idi. Onu Şah İsmayıl çağırırdılar. Bir dəfə o, ova getdi. Çölləri, meşələri, dağları çox gəzdi ov tapa bilmədi. Evə qayıtmaq istəyirdi ki, bir kolun altında balaca gözəl dovşan gördü. Dovşan o qədər gözəl idi ki, Şah İsmayıl onu diri tutmaq istədi. O, atdan düşüb dovşanın üstünə atılmaq istəyəndə dovşan qaçdı. Şah İsmayıl onun ardınca qaçmağa başladı. Dovşan qaçdı, şahzadə qaçdı, dağlar aşdılar, dərələr keçdilər, düzlər keçdilər, dovşan gözdən itdi. Şah İsmayıl göz gəzdirdi, bir neçə gün axtardı, axında bir ağacın altında dincini almaq istədi və yuxuladı. Ayılanda özündən aralıda üç div gördü. Onlar bir-biri ilə mübahisə edirdilər. Şah İsmayıl divlərdən gmzlənmək istədi. Onlar şahzadəni gördülər və dedilər:

- Bu bəni adəmdir, bizim mübahisəmizi öz ağlı ilə həll edə bilər.

Onun yanına gəlib dedilər:

- Bizim üç əşyamız var, onlar dedilər, üç əşyanın üçü də möcüzəli xüsusiyyətə malikdir. Biri xalça-təyyarədir, üstünə oturub «apar məni, xalça-təyyarə, istədiyim yerə», o saat istədiyin yerə aparar. Gözəgörünməz papağı geyinəndə səni nə cin, nə ölü, nə diri görməz, sən onları görərsən. Əgər sən acsansa, bu süfrəyə desən «açıl, süfrə, açıl», o dəqiqə sənin qarşında nə arzulasan, yemək-içmək, cənnət içkisi, hazır olar. İndi biz mübahisə edirik ki, süfrə kimə çatacaq!

- Sizin mübahisənizi həll etmək çox asandır, - şahzadə dedi. Mən yayımdan ox atacağam, sizlərdən kim birinci oxu tapıb gətirsə, süfrə onundur.

Divlər şahzadənin ağıllı təklifindən razı qaldılar. Şahzadə yayı möhkəm dartdı, divlər oxun ardınca qaçdılar. Şahzadə süfrəni büküb cibinə qoydu, gözügörünməz papağı başına qoydu, xalça-təyyarəyə əyləşib, «apar məni, xalça-təəyarə, dov-

şanın məskəninə», - dedi. O dəqiqə xalça-təyyarə geniş çöllərdən keçdi, hündür dağları, qaranlıq meşələri, dərin dəryaları aşdı, şahzadəni hansısa bir yuvanın qabağına gətirdi, şahzadə xəncəri ilə yuvanı genişləndirməyə başladı. Birdən gözləri qarşısında mərmər sütun, qızıl pilləkən gördü. Pilləkəndən aşağı enib, böyük, gözəl, heyranedici bir bağa girdi. Bağın gümüş divarları, qızıl qapısı var idi. Bağda ağaclar bitmişdi, bunlar adi ağaclar deyildi, qızıldan idi. Alma qızıl, armud gümüş, üzüm yaqutdan, albalı zümrüddən idi. Bağda bir-birindən ətirli güllər, çiçəklər açmışdı. Gözəl, qeyri-adi quşlar budaqdan budağa qonur, quşların cəh-cəhi mərmər fantanın zümzüməsinə qarışırdı. Belə bağı ancaq peyğəmbər cənnətdə görmüşdü. Bağın içərilərinə doğru gedəndə şahzadə qızıldan saray gördü. Otağın içindəki mərmər sütunlu qızıl pilləkəndən Şah İsmayıl yuxarı qalxıb gözəl mərmər meydan gördü. O, bir neçə qızıl qapı gördü, qızıl və daş-qaşlarla bəzənmiş otaq gördü. Otağı tavanı qızıl çiçəklərlə örtülü idi. Otaqda qızıl taxtın üstündə gənc, gözəl, nəfəsindən cənnət ətri gələn bir qız yatmışdı. Onun nəfəsi otağı cənnət ətri ilə doldururdu. Şah İsmayıl yatan gözəli görən kimi o dəqiqə onun ürəyində qıza qarşı məhəbbət alovlandı. O, qıza yaxınlaşıb onun gözəl dodaqlarından öpdü. Gözəl qız gözlərini açdı, ətrafa boylandı, heç kimi görmədi və yenə yuxuya getdi. Şahzadə ikinci dəfə öpdü, qız yataqdan sıçradı, qorxu ilə hər tərəfə nəzər saldı, şübhəli heç nə görməyib otağı axtardı. Şah İsmayıl onu möhkəm qucaqladı, gözəl dodaqlarını öpüşə qərq etdi. Qız onun əlindən qurtarmağa can atırdı, qışqırırdı, ağlayırdı, lakin şahzadə ona əhəmiyyət verməyərək, dəlicəsinə onu öpürdü. Axırda gözəl qız gözəgörünməyən düşməni ilə mənasız mübarizədən bezib taxtına sıçradı, yalvarmağa başladı:

- Kifayətdir, bəsdir! Allah eşqinə, məni incitmə. Özünü göstər. Divsən, yoxsa insansan, ölümsüzsən, ya ölərisən, dostsan, düşmənsən, anlat mənə.

- Mən sənin dostunam, gözəl qız, - şahzadə dedi. Mən səni çox sevirəm, həyatdan, cənnətdən də çox sevirəm.

- Əgər sən doğru deyirsənsə, həqiqətən məni sevirsənsə, özünü mənə göstər.

- Gözəl qız mənim olmağı vəd edirsənsə, sənə görsənərəm.

- Söz verirəm.

- And iç.

- Atamın və anamın başına and olsun, Allaha və onun böyük peyğəmbərinə and olsun. Dənizə, torpağa, oda, suya and içirəm. Qərbə və Şərqə and içirəm ki, sənin olacağam.

- Yox, mənim gözəlim, yaxşısı budu ananın südünə and iç.

Gözəl qız üçün çətin oldu. Şahzadə elə and tələb edirdi ki, o, pozmağı bacarmazdı. O dilləndi:

- Anamın südünə and içirəm, əgər mən andımdan dönərəmsə gözlərim kor olsun, sənin olacağam, səni sevəcəyəm, gənc və ya qoca olsan da, xeyirxah və ya bədxah, çirkin, axmaq və ya ağıllı olsan da sənə hörmət edəcəyəm. Özünü göstər.

Şahzadə gözəgörünməz papağını çıxartdı, gözəlin qarşısında bütün şuxluğu ilə, gözəlliyi ilə dayandı. Qız şahzadənin görkəmi qarşısında dayana bilməyib onun qucağına atıldı. Onlar bir-birini qucaqlayıb öpdülər. Gecə oldu. Gözəl şahzadəni yataq otağına apardı. Bir neçə gün keçdi qız qəmləndi, kədərləndi. Onu qara fikirlər izldəi. Şahzadə bunu duyub dərdini soruşdu.

- Mənim sevimli şahzadəm, mən çox xoşbəxtəm, unutmuşam sənə deyəm, bizim xoşbəxtliyimiz uzun sürməyəcək. Sabah yanıma acıqlı div gələcək.

- Sənin kədərli olmağının səbəbi budursa, narahat olma, mən o qəddar div gələn kimi öldürərəm.

- Ax, əgər onu öldürmək mümkün olsaydı, - deyə gözəl qız yalvarmağa başladı, bədbəxtlikdən o sehrlidir, ona nə qılınc, nə də ox batır.

- Onda nə edək? Qəmlənən şahzadə çığırdı, mən ölərəm, səni o qəddar divə vermərəm.

- Sən qulaq as, sənə öz həyatımı danışım, bəlkə məni ondan qurtarmaq üçün vasitə tapasan. Mən dənizlər padşahı qüdrətli Kalay-Lamanın qızıyam. Qəddar div mənim atamın düşməni idi. O, məni oğurlamaq istəyirdi, atam mənə dənizin dibində saray tikdirmişdi və sadiq dəniz balıqlarını gözətçi qoydurmuşdu. Onlar məni divdən müdafiə etməli idilər. Lakin qəzəbli düşmən vasitə tapıb mənim gözətçilərimi aldatdı və məni dənizdəki sarayımdan oğurladı. O, məni müqəddəs Allahın gündüzündən məhrum etdi. Əgər o, arada bir mənə azadlıq verirsə, qızılyunlu dovşan görkəmində görünür ki, qorxub gizlənməyim. O, dəfələrlə yanıma gəlib tələb edib ki, onun arvadı olum. Mən onun təklifindən qaçmışam.

Şahzadə İsmayıl gözəl şahzadə qızı diqqətlə dinlədi.

- Səndən asılıdır, ondan xilas olmaq üçün gələndə onu çalış nəvazişlə qarşıla, özünü elə göstər ki, ona arvad olmağa razısan. Ondan soruş ki, onun canı harda yerləşir? Biz bunu biləndən sonra asanca ondan xilas ola bilərik.

Şahzadə qız onun dediyi ilə razılaşdı. Ertəsi gün onlar oyananda güclü tufana bənzər qorxunc səs eşitdilər. Saray titrəyirdi, tavan, döşəmə yellənirdi. Şahzadə İsmayıl gizləndi. Ağzından və burnundan od çıxan, nəfəsi torpağı əzdirən div içəri girən kimi şahzadə gizləndi. Div şübhə ilə havanı iylədi:

- Mən insan ətinin iyini hiss edirəm, dadlı ətin xoş iyini duyuram. Söylə, harada gizlənmisən, öləri? Çoxdan bəri adam əti yemirəm.

- Nə danışırsan, mənim hökmdarım, - şahzadə qız günahsız görkəm alaraq dedi. İnsan nə cürət edib sənin sarayına gələ bilər? Quş quşluğu ilə qanadlarını toxundurmağa qorxur. İlan ilanlığı ilə divarının yanında sürünə bilmir.

- Mən sənə deyirəm, öləri insanı sən gizlətmisən, mənə göstər.

Div otağı axtardı, taxtın altına baxdı, heç kimi tapmadı. Sakitləşdi, başını qızın dizinə qoydu, şahzadə qız onu sığalladı, qorxunc sifətindən öpdü. Div yalvardı, qıza dedi ki, onun arvadı olmağa razı olsun. Şahzadə qız onu qucaqlayaraq ağladı.

- Sən niyə ağlayırsan, gözəlim? Sən nə istəyirsən de, bir dəqiqəyə tapıb sənə gətirim.

- Necə ağlamayım, mənim sevimli divim, sən məni sevmirsən, mənə diqqət yetirmirsən.

- Mən səni sevmirəm? Div çığırdı, - səni məndən kim çox sevə bilər?

- Əgər həqiqətən sən məni sevirsənsə, de, sənin canın harada yerləşir?

- Yox, şahzadə, sən məndən başqa şey soruş, bunu mən sənə deməərəm.

- Görürsən, sən məni sevmirsən. Sən məni sevsəydin xahişimi yerinə yetirərdin.

- Sən nəyə görə bunu bilməyi arzulayırsan?

- Mən bilmək istəyirəm ki, sənin canın təhlükəsiz yerdədi? Mən səni sevirəm, qorxuram, əsirəm, fikirləşirəm düşmənlərin səni öldürər. Əgər mən inansam ki, sənin canın etibarlı yerdədir, sakit olaram.

Div şahzadə qızın sözlərinə inandı və ona dedi:

- Hündür dağların, qaranlıq meşələrin, dərin dənizlərin arxasında uzaq ölkədə hündür dağda saray var. Bu sarayda qaranlıq otaq var, bu otaqda döşəmədən qılınc asılıb, qılıncın dəstəsində mənim canım yerləşir. Bu qılıncla məni vursan ölərəm, iki dəfə vursan dirilərəm.

Şahzadə qız ağıldankəm divə təşəkkür etdi. Div başını qoydu yatdı. Şah İsmayıl xalça-təyyarəyə əyləşib dedi:

- Apar məni, xalça-təyyarə, hündür dağların, qaranlıq meşələrin, dərin dənizlərin arxasında yerləşən torpağa, o ölkədəki sarayda qaranlıq otaqda qılınc asılıb.

Şahzadə qılıncı tutdu, divə heyifsiləndi. Qızın otağına gələndə div başını şahzadə qızın dizinə qoyub yatırdı. O,divi qılıncla vurdu.Div gözlərini açdı və dedi:

- Xeyirxah gənc, mənə əzab vermə.

- Yox, mən bir dəfə anadan olmuşam, - şahzadə dedi və qılıncı qınına qoydu. Div canını tapşırdı.

Şahzadə İsmayıl qızı sinəsinə sıxıb dedi:

- İndi sən azadsan, sevgilim. Atamın yanına gedək, mənim arvadım olarsan.

- Yox hələ, sevimli şahzadəm, mən tam azad deyiləm. Mən 40 gün 40 gecə yatmalıyam ki, sehrdən azad olum. Bundan sonra sənin ola bilərəm.

- Mən bu 40 gündə nə edəcəyəm, - kədərlə şahzadə dilləndi, sənsiz necə yaşayacağam?

- Mən bu sarayın 40 otağının 40 açarını verərəm. Onlarda nə qədər qiymətli əşyalar var, sən heyran qalacaqsan. Sən özünə nə qədər istəsən qiymətli şeylər götürə bilərsən ancaq qırxıncı otağın qapısını açanda ehtiyatlı ol. Özün də həlak olarsan, mən də.

Bunları deyib şahzadə qız başını məxmər balınca qoydu və yuxuladı.

Şah İsmayıl açarları götürdü. Otaqları gəzməyə başladı. Bu çox gözəl otaq idi, bura qızıl, qiymətli daş-qaşlar, zümrüd, brilyant, yaqutla bəzədilmişdi. Lakin bunlar şahzadəni az maraqlandırırdı. Onu maraqlandıran otağın ortasındakı təmiz qızıldan olan gözəl ağac oldu. Onun meyvələri brilyantdan idi. ağacıq yarpaqları qızıldan idi, bir-birinə dəyib möcüzəli cənnət səsi verirdi. Şahzadə bu möcüzəli səsə fikir verdi, ondan hansısa xoş rayihə, cənnət musiqisinin sədası altında yuxuya getdi, o biri gün ayıldı. O hesabladı, şahzadə qızın oyanmasına 39 gün qalıb.

O, ikinci otağa keçdi. Bu otaq böyük idi, ayrıca olaraq otuz rəngli qiymətli daşlarla bəzədilmişdi. Şahzadə bu otaqda günün necə keçdiyini duymadı. Gecə oldu.

Üçüncü gün o, üçüncü otağa, dördüncüu gün dördüncü otağa, sonra beşinci gün beşinci otağa, beləliklə otuz doqquz otağı gədi. Qırxıncı otaba girmək qadağan olunmuşdu. Şahzadə öyrənmək istədi ki, qırxıncı otaqda şahzadə xanımla bağlı nə var? «Öyrənmək maraqlı olar, bu otaqda nə gizlədilir?» - deyə o fikirləşdi. Nə qədər ki şahzadə xanım yatır, mən bu otağa baxacağam. Şahzadə qız bilməz». Belə fikirləşib sadə, kasıbyana otağa girdi. Otağın bir küncündə sehrlənmiş. Ağır zəncirlərlə bağlanmış nəhəng bir div gördü. O, küncdə hərəkətsiz oturmuşdu, az-az nəfəs alırdı.

Tutqun nəzərlərlə su ilə dolu böyük fincana baxırdı. Fincan o biri küncdə qoyulmuşdu və div heç cür öz susuzluğunu yatıra bilmirdi. Ağır zəncir onu hərəkət etməyə qoymurdu. İçəri girən şahzadəni görüb yalvarmağa başladı.

- Rəhm et mənə, böyük ürəkli öləri insan! Susuzluqdan ölürəm, Allah eşqinə kömək elə, dodaqlarım quruyub.

Şahzadə barmaqlarını onun dodaqlarına yaxınlaşdırdı. Div onun nəmli barmaqlarını yalamağa başladı. Div ondan bir qurtum su istədi. Şahzadə fincanı su ilə doldurub onun dodaqlarına yaxınlaşdırdı. Div suyu içdi, cana gəldi. – Bir fincan da – deyə xahiş etdi. Şahzadə yenə ona su verdi. Div susuzluğunu yatırandan sonra hiss etdi ki, onun gücü qayıdıb və özünün zəncirini qırdı. Şahzadəyə güclü bir zərbə vurub otaqdan çıxdı, yatan şahzadənin otağına girib qızı öz güclü əlləri ilə tutub göyə, buludların üstünə qaldırdı. Şahzadə oyanıb şahzadə qızın otağına qaçdı, qızı yatağında görmədi.

O, kədərli halda sarayı tərk etdi. Bir neçə gün yol getdi, qaranlıq mağaraya rast gəldi. Bu mağara qoca qarı Kaftar Kürsinin idi. onun burnu çox uzun, üst dişləri başından yuxarı, alt dişləri aşağı sallanırdı, saçları meşə, gözləri qaranlıqda görsənirdi. Qarı ağlayırdı, ağzından, burnundan od çıxırdı. Şahzadə ona yaxınlaşdı, onu salamladı.

- Salaməleyküm, nənə!

- Əleykümsəlam, oğul, hara gedirsən?

Şahzadə Kaftar Kürsiyə öz başına gələnləri danışdı.

- Sən xeyirxah cavansan, - Kaftar Kürsi dedi. Bir az mənim zəncirimi boşalt, mən sənə deyim gözəl şahzadəni necə tapmaq olar?

Şahzadə bir qılınc zərbəsi ilə onun zəncirini qırdı.

- Uzaqlarda, uzaqlarda, hündür dağlar, qaranlıq meşələr, dərin dəryalar arxasında arxasında, harada ki, həmişə yaşıl ağaclar bitir, qış yoxdu, həmişə yazdı, orada güllər bitir, orada özünün göy-yaşıl taxtında Allah oturub, orada gözəl qızıl saray var. Qəddar div gözəl şahzadəni həmin saraya gətirib, iki qorxunc şiri də bağlayıb, gecə-gündüz şahzadəni qoruyur. Şahzadə oturub ağlayır, quşlar da ağlayır, o qəmlənir, quşlar da oxumur. Düz gedərsən, dağlar aşarsan, çaylar keçərsən, dənizlər keçərsən, iki qorxunc şir görərsən, onlar gecə-gündüz həmin sarayı qoruyurlar. Bu iki çörəyi götür, nə vaxt saraya çatsan, çörəyin birini bir şirin qabağına, ikincisini o biri şirin qabağına qoyarsan. Onlar səni buraxarlar. Sən sarayı tapıb gözəl şahzadəni görərsən. O ağlayır, div isə başını onun dizinə qoyub yatır. O, üç gün-üç gecə yatacaq. Sən şahzadəni otaqdan çıxararsan. Həyətdə gözəl, küləkdən iti qaçan at görərsən. Bir göz qırpımında şahzadə ilə birgə atı minərsən, at sizi saraydan uzaqlaşdıracaq. Div ayılıb sizi izləyəcək. Sənə üç şey verirəm: daraq, iynə və yumurta.Div sizə yaxınlaşanda, sən darağı atarsan, səninlə div arasında uca dağlar əmələ gələcək, iynəni səpəcəksən torpaqda sıx meşələr bitəcək, yumurta səpəcəksən, dərin dəniz əmələ gələcək, qəddar div dənizdə boğulacaq.

Şahzadə Kaftar-Kürsiyə təşəkkür edib, darağı, iynəni və yumurtanı aldı, yola düşdü. Az getdi, çox getdi, çox getdi az getdi, gecə getdi, gündüz getdi, dağlar aşdı, çaylar keçdi, dənizlər keçdi, nəhayət, divin sarayını gördü, iki şir sarayı qoruyurdu, nə insan, nə heyvan, nə quş buraxırdı. Şahzadə çörəyin birini bir şirə, o birisini o biri şirə atdı. Tez saraya daxil oldu. Gözəl şahzadə qızıl taxtda oturub ağlayırdı,

bədheybət div başını onun dizinə qoyub yatırdı, şahzadəni uzun bığları və saqqalı ilə bürümüşdü. Şahzadə qız Şah İsmayılı gördü, gülümsədi, onun təbəssümündən güllər, çiçəklər töküldü, quşlar incə musiqi ilə, şən səslərlə havada cəh-cəh vurdular. Şahzadə qız onu qucaqlamaq istədi, amma yerindən tərpənə bilmədi, ayaqları və əlləri divin uzun bığ və saqqalı ilə bağlanmışdı. Şahzadə qılıncı çəkib divi öldürmək istədi, div yerindən tərpənmədi, ikinci dəfə vurdu,div tərpənmədi, üçüncü zərbədə div gözlərini açdı və deyindi: «Lənətə gəlmiş bit-birələr qoymurlar yatım». O, yenə yuxuya getdi. Şahzadə yenə zərbə vurdu, div o biri böyrü üstə çevrildi və xoruldadı. Şahzadə gördü ki, onun qılıncı divə kar etmir, ümidsizlik içində öz taleyini lənətləyərək sinəsinə vurmağa başladı.

- Aman sevgilim, özünü ələ al, - şahzadə qız yalvardı, bir saat sonra div oyanacaq, səni öldürəcək, mənə aman verməyəcək. Tavandan qılınc asılıb, onu götür, təkcə onunla divin bığını, saqqalını kəsmək olar.

Şahzadə qılıncı götürüb divin saqqalını, bığını kəsdi, qızı azad etdi. Onlar qucaqlaşıb otaqdan çıxdılar.Şah İsmayıl ağ ata oturub, şahzadə qızı tərkinə alıb o dəqiqə gözdən itdilər. Div gözünü açıb şahzadə qızı görmədi, o dəqiqə özünün qızılyunlu donuzunu çağırdı, ona əyləşib şahzadəni təqibə başladı. Donuz qaçırdı, yer titrəyirdi, külək ona çatmırdı, ildırım yetişə bilmirdi, o uçurdu. Div ağ ata yaxınlaşanda at silkələndi. Onun ağzından, qulaqlarından od püskürürdü. At sahibinin səsini eşidib dayandı və hərəkət etmədi. Div öz qılıncını yellətdi. «Sənə yaxşı olmaz, xeyirxah, gözəl şahzadə. Başın bədəninə ağırlıq eləməsin. Gözəl şahzadədən əl çək». Şahzadənin yadına Kaftar-kürsinin verdikləri düşdü. O, darağı səpdi, arxasında başı göylərə ucalan hündür dağlar əmələ gəldi. Div dağların arxasında qaldı, şahzadə ata qamçı vurub irəliyə uçdu. Div bu maneəni görüb ağlamağa başladı. O, əllərini bir-birinə vurdu, donuz irəli getdi. Donuz qaçır, torpaq silkələnir, külək ona çata bilmir, ildırım ona yetişə bilmir. O qaçmırdı, uçurdu. O, hündür dağlar aşdı, dərin dərələri keçdi. O, axırıncı dağı keçdi, düzdə ağ atın belində Şah İsmayıl ilə şahzadə qız çapırdılar. Div qışqırdı, donuz qaçmırdı, uçurdu. Ağ ata yaxınlaşanda at öz sahibinin səsini eşitdi. «Sənə yaxşı olmaz, xeyirxah, gözəl şahzadə. Başın bədəninə ağırlıq eləməsin».

Amma Allah böyükdür, şahzadə Kaftar-Kürsinin sözünü yadına saldı, o, iynəni yerə atdı. Yerdə meşələr, hündür ağaclar əmələ gəldi. Div arxada qaldı. Bu maneədən o, ağlamağa başladı, əllərini bir-birinə çırpdı. Donuz irəli cumdu. O qaçırdı, torpaq əsirdi, ağaclar onu buraxmırdı. Div qışqırırdı, donuz qaçırdı. O, kolların, tikanların arası ilə qaçırdı. O, meşədən çıxdı, təmiz çöl görsənirdi. Lap uzaqda igid şahzadənin kölgəsi nəzəri cəlb edirdi. Donuz qaçmırdı, uçurdu. O, ağ atı haqlayırdı. At dayandı, hərəkət etmədi. Div qılıncını siyirib:

- Sənə yaxşı olmayacaq, xeyirxah, gözəl şahzadə. Sənin gözəl, dəlisov başını kəsəcəyəm, - dedi.

O, yumurtanı atdı, yumurta dağıldı, dərin, ucu-bucağı görünməyən sahilsiz dəniz əmələ gəldi. Div dənizin arxasında qaldı. Maneədən o ağladı. Vaxt itirmədən o. əlini əlinə çırpdı, donuzu dənizə qovdu. Donuz üzürdü, onun gücü tükənirdi, dəniz ucsuz-bucaqsız idi. Coşğun dəniz qəzəbləndi, ağladı, divlə donuzu özünün dibinə çəkdi. Dalğalar sakitləşdi. Div məhv oldu. Şah İsmayıl və şahzadə qız sevinirdi. On-

lar xoşbəxtliyə qovuşdular. Allah sizə də xoşbəxtliyinizi tapmaqda kömək olsun (2, s.124–140). Bu nağılı A.Zaxarov 1888-ci ildə Şamaxıdan toplamışdır.

Nağıldan Şah İsmayılın sonu bəlli olmur. Lakin nağılın strukturundan görünür ki, Şah İsmayıl gözəl şahzadəni onun atasının hüzuruna aparacaq. Onunla toy edib atasının yurduna qayıdacaq. M.H.Təhmasib bu nağılın ardını bu cür təsəvvür edir: Bundan sonra yəqin ki, Şah İsmayıl vətənə gələcək, atasının bu gözəl qıza gözü düşəcək, mübarizə başlanacaq, ata oğlunun gözlərini çıxaracaq və s. (1, s.193).

Nağılın əvvəlində də bəzi motiv və kiçik süjetləri bərpa etmək olar: İsmayılı yer altında qaranlıq otaqda saxlayıblar, ona heç vaxt sümüklü ət verməzdilər, amma bir dəfə aşpaz onun yeməyinin içinə sümük qoyub. Bu sümüklə İsmayıl pəncərəni vurub sındırıb, içəri düşən günəş şüasını tutmağa çalışıb və s. Amma bizi maraqlandıran Şah İsmayıl obrazıdır. Onun tarixdəki Şah İsmayılla nə əlaqəsi vardır? M.H.Təhmasib ən qədim bir nağıl kimi «Şahzadə İbrahim» nağılının adını çəkir və İbrahimin İsmayıla çevrilmək imkanını da qeyd edir. Bu məsələni nəzərə alsaq deyə bilərik ki, «Şahzadə İbrahim» və buna oxşar digər nağıllar XV əsrə qədər xalq arasında populyar olub, lakin addəyişmə problemi məhz Şah İsmayılın XVI əsrdə daha çox şöhrət qazanması ilə ağlı olmuşdur. Tarixi Şah İsmayılla nağıl qəhrəmanı arasında üst-üstə düşən bir çox faktlar vardır. Şah İsmayıl ovu çox sevəndir. Şah İsmayıl Osmanlı topunu bir qılınc zərbəsi ilə kəsib doğrayıb, döyüşdə öndə vuruşmağı çox sevib, bədəncə onun düşmənləri çox böyük, Şah İsmayıl arıq, incə olub. Taclıbəyim Sultan Səlimə əsir düşüb və s. Deməli, köhnə nağılın strukturu Şah İsmayılın həyatına uyğun gəldiyindən nağıl xalq yaddaşında yeni forma almışdır.

Ədəbiyyat

1.M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər) Bakı,Elm,1972
2.SMOMPK VI buraxılış, 1888
3.Azərbaycan Ədəbiyyatı tarixi, I cild, Bakı ,Elm 2004

Кямаля Исмаилова

Сказка связанной Шах Исмаилом в нашем фольклоре

Резюме

Образ Шах Исмаила хотя и нечасто, но встречается в сказках, которые недолго просуществовали в устном народном творчестве. А причиной тому было изменение имен героев впоследствии. Приводя примеры таких сказок, связанных с Шах Исмаилом, М.Тахмасиб пишет, что в корне сказки «Шахзаде Ибрагим» стоят более древние сказки. Но имеются и такие варианты, в которых изменить их оказалось невозможным. «Сказка о красивой принцессе», опубликованная в сборнике «СМОМРК», принадлежит к числу таких сказок.

Kamala Ismailova

The tale about Shah İsmail in aur folklor.

Summary

There is also found Shah Ismayil character in some tales. These tales don't live in population memory long period. M.H.Tahmasib writes that, the core of these stories is the oldest tales. The reason of this was the changing of characters name. But there are also such variants that it was impossible to change them. "Tale about beautiful shahzadah" was one of them.

Rəyçi: fil.ü.f.d. Elxan Məmmədli

ŞƏLALƏ QULİYEVA
BDU-nun "Televiziya və radio jurnalistikası" kafedrasının dissertantı
selale_meh@mail.ru

QLOBALLAŞAN CƏMİYYƏTDƏ RADIOJURNALISTİKANIN ROLU

Açar sözlər: format, janr, radiojurnalist, dinləyici, media
Ключевые слова: формат, жанр, радиожурналист, слушатель, медиа.
Key words: format, genre, radiojournalist, listener, media.

"Jurnalistika tarixən bəşər cəmiyyətinin müəyyən mərhələsində təşəkkül tapmış, tədricən inkişaf edərək sosial sistemə çevrilmişdir. Əvvəlcə yazılı mətbuat yaranmış, daha sonra elektron media qurumları tarix səhnəsinə çıxmışdır" (4.s.84). Beləliklə, uzun illər geçərək bu sahədəki texnologiyaların və vasitələrin əsaslı şəkildə yenilənməsinə baxmayaraq, jurnalistikanın məqsədi, məramı dəyişməmişdir: insanları məlumatlandırmaq, cəmiyyəti ətrafda baş verənlərdən xəbərdar etmək. Bu xəbərin isə ona catdırılması formasının daha münasib, cəlbedici, nüfuzedici, təsiredici, səfərbər edici olması üçün daim yeni üsullara müraciət edilir.

Əlbəttə, qloballaşan dünyanın mühüm qlobal vəzifələrindən biri də yeni tip cəmiyyət quruculuğudur ki, bu da, bütövlükdə, KİV qarşısında yeni və prinsipal tələblər qoyur. Çünki "yeni texnoloji erada yaşayan demokratik cəmiyyətdə ictimai forum funksiyasını yerinə yetirən və daha çox ictimai rəy formalaşdırmağa xidmət edən medianın üzərinə ciddi məsuliyyət düşür" (4.s.212). KİV inkişaf etdikcə, cəmiyyətin müəyyən gücünə çevrildikcə, təbii ki, yeni formalar, janrlar, o cümlədən formatlar (nəşrin ölçüsü, həcmi) dəyişmiş, yeniləşmiş, təkmilləşmişdir.

Sözsüz ki, bu janrlar ilk əvvəl mətbuatda yaranmış, formalaşmış sonra isə radionun yaranması nəticəsində ona da sirayət etmiş və radio-xəbər, radio-müsahibə, radio-ocerk, radio-reportaj və s. janrlar daha da püxtələşmişdir. Yeri gəlmişkən qeyd edək ki, bəzən "janr" ya "format" sözlərini sinonim kimi işlədir, onları daşıdıqları funksiyaya görə eyniləşdirirlər.

Rus nəzəriyyəcisi Q.V.Lazutinanın təbirincə desək: "Bu anlayışlar bir-biri ilə rəqabət aparırlar. "Forma" sözü məna calarını, işlənmə diapozonunu kəskin şəkildə genişləndirmiş, digər terminləri o cümlədən "janr" sözünü sıxışdırmağa başlamışdır" (2.s.49). "Format" sözü indiki dövrdə, obrazlı desək, sərhəd tanımır. Ondan hər sahədə o cümlədən də teleradio verlişlərində istifadə olunur.

"Radiostansiyanın formatı" anlayışı yayımın əsas prinsipi və parametirlərini nəzərdə tutur, yəni xüsusi auditoriyaya, onun informasiya və estetik tələbatına ünvanlanan radio fəaliyyətinin daxili ölçülərini, standartlarını müəyyənləşdirir" (2.s.49).

Onu da qeyd edək ki, XX əsrin II yarısına qədər "format" termini nəşriyyat sahəsinə şamil edilirdi. Elmi-texniki tərəqqi, ayrı-ayrı teleradio şirkətlərinin, redaksiyaların, fərdləri yaradıcılıq axtarışları "format" anlayışına yeni-yeni məna çalarları gətirməyə başlamışdır. Elektron informasiya daşıyıcılarının kəşfi ilə "format"da həmin sahədə, necə deyərlər, özünə yer etmiş və əlamətlərin məcmusu, in-

formasiyaların parametrləri, məlumatların saxlanılması, ötürülməsi anlayışları kimi də dəyərləndirilmişdir. Elmi-texniki tərəqqinin son naliyyətləri KİV-in kəmiyyət və keyfiyyət göstəricilərinə təsir etdikcə, format ifadəsi də yeni mənalar kəsb edirdi. Belə ki, radio kütləviləşdikcə, cəmiyyət həyatına daha çox nüfuz etdikcə, verilişlərin sayı, saatı artdıqca yeni təyinlərə, ölçülərə ehtiyac yaranırdı. Beləliklə, radioda informasiya janrları ilə bərabər publisistik janrlar da inkişaf edirdi.

Radio tədqiqatçılarının fikrincə radioda ilk vaxtlar bu termindən –"format"dan radio verlişlərinin vaxtının göstərilməsində istifadə edilmişdir. Ötən əsrin 50-ci illərindən televiziyanın yaranması, kommersiya radioproqramlarının ixtisaslaşması, ümumiyyətlə, radioproqramların rəqabətə davamlılığının təmin olunması verilişlərin formatlaşdırılmasını zəruri edirdi. Konkret auditoriyaya istiqamətlənən radioproqramlar yaranır, televiziya ilə rəqabəti uduzmamaq, ən azı fəaliyyət göstərmək, yaşamaq üçün yeni-yeni radio verilişləri ilə bazarı əldən verməmək uğrunda mübarizə gedirdi.

Elmin-texnikanın güclü inkişafı sayəsində 60-cı illərdə televiziya ilə kəskin rəqabət başladı. Belə ki, "format" əvvəlcə radioproqramların, bir müddət sonra isə radiostansiyaların xüsusiyyətlərini müəyyənləşdirən əlamətlər məcmusu şəklində özünü təsdiq etməyə başladı. "Format"ın radioya transformasiya olunması yeni musiqi üslublarının meydana gəlməsi ilə sıx bağlıdır. Bir qədər də dəqiqləşdirsək, yeni musiqi üsulları "format"ın sürətlə təzələnməsinə, yeniləşməsinə, ixtisaslaşmasına təkan verirdi (6.s.11).

Deməli, radio cəmiyyətdə öz yerini daha da gücləndirmək üçün yeni üsullara can atırdı. Çünki rəqabət kəskinləşdikcə, formatların ixtisaslaşması prosesi sürətlənirdi. Operativlik, canlılıq, əyləndirmək və s. baxımdan qəzeti üstələyən radio daha geniş imkanlara, təsir gücünə malik televiziyaya uduzmamaq üçün yeni yollar, üsullar axtarmağa başladı. Azərbaycan radiosunun timsalında efrimizin "format" axtarışı prosesini izləyə bilərik. İlk vaxtlar (1926) radio ilə əsasən qəzet materialları, məruzə və mühazirələr oxunur, respublikanın partiya və dövlət xadimlərinin çıxışları verilirdi. Arada-bir elmi, tibbi və ədəbi söhbətlər də dinləyicilərə təqdim olunurdu. Tədricən daimi verilişlər yaranırdı ki, onları da format axtarışının ilk ünsürləri kimi də dəyərləndirmək olar. "Fəhlə radio jurnalı", "Fəhlə radio qəzeti", "Kəndli radio jurnalı", "Qızıl əsgər radio qəzeti", "İşçi günortası" kimi proqramlar formalaşırdı. Amma onu da qeyd edək ki, bu proqramlar radiopublisistikanın o zaman üçün çox yaxşı verilişlərindən idi. Burada radiopublisistikanın bütün xüsusiyyətlərindən, prinsiplərindən istifadə edilirdi. Publisistik janrda hazırlanan bu veriliş öz bədiiliyi ilə diqqəti cəlb edirdi.

Tədqiqatçı alim Q.Məhərrəmlinin təbirincə desək: "Publisistika ictimai tərbiyə və məlumatlandırma vasitəsi, sosial informasiyanın təşkili və ötürülmə üsulu kimi cəmiyyətə xidmət etməklə sosial qurumların fəaliyyətinə təsir göstərərək mühüm rol oynayır" (4.s.25). Jurnalistikanın nəzəriyyəsi ilə məşğul olan digər tədqiqatçılar isə publisistikanı daha çox ictimai fikrə birbaşa təsir göstərmək məqsədilə sosial məsələlərin müzakirəsinə həsr edilmiş və dövrü mətbuatla sıx bağlı olan ədəbiyyat növü kimi də izah edirlər (5.s.190).

Beləliklə, 70-ci illərdə artıq Azərbaycan radiosunda publisistik janrlara daha çox yer verilirdi. Radioda dinləyici tərəfindən yaxşı qarşılanan bu tipli verilişlərin sayını artırmaq üçün radionun geniş imkanlarından səmərəli istifadə olunmağa başl-

adı. Bunun üçün radiojurnalistikada proqramların məzmununu zənginləşdirməyə, dinləyicilərin artan tələbatını ödəməyə, ayrı-ayrı verilişlərin hazırlanmasına, rəngarəng proqramların tərtibinə daha məsuliyyətlə yanaşmağa, dinləyicilərin rəyini müntəzəm öyrənməyə başladılar.

Bildiyimiz kimi, sovetlər dövrü siyasi rejim, senzura, müəyyən ideoloji çərçivələr digər sahələrdə olduğu kimi radiojurnalistlərin də əl-qolunu bağlayır, onların sərbəst fəaliyyətinə, söz azadlıqlarına məhdudiyyətlər qoyurdu. Lakin 1991-ci ildən Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra digər sahələrdə olduğu kimi KİV-in həyatında da yeni mərhələ başladı. Radionun imkanları üçün də həm hüquqi, həm də geniş, zəngin maddi-texniki baza yaradıldı. Qısa müddət ərzində Azərbaycanda dövlət radiosu ilə yanaşı çox sayda radiolar fəaliyyətə başladı. Bu isə televiziya ilə, internetlə, eləcə də öz aralarında olan kəskin rəqabət radioda sürətli format axtarışlarını qaçılmaz edirdi.

Radio-formatla bağlı fikirlər müxtəlif olduğu kimi, həm də maraqlıdır. Bütün hallarda bu mülahizə ilə razılaşmamaq olmur ki, bu gün radiostansiyaların böyük əksəriyyəti dünya təcrübəsində qəbul olunmuş bir neçə əsas formatdan istifadə edir. "Nevs", "Talk", "All nevs", "Adult Contempororu Nit Radio", "Easy Listeniq", "Beautiful Misic", "Album Oriented Rosk", "Classical", "Midde-of-the radio" formatların təhlilindən bu qənaətə gəlmək olar ki, "radiostansiyanın formatı" anlayışı ilk növbədə yayımın əsas prinsipi və parametirlərini özündə əks etdirir. Başqa sözlə desək, özünəməxsus auditoriyaya, xüsusi dinləyici qrupuna, onların həyat, təfəkkür tərzinə, informasiya və estetik tələbatına ünvanlanan radio fəaliyyətinin daxili standartlarınını, ölçülərini müəyyənləşdirir.

Məsələn, "Lidde-of-the-radio" formatı "hər kəsə və heç kimə"dir. Yəni musiqi nə çox cavan, nə də çox qocadır, nə aqrestivdir, nə də sakit. Bu formatın şüarı "hər kəsə nə varsa, təklif etməli"dir. Elə buna görə də belə hesab olunur ki, bu formatda sərbəstliyin hüdudu yoxdur, onun aparıcları, iştirakçları, dinləyici ilə təmasda tam azaddır.

Maraqlıdır ki, az da olsa, klassik musiqiyə istinad edən formatlar da var. Doğrudur belə radiostansiyaların sayı məhduddur. Lakin onların dinləyiciləri daha mədəni, intellektual, maddi təminat baxımından da geniş imkanlara sahib təbəqəni təmsil edirlər. Müasir dövrdə KİV nümayəndələrinin, əlaxüsus radio-televiziya işçilərinin kütləvi şəkildə həvəs və ehtirasla "format" axtarışına çıxması anlaşılan və təbiidir. Onların öz formatını axtarmaq, tapmaq və təsdiq etmək arzusu, təxminən qəzet müxbirinin öz imzasının təsdiqinə bərabərdir.

Beləliklə, format ölçü ilə yanaşı bir ideoloji məzmun da kəsb etməyə başlamışdır. Məsələn, uzun illər jurnalist işləmiş "Radio kultura"nın baş redaktoru Anatoli Qolubovskinin fikirləri də fərqli və maraqlıdır. Onun mülahizələrini tezis halında formalaşdırsaq, aşağıdakıları söyləmək olar: "Format həyatımızda baş verən müxtəlif təzahürlərə tətbiq oluna bilən çox yığcam və rahat ifadə edilən bir termindir. Format ciddi məsələdir. Yaradıcı insanlar bunun nə olduğunu gözəl başa düşürlər" (2.s.29).

Əlbəttə, radionun imkanları müasir dünyada ondan müəyyən funksional məsələlərin həllini, məsələn, təkcə ayrı-ayrı fərdlərin yox, bütün cəmiyyətin informasiya tələbatının; müəyyən məsələ ətrafında ictimai rəyin formalaşdırılması kimi çətin, məsul vəzifənin yerinə yetirilməsini tələb edir. XX əsrin sonu XXI əsrin əv-

vəllərindən başlayaraq televiziyanın fəaliyyət istiqamətlərində kommersiya maraqlarından irəli gələn müəyyən addımlar atıldı və bu yeni formatlar adı ilə auditoriyaya təqdim edildi. Doğrudur, bu proqramların bir çoxu cəmiyyət tərəfindən birmənalı qarşlanmadı və bu proses yalnız radioda baş vermədi. Ümumiyyətlə, "format" axtarışına çıxan Azərbaycan teleradio məkanının mənəvi mühitimizdə yaratdığı diskomfort artıq çoxdan ciddi və sosial-fəlsəfi araşdırmağa gətirib çıxardı. Ölkə ziyalıları tərəfindən bu məsələlər çox geniş şəkildə diskussiyaya cəlb edildi. Bu da onu göstərdi ki, dövlət xalqın milli-mənəvi dəyərlərinin qorunması, onun gələcəyi olan gənc nəslin mənən sağlam vətəndaş kimi böyüməsi işini heç zaman diqqətdən kənarda qoymur.

Bir sıra digər sahələrdən fərqli olaraq radionun yerinə yetirməli olduğu funksiyalar daha geniş, üzərinə düşən vəzifələr daha ciddidir. Ölkədə və dünyada baş verən hadisələr haqqında əhalinin məlumatlandırılması, informasiya çatdırılması funksiyası, əhalinin maarifləndirilməsi, biliklərin populyarlaşdırılması və mədəniyyətin yayılması, emosional gərginliyin aradan qaldırılması, əyləndirilməsi funksiyası əhalinin əqidə və baxışlarının təbliği və tərbiyyələndirilməsi, nəhayət, dövlət tapşırıqlarının həlli naminə cəmiyyətin həmrəyliyinin və səfərbərliyinin təşkili-sosial inteqrasiya və siyasi səfərbəylik funksiyası müasir dövrdə radionun qarşısında duran çox ciddi problemlərdəndir. Bütün bunlar bir daha sübut edir ki, KİV bütün dünyada olduğu kimi Azərbaycanın da ictimai-siyasi, sosial-iqtisadi, mədəni-tarixi həyatında çox böyük rol oynayır.

Unutmayaq ki, "jurnalistika nəzəriyyəsinin əsasını təşkil edən kütləvi informasiya anlayışı ilkin kateqoriya kimi media qurumları ilə auditoriya arasında münasibətləri tənzimləyir. Məhz kütləvi informasiyanın toplanması, işlənməsi və yayımlanmasının xarakterinə görə bir sosial institut kimi jurnalistikanın mahiyyəti üzə çıxır" (3.s.89).

Müasir dövrdə radio verilişlərinin çoxproqramlılıq meylinin daha da artması ilə yanaşı onun çoxistiqamətliliyi prosesi də özünü biruzə verir. Çoxistiqamətlilik verilişlərin diferensiasiyasında, proqramların fərqlənməsində, onların müxtəlif auditoriyaya yönəlməsində özünü daha qabarıq şəkildə göstərir. Bu zaman verilişin dinlənməsi, auditoriyanın sosial-psixoloji amilləri (tələbat, maraq) əsas götürülür.

Radio auditoriyası dedikdə cəmiyyətin bu kütləvi informasiya vasitəsi ilə ünsiyyətdə olan hissəsi daşa düşülür. Qeyd etmək lazımdır ki, çoxmilyonlu auditoriya yekcinis ola bilməz. O ictimai vəziyyəti, sənəti, təhsili, yaşı, cinsi, və s. bu kimi amillərə görə dünyagörüşü və maraq dairəsi müxtəlif olan adamların vəhdətidir. Bu adamların hər birinin radiodan öz istəyi, tələbi var. Radiojurnalist calışmalıdır ki, bu dinləyici qrupunun istəyini, marağını maksimum nəzərə ala bilsin. Bunun üçün isə o dinləyici auditoriyasını hərtərəfli öyrənməlidir. Sonda belə bir qənayətə gəlirik ki,cəmiyyətin inkişafında radionun da özünəməxsus rolu var. Janrından, formatından asılı olmayaraq radiojurnalist bu güclü elmi-texniki tərəqqidə cəmiyyətin nəbzini tutmağı bacarmalı və radionu dinləyicisinə sevdirməlidir.

Ədəbiyyat

1. Abdullayeva Xatuna. "Azərbaycan telekanallarının proqram siyasəti və onların uzlaşdırılması yolları. Magistir dissertasiyası. Bakı, 2011
2. Актуальные проблемы журналистики. Москва, 1997
3. Əlizadə Yalcın. Radiojurnalistikanın əsasları. Bakı, 1991
4. Məhərrəmli Qulu. Jurnalistikanın əsasları. Bakı, 2012
5. Mehdi Famil. Bədii publisistika. Bakı, 1985
6. Media hüququ. Bakı, 2006

Шалала Кулиева

Роль радиожурналистики в мире глобализации

Резюме

Сегодня как во всем мире, так и у нас в республике, KİV для общества во всех областях имеет большое значение. Работа журналиста заключается в том, что он должен уметь освещать те или иные события, происходящие в глобальном мире. Правильно информировать людей.

Сегодня система KİV позволяет делать это. Ученые в области Журналистики называют этот метод : жанр, или формат.

Shalala Kuliyeva

The role of radio journalism in globalized society.

Summary

Media influences to all part of society both in our republic and in the world today. To inform the society with the news, innovation is directly connected with journalism. And it forces media to do that in different ways. Practitioner scholars of journalism call it format or genre.

Rəyçi: Nəsir Əhmədli
filologiya elmləri doktoru

DƏYANƏT CÜMƏNOV
Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt Filialı
Deyanet_Cumanov@mail.ru

PROFESSOR MİRƏLİ SEYİDOVUN TƏDQİQATLARINDA ETNOTOPONİMLƏRİN LİNQVOETİMOLOJİ TƏHLİLİNİN AZƏRBAYCANŞÜNASLIĞIN ƏDƏBİ-NƏZƏRİ PROBLEMLƏRİNƏ YÖNƏLDİLMƏSİ

Açar sözlər: Azərbaycanşünaslıq, Siraq//Şiraq//Sir**,** Varsaq, Xətay//Xatay, Qazaq// Qazax
Key words: Sirag/Shirag/Sir, Varsag, Khetai/Khatay, Gazag//Gazakh, Azerbaijani
Ключевые слова: азербайджановедение, Сираг//Шираг//Сир, Варсаг, Хэтай//Хатай, Газаг//Газах

Prof. Mirəli Seyidov (1918-92) XX əsr Azərbaycan ədəbiyyatşünaslarının Əkbər Ağayev, Həmid Məmmədzadə, Pənah Xəlilov, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Kamran Məmmədov, Nazim Axundov kimi tanınmış nümayəndələri nəslinə mənsubdur. Ədəbi-elmi axtarış, tədqiqat aləminə İkinci Dünya müharibəsi dövründə, yaxud müharibədən az sonra - Azərbaycan ədəbiyyatının sistemli tarixinin hazırlanmağa başladığı bir vaxtda gələn bu gənclərin əksəriyyəti milli bədii düşüncənin yaxın keçmişini - XIX-XX əsrlərə məxsus ədəbi-tarixi prosesi tədqiq edir, həmin dövrlərdə yaşamış sənətkarların həyat və yaradıcılığını öyrənirdilər. Yaşıdlarından fərqli olaraq, M.Seyidov Azərbaycan ədəbiyyatının orta əsrlər dövrü, onun Zaqafqaziya xalqlarının bədii fikrinə təsir dairəsi, Azərbaycan türkcəsinin Qafqazda geniş yayılmasının, əsas ünsiyyət vasitəsi olmasının səbəbləri ilə maraqlanır, gənc tədqiqatçı Azərbaycan ədəbiyyatının orijinallığını, tarixi bədii zənginliyini və bütün Qafqazda ta qədimlərdən avanqard mövqeyini başqa xalqların bədii mədəniyyəti ilə müqayisə etməklə müəyyənləşdirirdi. Onun ədəbi əlaqələr, ədəbiyyat tarixi, mifologiya, etimologiya və etnogenezlə bağlı tədqiqatları bu gün də azərbaycanşünaslıq üçün həm ədəbi-nəzəri, həm də mədəni-siyasi baxımdan müasir və aktual məsələlərdir. Azərbaycanşünaslığın ən mühüm problemi olan Azərbaycan xalqının mənşəyi - etnogenezi məsələlərinin aydınlaşdırılmasında da M.Seyidovun xidmətlərini danılmazdır: alim Azərbaycan xalqının formalaşmasında iştirak etmiş soy, qəbilə, yer adlarının etimoloji yozumlarını verməklə, həmin etnotoponimlərin xalqımızın mənşəyi ilə birbaşa ilişgəsinin meydana çıxarılmasında, ikinci bir tərəfdən də bu qəbilə və qəbiləbirləşmələrinin Qafqazda ən qədim çağlardan məskunlaşdığı, bu yerlərin aborigenləri olması barədə inandırıcı fikirlər söyləməyə nail olmuşdur.

Azərbaycan xalqının soykökündə duran, Saqlar, Arsaqlar, Varsaqlar, Oğuzlarla qohum olan, azərbaycanşünaslığın heç toxunmadığı Orta Asiyadan, Etil çayından Qafqaza kimi ağalıq edən Siraq//Şiraq//Sir qəbiləbirləşməsinin adının yozumu da ilk dəfə M.Seyidovun etimoloji tədqiqatlarında açıqlanmışdır. Bir çox əski qaynaqlara müraciət edən alimin şərhindən aydın olur ki, II yüzillikdə yaşamış yunan

müəllifi Polienin "Hərbi hiylə" əsərində Siraqı atlara baxan adam adı kimi vermiş, Strabonun bilgisində isə vuruşlarda Siraqların adı tez-tez çəkilmiş, onların Uspa adlı ana şəhəri olmuş, Ön Qafqazdakı düzənlik də "Siraq düzənliyi" adlanmış, arxeoloqlardan M.İ.Artamonov, B.V.Lunun, N.İ.Veselovski Kuban və onun çevrəsində kurqan-qəbirlər açmış və Sarmat adı ilə aparılan qazıntıları Siraq mədəniyyəti ilə bağlamış, VII yüzilliyin bilgini A.Şiraqlının "Coğrafiya" əsərindəki məlumata görə, Şiraqlar//Siraqlar Ağvan//Alban və Arsaq-Qarabağ arasındakı torpaqlarda yaşamışlar [Bax: 1,48-51].

Siraq//Şiraq adının 2 tərkibdən – "sir//şir" və "aq" tərkiblərindən yaranması ehtimalını irəli sürən, s, y, ş, c səslərinin bir sıra türk dillərində səsdəyişmə fonetik hadisəsinin, məsələn: türk dillərində şama siraq, şıraq, yaqutlarda "yay"a "say", "yabıqa" "sabıq", "yaxa"ya "saxa", "yal"a "sal", "yama"ya "sama", "yanura" "samur" deyilməsini xatırladan M.Seyidov "çıraq"ın siraq//sıraq//şiraq kimi səslənməsi, uyğur əlifbası ilə yazılmış "Oğuznamə"də "şüa" əvəzinə yalnız "yaruq"sözünün işlənməsi kimi faktlara əsaslanaraq, "yaruq" və "siraq" sözlərini bir kökdən saymış, bunların kökü olan "yar" və "sir"in hər ikisinin işıq anlamında, 2-ci tərkib "aq//uq"un isə şəkilçi olması mülahizələrini irəli sürmüş, nəticədə Siraq//Şiraq adının "işıq, şüa verən", "şüa buraxan" anlamında düşünülməsi qənaətinə gəlmişdir: "Deməli, öz kökü ilə türkdilli "Siraq//Şiraq//Çıraq" sözü "işıq buraxan", "şüa buraxan" deməkdir.Yuxarıda atlara baxan Siraq haqqında Polienindən gətirdiyimiz bilgidə aydın deyilir ki, Siraqlar (Sir-yar-işıq, od deməkdir) oda, işığa tapınmış və özlərini Sir (aq) // Şir (aq) adlandırmışlar. Ola bilər ki, həmin qəbilənin tanrılarından biri sir//şır//çır//çir-işıq olmuşdur" [1, 56].

Alim daha sonra türkoloqların gözündən yayınmış bir məsələni - Orxon-Yenisey kitabələrindən Tonyukukun şərəfinə yazılmış abidənin 3-cü və 4-cü sətirlərində türk mənşəli Sir xalqının adının şəkilçisiz "Sir" şəkilndə xatırlanması faktını aşkarlamış, bu abidəyə söykənərək onların Oğuzlarla bir qəbiləbirləşməsində yaşadığını, Azərbaycanın Sabirabad, Ağdam, Bərdə, Oğuz, İsmayıllı rayonlarında "Şirvanmeşə", Türkmənistanda "Şirvan", "Şirvanqala", Türkiyədə Şirvan, Şirvan-Mazin, Cənubi Azərbaycanda Sir//an, Şir//an/ kimi toponimlərin Siraq-Şiraq-Sir qəbiləsinin adı ilə bağlı olmasını və qəbilənin yerləşdiyi bir çox yerlərə məhz öz adını verməsini tutarlı dəlilərlə sübut etmişdir.

Sirak//Şirak tayfa adının ən yaxşı sözaçımının M.Seyidov tərəfindən söylənildiyini qeyd edən Aslan Bayramov "Kitabi-Dədə Qorqud" dastanında Şirak//Şirakeli//Şörəyel kimi adı çəkilən toponimin tarixən Qars vilayətinə tərəf uzanan bölgə adı olduğunu, 100-dən çox kəndində azərbaycanlıların yaşadığını, həmin kənd adlarının "Ermənistanın tarixi coğrafiyası" kitabına salınmadığını, 1828, 1854, 1878, 1914-cü illərdə Şörəyel vadisi Şirakın rus-türk müharibələrinin meyadanına çevrildiyini, erməni terroru nəticəsində həmin kəndlərdə yaşayan Azərbaycan türklərinin çoxunun məhv edildiyini, bir qisminin Arpa çayını - sərhəddi keçərək Türkiyəyə qaçqın düşdüyünü, Şörəyel vadisində - Şirak ovalığında qala kəndi, Şirak qalası, Şirak çayı, Şirak dağı, Şirak düzü toponimlərinin bu gün də qaldığını, Gürcürstanda Şirak, Bərdədə Şörəyelli, Daşkəsəndəki Şaruk, Naxçıvandakı Şərur toponimlərinin, 1989-cü ilədək Öksüz kəndində yaşamış siroylar tayfasının Sirak //Şiraklarla bağlı olmasını qeyd etmişdir [2,45-46].

Dilçi-alim Nadir Məmmədovun "Azərbaycanın yer adları" monoqrafiyasında oronimlərin sırasında "çıraq" adına rast gəldik: "Azərbaycana gəlmə vaxtı məlum olmayan müxtəlif türk tayfalarının adları ilə bağlı oronimlər. Bu oronimlərə cinli, quşçu, bazar, sabunçu, qusar, quba, çıraq, qaraqanlı, abdal, bayan, qarqa, qaraman, qarapapaq və digərləri daxildir" [3,111].

Qeyd edək ki, Şamaxı rayonu ərazisində yerləşən Çıraqlı təpəsi toponiminin adında da Siraq//Şiraq//Çıraq qəbilə adının izləri vardır və bu təpənin Şirvan ərazisində olması M.Seyidovun "Şirvan"ın Sirvan/Şir/Sir fonetik variantları olmuşdur", "Qafqazda, o sıradan Azərbaycanda, Gürcüstanda, Ermənistanda Çıraq/Şiraq/Siraq adı ilə adlanmış yerlərdə, qalalarda (Çıraqala) onlar yaşamışlar" [1,59] kimi mülahizələrini bir daha təsdiqləyir. Azərbaycanın Dəvəçi rayonundakı Çıraqqalanın adını da Siraq//Şiraq qəbiləsinin adı ilə bağlayan M.Seyidov [1,56] onların soy-etnik köklərinin, genlərinin türkdilli Saqlar olması, sonralar Oğuz qəbilə-birləşməsinin içərisində yaşamaları faktlarını da aşkarlamışdır.

Alimin araşdırmalarında böyük həqiqət vardır. Ona görə ki, Azərbaycan ərazisində Çıraqlı etnonimi ilə bağlı çoxlu oronimlər qeydə alınmışdır: Xocavənd rayonunda Çirağuz, Göygöl rayonunda Çiraqidzor, Kəlbəcərdə Çıraq, Daşkəsən və Laçın rayonlarında Çıraqlı toponimləri, Bərdə rayonunun Soğanverdilər kəndi yaxınlığında Çıraq düzü, Ağdam rayonu Əhmədalılar kəndi ərazisində Çıraqlı yeri, Şamaxı rayonu ərazisində Çıraqlı çuxuru, Dəvəçi rayonunun Əmirxanlı kəndində Çıraqqaya dağı. Araşdırmalarda keçən əsrin 60-cı illərində Cavad qəzasında 62 ailədən, 80-ci illərində isə 79 ailədən ibarət çıraqlı adlı tayfanın yaşaması, orta əsrlərdə qızılbaş tayfalarının birinin də belə adlanmasına rast gəldik [3,163].

Azərbaycan ərazisində "şatır" sözü ilə də əlaqədar çoxlu coğrafi adlar vardır: Zəngilanda Şatarız kəndi, Şatarız dərəsi, Şatarız yoxuşu, Bərdə rayonunda Şatırlı kəndi, Şatırlı təpəsi, Cəlilabad rayonunda Şatırlı kəndi, Şatırlı dağı, Şatırlı yamacı, Şatırlı örüşü, Şatırlı güneyi, Satrılı dərəsi [3,166], Salyanda Şatırovka kəndi və s. Tarixi məxəzlərdə türkdilli şatırlı tayfasının adı çəkilir. "Şatır" sözünə bir çox türk dillərində "çadır" deyilməsinə, Azərbaycan dilindəki "çadır" sözünün isə türk dillərində "şatır" adlanmasına və Şuşada "Çatırdağ" toponiminə [3,166], rast gəldik ki, bizcə, bütün bu faktlar türk dillərində "ç-ş" səs əvəzlənməsini, o cümlədən M.Seyidovun "Siraq//Şiraq"ın "çıraq"la bağlı olması mülahizəsini daha inandırıcı edir.

Azərbaycan xalqının formalaşmasında iştirak edən böyük qəbiləbirləşmələrindən biri də Varsaqlardır. Xatırladaq ki, prof. M.Seyidov "Azərbaycan mifik təfəkkürünün qaynaqları" monoqrafiyasının sonuncu– "Varsaq" sənətinin mifik təfəkkürlə əlaqəsi" [4, 290-325] adlı dördüncü bölümünü bütövlükdə Varsaq probleminə həsr etmişdir. Xatırladaq ki, 1954-cü ildə alimin "Varsaq" sözü haqqında" [5], 1970-ci ildə isə" Varsaq...Ozan...Aşıq..." adlı məqalələri çap olunmuşdu [6]. Deməli, Varsaq sözünün taleyi, onun etnolinqvistikası və əski inamlarla əlaqəsi, Azərbaycan xalqının etnik mədəniyyətində yeri, dəyəri tədqiqatçını uzun müddət düşündürmüşdür. Bu sözün qəbilə adı, yer adı, əşya adı, şeir forması, musiqi adı, sənətkar adı olmasını araşdırmaqla bu sahədə xüsusi xidmət göstərmiş M.Seyidovun elmi şərhindən aydın olur ki, Özbək şahı Baburun məşhur "Baburnamə", Aşıq Paşazadənin "Tarix" əsərində Varsaq qəbilə və yer adı kimi işlənmiş [Bax:4, 304], Uzun Həsənin hakimiyyəti çağında onlar mərkəzi hakimiyyətə tabe olmayaraq dəfələrlə

üsyan etmiş, I Sultan Murada qarşı Qaramanlıların üsyanına qoşulmuşlar. V.V.Radlov, Şəmsəddin Sami, Şeyx Süleyman Əfəndi Buxari, D. Kelekyan, Məhiyəddin, M.S.İvanov, Besim Atalay, İ.P.Petruşevski Varsaqları türkdilli, Azərbaycan qəbiləsi saymışlar.

M.Seyidov "Varsaq" sözünü "var" və "saq"//"sağ" tərkibli söz hesab etmiş, 1-ci tərkibin "malik olmaq", 2-ci tərkibin isə bir çox türk dillərində, o cümlədən uyğur, teleut, altay, qırğız, kuman, şor, saqay, koybal, Qazan, Krım, tatar dillərindəki həssas, sayıq, işini bilən, ağıllı, diqqətli, ayıq, namus, şərəf hissi anlamlarını nəzərə alaraq, nəticədə, bu sözün "həssaslığı olan", "işini bilən", "şərəf hissinə malik adam" demək olması qənaətinə gəlmiş, "Tonyukuk" abidəsində "fikir etmək" mənasında işlənmiş "sağ" kökündən yaranmış "sağun", "sağunç" sözü də biliginin diqqətindən yayınmamış, həmin sözü, eləcə də çağdaş türk dilində ölü üstündə ağlamağa deyilən "sağu", "yuğ", ağı, ağıçı sözlərini "Varsaq"dakı "saq//sağ"la eyniköklü saymışdır [4,297-298].

M.Seyidovun sözaçımını verdiyi adlardan biri də azərbaycanlıların soykökündə duran Xətay//Xatay qəbiləsidir. Alimə görə, bu etnonim "xət//xat" və "ay" tərkiblərindən yaranmış, türk dillərində "x" və "q" ilə başlayan sözlərdə ara-sıra səs əvəzlənmələri nəzərə alınmaqla, Xatun//Qatun, Xaqan//Qaqan və sairədə olduğu kimi "xat"//"qat"ın da Azərbaycan və eləcə də bir çox türk dillərində "güclü", "möhkəm", "əsaslı", "seçilmiş" anlamlarını, "ay"ın isə "yaratmaq", "yaradıcı başlanğıc" anlamları var. [1,397] Tədqiqatçı bu adın yaranma səbəblərini belə aydınlaşdırmışdır: "Xət-ay//xat-ay"dakı "xət//xat//qat" və "ay" (ay+ı)-nın anlamlarını göz qarşısına gətirsək görərik ki, "xətay"//"xatay"ın "möhkəm", "güclü", "əsaslı yaradıcı", "başlanğıc", "xeyirli başlanğıc", "insan yaradan yaradıcı", "tanrı"anlamı vardır. Bu anlamlar göstərir ki, azərbaycanlıların soykökündə duran bu qəbilənin həmin adda insan yaradan, yaradıcı (geniş anlamda) tanrısı olmuşdur" [1,398].

Prof. M.Seyidov daha sonra göstərir ki, Xətay qəbiləsindən çıxmış bilicilər, sənətkarlar "Xətay"ı təxəllüs, ikinci ad kimi qəbul etmişlər: Şah İsmayıl Xətayi, Altun Boğa Xətay, Suli Xətay. Alim belə adqoymanın Azərbaycanda geniş yayıldığını göstərir: "Məsələn, Əfşar//Avşar, Bayat qəbilə, qəbiləbirləşmələrinin adını tanınmış şair, sənətçi, bilici, XVII-XVIII yüzilliklərdə yaşamış Sadiq bəy Əfşar//Avşar ikinci ad kimi daşımış, orta yüzilliyin böyük aşığı Abbas "Bayat Abbas" adlanmışdır" [1,400]. Tədqiqatçı Xətay qəbiləsinə, soyuna aid musiqi, parça, ornament və xalçada da bu ənənənin "Xətayi" parçası, "Xətayi" havası, "Xətayi" xalçası, "Xətayi" divanisi formasında davam etdiyini göstərmişdir. Sonra alim erməni aşığı Sayat Novanın Xətayi şərəfinə şeirlər yazdığını xatırladır: "Aşıq (Sayat Nova – C. D) Xətayi ilə baglı şeirlərinin birində Şah Xətayini açıqdan-açığa "aləmi yaradan", söz-kəlam yaradan yaradıcı kimi öymüşdür" [1, 398] O, Sayat Novanın şeirindən iki misranı şairin əlyazmasında olduğu kimi həm erməni, həm də Azərbaycan əlifbası ilə verir:

"Dedilər ki, Şa[h] xətai eli, ailəmi yar (a) dan,
Yoxdan var etdin dünyanı, kəlam yaradan" [1, 398].

Sonra bu misraların təhlilinə keçir: "Şeirdən apaydın görünür ki, dünyanı, eli, insanları yaradan Xətai, eləcə də sözü, geniş anlamda bədii sözü yaratmışdır. Deməli, Xətai – Xətayi yalnız insanı, dünyanı yaradan tanrı deyil, eləcə də söz yaradıcısıdır. Xətayi qəbiləsi öz adını özünün yaratdığı dünya, insan, söz, sənət yaradıcısı,

tanrısı Xətaydan götürmüşdür"[1,399]. Alim hələ XVII-XVIII yüzilliklərdə belə mifoloji təfəkkürlə bağlı dünyanı, insanları sözü yaradan Xətayi adlı tanrının aşıqlar arasında hörmətlə anıldığını, "şah" sözünün sonradan artırıldığını göstərmişdir.

Onu da qeyd edək ki, M.Seyidov Sayat Nova və Şah İsmayıl Xətayi münasibətlərini daha geniş planda və dolğunluqla təhlil etməyə cəhd göstərmişdir. Bütün tədqiqatlarında olduğu kimi, burada da alim, ilk növbədə, aşığın şeirlərində Azərbaycanla, xüsusən də Şah İsmayıl Xətayi ilə bağlı mətləbləri qabartmışdır. Müxtəlif transkripsiyada yazdıgı beş şeirdə Xətayi adını çəkən aşığın tədqiqatçıları bunun müxtəlif yozumlarını vermişlər. Müəllif M.X.Naryanın maraqlı bir mülahizəsini nümunə göstərmişdir. Erməni aliminin fikrinə görə, Şah Xətayi mahnı, musiqi tanrısıdır; o, adama şairlik verir, aşıqlıq istedadı bəxş edir; onun verdiyi od sönməzdir, hətta dənizlər də onun qarşısını almaqda acizdir.

Azərbaycanşünas alim ədəbiyyat tariximizin öyrənilməsində erməni tədqiqatçısının mülahizələrini nəzərə almış və bu problemin öyrənilməsini vacib ədəbi-mədəni hadisə saymışdır: "Doğrudan da, Sayat Nova Şah Xətayinin verdiyi odu ildırımla, göy odu, yəni ilahi aləmin odu ilə bağlayır. Şah Xətayinin mifikləşdirilməsinin əsatiri, tarixi səbəbləri hələ tamam öyrənilməmişdir. Bunun üçün, hər şeydən əvvəl, Xətayi qəbiləsinin Xətayi adlı onqonu, tanrı olub-olmadığı və bunun hansı mifik keyfiyyətlərlə bəzədildiyi aydınlaşmalıdır. Hər halda, Şah Xətayi erməni xalqının böyük oğlu Sayat Novanın şeirlərində ya yarı, ya da tam mifikləşdirilmişdir, sənət, söz-kəlam aləminin mifi sayılmışdır" [7,172]. Erməni aliminin mülahizəsi ilə razılaşıb-razılaşmamaq üçün, ilk növbədə, ciddi elmi araşdırmalar aparılmalıdır, onun xalqımız arasında onsuz da əfsanələşmiş ömür yolu bir daha yenidən və əsaslı şəkildə öyrənilməlidir.

Bir məsələni də qeyd etmək yerinə düşər. Tədqiqatın aparıldığı dövrdə, məlumdur ki, sovet ideoloqları Şah İsmayıl Xətayi haqqında ya çox yazılmasına mane olurdular, ya təbliğati məqsədlərinə uyğun şəkildə obyektiv həqiqətin deyilməsinin qarşısını alırdılar, ya da onun həyat və yaradıcılığının sistematik şəkildə araşdırılmasına və təbliğ edilməsinə yol vermirdilər. Belə bir vaxtda M.Seyidovun erməni mənbələrinə əsasən onun şahlığından başqa, xalq təfəkküründə və inamında müqəddəsləşməsini xatırlatması, vurğulaması həm elmi, həm də ictimai-siyasi əhəmiyyət kəsb edirdi. Mirəli Seyidovun bu sahədə gördüyü işləri nəzərə alan Şıxəli Qurbanov onun Azərbaycan-erməni qarşılıqlı ədəbi-mədəni əlaqələrinə həsr olunmuş araşdırmalarını yüksək qiymətləndirirdi: "Azərbaycan-erməni əlaqələrinin öyrənilməsi sahəsində ardıcıl fəaliyyət göstərən M.Seyidov bu əlaqələrin, xüsusilə qədim və orta əsrlər dövrünə aid istər ədəbiyyatımız, istərsə də tariximiz üçün əhəmiyyətli olan bir sıra tədqiqat işlərinin müəllifidir" [8, 316].

Tarixdən məlumdur ki, Azərbaycan xalqının soykökündə duran qəbiləbirləşmələrindən biri də Qazaqlardır. M.Seyidov 200 ildən çox araşdırıcıların diqqət mərkəzində olan, lakin ilkin mənası açılmayan "Qazaq" sözünün də etimoloji təhlilini vermişdir. 1981-ci ildə alimin "Azərbaycan" jurnalında "Qazaq" ("Qazax") sözünün araşdırılması" adlı məqaləsi dərc olunmuşdu [9]. Daha sonra bu məsələ onun "Azərbaycan xalqının soykökünü düşünərkən" monoqrafiyasında dolğun şəkildə öz əksini tapmışdır. Özünəqədərki bir çox türkoloq, slavyanssşunas, qafqazşunas alimlərin tədqiqatlarına nəzər salan M.Seyidovun elmi şərhindən aydın olur ki, P.Butkovda, C.Kokovda "Qazaq" sözü "sarsılmaz sərhəd keşikçisi", "hərbi mühafizə",

V.V.Radlovun türk dilləri ilə bağlı lüğətində "quldur", "qaçaq", "azad", "sərgərdan", "macəra axtaran adam", Qərbi Avropa bilginləri Vamberi, Pave-de Qurteyl, macar alimi Qombosda "yurdsuz", "evsiz", "avara", "köçəri", N.İ.Veselovskidə "insana bənzər qaz", yəni "quş kimi azad", A.N.Çuloşnikovda "qaz" və "aq" tərkiblərinə ayrılmaq şərtilə "ağ qaz", M.Tınışpayevdə "haqq yolunun qazisi",V.İ.Abayevdə "qəhrəman", "igid", "dəliqanlı", M.Baharlıda "qaçaq", Q.F.Blaqovada "yüngül silahlanmış muzdlu", E.K.Koyçubayev və A.T.Kaydarovda "az" və "saq" türk qəbilələrinin birləşməsi nəticəsində 2 müxtəlif anlamlı etnik komponentlərin birləşməsindən yaranan ad, Avropa türkoloqu P.A.Falevdə "kaz" sözü "avaralanmaq", "sərgərdan gəzmək" mənalarında başa düşülmüş və bu istiqamətdə şərhlər vermişlər. Müəllif Q.F.Blaqova, V.Dal, V.V.Radlov, V.V.Bartold, A.Pereobraçenski, R.Miklotic, M.Fasmer, N.K.Dmitriyevin "qazaq//qazax" sözünü türk mənşəli hesab etmələrini doğru qiymətləndirmiş, lakin bütün araşdırıcıların indiyədək söz-adın ilkin mənasına deyil, onun sonradan qazandığı mənalara əhəmiyyət vermələrinə təəssüflənmişdir [Bax: 1,91-100].

"Qazaq" sözünün "qaz" və "aq" tərkibindən ibarət olduğunu, 1-ci tərkibin qaz//qas fonetik varinatlarının insan, yer, çay, qəbilə kimi, məsələn, "Kitabi-Dədə Qorqud" boylarında qazlıq at cinsi, Qazan xan, Qazlıq qoca, Qazlıq dağı adında, "qas-qas güldü" ifadəsində, Oğuz qəbilələrindən Əfşarlara yaxın Qaz qəbilə adında, Kiçik Asiyada Toras dağlarının birinin başı olan Dəmir Qazıq adında, Kazbek//Qazbek//Qazbəy dağ adında, yunan müəllifi Ptolomeyin Qafqazdan bəhs edərkən xatırladığı "Kas-Sulaq" çay adında, M.Qaşğarlının "Divani-lüğətit-türk" əsərində Qaz qalası və Əfrasiyabın Qaz adlı qızının adında, VII əsrdə yaşamış Anania Şiraqlının "Coğrafiya" əsərində "Qasaq" çay adında, eləcə də Qafqaz adında öz izlərini möhkəm qoruduğunu araşdıran M.Seyidov 2-ci tərkib "aq"ı isə 2 anlamda başa düşmüşdür: "Birincisi, bir sıra türkdilli qəbiləbirləşmələri, xalqların çoxunun adında iştirak edən "aq" (Qıpç+aq, Bacan+aq, Urğ+aq, Qalt+aq, Bar+aq və s.) tərkibi, deyəsən, çoxluq, ya da yer, məskən bildirir. ("yat+aq", "bat+aq" və bu kimi sözlərlə müqayisə et). Onda qaz + aq – ucada, yüksəklikdə (dağda) məskən salan anlamını verir... İkincisi: (aq) bir çox türk dillərində həm də "ucalan", "ucalıq" anlamındadır... Onda qaz+aq // qaz+ağ – yüksəkliyə, ucalığa ucalan deməkdir" [1,115]. Alim bu mənaları türk xalqlarının mifoloji görüşləri ilə - dağ ruhu, dağa-daşa tapınma, dağ-daşın ilk əsas başlanğıc, ulu əcdad, uşaq vermək, pis-yaman ruhlardan qorumaq, aşıqlıq, şamanlıq, güc-qüvvət vermək və s. kimi əsatiri keyfiyyətlərlə bağlamış, yalnız türk xalqlarının deyil, o cümlədən çinlilərdə dağ, təpə olmayan yerdə pis, yaman ruhlardan qorunmaq üçün Budda məbədinin tikilməsini, hindlilərdə Merü dağının dünyada hər şeyin mərkəzi sayılmasını [1, 114], ümumiyyətlə, dünya xalqlarının mifik görüşlərində də dağ-daşın mühüm mifoloji rolunu qeyd etmişdir.

Dilçi-alim Nadir Məmmədovun "Azərbaycanın yer adları" monoqrafiyasında Qafqazdakı "qaz"la bağlı bir çox fikirlərə toxunulmuşdur; "...guya bu sözün birinci hissəsi slavyan dillərində olan kovat - "metal döymək" sözü ilə bağlı imiş və tayfa adını bildirən "qas" sözü ilə birləşərək törənmiş olan Qafqaz –"qasların metal döyən dağ ölkəsi" mənasını bildirən bir söz kimi təşəkkül tapmışdır. Bu mülahizədəki həqiqətdən aydın olur ki, Qafqaz sözü "qaz" tayfa adı ilə əlaqəndirilir. Lakin slavyanca kovat (döymək) sözü ilə toponimin izahı az inandırıcıdır" [3, 138-139].

Dilçi alimlərdən Aslan Bayramov akademik V.Bartlodun "Qazlıq dağ" toponimini Qafqaz kimi verməsini, Ə.Dəmirçizadənin Qazlıq dağını Qafqazla lokalizə etməsini düzgün saymış və erməni, gürcü mənbələrində bu dağ adının Hayos və Kartlos qardaşlarının adından götürülməsi fikrini saxta və uydurma hesab edərək türkmənşəlilikdən uzaqlaşdırmaq məqsədi güddüyünü göstərmiş, "Qafqaz" sözünün etimoloji yozumunu belə vermişdir: "Qafqaz dağ adının kapu(q) - "qapı", "keçid" və kas (kaspi, xəzər) etnik adlarından ibarət olması daha inandırıcıdır. Kapı kas//Kapkas qıpçaq, oğuz dilinin morfoloji-sintaktik modelinə daha çox uyğundur. Toponimin tərkibindəki sözlərin inversiyasını nəzərə alsaq, onun Kasların keçidi, Kasların qapısı mənalarını ifadə etdiyi məlum olur. Babadağın bir zirvəsinə Qapıq, Zəngəzurdakı daha bir dağın Qapıcıq (3904 m) adlanması da, həmin dağda olan keçidlə (qapı ilə) əlaqədardır. Dəmir qapı Dərbənd və Qapılı oykonimlərində də qapı leksik vahidinin işlənməsi dağ keçidi ilə bağlıdır" [2, 39].

Beləliklə, mifşünaslıq fəaliyyətində olduğu kimi etimoloji tədqiqatlarında da M.Seyidov həmişə xalqın tarixi, dünyagörüşü, maddi və mənəvi mədəniyyəti haqqında düşünmüş, dildə, ayrı-ayrı sözlərdə yaşayan tarixi, mənəvi keçmişi bu günümüzə gətirmişdir. Söz-tarixdir, onun mənasının düzgün şərhi isə tarixi keçmişin bir çox qaranlıq qatlarını, xüsusən də xalqın əski dünyagörüşünü, milli-etnik kimliyini aydınlaşdırmaq üçün çox mühüm amildir. M.Seyidovun bu sahədə apardığı tədqiqatlar aydın sübut edir ki, Azərbaycan qədim türk yurdudur və Azərbaycan türkləri bu yurdun: Bakının, Qarabağın, Gəncənin, Şərurun, Naxçıvanın, İrəvanın, Göyçənin, Bərdənin, Təbrizin, Ərdəbilin, Şirvanın, Muğanın, Dərbəndin əzəli və əbədi sakinləridir...

Ədəbiyyat siyahısı

1. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. B.: Yazıçı, 1989, 496 s.
2. Bayramov A. "Kitabi-Dədə Qorqud" və Qafqaz . B.: Nurlan, 2002, 123 s.
3. Məmmədov N.G. Azərbaycanın yer adları. B.: Azərnəşr, 1993, 184 s.
4. Seyidov M. Azərbaycan mifik təfəkküründün qaynaqları. B.: Yazıçı, 1983, 326 s.
5. Seyidov M. "Varsaq" sözü haqqında // Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. B., 1954, VII c., s.175-185.
6. Seyidov M. Varsaq...Ozan...Aşıq... // "Qobustan" toplusu, 1970, № 1, s. 38-41.
7. Seyidov M. Azərbaycan-erməni ədəbi əlaqələri. B.: Elm, 1976, 178 s.
8. Qurbanov Ş. Ədəbi əlaqələrin tədqiqində yeni vəzifələr (İkinci məqalə) // Ş.Qurbanov. Əsərləri. Üç cilddə, 3-cü cild, B.:Azərbaycan Dövlət Nəşriyyatı, 1969, s. 304-327.
9. Seyidov M. "Qazaq" ("Qazax") sözünün araşdırılması // "Azərbaycan" jur., 1981, № 2, s. 150-163.

Jumanov Dayanat Almaz oglu

Devoting the lingvo etymological analysis of ethno toponyms in the study by Professor Mirali Seyidov to literary-theoretical problems of Azerbaijan study

Summary

In this article are reflected the methods of lingvo etymological analysis of ethno toponyms such as Sirag/Shirag/Sir, Varsag, Khetai/Khatay, Gazag//Gazakh, in the ethnogeny of Azerbaijani people in the researches of the scientist on Azerbaijan study Professor M. Seyidov.

In that research of the scientist, devoting the scientific-theoretical consideration to the analysis of the literary-theoretical problems of Azerbaijan study –to the interpretation of the prehistoric view and determination of national-ethnic o`f people is taken into consideration basically.

Джуманов Даянат Алмаз оглы

Лингвоэтимологический анализ этнотопонимов с привлечением к литературно-теоретическим проблемам азербайджановедения в исследованиях Мирали Сеидова

Резюме

В статье ученого азербайджановедения, профессора М.Сеидова нашло отражение Лингвоэтимологический анализ таких этнотопонимов как Сираг//Шираг//Сир, Варсаг, Хэтай//Хатай, Газаг//Газах, стящих в корне происхождения азербайджанского народа.

Научно-теоретические взгляды ученого привели к решению литературно-теоретической проблемы азербайджановедения, к направлению выяснения такой основной задачи как мировоззрение народа, его национально-этнический состав в прошлом.

Rəyçi: Şakir Albalıyev
filologiya elmləri namizədi, dosent

TAHİRƏ ƏLİYEVA
(Əlyazmalar İnstitutu)

PİRİ RƏİSİN "KİTABİ - BƏHRİYYƏ"Sİ VƏ XƏRİTƏLƏRİ

Açar sözlər: Piri Rəis, səyyah, xəritə, osmanlı, dənizçi, admiral
Ключевые слова: Пири Реис, путешественник, карта, османы, мореплаватель, адмирал
Key words: Piri Reis, voyager, map, Ottoman, mariner, admiral

Görkəmli türk dənizçisi, donanma admiralı, coğrafiyaşünas, kartoqraf, şair və nasir Piri Rəisin ilk xəritəsinin tərtib edilməsindən 500 il ötür. Bu uzun müddətin keçməsinə baxmayaraq, onun günümüzə gəlib çatan 2 xəritəsi və məşhur "Kitab-i bəhriyyə" əsəri öz əhəmiyyətini qoruyub saxlamışdır. Bu əsərlər əsrlər boyu coğrafiya, naviqasiya, hərb tarixi və ümumiyyətlə tarix haqqında möhtəşəm mənbə olmaqla yanaşı, "Bəhriyyə" əsərinin bir hissəsinin poetik formada yazılmasını nəzərə alsaq, yüksək şeir sənəti nümunəsi kimi də böyük əhəmiyyət kəsb edir.

1453-cü ildə Konstantinopolun (İstanbul) fəthindən sonra sultan Mehmed Fateh üzünü Aralıq dənizinə çevirərək güclü hərbi-dəniz donanması yaratdı. Əsas silah anbarı İstanbulda, digərləri Gelibolu, Süveyş, Ruşuq, Birecik və s. şəhərlərdə yerləşirdi. Belə şəhərlərin birində – Geliboluda, təxminən 1470-ci ildə Hacı Mühiddin Piri ibn Hacı Mehmed – Piri Rəis dünyaya göz açdı. Onun təhsili ilə əmisi, məşhur türk dənizçisi Kamal Rəis məşğul oldu. 14 il əmisi ilə Aralıq dənizini səyahət etdi, bir çox ölkələrdə, liman şəhərlərində oldu, dəniz döyüşlərində gəmi kapitanı kimi iştirak etdi. Bütün bunlar Piri Rəisin əsərlərinin yazılması üçün zəmin idi. Onun dövlət xadimi kimi xidməti Sultan II Bəyazidin hakimiyyəti dövründən başlayaraq Sultan Səlimin taxtda olan bütün dövrünü və Sultan Süleyman Qanuninin hakimiyyət dövrünün bir hissəsini əhatə edir. Üç məşhur türk sultanının dövründə yaşamış Piri Rəis bir çox dəniz müharibələrində iştirak etmiş və dəfələrlə sultanlar tərəfindən mükafatlandırılmışdır. O, 1554-cü ildə təxminən 84 yaşında vəfat etmişdir (bəzi mənbələrə görə ona qarşı təşkil olunan ədalətsiz intriqa və ittihamlar səbəbindən edam edilmişdir). Bəzi tarixçilər onun bütün əmlakının və eyni zamanda kitabxanasındakı əlyazmalarının da müsadirə edilməsini qeyd edir və ümid edirlər ki, onun xilas olmuş əlyazmaları hazırda Misirdə saxlanılır.

Piri Rəis 500 il bundan əvvəl 1513-cü ildə Geliboluda ilk xəritəsini tərtib etdi və 1517-ci ildə onu Misirin Fatehi Sultan Səlim Yavuza təqdim etdi. Rəngli xəritə (ölçüləri 90 x 60 sm) ceyran dərisi üzərində çəkilmişdir. O, ikinci xəritəsini 1528-ci ildə tərtib etdi. Topqapı sarayı kitabxanasının 2754/49357 nömrəli kataloqunda qeyd edilən bu xəritənin üzərində aşağıdakı sözlər yazılmışdır: "Piri Rəis, mərhum Kamal Rəisin qardaşı, Hacı Mehmedin oğlu. Qelibolu şəhəri, 935-ci il". Xəritə (ölçüləri 68 x 69 sm) dəvə dərisi üzərində 8 rəngdə çəkilmişdir. Xəritədə tam dəqiqliyi ilə göstərilən Qrenlandiyadan Floridaya qədər sahil xətləri və onların xüsusiyyətləri, Amerika və Atlantik okeanı sahilləri, Avropa, Afrika ölkələri bu günə qədər böyük maraq doğurur və XVI əsrdəki elmi-coğrafi biliklərin güman edilən səviyyəsini nəzərə alsaq, bunu bir möcüzə hesab etmək olar. Xəritələr üzərində yazılı mətnlər də verilmişdir.

Piri Rəisin ilk xəritəsini 1925-ci ildə İstanbul Milli muzeyinin direktoru Xəlil Ədhəm üzə çıxarmışdır. Burada Afrikanın qərb sahilləri, Cənubi Amerikanın şərq sahili və Antarktikanın şimalı təsvir edilmişdir. Məlum olduğu kimi, Antarktika yalnız 1818-ci ildə, Piri Rəisin xəritəsindən 305 il sonra kəşf edilmişdir. Xəritə yerin buz altındakı sahil xəttini göstərir. Geoloji tədqiqatlara görə Antarktika yalnız 6.000 il bundan əvvəl buzsuz olub. Bu ərazidə buz örtüyünün qalınlığı 1,5 km-dir. Bu məlumatların XVI əsrə haradan və necə gəlib çıxdığı məsələsi böyük maraq doğurur. Qeyd etmək istərdik ki, tarixdə Piri Rəisin xəritələrindən daha qədim bir çox xəritələrin olduğu məlumdur. İlk dəniz xəritəsi eramızın 150-ci ilində Ptolemey tərəfindən tərtib olunmuşdur. Piri Rəisdən həm əvvəl, həm də sonra gələn kartoqrafların İskəndəriyyə kitabxanasında yerləşən mənbələrdən istifadə etmələri ehtimal olunur. "Kitab-i bəhriyyə" əsərində Piri Rəis Misir kitabxanasındakı sənədlərdən istifadə etdiyini deyir.

T.S.Səidbəyevin "İslam və cəmiyyət" kitabında oxuyuruq: "Aralıq dənizi ərəb kapitanlarının təcrübəsi dəniz səyyahı Enrikeyə Portuqaliya gəmilərinin təchizatını təkmilləşdirməkdə çox böyük kömək oldu. Ərəblər tərəfindən tətbiq edilən üçbucaq yelkən böyük səyahətlər və kəşflər dövrünün mühüm texniki şərtlərindən biri idi. Ərəb dəniz terminologiyası, xüsusilə astronomik nomenklatura Avropa lüğətlərinə keçərək onları zənginləşdirdi. Ərəb dəniz xəritələrindəki məlumatlar Qərb ölkələrinə Şərq dənizləri və torpaqları haqqında aydın və dəqiq təsəvvürə malik olmaq imkanı verdi. Xristofor Kolumb Yeni Dünyanın mövcud olması fikrini ona müsəlman mənbələrinin xəbər verdiyini açıq söyləyirdi" (Т.С.Саидбаев. «Ислам и общество». Москва, 1984 г., стр. 53). Piri Rəis "Kitab-i bəhriyyə"sində qeyd edirdi ki, Amerikanı kəşf edərkən Kolumb əlində olan kitab sayəsində haraya getdiyini yaxşı bilirdi:

Cenevizdə bir münəccim var imiş,
Namilə Kolon ana dirlər imiş.
Anun əlinə girər bir xoş kitab,
Kalmış İskəndərdən ol da irtiyab.
Cümlə dərya ilmini bir bir tamam,
Cəm idüb yazmışlar imiş ey hümam.
Ol kitab gəlmiş bu Efrenç ilinə,
Bilməmişlər likin anun hali nə.
Bulur okur bu Kolon anı, ey yar,
Varur İspanya bəginə, anı sunar,
Takrir idər cümlə əhvali ana,
Ol dəxi gəmi virür sonra buna.
Ol kitab ilə əməl idər, ey yar,
Varub Antilyeyi idər aşikar.

Daha sonra Piri Rəis yazır ki, avropalılar zamanla gəldilər Misir ölkəsinə doldular. Böyük İskəndər bütün dənizləri gəzmişdi və onlarla bağlı bütün məlumatları yığıb yazdırmışdı.Toplanan bu kitablar Misirdə qalmışdı.641-ci ildə Əmr bin Əs Misiri fəth etmək qərarına gələndə bir çox misirlilər Avropa ölkələrinə qaçdılar və özləri ilə Makedoniyalı İskəndərin kitabını da apardılar. Bu kitab vasitəsi ilə neçə ellər fəth etdilər.

Bortolomye dirlər imiş bir kişi,
Tərcümə ol eyləmiş işbu işi-

deyərək Piri Rəis bu kitabı portuqaliyalı dənizçi Bartolomey Diasın (1450-1500) tərcümə etdiyini və avropalıların bundan istifadə etdiyini yazır.

Maraqlı bir faktı nəzərinizə çatdırmaq istərdik.Bundan əvvəlki fəsillərin birində Piri Rəis Antil adalarının 1465-66-cı illərdə kəşf edildiyini söyləyir. Lakin Kolumbun səyahətlərinin elmə məlum olan ən erkən tarixi 1492-ci ildən başlayır. Antil adaları Amerikada ilk kəşf olunan adalardır.

Piri Rəis möhtəşəm əsəri olan "Kitab-i bəhriyyə"ni 1521-ci ildə yazmağa başlayır və 1526-cı ildə bitirərək İbrahim paşanın vasitəsi ilə onu Sultan Süleyman Qanuniyə təqdim edir. Əlyazma 23 fəsildən ibarətdir.

"Kitab-i bəhriyyə" əsəri çox mükəmməl və möhtəşəm bir əsər olmaqla yanaşı bələdçi rolunu oynayır və XV-XVI əsrlərdə türklərin dənizçilik və coğrafiya sahəsindəki üstünlüklərindən xəbər verir. Qədim türk mifologiyasında və bir çox tarixi yazılarda su da torpaq kimi müqəddəs hesab edilmişdir. Türklərin dənizə məhəbbəti və dəniz mədəniyyəti onların Anadolu torpaqlarına etdikləri ilk yürüşlərdən başlayır və sonralar yüksək sürətlə inkişaf edərək orta əsrlərdə ən yüksək zirvəyə çatır.

Giriş hissəsi 972 beytdən ibarət şeirlə başlayır. Əsərdə bir çox dənizlərin sahilləri, liman şəhərləri, körfəzlər, adalar, qayalar və s. təsvir edilir, təbiət hadisələri, kompas, qlobus və s. haqqında məlumat verilir.

1-ci və 2-ci fəsillərdə əsərin yazılma məqsədi göstərilir, Piri Rəisin əmisi Kamal Rəislə birlikdə etdiyi səfərlər işıqlandırılır.

3, 4 və 5-ci fəsillərdə tufan, kompas və küləyin istiqamətlərindən bəhs edilir.

6-cı fəsildə xəritələr təsvir edilir.

7-ci fəsildə xəritələrdəki işarələr, rəng fərqləri və kompasın oxundan bəhs edilir.

8-ci fəsildə göstərilir ki, qitələr dənizlərin dörddə biri qədər sahəni əhatə edir. 7 dənizin adı çəkilir.

9-cu fəsildə portuqaliyalıların kəşflərindən danışılır.

10-cu fəsil Həbəşistana, 11-ci fəsil qlobusa həsr olunub. Burada müəllif Yerin kürə şəklində olmasını qeyd edir.

12-ci fəsil poetik girişin əsas hissəsini təşkil edir. Burada Portuqaliya gəmilərinin Hindistana gəlməsi, dəniz səyahəti üçün əlverişli mövsümlər, istiqamət, məsafə və s. haqqında məlumat verilir.

13-cü fəsildə Çin dənizi, oradakı adalar və yerli əhalidən bəhs edilir.

14 və 15-ci fəsillərdə Hind okeanı, mövsüm külәkləri, Qütb ulduzu, en dairəsinin müəyyənləşdirilməsindən söhbət açılır.

16-cı fəsil Fars körfəzi, onun ətrafındakı şəhərlər, adalar və mirvari çıxarılması haqqındadır.

17, 18, 19 və 20-ci fəsillər Hind okeanının qərb hissəsini (Bəhri - Zənc), Afrikanın bu ətrafda yerləşən adalarını, sahilləri və s. təsvir edir.

Qalan fəsillərdə Atlantik okeanı (Bəhri - Əzəm), Aralıq dənizi (Bəhri - Rum), Amerikanın kəşfi, buradakı xalqlar və s. haqqında danışılır.

Qeyd etmək istəyirik ki, 7-ci dənizi müəllif Bəhri-Kulzum adlandırır. Bu Xəzər dənizidir. Piri Rəis deyir ki, o başqa dənizlər kimi deyil, gölə bənzəyir və digər

dənizlərlə birləşmir. Dənizin ümumi ölçüsünün 4.000 mil olduğunu qeyd edir.

Atlantik okeanından bəhs edən "Məğrib dənizi" bölməsində Piri Rəis Amerikanın kəşf edilməsi tarixinin daha əvvəl (1465-66) olduğunu göstərir:

Tarixi Hicrət bu yidi ol zamân,
Tâ səkiz yüz dəxî yetmişdi ol an.
İşbu tarixdə bulundu ol zəmîn,
İsminə Antilye dedilər həmîn.

Əsəri ingilis dilinə tərcümə edən Robert Braqner izahatında yazır: "Ya Piri Rəisin verdiyi tarix səhfdir, ya da onda olan məlumatdan bizim xəbərimiz yoxdur." Məlum olduğu kimi Amerika 1492-ci ildə kəşf edilmişdir.

Mətnin nəsr hissəsi 209 bölmə, 215 xəritə və Aralıq dənizini əhatə edən, "portolano" deyilən böyük miqyaslı təfərrüatlı xəritələrdən ibarətdir. Nəzmdən nəsrə keçidini Piri Rəis poetik formada izahın çox vaxt aparacağı ilə izah edir. O deyir ki, çətin şəraitdə və iş icrası zamanı dənizçilər şeir oxumaq deyil, tez məlumat alaraq ona uyğun hərəkət etmək məcburiyyətindədirlər: "*Zira nəzm ilə bəyan idərsəvüz tatvil-i kəlam olur. Hin-i əməldə və gecələr ilə izdirab yirlərində tatvil-i kəlam münasib değüldür. Həmən müxtəsər cavab-ı şafi gərəkdür"*.

"Kitab-i bəhriyyə"nin 29 əlyazma nüsxəsi məlumdur. Ən mükəmməl nüsxə Sultan I Mahmudun (XVIII əsr) Ayasofya kitabxanasına bağışladığı nüsxədir. Nüsxələrdən doqquzu Türkiyədən kənarda (Drezden, Boloniya, Paris, Vyana, Berlin, London), qalanları isə İstanbul kitabxanalarında qorunub saxlanılır. Əsərin 1525-ci ildə yazılmış orijinalı Fransa Milli Kitabxanası tərəfindən alınmışdır. "Bəhriyyə" kitabının faksimilesi ilk dəfə 1935-ci ildə Türkiyədə izahlar və təfsirlərlə nəşr edilmişdir. Sonrakı illərdə əsər dəfələrlə müxtəlif müəlliflər tərəfindən tərcümə və nəşr edilmişdir.

Ədəbiyyat:

1. Pîrî Reis. Kitab-i Bahriye. The Historical Research Foundation. İstanbul Research Centerş Copyright, 1988.

2. Т.С.Саидбаев. Ислам и общество. Москва, 1984 г.

3. Mert Bayat. E. Deniz Kurmay Albayı. Deniz Harp Akademisi, Öğretim Üyesi. Piri Reis'in hayatı. Istanbul, 1988.

Tahira Aliyeva

Piri Reis's maps and his "Kitabi-Bahriye" (The book about maritime).

Summary

Thanks to the maps he drew and compiled and to his work *Kitab-i Bahriye*, the great Turkish mariner, geographer, and cartographer Piri Reis occupies a place among the world's immortal pioneers of naval and maritime history and among the founders of economic, social, and cultural geography. The first map that he drew in 1513 shows details of the coasts of the Americas.

Таира Алиева

Книга о мореплавании Пири Реиса и его карты

Резюме

Известный турецкий мореплаватель, географ и картограф, поэт и прозаик Пири Реис своим произведением “Китаби - Бахрийе” (“Книга о мореплавании”) и составленными картами занимает особое место среди незабвенных авангардов истории мореходства и основоположников экономической, социальной и культурной географии. Карты, составленные им в 1513 и 1528-м годах с точностью описывают береговые линии от Гренландии до Флориды, побережья Америки и Атлантического океана, страны Африки, Азии и т.д.

Rəyçi: Paşa Kərimov
filologiya elmləri doktoru

AYGÜN ƏLIYEVA
Qafqaz Universiteti

"İZDİHAM" ROMANINDA PSİXOLOJİ ƏKSETDİRMƏ ÜSULLARI

Açar sözlər: interyer, portret, peyzaj, reallıq, qəhrəman
Ключевые слова: интерьер, портрет, пейзаж**,** герой, реальность
Key words: interior, portrait, landscape, hero, reality

Müasir Azərbaycan nəsrində psixoloji ünsür və elementlərlə zəngin olan kifayət qədər əsər var. Afaq Məsudun "İzdiham" romanında isə psixologizm ünsür səviyyəsində deyil, psixi proseslərin əsas ifadə forması səviyyəsində təmsil olunduğundan əsərdə xüsusi psixoloji əksetdirmə üsullarından söhbət açmağa ehtiyac var.

Əsərdə təhkiyə üçüncü şəxsin dilindən verilir. Sanki bu nə yazıçı, nə də qəhrəmana məxsusdur. Kənardan həm qəhrəmanı, həm də qəhrəmanın diktəsinə tabe olan yazıçının təsvir edən üçüncü bir şəxsin dilidir.

İstənilən təhkiyə üsulunda təhkiyənin obrazın əhval-ruhiyyəsi, düşüncə tərzi zəminində qurulması psixologizmin güclənməsinə səbəb olur[1]. Bəzən psixoloji əksetdirmədə (sözün geniş mənasında psixologizm) qəhrəmanın adi bir hərəkəti kifayət edir. Məsələn, Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsində Novruzəlinin ağasının həyətindəki sadəlövh hərəkətlərini poçt qutusunun qarşısında da davam edir. Birincisi, bununla yazıçı qəhrəmanının nə qədər sadəlövh olduğunu çatdırıb qəhrəmana gülürsə, poçt qutusunun qarşısında Novruzəlinin düşdüyü gülünc vəziyyətə baxıb ağlayır, oxucu nə qədər gülsə də müəllifin niyyəti isə daha çox oxucunu diqqətini öz ağlamağına yönəltmək idi. Ən təsirli səhnə və ziddiyyətli məqam budur ki, bəs Novruzəlilər nə etsin?!-gülsünlərmi, ağlasınlarmı?!.Bununla da əsərin ümumi qayəsinə xidmət edən psixoloji hal çatdırılmış olur.

Bununla belə qəhrəmanın daxili dünyası, mövcud halının təsvirində başqa üsullar da vardır. "İzdiham" romanında qəhrəmanın daxili iztirablarının əksində interyer, peyzaj və portret kimi ənənəvi üsullardan qeyri-ənənəvi formada istifadə olunur.

İ n t e r y e r i n təsviri və əksinə, ümumiyyətlə, təsvir olunmaması psixoloji mətnə uyğun bir haldır. Belə ki, istənilən halda bu qəhrəmanın daxili ziddiyyyətlərinin açılması üçün bir vasitəyə çevrilə bilər. Məsələn, Qoqolun "Ölü canlar" əsərinin qəhrəmanı Çiçikovun otağında təsvir olunan güzgü qəhrəmanın daxili dünyasının açılmasında onun feodallarla mübaliğəli söhbətlərindən az rol oynamır. Qəhrəman bu güzgünün qarşısında insanlarla necə rəftar edəcəyinə bir növ "məşq edir".

Lakin adi nəsr nümunələrində interyerin təfərrüatlarla təsviri adi haldır.[1] İnteryerin bu, əsərdə yox dərəcəsinə enməyi əslində qüsur deyil, məziyyətdir. Çünki baş verən hadisələr fonunda sanki təsvir olunan qəhrəmanın ətrafında bir halqa-işıq seli var. Qəhrəmanın durduğu, mövcud olduğu məkandan başqa bir məkana işıq salmır. Sanki otaq qaranlıqdır, teatr səhnəsindəki kimi danışan, yaxud hansısa hərəkəti edən obrazın üzərinə projektor düşür, yalnız onun dar çərçivəsini işıqlandırır. Bizim məkan və interyer haqqında məlumatımız haradasa sıfıra yaxınlaşır. Ara-sıra əşyaların adı çəkilir. Yazıçı bununla da kifayətlənir: "Atası da burdaydı, otağın aşağı küncündə üzüdivara oturub bir qıçını əsdirə-əsdirə yenə nə isə yazırdı".[2]

Yaxud təsvir olunan məkan qeyri-müəyyəndi: "Düşdükcə pillələr qurtarmırdı, burula-burula, uzana-uzana harasa lap aşağı gedirdi. Bir neçə mərtəbədən sonra qapılar qurtardı, pillələrinsə sonu, qurtaracağı görünmürdü". Verilən bu təsvirdə sanki buludların üzərində bina qurulub, məlum deyil pillələr hardan başlayır və harda bitir.

Yaxud məkan konkretdir, sadəcə məkan keçidinə xidmət edir (çevrilmələr zamanı baş verən keçidlər). "Evin divarları, dəhlizi qapqara tüstünün içində əriyib itmişdi...O da ki, qaranlığın içiylə dümbədüz, uzun-uzadı yol getdi"

Əsərdə məkanın genişlənməsi –bir növ kosmosda təsvir üsulundan da istifadə olunub. Bu üsulda yazılar ilk dəfə qələmə alınmır. Belə ki, Sara Nəzərovanın "Nar ağacının nağılı" adlı animasiya-cizgi filmi üçün yazdığı ssenaridə də bu hal özünü göstərir. Belə ki, o əsərdə də əsərin qəhrəmanı kiçilib narın içinə-kosmik aləminə düşür. Lap elə "İzdiham" romanındakı kimi:

"Əvvəl bir ayağı ilə sonra bütün bədəni ilə qulağın içinə girib durdu. Gözü qaranlığa öyrəşdikcə durduğu yerdən burula-burula, əyri-üyri pillələrlə qaranlığın içinə aparan yollarla cırıltı gələn səmtə getdi". Bu hal palıdın içinin təsvirində və meynələrin təsvirində də özününü göstərir. İnteryerin təsvirindəki kasadlıq obrazın xarici portretinin təsviri ilə tamamlanır.

Qeyd edək ki, dar məkanlar, məkansızlığın paraleli kimi əks olunan kosmos onun əsərlərinin qayəsində özünəməxsus yer tutur. Qəhrəmanların yolu çox vaxt bu, "ovsunlu" ərazilərdən keçir. O, yerlər bir qədər çirkli, dar, ilanvari küçələr, arı yuvası kimi qaynaşan həyata açılmış pəncərənin o biri üzündə üst-üstə, iç-içə evlər, bəzisi kök, bəstəboy, bəziləri səfil bir sürü pişik, yalnız uzun zaman əvvəl ölüb getmiş insanların ayaq izləri ilə deyil, hələ doğulmamışların izləriylə qapalı mühit lap tapmaca kimi insanın qarşısına çıxır.

P e y z a j təsviri zamanı əsas yeri bu məqamda rənglər təşkil edir:

"Adamların üzü batan günün rəngindən qırmızı idi deyə hamısı bir-birinə oxşayırdı"-bununla məlum olur ki, insanların başı özlərinə elə qarışıb ki, təbiətin fərqində deyil. Yaxud, "qaçdıqca hava qaralırdı, axşam düşürdü, külək əsirdi, izdihamın ucu, sonu görünmürdü","bir müddət həyətin ortasında, gün başına döyə-döyə oturub ağladı" kimi təsvirləri yazıçı kifayət bilir.

"Ayağı torpağın dibinə işləyib orda meynələrin nəm kökləri ilə hörülüb düyünlənmişdi, dartanda incidirdi. Sonra qaranlıq həyətə ay işığı düşdü və o bir də onu gördü ki, yan yörəsindəki meynələr diksinib tərpəşdilər, şaxələnib ilan kimi həyət boyu uzandılar".

Qeyd edək ki, roman sürrealist boyalarla işləndiyindən burada peyzaj təsvirində fərqlilik özünü göstərir. Əsərdə doğan ay, batan günəş, əsən külək, hətta ağaclar da fərqlidir. Ağaclar adam kimi canlanır, bəzən meşədə qoynunu elə açır ki, bir isti yuvaya çevrilir və b.

Başqa bir təsvirdə zamanın ifadəsi fəsil dəyişikliyi ilə bədii ifadəsini tapır:- "Bir neçə gün, bəlkə də bir neçə ay gün çıxıb bata-bata, küləklər əsə-əsə, yağış damı döyəcləyə-döyəcləyə", yaxud "külək onun qucaqladığı ağır budağı vahiməli-vahiməli cırıldada-cırıldada tərpədirdi...Külək get-gedə bərkiyirdi, nəhəng əjdaha səsi ilə ulayırdı".

Başqa bir təsvirdə "yer" "göy"ə köçürülür: "Göy üzü adamlarla dolu idi. Qaranlıq düşdükcə pəncərənin şüşəsi əsib cingildədi. Sonra külək şəfaf üzüylə dağınıq

saçı ilə pəncərəyə dirənib bir müddət astadan ulaya-ulaya ona baxdı, sonra eləcə üzü pəncərədə sarı yerə göyə çırpıla-çırpıla ulayıb ağladı, Ya yağış yağdı".

Ədəbi p o r t r e t anlayışı obrazın "zahiri görkəminin, simasının, danışıq və gülüş tərzinin, geyiminin və s.nin təsviri"[3] kimi dəyərləndirilir və obrazın daxili keyfiyyətlərinin əks etdirilməsində zahiri əlamətlərin təsviri-ədəbi portret mühüm amillərdəndir. Bədii tiplərin psixologiyasının, xarakterin canlı təzahürü üçün bədii portretin əhəmiyyəti bununla yekunlaşmır.

Real həyatda olduğu kimi obrazın daxili portreti ilə zahiri portreti üst-üstə düşə də bilər, düşməyə də bilər. Məsələn, C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəyin zahiri portreti ilə daxili portreti üst-üstə düşür.

"İzdiham" romanında da isə hər iki hala-həm zahiri portretlə daxili portretin üst-üstə düşdüyü, həm də üst-üstə düşmədiyi hala təsadüf olunur. Lakin bir fərqlə ki, adətən zahiri və daxili portretin mövqeyi digər əsərlərdə sabit qaldığı halda, "İzdiham"romanın da bu hal sabit xarkter daşımır. Məsələn, qəhrəmanın anası o körpə olanda nə qədər daxilən zəngin və zahirən gözəl idisə, sonralar zahiri gözəlliyi qalsa da (baxmayaraq ki, yaşlanır), daxilən mənəviyyatı aşınır, o həddə çatır ki, bezdiyindən övladının balalarını-nəvələrini torbaya yığıb (təhtəlşüur səviyyəsində) yandırır.

Daxili portretdə vicdan, ləyaqət, mərəhəmət bu kimi insani keyfiyyətlər əsas meyar rolunu oynayır.

Portret təsviri psixoloji nəsr nümunələrində digər nəsr nümunələrindən daha çox əhəmiyyət kəsb edir. Belə ki, psixoloji nəsr nümunələrində qəhrəman daha çox özünündərk prosesi, yaxud daxili dünyası ilə təsvir olunduğundan bəzən portret təsvir olmadıqda qəhrəmanın hərəkətlərinin məntiqi izahını tapmaqda oxucu çətinlik çəkir. Çünki "yazıçı xarakter yaradarkən bu və ya digər dərəcədə obrazın zahiri görkəminə yalnız ona görə diqqət yetirir, onun sifət cizgilərinin təsvirinə ona görə xüsusi əhəmiyyət verir ki, insanın keçirdiyi hislər, onun psixologiyası, həyəcanları üzündə və hərəkətlərində özünü büruzə verir, zahiri əlamət daxili aləmin aynasına çevrilir."[4] Düşünən və dəyişən qəhrəman üçün bu cür elementlərlə özünə və ətrafdakılara göstərmədə konfiliktlər daha da aydınlaşır.

Obrazın hansısa hərəkətinə uyğun zahiri elementin təsviri özünü göstəriri:

"Güləndə nənəsinin bir-birindən uzunsov, metal dişləri göründü. Nənəsi gülümsünüb dəmir dişlərini bir-birinə vurdu- ....Anan çox qudurmuşdu...-dedi."

Bu sözlər müqabilində qəhrəman əl atıb nənəsinin üzünü cırır. Nənəsinin üzü əlcək kimi soyulub ovcunda qalır. Bu hərəkətin ardınca qəhrəmanı qınamağa başlayırıq ki, birdən nənənin zahiri portretini ipucu əlimizə keçir. Biz bu, ipi yığa-yığa əsəri oxuduqca nənənin portretini tamamlamış oluruq-bir növ sözlərlə nənənin rəsmi çəkilmiş olur.

Nənənin portreti belə alınır: bayquş başlı, girdə gözlü, tüklü buxağı, əyri ayaq, nazik uzun qoz bel, çiynində qara tum gözlü, boz sərçə var. Nənənin boynundakı boyunbağı isə belə təsvir olunur: "Çəhrayı soxulcan da nənəsinin boynunda idi, sulu boyunbağı kimi nənəsinin boynunda qıvrılıb balaca başı ilə quyruğunu birləşdirib düymə kimi düyünlənmişdi".

Fatma sinifyoldaşı nazik ayaqlı, ağ onlüyü mürəkkəb ləkəli təsviri ilə onun yarımçıq portreti cızılır ki, sonrakı səhnələrdə müəllimi onu cəzalandıranda etirazı ilə portret tamamlanır.

Başqa portret detalallar isə sırf çevrilmə ilə bağlıdır: Qəhrəmanın ayaqlarının dolanması təsvir olunur, yaxud uşağı necə dartırsa onun qulaqları qopub yerə düşür, ağalmaqdan uşağın üzü göyərməsi, anasının saçları uzanıb çiyinlərinə tökülməsi, girdəsifət, arıq bir arvad bardaş qurub onun ətəyinin üstündə oturması və s.

Sürəyya müəllimə- məktəb direktoru əyri bədənli, üzü qırışlı, ayağını çəkən, qalın kişi səsli təsvir olunur: "dərin qırışlarla dolu uzun sifəti tüstünün içində tüstü ilə bir aramla dalğalanırdı. Sürəyya müəllimə sağ gözünün üstünə enən qırışı ağır pərdəni qaldıran kimi qaldırıb bir gözüylə ona baxdı, kişi səsinə oxşar qalın səsiylə:

-Əllərini göstər- dedi... "

Suğra müəllimə çəp gözlü, xırda gillələr hikkədən bir az da çerləşir, yaşımtıl qulağı çəlləyin qapağının üstünə qonur, çəkic kimi iti burnu, çəngələoxşar əyri barmaqları, əqrəbə oxşar əli təsvir olunur. Yazıçı müəlliməni təsvir edərkən maksimum dərəcədə onun zəhmini çatdırmaq üçün tünd boyalardan istifadə olunur. Bu qəhrəmanın məktəbdə keçirdiyi cansıxıcı halı çatdırmaq üçün ən real üsul kimi diqqəti cəlb edir.

Müasir ədəbi tənqid poeziya, dramaturgiya və nəsrdə monoloqun "monoloq-nitq, monoloq-söhbət, monoloq düşüncə və monoloq-təhkiyə kimi müxtəlif tiplərini qeyd edir.[5] Qəhrəmanın anasını çarpayını kürəyində saxlayan hansısa böcəyə oxşatması, yaxud bələyin içində təsvir onu demək əsas verir ki, əsərdə bəzən daxili monoloq göstərmə ilə əvəz olunur.

Bəzən zahiri portretlər yalnız məkanın məhdud təsviri ilə tamamlanır, aydınlaşır.

"Bədii fikrin srukturundakı, insana və həyata münasibətdəki əhəmiyyətli dönüş, irəliləyiş və keyfiyyət dəyişiklikləri müasir nəsrimizdə reallığın artması, şəxsiyyətə, onun psixologiyasına daha həsas münasibət humanist idealın güclənməsi, münaqişələrin, problemlərin təsvirində daha çox mənəvi-əxlaqi aləmə keçməsi, insanla mühit, cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin daha dərindən nəzərə alınması kimi ümumiləşdirilə bilər."[6]

Həqiqətdə, əsərdə istifadə olunan bütün psixoloji əksetidrmə üsul və vastələri yalnız bir qayəyə xidmət edir: yaxşısı və pisi ilə bir insan portreti yaratmaq, elə bir insan ki, bir dəfə özü üçün güləndə bir dəfə başqaları üçün də gülməyi bacarır, bir dəfə özü üçün ağlayanda bir dəfə başqaları üçün ağlamağı bacarır, həm güldürür, həm də ağladır. Bu halda ədəbiyyatın insanşünaslıq adlandırılması necə dəqiq bənzətmədir.

Ədəbiyyat

1. İmanov M.Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər). Bakı, Elm, 1991, s 42.
2. Afaq Məsud. Roman, esse, hekayə.-Bakı:Azərbaycan Tərcümə Mərkəzi, 1998, s. 578
3. Əziz Mirəhmədov. Ədəbiyyatşünaslıq terminləri lüğət.-Bakı:Maarif,1978, s.140
4. Vəliyev İ. Ədəbi portret və xarakter.-Bakı: Yazıçı, 1981, s. 102.
5. Salmanov Ş. Müasirlik mövqeyindən.-Bakı: Yazıçı, 1982, s.160
6. Akif Hüseynov .Nəsr və zaman:-Bakı, Yazıçı, 1980 s.114

А. Алиева

Психологическое изображенное средство в романе «Толпа»

Резюме

Психологическое изображенное средство в романе «Толпа», говориться о психологических состояний и ситуациях. Мы получаем информацию в статье романа, о психологическом изображенном средстве. На основе романа был исследован психология и его изображенное средства.

A. Aliyeva

Methods of psychological reflection in the novel «Crowd»

Summary

In the article named methods of psychological reflection in the novel «Crowd» had been talked about psychological state and situation. In this novel had been investigated metods of psychological reflection in the literature. In this article had been given information about psychological reflection by analysis of novel.

Rəyçi: Füzuli Bayat (Gözəlov)
filologiya elmləri doktoru

SOLMAZ HƏYATOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun
Yeni dövr Azərbaycan Ədəbiyyatı şöbəsinin
böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

"ŞƏLALƏ" JURNALINDA ŞEİR

Açar sözlər: Xalid Xürrəm, lirik-romantik, elegiya, təsvir, nəzəri-estetik, üslub, məzmun, ədəbi-fəlsəfi, publicist, bədiyyat, obraz
Ключевые слова: Халид Хуррам, романтическая лирика, элегия, описание, эстетическая теория, стиль, содержание, литературно-философские труды, публицист, образность, образ
Key words: Khalid Khurram, romantic poetry, elegy, descriptions, aesthetic theory, style, content, literary-philosophical works, publicist, imagery, image

XX əsrin əvvəllərində Azərbaycan şeiri istər ideya, istərsə də üslub cəhətdən coşqun bir inkişaf dövrünə qədəm qoyur. Bütün bunlarla yanaşı bu zaman yenə də dünya xalqlarının ədəbiyyatı köməyə gəlir, başqa millətlərin keçdiyi təcrübə yolu örnək seçilir, yeniliyə doğru qətiyyətli addım atmaq tələb olunurdu. Bu məqsədlə "Şəlalə" jurnalının müəllifləri daha radikal mövqe tutur, "füyuzat"çı ənənənin, "modern" ədəbiyyat" yaradıcılarının nümayəndələri kimi çıxış edirdilər. Ədəbi əlaqənin qurulmasını bu şəkildə həyata keçirən "şəlaləçilər" Türkiyə və onun vasitəsi ilə Avropaya çıxış yolunu daha səmərəli sayırdılar. Elə buna görədir ki, klassik Anadolu-türk ədəbiyyatı ilə yanaşı, çağdaş türk və Anadolu üslubunda yetişən sənətkar və sənət örnəkləri ciddi maraq doğururdu. Onların tərcümə, təbliği və nəşri ön plana çəkilirdi. Türkiyədəki yenilikçi-modernist ədəbi xətlə yanaşı milli ədəbiyyat tarixinə və qanunlara da diqqət yetirirdilər. Bu baxımdan "bən türküm, dinim, cinsim uludur" – fikrini yaşayış məramına çevirmiş Məhəmməd Əmin Yurdoğulun rəhbərliyi ilə çıxan "Türk yurdu" dərgisi və onun ətrafına toplanan müəlliflərin yaradıcılığı daha çox öyrənilir və təbliğ olunurdu. Xüsusilə 1913-cü ildə nəşrə başlamış "Şəlalə" jurnalı bu işə yeni bir təkan verdi. Təsadüfi deyil ki, şəlaləçi mətbuat orqanlarının demək olar ki, hamısında bu tələbləri ödəyən ədəbi-bədii parçalar nəşr olunur, onların bədii məziyyətləri ilə yanaşı, daşıyıcı ideya-əxlaqi xüsusiyyətlər də nəzərə çatdırılırdı.

"Şəlalə" də artıq köhnə ədəbi formaların vaxtı keçdiyini bildirir, yeni mənəvi dəyərlərin yayılmasına çalışırdı. Buna görə də "Şəlalə"çilər öz məsləkdaşlarını hər şeydən öncə milli mədəni kamilliyə səsləyir, müasirlərini zəmanədən xəbərdar olmaq yolunu tuturdular. Əlbəttə, bu məsələlər sadaladığımız kimi mücərrəd şəkildə qoyulmur, əksinə konkret bədii-publisistik materiallarda, ən çox da romantik şeir nümunələrində öz əksini tapırdı (1,2).

"Füyuzat" bədii ənənələrini davam etdirən "şəlalə"çiləri çağdaş ədəbi yaradıcılıqda həmin meylə ən çox üstünlük verir, ümumtürk mədəniyyətinə layiq dəyərlərin qorunmasına çalışırdılar. "Şəlalə" jurnalında "millətpərvəranə mənzumat" məqaləsində "Filosof Kant Asari-sənət haqqında hökm vermək doğru deyildir. Çünki o zəkanın deyil, hissin mövlududur" məalında bir söz söyləyor. Nə qədər doğru" (1,4)

- deyə yazan Şəhabələddin Süleyman hiss, duyğu və təəssüratı bədii əsərin, daha doğrusu, milli ruhun əsərin əsas elementi sayırdı.

Türk ədəbiyyatına bu baxımdan tənqidi baxışla yanaşan Ş.Süleyman konkret poetik örnəklərə əsaslanaraq yazırdı: "Etiraf etməliyik ki, biz bu qüvvətdə, bu hüsndə, bu qədər həyəcankar və həyəcanavər bir mənzumə yazmadıq. Böylə bir əsəri-sənət vücudə gətirmədik. Böyük mənzumat yazmadan əvvəl kini, yaxud eşqi ögrənəlim. Yoxsa sünilikdən qurtulamayız. Fikrimizdəki məqsəd nə qədər ali olursa – olsun, nəticə məkusiyyətə iqtiran edər" (2,258). Təsadüfi deyil ki, şələləçi mətbuat orqanlarının demək olar ki, hamısında bu tələbləri ödəyən ədəbi-bədii parçalara rast gəlinir və onların bədii sənətkarlığı ilə yanaşı ideya-əxlaqi xüsusiyyətləri də nəzərə çatdırılırdı.

Bu baxımdan çağdaş ədəbiyyatın, ədəbiyyatı cədidə normalarının Azərbaycan gerçəkliyinə gətirilməsinə çalışan "Şələlə"çilər ümumtürk milli hiss, duyğu, düşüncə ortaqlığının yaradılmasını əsas ədəbi-bədii vəzifə sayır, bütövlükdə Azərbaycan mentalitetində türklüyün tarixi və indisi haqqında aydın təsəvvür formalaşdırmağı vacib bilirdilər. Odur ki, türklük xarakterini, onun tarixi və çağdaş yaşantısını açan nümunələrə üstünlük verilirdi. "Şələlə" M.Camalın torpaq, vətən, yurd sevgisi, türkə layiq cəsurluq ifadə edən şeirin həmin məqsədlə nəşr edirdi. Şeirdə deyilir:

Altında yatarkən də bizimdir yerin üstü,
Hər zərrəsinə qanilə xüruşan oluruz da.
Dağlar, qayalar cismimizə hail olursa,
Cari oluruz düşmənə biz qan oluruz da.(2, 8)

Buna oxşar örnəklərin meydana çıxması elə-belə təbliğat xarakteri daşımır. Bunların təsiri ilə Azərbaycan ədəbiyyatında orijinal əsərlər də yaranır. Xatırlatmalıyıq ki, həmin istiqamətdə ardıcıl çalışmağın nəticəsində vətəndaşlıq duyğuları ilə süslənən Azərbaycan romantizmi çoxşaxəli inkişaf yolu keçə bildi, milli qan-gen yaddaşımıza söykənən H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq və başqalarının çoxsaylı, çoxjanrlı irsi yeni dövr ədəbiyyatımızın əsas göstəriciləri oldu. Bu müəlliflər hər hansı bir Anadolu-türk sənətkarın təsirinə qapılmır, onlar sadəcə ümumtürk ədəbiyyatının ortaq ənənələrini uğurla davam etdirir, türklüyün ulu tarixinə sadiq qalaraq və çağdaş yaşam stixiyasına əməl edərək bəşəri dəyərlərin qorunmasına çalışırdılar. Bu zaman milli və bəşəri duyğular, düşüncə tərzi eyni mövqedən yüksək qiymətləndirilir, çağdaş ədəbi-bədii yaradıcılığın, milli tərbiyə irsinin istinad nöqtəsi sayılırdı.

XX əsr romantizminin nəzəri-estetik meyarları ilk dəfə A.Səhhətin "Təzə şeir nasıl olmalıdır" məqaləsində açıqlanmış və sonralar da bu milli romantizmin "manifesti" kimi qiymətləndirilmişdir. Eyni bədii normalardan çıxış edən X.X.Səbribəyzadə "Heyhat" şerində yazır:

Gəzməkdə idim dün gecə yalnızca çəməndə
Hər şey idi sakit.
Bir başqa lətafət var idi virdü-səməndə,
Bülbül belə sakit.
Al idi, sədasızdı, müttərdi o gülşən,
dərya isə rakit.
Əşcarü – çəmən, yer və səma, cümləsi rövşən,
Həp xaliqə caçid.

Bir mövqeyi buldim ki, o hakimdi civarə,
ətrafıma baxdım.
Yüzlərcə əməl başladı fikrimdə güzarə,
guya bən uzaqdım.
Faniligə ...ülviyyətü - ənvarə inandım,
məskən bana sandım.
Heyhat! Bir az sonra şu səffatəyi qandım,
Xülya! deyə yandım (1,1).

Göründüyü kimi bu şeirdə X.X.Səbribəyzadə dünya romantizmində özünü göstərən yalqızlıq, tənhalıq, ənbar-ay, uzaqlıq, xülya, fanilik kimi təyinedici terminləri işlədir. Onun bu şeiri A.Səhhətin, H.Cavidin, M.Füzulinin, A.Şaiqin təbiət təsvirlərinə, lirik psixoloji yaşantılara həsr olunmuş şeirlərə daha yaxındır və bədii-estetik əsaslarına görə qətiyyən seçilmir!

X.X.Səbribəyzadə gözəllik aşiqi, təmizlik vurğunu, nəcib insani hisslər, yüksək bəşəri fikirlər tərənnümçüsü idi. Bu incə ruhlu, böyük amallı sənətkarın estetik idealını öyrənmək üçün onun gözələ, insan əxlaqına, aşiqə, sənətkara və nəhayət, yaşadığı dövrə, mühitə münasibətinə dair əsərləri çox qiymətli mənbədir. Onun "o və bən" şeiri bunun bais nümunəsidir:

Öldəm dedi: Amma, səni bən verməğə azim,
Faş oldi bütün aləmə könlümdəki razım.
Güldüm və dedim: Cisminin ey ruhi – lətifi
Duymuş, duyacaqmış deyə ... aləm nəyinə lazım.
Yad etmə cahanı, gəzəlim şimdi bərabər,
Gülsün görərək lütfüni bir qəlbi-mükəddər.
Gəl! Toplayalım busələr avani-səhərdə,
Doğsun yenə sevdamızın üfqündə bir əxtər.

Gəl-gəl gözəlim, gəl məläyim! Ol bana Hadi,
Sən gəl ki, gələ bəxtə də, əfkarə da şadi.
Sənsən dili – möhnətzədənin, peyki – ümidi,
Sənsən əbədi eşqimə, əşvaqimə badi. (2,1)

Aşıqın mənəviyyat kodeksinə görə, əsil məhəbbəti, pak sevgisi, dəmiri əritməyə, daşı yandırmağa qadir olan bir qüvvədir. Onun qənaəti belədir ki, bu böyük məhəbbətin obyekti olan şəxsiyyət təkcə zahiri gözəlliyi ilə öyünə bilməz. Onun da kamalı dərin, sözü mənalı olmalıdır. Gözəl olan gərək öz əxlaqı ilə adamlarda fərəh hissi oyatsın, ürəklərə sevinc gətirsin. Ümumiyyətlə əxlaq və rəftarda incəlik, həssaslıq X.Xürrəmin yalnız gözəllər qarşısında qoyduğu tələblərdən biridir:

Göstərdi təbəssüm, yenə məsti-ləbi qaldım,
Bir xəndəyə qarşı, yenə heyrətlərə daldım.
Pişində əgildim, onu təqdis edərəkdən,
Dəstanını təqbili-əməlilə ələ aldım (6,1).

Bu sətirlər həyatda bir ahəngdarlıq axtaran sənətkarın idealını son dərəcə yığcam ifadə etməkdədir.

XX əsr Azərbaycan poeziyasının yaradıcılarından biri olan X.Xürrəm tez-tez məhəbbətə müraciət edərək onu əsərlərində poetik dillə tərənnüm etmişdir.

Eşqim kimi nəhayət yox nazına vəfasız,
Hüsnündə çoxdur amma, covrində intəhəsız.

Etdikcə dil təmayül oldun bəsteyi - söhbət,
Vəslət xəyalə döndü, eşq oldu rəhnümasız.

Sövdayə karşı qəflət, fəryadə karşı xəndə,
Mötadın oldi hər gün lutf etmədin bəlasız.

Həsrətlə bən yanarkən, hicrinlə dövrularkən,
Sən olmadın yazıqlar, əğyar ilə səfasız.(2,1)

X.Xürrəm qələmindən çıxan gözəl poetik lövhə, əsl poeziya nümunəsidir. Bu poeziya nümunəsi ilə məhəbbətinin heyrətamiz gözəlliyini, bu əbədi-əzəli mizanını təkcə sevgilisinə deyil, sanki bütün Türk dünyasına göstərmək istəyir.

Tək biməfa imişsən xuban içində heyfa,
Qan ağladın onun da, sən olmadın əzasız.
Bilməm nə zövq alırsan, bivari dağlamaqdan,
Heç olmamaqmı fikrin Xürrəm için cəfasız.(6,1)

Elinə-gününə bu qədər bağlı olan, sevdiklərinin ruhunu qoruyub saxlayan, aşiqinə qəlbən yanan, yaşadığı yeri müqəddəs bilən bir insan tərki-dünya ola bilərmi? Əsla yox. Elə ona görə də şairin qəlbi məhəbbətlə döyünəndə, eşqi ona vəfasızlıq edəndə o qəlbinin fəryadını gizlətmir və ona müraciətlə deyir:

Bir düxti-əməlpərvər idi, xoşdi xüramı,
Gültəndi, gözəldi.
Yüksəklərə qonmaqdı və uçmaqdı mərami,
dünyayə bədəldi.
Bir sehri-bəyan vardı onun natiqəsində,
məşhur idi hər kəs.
Tam on sənə oldi, o on beşdə, o sində,
olmuşdi şəfarəs.
Bir qəlbə fəqət sonra dəgişmişdi xəyalı,
dönmüşdi sözündən,
Xuliya kibi, röya kibi sevdayi, vüsalı,
silmişdi gözündən.
Bir başqa fəzaya uçaraq tayiri-fikri,
bulmuş idi qayə.
Pərtov saçacaq sanmış idi aləmə mehri,
bihəddü nihayə.
Heyfa ki, bu gün nalə tökər pənbə dodaqdan,
vicdanını dağlar.
Mətruk isə əhvalına vaqifdir uzaqdan,
matəm tutar, ağlar.

Məşhur Türk şairlərindən Namiq Kamalın axırıncı sözü bu olmuşdur:

Ölürsəm görmədən millətində ümmid etdigim feyzi,
Yarılsın səngi-qəbrimdə vətən məhzun, bən məhzun". (1,8)

Göründüyü kimi, həm türk mütəfəkkiri, həm də dünyanın məşhur ədəbiyyat və ictimai fikir xadimləri eyni yöndən diqqət mərkəzinə çəkilir, eyni çağdaş marağı ödədikləri üçün öyrənilirdi.

"Şəlalə" jurnalında Namiq Kamalın ürək ağrısı ilə dərc etdiyi "Bir mühacir qızının istimdadı" şerinin məzmunu da yuxarıda söylədiklərimizi bir daha təsdiq edir:

İştə şu məzlumun təni,
Bak ləkələnmiş damına.
İnsanmı sandık düşməni?
Allah için öldür bəni
Allah hifz etsin səni!

Gəlməklə bir qız yanına,
Qaçmaq düşərmi şansina?
Verməz zərər imanına
Allah için öldür bəni
Allah hifz etsin səni!

Bar oldi cismin düşənə,
Qan oldi bax ağuşanə.
Girməzmi nalət guşənə
Allah için öldür bəni,
Allah hifz etsin səni!

Yeksər məzar oldu vətən,
Bu yanımda hazurdur xəfən.
Ədaye fürsət dəymədən,
Allah için öldür bəni
Allah hifz etsin səni!

Artıq girişmə çarama,
Düşmənlə gəl gir arama.
Bir qurşun at da yarama,
Allah için öldür bəni
Allah hifz etsin səni!

Öz zəngin daxili aləmlərini, sevinc və kədərlərinin, qayğı və düşüncələrini əks etdirmək üçün şeir həmişə şairlərin yardımçısı olmuşdur. Qısa sözlə böyük fikirlər ifadə edən şairlər həmişə "Şəlalə" və başqa jurnallara yardımçı olmuş və bu baxımdan jurnalla onlar arasında və sonrakı nəsillər arasında bir mənəviyyat körpüsünə çevrilmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. "Şəlalə" jurnalı, 1913-cü il, № 1, səh.2.
2. Şəbahələddin S. "Milliyyətpərvəranə mənzumat". "Şəlalə" jurnalı, 1913-cü il, № 40, 9 noyabr, səh.4.

3. Vəliyev Ş. “Füyuzat ədəbi məktəbi”, Bakı, “Elm” nəşriyyatı, 1999-cu il, səh. 258.
4. “Şəlalə” jurnalı, 1913-cü il, № 14, səh.1.
5. Səbribəyzadə X.X. “Şəlalə” jurnalı, 1913-cü il, № 15, səh.1.
6. Səbribəyzadə X.X. “Şəlalə” jurnalı, 1913-cü il, № 21, səh.1.
7. Yenə orada. “Qəzəl”.
8. “Məşhur adamların son sözləri”. “Qurtuluş” jurnalı, 1915-ci il, №1, səh.4.

С.Хаятова

Литературное творчество Халида Хуррама Сабрибекзаде

Резюме

Поэзия Халида Хуррама, написанная в лирико-романтическом стиле, касается актуальных проблем своего времени. Его стихотворения часто публиковались в журнале «Шелале» и газете «Икбал». В творчестве Халида Хуррама, как в его стихах, так и прозе и публицистике, поднимаются такие важные проблемы, как жизнь народа, его существование, и предлагаются пути их разрешения.

Solmaz Hayatova

Khalid Khurram Sabribayzade’s Literary Activity

Summary

Khalid Khurram’s poetry written in lyrico-romantic style deals with the actual problems of his time. His poems were often published in the journal of “Shelale” and in the newspaper of “Igbal”. In Khalid Khurram’s creation, as well as in his poems, prose and his journalistic works the important problems such as the life of the people, their existence are represented and the ways of their solution are offered.

Rəyçi: Rauf Sadıqov
filologiya üzrə fəsəfə doktoru, dosent

TÖVSİYƏ VƏ TƏKLİFLƏR

NADİR MƏMMƏDLİ
filologiya elmləri doktoru, professor

"AZƏRBAYCAN DİLİNİN QLOBALLAŞDIRMA ŞƏRAİTİNDƏ ZAMANIN TƏLƏBLƏRİNƏ UYĞUN İSTİFADƏSİNƏ VƏ ÖLKƏDƏ DİLÇİLİYİN İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI"NIN HƏYATA KEÇİRİLMƏSİNDƏ AZƏRBAYCAN NAŞİRLƏR VƏ POLİQRAFÇILAR BİRLİYİNİN TÖVSİYƏ VƏ TƏKLİFLƏRİ

Tövsiyələr

Yazılı nitq mədəniyyəti üçün ən mühüm problem ədəbi dil normasıdır. Məlumdur ki, nəşriyyat işi yaxud naşirlik ən müxtəlif sosial-mədəni və ideya-bədii məqsədlərə xidmət edir. Nəşr işinin müxtəlif mərhələsində bədii diapozon bütün incəliyi və genişliyi ilə üzə çıxır; bədii yaradıcılığın ayrı-ayrı sahələrinin "dili" haqqında təsəvvürlər beləcə formalaşır – "yazı texnikası" və "dil" terminləri nəşr işində çarpazlaşır. "Dil" termini bədii əsərdə artıq semiotik işarədən daha çox müxtəlif planlı elementləri ehtiva edir – ədəbi dilin normalarının qorunması tələb olunur, yəni məhz yazılı dil ilə dinamik, dialektik münasibətlər, eləcə də sosiolinqvistik baxımdan işlədilən anlayışlar sistemi formalşır. Həmin anlayışlar sistemi məzmunca mürəkkəb və çoxaspektli olsa da, yenə ədəbi dilimizin spesifik təbiətində müəyyənləşir. Ədəbi dil normaları "düzgün" kimi qavranılan və hamı üçün məcburi olan, dialektlərə və loru danışığa qarşı duran dildir.

Ən mühüm əlaməti onun hamı üçün məcburi olmasıdır. Yəni hər hansı bir ədəbi dildən istifadə edənlər həmin dilin müəyyən edilmiş normalarına əməl etməyə borcludurlar. Xatırladaq ki, ədəbi dil norması tarixi kateqoriyadır, zaman keçdikcə normalarda dəyişiklik əmələ gəlir. Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyinin mühüm xidmətlərindən biri də bu olacaq ki, dilin normativ tələblərini nəzərə alaraq, əməli işində "Azərbaycan dilinin qloballaşdırma şəraitində zamanın tələblərinə, istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı zamanın dil quruculuğuna, cəmiyyətin sosial-estetik tələblərinə uyğunlaşdırsın. Beləliklə, Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyi həm ideoloji-informativ, həm maarifçi, həm də estetik funksiya yerinə yetirən ictimai bir orqan kimi fəaliyyətini genişləndirəcək.

Sözün leksik və qrammatik mənalarının düzgünlüyünə daim riayət olunmalıdır. Qeyd edək ki, leksik məna sözün maddi məzmunudur, sözün kökündə təzahür edir. Qrammatik məna dil vahidləri arasında müxtəlif münasibətlər bildirir, sözün formaları ilə (yəni, şəkilçilər, köməkçi sözlər və s.) vasitəsilə ifadə olunur. Dildə qrammatik məna marfoloji və sintaktik yolla özünü göstərir. Leksik mənalardan fərqli olaraq qrammatik mənaların formalaşmasında sistemdaxili təsir daha güclüdür. Məhz bu təsir nəticəsində qrammatikada bir nizam yaranır, dilin strukturunda sistemlilik meydana çıxır. Məzmun və ifadə formalarına xələl gəldikdə, tə-

bii ki, dilin leksik və qrammatik mənaları pozulur. Bu halda cümlə sintaqmları, yəni dilin məna tərəfi ilə fikrin məntiqi təhrif olunur. İctimai dil praktikasında bu kimi qüsurların aradan qaldırılması üçün Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyində qaynar xətt fəaliyyət göstərə bilər.

Müasir dövrdə elmi-texniki nailiyyətlər, güclü informasiya axını, intensiv təsərrüfat-istehsalat fəaliyyətləri, hərtərəfli beynəlxalq əlaqələr alınma sözlərin, eləcə də hər hansı nomenklaturanın milli sərhədləri aşıb geniş yayılmasını şərtləndirir. Müstəqillik qazanmış respublikamızın da Şərq və Avropa ölkələri ilə ictimai-siyasi, iqtisadi, elmi, mədəni əlaqələrinin genişlənməsi və möhkəmlənməsi şəraitində müxtəlifsistemli dillərlə tarixən təmasda olan Azərbaycan ədəbi dili hazırda dövlət dili kimi zənginləşir və təkmilləşir. Alınma sözlərin əcnəbi söz kimi qavranılmasından tutmuş milli dil quruluşunun bütün səviyyələrinə uyarlığına qədər çox geniş mənimsəmə spektri vardır.

Alınma sözlərin mənimsənilməsi dedikdə, onların dilimizin normalarına tabe olması nəzərdə tutulur. Alınma sözlər dil sisteminin müxtəlif səviyyələrində fonetik, qrafik, orfoqrafik, qrammatik, semantik cəhətdən mənimsənilir. Fonetik mənimsəmədə mənbə dildən leksik vahidin səs obrazının alınması ilə həmin leksik vahidi təşkil edən səslərdə substitusiya baş verir. Qrafik mənimsəmə alınma sözün Azərbaycan əlifbasl ilə qrafik obrazının yaradılmasıdır. Orfoqrafik mənimsəmə alınma sözlərin Azərbaycan dili yazı normalarına görə qanuniləşdirilmiş müxtəlif təzahürləri, onların yazılışının tənzimlənməsidir. Qrammatik mənimsəmə dedikdə alınma sözlərin dilimizin morfoloji kateqoriyalarına uyğunlaşması nəzərdə tutulur. Semantik mənimsəmədə alınma sözlər dilimizin semantik sisteminə daxil olur və izahı verilmədən xüsusi sahədə işlənir, eləcə də müstəqil və dəqiq mənalar qazanır.

Hər hansı alınma sözün qrafik təsviri, bu və ya digər nitq hissəsinin paradiqmasına qoşulması, söz birləşməsinin komponenti yaxud cümlə üzvü kimi çıxış etməsi mümkündür, lakin bütün bunlar alınma sözün alan dilin leksik sistemində öz yerini tutması üçün kifayət deyildir. Belə sözlər təkcə linqvistik normativ dil səviyyəsində yox, həm də sosiolinqvistik aspektdə mənimsənilməlidir.

Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyi göstərilən bu normalara cavab verməyən, ictimai ünsiyyət vasitəsinə çevrilə bilməyən alınma söz və terminlərin işlənməsinə nəzarəti gücləndirməlidir.

Əsrin əvvələrindən başlayaraq 1991-ci ilə qədər milli dilimizdə dil əlaqələri hadisəsi yeganə tarixi substrata – Sovet gerçəkliyinə əsaslanır. Müasir dövrdə isə müxtəlif amillərdən asılı olaraq, xüsusilə, tarixi həqiqətlərə söykənərək, dil əlaqələri prosesinin müxtəlif dərəcələri və intensivliyi ilə rastlaşırıq: 1) Tarixi planda müntəzəmlik və davamlılıq xarakteri, 2) Əlaqədə olan dillərin inkişaf dərəcələri (paleoqrafik, neoqrafik, aqrafik dillər), 3) Struktur yaxınlığı dərəcəsi (genetik, tipoloji), 4) Əlaqədə olan dillərin sosial funksiyası. Mövcud tendensiyalar bazası əsasında yeni qrammatik kateqoriyaların yaranması prosesində dillərarası təsirlərin real nəticələri xüsusi olaraq fərqləndirilmir. Bununla belə, prosesin xarici amil kimi dil təsirlərinin nəticələrinin, dilin inkişafının daxili tendensiyası ilə münasibətini öyrənmək baxımından maraqlıdır. Əlbəttə, xarici amillərin təsiri nəticəsində yeni kateqoriyaların yaranması çox nadir hadisədir, lakin o, dildə mövcud tendensiyaların canlanmasına kömək edə bilər. Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyi dillərarası

əlaqədə praqmatik münasibətlərə, nitq situasiyalarında isə sintaqmatik əlaqələrə həssaslıqla yanaşmalıdır.

Müasir dünyanın ictimayi-siyasi, mədəni həyatına güclü təsir göstərən kütləvi kommunikasiya sistemlərindən biri nəşriyyat və poliqrafiyanın inkişafı Azərbaycan dilinin lügət tərkibinə təsirsiz ötüşmür. Yəni çağdaş elektron-informasiya inqilabı, sürətli texnoloji dəyişmələr naşirlik terminologiyasına da əsaslı yeniliklər gətirir, yüzlərlə elmi-nəzəri, praktik məsələlərə aid yeni söz və ifadə yaranır. Mütəxəssislər bu söz və terminlərin mümkün, uyğun qarşılığını tapmağa və onu təcrübədə işlətməyə çalışırlar. Bu proses nəşriyyat işinin tədrisi zamanı da çox ciddi problemlər yaradır. Məhz bu çətinlikləri, eləcə də naşirlik işinin aktuallığını nəzərə alıb Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu ilə birlikdə "Nəşriyyat və poliqrafiya terminlərinin izahlı lügəti"ni hazırlaya bilər.

Təkliflər

1. Dünya standartlarına uyğun ixtisar lüğətinin tərtibi.
2. Qloballaşma şəraitində alınma söz və termin probleminin dilxarici, dildaxili amilləri.
3. Sosiolinqvistik amillər: ikidillilik, dillərin qarşılıqlı təsiri və interferensiya.
4. Əlyazmalar İnstitutunda milli sərvət olan əlyazmaların daxili elektron kitabxanası və portalının yaradılması.
5. Ali məktəblər üçün dil və təfəkkür, dil və məntiqlə bağlı fənnin hazırlanması.
6. "Azərbaycanşünaslıq" dərsliyinin tədrisi.
7. Nəşr məhsullarının dil mədəniyyətini yüksəltmək üçün redaktorlar qurumunun yaradılması.

Mündəricat

DİLÇİLİK

Севиндж Магеррамова. Термины брачного родства в русских и Азербайджанских пословицах и поговорках 3
Laura Zərbəliyeva. Müasir indoneziyada etnolinqvistik şərait 9
Nuray Əliyeva. Naxçıvan dialektində rus mənşəli varvarizmlər 16
Ф.Г.Салимова. К вопросу изучения сложного синтаксического целого в Азербайджановедении (на материале «Книги моего Деда Коргуда» и «песни о нибелунгах») 20
Фарида Мамедова. Средства выражения модальности действительности недействительности в современном немецком языке. 24
Aynur Məmmədova. İngilis dilində yazı 33
Xanım Məmmədova. Les stereotypes et les prejuges dans le cadre de l'education interculturelle 38
Səminə Abdullayeva. Morfoloji derivasiyada yazılı və şifahi norma fərqləri 43
Mehriban Məmmədova.Müasir türk dillərində "Kitabi – Dədə Qorqud" leksikası ilə səsləşən vahidlər 49
Esmira Quliyeva. Milli dövlətçilik və dil problemləri 55
Lətafət Əliyeva.Söz birləşməsi konteksti və nitq situasiyası 61
Rəsmiyyə Hacıyeva. Müasir Azərbaycan dilində – sa, - sə göstəricili budaq cümlələrin funksional-semantik və üslubi aspektləri 66
Ruxsarə Abbasəliyeva. Azərbaycan dilində emosionallığın və ekspressivliyin ifadə vasitələrinin danışıq dilində və mətndə işlənmə xüsusiyyətləri haqqında .. 72
Lalə Əmirəhmədova. «İn» sözönü tələb edən fellərlə düzələn razeoloji birləşmələr və onların Azərbaycan dilində qarşılığı 78
Hədiyyə Salıyeva. Xarici dillərin ünsiyyət vasitəsi kimi müasir dövrdə rolu 83
Джаваир Мамедова. О роли грамматики при обучении русскому языку 87
Севиндж Самедова. Использование грамматических таблиц на уроках русского языка - один из приемов закрепления знаний 92
Səidə Rüstəmova. Nitqin qavranılmasının psixolinqvistik xüsusiyyətləri 97
Sarella Qaibova,
İradə Manafova. Digər dillərdən alınma prefikslər 104
Г Мюсеибова. Регулярный контроль усвоения языковых знаний и развития речевых умений и навыков 109
Bakitgul Құлжанова. Орта ғасыр ғұламаларының этикалық көзқарастары (жүсіп баласағұн мен ахмед йүгінеки шығармалары бойынша) 114
Муяссар Сапарниязова. Конъюнкция пропозиций 120
Сулейманова Нилуфар Джаббаровна. Синтаксические позиции локативности в структуре предложений в разносистемных языках 125
Темиров Шерали Абдихалилович. Ўзбекистон топонимикасида ҳисор, мўла ва бел таркибли оронимлар ва уларнинг келиб чиқиши ҳақида 130
Азиза Раимжановна Шаймарданова. Выражение эмоциональности в Узбекском языке 136
Хужамкулова Махбуба Бобаназаровна. Отношения пресуппозиции и их особенности в повествовательных предложениях 140
Nargiza Akhmedova. The semantic-syntatic asymmetry in the compound sentences in Uzbek language 145

Мардон Рахматов. Коммуникативные особенности союза *-чун* в староузбекском языке 149
Саидова Дилором Абитджановна.Особенности толкования тюркских слов в словаре "фарханг-э фарси" 154
Səadət Quliyeva. Alman dilində sifətlərin öyrənilməsi yolları 162
Gülsüm Hüseynova. Azərbaycan tatlarının dilində hibrid sözlər 167
Э Гейдарова,
К Алекперова. Методика интерпретации текста на русском языке 174
Məlahət Abdullayeva. Fransız dilində morfologizmlər 179
Nailə Qədimova. İngilis dilinin fonosistemində sonor tipli ağız və burun samitləri və onların Azərbaycan dilindəki sonor samitlərlə fərqli və oxşar xüsusiyyətləri 184
Rübabə Musayeva. Qədim ingilis dilinin lüğət tərkibində baş verən semantik transformasiya və dil əlaqələri 189
Xalidə Zeynalova,
İlahə Quliyeva. Azərbaycan və ingilis dillərində elmi-texniki terminologiyanin bəzi üslubi əlamətləri 194
Leyla Ibrahimova,
Zibahət Nəsirova. Müasir Alman dilində dilin lüğət tərkibinin zənginləşməsi yolları 199
Səidə Zeynalova. Azərbaycan və İngilis dillərinin qarşılıqlı münasibətlərinə dair 204
Sənəm Mehdiyeva. Azərbaycan və İngilis dillərində ixtisasyönümlü sözlərin morfoloji quruluşu 209
Sevinc Babayeva. Leksik sinonimliyin İngilis və Azərbaycan dillərində işlənmə xüsusiyyətləri 214
Yeganə Ələsgərova. Kəmiyyət kateqoriyasının ingilis və Azərbaycan dillərində ifadə üsulları 219
Rəsmiyyə Babayeva. Tarixi inkişaf prosesində İngilis dilinin qədim dil əlaqələri və onun etimoloji durumu 224
Zamirə Məmmədova. Müasir dilçilikdə linqvokulturoloji aspektlər 229
Sevinc Sadıqova.Qərbi Azərbaycanın dərələyəz mahali ərazisində etnonimlərdən, antroponimlərdən, hidronimlərdən, oronimlərdən, zoonimlərdən, fitonimlərdən, oykonimlərdən törənən oronimlər 234
Tsveta Karadzhova. Perception of spa- conjoint analysis 241
Əbilov Qənbər. Azərbaycan və İngilis dilində frazeoloji birləşmələr 246
Xanimbacı İbrahimova. Azərbaycan terminologiyasinin tədqiqi tarixindən 251
Leyla Qocayeva. Çağdaş Azərbaycan mətbuatı və dil problemləri 260
Sevinc Bağirova.Müasir ingiliis dilində ismin cins kateqoriyasinin növləri 266
Xavər Hacıyeva. Qayıdış növ əvəzliklərinin İngilis və Azərbaycan dillərində ifadə üsulları 271
Gaffar Khamahani. Focus on the syntactic features of headlines: the case of Baku today newspaper 276
Könül Fətiyeva.Üzeyir Hacibəylinin komediyalarında ümumxalq danışıq dilində işlədilən frazeoloji birləşmələr 281
Reşid Zahidov. Akide sözlerini ettim ispat… 286
Ruhəngiz Abadova. Şifahi nitqin inkişafında qrammatikanın rolu 296
Dilarə Həmidova.İngilis dili razeologizmində modifikasiya problemi 304
Şəfiqə Əliyeva. İngilis dilində evfemizmlərin Azərbaycan dilində ekvivalentləri 309
Nəsibə Abbasova. Transformasiya hadisəsinin nəzəri-linqvistik aspektləri 314
Salatın Əhmədova. Azərbaycan dilində sinonimliyin genotipologiyası 320

ƏDƏBİYYATŞÜNASLIQ

Севда Кадиева.О лексических проблемах перевода 325
Aytən Abbasova. Cengiz Dağcinin «onlar da insandı» romanlnda türkün yurd itkisinin milli faciə tipində təqdimi 330
Aqil İslamlı. 60-80-ci illər Azərbaycan poeziyasında Nazim Hikmət (Məsələnin qoyuluşuna dair) 338
Nilufər Məmmədzadə. Herman Hessenin "Muncuq oyunu" romanında Yozef Knext və Plinio Deziqnori dünyagörüşünün ziddiyyətləri 343
Lamiyə Rəhimova. Nəfi Həcv Şairi kimi 348
Sakibə Ələsgərova. Xalq şairi Balaş Azəroğlu və "21 Azər hərəkatı" 354
Şərəf Cəlilli. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz (ümumtürk kontekstində) 360
А.Ф.Гахраманова. Английская литература как зеркало английского менталитета 366
Səba Namazova. Sabir və Gəncə şairləri 378
Aygün Rüstəmova. Türkiyə Milli Azadlıq mübarizəsi nəsrində ziyalı – xalq problemi 388
Muhammedova Hulkar Eliboevna. Charlz Dikkens asarlarıda ayollar obrazını tasniflashtirish 395
Хуррамова Зебо. Рубоийларда давр ва ижтимоий ҳаёт талқини 403
Qönçə Ağayeva. Müasir Azərbaycan mətbuati və onun inkişafında transformasiya prosesinin rolu 409
Xatirə Yusibova. Uşağın inkişaf və tərbiyəsində uşaq ədəbiyyatının rolu 416
Xatirə Xəlilova. Kiçik hekayələrin böyük ustadı 421
И.Кязимова.Бунтарский патриотизм А.Н.Радищева и декабристов 426
Yədulla Dadaşlı,
Günel Orucova. Orta məktəbdə M.Ə.Sabirin "Amalımız, əfkarimiz ifnayi -vətəndir" satirasinin öyrədilməsi 431
Samirə Kərimova. Azərbaycan elmi nəşrlərinin beynəlxalq məlumat bazalarında rolu 439
Kəmalə İsmayılova. Folklorumuzda Şah İsmayilla bağlı nağıl 444
Şəlalə Quliyeva. Qloballaşan cəmiyyətdə radiojurnalistikanın rolu 452
Dəyanət Cümənov. Professor Mirəli Seyidovun tədqiqatlarinda etnotoponimlərin linqvoetimoloji təhlilinin Azərbaycanşünaslığın ədəbi-nəzəri problemlərinə yönəldilməsi 457
Tahirə Əliyeva. Piri rəisin "Kitabi - bəhriyyə"si və xəritələri 465
Aygün Əliyeva. "İzdiham" romaninda psixoloji əksetdirmə üsulları 470
Solmaz Həyatova. "Şəlalə" jurnalında şeir 475

TÖVSİYƏ VƏ TƏKLİFLƏR

Nadir Məmmədli. "Azərbaycan dilinin qloballaşdırma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı"nın həyata keçirilməsində Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyinin tövsiyə və təklifləri 481

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **2.05.2013.**
Çapa imzalanmış **26.06.2013.**
Şərti çap vərəqi 28/ Sifariş **№ 275.**
Kağız formatı **70x100 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.